# I HİSSƏ. GERMAN MÜDAXİLƏLƏRİ VƏ YENİ DÖVLƏTLƏR. GERMAN İŞĞALLARI

## FƏSİL 1
## GERMANLAR VƏ DİGƏR BARBARLARIN ROMALILARLA MÜQAYİSƏSİ

İndi biz orta əsrlərin tarixinə keçirik. Bu tarix adətən Qərbi Roma imperiyasının dağılması ilə, adətən Amerikanın kəşf edilməsi və reformatsiya ilə başlayır. Lakin tarixi bu qaydada bölmək, sağ olan qaydadakı bədəni kəsməyə bənzəyir. Qədim dünyanı orta əsrlərdən bir illə ayırmaq mümkün deyildir. Bir həyatdan digərinə keçid tədricən baş verir, yavaş-yavaş gedir və tarixin ayrıca ibrətamiz epoxalarını təşkil edir. Qədim dünya Şərqin gücdən düşmüş, hərəkət etməyən icmaları ilə, bəşər nəsli inkişafının tam başa çatmış dövrünü təcəssüm edir. Onun xarabalıqlarından biz cəmiyyətin ibtidai formalarını seyr etmək imkanı qazanırıq. Yunanıstan və Roma bəşəriyyətin gənc, kamil və qocalan mənzərəsini göz önünə gətirir. Yunan-Roma klassik dünyası onun həyatının əsasında duran müəyyən sayda ideyalara malik idi. Bu ideyalar yarandı, məlum formalarda həyata keçdi və nəhayət, bu formalar dağıldı. Biz bu həyatın meydana gəlməsinin ilk başlanğıcından axırıncı həddinə qədər, başqa sözlə b.e. 5-ci əsrinin sonuna qədər bu əsaslar bütünlüklə aşınmağa başladıqda müşahidə edə bildik.

Lakin orta əsrlər tarixini yenidən ayırmaq daha çətindir. 15-ci əsrin sonu və 16-cı əsrin əvvəli orta əsrlər qaydasını yenidən ayırır, lakin bu 5-ci əsrdə olduğu kimi kəskin ayrılma deyildir. Orta əsrlər Avropası feodal-katolik dövrünü əhatə edirdi. Bu dövrü öyrənərkən təkcə siyasi tarix önə çəkilib, ədəbiyyat və elm unudulsa, bu epoxanın həyatının anatomik cəhətdən öyrənilməsinə bənzəyəcək və onun mənəvi, ruhi hissəsinin unudulmasını nümayiş etdirəcəkdir. Biz tarixin həqiqi dərk edilməsinə nail olmaq üçün varlığın məqsədini müəyyən etməliyik. Çünki tarix canlı, əlaqəli və üzvi olan bir şeydir. Tarixi öyrənəndə fikrin və hissin böyük sadəliyi ilə hərəkət etmək lazımdır. Tarix həm mürəkkəb, həm də sadə elmdir. Mürəkkəbdir ona görə ki, öz tərkibinə digər bütün elmləri də qəbul edir, çünki çoxtərəfli baxış tələb olunur, sadədir ona görə ki, sadə baxışı, qərəzsizliyi, saxta təsvirlərin olmamasını tələb edir. Hər dövrə onun nöqteyi-nəzərindən baxmaq lazımdır. Bu keçmiş zamanın tarixinin açarıdır. Tarixdə fəaliyyət göstərən insan olduğundan onun heç şübhəsiz, həm ləyaqətləri, həm də nöqsanları vardır. Biz keçmişi bilmədən heç hazırkı dövrü də anlaya bilmərik.

Hadisələrlə dolu və dövlətlərin taleyi üçün tufanlı olan 5-ci əsr başa çatanda,

daha dəqiq deyilsə 476-cı ildə Qərbi Roma imperiyası barbarların dağıdıcı zərbələri altında davam gətirə bilməyib süqut etdi. Qərbdə german işğallarının effekti heç də kataklizm xarakteri daşımırdı. Çünki germanlarla romalılar arasında ən böyük fərq ondan ibarət idi ki, birincilər şəhərdə yaşamırdılar, lakin həmin vaxtdan qərbdəki roman şəhərləri də artıq tənəzzül vəziyyətinə düşmüşdü, müdaxilələr isə daha çox şəhərlərin süqutu prosesini sürətləndirdi. Roman kənd təsərrüfatı modellərinə toxunmadan almanlar torpaqlarda roman torpaq sahiblərini əvəz etdilər. Lakin germanlar çox sayda olmadıqlarından onlar adətən roman torpağının bir parçasından artığını tutmağa qadir deyildilər. Germanlar həm də roman inzibati sistemindən istifadə etməyə çalışdılar, lakin bu cəhdlər də tədricən kiçilməyə meyl etdi, çünki bu da sərvətin azalmasından və savadlılıqdan asılı idi. Yeganə böyük german yeniliyi ondan ibarət oldu ki, Qərbdəki birləşmiş imperiyanın yerində parçalanmış tayfa çarlıqları yaratdı.

Antik tarixin başa çatması ilə orta əsrlər tarixi başlandı və bu dövr on-on iki əsrlik bir məsafəni əhatə etdi. Renessansın başlanması ilə həm də yeni dövrün başlanğıcı əlamətləndi. Bəzi tarixçilər orta əsrlərin 1650-ci ilə qədər davam etdiyini, digərləri isə 1500-cü ilə qədər olan dövrü əhatə etdiyini israr edirlər. Lakin orta əsrlərin başlanğıcı barədə də elə bir elmi fərq yoxdur, bəziləri bunu Qərbi Roma imperiyasının süqutu, digərləri isə bu tarixi hadisəni yekunlaşdıran 500-cü ili əsas götürürlər.

İmperiyaların dağılması daim ciddi dəyişikliklərin meydana gəlməsinə, xəritədə çox sayda xırda dövlətlərin yaranmasına səbəb olur. Bunu Böyük Aleksandrın imperiyasının taleyi göstərdi və eləcə də Roma imperiyasının dağılmasında da heç bir müstəsna hal qeyd olunmadı. 500-cü illər ətrafında Qərbi Avropanın xəritəsində böyük siyasi parçalanmalar baş verdi. German tayfaları olan anqlosaksonlar 5-ci əsrin ortalarında La-Manş boğazını keçib Britaniya adasında öz hökmranlıqlarını genişləndirdilər. Qalliyanın şimal hissəsində, Paris ətrafında və Reyndən şərqdə frankların böyümüş krallığı isə bacarıqlı döyüşçü Klovis (Klodovey) tərəfindən idarə olunurdu. Franklardan cənubda vestqotlar (visiqotlar) dayanmışdı, onlar Qalliyanın cənubdakı yarısını və İspaniyanın çox hissəsini idarə edirdilər. Onlardan cənubda vandallar idi, onlar Afrikanın bütün əvvəlki roman şimali-qərbini idarə edirdilər. Bütöv İtaliya ostqotların əlində idi, onlar vestqotların şərq qohumu olub, kral Teodorixin başçılığı altında hökmranlıq edirdilər. Bu krallıqlardan Frank dövləti gələcək üçün daha çox ümid verirdi və həmin dövrdə onlar ostqotlardan möhkəm görünürdülər.

493-cü ildən 526-cı ilə qədər İtaliyanı idarə edən ostqot hökmdarı Teodorix roman sivilizasiyasının böyük pərəstişkarı idi. O, kənd təsərrüfatını və kommersiyanı inkişaf etdirdi, maarifə himayədarlıq etdi və dözümlülük siyasətini apardı. O, İtaliyaya daha maariflənmiş idarəçilik verdi, belə idarəçilik heç ölkənin erkən imperatorlarının dövründə də olmamışdı. O vaxt Teodorix və onun az

sayda ətrafı arian sektasına mənsub olan xristianlar idilər. Yerli yepiskoplar və əhali özü isə xristian olduğundan onun hökmranlığı nə qədər dözümlü və mərhəmətli olsa da, onlara müəyyən düşmənçiliklə yanaşırdılar. Konstantinopoldakı roman hökmdarları da Teodorixə həmçinin arian olduğuna görə düşməncəsinə yanaşırdılar. Digər tərəfdən onların özləri İtaliyanı yenidən işğal etmək ümidlərindən əl çəkmirdilər. Belə bir şəraitdə Teodorixin Ostqot krallığı onun özünün ölümündən sonra çox yaşaya bilmədi. Ümumiyyətlə franklar istisna olmaqla, qitənin barbar krallıqlarından heç biri uzun ömür sürmədi.

Roma imperiyasının yarım min il davam edən mövcudluğu ərzində onun meydana gəlməsinin ilk günlərindən, qədim cəmiyyətin özü ilə yanaşı və onun bətnində iki sivilizasiyanın rüşeymləri mövcud idi və onlar tam müstəqil idilər. Onların nümayəndələri xristian icması və german drujinası idi və aralarındakı münasibətlər Roma imperiyasının siyasi və sosial varlığının şərtləri ilə kəskin ziddiyyət təşkil edirdi. 4-cü yüzillikdə imperiya özünü məğlub hiss edəndə iki düşməni ilə yaxınlaşmağa başladı ki, öz sonrakı mövcudluğu üçün onlardan kömək alsın. 312-ci ildə imperator Böyük Konstantin xristianlığı imperiyanın dövlət dini elan edəndə, elə həmin əsrdə imperiya german drujinası ilə daha sıx toqquşmaya girməli oldu. 376-cı ildə Asiya mənşəli hunlar germanları Reynin və Dunayın arxa tərəfinə sıxışdıranda, bu çaylar isə o vaxtadək germanları Roma imperiyasından ayırırdı, Roma hökuməti imperiyanın sərhədlərində, hətta daxilində german drujinalarını yerləşdirdi, onların başçılarına rütbələr verdi və onları öz inzibatçılığının üzvləri etdi. Bunun nəticəsində qədim dünyanın iki köhnə düşməni 5-ci əsrdə artıq yavaş-yavaş imperiyanın özünün bətnində möhkəmləndi. Onlar bir tərəfdən imperiyanın dağılan formalarını təzələdilər, digər tərəfdən isə özləri onun faydalı təsirini öz üzərlərində hiss etməli oldular. Xristian icmasının təmsilçisi olan yepiskop və german drujinasının təmsilçisi olan onun hersoqu və ya kralı Roma inzibatçılığına yeni, asılı olmamaq və müstəqillik kimi anlayışları gətirdilər. Həm də imperiyanın məmurlarına çevrilməklə bərabərlər arasında birinci olmağı itirdiklərindən özlərinə əvvəlkindən daha böyük hakimiyyət tələb etdilər. 5-ci əsrdə ilk dəfə öz tam tarixi mövcudluğuna başlayan yeni dünyanın iki başlıca rüşeyminin ümumi xarakteri məhz belə idi. Bu yeni dünya nəinki rəsmi cəhətdən tanındı, həm də qədim, dağılmış quruluş üzərində üstünlük qazana bildi.

İlk dövrlərdə Roma imperiyasına təhlükə törədən barbarlar elə german xalqları idi, onlar müxtəlif ad altında gəlirdilər. Anql və saksonlar Britaniyaya 450-ci illər ətrafında axışıb gəlmişdilər, elə bu dövrdə franklar da Qalliyaya müdaxilə etmişdilər, vandallar 429-cu ildə Roman Afrikasına gəlib çıxmışdılar, ostqotlar 382-ci ildə Kiçik Asiyada, 493-cü ilsə isə İtaliyada görünmüşdülər. Vestqotlar 380-ci ilə yaxın Konstantinopola tərəf hücum etmişdilər, 396-cı ildə Yunanıstanı dağıtmışdılar, 410-cu ildə Romanın özünü qarət etmişdilər və 420-ci

ildə İspaniyaya gəlib çatmışdılar. Bir sıra hallarda Asiyadan olan yeni türk xalqlarındakı ümumi dəyişiklik qarışıq xarakterli idi. Onlardan daha məşhurları hunlar idi, Attilanın başçılığı altında onlar Mərkəzi Avropanı və Fransanı yarı bölüb sonradan yoxa çıxdılar. İki əsr sonra buna bənzər hadisə yunan-Roma dünyasında baş verdi, əks tərəfdən Ərəbistan səhralarında yaşayan xalqlar buraya axışıb doluşmağa başladılar. İslam dini ilə ilhamlanan ərəblər Suriyanı, Mesopotamiyanı, Persiyanı tutdular, 640-cı ildə Misiri, 700-cü ildə köhnə Roman Afrikasını işğal etdilər, 711-ci ildə İspaniyaya çatdılar, burada onlar vestqotlar tərəfindən təsis edilmiş german çarlığını dağıtdılar.

Bu zərbələrin nəticəsində köhnə yunan-roman birliyi və ya Aralıq dənizi dünyası dağıldı. "Yer dairəsi" üç hissəyə bölündü. Sivilizasiyanın üç növü bu vaxt bir-birinə əks çıxırdı. Bunlardan biri Şərqi Roman, Sonrakı Roman, Yunan və ya Bizans imperiyası idi. Onun paytaxtı Konstantinopol olmaqla, yalnız Kiçik Asiyanı, Balkan yarımadasını və İtaliyanın bir hissəsini özündə birləşdirirdi. Bu imperiyanın dini xristian dini, mədəniyyəti və dili isə yunan mədəniyyəti və dili idi. Bütün xristianlara və Avropadakı bütpərəst barbarlara görə Şərqin imperatoru özünü dünyanın ali hökmdarı kimi aparırdı, Konstantinopol isə elə bil ki, dünyanın ən görkəmli və demək olar ki, ən varlı şəhəri idi.

İkinci seqment və daha geniş yayılan ərəblərə və müsəlmanlara məxsus idi. Bu ərazi Pireney dağları ilə qonşuluqdakı İspaniyadan keçərək bütün Şimali Afrikanı, Ərəbistanı və Suriyanı əhatə edirdi və daha şərqə gedib çıxmışdı. İslam monqollara 900-cü illər ərəfəsində, Hindistana 1000-ci illər ərəfəsində, İndoneziyaya isə 1400-cü illərdə gəlib çatmışdı. Bu din Şərqi Afrika sahili boyu zənci dünyasına və Yuxarı Sudana 11-ci əsrdə daxil olmuşdu. Onun dili ərəb dili idi və bu dil ümumi danışıq dili kimi bizim dövrümüzdə də Əlcəzairdən Fars körfəzinə qədər istifadə olunur. Onun dini isə islam dini idi. Bu xilafət kimi təşkil olunmaqla bütün müsəlmanları əhatə edirdi, xəlifə isə Məhəmmədin özünün əsl dini və hərbçi varisi hesab olunurdu. Ərəb dünyası da Bizans kimi birbaşa yunan-roman irsi üzərində qurulmuşdu. Dində isə ilkin müsəlmanlar özlərini yəhudi və xristian ənənələrinin varisləri hesab edirdilər, lakin onu da əlavə edirdilər ki, Məhəmməd peyğəmbərlərin axırıncısı və ən böyüyüdür. Müsəlman ərəblərə görə bütün xristianlar heç bir fərq qoyulmadan dinsiz idilər.

Üçüncü seqment 700-cü illər ətrafında o qədər də ümid verən kimi görünmürdü. Bu iki əvvəlki seqmentin tərk etdiyi ərazi idi, bizanslılar onu əldə saxlamağa, ərəblər isə onu işğal etməyə qadir deyildilər. Bura yalnız İtaliya (ölkənin bir hissəsi Bizansa məxsus idi), Fransa, Belçika, Reynland və Britaniya daxil idi. Barbar çarlar özlərinin kiçik çarlıqlarını idarə edirdilər, əslində isə bütün idarəetmə kiçik hissələrə parçalanmışdı. Qərb barbarları germanlar idi. Kiçik istisnalarla germanlar Qərbə yayılan vaxt savadsız və bütpərəst idilər. Onların

dilləri yazı dili deyildi, lakin onlar dolaşıq folklora və fövqəltəbii dinə malik idilər, bu dünyabaxışlarda vuruşan və qəhrəmanlıq göstərən döyüşçüyə daha çox hörmət edilirdi. Bu tayfaların çoxu azad adamlardan ibarət olmaqla qeyri-kamil olan demokratik qaydada idarə olunurdu. Onlar dövlət düşüncəsinə malik deyildilər. Onlar hər bir tayfanın sarsılmaz adətini qanun kimi qiymətləndirirdilər. Mücərrəd mühakimə və təlim görmüş hakimlər yox idi.

Germanlar romalılara kimvrlərlə və tevtonlarla döyüşdən tanış idi. Sonra Sezarın Qalliyadakı işğal müharibələri bu tayfaları daha yaxından müşahidə etməyə imkan verdi. Roma tarixçiləri qədim germanların siyasi və ictimai həyatını dərindən öyrənməyə başladılar. Bu təhlil germanlara öz potensialını gələcəkdə bütünlüklə üzə çıxara biləcək bir xalq kimi baxmaq hissləri oyatmaya bilməzdi.

Germanlar öz krallarını yüksək zümrənin arasından, başçılarını isə igidliklərlə fərqlənənlərdən seçirdilər. Kralın hakimiyyəti hüdudsuz olmamaqla yanaşı, özbaşınalıqdan uzaq idi. Başçının hakimiyyəti isə ona olan şəxsi hörmətə əsaslanırdı. İgidliyə sövq edən əsas cəhət o idi ki, onlarda eskadron və rotalar təsadüfi yığılmış adamlardan deyil, ailə və qohumluq dərəcəsinə görə təşkil olunurdu. Döyüşçünün yanında ona ən əziz olanlar olurdu və öz yerindən o, arvadının hıçqırtısını, öz uşaqlarının ağlamasını eşidə bilirdi. Qadınlar hətta geri çəkilən və sarsılan döyüşçüləri yenidən cuşə gətirə bilirdi. German üçün ən dəhşətli olanı əyan ailələrindən olan qızların düşmən tərəfindən girov kimi tələb edilməsi idi. Germanlar qadınları müqəddəslik və peyğəmbərlik xüsusiyyəti olan varlıq kimi görməklə, onların məsləhətlərini diqqətsiz buraxmırdılar.

Germanlar vaxtı günlərlə deyil, gecələrlə hesablayırdılar. Gecəni onlar hansısa vəd vermək, sövdələşmələr vaxtı sayırdılar və güman edirdilər ki, günü gecə öz arxasınca aparır. Yığıncaqlarda onlar silahlı iştirak edirdilər, lakin eyni vaxta yığışmadıqlarından toplantıya iki-üç gün vaxt sərf edilirdi. Bu yığıncaqlarda şikayətlər dinlənir, oradaca cinayət işlərinə baxılırdı. Xainləri və fərariləri ağacdan asırdılar, tənbəlləri, qorxaqları, pozğun adamları bataqlıqda batırırdılar. Bununla göstərmək istəyirdilər ki, bəd əməllər açılıb göstərilməli, alçaq zəifliklər isə gizlədilməlidir. Yüngül xətalara görə cəzalar at və iri buynuzlu mal-qaranın müəyyən sayda cərimələnməsində ifadə olunurdu. Cərimənin bir hissəsi kralın və ya icmanın nəfinə gedir, digər hissəsi isə iddiaçının və ya onun qohumlarının nəfinə sərf olunurdu. Bu yığıncaqlarda mahallarda və kəndlərdə mühakimə aparan knyazlar seçilirdi. Kütləvi və özəl olmasından asılı olmayaraq hər bir iş əldə silahla baxılırdı, bu qayda icma onu silah gəzdirməyə layiq bilmədiyi vaxta qədər davam edirdi.

Döyüş gedən vaxt kim igidlikdə knyazı ötüb keçsə, bu onun biabırçılığı sayılır, drujina knyaza bərabər olmadıqda isə özü biabır olurdu. Knyazın həlak olduğu döyüşdən kim salamat qayıtsa bütün ömrü boyu bu ona ar hesab olunurdu. Knyazı müdafiə etmək və qorumaq döyüşçünün şərəf işi hesab edilirdi. Knyaz-

lar qələbə uğrunda, drujina üzvləri isə knyazın uğrunda vuruşurdu. Knyazın bol yeməklər olan sadə süfrəsi drujina üçün maaş rolunu oynayır, müharibə və soyğunçuluq knyazın əliaçıqlıq vasitəsinə çevrilirdi. Onları düşmənlə vuruşub yaralanmaqdansa, torpağı becərməyə inandırmaq o qədər də asan iş deyildi. Qanla əldə edilə bilən hansısa şeyi qan axıtmadan yığmaq onlara tənbəllik və hərəkətsizlik kimi görünürdü. Müharibədən azad olan vaxtlarını isə müəyyən qədər ovda, əsasən isə bekarçılıqda, yemək yeməkdə və yuxuda keçirirdilər. Təbiətin qəribə ziddiyyəti vardır: tənbəlliyi sevən həmin adamlar eyni zamanda sakitliyə nifrət edirdilər. Onlar qonşu xalqların hədiyyələrini çox sevirdilər, hədiyyə kimi seçmə atları, iri ölçülü silahları, yüyən və qiymətli bəzək şeylərini qəbul edirdilər. Romalılar onlara həm də pul almağı öyrətmişdilər. Germanlar şəhərlərdə yaşamağı heç sevmirdilər, onlar dağınıq şəkildə yaşayırdılar, bulaq başında, hansısa çöldə və ya meşəcikdə. Onlar vəhşi heyvanların dərisindən paltar geyinirdilər. Qadınlar da kişilər kimi geyinir, paltarın yuxarı hissəsi qolsuz olur, çiyinlər və sinənin ona yaxın olan hissəsi açıq qalırdı.

Germanlarda nikah çox ciddi idi və bu məsələdə onların qaydaları tərifə layiq imiş. Barbarlardan olan yeganə xalqdır ki, bir arvadla kifayətlənirmiş. Cehizi arvad kişiə deyil, kişi arvada gətirirdi. German qadınları pozulmamaq mühiti ilə əhatə olunmaqla, vəcdə gətirən tamaşalardan və ehtirasları qızışdıran ziyafətlərdən məhrum idilər. Bu çoxsaylı xalqda zinakarlıq hadisələrinə nadir hallarda rast gəlinirdi, belə bir günaha görə isə ər özü ləngimədən arvadını cəzalandırırdı. Günahkar qadının saçları qırxılır, qohumlarının iştirakı ilə çılpaq şəkildə ərin evindən qovulur və qamçı zərbələri altında bütün kənd boyu dolaşmalı olurdu. Utancaqlıq qanunlarını pozan qadına aman barədə düşünmək əbəs idi. Nə gözəllik, nə cavanlıq, nə var-dövlət ona ər tapa bilməyəcəkdir. Germanlarda heç kəs qüsurla zarafat etmir, şirniklənmək və ya şirnikləndirilmək dünyəvi qaydada yaşamaq adlanmır. Qadın bir bədənə malik olduğu kimi bir ərə malik olmalıdır. Uşaqların sayını məhdudlaşdırmaq və ya balacalardan hansınısa öldürmək onlarda cinayət hesab olunurdu. Almaniyada yaxşı qaydalar inkişaf etmiş xalqlarda olan yaxşı qanunlardan daha böyük qüvvəyə malik idi. Çox qohumu olmaq halında qocalıq daha rahat keçirdi. Övladsızlığın heç bir qiyməti yox idi.

Germanlar qüsurlardan da xali deyildilər. Onlarda bütün günü və gecəni içmək utanılmalı bir cəhət sayılmırdı. Bütün sərxoş adamlar arasında olduğu kimi germanlar arasında da mübahisə tez-tez düşür, lakin çox az hallarda dalaşma ilə, ölüm və xətər toxundurma ilə nəticələnirdi. Barışmaq, ittifaqlara girmək, knyazların seçilməsi, sülh, müharibə məsələləri də keyf məclisində həll edilirdi. Bu xalq heç bir hiylə və məkrsiz öz ürəyinin sirrlərini belə sərbəst qonaqlıqlarda açırdı. Romalılar bu qənaətə gəlmişdilər ki, əgər onların sərxoşluğuna şərait yaradılsa, onlara istədikləri qədər içməyə imkan verilsə, özlərinin bu qüsurları ilə

onlara silahın gücü ilə olduğundan daha asan qalib gəlmək olardı. Onlar bədbəxtlik anında möhkəm olur və bunu vicdanlılıq, namusluluq adlandırırdılar. Onlar qullarını nadir hallarda döyür, qandala salır və zəhmətlə taqətdən salırdılar. Onlar qulu qəddarlıqdan və cəzalandırmaq naminə deyil, yalnız qəzəblənəndə öz düşmənini öldürən kimi öldürürdülər və bu vaxt qatil özü də cəzasız qalmırdı.

Pulu borc vermək və faiz almaq hesabına onu artırmaq onlara məlum deyildi, bu da onları sələmçiliyin qadağa qanunlarından da daha yaxşı qoruyurdu. Tarlalar müəyyən iş qüvvəsinə müvafiq olan ölçüdə olmaqla müəyyən müddətə ümumi istifadə üçün ayrılırdı. Sonra isə bu torpaqları öz aralarında, şəxslərin ləyaqətlərini nəzərə almaqla bölürdülər. Onların tarlalarının geniş sahəsi olması belə bölgünü asanlaşdırırdı. Onlar hər il öz tarlalarını dəyişirdi, onlarda həmişə artıq yer qalırdı. Nə meyvə bağı salır, nə bu sahələri çəpərə alır, nə də suvarırdılar. Torpaqdan yalnız taxıl vermək tələb olunurdu. Onlar ili də başqa sivilizasiyalı xalqlar kimi dörd mövsümə bölmürdülər. Onlar yalnız qışı, yazı, yayı tanıyır və onları adlandırırdılar, payızın isə nə adını bilmir, nə də meyvələrini tanımırdılar.

Onlarda dəbdəbəli dəfn mərasimləri olmurdu, bircə qaydaya əməl edirdilər ki, görkəmli adamların cəsədi məlum ağacın odunundan istifadə edilən tonqalda yandırılırdı. Tonqala yalnız məhrumun silahı atılır, bəzən atı da onunla birlikdə yandırılırdı. Qəbir rolunu uca kurqan oynayırdı. Onlar iri və qiymətli abidələr qoymağı sevmirdilər, güman edirdilər ki, belə abidələr ölən adamı əzir. Onlar tezliklə ağlamağı və ağı deməyi kəsir, ancaq uzun müddət öz qəm və kədərlərini saxlayırdılar. Yalnız qadınlar ölənə yaxşı yas tuturdular, kişilərə isə mərhumu xatırlamağa icazə verilirdi.

Germanlarla birlikdə tarix səhnəsinə atılan digər xalqların da həyat tərzi və qaydaları barədə təsəvvürə malik olmaq üçün qısaca olaraq onları da yada salmaq olar.

Alanlar əkinçiliklə məşğul olmurdular, onlar heyvanların südü və əti ilə qidalanırdılar, özlərinin arabalarında bir çöldən digərinə keçirdilər. Onların heyvanları otlaqdakı bütün otları yeyib qurtardıqda, onlar öz müxəllifatlarını arabalara yığıb başqa yerdə məskən salmağa yollanırdılar. Dayandıqları yer onların vətəninə çevrilirdi. Alanlar uca boylu və qəşəng görkəmə malik idilər. Onlara quldarlıq məlum deyildi, təbiətin qoynunda böyüyən bu adamlar azadlığın uşaqları idilər.

Qotlar da alanlar kimi Skandinaviya mənşəli olmaqla, onlara bənzərlikləri var idi. Lakin onlar slavyanların qaydalarını az götürmüşdülər və sivilizasiyanı qəbul etməyə daha çox meyl edirdilər. Onların qocalarının yaş buzu, əslində onun altındakı cavanlıq alovunu gizlədirdi. Qotlar arıq bədənlərinə dəri paltar geyinirdilər. Bu paltar dizdən azacıq aşağı düşürdü. At dərisindən tikilmiş ayaqqabı geyinir, onu ayağın ortasından sadə bağla bağlayırdılar, ayağın çox

hissəsi açıq qalırdı.

Saratsinlər (ərəblər) alanlar kimi köçəri, nomad xalq idi. Onlar öz dəvələrinin belində oturub ucsuz-bucaqsız səhralarda dolaşırdılar. Onların bütün həyatı daim davam edən qaçış idi.

Hunlar daha heybətli idilər. Bu yoğun boyunlu atlıların yanaqları çapıq-çapıq olurdu, üzləri saqqalsız idi. Onlar qışqıra-qışqıra danışırdılar, vəhşi bədən hərəkətləri edirdilər. Romalılar onların barəsində, bu adamları ağlasığmaz eybəcərlik rəmzi kimi xarakterizə edən uydurmalar düzəldib danışırdılar. Bu xalqın mənşəyinə aid dəhşətə səbəb olan sözlər söylənirdi, guya onlar sehrkar qadının törəmələridir və bu qadın səhrada şeytanla nikaha daxil olmuşdur. Buna təəccüblənmək də lazım gəlmir. Romalılar onlara qalib gələnləri çox vaxt insanlıqdan uzaq olan keyfiyyətlərlə mükafatlandırırdılar. M.ə. 3-cü əsrin sonunda Hannibal İtaliyaya yürüş edib romalılara dəhşətli qorxu sövq edəndə, məhz Hannibalın öz əsgərlərinə insan əti yedirtdirməsi versiyasını ortaya atmışdılar. Attilanın Roma üçün böyük təhlükəyə çevrilməsi hunlar barədə nifrət oyadan əhvalatların, yağışdan sonrakı göbələk kimi çoxalmasına səbəb oldu.

Hunlar yemək hazırlayanda oddan istifadə etmirdilər. Onlar yabanı otlarla, yarı çiy və qurudulmuş ətlə qidalanırdılar. Onlar əti atın beli ilə yəhərin arasına qoyub onu yumşaldırdılar. Onlar rənglənmiş kətandan və çöl siçovullarının dərisindən paltar geyinirdilər, onu boyunlarına bağlayır, yalnız köhnəlib cırılanda çıxarırdılar. Başlarına xəz papaq qoyur, ayaqlarını keçi dərisi ilə sarıyırdılar. Elə güman etmək olardı ki, onlar atın belinə mıxlanmışlar, onlar alçaq boylu olsalar da, yorulmaq bilmirdilər. Çox vaxt onlar at belində yanakı otururdular, bu qaydada iş barədə söhbət aparır, fikir mübadiləsi edir, nəsə satır, nəsə alır, su içir, yeyir və atın dar boynu üstündə yatırdılar. Onların müəyyən yaşayış yeri yox idi, nə evləri, nə qanunları, nə də ev adətləri var idi. Hunlar onlara yaşayış yeri kimi xidmət edən arabalarında dolaşırdılar. Bu səyyar komalarda arvadları onlara paltar tikirdilər, uşaq doğub, onları yeniyetmə yaşına qədər döşləri ilə əmizdirirdilər. Bu tayfalar arasında heç kəs deyə bilməzdi ki, o, harada doğulmuşdur, çünki o, doğulduğu yerdən çox-çox uzaqda anasının boynuna düşmüş olurdu, daha uzaqda isə tərbiyə olunurdu. Belə səyyar arabalarda keçən həyat tərzi o vaxtlar mövcud olan çox sayda xalqlara, o cümlədən xüsusən franklara məxsus idi.

Bütün barbarlara xas olan adət bundan ibarət idi ki, onlar evdə hazırlanmış pivə olan braqanı, suyu, südü və şərabı düşmənin kəlləsindən düzəldilmiş qabda içirdilər. Məğlubiyyət anında onlar qəzəblərini özlərinə qarşı çevirirdilər. Marinin əzdiyi kimvrlərin birinci müdaxiləsində döyüş meydanında bir-birinə sarınmış döyüşçülər tapılmışdı. Onlar döyüş səhnəsindən qaçmağı qeyri-mümkün etmək və labüd olaraq həlak olmaq məqsədini güdürdülər. Onların arvadları qılınclarla və nizələrlə silahlanırdılar, ulayaraq quduzluq-

dan və ümidsizlikdən dişlərini qıcayaraq, qorxaqlıqlarına görə kimvrlərə, düşmən kimi isə romalılara zərbələr endirirdilər. Onlar yalın əllə Roma döyüşçülərinin iti qılınclarını tutub saxlayır və onları özlərini öldürməyə məcbur edirdilər. Qana bulanmış şəkildə onlar arabalara çıxırdılar ki, öz ərlərini, qardaşlarını, atalarını, oğullarını döysünlər, yeni doğulmuş uşaqları boğub öldürsünlər, atların ayaqları altına atsınlar, axırda isə özlərini xəncərlə öldürsünlər. Bu qadınlardan biri özünü arabanın dişləsindən asmışdı, əvvəlcədən iki oğlunu boğazından ayaqlarına sarımışdı.

Məğlub olan kimvr özünü edam etmək üçün ağac olmadığından, öz boğazına kəndir ilgəyini keçirdib kəndirin bir ucunu öküzün ayağına, ya buynuzuna bağlayırdı. Beləliklə özünü xüsusi növ kotana çevirən bu adam heyvanı çubuqla qovub boğulub ölürdü. Belə qəddar qaydalar 5-ci əsrdə yaşayan barbarlarda da müşahidə olunurdu. Təbəssümlə ölmək qəhrəmanlıq hesab olunurdu. Germanların dilində belə fanatiklər üçün ölümün ayrıca adı var idi.

Barbarların həm də musiqi və şerə xüsusi marağı var idi. Attilanın kral ziyafətində iki müğənni qədim qəhrəmanların igidliklərini tərənnüm edirdilər. Hunlar heç bir dinə malik deyildilər, onlar qəzavü-qədərə inanırdılar. Kelt mənşəli olan alanlar torpağa basdırılmış yalın qılınca sitayiş edirdilər. Qallar öz dəhşətli gecə atası olan Disə ibadət edirdilər, ona qurban kimi qocaları xəncərlə öldürürdülər. Germanlar meşələrin təlqin etdiyi sehrli dəhşəti çox sevirdilər. Bu xalqların dinləri sadə olduğu halda, skandinavların dinləri çox mürəkkəb idi.

Barbarların qanunları şəxsiyyəti və mülkiyyəti müdafiə edən cinayət cəzaları ilə məhdudlaşırdı. Salika qanunlarında ümumən heyvanların oğurlanmasına görə cəzalar göstərilirdi. Qalliyadakı qanunda kotana qoşulmuş öküzə daş atmaq və boyunduruğa möhkəm bağlamaq qadağan olunurdu. At xüsusi himayə ilə əhatə olunurdu. Sahibinin icazəsi olmadan atı minməyə görə iri məbləğdə cərimə ödətdirilirdi. Frankın atını oğurlamaq ağır cəza ilə nəticələnirdi. Meşələrin qorunmasına qayğı məhz vətənin təhlükəsizliyinə qayğı göstərmək demək idi. Aleman qanununa və digər qanunlara görə xətada və ya cinayətdə təqsirləndirilənlə birlikdə, müəyyən sayda eyni sosial vəziyyətində olan adamlar onun günahsızlığı barədə and içdikdə, cəzadan qaça bilirdi. İttiham edilən şəxs qadın olduqda, and içənlər də qadın olmalı idi.

Barbarların birinci keyfiyyəti igidlik idi. Kimisə dovşan adlandırmağa görə pulla cərimələnirdi. Belə cəzaya düşmənin gözü qarşısında qalxanını atan döyüşçü də layiq görülürdü. Qanunlar nə qədər qəddar görünsə də, onlarda ağır cəzalar nadir hallar üçün nəzərdə tutulurdu. Frankların Salika qanunlarında ölüm cəzası yalnız beş dəfə göstərilirdi. Qətlə görə heç vaxt ölüm cəzası təyin olunmurdu, bununla yanaşı oğurluğa, xəyanətə, müqaviləni pozmağa görə adamlar ölümlə cəzalandırılırdı. Lakin bu cinayətlərdə də and içənlərin iş-

tirakına icazə verilirdi. German, bir qanun kimi mücərrəd varlığın onun qanını tökməsi cəhdinə müqavimət göstərirdi. Beləliklə, yaranan cəmiyyətdə insan instinkti ölüm cəzasını rədd edirdi, axı ağıllı insan da sonralar bunu rədd etməli oldu.

Barbar xalqların başçıları onların özləri kimi nəsə bir qeyri-adi xüsusiyyətlərə malik olurdu. Attila elə bil ki, dünyaya qorxu təlqin etmək üçün doğulmuşdu. Onun yerişi də qürurlu idi, onun qüdrəti bədənin hərəkətlərindən və baxışından da hiss olunurdu. O, öz ehtirasını boğmağı bacarırdı, şurada özünü təmkinli aparırdı, şikayət edənlərlə ünsiyyətə girirdi, etibarını qazanmış adamlara qarşı xoş münasibət göstərirdi. Onun iqamətgahı olduqca sadə idi, Dunay otlaqları arasında tikilmiş düşərgə və ya taxtadan tikilmiş ev idi. Onun alacağının qarşısında məğlub edilmiş krallar növbəyə dayanırdılar. Arvadları isə onun evini əhatə edən digər çadırlarda yaşayırdılar. O, zərifliyi ilə seçilməyən xörəklər yeyirdi, onlar bir qayda olaraq taxta boşqablarda verilirdi, həm də bu vaxt qənimət götürülmüş və yunanların sənət əsərləri olan qızıl və gümüş vazaları öz yoldaşlarına bağışlayırdı. Elə buradaca o, Romadan və Konstantinopoldan olan səfirləri qəbul edirdi.

Bu xalqlar çox vaxt qədim dünyanın xarabalıqlarına necə gəlib düşdüklərindən özləri də baş çıxarmırdılar. Qütb buzlarının arası ilə qorxmadan üzərək və ya cənubun qasırğası ilə onlar okeanın əlçatmaz yerlərinə gəlib çıxırdılar. Gəlib Afrikada məskunlaşmış vandallar etiraf edirdilər ki, onlar bu vaxt öz istəkləri hesabına deyil, aydın olmayan bir həvəsin sayəsində hərəkət etmişdilər. Onlar elə bil ki, tanrının əbədi iradəsinin hansısa kor-koranə icraçıları idilər, buradan da onların uğuruna kömək edən şəraitlər meydana gəlirdi. Onların bir çoxunda ləyaqətlər, istedad və düha əlamətləri yox idi.

Genzerik qaşqabaqlı adam olub, güclü melanxoliyaya tutulurdu. O, Qalliyaya hücum etdikdən sonra İspaniyadan Afrikaya, Numidiyaya keçmiş, burada şəhərləri işğal edərək öz Vandal krallığını yaratmışdı. O, hara getdiyini özü də bilmirdi, gəmiyə oturanda Allahı qəzəbləndirən xalqlarla müharibə aparacağını demişdi. Alarix Romaya yürüş edəndə etiraf etmişdi ki, o, dayana bilmir, kimsə onu itələyir və məcbur edir ki, Romanı dağıtsın. O, əbədi şəhəri üç dəfə mühasirəyə aldı. Ona ümidsizliyə düçar olmuş çoxsaylı kütlə ilə vuruşmalı olacağı perspektivini yada saldıqda, insanlıqdan kənar olan bir cavab vermişdi: "Sıx ot daha yaxşı biçilir". Buna baxmayaraq, o, xahişi nəzərə alaraq elçilərdən bütün qızılı, gümüşü, daş-qaşları və barbar mənşəli bütün qulları verməyi tələb etdi. Roma senatının elçiləri bu qəddarlıqdan xəbər verən tələbə təəccüblə dolu: "Kral, bəs romalılara nə qalacaqdır?" sualı ilə müraciət etdikdə, işğalçı qot sərkərdəsi bir sadə, lakin olduqca acı və təhqiramiz görünən "Həyat" cavabını vermişdi. Alarix Romadan görünməmiş qarətlə müqayisə oluna bilən bir bac aldı.

Onun varisi Ataulf demişdi: "Mən çox arzu edirdim ki, romalıların adını yer üzündən silim və Sezarların imperiyasının yerində Qotiya adı altında qot imperiyası yaradım".

Hunlar isə şöhrətpərəst romalıları susdurmaq üçün deyirdilər ki, "İmperatorun sərkərdələri nökərdir, Attilanın sərkərdələri isə imperatorlardır". Attila Bizans imperatoru II Teodosinin elçilərinə demişdi ki, "Siz düşünürsünüz ki, mən yer üzündən silmək istədiyim qala və ya şəhər məgər mövcudluğunu davam etdirə bilər?" Qardaşı Bledanı öldürtdükdən sonra isə Şərqi və Qərbi Roma imperiyalarının başçıları Teodosinin və Valentinianın yanına iki qot göndərmişdi ki, onlara çatdırsınlar ki, "Mənim və sənin ağan Attila sənə əmr edir ki, ona saray hazırla".

Attila Aetsinin onun üzərindəki qələbəsindən sonra özünü diri-diri tonqala atıb yandırmaq istəmişdi ki, heç kəs sonra onu öldürdüyü və ya əsir götürdüyü ilə lovğalana bilməsin. Attilanın oğlanları xalqları öz tabeliyində saxlaya bilmədilər və ayrıldılar. Bu qəhrəmanın qılıncı ilə birləşmiş xalqlar Pannoniyada Netada çayının sahilində görüşüb bir-birindən azad oldular və qarşılıqlı qaydada didişməyə başladılar. Onlar bir-birilə qızğınlıqla vuruşurdular. Döyüş meydanında təkcə otuz min hunun meyiti qalmışdı. Attilanın sevimli oğlu Ellak gepidlərin başçısı tərəfindən öldürüldü. Xalqlar onları birləşdirən tufanın təsiri ilə səpələndilər. Attilanın bütün hökmranlığı basqından başqa bir şey deyildi. Arası kəsilməyən qırğınlardan sarsılan xalqın təxəyyülü bütün bu dəhşətlərin və məhv edilmələrin alleqoriyasını özündə birləşdirən əfsanə yaratdı. Barbarlar ağılsızcasına dağıtmaqdan vəcdə gəlirdilərsə, lakin nəsə onların bu cəhdlərini məhdudlaşdırırdı.

Qədim dünya yıxılmağa yaxınlaşanda, yeni cəmiyyətin yarandığı yerdə o tamamilə yoxa çıxmamalı idi. Əgər romalılar öz qaliblərini sivilizasiya ilə ötüb keçirdilərsə, işğalçılar isə onları igidlikdə geridə qoyurdular. Barbarlar düşməni təhqir edəndə onu romalı adlandırırdılar. Bu ad isə alçaqlıq, əclaflıq, xəsislik, pozğunluq, yalan mənasını verirdi, özündə bütün qüsurları birləşdirirdi. Barbarlar elmləri öyrənməkdən imtina edirdilər və bunu belə əsaslandırırdılar ki, çubuq altında titrəyən uşaq qılıncı görəndə qorxudan əsməyə bilməz. Salika qanununda frankın öldürülməsi iki yüz qızıl solidlə qiymətlənirdisə, Roma mülkiyyətçisinin qətli iki dəfə az, yarım adam kimi cərimələnirdi.

Romalıların ləyaqəti, yaşı, rütbəsi, dini onların pozğunluğa olan ehtirasını heç cür azalda bilmirdi. Əyalətlər alovun ağzında əzab çəkəndə, onlar sirkdəki və teatrdakı tamaşalardan ayrıla bilmirdilər. Roma qarət ediləndə, qaçan romalılar hələ özlərininki olan Karfagenə yollanırdılar ki, bir neçə günlüyə də olsa öz əxlaqsızlıqlarını nümayiş etdirsinlər. Trir şəhəri dörd dəfə hücuma məruz qalanda onun sakinlərinin burada qalan hissəsi bu qan və xarabalıqlar arasında öz amfiteatrlarının boşalmış kürsülərində oturmaqda davam edirdilər. Trir qaç-

qınları imperatordan xahiş etmişdilər ki, onlara yeni teatr açsınlar, lakin can atdıqları bu əyləncələrin hansı şəhər, hansı xalq üçün olduğu barədə heç düşünməmişdilər də. Köln şəhərinin divarları düşmən tərəfindən tutulanda və onlar içəri cumanda sakinlər ümumi orgiyanı dayandırmırdılar, mülki hakimiyyət vəzifəliləri isə öz süfrələrinin arxasından qalxmırdılar. Roma dünyası yalnız barbarların müdaxiləsindən sonra tamaşalar barədə təsəvvürlərini dəyişməli oldu.

Avropa əhalisinin üçdə biri, Afrika və Asiyanın bir hissəsi müharibə, yoluxucu xəstəliklər və aclığın qurbanlarına çevrildilər. Şəhərlər viranə qalırdı, adamlar qırılırdı və məhv edilirdi, yer tikanla və kolluqlarla örtülürdü. İspaniya da bu bədbəxtlikləri yaşamalı oldu. Buradakı şəhərlər svevlər və franklar tərəfindən xarabazara çevrilmişdi. Dağıdılmış iri şəhərlərin yerində bir neçə koma görünürdü. Vandallar və qotlar bu xarabalıqlardan keçdilər, aclıq və yoluxucu xəstəliklər dəhşətli viranə qoymanı başa çatdırırdı. Kəndlərdə yerdə qalmış cəsədlərin cəzb etdiyi heyvanlar hələ nəfəsi kəsilməmiş adamların üstünə cumurdular. Şəhərlərdə toplaşan xalq əvvəlcə ifrazla qidalanırdı, sonra bir-birini yeyirdi, bir qadın dörd uşağını öldürüb, onların hamısını yemişdi.

Şimali Afrikanın da məhsuldar tarlaları vandallar tərəfindən viran qoyuldu, qumlarla örtüldü. Şəhərlər sakinsiz qaldı, bir hissəsi əzablardan öldü, digərləri qılınc zərbəsindən həlak oldu, üçüncülər qul olmağa aparıldılar, hər şeyi itirib qəddar düşmənə xidmət göstərməyə məhkum oldular. Meşələrə, qayalara və mağaralara qaçanlar ya tutulub öldürülür, yaxud da aclıqdan özləri ölürdülər. Barbarlar üzümlükləri, meyvə və xüsusən zeytun ağaclarını kökündən çıxarırdılar ki, dağlara çəkilən adamlar özlərinə qida tapa bilməsinlər. Bəzi şəhərlərdə bircə də olsun adam qalmamışdı. Barbarlar möhkəmləndirilmiş şəhərləri tutmaq üçün yeni üsul tapmışdılar: onlar əsirləri öldürür, cəsədlərini mühasirəyə alınan şəhərin divarlarının yanında üst-üstə yığırdılar, yandırıcı günəş isə havada xəstəlik yayırdı. Vandalların aşa bilmədikləri divarlardan şəhər ölümsaçan küləklərin ixtiyarına verilirdi.

Nəhayət, bir-birinin ardınca alemanlar, qotlar, hunlar və lombardların axını İtaliyaya da gəlib çıxdı, elə bil ki, Alpdan axan çaylar öz istiqamətlərini dəyişib ümumi dalğa ilə İtaliyaya yan aldı. Dörd dəfə mühasirəyə alınan və iki dəfə tutulan Roma vaxtilə özünün başqalarına gətirdiyi bədbəxtliklərdən əziyyət çəkməyə başladı. Xalqların anası olan Roma onların qəbrinə çevrildi. Xalqların işığı söndü, elə bil ki, Roma imperiyasının başı ilə dünyanın başı da yerə düşdü. Şəhərin əhalisinin sayı bəzi hesablamalara görə üç milyondan, digər mənbələrə görə isə 1,2 milyondan 80 min nəfərə qədər azaldı. Artıq 3-cü əsrin əvvəlində İtaliyanı meşələr və bataqlıqlar bürümüşdü, canavarlar və digər vəhşi heyvanlar amfiteatrlarda dolaşırdılar, elə bil ki, bu əyləncə yerləri onlar üçün tikilmişdi, lakin burada yemək üçün artıq heç nə tapmırdılar. İmperiyanın qalıqları barbarların əlinə keçdi. Qotların və hunların arabaları, saksların və vandalların

gəmiləri Yunanıstanın və Romanın əsrlər boyu yaratdığı sənət əsərləri ilə doldurulmuşdu. Genzerik Karfagen sakinlərinə əmr etmişdi ki, ölüm qorxusu altında bütün sahib olduqları xəzinələri ona versinlər. Həmin kral Romanı və Kapitolini müharibə vaxtı qarət etmişdi, ona görə də bu müharibəni 4-cü Puniya müharibəsi adlandırırdılar.

Bəşər irqinin üzərinə düşən bu bədbəxtliklər ümumi tarixi mənzərəni təsvir edən cizgilərdir, bunların arxasında yüz minlərlə insanın üzləşdiyi əzablar gizlənir. Kökündən sarsılan cəmiyyət onu təşkil edən ailələrin, adi insanların təhlükəsizliyini təmin edə bilməzdi. Ona görə də bu basqınlardan təkcə qəbirlər deyil, həm də saysız-hesabsız bədbəxt insanlar xatirə simvolu kimi qalırdılar. Romalılar dəbdəbə, pula hərislik, acgözlük xəstəliyinə tutulmaqla zəifləmişdilər, vaxtilə qartal kimi öz qanadlarını üç qitə üzərində sərən imperiya, indi adi quzğunların qurbanına çevrilmiş sərçəyə bənzəyirdi. Dəbdəbənin yol yoldaşı olan eyş-işrət və əyləncələr romalının məğrur ruhunu əzmişdi, onun igidliyini və döyüşkənliyini yoxa çıxarmışdı, vaxtilə öyündüyü xüsusiyyətləri taqətdən salmışdı, iradəsini əlindən almışdı. Bayramlara ağla sığmayan məbləğdə pullar xərclənirdi. Bayram mərasimləri və misteriyalar üçün ən yaxşı aşpazlar seçilirdi. Şam yeməyinin tüstüsü yanğından qorxanları lərzəyə salırdı. Elə bil ki, yüz illər əvvəl yaşamış Diogen məhz bu adamlar haqqında demişdi ki, "Meqaranın sakinləri elə yeyirlər ki, elə bil ki, onlar sabah aclıqdan öləcəklər, evləri isə elə tikirlər ki, onları ölməzlər hesab edirsən".

İnsan ruhuna yad olan belə qaydalar və pozğun ehtiraslar cəzasız qalmaya bilməzdi. Vaxtilə ağrıya və əziyyətlərə dözümü, nifrəti ilə seçilən romalılar bu vaxt azacıq qorxu yaranan kimi titrəməyə, düşməndən aman yalvarmağa başlamışdı. Epikurun "Əgər ağrı yüngüldürsə, ona dözmək olar, əgər o, qəddardırsa, uzun müddət davam etmir" vəsiyyətini yaddan çıxarmayan romalıların düşüncə tərzində də ciddi dəyişikliklər meydana gəlmişdi. Onlar çətinliklərə dözmək qabiliyyətini də itirmişdilər. Bütün bunlar əxlaqın təmizliyinin pozulması ilə müşayiət olunmuşdu. Mərhəmətin və ciddiliyin düzgün vəhdəti, cəza və mükafatların ağıllı qaydada bölünməsi artıq siyasət və ədalət üçün vacib şərt rolunu oynamırdı.

Qərbi Roma imperiyasının dağılması belə qan tökmə, əzab və əziyyətlər prosesinə çevrildi. Qərb sivilizasiyasının tarixində yeni dövr başlandı və təbiətdə olduğu kimi cəmiyyətdə də köhnənin təzə ilə əvəz olunması, yeni dövlət quruluşlarının yaranması böyük sarsıntılar, keyfiyyət dəyişiklikləri hesabına başa gəldi. Yeganə imperiya böyük bir ərazini idarə edirdisə, onun dağılmasının ətaləti sınan iri şüşə parçasının çilik-çilik olması kimi, çox sayda dövlətlərin yaranmasına səbəb olsa da, əvvəlcə bu imperiyanın üç iri varisi qalırdı. Bunlar Bizans, islam aləmi və erkən orta əsrlər Qərb dünyası idi. Hər bir irsə sahib olanlar kimi bunlar da bir-birinə əvvəlcə rəqib, sonra isə qatı düşmənlərə çev-

rildilər. Bu münasibət isə orta əsrlərin tarixinə çox vaxt müharibələrdən və bədbəxtliklərdən xəbər verən öz möhürünü vurmaya bilməzdi. Bu üç varisin hər biri öz dilinə və fərqlənən həyat tərzinə malik idi. Bizans sivilizasiyası birbaşa Şərqi Roma imperiyasının törəməsi olmaqla yunan dilli idi və özünün Roma idarəçiliyi ənənələrini xristian inamı ilə birləşdirilməsinə həsr etmişdi. İslam sivilizasiyası ərəb dilli olmaqla yeni, dinamik fəaliyyəti ilə seçilən bir din tərəfindən öz idarəçiliyini və mədəniyyətini tam fərqli qaydada yaradırdı. Qərbi xristian sivilizasiyası isə digərləri ilə müqayisədə tənbəl və asta tərpənən idi. Sonuncu iqtisadi cəhətdən daha az inkişaf etmişdi, həm idarəçilikdə, həm də dində təşkilati zəifliklə üzləşmişdi. O, birləşməyin müəyyən təməlini xristianlıqda və latın dilində görürdü və tezliklə özündə böyük siyasi və dini birləşmə bacarığı tapa bildi.

Lakin Qərbə xeyli müddət Konstantinopolun və Məkkənin kölgəsində qalmaq lazım gəldi, çünki bir neçə əsr ərzində, daha doğrusu Bizansın və Bağdad xəlifəliyinin tənəzzülünə qədər Qərb xristian dünyası öz rəqiblərinə nisbətən həm iqtisadi, həm də mədəni cəhətdən xeyli geridə idi. Bizansın və İslam dünyasının erkən nailiyyətləri dövründə Qərbin addımları kiçik və büdrəyən olmaqla, onun uğurları da belə müqayisədə olduqca sönük görünürdü, rəqibləri isə birbaşa və dolayı yolla onun inkişafına çox sayda təsir göstərirdi. Bu geri qalmaya görə 10-cu əsrdəki ərəb coğrafiyaçısı qərbi avropalılar haqqında yazmışdı: "Onlar iri bədənə, böyük naturaya, kobud davranışa və tənbəl intellektə malik idilər. Onlar uzaq şimalda yaşamaqla, xüsusən səfehlikləri, böyüklükləri və kobudluqları ilə seçilirdilər".

# FƏSİL 2
# ORTA ƏSRLƏRƏ QƏDƏM QOYAN QƏRBİ AVROPA

Qərbi Roma imperiyasının 476-cı ildə yıxılmasından başlanan birinci tarixi dövr Böyük Karla (768-ci il) qədər davam etməklə üç yüz ili əhatə edir. Köhnə dünya dağıldıqda, Qərbi Roma imperiyasının keçmiş əyalətlərində yeni müstəqil krallıqlar yarandı və onlara barbar hökmdarlar başçılıq edirdi. Onlar mövcudluqlarının ilk günlərindən daha çox şeyə sahib olmaq uğrunda bir-birilə rəqabətə girişdilər. Hər bir dövlət imperiyanı dağıdaraq Roma imperatorlarının varisinə çevrilməyə can atırdı. Digər tərəfdən Roma yepiskopları Qərb kilsəsinin başında durmağa cəhd edirdilər və bu, barbar krallarının müstəsna ağalıq əldə etmək iddiaları ilə üst-üstə düşdüyündən, imperiya dağıldıqdan bir az sonra onu bərpa etmək fikirləri yaratdı. 6-cı əsrdə Roma papaları İtaliyaya sahib olan german drujinalarında özlərinə dayaq axtarmağa başladılar ki, Bizansın üstünlüyündən azad ola bilsinlər. Bu vaxt Bizansın məğlub etdiyi ostqotları əvəz edən lanqobardlar Papa taxt-tacının yaxşı müttəfiqinə çevrildilər. 7-ci əsrdə Bizans təsirini sıxışdırıb çıxaran lanqobardlar onun yerini tutmaq iddialarını bildirirlər və papaların dünyəvi hakimiyyətinə artıq onların əvvəlki müttəfiqləri qorxu yaratdılar. Bu vaxt papalar əvvəlcə Bizansla olduğu kimi, lanqobardlarla da eyni qaydada davrandılar.

8-ci əsrin əvvəlində Qərbi Avropada yaranan bütün yeni dövlətlərdən ən çox ümidverəni Qalliyadakı Frank krallığı idi. Müsəlman mavrlar İspaniyadakı Vestqot krallığını işğal etmişdilər. Cənubi Qalliyadakı vestqot torpaqları hələ 6-cı əsrdə Frank kralları olan Merovinqlər tərəfindən tutulmuşdu. Burqundiya krallığı da onlara məxsus idi. Anqlosakson krallığı çox parçalanmaqla İtaliyadan uzaqda idi. Təkcə franklar öz işğalları ilə bütün Qalliyanı birləşdirmişdilər və cənubda islama qarşı olan qüvvələrin, şimalda isə şimali barbarların, saksların, digərlərinin yeni müdaxilələrinə qarşı dayağa çevrilmişdilər. Frank krallığının daxili vəziyyəti Papa taxt-tacının istəklərinə olduqca uyğun gəlirdi. Qədim Merovinq krallarının sülaləsi öz populyarlığını itirmişdi və franklar Karolinqlər ailəsindən olan nazirə həqiqi dövlət başçısı kimi baxırdılar. Karolinqlər taxt-taca nail olmaq üçün papaların köməyinə ehtiyac duyduqları kimi, papalar da öz müstəqillikləri naminə lanqobardlardan qorunmaq üçün Karolinqlərə möhtac idilər. 752-ci ildə Böyük Karlın atası Gödək Pipin Papadan frankların kralı titulunu aldı. 754-cü ildə isə Papa, Pipindən lanqobardların ondan aldığı torpaqları öz idarəçiliyinə geri aldı. Beləliklə, Qərbi Roma imperiyasının bərpa edilməsinin başlanğıcı qoyuldu. Bu məqsədə bütün digər ikinci dərəcəli məsələlər tabe edildi. Böyük Karlın epoxası özündən sonrakı dövrə yol açmaqla yanaşı, ondan əvvəlki üç yüzilliyin işlərini və cəhdlərini yekunlaşdırdı.

Qərbi Roma imperiyasının bərpa edilməsi təbii olaraq qədim savadlılığı tam miqyasda yenidən bərpa etmək fikrinin yaranmasına gətirib çıxardı. German mənşəli krallar imperatorun siyasi hakimiyyətinin varisləri olmaq üçün özlərini klassik dünyanın xatirələri ilə əhatə etməyə çalışırdılar, özləri latın dilini və bu dildəki ədəbiyyatı öyrənirdilər. Böyük Karl epoxasında isə klassik qədim dövrə ehtiram qeyri-adi səviyyəyə qalxdı. Bu cür can atmanın təsiri altında barbarlarla qədim romalıların törəmələri arasındakı fərqlər tədricən silinməyə başladı. Bu xüsusən roman və german qanunçuluğunun bir-birilə qovuşmasında öz ifadəsini tapdı. Siyasi birləşmə ilə yanaşı gözə çarpan dərəcədə qaydaların, adətlərin birləşməsi getdi və bu gələcək Avropa savadlılığının ümumi əsaslarını yaratdı.

Lakin maddi şərait bütün bu dövr boyu olduqca primitiv idi və əvvəlki əsrlər elə bil ki, bu məsələdə uzun müddət davam edən dinci almaq dövrü imiş. Yeni ümid verən modellər öz formasını almağa başladı, hər şeydən əvvəl Şimali Avropa regionunda sivilizasiyanın yeni mərkəzi meydana gəldi. Böyük Karlın başçılıq etdiyi Frank monarxiyası münbit Şimali-Qərbi Avropanın kənd təsərrüfatına əsaslanırdı, bu həm də Qərb mədəni birliyinə yol açırdı və gələcək üçün yaxşı bünövrə yaradırdı.

Yustinianın başçılığı altında Şərqi romalılar ostqotları və İtaliya ilə Afrikadakı Vandal krallığını məhv etdikdən, ərəblər isə İspaniyadakı Vestqot krallığını yoxa çıxardıqdan sonra, Qalliyadakı frank kralları Qərbi Avropada salamat qalan başlıca barbar hakimiyyətinə çevrildi. Lakin iki əsrə qədər vaxt lazım gəldi ki, onlar bütünlüklə öz hegemonluqlarını həyata keçirsinlər. Frank dövlətinin banisi kobud və hiyləgər tayfa başçısı Klovis (Klodovey) idi. O, 500-cü illər ətrafında indiki Fransanın və Belçikanın əksər ərazilərini işğal etmişdi və özü qərbi katolik xristianlığını qəbul etmişdi. Bu din yerli yepiskopların və bu torpaqların əhalisinin dini idi. Klovis Merovinq sülaləsinin əsasını qoymuşdu, bu onun mənsub olduğu sülalənin əsasını qoyan Meroveyin adından götürülmüşdü. Lakin o, birləşmiş səltənətə keçmədi, ancaq tipik barbar adətinə əməl edərək, öz krallığını oğlanları arasında böldü. Sonrakı iki yüz il ərzində Merovinq irsinin daha böyük hissəsinə sahib olmaq üçün oğullar sonra gələn digər oğullarla vuruşdular. Bu dövrün sonunda bu xətt öz üstün keyfiyyətlərini itirməyə başladı, çox sayda "heç nə etməyən", "tənbəl" adlanan krallar öz hökumətlərini tərk edib, "saray meri" kimi tanınan baş nazirləri ilə vuruşurdular.

Avropa tarixinin ən qaranlıq dövrü olan bu era boyu ticarət zəiflədi, şəhərlər tənəzzülə uğradı. Savadlılıq demək olar ki, unudulmuşdu və zorakılıq baş alıb gedirdi. Kənd təsərrüfatı ilə özünü minimum təmin etməklə döyüş baltasının hökmranlığı birgə ömür sürürdü. Hər bir ölkə özünəməxsusluğunu da saxlayırdı.

# Qalliya

Beş əsr ərzində Qalliya Roma imperiyasının, imperatorun canişini tərəfindən idarə olunan əyalət kimi qalmışdı. Belə uzun müddətli ağalıq dövründə Roma sivilizasiyası digərlərinə nisbətən Qalliyada daha dərin kök salmışdı. Hətta qədim dünyanın yıxılması erasında Qalliya Romaya təkcə öz imperatorlarını deyil, həm də bu torpaqlardan çıxmış yaxşı latın şairlərini, yazıçılarını, alimlərini göndərirdi. Lakin imperiya dağılanda daha çox dərəcədə romanlaşmış, digər tərəfdən də Reyn arxası barbarlara daha yaxın olmaqla, digər Roma əyalətlərinə nisbətən daha çox ziyan çəkməli oldu. Həm də bunun nəticəsi kimi Avropada heç bir ölkə belə sıxılmış ərazidə daha rəngarəng əhaliyə malik olmadı və beləliklə, sivilizasiya rüşeymlərinin elə də böyük qarışığına malik olmadı. 5-ci əsrdə qədim yerli qallara və onlara qatışan romalılara german məskunları birləşdi. Bu məskunlar isə müxtəlif tayfalara və qaydalara mənsub idilər. Onlara svevlər, alanlar, burqundlar, vestqotlar, franklar daxil idilər və onlar bütün Qalliyaya sahib oldular. Bundan başqa buraya qərbdən, Britaniyadan öz vətənlərində piktlər və skottlar tərəfindən sıxışdırıldıqlarından brittlər, həmçinin anqlosakslar o vaxtdan Bretan adlanmağa başlayan qərb yarımadasına gəldilər.

Qərbi Roma imperiyasının süqutundan sonra Qərbi Avropanın gələcəyi katoliklərin əlinə keçdiyindən, Qalliyada xristian dini başqalarına nisbətən daha tez və daha dərin kök salmağa başladı. Katoliklər bu tayfalardan öz siyasi-dini məqsədlərinə çatmaq üçün bir alət kimi istifadə edəcəkdilər. Belə qüvvə isə Merovinq frankları oldu. Onlar imperiyanın əlindən Qalliyanın şimal hissəsini alıb, təkcə müstəqil Almaniyanın xeyli hissəsini - turinqlərin, alemanların, bayovarların ölkəsini öz təsirlərinə tabe etmədilər, həm də Burqundiyanı işğal etdilər, vestqotları İspaniyaya qovdular. Beləliklə, frank krallığı, demək olar ki, Pireney dağlarından Reynə qədər, Alp dağlarından okeana və Şimal dənizinə qədər uzanırdı. Frankların və Roma katoliklərinin bir-birinə ilk qarşılıqlı xidməti belə olmuşdu. Lakin tezliklə onlar bir-birlərinə daha böyük miqyasda qarşılıqlı qaydada lazım oldular və nəticədə Qalliyadakı birinci rolun iflasından qədim Qərbi Roma imperiyasının demək olar ki, bütün ərazisində aparıcı ifaçıya çevrildilər. Papalar bundan faydalandıqdan sonra Merovinq sülaləsinin öz nüfuzunu itirməsindən bacarıqla istifadə etdilər. Bu sülalə Roma sivilizasiyasından çox şey götürmüşdü, əxz etdiklərinin içərisində əxlaqi pozğunluğa kömək edən cəhətlər də az deyildi. Digər tərəfdən 7-ci əsrdə şimalda bütpərəst frizlərlə və sakslarla, cənubda isə müsəlman mavrlarla qonşuluq kraldan, Roma patritsisindən daha çox german drujinaçısına xas olan keyfiyyətlər tələb edirdi. Merovinqlər isə öz əyləncələrini latın şairlərinə və ədəbi məşğuliyyətlərə həsr etdiklərindən işlərin idarə olunmasını öz saraylarının nazirlərinin ixtiyarına buraxmışdılar. Bu saray merləri adlanan vəzifə sahibləri müharibələr aparır, qo-

şunlara başçılıq edir, ona görə də frankların gözündə Merovinqlərdən daha çox kral kimi görünürdülər. 7-ci əsrin sonunda saray merləri (mayordomlar) özlərini kral nəsli kimi varislik qaydasına keçirdilər, bundan da adı ilə sülalənin Karolinq adlandığı Böyük Karl (Şarleman) çıxdı. Bu irsi mayordomlar 8-ci əsrin birinci yarısında Karl Martellin və onun oğlu Gödək Pipinin şəxsində krallığa və kilsəyə, şimalda friz və sakslara qarşı uğurlu müharibə aparmaqla, cənubda isə artıq Luaraya çatmış mavrlar üzərində qəti qələbə çalmaqla, çox böyük xidmət göstərdilər. Ona görə də Pipinin dövründə mayordom artıq frankların həqiqi kralı idi. Lakin hakimiyyəti qanuni saymaq üçün müəyyən formallıqların icra edilməsi lazım gəlirdi. Merovinqlərə nifrət edən o vaxtkı cəmiyyət katolik dininin onlara verdiyi xeyir-duaya ehtiram bəsləməkdən azad ola bilmirdi. Bir sözlə Pipin Papanın xeyir-duasını almaq üçün axırıncı addımı atmalı idi. Axı Papa özü də lanqobardların zülmündən azad olmaq üçün Pipinin köməyinə möhtac idi. Beləliklə, 752-ci ildə Papanın razılığı ilə axırıncı Merovinq monastıra çəkildi. Pipin isə taxt-taca oturduldu. Onun oğlu Böyük Karl isə Papaya daha böyük xidmət göstərdi. O, Lanqobard krallığını birdəfəlik işğal etdi və buna görə də Qərbin imperatoru elan edildi.

Beləliklə, 800-cü ildə qədim imperiyanın bərpa edilməsinə bənzəyən bir hadisə baş verdi, lakin burada yalnız titul əsas götürülə bilərdi. Əslində isə başında Papanın özünün dayanacağı Qərbi Avropanın siyasi birliyinin yaradılması barədəki kilsənin siyasəti öz finalına çatırdı. Lakin Papanın seçdiyi alət təhlükəli rəqibə çevrildi. Buna milli müstəqilliyə can atmalar da əlavə olunurdu, bu cəhdləri isə yeni katolik birliyi ideyası boğurdu. Sonuncu asan başa gələ bilərdi və belə də oldu.

Bu hadisələrin tarixi ardıcıllığına gəldikdə 5-ci əsrin əvvəlində imperator Honorinin hökmranlığı dövründə Qalliyada əyalətlərdə fasiləsiz olaraq təkrar olan hadisə baş verdi, lakin bu dəfə həmin hadisə bu ölkənin taleyini həmişəlik həll etdi. Britaniyada yerləşdirilmiş Roma legionları 408-ci ildə Konstantini öz imperatorları elan etdilər. Bundan bir az sonra Reyn ətrafındakı legionlar isə digər bir imperator seçdilər. Konstantin Qalliyaya gəlib onun cənub hissələrinə sahib oldu. Bu vaxt Alarixin gətirdiyi vestqotlar İtaliyada dayanmışdılar və onun varisi Ataulf tərəfindən idarə olunurdular. Honori axırıncıya təklif etdi ki, Belçikanı iddiaçılardan azad etsin, lakin vestqotlar bu xidmətlərinə görə 413-ci ildə Qalliyanın Luaradan cənuba olan hissəsini özlərində saxladılar və orada Vestqot krallığı yaratdılar. Bundan bir az əvvəl isə - 406-408-ci illərdə Cənubi Qalliya svevlər, alanlar və vandallar tərəfindən viranə qoyulmuşdu və romalılar onları yalnız Pireneyin arxasına sıxışdıra bildilər və Qalliyanın əvəzində İspaniyanı itirdilər. Ataulf Roma mənafelərinin təmsilçisi rolunda İspaniyanın işğalları ilə mübarizəyə girişdi. Vandallar özləri Afrikaya uzaqlaşdılar, Asturiya və Qalliyanın dağlarına sıxışdırılan svevlər və alanlar isə addımbaaddım yarımadanı vestqotlara təhvil verməli oldular.

Romalılar öz rəqiblərini bir-birinə qarşı qoymaq kimi imperiya metodundan əl çəkmirdilər. Honori də bu sınaqdan çıxmış üsula əl atdı və 413-cü ildə burqundları indiki Elzasda məskunlaşdırdı, yeganə şərt isə ondan ibarət idi ki, öz üzərlərində onun hakimiyyətini tanısınlar. Beləliklə, imperatorun 423-cü ildəki ölümündən sonra Qalliyadakı Roma canişini Aetsinin ixtiyarında yalnız Luara və Reyn çaylarının arasında olan şimal hissəsi qaldı. 437-ci ildə Salika franklar başçısı, Merovinqlər ailəsindən olan Klodion Qalliyanın Somma və Reyn arasındakı şimal hissəsinə yiyələndi. 5-ci əsrin ortalarında Qalliya öz hüdudları daxilində üç barbar krallığı - Reynlə Somma arasında olan Frank krallığı, bu dövləti Klodionun varisi və sülalələrə ad verən Merovey idarə edirdi, Sena və Luaranın yuxarı axını ilə Reyn arasında olan Burqund krallığı, bunu Qundiak və Qilperik idarə edirdi və Luaradan cənubda və Pireneyin arxasında, paytaxtı Tuluza olan Vestqot krallığı, bunu isə həmin dövrdə Ataulfun varisi olan I Teodorix idarə edirdi, - əhatə edirdi.

Bütün bunların arasında onların mərkəzində metropoliyadan ayrı düşmüş bir ərazi Roma əyalətinin qalığı olmaqla imperator III Valentinianın canişini Aetsi tərəfindən idarə olunurdu. Belə bir vəziyyətdə hunlar Attilanın başçılığı altında 450-ci ildə Qalliyaya soxuldular. Franklar və burqundlar onlara müqavimət göstərə bilmədilər. Qalliya Orleana kimi viranə qoyuldu. Yalnız Aetsinin və vestqot kralı I Teodorixin birləşmiş qüvvələri Attilanı dayandırdılar və onu geri oturtdular. Katalaun döyüşündə isə o, darmadağın edildi və nəticədə Qalliyanı tərk etməli oldu. Lakin bu heç də Roma hökumətinin deyil, vestqotların və şöhrətpərəst Aetsinin qələbəsi idi. Canişin elə həmin vaxtdan müstəqilliyə can atırdı. Baxmayaraq ki, III Valentinian Aetsini 454-cü ildə ölümə məhkum etmişdi, lakin sonrakı ili imperatorun özü öldü. Onun ölümündən sonrakı 20 il ərzində (455-476-cı illərdə) imperiyanın qarışıqlıq dövrü davam etdi, lakin bu vaxt hələ də Qalliyanı Romanın əlində saxlamaq mümkün idi. Yeni canişinlər də Qalliyanın Roma hissəsini barbar kralları kimi müstəqil şəkildə idarə edirdilər.

Klovisin varisləri Luaraya qədər Qalliyanın Roma hissəsinə sahib oldular. Klovis Roma hüdudlarını barbarlardan qorumağı özünün vəzifəsi hesab edirdi və bütün Qalliyada öz hakimiyyətinin tanınmasını tələb etdi. 496-cı ildə o, turinqləri və alemanları darmadağın edir və özü xristianlığı qəbul edir. Şərait ona Vestqot Qalliyasını özünə tabe etməyə imkan verir. Narbonna və Provansdan başqa bütün Cənubi Qalliya onun əlinə keçir. Bretan hökmdarları da onun hakimiyyətini qəbul edir. Klovis öldükdən sonra 6-cı əsr ərzində onun geniş əraziyə malik olan monarxiyası Merovinq ailəsinin üzvləri arasında bölünür və hər bir bölgü qan axıdılan daxili müharibələrlə müşayiət olunur. Bu münaqişələr davam etdikcə qədim sülalə öz nüfuzunu itirir və süquta doğru meyl etməyə başlayır.

Klovis öləndə monarxiyanı öz uşaqları arasında dörd hissəyə parçalamışdı, bunlar Paris, Orlean, Suasson, Metts krallıqları idi. Bu bölgüdən yeddi il sonra,

558-ci ildə qardaşları və onların törəmələri öləndə Suasson kralı I Lotar qısa müddətə Klovis monarxiyasını birləşmiş vahidə çevirir. Metts krallığı cənubda Mozelə qədər Reyn sahilini, Kölndən şərqdə isə Turinqiyaya qədər ərazini əhatə edirdi. Bunlardan əlavə, cənubda ona Overn torpağı da məxsus idi. Bura şərqdə yerləşməyinə görə Avstriya və ya Avstraziya (*Austrasia*, başqa sözlə şərqi torpaq) adlanırdı.

Klovis monarxiyasının ikinci bölgüsü birincidən əlli il sonra baş verməklə, elə o qədər müddətdə də davam etdi. Avstraziya kralı I Siqbert vestqot kralının bacısı Bruneqildaya evlənmişdi. Bu qadın öz bacısının fitnəkarlığı nəticəsində əsir düşdü, əri isə öz düşərgəsində öldürüldü. Lakin gözəlliyi hesabına Bruneqilda xilas olub, öz kiçik oğlunun adı altında hakimiyyəti ələ keçirdi. Sonrakı müharibə Bruneqildanın ölümü ilə nəticələndi. Onun bacısının kiçik yaşlı oğlu II Lotar Neystriya taxt-tacına çıxdı və 613-cü ildə Klovisin bütün monarxiyasını yenidən birləşdirdi. 628-ci ildə II Lotarın ölümündən sonra Merovinqlər yavaş-yavaş öz əhəmiyyətlərini itirdilər, onlar "tənbəl kral" ləqəbinə yiyələnmişdilər. Həqiqi hakimiyyət daxili müharibələrdən öz faydaları naminə istifadə edən mayordomlara keçdi. Torpaqların idarə edilməsinə və qoşunlara başçılığa onlar siyasi xarakter verirdilər, II Lotar isə mayordomları irsi etmişdi və yenicə dayandırdığı dövlətin bölünməsini yenidən bərpa etdi. Lotar ali hakimiyyəti iki mayordoma verdi, onlar bir-birinə qohum olmaqla Qalliyanın iki başlıca irqinə mənsub idilər. Onlardan biri Pipin Landenli idi, mənşəcə frank olub german tayfasının varlı ailəsindən çıxmışdı.

7-ci əsrdə krallar arasındakı ədavət mayordomlar arasındakı münaqişələrlə əvəz olundu. Frankların hersoqu və knyazı titulunu qəbul edən mayordom öldükdən sonra, onun oğlu Karl Martell öz rəqibinin tərəfdarlarını darmadağın edib ölkənin üç hissəsini öz əlində birləşdirdi, lakin kral titulunu əvvəlki tək sonuncu Merovinq olan IV Teodorixin özü üçün saxladı.

714-741-ci illərdə hökmranlıq edən Karl Martell öz şəxsi xarakteri və müstəqil Almaniyaya və ərəblərə qarşı mübarizədə etdiyi igidlikləri hesabına Merovinqlərə sonuncu zərbəni vurdu və IV Teodorixin ölümündən sonra dövləti idarə etməklə bir daha taxt-taca heç kəsi yaxın buraxmadı. Onun frizlər və sakslara qarşı vuruşda uğurları Almaniyada xristianlığın yayılmasını asanlaşdırdı. 732-ci ildə Karl Martell Puatye yaxınlığında mavrlar üzərində qələbə çaldı və bundan istifadə edib Akvitaniya hersoqunu özünə tabe etdi, bu hersoq da Merovinqlərin kiçik xəttinə məxsus idi.

Lakin ölümündən əvvəl Karl Martell qədim Merovinqlərin ənənəsinə sadiq qalıb öz torpaqlarını oğlanları arasında böldü. Neystriya və Burqundiya Gödək Pipinə düşdü. Qardaşlardan biri monastıra yollandıqda, digəri isə zorla öz iddiasından imtina etməyə məcbur edildikdə, Gödək Pipin öz ailəsinin torpaqlarının birliyini bərpa etdi. O, 741-ci ildən başlayaraq 27 il ərzində hökmranlıq etdi, 752-ci ildən isə kral elan edildi. O, atasının başladığı işi davam etdirib Friziyanı

özünə tabe etdi, artıq onun hakimiyyəti altında olan Bavar və Akvitan hersoqluqlarını itaət vəziyyətinə gətirdi. Mavrlar üzərindəki qələbəsinə görə Papanın razılığı ilə sonuncu Merovinqi taxt-tacdan saldı və Papanın xeyir-duası ilə kral oldu. Lanqobardlardan qopardığı torpaqları Papaya verdi. 768-ci ildə ölümündən əvvəl Pipin öz torpaqlarını oğlanları Karloman və Karl arasında böldü. Tezliklə birinci öldükdə, gələcəkdə Böyük adlanacaq Karl yenidən öz ailəsinin torpaqlarının birliyini bərpa etdi.

Qalların təbiətini, xarakterlərini, qaydalarını yaxşı anlamaq üçün onların Salika qanunları deyilən nizamlayıcı hüquqi irsinə müraciət etmək lazımdır. Əlbəttə, hər bir xalqda qanun yaradıcılığı, hətta əfsanəvi olsa belə, hansısa şəxsiyyətin adı ilə bağlıdır. Köhnə Babilistan çarı Hammurabi tarixə özünün samballı qanunlar kodeksi ilə düşmüşdü. Moisey ilk dəfə yəhudilərə ilahi qanunları vermişdi. Çar Foroney ilk dəfə yunanlarda qanun və məhkəmələri yaratmışdı, Merkuri Trismiqist misirlilərə ilk qanunu vermiş, Solon isə afinalılara bu xidməti göstərmişdi. Likurq ilk dəfə spartalılar üçün qanun yaratmışdı. Romanın ikinci çarı olan müdrik Numa Pompili öz həmvətənlərinə ilk qanunu vermişdi. İki yüz əlli il sonra yeni quruluşda yaşayan bu xalq qanunları yazmaq üçün detsemvirlər seçmiş və onlar məşhur On iki cədvəl qanununu yaratmışdılar. Əslində onlar əsasən Solon qanunlarını latın dilinə çevirmişdilər.

Uzun müddət davam edən adət qanuna çevrilir, sadəcə olaraq qanun yazılmış qərardır, adət isə yazılmamış qanundur, ona görə qanun - *"lex"* sözü *"legere"* - "oxumaq" feilindən yaranmışdır. Belə ki, o artıq yazılmışdır. Frankların kralı Teodorix də öz krallığının qədim qanunları bilən müdrik adamlarını seçib onlara frankların, alemanların, bavarların və onun hakimiyyəti altında olan digər xalqların hər birinin adətləri əsasında qanunları yazmağı əmr etdi. Sonrakı krallar bu qanunları düzəltdi, dəqiqləşdirdi. Qanunlar yaradılırdı ki, insan qəzəbi qorxu ilə dayandırılsın, təqsirsizlik qəddarlar arasında istənilən təhlükədən uzaq olsun, pislər, yamanlar cəzadan qorxsunlar və onlar ziyan vurmaq ehtiraslarını cilovlaya bilsinlər.

Salika qanunu adlanan qalların qanunu ilk dəfə frank dilində və Salika frankları tayfasının yaşadığı Belçikada meydana gəlmişdi və buradan da öz adını götürmüşdü. Bu qanunun mahiyyətinə nəzər saldıqda onun cinayət qanunu olduğu görünür, çünki burada cinayət hüququ əsas yer tutur, siyasi hüquq isə yardımçı xarakter daşıyır, onların barəsində işarələrlə danışılır. Cinayət kodeksində 343 maddə yalnız cinayət hüququna aiddir, digər mövzulara isə olduqca az, 65 maddə həsr olunmuşdur. Bunu da anlamaq çətin deyildir, xalq barbar vəziyyətindən çıxmaq üçün ilk addımını atır, qanunvericiliyini ilk dəfə cinayət hüququ timsalında yaratmağa başlayır. Siyasi hüququ yazmağa isə elə bir ehtiyac yoxdur, hakimiyyət də, onun hərəkət formaları da hamı üçün aydındır. Belə vaxtlarda konstitusiyalar barədə düşünmək də ağılsızlıq olardı. Çünki mülki hüquq da bir fakt kimi mövcud idi, adamların razılaşması və onların arasındakı

münasibətlər anadangəlmə ədalət qaydalarında təmsil olunur. Salika qanunu da məhz belə bir dövrdə yaranmışdı.

Salika qanununda demək olar ki, bütün cinayətlər iki başlıca növə bölünür: oğurluq və şəxslərə qarşı zorakılıq. Burada tək-tək hadisələrin ümumiləşdirilməsinə cəhd edilmir, bu da qanunvericinin kiçik intellektual inkişafından və onun tələsik hazırlanmasından xəbər verir. O, cinayət yerindəki hər bir hərəkəti, hər bir oğurluq, zorakılıq hadisəsini götürür ki, bununla ona cəza müəyyən etsin. Başqasından az fərqlənən cinayətin baş verdiyi hadisələrin hər birinə yeni maddə əlavə edir. İlk baxışda cəzalar çox yüngüldür. Cinayət hadisələrində cilovlanmayan ehtiraslar özünü açıb göstərir. Bir neçə ölüm cəzası göstərilir, lakin bunlardan da cərimə ödəmək yolu ilə qaçmaq mümkündür. Həbs cəzası nəzərdə tutulmur.

Salika qanununda əsas məsələ pulla özünü müdafiədir, ictimai asayişi pozmağa görə krala və ya magistraturaya müəyyən məbləğdə pul ödəmək lazımdır. Qanunun cəza sistemi bununla məhdudlaşır. Pul cərimədə şəxsiyyətə və insan azadlığına hörmət edilməsinin əsas götürülməsini iddia edənlər az deyildir, çünki bu vaxt zərər vuran tərəf öz cinayətini etiraf edir. O, bundan imtina edə və özünü ziyan vurduğu adamın qisası təhlükəsində qoya bilərdi. Lakin o, özünü təqsirkar sayır və cinayətinə görə pul ödəyir. Digər tərəfdən ziyan çəkən tərəf pulu qəbul etməklə onu incidənlə barışır və təntənəli surətdə unutmağa, qisası kəsməyə söz verir.

Ona görə də cərimə cəzadan çox, əxlaqi xarakter daşıyırdı. Bu əxlaq və azadlıq barədəki dərin hissdən xəbər verir. Doğrudan da, bu dövrdə ayrı-ayrı şəxslərin azadlığı həqiqətən böyük idi. Barbarlarda elə bir ictimai qüvvə yox idi ki, ayrıca şəxsin iradəsini məhdudlaşdırsın və ya əzsin. Ona görə də adamlar nə başqaları, nə də cəmiyyət tərəfindən idarə olunmurdu. Onların azadlığı açıqca mövcud idi, hər kəs demək olar ki, istədiyi hər şeyi edirdi, bu vaxt yalnız öz gücünü, öz risq və qorxusunu nəzərə alırdı. Lakin bu hələ cəmiyyət deyildi. Ona görə də xaotik vəziyyətdən çıxmaq üçün yollar axtarılırdı. Axı kobud, cahil, qəddar, ehtiraslarla idarə olunan adamlar daim gücə əl atmağa hazır idilər, insanlar ağıla və ədalətə görə dinc yaşamaq qabiliyyətinə malik deyildilər, başqa sözlə, onları buna məcbur edən kənar qüvvə olmadan cəmiyyətdə yaşaya bilmirdilər. Buradakı azadlıq gücün ağalığından ibarət idi, bu da dağıdıcı, daha çox isə cəmiyyətin olmaması demək idi. Ona görə də barbar qanunvericiliyini azadlığın və əxlaqın rəmzinə çevirmək cəhdi o qədər uğurlu deyildir. Cərimə maddi qüvvələrin barbar mübarizə hüdudlarından çıxmaq üçün ilk addım idi.

Ziyan vuran incidilənin çağırışı ilə azad adamların yığıncağına gəlib hökm çıxartmalı olan hakimlərin qarşısında dayanırdı. Onlar təklif olunan işin həqiqi və ya yalan olmasına dair müzakirə keçirməli deyildilər. Qanuna uyğun olaraq hakimlər cərimənin miqdarını və cəzanın bütün təfsilatını müəyyən edirdilər. Qərar isə qaynar su ilə sınamaq, döyüş və şahidlərin digər şəhadətləri, daha çox

isə şahidlərin andı vasitəsilə verilirdi. Müttəhim müəyyən sayda adamların, öz qohumlarının, qonşularının və dostlarının müşayiəti ilə gəlirdi və onu nədə ittiham etmişdilərsə, onu etmədiyi barədə and içməli idi. Heç bir istintaq aparılmırdı. Sadəcə olaraq şahidlər and altında ya incidilənin dediyini, yaxud da müttəhimin inkar etdiyini təsdiqləyirdilər. Ən vacib vasitə barbarların qanunvericiliyinin ümumi sistemi idi, hər şey qanunun insanın düzgünlüyünə olan inamına əsaslanırdı.

Germanlar heç vaxt həqiqi dəlillər sisteminə tələbat hiss etmirdilər. Tayfa və ailə ruhu da germanlarda güclü idi və şahidlər də bunun sübutu idi. Müttəhim olmaq hücuma məruz qalmaq demək idi: ona yaxın olan adamlar döyüş meydanında olduğu kimi onun arxasınca gedir və məhkəmə qarşısında onu əhatə edirdilər. Barbarlığın bətnində ailə məişəti əbədi müharibə vəziyyəti idi və ailə üçün müharibə qorxusu yarananda, onun üzvləri daha sıx birləşirdilər. Belə məhkəmə quruluşunu mükəmməl saymaq olmazdı, lakin barbar tayfaları buna nisbətən daha yaxşı hərəkət etməyi bacarmırdılar.

Qanunun bir maddəsində isə deyilirdi ki, "Salika torpağı qadının ixtiyarına keçə bilməz və bütün varislik hüququ kişi cinsindən olanlara verilir". Digər mülki məsələlərə isə bu qanun toxunmurdu və mahiyyətcə cinayət məcəlləsi xarakteri daşıyırdı. Ona görə də bu qanunun ömrü qısa oldu, 10-cu əsrdən başlayaraq ona mənbə kimi xidmət edən çox sayda yerli adətlərlə əvəz olundu. Bir neçə əsr sonra isə onun haqqında yalnız xatirə kimi danışırdılar. Digər tərəfdən Salika qanunu yeganə deyildi, Qalliyada yaşayan xalqlar isə onunla yanaşı üç digər barbar qanunvericiliyinə malik idilər.

## Almaniya

Reyn və Dunay çaylarından şimali-şərqdə, Skifiya və Sarmatiya çöllərinə qədər torpaqlardan ibarət nəhəng məkan ümumi Almaniya adı altında birləşirdi. Böyük Karla qədər olan dövrdə burada tayfaların əvvəlki daxili mübarizəsi davam edirdi. Bir-birini sıxışdırıb çıxaran və təqib edən həmin tayfalar Qərbi Roma irsinə sahib olan öz qardaşları ilə də xarici mübarizəni apararaq, sivilizasiyanı yeni barbarların müdaxiləsindən qorumağa çalışırdılar. Təkcə lanqobardlar (hərfi mənası "uzun saqqallılar" deməkdir) uğur qazanmışdılar və 6-cı əsrdə İtaliyaya, ostqotların irsinə yiyələnmişdilər. Qalliyada frankların qüdrəti artdıqca german dünyası diqqətini Roma imperiyasının bu ölkə sərhədlərindəki varislərinə yönəltdi. Saks tayfası azad Almaniyada ən çoxsaylı və güclü olmaqla Karolinqlərə güzəştə getməyə məcbur oldu və Böyük Karl Almaniyanı bütünlüklə fəth edərək Avqust dövründən Roma imperatorlarını ciddi düşündürən bir məsələni həll etdi.

# İtaliya

Qərbi Roma imperiyasının dağılması digər əyalətlər kimi İtaliyaya da öz ciddi təsirini göstərdi. Lakin bu ölkə ərazisi üç qitəyə səpələnmiş nəhəng dövlətin siyasi mərkəzi olduğundan özü bir alət kimi müstəqil vahid idi, baxmayaraq ki, artıq onun idarə edilməsi barbar işğalçıların, əvvəlcə ostqotların, sonra isə lanqobardların əlində idi. Bu idarəçiliyə dağılan imperiyanın xatirələri ilə mübarizə aparmaq lazım gəlirdi. Digər tərəfdən Bizans yaxın qonşuluqda olmaqla, İtaliyaya qarşı onun da iddialarını cuşə gətirirdi.

Qədim imperiyanın siyasi birliyi arzularına dünyanın birləşdirilməsi barədə xristian ideyası da qoşulmuşdu. Papaların siyasəti barbar hökumətlərin müvəffəqiyyəti üçün ən təhlükəli əleyhdar idi. Bu hökumətlərin isə başlıca qayəsi parçalamaq, ayrı-ayrı yerləri muxtariyyətə qovuşdurmaq idi və bu birləşmə barədəki Roma ideyasının əks qütbündə dayanırdı. Merovinqlərin əli ilə papalar nəhayət İtaliyada dünyəvi hakimiyyətin başlanğıcını qoya bildilər. Böyük Karl isə Lanqobard krallığını işğal etdikdən sonra buranı öz torpaqlarına qatdı və Papadan 800-cü ildə Qərbin imperatoru tacını aldı. Beləliklə, imperiyanın yıxılmasından üç əsr sonra bu dəfə katolik birliyin siyasi ifadəsi kimi bərpa olundu və bu, Papa hakimiyyətinin iddialarına uyğun idi.

Qərbi Roma imperiyasının qatili rolunda çıxış edən Odoakr italyan dövlətinin müstəqilliyinin başlanğıcını qoymuşdu, lakin o, Bizansın iddialarına qarşı dayana bilmədi. Bizans ona qarşı Teodorixi və onun ostqot drujinasını qoydu. Lakin tezliklə o da öz əleyhdarının rolunu oynamağa başladı və Bizans siyasətinin alətindən, onun düşməninə çevrildi. Ostqotların yeni krallığına, həm də daxili qəsdlərə əl atan Bizansdan öz müstəqilliyini qorumaq lazım gəlirdi. Teodorixə ən yaxın adamları xəyanət edirdilər, həm də o, digər milli hökumətlərə, xüsusən Qalliyadakı franklara qarşı mübarizə aparmalı idi. Onun ölümündən sonra yeni hökumət onun qızı Amalazuntanın əlinə keçdi, bu qadın öz oğlunun adından ölkəni idarə edirdi və Bizans imperatoru Yustinianın himayəsi altında idi. Oğlu öldükdən sonra o, ikinci dəfə qot Teodata ərə getdi, lakin tezliklə öldürüldü. Yustinian bu qətlin qisası bəhanəsi altında İtaliyaya hücum etdi. Ostqotlarla bu müharibə 17 il davam etdi. Nəhayət qotlar məğlub oldular və İtaliya Ravenna ekzarxatı adı altında 553-cü ildə Bizans imperiyasının əyalətinə çevrildi, lakin hər dəfə Bizans siyasətinin aləti onun düşməninə çevrilirdi. Vaxtilə müharibədə sərkərdəlik etmiş və ekzarx olan Narzes bu vəzifədən azad olunduqda, Bizansdan qisas almaq üçün İtaliyaya lanqobardları dəvət etdi. 568-ci ildə onlar Roma, Ravenna və bir neçə şəhər istisna olmaqla, Şimali və Orta İtaliyaya sahib oldular.

Tezliklə lanqobard sərkərdəsi Alboin öz arvadı Rozamundanın qisası nəticəsində öldürüldü. Rozamunda atasının qisasını ərindən almışdı və qəsdin digər iştirakçısına ərə gedib onunla Ravennadakı Bizans prefektinin yanına qaçdı.

Sonra prefektə ərə getmək üçün ərini zəhərləyəndə, özü də zəhər içməyə məcbur edildi və hər iki sui-qəsdçi beləliklə öldü. Sonrakı on il ərzində çox sayda lanqobard hersoqları işğal edilmiş torpaqları öz aralarında bölüşdürdülər. Yeni kral seçiləndən sonra lanqobardların torpaqlarının genişlənməsi başlandı. Bu kral bavar hersoqunun qızı ilə evləndi, yunanlarla müharibədə Cənubi İtaliyadakı Samniumu onlardan alıb Beneventiya hersoqluğu yaratdı. 7-ci əsrdə yunanlardan alınmış torpaqlar hesabına onlar öz ərazilərini genişləndirirlər. Bir çox şəhərlər heç lanqobardları gözləmədən özləri Bizansdan ayrılıb öz hökmdarlarını seçirlər. 698-ci ildə Venetsiya özünə birinci hersoq seçdi və aristokratik respublika kimi müstəqil mövcudluğuna başladı.

Lakin papaların və Bizansın intriqaları italyan hökumətini formalaşdırmağa imkan vermirdi. Yeni kral Karl Martelldən kömək xahiş etsə də, onu ala bilmədi, əvəzində isə Papa ilə Karolinqlərin maraqları arasında əlaqənin əsasını qoydu. Roma Papası II Stefan isə Qalliyaya Gödək Pipinin yanına yollandı. Pipin lanqobardların əlindən ekzarxatı aldı və ərazini Papaya verdi. Beləliklə, 756-cı ildə gələcək Papa vilayəti ərazisinin ilk nüvəsi yarandı. Böyük Karl isə İtaliyanı lanqobardlardan almaqla işğal etdi. Yalnız Bizans imperiyası canişinlərinin ağalıq etdiyi cənub hissəsi işğaldan kənarda qaldı, öz müstəqilliklərini, Afrikadan saratsinlər gələnə qədər saxlaya bildi.

## İspaniya

Roma qılıncı ilə işğal edilən qədim İberiya imperiya dağıldıqdan sonra vestqotların yaratdıqları barbar hökumətin timsalında öz milliliyini və siyasi müstəqilliyini qaytara bilərdi. Lakin İspaniya ayrıca krallıq kimi öz yeni həyatında çoxlu maneələrlə üzləşməli oldu. İspaniyanın işlərinə dünyanın katolik birliyi hesabına qatışan papaların və İtaliyada olduğu kimi İspaniyada da sahil zolağını əlində saxlayan Bizansın intriqalarına vestqot arian məzhəbinə aid olanların dini fanatizmi və vetsqot kralların drujinaçılarından düzələn german kübarlarının özbaşınalığı əlavə olunurdu. Burada qədim cəmiyyət hələ dağılmaqda davam edirdi. Vestqotlar İspaniyada, İtaliyadakı lanqobardlara nisbətən pis vəziyyətdə idilər və onlar qədim cəmiyyəti yeniləşdirə bilmədilər, əksinə bu dünya uçanda onları da özü ilə apardı. 622-ci ildən öz dövlətçiliyini quran müsəlman ərəblərlə qonşuluq özü yeni, daha qorxulu problemlər yaratdı və heç bir əsr keçməmiş, 711-ci ildə Gibraltar boğazından buraya keçən mavrlar İspaniyanın taleyini uzun müddət üçün həll etdilər. Ancaq Karolinqlər islamın Avropanın içərilərinə tərəf yayılmasının qarşısını ala bildiklərindən mavrlar yalnız Pireney yarımadası ilə kifayətlənməli oldular. Bu işğal orta əsrlər İspaniyasının daxili milli inkişafına, nə qədər mübahisəli olan mənfi təsir göstərsə də, mavrların ölkəni zəbt etməsi bütün Qərbi Avropanın yaranmasının taleyində mühüm rol oynadı. 15-ci əsrin sonunda müsəlman istilası ləğv edilәndə xüsusi xalq tipi olan ispan-

lar qitədəki aparıcı millətə çevrildilər. Bu dövrdə İspaniyanın rolu sonralar onun yüksəklikdən yıxılması kimi hansısa bir təsadüfün nəticəsi deyildi. İspaniya Roma zülmündən german drujinalarının köməyi ilə azad edilsə də, bir qədər sonra mavrların ağalığının altına düşmüşdü.

Qərbi Roma imperatoru Honorinin hökmranlığının ilk illərində öz əleyhdarı Konstantinlə mübarizə aparanda ilk əyalət kimi İspaniya imperiyadan ayrıldı. Konstantinin sərkərdələrindən biri əvvəlcə İspaniyanı işğal etdi, sonra isə imperatorun rəqibindən ayrıldığına görə köməyə vandalları, alanları, svevləri dəvət etdi. İspaniya bu barbarların əlinə keçdi və püşk üzrə bölündü. Vandallara Şimali İspaniya, alanlara - Cənubi, svevlərə isə Portuqaliya düşdü. Bundan bir az sonra eyni çevriliş Cənubi Qalliyada da baş verdi. 412-ci ildə imperator Honorinin yeznəsi, vestqot kralı Ataulf imperatorun bacısının köməkliyi ilə bütün Cənubi Qalliyanı ələ keçirdi. Lakin İspaniyadakı barbar hökumətləri möhkəm inkişaf edə bilmirdilər. Daxili müharibələrə romalılarla və vestqotlarla arası kəsilməyən müharibələr əlavə olunurdu. Vandallar artıq 422-ci ildə Alan krallığını tutdular və Cənubi İspaniyaya yiyələndilər. Elə bu hadisəyə görə cənubun əyalətlərindən biri vandalların şərəfinə Andalusiya adlanmağa başladı. Lakin vestqotlar tərəfindən sıxışdırılan vandallar Afrika canişininin dəvətindən istifadə edib bütün İspaniyanı vestqotların ixtiyarına buraxmaqla, özləri kral Genzerikin başçılığı altında 80 minlik bir qüvvə ilə Afrikaya köçdülər və orada Vandal krallığını yaratdılar.

Vestqotların İspaniyanı işğal etməyə can atması həm də onunla əlaqədar idi ki, Qalliyada onları şimaldan buranı tutan franklar sıxışdırırdılar. Ataulfun varisi imperiyanın müttəfiqi kimi vandallarla mübarizəyə başlayır. Onun oğlu I Teodorix atasının işini davam etdirməkdə qərarlı olsa da, Attila ilə döyüşün getdiyi Katalaun çölündə həlak olur. Sonrakı 15 il ərzində Vestqot krallığı özünün yüksək inkişafına yiyələnir. Lakin vestqotların ağalığı sona çatır və franklarla mübarizədə onları heç nə xilas edə bilmir. Frankların kralı Klovis onları darmadağın edir və vestqotların kralı II Alarix döyüşdə həlak olur. Bundan sonra vestqotlar Pireney yarımadasında möhkəmlənməyə məcbur olurlar.

Sahil torpaqlarını öz əlində saxlayan Bizans ilə daim xarici müharibələr gedəndə və siyasi mülahizələr naminə arianlara qarşı İspaniyadakı katolitsizmi dəstəkləyəndə, katoliklər dəhşətli təqiblərə məruz qalırdı və ölkənin yaxşı qüvvələri məhv edilirdi. Lakin Papa Böyük I Qriqorinin müasiri olan kral katolikliyi qəbul etməklə, məğlub edilmiş ölkə ilə birləşməyə mane olan şər aradan qaldırıldı və Bizans yeni intriqalara əl atmaq üçün bəhanələrdən məhrum oldu. Lakin əslində köhnə şər yenisi ilə əvəz olundu. Vestqot hökuməti şöhrətpərəst ruhanilərin şəxsində daha təhlükəli rəqiblə üzləşməli oldu. Bu ruhanilər hökumətlə xalqın arasında dururdu. Bunlara vestqot aristokratiyasının özbaşınalığı da əlavə olunurdu. Ona görə də vestqotların İspaniyada hakimiyyətdə olduğu son yüzillik, başqa sözlə bütöv 7-ci əsr ərzində Toledo arxiyepiskopunun haki-

miyyəti daha çox artdı və bu hakimiyyət süqut epoxasına daxil oldu. Arxiyepiskopla rəqabət, yəhudilərin üsyanı, Afrikadan gəlmiş saratsinlərlə mübarizə hökuməti zəiflətmişdi və kral bu sui-istifadələr əleyhinə qalxanda hökumət hətta öz daxili düşmənləri ilə mübarizədə duruş gətirə bilmədi. Kral öz oğlunu arxiyepiskop qoysa da, özbaşınalığa görə qrandları təqib etsə də, onun hərəkətləri nəticəsiz qalmaqla yanaşı, ona qarşı güclü müxalifət yaratdı. O, 710-cu ildə öləndə uşaqlarından narazılığa görə qraf Roderik kral dəvət edildi. Lakin bu vaxt mərhum kral Vititsanın uşaqları İspaniyaya mavrları dəvət etdi. Afrika əmiri Muza və onun sərkərdəsi Tarik 711-ci ildə Roderikin ölümündən sonra bütün ölkəyə sahib oldular və onu Dəməşqdəki xilafətin əyalətinə çevirdilər.

Xristianlardan az hissəsi öz müstəqilliyini qoruyub saxlaya bildi və bu məqsədlə Asturiyanın, Qalliya və Navarranın dağlarına qaçdı və orada özlərinə Pelayonu kral seçib Leon krallığını yaratdılar. Navarrada isə digər hökmran meydana gəldi. Bu iki krallıq gələcək müstəqil İspaniyanın özəyi rolunu oynadı.

Ərəblərin İspaniyanı zəbt etməsi həm yeni yaranan din və onun siyasi hakimiyyəti, həm də Qərbi Avropa tarixi üçün böyük əhəmiyyətə malik olan bir hadisə idi. Məhəmməd Peyğəmbərin ölümündən az sonra iri işğal müharibələrinə başlayan xilafət qısa müddət ərzində qonşuluqda olan geniş əraziləri tutdu, islam bayrağı Misirdə, Suriyada, Sasanid imperiyası üzərində dalğalanmağa başladı, Bizans imperiyası öz torpaqlarının bir hissəsini itirdi. Müsəlman tarixinin başlanğıcını götürdüyü vaxtdan heç bir əsr keçməmiş müsəlman mavrlar Avropaya keçib İspaniyanı işğal etdi. Bu hadisə tarixdə xüsusi iz qoyduğundan rəvayətlərlə dolu əhvalat xarakteri daşımaqla yanaşı, tarixçilər, xüsusən ərəb tarixçiləri tərəfindən geniş qaydada qələmə alınmışdır. Sərkərdə Tarik boğazdakı adaya və bundan da boğazın özünə adı verilməklə daha böyük məşhurluq qazansa da (Cəbəlüttarik - ərəbcə "Tarik qayası" deməkdir), yürüşə başçılığı afrikalı əmir Muza etmişdi. Özü böyük astroloq olan Muza guya ulduzlar vasitəsilə öyrənmişdi ki, İspaniya işğal ediləcəkdir. Muza bu məsələlərdə naşı adam deyildi. O, Tanjerin və digər şəhərlərin alınmasında iştirak etmiş, Afrikanın sahil şəhərlərinə yürüşlər etmişdi. Bu vaxt həmin şəhərlərin İspaniya kralının canişinləri idarə edirdi və buradakı torpaqlar onların ixtiyarında idi. Bu şəhərlərdən ən başlıcası Tseuqa idi, onun hökmdarı isə Yulian adlı xristian idi.

Elə bu vaxtlar İspaniya kralı Vititsa öldükdə ispanlar onun oğlanlarından narazı olduğundan taxt-taca xristian Roderiki gətirdilər. O, kral nəslindən olmasa da, igid döyüşçü idi və İspaniyanın ən yaxşı sərkərdəsi hesab olunurdu. Həm də Vititsa İspaniyaya yəhudiləri qaytarmışdı və kilsə imtiyazlarını ləğv edib yəhudilərə imtiyaz vermiş, onları mükəlləfiyyətlərdən azad etmişdi.

O dövrün qaydalarına görə hər bir ispan qrandı öz oğlanlarını və qızlarını həmin dövrdə İspaniyanın paytaxtı olan Toledodakı saraya göndərirdilər, orada onlar tərbiyə alırdılar və yalnız onlar hökmdara xidmət göstərmək hüququ qazanırdılar. Gənc oğlanlar kralın onlara verdiyi qızlara evlənirdilər. Roderik taxt-

taca çıxanda Yulianın qızına vuruldu və onu başdan çıxardı. Bunu eşidən Yulian çox hiddətləndi. Bundan sonra o, Muzaya bildirdi ki, ona tabe olur və mavrı dəvət edib şəhər darvazalarını onun üzünə açdı və müqavilə bağladı ki, o, və onun təbəələri heç bir təhlükə gözləməyəcəklər. Sonra o, İspaniyanı göstərib, onu bu ölkəni işğal etməyə dəvət etdi. Bütün bunlar 709-cu ildə baş vermişdi.

Muza bu barədə xəlifə Validə məlumat verdi. Valid ona cavab verdi ki, İspaniyaya yüngül qoşun göndər, lakin ehtiyatlı ol ki, müsəlmanları dənizin təhlükəsinə məruz qoymayasan. Xəlifə israr edirdi ki, yüngül qoşun göndərib ölkəni tədqiq etmək lazımdır. Muza bu göstərişdən sonra İspaniyaya öz tabeliyində olan Abuzər Tarifi 400 adamla və yüz atla birlikdə yola saldı. Bu dəstə boğazı dörd gəmidə keçib Andalos adlanan yarımadaya yaxınlaşdı. Buradan Afrikaya gedən bütün gəmilər yola düşürdü və ispan limanları var idi. Hamı yarımadada sahilə çıxanda Tarif ətrafı qarət etməyə başladı. Çoxlu gümüş ələ keçirib heç bir ziyan çəkmədən və itki vermədən Afrikaya qayıtdı. Bu hadisə 710-cu ildə cərəyan etdi.

Birinci ekspedisiyanın uğurlu yekunu müsəlmanları həmin ölkəyə sahib olmağa ruhlandırdı və Muza oraya öz vassallarından digərini, Tarik ibn Zayyadı göndərdi. Bu Həmədandan olan pers idi. Tariki 7 min müsəlman müşayiət etdi, onlar əsasən barbarlar və arasında çox az ərəb olan vassallar idi. Onlar həmin dörd gəmidə boğazı keçdilər. Gəmilər adamları və atları gətirdikcə, Tarik onları sahildəki bir qaya üzərinə yığırdı. Bu tədbir 18 oktyabr 711-ci ildə başa çatdı. Tarik sahilə çıxanda Roderik ona qarşı böyük ordu topladı. Düşmənin hazırlaşdığını öyrənən Tarik Muzaya yeni kömək göndərilməsi barədə xahiş etdi. Muza əlavə gəmilər qayırtdırıb, əlavə 5 min adam göndərdi. Bu vaxt Tarik artıq xeyli qənimət ələ keçirmişdi. Onunla birlikdə gələn Yulian ona xeyli xidmət göstərmişdi, ona məlum olan xəbərləri Tarikə çatdırır, ispanların zəif yerlərini öyrənirdi.

Roderik mavrların üstünə gələndə Vititsanın oğlanları da onun qoşununda idi. Bu printslər taxt-tacın onların əlindən çıxmasında Roderiki günahkar saydıqlarından ona xəyanət etməyi qərara aldılar. Onlar güman edirdilər ki, yadellilər ölkədə qalmayacaqlar. Ona görə də döyüş vaxtı ispan ordusunun bir qolu Vititsanın oğlanlarının başçılığı altında qaçmağa üz tutdular. Təkcə Roderikin özünün başçılıq etdiyi mərkəz möhkəm dayanmışdı, lakin geri çəkiləndə müsəlmanlar dəhşətli qırğın həyata keçirdilər. Roderik döyüşdə həlak oldu. Bu qələbədən sonra Tarik ona möhkəm müqavimət göstərən Eçija şəhərini tutdu.

İspanlar güman edirdilər ki, Tarik də əvvəlki Tarif kimi Afrikaya qayıdacaqdır, bunun əvəzində onun ölkənin içərilərinə doğru irəlilədiyini gördülər. Ona görə də Toledoya və digər şəhərlərə çəkilib müdafiəyə hazırlaşdılar. Yulian da Tariki böyük ordu ilə Toledo üzərinə getməyə təhrik edirdi və bələdçi qismində digər şəhərləri tutmaq üçün ayrıca dəstələr göndərməyi məsləhət gördü. Tarik onu eşidib, Kordobaya 700 nəfərlik qoşun göndərdi və müsəlmanlar qa-

lib gəldikdən sonra hamısı ata sahib oldu, bir nəfər də olsun piyada döyüşçü qalmadı. Digər şəhərlərə, o cümlədən Qranadaya belə dəstə göndərildi. Tarik özü isə əsas qüvvələrlə Toledoya yaxınlaşdı. Burada qarnizonunu yaratdıqdan sonra o, Qvadalaxaraya yollandı və 712-ci ildə yenidən Toledoya qayıtdı.

Elə həmin ilin iyununda Muza ibn-Nosayr özü nəhəng ordu ilə İspaniya sahillərinə çıxdı. Tarikin igidliklərini eşitdikdə ona nifrət etməyə başladı və onun yolu ilə getməyib, başqa şəhərləri tutmağa başladı. O, əvvəlcə Medina-Sidoniya şəhərini tutdu. Sonra o, qələbələrini davam etdirərək, İspaniyanı qotlar işğal edənə qədər ölkənin paytaxtı olan Sevilyanın üstünə getdi. Qot kralları paytaxt kimi Toledo şəhərinə üstünlük vermişdilər, çünki Roma əyanları da orada yaşamaqda davam edirdi, şəhər dünyəvi və dini elmin mərkəzi olaraq qalırdı. Bir neçə aylıq mühasirədən sonra Sevilya tutuldu və burada yəhudilərdən ibarət qarnizon təşkil etdikdən sonra Muza Meridanın üstünə getdi. Şəhər yaxınlığında qanlı döyüş getdi. İspan döyüşçüləri şəhərə çəkildilər, yaxşı möhkəmləndirildiyindən və qalın divarlarla əhatə edildiyindən Muza şəhərə bir neçə ay ərzində nəticəsi olmayan mühasirə tətbiq etdi. Nəhayət qüllənin altından lağım qazıldı, lakin burada çoxlu müsəlman öz ölümünü tapdı. Buna baxmayaraq, xristianlar danışığa getməyə məcbur oldular. İlk dəfə onlar sərkərdənin ağ saqqalı olduğunu görmüşdülər, sonrakı dəfə Muza saqqalına həna qoyduğundan tüklər qəhvəyi rəng almışdı. Orucdan sonra isə onun qara saqqallı olduğunu gördülər. Bu ispanları təəccübləndirdi ki, onların peyğəmbərləri öz istəyinə uyğun olaraq qocanı cavanlaşdıra bilir. Onların kralı əvvəlcə qoca idisə, sonra cavan oğlana döndü. Ona görə də müqavilə bağlamaqla razılaşdılar və həlak olanlarla qaçanların bütün əmlakını müsəlmanlara verdilər, kilsələrin var-dövləti və bəzək əşyaları isə Muzaya çatdı.

713-cü ildə Meridanın qapılarını müsəlmanlara açdılar. Bundan sonra Muza Toledoya yollandı, Tarik hörmət əlaməti olaraq onu qarşılamağa çıxdı və ağasını uzaqdan görəndə atından düşdü. Muza isə qamçı ilə onun başına zərbə vurdu və tabe olmamağına görə onu ciddi məzəmmət etdi. Xəlifə Validdən 714-cü ildə geri, saraya qayıtmaq barədə göstəriş alanda Muza bütün İspaniyanın idarə edilməsini öz oğlu Əbdüləzizə tapşırdı və onun iqamətgahı Sevilyada yerləşdi. Muza buradakı Qvadalkvir çayında müsəlman donanmasının olması barədə öz arzusunu bildirdi ki, Sevilya bütün İspaniyanın limanı olsun. İspaniyanın işğalı belə dramatik səhnələrlə müşayiət olundu.

İspaniya mavrlar tərəfindən işğal edildikdən sonra Dəməşq xəlifələri Əməvilərin canişinləri tərəfindən idarə olundu. Onlardan biri 725-ci ildən başlayaraq altı il ərzində hökmranlıq edən Əbdürrəhman öz torpaqlarını Pireney dağlarının arxasınadək genişləndirməyə can atırdı. O, Luara çayına qədər çatdı, lakin burada Karl Martell frank qüvvələrinə başçılıq etməklə 732-ci ildə onu darmadağın etdi. Əbdürrəhman Qaskoniyaya və Akvitaniyaya hücum etmək istəyirdi, Qalliyada islama yol açmaq istəyirdi. O, əslində ciddi müharibə aparmaq və iş-

ğal istəmirdi, bu ərazilərdən ölkənin xeyli hissəsində soyğunçuluq etmək, hər yeri viranə qoymaq məqsədini güdürdü. Lakin franklar üçün Puatye yaxınlığındakı döyüş mühüm siyasi əhəmiyyətə malik idi. Əbdürrəhmanın ordusu sayca çox olsa da, müxtəlif tayfalardan olan dəstələrdən ibarət idi. Onun tərkibində ərəblər və barbarlar, sonralar kömək üçün Misirdən gələn ərəb qoşunları, müxtəlif məcara axtaranlar var idi. Onun kənardan gələn qüvvələri 20-25 min adamdan ibarət idi, bütünlükdə isə ordusunda 65-70 min adam var idi. Nəhayət o, Bordo istiqamətində olan Qaronnaya çatdı. O, qədim şöhrəti və bol sərvəti olan bu şəhəri tutmaq istəyirdi. Əbdürrəhman Qaronna çayını keçib akvitaniyalılarla döyüşə girdi və onları darmadağın etdi. Bu qələbədən sonra o, Bordoya hücum edib şəhəri basqınla tutdu və öz qoşunlarına soyğunçuluğa verdi. Qarət olduqca böyük idi. Hər bir əsgər qızıldan başqa çoxlu daş-qaş götürmüşdü. Mavrlar Bordodan elə ağır qənimətlə çıxmışdılar ki, əvvəlki tək tez və sərbəst hərəkət edə bilmirdilər. Sonra onlar şimala doğru istiqamət götürdülər. Beləliklə, onlar Akvitaniyanın əl çatan və ən varlı yerlərinin hamısında oldular. Luara çayını keçib Burqundiyanın içərilərinə soxuldular.

Yürüşün davam etdiyi üç ay ərzində Əbdürrəhman Akvitaniyada elə bir ciddi müqavimət görməmişdi. Dəstələr yaxınlaşanda tarlalar, kəndlər boşalırdı və qaçqınlardan qisas almaq üçün hər şeyi dağıdır və yandırırdılar. Zəmilər, bağlar, evlər, kilsələr yandırılırdı. Müsəlmanlar monastırlara xüsusilə düşmən münasibəti bəsləyirdilər və onları daha qızğıncasına qarət edirdilər. Sonra o, məşhur abbatlığı olan Tur şəhərinin üstünə getdi, şəhəri tutmaqla abbatlığın xəzinəsini ələ keçirmək istəyirdi. Puatyeyə gəlib çatanda onlar darvazaları bağlı gördülər, sakinlər divarların üstündə dayanıb müdafiə olunmaq qətiyyəti göstərirdilər.

Akvitaniya hersoqu tələsik Parisə yollanıb Karl Martellin yanına gəldi və öz bədbəxtliyi haqqında danışıb ona təlqin etdi ki, mavrlara qarşı silahlansın, çünki onlar Qalliyanın digər ərazilərini də viran qoyacaqlar. Karl buna razılıq verdi və frankların bütün qüvvələrini toplamağa başladı. Bir ərəb tarixçisinin sözlərinə görə, krala bir belə az sayda və böyük olmayan vasitələrlə ərəblərin belə çox əhalisi və nəhəng vəsaitləri olan İspaniyanı zəbt etməsinə, hətta döyüşdə əyinlərinə dəmir geyim geyinməyən bu adamlara heç kəsin müqavimət göstərə bilməməsindən təəccüb dolu bir sual verildikdə, Karl cavab vermişdi ki, "Mən düşünürəm ki, hər şeyi süpürüb aparan sel kimi onları basqının başlanğıcında dayandırmaq lazım deyildir. İşin əvvəlində cəsarət onlar üçün sayı və zirehi əvəz edir, lakin onlara soyumaq üçün, qənimətlərlə və əsirlərlə yüklənmək, başçılıq hüququ üstündə sözləşmək üçün vaxt verilsə, bu vaxt ilk birinci uğursuzluqda onlar bizim olacaqlar". Bu sözlər hətta uydurma olsa da, frankların mavrları yaxaladığı vəziyyəti çox düzgün təsvir edir. Karla öz ordusunu yığmaq üçün Əbdürrəhmana Akvitaniyanı xaraba qoymaq üçün sərf edilən qədər vaxt lazım oldu.

Əbdürrəhman Turun divarları qarşısında olanda frankların yaxınlaşdığından xəbər tutdu. Buradakı mövqeyi əlverişsiz sayıb o, düşərgəsini götürüb Puatyeyə tərəf çəkildi. Lakin çox miqdarda qənimət, araba və əsirlər onun hərəkətini çətinləşdirirdi və bu döyüşə girmək əvəzinə, geri çəkilməni daha da təhlükəli edirdi. Ona görə də o, düşməni Puatye çölündə gözləməyi qərara aldı. Hər iki ordu bir-birinə maraq və dəhşət içərisində yaxınlaşırdı. Karlın ordusunda çoxlu qall-romalılar var idi, ərəblərin dediyinə görə isə ordu müxtəlif dilli adamlardan təşkil olunmuşdu. Lakin ordunun daha yaxşı silahlanmış, ən böyük hissəsini franklar, xüsusən Avstraziyadan olanlar təşkil edirdi. Onlar ilk dəfə idi ki, döyüş meydanında mavrlarla görüşürdülər. Mavrlar frank ordusunu görəndə heyrətə gəldilər. Güman ki, ordunun say tərkibi də ərəblərinkindən az deyildi. Onlar bütün həftə ərzində düşərgədə dayanmaqla bir-birinə qarşı durdular. Yeddinci ya səkkizinci gün, süvari dəstəsinin başında dayanan Əbdürrəhman hücum işarəsi verdi və əslində bu ümumi işarə rolunu oynadı. Döyüşün müvəffəqiyyəti axşama yaxınlaşana qədər iki tərəfin arasında tərəddüd edirdi, lakin axşam düşəndə frank süvari dəstəsi düşmən düşərgəsinə soxuldu ki, mavrların arxasına keçsin. Bu manevri görən müsəlman süvariləri öz postunu qoyub düşərgəni müdafiə etməyə cumdu. Süvarilərin bu geri çəkilməsi mavrların vuruş qaydasını bütünlüklə pozdu və Əbdürrəhman geri çəkilənləri dayandırmaq üçün atını çapanda franklar əlverişli dəqiqəni hiss edib, həmin qayda pozulan yerə atıldılar və bu vaxt qanlı toqquşma baş verdi. Bu döyüşdə çox sayda mavr kimi, Əbdürrəhmanın özü də həlak oldu.

Mavrlar gecə, tam səssiz-səmirsiz düşərgədən çıxdılar və qarət götürdükləri böyük sərvəti orada qoyub getdilər. Belə tələsik geri çəkilmə ilə, onlar olduğundan daha artıq dərəcədə özlərinin məğlub olduqlarını etiraf etdilər. Puatye döyüşü məşhurlaşmaqla yanaşı xristianları, frankları və Karlı şöhrətləndirdi, saratsinlərin bəlasına çevrilən Martellə çevrildi, başqa sözlə "çəkic" ləqəbini qazandırdı.

Lakin ərəblərin bədbəxtlikləri təkcə Puatye məğlubiyyəti ilə bitmirdi. Ərəb dünyasının özündə mühüm dəyişikliklərə gətirib çıxaran siyasi hadisələr baş verdi. Məkkənin Qüreyş tayfasından olan Əməvi ərəblərindən çıxmış və başlanğıcını 661-ci ildən götürən xəlifələr sülaləsinin hökmranlığı sona çatdı.

Əməvilər dövründə ərəblər Şimali Afrikanı, Pireney yarımadasının xeyli hissəsini, Orta Asiyanı və digər əraziləri tutmuşdular və xilafətin hüdudları üç qitəni əhatə etməklə xeyli genişlənmişdi. Lakin 747-750-ci illərdə Əbu Müslimin başçılıq etdiyi üsyan Əməvilərin taxt-tacdan devrilməsi və hakimiyyətə Abbasilərin gəlməsi ilə nəticələndi. Xilafətin paytaxtı da Dəməşqdən Bağdada keçirildi. Əməvilərdən biri olan I Əbdürrəhman ailəsi məhv edildiyinə görə İspaniyaya qaçdı, burada rəqiblərinə qalib gəlib özünü müstəqil xəlifə elan etdi və paytaxt kimi Kordoba şəhərini seçdi. 756-cı ildə o, Kordoba əmirliyinin əmiri oldu. I Əbdürrəhman mərkəzləşmiş siyasətə üstünlük verirdi, əyalətlərin

əmirləri və ya hökmdarları mərkəzi hakimiyyətin belə yaxınlığından narazı idilər, qoyulmuş qaydalara qarşı çıxdılar və özlərinə kömək üçün xristianlara müraciət etdilər. Belə ki, Saraqosa əmiri Böyük Karlı dəvət etdi və 778-ci ildə franklar Ebro çayına qədər olan bütün Şimali İspaniyanı müsəlmanların əlindən aldılar, burada Böyük Karl İspan marxiyası - sərhəd qraflığı yaratdı. Leon və Navarra kralları da öz torpaqlarını Duro çayına qədər genişləndirdilər. Beləliklə, 8-ci əsrin sonunda Pireney yarımadasında Duro və Ebro çaylarına qədər Kordoba xilafəti, ölkənin şimali-qərbində Ovisdo krallığı və şimali-şərqində isə Böyük Karl monarxiyasının əyaləti olan İspan marxiyası mövcud idi.

## Britaniya

Roma imperiyasının bütün əyalətləri içərisində Britaniya öz qəsbkarlarının sivilizasiyasının təsiri altına daha az düşmüşdülər. Roma rəvayətləri və dili buraya adanın işğalçılarının özü tərəfindən deyil, bu işğalçıların özünün romanlaşmış fatehləri olan xristian dini missionerləri tərəfindən gətirilmişdi. Britaniyanın bu ikinci qəsbi Sezardan başlayan birinci işğalından daha möhkəm olmaqla, ingilis xalqının ictimai həyatında dərin iz qoydu. Avropanın heç bir yerində kilsə İngiltərənin taleyində əks olunan kimi belə mühüm rol oynamamışdı. Hələ 4-cü əsrdə brittlər missionerlərin əlindən yeni dini qəbul etmişdilər.

Roma legionlarının çəkilib getməsi ilə erkən Britaniyada 5-ci əsrdən, 11-ci əsrin sonunda Norman ağalığı qurulana qədər anqlosakslar başlıca rol oynadılar və yerli brittlərlə düşmənçilikdə katolik dini öz planlarını həyata keçirib, britt yepiskoplarını Papa taxt-tacına tabe etdirdilər. Həmin dövrlərdə "ingilisi" meydana gətirən, bu ərazidə məskunlaşan və həm də onu mədəniləşdirənlər anqlosakslar və skandinaviyalılar oldu. Roma tikililəri istifadəsiz qaldığından sonrakı nəsillər onları söküb özləri üçün inşaat materialı kimi istifadə etdilər.

Anqlosakslar yerlilər üzərində üstünlüyə malik olmaq üçün Papanın köməyinə ehtiyac duyurdular. Papaya isə Britaniya kilsəsini özünə tabe etmək üçün anqlosakslar lazım idi. Bu əsasda da anqlosakslarla papaların sıx ittifaqı meydana gəldi və adada elə bil ki, xristianlığın ikinci yayılması baş verdi. Saksonlar 597-ci ildə bütpərəstlikdən xristianlığa keçdikdən əvvəl burada məskunlaşmışdılar. 8-ci və 9-cu əsrlərdə isə skandinaviyalı müdaxiləçilər bu yerlərdə yaşamağa başladılar. Əcnəbilərlə müharibələr qurtarsa da, daxili müharibələr davam edirdi.

410-cu ildən sonrakı otuz il ərzində roman-Britaniya əhalisi özlərinin müdafiəsində tiranların bir-birini əvəz etməsinə arxalanırdı. 3-cü əsrin ortalarından etibarən Britaniyanın şərq və şimal sahillərinə kelt xalqına sakslar kimi məlum olan qarətçi dəniz quldurları müəyyən fasilələrlə hücum edirdilər və romalılar onları köməksiz qoymuşdular. Bu hücumlar german xalqlarının məlum böyük miqrasiyasının bir hissəsi idi və bu tayfalar artıq bütün Roma imperiyasına təh-

lükə törədirdilər. Britaniyada isə həm romalılar, həm də "tiranlar" saks muzdlularından piktlərə qarşı apardığı döyüşlərdə istifadə edirdilər. Romalılar 2-ci əsrdə Hadrian səddini də qonşuluqdakı piktləri və şotlandları müşahidə etmək üçün tikmişdilər.

Lakin romalıların bir dənizdən digərinə qədər tikdikləri bu sədd, igid və döyüşkən düşmənə öz qarşısında zəif, müharibəyə hazır olmayan xalqı gördükdə keçilməz hədd rolunu oynaya bilmirdi, onlar asanlıqla bu səddi dağıdıb basqınlar edirdilər. Piktlərin bu hücumlarına dözə bilməyən brittlər qalibiyyətli hünərləri barədə çox eşitdikləri saksların yanına yollandılar ki, onlardan kömək barədə acizanə qaydada xahiş etsinlər. Onların elçiləri sakslara bildirdilər ki, hər cür nemətləri olan öz geniş ölkələrini, bu kömək müqabilində onların ixtiyarına verməyə hazırdırlar. Bu vaxtadək romalıların ağalığında və müdafiəsində yaxşı və sərbəst yaşayırdıq, romalılardan sonra isə sizdən başqa heç kəsi tanımadığımızdan sizin mərdliyinizə sığınmaq istəyirik. Onlar hətta düşmən üzərində qələbə çalınsa, sakslara qul olmalarına dözəcəklərini vəd etdilər. Saksların ağsaqqalları isə bildirdilər ki, onlar brittlərə sədaqətli dost olacaqlar. Bundan sonra vəd edilən qoşun Britaniyaya göndərildi və bu qoşun ölkəni quldurlardan təmizləyib sakinlərə öz vətənini qaytardı.

Brittlərə düşmən olan skottlara (şotlandlara) və piktlərə qarşı yürüşlər edən sakslar həyat üçün lazım olan bütün ehtiyatları və ərzaqı brittlərdən alırdılar və bu möhkəm dostluğu əsas götürərək uzun müddət bu torpaqda qaldılar. Lakin sakson drujinalarının başçıları ölkənin genişliyini və torpaqların münbitliyini yəqin etdikdən sonra, həm də sakinlərin müharibə aparmağa qadir olmadıqlarını görüb öz yanlarına əlavə qoşun çağırdılar. Onlar skottlar və piktlərlə ittifaq bağlayıb brittlərə qarşı üsyan qaldırdılar, onları öz vətənlərindən qovdular və ərazini öz torpaqları kimi böldülər. Ada bir qədər dənizin küncündə yerləşdiyinə görə özlərini materikdəki qohumlarından fərqli olaraq "bucaq" mənasını verən *"angulus"* sözündən istifadə etməklə anqlosakslar adlandırdılar. Sakslar brittlərin kömək əli barədə xahişlərinə belə əməl edib, onları daha ağır faciə ilə üzləşdirdilər, özləri isə adanın daimi sakinlərinə çevrildilər. 450-ci ilə yaxın sakslar daha böyük miqyasda buraya miqrasiya etməyə başladılar və yerlilərin taleyini qəddarlıqla həll etdilər.

Keltlər də xristianlığı qəbul etmək üçün Roma Papası tərəfindən Britaniyaya göndərilmiş Avqustinin yanına gəldilər. Onlar öz müdriklərinin məsləhəti ilə silahlı gəlmişdilər ki, Avqustin onları ayaq üstə salamlasın, lakin mömin xristian heç nəyə əhəmiyyət verməyərək yerindən tərpənməmişdi.

Xristianlıq qəbul edildikdən sonra Romaya zəvvarlar yollanmağa başladı. Lakin bu səfər onlara çox əzablar hesabına başa gəlirdi. Qadın zəvvarlar Alp dağlarını keçəndə şaxtadan donurdular, sağ qalanlar isə, qədim tarixçi Bedanın yazdığına görə, öz həyatlarının sonrakı hissəsini zinakarlıqda və fahişəlikdə keçirməli olurdular.

Britaniyada aparıcı qüvvəyə çevrilən anqlo-saksonlar romalılar tərəfindən germanlar adlanırdı, lakin onlar yazmağı öyrəndikdə özlərini bu adla adlandırdılar. Onlar Almaniyada və Çökək (Aşağı) ölkədə yaşayan saksonlar və Danimarkadan olan yutlandlar idilər, bir hissəsi isə Şlezviqdəki Anqliya adlanan rayondan idi. Onların hamısı Britaniyaya dənizlə gəlirdilər, Şimal dənizinin əks sahilindən bura üzürdülər. Onlar kənd adamları olmaqla digər germanlar kimi şəhər həyatı ilə tanış deyildilər. Bütpərəst olmaqla germanların allahlarına və ilahi qüvvələrinə sitayiş edirdilər və buna uyğun olaraq onların keşişləri, bütləri və müqəddəs tikililəri var idi. İlahi qüvvələrin adları Tevton dillərində olan kimi idi. Lakin onların adaya nə qədər qadın gətirdiyi və ümumən hansı cinsi nisbətdə gəldikləri məlum deyildir.

Anqlosaks müdaxiləsinin ilk liderləri Henqist və Horsa adlı qardaşlar hesab olunur. Onlar özlərini böyük anqlo-sakson allahı Uodenin birbaşa nəslinə aid edirdilər.

5-ci əsrdə imperator legionlarının ölkəni tərk etməsindən sonra Şotlandiyanın dağ sakinləri olan piktlər və skottlar bundan istifadə edib ölkəyə basqınlar edirdilər, buna görə də brittlər öz milli hökumətlərini təsis etdilər və öz knyazlarından birinə ali hakimiyyəti etibar etdilər. Dağlılardan qorunmaq üçün onlar da Roma hökumətinin təcrübəsindən istifadə edərək anqlosaks german drujinalarını müdafiə üçün köməyə çağırdılar. Onlar materikin əks sahilində dolaşırdılar. 450-ci ilə yaxın qardaşların başçılığı altında onlar adaya gəldilər, piktlərlə vuruşdan sonra müttəfiq kimi bütün ölkəyə sahib oldular və Britaniyanın cənubi-şərq küncündə Kent krallığını yaratdılar. Henqist və Horsanın drujinasının uğuru barədə yayılan söhbətlər Britaniyaya yeni başçıların gəlməsinə şərait yaratdı. Həmin vaxtdan yerli brittlərlə, daim gəlməkdə davam edən anqlo-saksonlar (materikdəki saksonlardan fərqləndirmək üçün onlar belə adlanırdı) arasında qızğın mübarizə gedirdi.

477-ci ildə Ellanın drujinası Uayt adasının qarşı tərəfində olan, Kentdən qərbdəki dəniz sahilini tutdu və burada Susseks krallığı (başqa sözlə Cənubi Saksoniya) yarandı. 495-ci ildə digər drujina başçısı Perdik daha qərbə doğru irəliləyərək Kornvallis yarımadasına gəlib çıxdı və onun işğalı Uesseks (Qərbi Saksoniya) krallığının başlanğıcını qoydu. Hələ Henqistin vaxtında onun köməyinə dəvət edilən anqlların yerli drujinası ondan ayrılıb Şotlandiyanın sərhədində, Nortumberlend (başqa sözlə Şimal ölkəsi) torpağında yayıldı və burada çoxlu knyazlıqlar yarandı. Yalnız 6-cı əsr ərzində saksların Nortumberlend knyazlıqları iki krallıqda birləşdi. 547-ci ildə İda drujinası Şotlandiyanın lap sərhədində Bernitsiya krallığını yaratdı, Ellanın drujinası isə ondan cənubda, dəniz sahili boyu Deira krallığını formalaşdırdı.

Ümumiyyətlə, anqllar 5-ci əsrdə İngiltərənin cənub sahilində qərar tutdu, 6-cı əsrdə isə onlar onun şərq sahilinə və daxili torpaqlarına sahib oldular. 527-ci ildə Erkensin Kentdən şimalda Esseks (Şərqi Saksoniya) krallığının əsasını

qoydu, bu krallıq Temza ilə dəniz sahili arasındakı ərazini tuturdu. 575-ci ildə Uffanın drujinası Esseksdən şimalda sahil ölkəsini tutub Est-Anqliya krallığını yaratdı. Nəhayət, 585-ci ildə Kridanın axırıncı drujinası gəldi və şərqdə, həm də cənubda adanın bütün sahil boyu tutulduğundan yeddinci və sonuncu olan Mersiya (Orta Anqliya) krallığının başlanğıcını qoydu. Beləliklə, 449-cu illə 585-ci il arasında qədim Britaniyada tədricən yeddi yeni krallıq yarandı, buna görə də Britaniya anqlosaks epptarxiyası və ya yeddi hakimiyyətlilik adını aldı.

Britaniyanın qədim sakinləri anqlosakslar tərəfindən qəsb edilərək qul olmağa keçdilər, yaxud da barbarlar üçün əlçatmaz sayılan Uels və Kornvallis dağlarına uzaqlaşdılar. Orada onlar müstəqil knyazlıqlar yaratdılar. Onlardan bəziləri materikə keçib Armorinada məskunlaşdılar və bu yer onların adından Bretan adlanmağa başladı. Uels və Bretan beləliklə qədim keltlərin sonuncu sığınacağı oldu. Bu xalq çox qədim dövrlərdə bütün Qərbi Avropaya yayılmışdı. Bretan və Uelsdən 5-ci və 6-cı əsrlərdə yeni işğalçıları narahat edən milli qəhrəmanlar çıxırdı. 5-ci əsrdə Roma silahlı qüvvələri adadan uzaqlaşdıqdan sonra brittlər hətta öz həmvətənlilərindən biri olan Avreli-Amvrosini imperator elan etdilər, lakin Henqist və Horsa onu öldürdülər. Avrelinin oğlu Artur (508-542-ci illər) Uesseks kralı ilə mübarizəni davam etdirdi və onun igidlikləri brittlərin milli poeziyasını bəzədi. Lakin Artur öz vassallarının üsyanı vaxtı öldü və öz həmvətənlilərinin azadlığına heç bir fayda verə bilmədi.

7-ci və 8-ci əsrlərdə epptarxiya öz inkişafında anqllar arasında katolik dininin yayılması ilə yeni istiqamət aldı, çünki dini birlik həm də siyasi birliyə gətirib çıxarırdı. Bu epptarxiyanın məhv olmasına kömək etdi və katolik prelatlarına yaxşı xidmət göstərdi. Daha qüdrətli Uesseks və Kent kralları digərlərindən fərqlənirdi. 6-cı əsrin sonunda Kentdə Etelbert hökmranlıq edirdi və o, 596-cı ildə katolik dinini qəbul etdi və öz paytaxtı Kentenberidə Avqustinin şəxsində Roma prelatının hakimiyyətini qəbul etdi və onun yeznəsinin atası, Nortumberlend kralı Etelfrid britt yepiskoplarını əzdi və bu Roma kilsəsinin adada möhkəmlənməsinə əlverişli şərait yaratdı. 7-ci əsrdə digər krallıqlar üzərində Uesseks ucalmağa başlayır, 8-ci əsrdə isə epptarxları bir-birinin ardınca özünə tabe edir və nəhayət kral Eqbert (800-836-cı illər) Mersiyanı işğal etməklə 827-ci ildə özünü bütün İngiltərənin kralı elan edir. Beləliklə, yerli brittlər Qərbi Roma imperiyasının dağılmasından istifadə edə bilmədilər, yadellilər isə Papanın Roma taxt-tacının köməyi ilə İngiltərəni işğal etdilər.

İngiltərənin qədim həyat tərzi bu ölkə üçün taleyin nəzərdə tutduğu böyüklükdən heç cür xəbər vermirdi. Bu ölkə Roma silahı tərəfindən qəsb edilsə də, Roma incəsənətinin və elminin başqa əyalətlərə düşən gur işığı bu adaya çatdıqda xeyli zəifləmişdi. İspaniyada və ya Şərqdə romalılar akveduklar və iri tağlar tiksələr də, burada onlardan yalnız iri nişanə kimi Hadrian xətti qalmışdır. Hətta Qalliya latın dilli yaxşı şairlər verdiyi halda, Roma bəlağətli nitqinin və poeziyasının nümayəndələri arasında bir nəfər də olsun britaniyalı sakinə

rast gəlmirik.

Latın dili uzun müddət ağalıq edən dil olsa da və kelt dilini vurub sıradan çıxartsa da, sonradan öz yerini german dilinə verdi. Digər əsas Avropa xalqlarının dillərinin əsasını təşkil etsə də, bu dil german dili qarşısında dayanış gətirə bilmədi. Materikdə Roma imperiyası parçalananda german qaliblər məğlub etdikləri xalqdan çox şey öyrənmişdilərsə, Britaniyada məğlub olan brittlər öz qalibləri kimi barbar olaraq qaldılar, yaxud da onlardan elə bir mədəni irs əxz edə bilmədilər. Bu məsələdə Britaniyanın bəxti həm də ona görə gətirmədi ki, Roma imperiyasının kontinental əyalətlərində german sülalələrinin əsasını qoyanlar, adları çox vaxt lənətlərlə yad edilən Alarix, Teodorix, Klodovey, Alboin sədaqətli xristian olduqları halda, İda və Tsedrikin drujinaları Elba sahillərindən buraya heç də sivilizasiya işığını deyil, yerli tayfalarınkından o qədər də fərqlənməyən cəhalət payı gətirmişdilər.

German kralları xristian dininin ayinlərini icra etdikləri halda, Uesseksin və Mersiyanın anqlosaks hökmdarları bütpərəstliklərini davam etdirərək məbədlərdə Tora və Odinə ibadət edirdilər. Bu krallar zəifləsə də, hələ də öz mövcudluğunu saxlayan qədim sivilizasiya ilə ünsiyyətdə olmaqla onlardan çox şey öyrənirdilər. Britaniyada isə qədim yunan filosoflarının əsərləri, Roma dünyasını bəzəyən heykəltəraşlıq inciləri barədə elə bir təsəvvürə malik olmadıqlarından, onlara maraq da göstərmirdilər. Ona görə də bu adanın sakinləri maariflənmiş xalqların nəzərində cahil, ibtidai insan kimi görünürdü. Axı Yuli Sezar da özünün "Qalliya müharibəsi haqqında qeydlər" əsərində Britaniya adası sakinlərini belə qorxulu boyalarla təsvir etmişdi və ötən beş-altı əsr elə bir pozitiv dəyişikliyə səbəb olmamışdı.

Hətta Roma çarları müstəsna olmaqla m.ə. 5-ci əsrdən başlayaraq tarixin səhifələrinə düşmüş insanların böyük əksəriyyəti bu tarixi yaradan həqiqi şəxsiyyətlər olsa da, bundan min il sonra Britaniya səhnəsinə gələn Henqist və Horsa, Vortihern və Roven, Artur və Mordred qədim Romul və ya Numa Pompili kimi mifik şəxslərdir. Elə bil ki, Britaniya b.e. 5-ci və 6-cı əsrlərində yunan və roman mifologiyasının daha bəsit və sönük şəkildə yerli variantını yaratmağa girişmişdi.

Lakin bu zamanı bürüyən qaranlıq uzun müddət davam edə bilməzdi və Britaniya adı altında gizlənən ölkə, İngiltərə adı altında yenidən və daha real cizgilərlə görünməyə başladı. Bu işdə anqlosaksların xristianlığa keçməsi mühüm rol oynadı. Lakin xristian dini burada yenə də öz imkanlarından lazımınca istifadə edə bilməyib həmin dövr üçün xeyirxah xidmət sayıla bilən dünyəvi hakimiyyəti öz əlinə keçirə bilmədi. Bu mümkün olsaydı, ölkə cahil adamların özbaşınalığı ilə deyil, müdrik və qanunları layiqincə icra edən maariflənmiş şəxslər tərəfindən idarə olunardı. Savad, maariflənmə zorakılığa hədd qoymaqla yanaşı, tiranların meydana çıxmasına xeyli mane ola bilir. Axı maariflənmə olmadıqda, cəhalət və zorakılıq nəinki mövcudluğunu davam etdirir, həm də öz

təsirini, azğınlığını şiddətləndirir. Belə kübarlar olmasaydı, məşhur ingilis tarixçisi Tomas Makoleyin dediyi kimi, "Avropa cəmiyyəti yalnız yük heyvanlarından və vəhşi heyvanlardan ibarət olardı".

Xristian dini adamların zorakı təbiətini və kobudluğunu yumşaltmaqda az rol oynamırdı. Hətta müharibələrdə qaliblər məğlubların da onlar kimi xristian olduğunu yadlarına saldıqda öz qəddarlıqlarını azaldırdılar. Saksonlar xristianlığı qəbul etdikdən sonra dünyaya başqa gözlə baxmağa başladılar. Britaniya ilə Avropanın digər hissələrinin birbaşa əlaqələri meydana gəldi, həmin ərazilərdə isə böyüklüyün və maarifin izləri bütünlüklə yoxa çıxmamışdı. Sonralar çox sayda zərbə alan, dağıdılan, eybəcər vəziyyətə salınan böyük abidələrin çoxu öz ilkin füsunkarlığını saxlayırdı. Britaniyadan Romaya ziyarətə yollanan zəvvarlar böyük maariflənmiş dünyanın salamat qalmış kiçik bir hissəsi ilə də olsa tanış olmaq imkanı əldə edirdilər. Ada sakinləri oradan dərin ehtiram hissi ilə qayıdırdılar, onların kobud könüllərinə gördükləri silinməz iz salırdı. Təəccüb və heyranlıq bu insanların şüuruna öz təsirini göstərirdi, onlarda gözəllik duyğusu yaradırdı. Ziyarətdən qayıdanlar xırda komalarda yaşayan öz yerlilərinə Qiyamət gününə qədər dağılmayacaq iri tikililər barədə danışdıqda, bu söhbətlər möcüzə ilə təmasda olmaq xarakteri daşıyırdı. Adada xristianlığın meydana gəlməsi, savada və biliyə bu vaxtadək bağlı olan qapıları açmışdı. Mersiyanın və Nortumberlendin monastırlarında adamlar romalıların yeddi-səkkiz əsr əvvəl malik olduqları Avqust dövrünün poeziyasını, Horatsi, Vergili və Ovidi incilərini özləri üçün kəşf edirdilər, onların nitq mədəniyyəti bulağının nəcib suyu ilə bu yanğını ilk dəfə söndürürdülər.

# FƏSİL 3
# AVROPANIN BÖYÜK KARLDAN SƏLİB YÜRÜŞLƏRİNƏ QƏDƏR OLAN DÖVRDƏKİ (768-1096-CI İLLƏR) TARİXİ

Qərbi Roma imperiyasının dağılmasından Böyük Karla qədər olan dövr kimi, sonrakı mərhələ də Səlib yürüşlərinin başlanmasına qədər olan müddəti əhatə etməklə üç əsrin mənzərəsini yaradır. Bu böyük dövr ərzində müstəsna dərəcədə müxtəlif hadisələr baş vermiş, nəticəsi olmayan və əbəs qan axıdılması ilə nəticələnən ilk Səlib müharibəsi ilə başa çatmışdı. Böyük ağıl sahibləri və xalq kütlələrinin instinkti cəmiyyəti 8-ci əsrin sonunda mövcud olan xaosdan çıxarmağa və yeni qayda yaratmağa yönəlmişdi. Bu dövrdə feodalizm sistemi bütünlüklə formalaşmış, cəmiyyətdə ierarxiya münasibətləri təşəkkül tapmışdı. 9-cu-11-ci əsrlərdə elə bir feodal dövləti yaranmışdı ki, çoxlu hissələrdən ibarət olmaqla bütün ərazilər burada vahid ad altında birləşmişdi. Bütün Qərbi Avropa bu vaxt bir imperatora yiyələnmişdi, eyni zamanda həm də hansısa qalanın və kiçik bir torpaq sahəsinin sahibi olan adam ali hökmdarın bütün hüquqlarından istifadə edirdi.

Dövlət quruluşu formasının belə ikili xarakteri Qərbi Avropa cəmiyyətinin elementlərinin ikili qaydada olmasından yaranmışdı və bunun hesabına mövcudluğunu davam etdirirdi. Bir tərəfdən Roma imperiya irsi ən azı qanunçuluq abidələrində və klassik ədəbi əsərlərdə qalmışdı, üstəlik katolik ruhu yekdilliyi dəstəkləyirdi. Digər tərəfdən xalqların və onların mənafelərinin, ümumi sivilizasiyanın yoxluğundan əmələ gələn müxtəlifliyi hər bir yer üçün kiçik, müstəqil həyat tərzini tələb edirdi.

Böyük Karl az qala yarım əsrlik zəhmət hesabına Roma və katolik ideyalarının təntənəsinə nail olmuşdu. 9-cu əsrin sonunda o, bütün indiki Almaniyanı, Fransanı, İtaliyanı cənub müstəsna olmaqla və Ebro çayına qədər olan İspaniyanı əhatə edirdi. İngiltərə ayrıca krallara malik olsa da, Böyük Karlın adına hörmətlə yanaşırdı və onun şotland dağlıları ilə başladığı əlaqələr tezliklə İngiltərəni onun tabeliyinə gətirib çıxara bilərdi. Karlın hakimiyyəti təkcə bir işğala və Roma imperatorlarının qədim irsinə əsaslanmırdı, bu ona görə daha çox ümumi xarakter daşıyırdı ki, ümumdünya ağalığına can atan Roma Papasının özü tərəfindən xeyir-dua almışdı.

Lakin bunlarla yanaşı Karl hər bir vilayətdə qraflar təyin etmişdi və imperiyanı öz oğlanları arasında bölmüşdü. Onun zəif varisləri və ailəsinin çox sayda olan üzvlərinin vaxtında Karl monarxiyası özünün belə quruluşu ucbatından imperiyanın parçalanmasını zəruri edirdi. Karolinqlər ailəsinin uşaqları, nəvələri və nəticələri imperator titulunu daşıyırdılar, lakin 877-ci ildə Böyük Karlın nəvəsi Keçəl II Karl hökumət vəzifələrinin varislik qaydasında olduğunu tanı-

dı və onun nəticəsi Şişman II Karl 888-ci ildə devrildikdə ayrı-ayrı xalqlardan olan qruplar özlərinə milli krallar seçdilər və Karl monarxiyası üç iri - Almaniya, İtaliya və Fransa dövlətlərinə və beş kiçik - iki Burqundiya dövlətinə, Kastiliya, Araqon və Navarra dövlətlərinə parçalandı.

Belə parçalanma xalqların şimaldan yeni köçü ilə müşayiət olundu. Bunlar Fransada, sonra isə İtaliyada məskunlaşan normanlar olmaqla hersoqluqlar yaratmışdılar. Digər tərəfdən normanların müdaxiləsi Böyük Karlın ideyalarının həyata keçirilməsinə kömək etdi. 11-ci əsrdə fransız normanları Böyük Karlın birləşdirməyə müvəffəq olmadığı Cənubi İtaliyaya sahib oldular, 1066-cı ildə isə Normandiya hersoqu İngiltərəni işğal etdi. Bununla Böyük Karlın əlinə keçə bilməyən Qərbi Avropa torpaqları da Karl monarxiyasının qalıqları kimi feodal münasibətlərinə cəlb edildi. Bununla yanaşı özlərini müstəqil krallar elan edən Navarra, Kastiliya və Araqonun ispan markqrafları 11-ci əsrin sonunda müsəlmanların əlindən İspaniyanın yarıdan çoxunu aldılar, german kralları isə öz hakimiyyətlərini şimala, Vislaya qədər olan slavyan ölkələrinin demək olar ki, hamısına yaydılar.

III Karlın ölümündən sonra imperiya öz mövcudluğunu kəsmədi, 9-cu əsrin sonunda və 10-cu əsrin birinci yarısında İtaliya və Burqundiya kralları növbə qaydasında imperator titulunu daşıyırdılar. Onların arasındakı ixtilaflar german krallarına imkan verdi ki, bu titulu özlərinə götürsünlər və 962-ci ildə Böyük Otton İtaliya və Almaniyanı birləşdirən imperiyanı bərpa etdi. O, Fransanı ələ keçirməyə cəhd etdikdə orada hələ də Böyük Karlın törəmələri qalırdı və 987-ci ildə Roma birliyinin yeni iddialarına cavab olaraq Kapetinqlər sülaləsi meydana gəldi.

11-ci əsrin sonunda Qərbi Avropa dəhşətli xaosu andırırdı və bu qarmaqarışıqlıq dünyanın sonunun yetişdiyi təsəvvürünü yaradırdı. Birlik üçün bu təhlükəli barbarlığın və başıpozuqluğun son həddə çatdığı dövrdə I Ottonun varislərinin, xüsusən III Henrixin möhkəm qayda yaratmaq cəhdləri uğursuz oldu və 11-ci əsrin ikinci yarısında Papa taxt-tacına VII Qriqori Gildebrand çıxdı. Papanın tiarası altında onun ümumkainat xristian monarxiyası yaratmaq ideyası dünyəvi hakimiyyətin təmsilçiləri tərəfindən kəskin müqavimətlə qarşılaşdı və hər bir utopiyanın taleyi kimi, praktiki nəticəsi olmadan sıradan çıxdı. Lakin VII Qriqorinin fəaliyyəti dövründə yoxa çıxmayan bəzi ideyalar ictimai münasibətlərdə çevriliş əmələ gətirdi, bunlar onun iradəsindən nəinki asılı deyildi, hətta onun başlıca məqsədinin əksinə idi. O, feodal zorakılığına qarşı özünə dayaq axtaranda xalq kütlələrini dünyəvi hakimiyyətə qarşı qaldırdı və onları qanunçuluq və qayda quruluşunu formalaşdırmaqda iştirak etməyə çağırdı. Beləliklə 11-ci əsrin sonunda feodal dövlətlərdən kənar yeni qüvvə yarandı, həmin qüvvə bu dövrə qədər feodal ierarxiyasında vətəndaşlıq hüququna malik deyildi. Bu orta zümrə idi, yalnız bir ümumi məqsəd naminə yeni qüvvəni ayağa qaldırmaq üçün bəhanə çatmırdı. Bu bəhanə həm feodal dövlətinin üzvləri, həm də

sadə adamlar üçün eyni qaydada yararlı olmalı idi. Sahibin tabutunun azad edilməsi belə bir məqsədə çevrildi, lakin nəticə göstərdi ki, Sahibin tabutunun azad edilməsi kütlələrin feodal zülmündən azad olunması ilə müşayiət olunur və orta silkin feodal cəmiyyətinə daxil edilməsinə gətirib çıxardı.

Səlib yürüşlərinin dövründə feodalizm öz mühitinə üçüncü silkin timsalında, xalqın xeyli hissəsini əvvəlki iki feodal-dünyəvi və ruhani baronların zümrəsinə əlavə etdi, tam və əla inkişaf mərhələsi başlandı və bu intellektual, sənaye və ticarət qüvvələrinin qeyri-adi uğuru ilə müşayiət olundu. 12-ci və 13-cü əsrlərdə universitetlər, zəngin xalq ədəbiyyatı, öz yeni ictimai anlayışlarına malik olan rıtsarlıq, italyan və alman şəhərlərinin böyük miqyaslı öz ümumdünya ticarəti və var-dövləti olan tacir kontorları meydana gəldi. Üçüncü dövrün bu şəraiti ondan əvvəlki üç əsrlik yorucu mübarizəyə ayrılan vaxtın nəticəsi olmaqla, üç əsas epoxaya bölünür. Onların başlıca nümayəndələri isə 9-cu əsrdə Böyük Karl, 10-cu əsrdə Böyük Otton, 11-ci əsrdə isə VII Qriqori Gildebrand idi. Ona görə də bu dövrə əsrlərin timsalında baxmaq düzgün olardı.

Qərbi Roma imperiyasının xarabalıqları üzərində ucalan german krallıqları, Böyük Karl taxt-taca gələnə qədər öz keçmiş düşmənlərinin həmin pozulmuş şəraitinə düşdüklərini gördülər. Bu krallıqların daxilində əsas institutlar Roma qanunvericiliyinin və german adi hüququnun qarışığından ibarət idi. Xaricdən onları təhlükəli olan düşmənlər - həm dövlətlər, həm də din hədələyirdi. Şimaldan öz bütpərəst həmvətənləri olan sakslar, cənubdan isə müsəlmanlar onlara təhlükə törədirdi. 768-814-cü illərdə hökmranlıq edən Böyük Karl mavrlardan Ebro çayına qədər olan İspaniyanı aldı, vahid formalı daxili quruluş tətbiq etdi və bütün Qərbi Avropanın yeni birliyinin simvolu kimi isə 800-cü ildə Qərbin imperatoru titulunu seçdi. Yalnız İngiltərə Karlın monarxiyasının tərkibinə daxil deyildi, ona görə də bu ada şimal barbarları olan normanların basqınlarına güclə davam gətirirdi. Böyük Karlın ölümündən sonra onlar monarxiyanın parçalanmasından da istifadə edərək bu əməllərdən əl çəkmirdilər. Böyük Karlın müasirlərindən olan Britaniya epptarxlarından biri - Eqbert 827-ci ildə bütün İngiltərəni vahid dövlətdə birləşdirdi, lakin onun varislərinin dövründə normanlar onların zəifliyindən istifadə edərək bir sıra ərazilərə sahib oldular, Böyük Alfredin dövründə (871-900-cü illər) bütün krallığı işğal etdilər. Lakin ingilis kralı ölkəni yadellilərdən azad edib bütün diqqətini onun quruluşuna verdi və ingilis savadlılığının tarixində, əslində Böyük Karlın materikdə oynadığı rolu icra etdi.

Böyük Karlın ölümündən sonra İtaliya onun kiçik oğlu Pipinin xeyrinə imperiyanın qalan hissəsindən ayrıldı. Sonrakı hökmdarın dövründə onun öz övladları ilə dövləti parçalamaq üstündə ixtilafları başladı. Hökmdar Luinin oğlanları atalarına qarşı çıxdılar, onun ölümündən sonra isə böyük qardaşlarına qarşı qalxdılar. Barışıqdan sonra onlar imperiyanı üç hissəyə böldülər. I Lotar imperator titulu ilə İtaliyanı və Fransa ilə Akvitaniya arasında olan dar zolağı al-

dı. Lakin dağ əyalətlərinin bəzi qrafları özlərini müstəqil krallar elan etdilər və Alp dağları yaxınlığında iki krallıq əmələ gəldi. I Lotarın şərəfinə imperiyanın şimal hissəsi Lotaringiya adlandırıldı.

Karolinq Fransası və Almaniyası öz aralarında yenidən dövlətləri bölməli oldular. 9-cu əsrin sonunda Karloman İtaliyanı tutdu, III Lui isə Almaniyada qaldı. Hər iki qardaş övladsız öləndə İtaliya və Almaniya onların kiçik qardaşı Şişman III Karlın əlində qalmaqla birləşdi. Fransa baronları ölkənin taxt-tacını Şişman III Karla təklif etdilər və o, bu yolla 884-cü ildə demək olar ki, Böyük Karlın bütün monarxiyası bərpa edildi. Normanların müdaxiləsi, onlar tərəfindən Parisin məşhur mühasirəsi və III Karlın barbarlarla biabırçı müqaviləsi imperiyanın bütün vəzifəlilərini, 888-ci ildə Triburda seymə yığışıb, onu imperatorluqdan devirməyə sövq etdi. Karolinqlərlə yanaşı hər bir millət öz kralını seçdi və Böyük Karlın imperiyası üç hissəyə bölündü. Bu siyasi parçalanma dildə, qaydalarda və adətlərdəki dərin fərqlərlə üst-üstə düşürdü. Romanlar irqi İtaliyada, qall irqi Fransada və german irqi isə Reynin bu tərəfində yerləşirdi. Bu millətlərin sərhədləri boyu uzanan iki Burqundiya bu xalqların qarışığından ibarət olmaqla tezliklə onların arasında bölündü. Təkcə İspaniya markqraflığı öz vəziyyətinin xüsusi şəraitlərinə uyğun olaraq ayrıca ispan millətini əmələ gətirdi və onun dilinin əsasını roman dili təşkil etdi. 9-cu əsrdə Leon krallığı və meydana çıxan Navarra markqraflıqları Kordoba xilafəti ilə uğurlu mübarizə aparır və öz torpaqlarını demək olar ki, Taxo çayına çatdırırlar.

İspaniyada vestqot və frank tayfalarının uğurları hökmdarların şəxsi fərasətinə, həm də Kordoba hökumətinin demoralizə olmasına əsaslanırdı. Xilafətin əsasını qoyanın varisləri elmin və incəsənətin himayəçiləri kimi şöhrət tapsalar da, onların sarayı və idarəetmə sistemi özündə şərq mənşəli izləri qoruyub saxlayırdı. Xəlifə həm də nəhayətsiz hökmranlığa malik olmaqla yanaşı, xacə-yevnuxların əlində bir alətə çevrilmişdi və buna görə də tez ya gec hakimiyyəti itirməli və dövləti parçalanmağa gətirib çıxartmalı idi. Bu da 11-ci əsrdə baş verdi.

Böyük Karlın parlaq və görkəmli igidlikləri, böyük parçalanmadan sonra Qərbi yeni bir imperiyada birləşdirmək qabiliyyəti onun çoxtərəfli dühası barədə az şeylər demir. Onun şəxsi nümunəsi barədə bir çox müəlliflər, xüsusən Monteskyo öz məşhur "Qanunların ruhu haqqında" əsərində böyük ilhamla söhbət açmışdır. Dövlət xadimi və bir insan kimi o, özü haqqında olduqca xoş xatirələr qoyub getmişdi.

Karlın apardığı daxili və xarici siyasət çox uğurlu idi. Onun apardığı müharibələr içərisində isə ən birincisi 769-cu ildə hələ atasının başladığı, lakin başa çatdıra bilmədiyi Akvitaniya ilə müharibə idi. Pipin bu müharibəni krallığı qardaşı ilə birgə idarə edəndə tez bitirmək ümidi ilə başlamışdı, qardaşı Karlomanı ona kömək etməyə çağırmışdı. Bu böyük qardaş isə onu öz vədləri ilə aldatmışdı. Atasının ölümündən sonra Karl Akvitaniyanı və Qaskoniyanı özünə tabe

etdi. Bu müharibə başa çatanda Roma Papasının təkidi və xahişi ilə lanqobardlara qarşı müharibə başladı. Atası Gödək Pipin də hələ 756-cı ildə belə müharibə aparmışdı. O vaxt müharibə lanqobard kralına elan edilmişdi və qısa müddətdə başa çatmışdı. Karlın da müharibə aparmaq səbəbi atasınınkına bənzəsə də, heç də eyni çətinliklə getmirdi və tam fərqli nəticəyə malik oldu. Pipin Titsin (indiki Paviya) şəhərini bir neçə gün müsadirədə saxladıqdan sonra kralı girovlar verməyə və Romadan aldığı şəhər və qalaları qaytarmağa məcbur etdi və ona and içdirdi ki, bir daha yeni işğallara cəhd etməyəcəkdir. Karl isə 774-cü ildə kralı nəinki dövləti, həm də İtaliyanı rahat buraxmağa məcbur etdi. Roma sakinlərindən alınmış hər şeyi Karl onlara qaytardı, bütün İtaliyanı öz hakimiyyətinə tabe etdi və fəth edilmiş torpağa kral kimi öz oğlu Pipini təyin etdi. Karl vaxtilə Hannibalın üzərinə düşən kimi Alp dağlarını keçərkən əl çatmayan dağ zirvələrinə qalxmaq, sərt qayaları ram etmək, görünməmiş sınaqlara dözmək kimi qeyri-adi çətin vəzifələri həll etməli oldu. Bu əziyyətlər müqabilində Lanqobard müharibəsinin sonu İtaliyanın qəsb edilməsi ilə nəticələndi, kral Dezideri və onun oğlu həmişəlik İtaliyadan qovuldu, ondan alınan torpaqlar isə Roma kilsəsinin başçısına verildi.

Bu işi görüb qurtardıqdan sonra Saksoniya müharibəsini əvvəlki qüvvə ilə bərpa etdi. Almaniyada yaşayan demək olar ki, bütün xalqlar kimi sakslar çox döyüşkən olduqlarından bu müharibə daha qızğın və daha çox itkilərlə getdi. Sakslar ilahi və insan hüquqlarını təhqir edir, tez-tez sülhü pozurdular, sərhədlər isə franklarla onları qonşu etmişdi, çox az yerlərdə dağ silsilələrindən və geniş meşələrdən ibarət təbii maneələr var idi. Saksların şər əməlləri frankları çox qıcıqlandırdığından onlar açıq müharibəyə əl atmalı oldular. Bu müharibə 772-ci ildə başlamaqla 33 il davam etdi və bu müharibədən daha çox sakslar ziyan çəkdi. Onların xəyanəti olmasaydı müharibə tez də başa çata bilərdi. Onlar dəfələrlə məğlub olub əfv olunmalarını xahiş etmişdilər, tələb olunan girovları ləngimədən vermişdilər, lakin belə tezliklə də öz sözlərinə xilaf çıxmışdılar, heç bir il keçməmiş sakslar öz fikirlərini dəyişmişdilər. Karl isə başladığı işdə yenilməz olaraq qalırdı, fitnəkarlığın cəzasız qalmasına dözmürdü. O, xəyanətə görə qisas alırdı. Nəhayət, müqavimət göstərənləri darmadağın edib, Elbanın hər iki sahilində yaşayan 10 min adamı arvadları və uşaqları ilə birlikdə Qalliya və Almaniyanın müxtəlif hissələrində məskunlaşdırdı. Bu müharibənin ən böyük nəticəsi o oldu ki, sakslar xristian dinini qəbul edib franklara birləşdilər və onlarla bir xalqı əmələ gətirdilər.

Müharibə xeyli müddət uzansa da, Karl şəxsən düşmənlə iki ildən çox vuruşmadı. Onun iştirak etdiyi döyüşlər düşmənin tar-mar edilməsilə başa çatdığından, sakslar bir daha nə kralı döyüşə çağırmağa, nə də onun hücumunu dəf etməyə cəsarət etmirdilər. Lakin hər iki tərəfdən itkilər də az deyildi. Karl isə ağıl və xarakterdə öz müasirləri olan digər xalqların hökmdarlarından xeyli üstün olduğundan, heç bir çətinlik və təhlükə qarşısında öz məqsədinə nail olma-

mış, başladığı işdən əl çəkmirdi, bədbəxtlik anında belə ruhdan düşmürdü, uğur anında isə saxta və öyündürücü xoşbəxtliyə boyun əymirdi. Sakslarla qızğın müharibə getdiyi bir vaxtda, 778-ci ildə onlarla sərhəddə qarnizonlar yaradıb böyük qüvvə ilə İspaniyaya yollandı, Pireney dağlarını keçib yaxınlaşdığı bütün şəhərləri tutdu, qəsrləri isə təslim olmağa məcbur etdi. Bu yürüşdən uğurla və itkisiz qayıtdı. Yalnız yol boyu qaskonların xırda tələlər qurmaq kimi xəyanəti ilə rastlaşmalı oldu. Yerin dağlıq olması hər bir nöqteyi-nəzərdən qaskonlar üçün daha əlverişli idi və Karl bir neçə yaxın silahdaşını itirdi və ən pisi o idi ki, xain düşməndən qisas almaq mümkün olmurdu, onlar xırda zərbələr vurub yoxa çıxırdılar.

786-cı ildə isə Karl bretanları da ram etdi, onlar qərbdə, Qalliyanın okean sahilindəki uzaq hissəsində yaşayırdılar. Onlar itaətsizlik göstərirdilər və kral onlara qarşı qoşun göndərdi və məsələni asanlıqla həll etdi. Özü isə İtaliyaya girdikdən sonra Romadan keçib Kampaniyanın paytaxtı olan Kapuyaya yaxınlaşdı. Lakin əyalətin hersoqu müharibənin qarşısını almaq üçün kralın qarşısına böyük məbləğdə pulla öz oğlanlarını göndərdi və onları girov kimi götürməyi xahiş etdi, özü isə təkcə onun yanına gəlmək tələbindən başqa, Karlın bütün göstərişlərini öz xalqı ilə birlikdə yerinə yetirəcəyini vəd etdi. Kral xalqın faydasını göz önünə gətirərək, girovları və pulu götürüb hersoqun xahişini qəbul etdi. Hersoqun oğlanlarının isə böyüyünü buraxıb, yalnız kiçiyini girov kimi saxladı.

788-ci ildə isə qəflətən tez də sonluğa malik olan Bavariya müharibəsi başlandı. Buranın hersoqunun arvadı İtaliyadan qovulmuş kral Deziderinin qızı idi, bu qadın ərinin köməyi ilə atasının qisasını almaq istəyirdi. Hersoq hunlarla ittifaqa girməyə cəhd etdi, itaətsizlik göstərməklə yanaşı, hətta krala müharibə elan etdi. Hiddətlənmiş Karl bu dikbaşlığa dözə bilmədi və qoşun yığıb Bavariyaya hücum etdi. Lakin hersoq müqavimətin əbəs olduğunu anladı, krala təslim olduğunu elan etdi, tələb olunan girovları, o cümlədən öz oğlunu verdi, bir daha Karla qarşı çıxış etməyəcəyinə andla söz verdi.

Bütün bu narahatlıqlar başa çatdıqdan sonra slavyanlarla mübarizə başlandı. Bu yürüşdə müttəfiq kimi sakslar da iştirak edirdilər, əslində bunu görünüş xatirinə edirdilər. Baltik dənizinin sahilində çoxlu xalqlar, o cümlədən Danimarka sakinləri olan danlar, İsveç sakinləri sveonlar yaşayırdılar və bunların hamısını franklar normanlar adlandırırdılar. Onlar şimal sahillərini və sahil boyundakı bütün adaları məskunlaşdırmışdılar. Şərq sahilində isə slavyanlar, Estoniya sakinləri olan estlər və digər xalqlar yaşayırdılar. Onların içərisində öz dillərində velatablar adlananlar birinci yer tuturdular. Onlar frankların müttəfiqləri olan xalqlara arası kəsilməyən basqınlar edirdilər. Ona görə də kral bu xalqa qarşı müharibə elan etdi. Bircə yürüşdə Karl onları məğlub etdi və 789-cu ildən etibarən onlar artıq itaətsizliyin faydasız olduğu qənaətinə gəldilər.

Sakson müharibəsi nəzərə alınmasa, bütün müharibələrdən ən mühümü

slavyanlarla aparılan vuruşdan sonra avarlarla (onlar indiki Macarıstanda və Yuxarı Avstriyada yaşayırdılar) gedən və kraldan böyük səylər və daha iri miqyaslı izafi xərclər tələb edən müharibə idi. Lakin şəxsən Karl özü o vaxtkı Pannoniyaya təkcə bir yürüş etdi, həmin xalqlar o dövrdə bu ölkədə yaşayırdı, digər yürüşləri isə öz oğlu Pipinə və digər silahdaşlarına həvalə etdi. Yalnız müharibənin səkkizinci ilində ona son qoyuldu. Pannoniyada diri olan bir adam da qalmadı, başçının kral məskəni viran qoyuldu. Avarların bütün zadəganları müharibədə həlak oldular və onların şöhrəti bütünlüklə yoxa çıxdı. Onların uzun müddət topladığı sərvət qarət edildi. Bu vaxta qədər kasıb olan franklar kral sarayında çox miqdarda qızıl və gümüş tapdılar, döyüşlərdə böyük qənimətə sahib oldular. Avarların digər xalqlardan bu vaxtadək qanunsuz olaraq qəsb etdiklərini, indi franklar qanuni yol adı altında qəsb edirdilər. Bu müharibədə iki görkəmli frank da həlak oldu. Lakin müharibə franklara itki sarıdan baha başa gəlməklə yanaşı, xoşbəxt sonluqla nəticələndi, həm də öz ölçüsünə görə adi müharibələrdən uzun çəkməklə, 799-cu ildə başa çatdı. Bundan sonra 804-cü ildə Sakson müharibəsi də qurtardı və öz uzunluğuna müvafiq olan nəticələr gətirdi. Sonrakı Bohemiya və Linon müharibələri isə uzun sürmədi və Böyük Karlın böyük oğlu, atasının sağlığı vaxtı ölmüş Gənc Karlın başçılığı altında aparılmışdı. Sonuncu müharibə isə dan adlanan normanlara qarşı aparıldı. Onlar böyük donanma düzəldib Qalliyanın və Almaniyanın sahillərini viran qoyurdular. Onların kralı Qotfrid öz hakimiyyətinə bütün Almaniyanı, Friziya və Saksoniyanı tabe etmək istəyirdi, onlara öz əyalətləri kimi baxırdı. O, hətta kral paytaxtı olan Axenə böyük qüvvə ilə hücum edəcəyi ilə hədələyirdi. Lakin o, öz şəxsi cangüdəni tərəfindən öldürüldükdə, onun başladığı müharibənin sonu sürətləndi.

Böyük Karl hökmranlıq etdiyi 47 il ərzində öz torpaqlarının müxtəlif hissələrində və qonşu ərazilərdə bu müharibələri aparmışdı. Atası Pipindən sonra böyük və güclü sayılan Frank krallığı bu müharibələrlə öz ərazilərini elə genişləndirdi ki, bunun onun həmin ərazinin yarısı qədər artırdığı kimi qiymətləndirməyə əsas verir. Karla qədər dövlət yalnız Reynlə Luara, okeanla Aralıq dənizi arasında olan Qalliyanın bir hissəsindən, Saksoniya və Dunay arasında, Reynlə Sala çayı arasında olan Almaniyanın hissəsindən ibarət idi. Karl isə apardığı müharibələrlə əvvəlcə Akvitaniyaya, Qaskoniyaya, bütün Pireney dağ silsiləsinə və İspaniyanın Ebro çayına qədər olan ərazilərinə sahib oldu, sonra isə cənub istisna olmaqla bütün İtaliyanı, Saksoniyanı, hər iki Pannoniyanı və Dunayın sol tərəfində olan Dakiya, İstriya və Dalmatsiyanı işğal etdi, lakin Konstantinopol imperatoru ilə dostluğa və onunla bağladığı ittifaqa görə dəniz sahilindəki şəhərlərə toxunmadı. Nəhayət Karl Reyn və Visla çayları, Baltik dənizi ilə Dunay arasında məskunlaşmış bütün barbar xalqları təslim etməklə, onları özünə bac verməyə məcbur etdi.

Karl ayrı-ayrı krallarla və xalqlarla dostluq münasibətləri qurmaqla öz şöh-

rətini artırırdı. Ümumiyyətlə o, əcnəbiləri sevirdi və onlara böyük qayğı göstərirdi. Onun Qalisiya və Asturiya kralları ilə yaxşı münasibətləri var idi. Hətta skott krallarını da əliaçıqlığı hesabına öz iradəsinə tabe etdirmişdi və onlar Karlı ağa adlandırırdılar, özlərini isə onun təbəəsi və qulu kimi görürdülər. O, Bağdad xəlifəsi Harun ər-Rəşid ilə yaxşı münasibətlər qurduğundan, az qala bütün Şərqi öz hakimiyyəti altında saxlayan xəlifə ona dostcasına ehtiram bəsləyirdi. Böyük Karl Harun ər-Rəşidin onun yanına göndərdiyi elçiləri böyük hörmətlə qəbul etmiş, onların bütün xahişlərini yerinə yetirmişdi. Elçilər vasitəsilə o, Karla qiymətli paltarlardan, ədviyyat və ətirli mallardan, Şərqin digər sərvətlərindən ibarət nəhəng hədiyyə göndərmişdi. Hələ bundan əvvəl isə o, Karla onun xahişinə görə özünün yeganə filini göndərmişdi. Ərəb xəlifəsindən fərqli olaraq, yunanlar və romalılar frankların qüdrətinə həmişə ehtiyatla yanaşırdılar, buradan da yunan zərb-məsələsi meydana gəlmişdi: "Frank dostun olsun, qonşun olmasın".

Karl dövlətin faydası üçün çox işlər görürdü. Onun dövründə Axendə (indiki Eks-Şapeldə) gözəl bazilika tikilmiş və Mayntsda Reyn üzərindən uzun körpü salınmışdı. Bu vaxt əla arxitekturaya malik olan sarayların tikintisinə başlanmışdı. O, həmçinin donanma düzəltmişdi ki, normanlarla müharibə apara bilsin. Bu məqsədlə çaylarda silahlanmış gəmilər üzürdü.

Atası öldükdən sonra o, dövləti Karloman adlanan qardaşı ilə yarı bölüb qardaşının hər cür məkrinə və şər işlərinə dözürdü, öz qəzəbini isə yatırtmağı bacarırdı. Anasının təkidi ilə o, lanqobard kralı Deziderinin qızına evlənmişdi, bir il keçdikdən sonra onu boşamışdı. Şvab tayfasından aldığı arvadından onun üç oğlu - Karl, Pipin və Lui olmuşdu. Arvadı öldükdən sonra o, başqa qadınlara evlənmiş, həmçinin üç kənizi də ona övladlar bəxş etmişdi. O, anasına çox ehtiramla yanaşırdı. Bircə dəfə onun xahişi ilə evləndiyi ilk arvadını boşadıqda onların arasında sözləşmə baş vermişdi. O, uşaq yaşlarından monastıra verilmiş bacısına da anası kimi ehtiramla yanaşırdı. Uşaqlarının tərbiyəsinə gəldikdə, özü kimi övladları da elmlərlə məşğul olurdular, oğlanlarının yaşı imkan verdikdə, onlar frankların adətinə görə silaha yiyələnməyi və ov etməyi öyrənir, qızlarına isə cəhrə başında kətan əyirmək əmr edilirdi ki, onlar bekarçılığa öyrənməsinlər. Bu məqsədlə onlar zəhmətə qatlaşmağa məcbur edilir və onlara xeyirxah nəsihətlər verilirdi. Karl evdə olarkən ona qayğı göstərirdi ki, uşaqlar onsuz nahar etməsinlər, səfərə yalnız onunla birlikdə çıxsınlar. Bir qayda olaraq oğlanlar atın belində gedir, qızlar isə onların arxasınca gəlirdilər. Onların karvanını cangüdənlərdən təşkil edilmiş dəstə müşayiət edirdi. Qızları çox gözəl idi və o, onları nə öz həmvətənlisinə, nə əcnəbiyə ərə vermək istəmirdi və ölənə qədər onları evində saxladı ki, onlarsız yaşaya bilməz. Ona görə də onun Elema adlı qızı ilə bağlı olan xoşagəlməyən şayiələr gəzirdi və kralın pozğun həyat sürdüyü barədəki söhbətlər sonralar yayılmağa başlamışdı. Karlın birinci arvadından olan Pipin adlı oğlu qəşəng olmaqla yanaşı, eybəcər qozbel idi. Ata-

sı Bavariyada olarkən o, bir sıra frank zadəganı ilə qəsd düzəltmişdi. Qəsdin üstü açıldıqda və iştirakçılar cəzalandıqda Karl Pipinə öz arzusuna uyğun olaraq dini həyata keçməyə icazə verdi və oğlan monastıra yollandı.

Karl möhkəm bədən quruluşuna malik idi, boyu yeddi futa çatırdı, iri və parlaq gözləri var idi, burnu adi burunlardan iri idi, gözəl ağarmış saçları var idi, sifəti şən və gülərüz idi. Qarnı bir az qabağa çıxsa da, mütənasib bədən quruluşu və uzun boyu bunu gizlədirdi. Möhkəm addımlarla yeriyirdi, səsi cingiltili idi. Çox sağlam idi, lakin ölümündən əvvəlki son dörd ildə tez-tez qızdırmadan əziyyət çəkirdi, bir ayağından axsayırdı. Lakin o, həkimlərin sözünə qulaq asmayıb öz bildiyi kimi hərəkət edirdi. O, at çapmaqda çox məşq edirdi və romalılar kimi isti bulaqların yanında buxarlı su vannasından istifadə etməyi çox sevirdi. O, üzməkdə xüsusi ilə fərqlənirdi, bunda heç kəs onu ötüb keçə bilməzdi. Belə vannalara məhəbbətindən o, Axendə saray tikdirib əvvəllər əsasən qış vaxtları, sonra isə ölümünə qədər daim orada yaşayırdı. O, daim milli, frank paltarı geyinirdi. Bu məlumatları Karlın müasiri olan və onun sarayında xidmət etməklə şöhrət tapmış tarixçi Eyinhard özünün "İmperator Böyük Karlın həyatı" əsərində yazır. Karlın sarayında kapellan və imperatorun katibi işləyən Eyinhard böyük nüfuz qazanmışdı, hətta imperatora və onun varislərinə mühüm qərarları verməkdə təsir göstərə bilirdi.

Yeməkdə və içkidə ölçü hissi gözləyən Karl sərxoşluğa nifrət etdiyinə görə spirtli içkilər barədə özünü daha təmkinli aparırdı. Lakin yemək barədə özünü o qədər də məhdudlaşdırmırdı və çox vaxt şikayətlənirdi ki, post (oruc) onun sağlamlığına pis təsir edir. Onun verdiyi naharlar dörd xörəkdən ibarət olurdu, təkcə qızardılmış əti ovçular özü ona şişdə verirdilər. Nahar vaxtı o, musiqiyə və hansısa kitabın oxunmasına qulaq asırdı, ona xüsusilə xoş gələn Avqustinin "Allah şəhəri" kitabı idi. Karl böyük natiqlik qabiliyyətinə malik idi və istədiyi hər şeyi çox asanlıqla ifadə edə bilirdi. Latın dilini bilirdi və onda çox yaxşı danışırdı, yunanca isə danışmaqdan daha yaxşı bu dili başa düşürdü. O, ritorikanı, dialektikanı və xüsusən astronomiyanı öyrənmişdi, böyük həvəslə ulduzları seyr edirdi. O, kasıblara kömək göstərməyə çox qayğı ilə yanaşırdı, dinə, xüsusən Romadakı Müqəddəs Pyotr kilsəsinə ehtiramla yanaşıb bura çoxlu qiymətli şeylər, qızıl, gümüş, daş-qaşlar hədiyyə etmişdi. Romaya isə cəmi dörd dəfə, yalnız vədini icra etməyə və sitayişə getmişdi. Onun Romaya sonuncu səfəri 800-cü ilə təsadüf edir. Romalılar Papa III Leonu təhqir edərək onun gözlərini çıxarmış və dilini kəsmişdilər, onu məcbur etmişdilər ki, kraldan kömək xahiş etsin. Karl kilsənin laxlamış nüfuzunu bərpa etmək üçün Romaya gələrək bütün qışı orada keçirdi. Milad bayramı günü o, Papadan imperator titulunu aldı.

Böyük Karl Qərbin imperatoru titulunu alandan əvvəl Avropanın qərbini, keçmiş Qərbi Roma imperiyasının xırda istisnalarla bütün ərazisini birləşdirməklə de-fakto bu hüquqa yiyələnmişdi. Onun fəaliyyəti babası Karl Martellin dağılmış səltənəti bir yerə yığmaq sahəsindəki yenidənqurma işlərinin davamı

idi və o, əslində öz oğlanları olan Pipinə və Karlomana ailə vərəsəsi kimi əsl imperiya vəsiyyət etmişdi. Digər tərəfdən atası da Karla bu böyük əməl üçün yol açmışdı. Qardaşı Karloman monastıra yollandıqdan sonra Gödək Pipinin digər rəqiblərini də hökumətə iddiaçılar sırasından silmişdi və Merovinqlər taxttacdan devrildikdən sonra 751-ci ildə özünü kral elan etmişdi. Bu vaxt onun oğlu 9 yaşında idi.

Roma Papası bir qədər sonra lombardlara qarşı kömək barədə xahiş üçün Frank krallığına gələndə Papanı salamlamaq üçün onu qarşılamağa yollanmış 12 yaşlı Karl onun tərəfindən atası və əmisi kimi Karloman adını daşıyan qardaşı ilə birlikdə kral kimi şərəfləndi. Bu hadisə vaxtı lombardlara qarşı franklarla Papanın siyasi ittifaqı möhkəmləndi. Atası Frank krallığının inteqrasiyasını əldə etmək məqsədi güdərək Akvitaniyanı özünə tabe edəndə 760-cı ildə başlanan bu kampaniyalar seriyasında Pireneyə bütün yollar açıldı və Karl dəfələrlə ordunu müşayiət etdi. Bu onun xarakterinin formalaşmasına və məqsədlərinin aydınlaşıb kristallaşmasına çox kömək etdi. O, atası ilə birlikdə qeyriməhdud hakimiyyətə şərik idi, xarici düşmənlərə qarşı vuruşmağa daim hazır idi. O, torpaqları genişləndirməyə can atırdı və özünün hökmranlıq etmək qətiyyəti sayəsində öz yaxın adamlarının hüquqlarını da qəsb etməkdən çəkinmirdi. Karl çox cavan yaşlarından dünyəvi hakimiyyətlə kilsə arasındakı yaxın əlaqənin əhəmiyyətini yaxşı dərk etmişdi. Onun düşüncəsinə görə kralın borcu xristian dinini yaymaqdır və bu vaxt kilsə üzərində kral süzerenliyinə nail olmalı idi. Özünü isə xristianların etimadını qazanmağa görə Allah qarşısında məsuliyyət daşıyan kimi qiymətləndirirdi.

Pipinin 768-ci ildəki ölümündən sonra frank adətinə müvafiq olaraq krallıq onun iki oğlu arasında bölündü. Bu qardaşlar arasında rəqabət başlandı və anasının köməyi ilə Karl Lombardiya kralı Dezideriнin qızına evlənməklə, onunla və özünün əmisi oğlu olan Bavariya hersoqu ilə Karlomana qarşı yönəlmiş ittifaq bağladı. Üç il sonra Karloman qəflətən öldükdə Karl özünü krallığın yeganə hökmdarı etməyə qadir idi. Bu vaxt Karl özünü o qədər də mərhəmətli aparmadı. Karlomanın dul qadını öz uşaqları və az sayda tərəfdarları ilə birlikdə Lombardiya sarayına qaçdı. Kral Dezideri Karlla ittifaqını pozub, çünki qızı da artıq ondan boşanmışdı, Papaya təzyiq göstərdi ki, Karlomanın oğlanlarını frank kralları kimi şərəfləndirsin. Bu vaxt Karl Papa I Adrianın köməyinə gəlməyə məcbur edildi. O, Lombardiya paytaxtı Paviyaya hücum edib və onu tutduqdan sonra özünü lombardların da kralı etdi. Bu vaxt onun əlinə keçən qardaşı oğlanları yoxa çıxdı, görünür Karl qəddarlığa əl atmaqdan çəkinməmişdi. Paviyanın mühasirəsi hələ davam edəndə Karl Romaya gəldi, 774-cü il Pasxasını Papa ilə birlikdə bayram etdi, Müqəddəs Pyotr kilsəsində İtaliyanın böyük hissəsini Papanın hakimiyyətinə vermək barədə atasının vədini təkrar etdi. Həqiqətdə isə o, Papa torpaqlarını azacıq böyütdü, bütün Lombardiya krallığı üzərində isə öz suverenliyini qurdu.

Karlın qəddarlığının digər nişanələri də vardır. Karl saksonlara qarşı 18 dəfədən az olmayaraq döyüş meydanına girmişdi. Sonda isə onları təkcə özünə tabe etməklə kifayətlənməmiş, bu xalqı bütünlüklə öz imperiyasına qatmışdı. Xaçlandıqdan və ittifaq müqaviləsi imzalandıqdan sonra bu xalqın müqaviməti Karlın gözündə ən ağır siyasi xəyanət və dini dönüklük kimi görünürdü. Onlara qarşı sərt cəzalar tətbiq edilirdi. 782-ci ildə münasibətləri yenidən pozulanda 4500 saksonun edam edildiyi xəbər verilir. Digər edamlar 792-ci ildə baş verdi, bu 804-cü ildə axırıncı sakson təslim edilənə qədər davam etdi. Onları imperiyaya qatmaq isə dünyəvi hakimiyyətlə xristian inamı arasında qırılmayan əlaqə yaratmaqla, onların birdəfəlik xristianlığa keçirilməsi demək idi. Bu missiyanın həyata keçirilməsi üçün belə zorakı metodlar erkən orta əsrlərdə məlum deyildi və qanlı cəzalar həmçinin kanon hüququnu pozanlara və ya bütpərəstlik qaydalarını bərpa etməyi çağıranlara və Karlın öz ətrafında dini tənqid edənlərə qarşı tətbiq edilirdi.

778-ci ildə Karl Frank krallığına feodal lordlar kimi baxan və öz əmisi oğlu olan Bavariya hersoqunu devirəndə o, Reynin arxasındakı axırıncı german tayfalarını da əslində öz müstəqilliklərindən məhrum etdi. Çoxdan xristian olan bavariyalılar bu dəfə birbaşa imperiyaya inteqrasiya edildilər. Qərbi german tayfaları olan alemanlar, bavariyalılar, saksonlar və turinqiyalılar ilk dəfə olaraq özlərini bir siyasi birlikdə yığışmış gördülər. Karlın Reynin sağ sahilindəki işğalları təkcə german tayfaları ilə məhdudlaşmadı. Bavariya hersoqlarının iqamətgahını öz bazası etməklə bir neçə kampaniya həyata keçirdi, bu kampaniyalar Avar krallığına yenicə yaradılmış Dunay rayonundakı slavyan dövlətlərinə qarşı yönəlmişdi. Frank dövlətinin nəhəng dərəcədə genişlənməsi onu erkən orta əsrlərin tayfa dövlətlərində çox yuxarı qaldırdı, keyfiyyət və kəmiyyət dəyişikliklərinə səbəb oldu. Həm də Karla imperatorun Roma titulunun verilməsi ideyası yalnız ən sonrakı səhnələrdə qalxdı. Bu vaxt Şərqi və ya Bizans imperiyası özünün ümumdünya miqyasında tanınması barədə iddiasını irəli sürmüşdü. Bu vaxta qədər Bizans təbəələri olmaqda qalan papalar Şərqi imperatorların ikonapərəst dini siyasətinə əks çıxırdılar. Bununla yanaşı Karlın himayəsi altında olan Papa Adrian Bizansdan daha artıq Mərkəzi İtaliyada muxtar əraziyə malik olmağa can atırdı, bütün praktiki niyyətlər naminə Romadan və Ravennadan imtina etmək istəyirdi, öz hökmranlığını yalnız Siciliyada və İtaliyanın cənub hüdudlarında saxlamaq məqsədini güdürdü. Müstəqillik barədə papalığın arzusu ilk dəfə öz mahiyyətini Konstantinin hədiyyəsində ifadə etmişdi. İlk xristian imperatoru Böyük I Konstantinin adı vasitəsilə bu Papa məqsədini qanuniləşdirmək niyyəti ilə Karl 781-ci ildə ikinci dəfə Romaya səfər etdi və bu vaxt öz kiçik oğlanları Pipini və Luini lombardların və akvitaniyalıların kralları kimi taclandırdı, Bizans imperatriçası, VI Konstantinin anası İrinadan özünün İtaliya mövqeyinin de-fakto tanınmasını əldə edə bildi. Karlla Bizans arasındakı ittifaq 787-ci ildə Cənubi İtaliyaya frankların hücumundan sonra sona çatdı.

Papanın uğursuzluqları davam edirdi və 799-cu ilin mayında Papa III Leo Romada öz şəxsi düşmənləri tərəfindən tələyə düşdüyündən o, Karlın sarayında sığınacaq tapdı. Karl onu şəhərə qaytardı və 800-cü ilin noyabrında isə özü Romaya gəldi və burada ona imperial şərəflər verildi. Karlın və sinodun qarşısında Papa Leo düşmənlərinin onu təqsirli bildiyi ittihamlardan özünü and altında təmizlədi. Bu vaxt artıq Papa Karlın əlində marionet olmağa yaxın idi. Milad bayramı ərzində Müqəddəs Pyotr kilsəsində romalılar Karlı imperator elan etdilər, Papa onun başına tac qoyub onu şərəfləndirdi. İmperial titulu öz təbiəti ilə Roma təltifi idi. Elan etmə həlledici hüquqi akt hesab olunurdu, Papanın əli ilə taclanma konstitusional əhəmiyyət kəsb etməməsinə baxmayaraq, franklar üçün böyük məna daşıyırdı. Karlın özü bu hadisələrdən o qədər də təəccüblənmirdi. Taclanmadan sonra danışıqlar getdi. Karlın imperial rütbəsi qanuni qaydada onun köhnə Roman imperiyasının qərb hissəsi üzərində ağalıq faktını təsbit edirdi və imperatriça İrinanın qadın hökmranlığına əks çıxan bir iş idi. Bu qadın iki il əvvəl öz oğlunu taxt-tacdan devirib onu kor etmişdi və bu, həmin hadisədə də öz rolunu oynadı.

Karl dörd ay Romada qalmaqla Papanın düşmənlərinə, bir alihəzrətə xətər toxundurmaqda təqsirli olan qiyamçılar kimi hökmünü elan etdi. Karl Axenə döndükdən sonra imperator rütbəsinə tam uyğun olaraq öz qanunlarını dərc etdi. Bu vaxtadək franklar ikili qanuna - Salika və Ripuar qanunlarına malik idilər və onlar bir-birindən bir çox maddələrdə fərqlənirdi. Karl onları birləşdirərək ziddiyyətləri barışdırdı, ədalətsiz və köhnə olanları yaxşılaşdırdı, onlara düzəlişlər etdi. Sonra o, doğma, başqa sözlə german dilinin qrammatikasını tərtib etməyə başladı. Aylara doğma adlar verdi, yanvarı frank dilində qış, fevralı - palçıq ayı, sentyabrı - ağac, yəni ağac kəsmək, oktyabrı - üzüm yığmaq ayı adlandırdı.

Bu vaxt Bizans işğal hücumlarından qorxurdu, lakin Karl sadəcə olaraq öz yeni rütbəsinin və bütün Romadakı öz ərazilərinin tanınmasını danışıqlar yolu ilə əldə etmək istəyirdi. 812-ci ildə Bizans imperatoru I Mixail onu imperator kimi tanıdı, baxmayaraq ki, bu, romanların imperatoru kimi tanımaq deyildi. İmperator titulu Karla əlavə hakimiyyət verməsə də, onun Roma üzərindəki nəzarəti bu vaxt qanuniləşdi və papalığın Bizansdan uzaqlaşması və onun franklarla dostluq münasibətlərinin təzələnməsi başlıca tarixi hadisə kimi baş verdi və təkzib olunmayan fakta çevrildi. Bu inkişafın mühüm əhəmiyyəti o idi ki, Karlın imperial titulu üzərinə götürməsi ənənəsi yarandı və bu titulun funksiyaları artdı. İmperiya barədə bütün orta əsrlər konsepsiyaları və frankların konstitusional ənənələri, həmçinin sonrakı Müqəddəs Roman imperiyası ilə Avqust tərəfindən əsası qoyulmuş Roma imperiyası arasındakı əlaqələr Karlın bu imperial titulu və mövqeyinin bünövrəsinə əsaslandı.

İmperiyanın yaradılması başlıca olaraq Karlın daxildəki mədəni səviyyəni yüksəltmək cəhdlərini qanuniləşdirdi. Karl hakimiyyətə gələndə Frank krallı-

ğının mədəni, inzibati və hüquqi institutları o vaxtadək inkişaf etməmiş şəkildə qalırdı. Frank kralı daimi iqamətgaha malik deyildi. Yay aylarında o, ölkəni səyahətə çıxırdı, siyasi məsələləri həll edir, ruhani və dünyəvi lordların məclislərində hüquqi qərarlar çıxarırdı. Həm də yay hərbi kampaniyalar aparmaq mövsümü idi. Milad bayramından Pasxaya qədər olan qış ərzində kral imperial saraylarının birində yaşayır və öz ətrafını burada yerləşdirirdi. Bu saraylar adətən krallığın coğrafi mərkəzində yerləşirdi. Yalnız nadir hallarda o, qışı yenicə işğal etdiyi ərazilərdən birində keçirirdi. 794-cü ildən isə yaşlı monarxın isti su bulaqlarından xoşu gəldiyindən, demək olar ki, bütün qışı, çox vaxt bəzən yayı da Reyn çayının mənsəbinə yaxın olan Axendə keçirirdi. Burada o, İtaliyadan gətirilmiş materiallardan saray kilsəsi tikdirmişdi.

Karlın sarayı onun ailəsindən, ona şəxsi xidmət edən kapella adlanan kilsə xadimlərindən və dünyəvi vəzifəli işçilərdən ibarət idi. Bu adamlar vaxtlarının bir hissəsini hökmdarın hüzurunda keçirirdilər. Karl öz sarayını səltənətinin intellektual, siyasi və inzibatçılıq mərkəzi kimi görmək istəyirdi və bu istəyinə müvafiq olaraq imperiyanın hər tərəfindən, bəzən hətta xaricdən görkəmli alimləri bura toplayırdı. Bu alimlərin içərisində Eyinhard və Alkuin seçilirdi. Alkuin anqlo-sakson mənşəli Benedikt rahibi olmaqla, 735-ci ildə vəfat etmiş böyük tarixçi, "İngilis kilsəsi və xalqının tarixi" adlı latın dilində yazılmış əsərin müəllifi Bedanın şagirdi olub, qitəyə təhsilini artırmağa gəlmişdi. O, Karla oxumağı öyrənmək üçün yeni məktəblər açmağa kömək etmişdi, yeni əlyazması tətbiq etmiş və bu "Roman" çapının əcdadı hesab olunur. Onların köməyi ilə Karl qədim müəlliflərin və kilsə atalarının əsərlərindən ibarət saray kitabxanası düzəltmişdi və gənc frank rıtsarlarına təhsil vermək üçün saray akademiyası yaratmışdı. Onun ana dili köhnə yüksək german dialekti idi, lakin o, köhnə frank dialektini də başa düşürdü. Tarixi və ilahiyyat mövzusunda əsərləri, Müqəddəs Avqustinin "Allah şəhəri" daxil olmaqla ona ucadan oxuyurdular.

Sarayın mədəni maraqları kiçik dairədəki intellektual əyləncədən uzağa getmirdi, bu adamlar şeir və məktub mübadiləsi edirdilər. "Karolinq renessansı" adlanan ruhi və ədəbi hərəkatlar bir neçə mərkəzə malik idi, bunlar xüsusən imperiyanın monastırlarında cəmlənmişdi. Lakin onlar Karl sarayının razılığı olmadan dünyanın ən yaxşı zəkalarına müraciət edə bilməzdilər, bu əsərlərdən ruhanilərin təhsilində, son nəticədə isə bütün xalqın maariflənməsində istifadə edə bilməzdilər. Bu saray vasitəsilə Karl öz imperiyasını idarə edir, inzibatçılığı həyata keçirir və ədalət mühakiməsini aparırdı. İldə bir və ya iki dəfə saray imperiyanın hər tərəfindən gələn baş magistratlar və kübarlar baş məclisdə toplaşırdı. Karolinq imperiyasının unikal quruluşunda silahlı qüvvələrin məclisi ilə kübarlığın konstitusional məclisi və kilsə sinodu arasında fərqləri tapmaq çətin idi. Hüquqi, hərbi və dini məsələlər eyni vaxtda həm kübarlıq, həm də ruhanilər tərəfindən elə bir fərq olmadan müzakirə edilirdi. Bunların hamısının üzərində isə Karlın öz şəxsiyyəti ucalırdı. Yerli səviyyədə hökmdarı hər regionda-

kı qraflar və yepiskoplar təmsil edirdi. Sarayla onların arasındakı əlaqələr qasidlər vasitəsilə həyata keçirilirdi, onlar Karlın göstərişi əsasında səfər edirdilər. Kral tapşırıqları hökmən bütünlüklə yazılı olmalı deyildi. Karl müxtəlif xalqların və tayfaların ənənəvi hüquqlarına hörmət edirdi.

Karlın imperiyanı təşkil etməsi qaydası heç də nöqsansız və məhdudiyyətsiz deyildi. Hökmdarın hakimiyyəti yalnız qanun və adətin nəzəri prinsipləri tərəfindən məhdudlaşırdı. Bu hakimiyyəti nə hansısa institut və əkslik qüvvəsi kiçildə bilməzdi. Ona müxalif olan hərəkatlar və qəsdlər mövcud idi. 792-ci ildə baş verən kübarların qəsdi onu devirib yerində qozbel oğlu Pipini qoymağa cəhd etmişdi. Sonralar Pipin kəmağıl elan edildi, lakin bu qəsdin siyasi konsepsiyası və motivləri məlum deyildir.

Karlın varisi Luinin hökmranlığı dövrü göstərdi ki, bu siyasi sistem yalnız bir şəxs üçün nəzərdə tutulmaqla, onun qeyri-adi bacarığına əsaslanır və onun yoxa çıxması süqut təhlükəsi yaradır. Dünyəvi kübarların Karolinqlərə möhkəm bağlılığı yeni işğallarla, yeni torpaqlar və malikanələr verilməsi ilə saxlanırdı. Lakin 800-cü ildən başlayaraq xarici ekspansiya sərhədlərdən uzağa gedə bilmədi. Bu ümidlər puç olanda, onlar müxtəlif regionlardakı mülkiyyətlərinə qayğı göstərməyə başladılar. Onlar artıq tutulmuş torpaqları birlikdə xarici düşmənlərdən qorumalı idilər. Karl imperiyası romanların özləri üçün qoruyub saxladığı cəhətlərə: pul iqtisadiyyatına, mülki qulluq üçün maaş verməyə, daimi orduya, yollar və kommunikasiyalar şəbəkəsinə, sahil müdafiəsi üçün donanmaya malik deyildi. Artıq Karlın özünün yaşadığı dövrdə sahillərə normanlar təhlükə törədirdilər: 806-cı ildə isə Karl imperiyanı öz oğlanları arasında bölməyi planlaşdırdı, lakin ancaq iki böyük oğlanlarının 813-cü ildəki ölümündən sonra Lui Akvitanlını Axendə özünə həmimperator kimi taclandırdı və yeganə varis təyin etdi.

Ömrünün sonunda Karl (Şarleman) xəstəliklərdən və qocalıqdan əziyyət çəkirdi. Akvitaniya kralı Luini taclandırdıqdan, imperator və Avqust adlandırmağı əmr etdikdən sonra saraydan ova yollanmışdı. Bütün payızı ovda keçirdikdən sonra o, noyabrın əvvəlində Axenə qayıtdı ki, qışı orada keçirsin. Lakin güclü qızdırma xəstəliyinə tutuldu və 28 yanvar 814-cü ildə 72 yaşında vəfat etdi. Bu ömürün 47 ilini o, hökmranlığa həsr etmişdi.

Böyük Karl atasının başladığı ictimai inqilabı başa çatdırdığına görə öz adını Karolinq kimi sülaləyə verdi və təkcə bu sülalənin banisi deyil, həm də əsl şərəfinə çevrildi. Onun adı ilə epoxa adlandırıldı, onu dahi adlandıranlar da az deyildir, ona tam müxtəlif olan üç tərəfdən baxmaq olar: sərkərdə və fateh kimi, inzibatçı və qanunverici kimi, elmin, incəsənətin və ümumən intellektual inkişafın himayəçisi kimi. Onun müharibələri də əvvəlki sülalələrin müharibələrindən fərqlənirdi. Bu bir tayfanın digəri ilə toqquşması, müstəsna olaraq torpaq tutmaq və qarət etmək məqsədi güdən yürüşlər olmayıb, sistematik, siyasi xarakter daşımaqla strateji planlar əsasında məlum zərurət üzündən aparılırdı.

O, həm qədim, həm yeni ərazilərin bütün əhalisini, romalıları və son vaxtlarda özünü təsdiq edən germanları birləşdirdi. Onun müharibəsinin gedişi belə idi. O, düşmən tayfaları öz əsarətinə almaq və onların dini inamlarını məhv etməyə çalışırdı. Bu müharibələr və işğallar geniş və heybətli birlik tələb edirdi. Ona görə də Karlın ölümü ilə işğallar dayandı, birlik yoxa çıxdı, imperiya parçalandı. Onun qanunvericiliyi də kapitulyariyalardan ibarət olmaqla təkcə hüquqi məqsəd daşımırdı, Böyük Karlın hakimiyyətini açıqlayan rəsmi fəaliyyətin aktlar toplumu idi. Bu qanunvericilik mənəvi-əxlaqi, siyasi, cinayət, mülki, dini, kanonik, təsərrüfat və təsadüfi bölmələrdən ibarət idi, qədim milli qanunları, həmin qanunlardan çıxarışları, onlara əlavələri əks etdirirdi.

İmperiyanın böyüklüyü heç də təhlükəsiz mövcudluq demək deyildi. Böyük Karl ölümündən bir qədər əvvəl, hələ o, sağ olarkən Cənubi Fransa sahillərində normanların meydana çıxdığını görüb ağlamışdı. Karl öz həyatının sonunda onun imperiyasına hər tərəfdən təhlükə yarandığına görə çox məyus olmuşdu. Lakin o, heç cür görə bilməzdi ki, imperiya ondan sonra olduqca az müddət yaşayacaq və nə dərəcədə dağılacaqdır. Karlın yeganə sağ qalan oğlu Mömin Lui Fransa səltənətini birbaşa vərəsə kimi götürmüşdü, bu vərəsəni üç oğlu arasında bölməklə Frank imperiyasını yenidən geri, vətəndaş müharibəsinə qaytardı.

Ölümündən artıq 29 il sonra, 843-cü ildə Verdyun müqaviləsi əsasında Mömin Luinin oğlanları Lotar, Keçəl Karl və Lui Alman imperiyasını üç yerə böldülər və Fransa, Almaniya və İtaliya krallıqları yarandı. Lakin bölünmə davam edirdi, 888-ci ildə Şişman Karl öldükdən 40 il sonra üç krallıq parçalanaraq yeddi dövlətə çevrildi. Şişman Karl isə qısa müddətə də olsa Böyük Karlın bütün dövlətlərini bir yerdə birləşdirmişdi. Bu yeni dövlətlərin əhəmiyyəti bərabər deyildi, onların müstəqillik dərəcəsi də müxtəlif idi. 10-cu əsrdə isə Karolinqlərin tam süqutu baş verdi və onlar öz yerlərini Kapetinqlərə verdilər və bu vaxt əvvəlki yeddi krallıq əvəzinə Böyük Karlın qədim imperiyası artıq dörd dövlətdən ibarət idi. Provans və Burqundiya krallıqları birləşərək Arl krallığını əmələ gətirdi. Lotaringiya krallığından bəzi hissələr ayrıldı. Böyük Otton 962-ci ildə İtaliya krallığını Almaniya imperiyasına birləşdirdi. Fransa krallığının daxilində bölünmə davam edirdi, 10-cu əsrdə artıq 59 kiçik dövlət yaranmışdı.

Bəziləri Böyük Karlın imperiyasının dağılmasını tayfaların müxtəlifliyinin nəticəsi kimi qiymətləndirir. O sayda müxtəlif xalqları bir yerdə saxlayan ağır əl düşdükdə, onlar əvvəlcə bir-birindən ayrıldılar, sonra öz daxili təbiətlərinə uyğun olaraq başqa sözlə mənşələrinə, dil və qaydalarına görə yenidən qruplaşdılar və yeni dövlətlər yaratdılar. Böyük Karlın ölümü ilə Kapetinqlər sülaləsinin banisi Hüqo Kapetin taxt-taca çıxması iki böyük epoxaya bölünür, birincisi Böyük və Şişman Karlların ölümləri arasındakı dövrü əhatə edir, digəri isə 9-cu əsrin sonundan başlayaraq bir yüzillik müddətdən ibarətdir, bu epoxa Hüqo Kapetin hakimiyyətə gəlməsi ilə sona çatır. Bu iki epoxaya iki növ parçalanma, iki inqilab uyğun gəlir, baxmayaraq ki, onlar eyni səbəblərdən yaranıb, ey-

ni məqsədlərə can atırdı. İkinci epoxada dövlətlərin tayfalar üzrə bölünməsi başa çatmışdı. Frank Qalliyası özünü yadellilərin hakimiyyətində görürdü, onun əhalisi qarışmışdı, çoxlu qollardan ibarət olsa da, Böyük Karlın törəmələri təmiz germanlar idi. Deməli Böyük Karldan Hüqo Kapetə qədər olan dövr iki böyük hadisə ilə əlamətdar idi - xalqların tayfa fərqi üzrə bölünməsi və təmiz german mənşəli sülalənin qovulması ilə onun hökmdarlarının qall-franklarla, başqa sözlə milli mənşəli olanlarla əvəz edilməsi baş verdi. Böyük Karl iki bir-birinə yaxın olmayan cəhəti həyata qaytarmağa cəhd etdi, o, birliyi ilə fərqlənən yeni Roma imperiyasını yaratdı, bir tərəfdən Roma inzibatçılığını, digər tərəfdən isə milli german yığıncağı və hərbi himayəçilik meydana gətirdi. O, özü həm qoşun rəisi, həm milli məclislərin sədri, həm də imperator idi. Ona görə də Karl qısa müddətli və şəxsən özü üçün uğur qazandı.

Qall-frankların krallığı indiki Fransanın beşiyi olmaqla qarışıq əhalidən: germanlardan, qallardan və romanlardan ibarət idi. Qonşu xalqlar onu müxtəlif cür adlandırırdılar. İtalyanlar, ispanlar, ingilislər və Skandinaviya xalqları üçün onlar franklar idi, lakin özlərinə fəxri german adını götürmüş almanlar öz qərb qonşularını belə adlandırmaq istəməyib, onları vallonlar kimi tanıyırdılar. Torpaq sahibləri özlərini frank və ya baron adlandırırdılar.

11-ci əsrin sonunda Harald Horfager silah gücünə Norveçin qalan hissəsini öz torpaqlarına birləşdirib bütün ölkə üzərində kral oldu. Ölkə təslim edildikdən sonra çoxları vətəni tərk etməyi qərara aldı və yeni krala boyun əyməkdənsə dənizlərdə dolaşmağı üstün tutdu. Onlar şimal dənizlərində quldurluq edir, adaları və sahilləri qarət edirdilər və öz həmyerlilərində qəzəb oyadırdılar. Bu siyasi səbəbə görə Norveçin işğalçısı dəniz quldurlarının qızğın düşməninə çevrildi.

## Feodalizm epoxası

Bu dövrün ən mühüm xüsusiyyətlərindən biri 11-13-cü əsrlərdə feodalizm sisteminin təntənəsi idi. Feodalizm öz irəliləyən inkişafına 5-ci əsrdə, quldarlıq sisteminin yoxa çıxması ilə başlamışdı və bu 10-cu əsrə qədər davam etmişdi. Bu sistem özünün qəti surətdə formalaşmasına bütöv beş əsr sərf etmişdi və belə uzun müddət ərzində müxtəlif epoxalarda mövcud olmuş, həm də o özünün meydana gəlməsinin müxtəlif mənşələrinə malik idi. Feodal başlanğıcının əsas xarakteri üç xüsusiyyətdə ifadə olunurdu. Bunlar torpaq mülkiyyətinin xüsusi əhəmiyyət kəsb etməsi, mülkiyyət anlayışı ilə ali hakimiyyət anlayışının sıx qovuşması və torpaq sahibləri arasında onları birləşdirən və vahid üzvi cəmiyyətə çevirən qanunverici, məhkəmə, hərbi qərarların yaxşı düzləndirilmiş xətti idi.

10-cu əsrin sonunda feodalizm qəti olaraq formalaşdı və feodal torpaq mülkiyyəti mülk adlanmağa başladı. Bir çoxlarının rəyinə görə "feodalizm" latın kökünə malik olmaqla *"fides"* sözündən əmələ gəlmişdir və bu "sədaqət" mə-

nasını verir, elə torpağı nəzərdə tutur ki, ona sahib olmaq süzerenə sədaqət tələb edir. Digər mənada isə feod sonrakı latın sözü *feodum*-dan götürülməklə sinyorun vassala xidmət etməsi şərtilə verilən irsi torpaq sahibliyini orta əsrlər Avropasında ifadə edirdi. Feodla adətin qoyduğu haqqı ödəmək olardı. Germanlar qall torpaqlarına qədəm basdıqdan sonra ənam verilən torpaq anlayışı meydana gəldi və bu benefitsiya - *allod* adlandı. Allod elə torpaq idi ki, onun sahibi bu torpağı heç kəsdən almırdı və kiminsə barəsində onun üzərinə heç bir öhdəlik qoyulmurdu. İlk allodlar o torpaqlar idi ki, german qalibləri tərəfindən müxtəlif formalarda qəsb edilmişdi.

Allod alman sözləri olan *all* - tam və *od* - sahiblik ifadələrindən əmələ gəlməklə sərbəst surətdə ondan alına bilən fərdi - ailə torpaq mülkiyyəti idi. Allodlar tam müvəqqəti ola bilərdi və istənilən vaxt onu geri almaq olardı, müddətli, bir neçə illik, ömürlük və varislik qaydasında ola bilərdi. Torpaq verənin özbaşınalığı, müddət, ömürlük və vərəsəlik mərhələlərindən allod torpaq sahibliyi 5-ci əsrdən 10-cu əsrə qədər keçməli oldu. Sahibliyin irsi olmasına baxmayaraq, onu verən və ya alan öləndə benefitsiyanın sahibi bu mülkiyyətinin yenidən təsdiq edilməsi imkanını axtarmalı idi. Çünki torpağa sahiblik şəxsən kiməsə sədaqət məsələsini ifadə etdiyindən bu şəxsin dəyişilməsi, sədaqətin yeni ünvanının meydana gəlməsinə səbəb olurdu. Bu vaxt pul az idi, torpaq daha çox yayılan və işlənən sikkə idi, ondan hər cür xidmətlərin haqqını ödəmək üçün istifadə olunurdu. Geniş torpaq sahələrinin sahibləri onu öz silahdaşlarına maaş əvəzinə paylayırdı. Belə vəziyyət torpaq mülkiyyətinin sürətlə bölünməsinə və kiçik benefitsiyaların sayının artmasına səbəb olurdu. Belə hadisənin ikinci səbəbi isə uzurpasiya idi. Nəhəng ərazilərə malik olan qüdrətli tayfa başçıları onlardan istifadə üçün və onu yeni müdaxilələrdən qorumaq üçün az vəsaitə malik idilər. Hansısa ilk gəlib çıxan qonşu adam üçün belə torpağı tutmaq və onda möhkəmlənmək çətin deyildi. 10-cu əsrin sonunda torpaq mülkiyyəti bu vəziyyətdə idi. Həmin epoxada təkcə torpaq deyil, bütün digər mülkiyyətlər də feodal xarakterə malik idi. 11-ci əsrin sonunda isə feodalizm daha möhkəm qərar tutdu, böyük feod sahibi öz torpağında ali hakimiyyət hüququna malik oldu. Heç bir kənar və uzaqdakı qüvvə onun üçün qanun dərc edə bilməzdi, vergi yığa bilməzdi. Bütün bu hüquqlar bircə sahibkara məxsus idi. Belə bir şey qədim epoxalarda olmamışdı.

Süzerenin feodal hakimiyyətinin rüşeymləri olsa da, onunla yanaşı və onun üstündə kralın hərbi hakimiyyəti, Roma inzibatçılığı, azad insanların yığıncağı və məhkəməsi dayanırdı. Lakin 5-ci əsrlə 10-cu əsr arasında belə dəyişiklik baş verdi. Feodalizmin müdafiəçiləri çox zəhmət çəkmişdilər ki, səhnəyə feod sahiblərinin müxtəlif hüquqlarını və qarşılıqlı vəzifələrini çıxarsınlar. Lakin bütöv cəmiyyət yaratmaq üçün feodalizm özündən qayda və birlik əsaslarını çıxara bilməmişdi. Feod sahibləri daim bir-biri ilə toqquşmalarda və müharibədə idi və həmişə gücə əl atırdılar. Belə cəmiyyəti yaratmaq, səpələnmiş və hətta bir-

birinə düşmən olan elementləri vahid birlikdə qovuşdurmaq üçün digər əsaslardan, digər institutlardan istifadə etmək lazım idi. Onlar feodalizm sisteminə yad və hətta düşmən olmalı idi. Bu məqsədə isə feodal prinsiplərin zəifləməsi və tədricən ləğv edilməsi hesabına gəlib çatmaq olardı. Buna torpaq sahələrinin çox kiçik hissələrə bölünməsi də səbəb oldu. Kral hakimiyyəti o hala düşmüşdü ki, Fransanın cənub hüdudlarında kralın adı ilə bağlı olan sənədin tərtib edildiyi vaxt kimin bu titulu daşıdığını bilmirdilər.

10-cu əsrin sonunda feod sahibləri arasında ərazinin belə xırda şəkildə bölünməsi olduqca böyük olduğu kimi, onların müstəqilliyi heç vaxt bundan artıq olmamışdı. Cəmiyyətin dayaq hesab etdiyi əsaslar tədricən dağılırdı. Böyük Karl yaxşı başa düşürdü ki, feodalizm rüşeymləri, benefitsiya sahiblərinin müstəqilliyi və hüquqları, hakimiyyətin mülkiyyətlə qovuşması onun can atdığı tam güclü monarxiyanın ən təhlükəli düşmənləridir. Ona görə də o, bu əleyhdarı ilə fasiləsiz olaraq mübarizə aparırdı. O, heç bir qrafına, əgər sərhəd və ya barbar qonşuluğundan deyildisə, birdən çox qraflığı idarə etməyi tapşırmırdı. İdarəetmə sistemi ona yönəlmişdi ki, monarxiya bütün feodal iddialarından azad olunsun.

# II HİSSƏ. QƏRBİ AVROPADA YENİ İNTEGRASİYA DÖVRÜ

## FƏSİL 1
## MÜQƏDDƏS ROMA İMPERİYASININ YARANMASI

Fransada 987-ci ildə axırıncı Karolinqlərin hakimiyyəti başa çatanda və Kapet hakimiyyətə gələndən əvvəlki dövr yüz il davam etməklə öz başlanğıcını Şişman III Karlın 888-ci ildə devrilməsindən və monarxiyanın bir daha parçalanmasından götürmüşdü. Bu dövrdə də imperiya öz mövcudluğunu itirməmişdi, yalnız frank dövləti artıq onun mərkəzi deyildi və imperiya öz klassik torpağı olan İtaliyaya qayıtmışdı. Karolinqlərin qohumu olan iki italyan hersoqu III Karl devrildikdən sonra öz rəqabətləri ilə İtaliyanı viran qoyan bir sıra qanlı toqquşmalara gətirib çıxarmışdı. Onlardan biri öldükdən sonra digəri həmidarəçilik yükündən azad olsa da, lakin yeni iddiaçılar üçün yol açılırdı. Karolinqlərin qohumu olan Almaniya və Burqundiya kralları hersoq ölənə qədər onunla mübarizə apardılar. Almaniya kralı öləndə hersoq ən təhlükəli rəqibdən azad olmuşdu, Burqundiya kralı III Lui isə 905-ci ildə əsir düşüb kor edilmişdi. Lakin mübarizəni II Rudolf daha qızğın davam etdirirdi və hersoq I Berenqarinin öldürülməsi ilə o, zəfər çaldı. Lakin heç iki il keçməmiş o, özünə yeni rəqib tapdı və bu kor III Luinin varisi, Burqundiya kralı Hüqo idi və ondan digər Burqundiyanı almaqla İtaliyanı ona təhvil verməyə məcbur oldu.

935-ci ildə isə hər iki Burqundiya vahid dövlətdə birləşdi. Hüqo və onun oğlunun İtaliyanı idarə etməsi daxili iğtişaşlarla müşayiət olundu, onların mərkəzi Roma idisə, başlıca hərəkətverici qüvvəsi ən pozğun qadınların idarə etdiyi Papa idi. Bundan istifadə edən I Berenqarinin nəvəsi II Berenqari əvvəlcə Hüqonu ölkədən qovdu, oğlu II Lotar öləndən sonra isə İtaliyaya sahib oldu. II Lotar II Rudolfun qızına evlənmişdi və bu dul qadın Adelaidanı II Berenqari oğluna ərə almaq istədi. Qadın buna razı olmayanda məhbəsə saldırıldı və İtaliyanın narazı knyazları bu vaxt Almaniya kralı Böyük I Ottonu dəvət etdilər və 952-ci ildə II Berenqarini ram etməklə özü Adelaidaya evləndi, lakin İtaliya öz rəqibinin əlində qaldı. Çünki o, Almaniyada baş qaldıran narahatlıqlarla məşğul idi. İtaliyadan yeni şikayətlər Ottonu ikinci yürüşə əl atmağa məcbur etdi. Bu dəfə o, imperator tacı ilə taclandı və bu yolla 962-ci ildə İtaliya və Almaniyanı vahid dövlətdə birləşdirdi.

Almaniya 9-cu əsrin sonunda baş verən məlum hadisələrdən sonra ayrıca siyasi mövcudluğuna başladı, özündə bir sülalənin kök salmasına nail oldu və bu sülalə nəinki onun xarici müstəqilliyini təmin etdi, həmçinin dövlətini digər krallıqlar içərisində birinci yerə çıxardı. Almaniyanın belə qeyri-adi inkişafının

səbəbi onda idi ki, bu ölkə barbar dünyası ilə sərhəddə yerləşirdi. Bu vaxt Fransada və İtaliyada sülalə mübahisələri və daxili müharibələr gedirdi. Almaniyanın qarşısında slavyanlarla və macarlarla mübarizə aparmaq dururdu. Karolinqlərin saxta xəttinə 911-ci ildə son qoyulanda kral taxt-tacına Frankoniya hersoqu I Konrad seçildi və o, 7 il ərzində hökmranlıq etdi. Lakin slavyanlarla həmsərhəd olan sakson hersoqlarının hərbi imkanları onların hakimiyyətini tanımağa imkan vermirdi və Konradın ölümündən sonra Saksoniya hersoqu I Henri Quştutan (918-936-cı illər) Almaniyanın kralı seçildi. Bu vaxtdan etibarən 11-ci yüzilliyin sonuna qədər Sakson evi taxt-tacı öz əlində saxlayır.

I Henrix və onun oğlu Böyük I Otton (936-973-cü illər) macarların basqınlarına son qoydular və Oder çayının arxasındakı müstəqil slavyan tayfalarını özlərinə tabe edib, öz sərhədlərini qorumaq məqsədi ilə orada Brandenburq markqraflığını yaratdılar, Polşa və Bohemiya kimi müstəqil slavyan dövlətlərini özlərindən len vermək qaydasındakı asılılığa saldılar. Almaniyanın daxilində Böyük Otton öz evinin hakimiyyətini qurdu, öz qohumlarını hersoq və arxiyepiskop taxtlarına oturtdu. Bavariya onun qardaşı Henrixə, Lotaringiya digər qardaşı Brukoya verildi və axırıncı həm də Köln arxiyepiskopu oldu. Nəhayət, İtaliyanın vəziyyəti 952-ci ildə bu ölkənin işlərinə qarışmaq imkanı yaratdı və on il keçdikdən sonra o, bütün İtaliyaya və imperator tituluna sahib oldu. Ona təkcə Cənubi İtaliyanı özünə tabe etmək müyəssər olmadı, həmin dövrdə bu ərazi hüquqi cəhətdən yunanlara məxsus olsa da, əslində saratsinlər tərəfindən tutulmuşdu. Lakin o, öz oğlu Ottona Cənubi İtaliyanın yolunu onu Bizans printsessası Feofaniyaya evləndirməklə açdı. Onun varisləri olan II və III Ottonlar bütün səylərini sərf etdilər ki, öz sələflərinin planlarını həyata keçirsinlər, lakin hər ikisi qədim Roma imperiyasının bərpa edilməsi kimi fantastik niyyətlər güddüklərindən özlərini məhv etdilər. Yunanlar alman iddialarına qarşı saratsinlərlə birləşdilər, II Otton güclə əsirlikdən yayına bildi, III Otton isə Romada gənc yaşlarında zəhərlənərək öldürüldü. Romalılar ali hakimiyyətin belə yaxınlığından qorxurdular. Digər tərəfdən iki Ottonlar nəzərlərini Fransaya tərəf də döndərmişdilər, çünki bu ölkə də I Otton yürüşü ərəfəsindəki İtaliyanın vəziyyətində idi. Lakin onların cəhdləri yalnız Karolinqlərin tez yıxılmasına kömək etdi, İtaliyada II Berenqariyə müyəssər olmayan bir vəzifəni hersoq Hüqo Kapet Fransada bütünlüklə həyata keçirə bildi. O, axırıncı Karolinq olan Tənbəl V Luinin ölümündən sonra taxt-taca sahib çıxdı. III Ottonla Sakson evinin düz xətti kəsildi və 1002-ci ildə taxt-taca Bavariya hersoqu və I Ottonun qardaşı olan Henrixin nəvəsi II Henrixin şəxsində onun kiçik budağı çıxdı.

Fransada Böyük Karlın ilk varisləri dövründə, hələ 9-cu əsrin birinci yarısında Karolinqlərlə yanaşı dövlətdə xüsusi xidmətlərdən və təmsilçilərinin qazandığı ümumi hörmətdən başqa heç bir dayağı olmayan hakimiyyət yüksəlməyə başladı. Bu Fransanın, başqa sözlə Paris yaxınlığında Sena sahillərindəki kiçik torpaqların hersoqları idi. Onlardan birincisi Mömin Luinin müasiri olmaqla Al-

maniyadan çıxmışdı və Böyük Karlın düşməninin oğlu idi. Güclü Robert adlanan bu adam Fransanı normanlardan müdafiə edəndə 866-cı ildə həyatını qurban vermişdi. O, kralın qızı Adelaidaya evlənmişdi və onun uşaqları Odo və Robert kral evinin qohumları kimi yeni təyinatlar almışdılar və xüsusən Odo Paris normanlardan müdafiə olunanda şöhrət qazanmışdı. Şişman III Karl taxt-tacdan məhrum edildikdə Fransanın adlı-sanlı adamları Odonu özlərinə kral seçdilər. Lakin Karolinqlər partiyası tezliklə öz iddiaçısını ona qarşı qoydu və Odo 893-cü ildə Fransanı Sena çayı boyunca bölməyə razılıq verdi, cənubda özü qaldı, şimalda isə Sadə Karl hökmranlıq etdi və 898-ci ildə Odo öldükdən sonra bütün dövlətləri vahid səltənət altında birləşdirdi. Baronlara qarşı öz hakimiyyətini möhkəmləndirmək üçün Normandiyanı 912-ci ildə Skandinaviyadan çıxmış Rollona güzəştə getdi. Bundan on il sonra baronlar Odonun qardaşı Roberti ona qarşı qoydular. Baxmayaraq ki, Sadə Karl öz rəqibini darmadağın etdi və öldürdü, lakin onun oğlu Böyük Hüqo və ya Ağ Hüqo 923-cü ildə, başqa sözlə atasının ölümündən bir il sonra Karlı əsir götürdü və onun yerinə öz qaynı, Burqundiya qrafı Raulu taxt-taca çıxardı.

Sadə Karl 929-cu ildə əsir kimi öldü, onun kiçik oğlu Lui isə İngiltərəyə qaçdı. Raul öldükdən sonra Böyük Hüqo ikinci dəfə taxt-tacdan imtina edib dənizin o tərəfindən IV Luini çağırdı və oğlu Lotarla birlikdə o, ümumilikdə əlli il ərzində təkcə Lan şəhərinin kralı oldu. Əslində isə dövlətin başçısı 956-cı ildə ölən Böyük Hüqo və onun oğlu Hüqo Kapet idi, baxmayaraq ki, sonuncu salnamələrdə onlar sadəcə olaraq hersoq adlanırdılar. Ottonların Fransaya iddiaları və vassalların üsyanları axırıncı Karolinqlərin hakimiyyətini o dərəcədə alçaltdı ki, bircə il hökmranlıq etmiş Lotarın oğlu Tənbəl V Lui öləndə Fransa zadəganları Hüqo Kapeti, 987-ci ildə axırıncı kralın əmisi Karl Lotarinqiyalının iddiasına baxmayaraq kral seçdilər. Rəqibi, əlbəttə, o qədər də ümidverici şəraitdə deyildi və bu vaxt ona əsir düşmüşdü.

Hüqo Kapet hakimiyyətə gəlməklə öz müxtəlif budaqları ilə Fransada 1848-ci ilə qədər qalan yeni sülalənin əsasını qoydu. Lakin ilk Kapetinqlər kral hakimiyyətini çox cüzi formada miras kimi təhvil verirdilər, axı, Karolinqlər onu bu vəziyyətə salmışdılar. Fransa bu vaxt 12 perliyə parçalanmışdı, başqa sözlə bu böyük baronluqdan altısı dünyəvi, altısı isə dini olmaqla kralın özü yalnız bu 12 perdən biri idi. Çünki o, Sena çayının sahilindəki Fransa hersoqluğuna malik idi. Onun ərazisinə Orman, Tur və Anju daxil idi. Bundan əlavə Hüqo Kapet əvvəllər Sen-Deni və Müqəddəs Martin kilsələrinin abbatı olmuşdu. Onun və oğlu Robertin dövründə buna görə də krallığın tarixi əvvəlki tək bir nəsil hersoqluğu ilə məhdudlaşırdı və bu qayda 11-ci əsrdə səlib yürüşləri başlanana qədər davam etdi. Yeni sülalə ilə Fransa onu qazandı ki, Almaniya kralları onun ərazisinə olan iddialarından əl çəkdilər. Bundan əvvəl axırıncı Karolinqlərin dövründə onlardan biri Lotaringiya hersoqu olan Karl artıq Almaniya krallarının vassalı idi.

Alp dağlarında yerləşən hər iki Burgundiyanın ərazisi Fransanın İtaliya və Almaniya sərhədlərinə qədər uzanırdı və özlərinin ayrıca siyasi mövcudluğunun dayağı kimi hansısa ayrıca millətə malik deyildi. Onların kralları qadın xətti üzrə Karolinqlərin qohumları və İtaliya taxt-tacına iddiaçı olmaqla I Berenqarinin rəqibləri idilər. İtaliya işlərinə bu qarışma ancaq iki Burqundiyanın birləşməsinə kömək etdi. 935-ci ildə Tsis-yuranlı Hüqo İtaliyaya sahib olanda Trans-yuranlı II Rudolfa öz nəsil torpağının bir hissəsini verməklə onun xahişinə əməl etdi. Sonuncunun məşhur qızı Adelaida İtaliya kralı Lotarla və Almaniya kralı I Ottonla nikahda oldu, sonra isə oğlu II Ottonun və nəvəsi III Ottonun üzərində himayəçilik etdi. Ona nail oldu ki, onun qardaşı I Konradın (937-993-cü illər) Burqund sarayı 10-cu əsrin sonunadək bütün Qərbi Avropanın mərkəzinə çevrildi. Onun oğlu III Rudolf isə (993-1032-ci illər) Burqundiyanın sonuncu kralı oldu.

10-cu əsrdə İspaniya müsəlmanlar, həmçinin qotların və frankların törəmələri olan xristianlar arasında bölünmüş şəkildə olan kimi qalırdı. Kordoba xilafəti II Əbdürrəhmanın varisləri dövründə - 9-cu əsrin sonunda və 10-cu əsrin əvvəlində daxili ailə ixtilafları ilə sarsılırdı və bu ixtilaflar 912-ci ildə III Əbdürrəhmanın taxt-taca çıxması ilə nəticələndi. Onun və varisi olan oğlu II Hakamın dövründə axırıncı dəfə İspaniya müsəlmanlarının möhtəşəmliyi və savadlılığı bütün parlaqlığı ilə özünü büruzə verdi. Lakin II Hakamın ölümündən sonra xəlifələr həmişəlik guşənişinliyə çəkildi və 11-əsrin ortalarında isə xilafət artıq əmirlər arasında doqquz müstəqil hissəyə bölünmüşdü.

Xristian torpaqlarının tarixi isə əks gedişə malik idi. 10-cu əsr boyu Leonun qot kralları - Böyük III Alfonsun törəmələri və Navarranın frank kralları bir sıra daxili və ailə ixtilaflarına cəlb olunurlar. Kastiliya qrafları, Leon torpaq sahibləri müstəqil olurdular. Lakin 10-cu əsrin sonunda xilafət süquta doğru meyl etməyə başlayanda Navarra krallarının sülaləsi vərəsə kimi qot hissəsini özlərinə birləşdirirlər və xristian İspaniyası 11-ci əsrin əvvəlində bütünlüklə monarxiyaya çevrilir. Navarra kralı irs kimi Kastiliyanı alır, onun qardaşı Ferdinand isə Leon kralının vəsiyyəti ilə Leon krallığını əlinə keçirir. Əgər 10-cu əsrdə xristianların müsəlmanlarla mübarizəsi zəifləmişdisə, onun səbəbini normanların İtaliyaya hücumunda axtarmaq lazımdır. Bu vaxt normanlar eyni dərəcədə həm müsəlmanları, həm də xristianları hədələyirdilər.

Böyük Alfredin varisləri dövründə 970-ci illərədək İngiltərə öz banisinin işini uğurla davam etdirirdi. Ateletan və Edqarın hökmranlığı xüsusən yaxşı gedirdi, onların dövründə Kenterberi arxiyepiskopu Dunstin materikdə öz müasirlərinin cəhd etdiyi kimi, kilsənin və dövlətin islahatını keçirməyi düşünürdü. Lakin Edqarın varislərinin heç nəyə qadir olmamaları hökuməti zəiflətdi və 11-ci əsrin əvvəlində İngiltərə danimarkalılar tərəfindən işğal olundu.

Bu dövrdə Avropa tarixinin səhnəsinə macarlar çıxmışdı. 9-cu əsrdə onlar Dunay ətrafına köçüb burada məskunlaşdıqdan sonra öz dövlətini qurmuş və

böyük ordu toplayıb əvvəlcə moravları, sonra isə bavarları darmadağın etmişdilər. Macarlar döyüşə böyük sevinclə atılırdılar. Hətta o dövrdə belə danışırlarmış ki, macar anaları oğlanları doğulanda onların yanaqlarını iti bıçaqla kəsərlərmiş ki, hələ süd əmməmişdən əvvəl onları yaraya dözməyə öyrətsinlər. 899-cu ildə artıq nə şərqdəki, nə də cənubi-şərqdəki ölkələrdən təhlükə görmədiklərindən - onlara bulqarlar və yunanlar bac verirdilər - onlar cənubi-qərb xalqlarını narahat etməyə başladılar. Böyük qoşunla İtaliyaya yollandılar. Kəşfiyyat xarakterli məlumat əldə etdikdən sona bu xalqın saysız-hesabsız olduğu qənaətinə gəldilər, ona görə də kiçik qüvvə ilə ora hücumu başlamaqdan çəkindilər. Geri qayıdıb yaxşı hazırlaşmağı və gələn yazda hücum etməyi qərara aldılar. Bütün qışı evlərində silah tədarükü görməklə keçirən macarlar nəhəng ordu ilə İtaliyaya soxuldular və qədim Titsin (indiki Paviya) şəhərinə qədər heç bir müqavimət görmədən irəlilədilər. Kral Berenqari çox təəccübləndi, bu vaxta qədər o, belə xalqın adını da eşitməmişdi. O, iri qoşun topladı və bunu görən macarlar qaçmağa üz tutdular. Ümidsiz qalan macarlar geri qayıtmaq üçün atdan başqa hər şeylərini düşmənə verməyi qət etdilər, andla vəd etdilər ki, bir daha İtaliyaya hücum etməyəcəklər və əminlik yaratmaq üçün öz oğullarını girov kimi onlara verdilər. Lakin italyanlar təhqiramiz cavab verdikdə, macarlardan ən igidləri ümidsizliyə gəlib çatdıqlarından qərara aldılar ki, qorxmadan döyüşə atılsınlar və ölümə ölümlə cavab versinlər. Onlar bildirdilər ki, qoy bizim məğlubiyyətimizi qorxaqlığımızın deyil, taleyin üstünə yazsınlar. Belə sözlərdən ruhlanıb onlar düşmənin üstünə cumdular. Bu vaxt İtaliya döyüşçüləri danışıqların nəticəsini gözləməkdən yorulub düşərgəyə səpələnmişdilər ki, yeyib özlərini möhkəmləndirsinlər. Bu vaxt hücum edən süvari macarlar onları qırdılar. Həm də italyan əsgərləri bir-biriləri ilə sözləşdiklərindən nəinki vuruşmurdular, hətta özlərindən həlak olanları görəndə sevinirdilər və bu yolla öz məhvlərini hazırlayırdılar. Nəhayət onların bir hissəsi qırılıb, digər hissəsi qaçmağa başladıqda macarlar bütün krallığı viran qoymağa girişdilər. Yalnız güclü qalaların divarları arxasında onlar müqavimət göstərirdilər. Macarların qüvvəsi o qədər böyük idi ki, onun bir hissəsi Bavariyanı, Şvabiyanı, Fransanı və Saksoniyanı viranə qoyanda, digər hissəsi İtaliyanı qarət edirdi.

918-ci ildə Almaniya kralı Konrad öldükdən və taxt-taca Henrix çıxdıqdan sonra macarlar bu xəbəri eşidib yeni kralın yeni müqavilələr bağlayacağına ümid edərək öyrənmək istədilər ki, Henrix onlara çatası bacı ödəməyə razıdırmı. Ona görə də əvvəlcə Bavariyaya deyil, kralın yaşadığı Saksoniyaya hücum etməyi qərara aldılar, çünki o, öz qoşununu yığmağa macal tapsa da, nə Lotaringiyadan, nə Fransa, ya Şvabiya və Bavariyadan vaxtında kömək ala bilməyəcəkdir. 924-cü ildə macarlar Saksoniyaya soxulub çoxlu qan tökdülər, ölkənin bütün əhalisinin məhv olması təhlükəsi yaranmışdı. Almaniya kralı I Henrix zəif qoşunla onlarla vuruşmağa cəsarət etməyib istehkamlandırılmış şəhərdə gözləməli oldu. Lakin gözlənilməyən hadisə baş verdi, macarların başçıların-

dan biri tutulub krala təqdim edildi. Macarlar çox sevdiyinə görə onu xilas etmək üçün nəhəng məbləğdə qızıl və gümüş təklif etdilər, kral isə qızıldan imtina edib sülh tələb etdi. Əsirlərin verilməsi şərtilə doqquz illiyə sülh bağlandı. Bu hadisədə Almaniya kralının müdrik hərəkət etdiyi görünür. 933-cü ilə isə macarların tezliklə yenidən gəlib çıxacağını eşidəndə kral Henrix ağır xəstə idi. O, dörd günə bütün Saksoniyadan nəhəng qoşun topladı. Saksların yaxşı bir qaydası vardı ki, 13 yaşdan sonra heç kəs hərbi xidmətdən yayınmağa cəsarət etməzdi. Kral bədəncə zəif və xəstə olmasına baxmayaraq, at belinə oturub qoşunlarını döyüşə ilhamlandırdı. Döyüşçülər cuşə gəldikdə kral onlara müraciət edib dedi ki, Allah üçün kiçik qüvvə ilə böyük qüvvəni də məğlub etmək çətin deyildir. Buna inam lazımdır. Gəlin söz verək ki, bunu icra edəcəyik. Bu vaxt yaxınlaşan qasid bildirdi ki, macarlar saksların, turinqlərin və slavyanların sərhədindəki Merzeburq qalasının yanındadır. Onlar artıq çox sayda adamı əsir götürmüş, kişi cinsindən olan xeyli adamı qırmış, sakslara dəhşət təlqin etmək üçün on yaşından yuxarı olanların hamısını məhv etməyi qərara almışdılar. Lakin ruhən güclü olan kral bu sözlərdən qorxuya düşmədi və öz döyüşçülərini daha artıq hünərlə vuruşmağa inandırmağını davam etdirdi.

Bir az sonra macarlar qoşunun qarşısında irəliləyən kral Henrixi gördülər və döyüş başlandı. Sakslar cərgənin düz xəttini saxlayaraq bir-birlərini qalxanla qoruyurdular. Atların biri-birindən qabağa çıxmasına imkan vermirdilər və ilk ox atəşi onlara elə bir ziyan vura bilmədi. İkinci atəşə düşmən macal tapmamış, sakslar onların üstünə cumdu. Bundan sonra macarlar qaçmağa başladılar, onlar oxlarını, yaylarını tullayıb atın yükünü yüngülləşdirmək üçün yəhərini də kənara atırdılar və öz xilaslarını qaçmaqda görürdülər. Macarları əzib və səpələyib, qaliblər çox sayda əsiri azadlığa buraxdılar. Bu saksların böyük qələbəsi oldu. Məhz bu məğlubiyyətdən sonra macarlar bir daha öz qəzəblərini saksların, frankların, şvabların və bavarların üstünə tökməyə cəsarət etmədilər. Macarlarla ilk vuruşdan on iki il sonra, 936-cı ildə ağır xəstəliyə tutulmuş I Henrix öldü. Hələ kral olmamışdan əvvəl onun Otton adlı oğlu olmuşdu, o, gələcəkdə Böyük tituluna yiyələnməklə Müqəddəs Roma imperiyasının əsasını qoyacaq və onun imperatoru olacaqdı.

I Henrix öldükdən sonra sakslar 936-cı ildə onun oğlu Ottonu öz hökmdarı seçdilər və bu ümumi seçkini Axen şəhərində keçirdilər. Almaniya və İtaliyanı bir imperiyada birləşdirməkdə ona arvadı Adelaida da xeyli kömək etmişdi. Bütün İtaliyaya sahib olan II Berenqari İtaliyanın əvvəlki sahibini oradan qovduqdan və onun oğlu II Lotar öldükdən sonra onun dul qalmış gözəl qadını Adelaidanı öz oğluna almağa cəhd edəndə, qadın buna razılıq vermədiyinə görə onu məhbəsə saldırmış və dustaq böyük əziyyətlərlə oradan qaça bilmişdi. II Berenqaridən İtaliya knyazları da çox narazı idilər və Almaniya kralı I Ottona bu məsələyə qarışmağı xahiş etdilər. Otton təkcə bu dəvəti qəbul edib həddini aşan II Berenqarini yerinə oturtmadı, həm də özü dul olduğundan Adelaidaya

evləndi. Bu nikah olduqca sərfəli idi, çünki təhqir olunmuş qadın üçün bu olduqca xoşagələn jest idi, digər tərəfdən Berenqariyə qarşı bir cəza tədbiri idi. Həm də bu nikah İtaliyanı fəth etmək üçün ona yol açırdı. Əvvəlcə Ottonun bu qərarından xəbər tutan oğlu İtaliyaya silahlı müdaxilə edib qalib əklili ilə qayıtdı. Oğlanlarının zəhmətinin nəticəsiz qalmaması üçün Otton bu xalqı təslim etməyə tələsdi. Berenqari qorxudan krala qarşı çıxmağa cəsarət etmədi və uzaq bir qəsrdə gizləndi. Kral irəliləyib İtalyan krallığının paytaxtı olan Paviya şəhərini 951-ci ilin sonunda tutdu. Sonra onun xahişi ilə Adelaida bu şəhərə təşrif buyurdu. İlk görüşdən qadın kralın olduqca xoşuna gəldi və onu özünə rəfiqə seçdi. Bir qədər sonra o, yeni gözəl arvadı ilə geri, vətəninə döndü. Bu vaxt Berenqari onun yanına gəlib könüllü surətdə Ottona öz itaətini bildirdi. Hər işdə müdriklik göstərən Otton onu hörmətlə qarşıladı və bir şərtlə tacı ona qaytardı ki, vassal kimi daim hakimiyyətə itaət etməkdən yayınmasın. Həm də ona tapşırdı ki, öz xalqı ilə mülayim davransın, çünki bu vaxta qədər əhali onun qəddarlığından əziyyət çəkmişdi və 952-ci ildə Berenqari Ottonun iradəsinə bütünlüklə əməl edəcəyinə söz verib, tələsik onu tərk etdi və sevinclə öz vətəninə qayıtdı.

## Böyük Ottonun dövrü

Lakin II Berenqari verdiyi vədi unudub özünü daha qəddar aparırdı və 960-cı ildə artıq Papa və kilsə də onun zorakılığından əziyyət çəkirdi. Ona görə də Papa Ottonun yanına elçilər göndərib ondan acizanə xahiş etdi ki, Roma kilsəsini Berenqarinin quduzluğundan xilas etsin və onun əvvəlki təhlükəsizliyini və müstəqilliyini bərpa etsin. Eyni xahişlə krala Müqəddəs Milan kilsəsinin arxiyepiskopu da müraciət etdi. Digər şəhərlərdən də belə şikayətlər daxil olurdu. Dünyəvi zümrəyə məxsus olanlar da bu kömək xahişinə qoşuldular. Ona görə də I Otton hələ uşaq olan, altı yaşlı oğlunu Almaniyanın kralı təyin edib onu Saksoniyada qoydu, özü isə qoşun yığıb 961-ci ildə İtaliyaya tələsdi. O, Berenqari və onun oğlu Adelberti dövlətin ərazisindən qovdu və mərhəmətli kral hər kəsə öz mülkiyyətini qaytarmaq üçün Romaya yollandı. Romada böyük təntənə ilə qarşılandı və Papa tərəfindən 2 fevral 962-ci ildə imperator kimi şərəfləndi. Böyük Otton 936-cı ildə kral olmuş, 955-ci ildə macarları məğlub etməklə Almaniyanı ən böyük xarici təhlükədən azad etmişdi. O, Papaya təkcə ona məxsus olanları qaytarmadı, həm də qızıl, gümüş və daş-qaşlardan ibarət böyük hədiyyələr verdi. Lakin Papa İoann imperatora verdiyi vədi unudaraq bir il sonra Adelberti öz yanına dəvət edərək Ottona qarşı öz köməyini göstərəcəyi barədə onu əmin etdi. Lakin Adelbert imperatordan çox qorxduğundan ölkəni tərk etməyi üstün tutdu və saratsinlərdən himayə istədi. İoannın xəyanəti imperatoru təəccübləndirmişdi. Papa özünü pozğun və tamahkar aparırdı, öz xalası on-

dan oğlan uşağı doğmuşdu, lakin özü də ölmüşdü. O, Lateran sarayını əxlaqsız qadınların toplaşdığı yerə çevirmişdi. O, digər xalası ilə də intim yaxınlıq edib onu kəniz kimi saxlayırdı. Gənc qızlar, ərli arvadlar orada təhqir olunduqlarından, romalılardan başqa digər qadınlar kilsəyə gəlmirdilər. Papa cəzasız qalmaq üçün Adelberti özünün atası, himayəçisi və müdafiəçisi elan etmişdi.

İmperator bunları eşitdikdə Papanın hələ cavan olduğunu, onu asanlıqla yoluna qoymağın mümkün olduğunu bildirmişdi. Ona görə də o, əvvəlcə Papa vilayətinin dağlıq hissəsində müqavimət göstərən Berenqarini qovmağı qərara aldı, sonra isə Papaya atalıq nəsihətləri veriləcəkdi. O, utanıb abırlı adama çevriləcək və bundan sonra bir də pis əməllərə qayıtmayacaqdı.

Bundan sonra imperator gəmiyə oturub Po çayı ilə Paviyadan Ravennaya gəldi. Sonra Berenqarinin gizləndiyi müqəddəs Leo qəsrini mühasirəyə aldı. Bu vaxt Papa o vaxt yalnız Müqəddəs Roma kilsəsinin kansleri, sonralar isə Papa taxt-tacını tutan Leonu imperatorun yanına göndərdi ki, o, indiyədək uşaqlıq etmişdi, indi isə başqa zaman gəldiyindən başqa qaydada yaşamaq niyyətindədir. Həm də məkrlə gileyini bildirdi ki, imperator ona xəyanət etmiş yepiskop və kardinalı öz yanına götürmüş, bununla da özü müqaviləni pozmuşdur. İmperator bu ittihamın uydurma olduğunu bildirdi. Bütün bu giley mübadilələrindən sonra avqust ayında istilər azalanda, imperator sakinlərindən gizli dəvət aldığı Romaya gəldi. 963-cü ildə imperator şəhərin yaxınlığında olanda Papa və Adelbert qaçmağa üz tutdular. Şəhər sakinləri isə imperatoru qəbul edib ona söz verdilər ki, bir daha imperatorun razılığı olmadan Papanı seçməyəcəklər.

Üç gün sonra Roma yepiskoplarının xahişi ilə Müqəddəs Pyotr kilsəsində böyük dini məclis keçirilirdi və burada imperator Papanı qoyun dərisi geyinmiş, daxildə qaniçən qurd olan adamlardan biri kimi deyil, açıqca quduzlaşan kimi və öz iblis əməllərini həyata keçirəndə bunu gizlətməyə cəhd etməməkdə ittiham etdi. Sonra din xadimləri Papanı küfrdə ittiham edən çıxışlar etdilər. O, bir dəfə on yaşlı uşağı yepiskop təyin etmiş, kilsələri qarət etmişdi. O, pozğunluğa, zinakarlığa qurşanmışdı və sarayı əxlaqsızlıq yuvasına döndərmişdi. Öz xaç atasını kor etdirmişdi, nəticədə o, ölmüşdü. Yanğınlar düzəldirdi, hərbi geyimdə gəzir, qılınc gəzdirirdi. Şərab içir, qumar oynayırdı, hətta dini ibadətlərdə iştirak etmirdi. Həm də din xadimləri and içdilər ki, Papanın üzərinə onun etmədiyi və sübut oluna bilməyən heç bir cinayət atılmamışdır və özünü müdafiə etmək üçün onu müqəddəs məclisə gəlməyə dəvət etdilər. İoann isə bu məktubu aldıqda cavab verdi ki, əgər siz yeni Papa seçmək məqsədini güdürsünüzsə, mən sizi kilsədən təcrid edirəm ki, siz kiməsə xeyir-dua verə bilməyəsiniz. Papaya yeni məktub gətiriləndə o, tapılmadı və kansler Leo Roma Papası seçildi. Yeni Papaya sədaqət andı içildi.

Bu hadisələrdən sonra imperator kiçik qoşunla Romada qalmağı qət etdi. Romalılar İoannın yalan vədlərinə aldanıb öldürmək məqsədilə imperatora hü-

cum etdilər. İgid döyüşçüləri öz sinələri ilə onu qorudular və qaçan romalıları təqib etdilər, imperator qana susayan döyüşçülərini dayandırmadı və onları geri çağırmadı. Yalnız Papa Leonun xahişi ilə o, girovları buraxdı. 964-cü ildə isə İoannın tərəfdarları olan qadınlar romalıları Papa Leonu öldürməyə təhrik etdiklərindən o, imperator Ottonun yanına qaçmalı oldu. İmperator Papanın devrilməsi kimi biabırçılığa dözə bilməzdi. Digər iki din xadiminə isə ağır fiziki zədə toxundurulmuşdu, onlardan birinin sağ qolu kəsilmiş, digərinin burun pərəsi cırılmış, dili və iki barmağı kəsilmişdi. Ona görə də qoşunu gücləndirib Romaya yollanmağı qərara aldı. Bu vaxt İoann aldığı yaradan öldü. O, öldükdən sonra romalılar imperatora verdikləri vədi unudub V Benedikti Papa seçdilər. İmperator bunu eşidəndə şəhəri mühasirəyə aldı. Aclıq romalıları o vəziyyətə gətirdi ki, imperator onların iradəsinin ziddinə şəhəri tutdu və Leonu Papa taxt-tacına bərpa etdi, bu vəzifəni qəsb edən Benedikti isə ona verdilər. Benedikt ona aman verilməsini xahiş etdi. İmperator da məclisdən xahiş etdi ki, onu cəzalandırmasınlar. Dini məclisin qərarı ilə Benedikt yüksək rütbədən məhrum edildi və sürgünə yollandı, orada isə keşiş kimi işləyəcəkdi.

973-cü ildə imperator Böyük Otton öldükdən sonra onun varisi II Otton anası Adelaida ilə birlikdə Müqəddəs Roma imperiyasını uzun müddət bacarıqla idarə etdi. Lakin bir qədər sonra oğulla anası arasında ixtilaf baş verdi. Bəzi adamların yaltaqlığı nəticəsində oğul anasından uzaqlaşdı, bu Adelaidaya çox pis təsir göstərdi. Lakin o, qəzəbini boğub vətəninə dönməyi qərara aldı. Burqundiyada isə onu böyük sevinclə qarşıladılar. Bundan sonra vicdan əzabı çəkən II Otton 980-ci ildə öz dayısının yanına elçilər göndərib, anasının hörmətini qazanmağa çalışdı. Onun çox xahişindən sonra anası ilə oğlu görüşmək üçün Paviyaya gəldilər. Oğul tam peşiman olduğunu bildirdi, ana isə oğlunu bağışladı və onların arasında tam razılıq hökm sürdü. Üç il sonra, 983-cü ildə Adelaida öz yeganə oğlunu itirdi və II Ottonun yunan qızından olan oğlu III Otton taxt-tacda onu əvəz etdi. Yunan imperatriçası Adelaidaya tam hörmətlə yanaşsa da, imperatorun qayınanası isə tez-tez ona dərd gətirən hərəkətlər edirdi. Lakin yunan imperatriçası bir dəfə hansısa yaltağın təhriki ilə hədələmişdi ki, əgər o, əlavə bir il də yaşasa, dünyada Adelaidanın əlilə tuta bildiyindən artıq hansısa torpaq parçası da qalmayacaqdır. Bu sözlərdən heç dörd həftə keçməmiş onların sahibi olan imperatriça öldü, Adelaida isə öz xoşbəxtliyindən həzz almaqda davam edirdi. Taleyin dəyişkənliyindən qüssələnən bu qadın Roma imperiyasına qayğı göstərməyini dayandırmırdı. Nənəsinin köməyi ilə III Otton 996-cı ildə Roma imperatoru tituluna yiyələnməyə nail oldu. Beləliklə Adelaidanın əri, oğlu və nəvəsi Ottonlar adı altında imperator oldular. Ömrünün son illərini isə bu qadın yer işlərindən bütünlüklə ayrılıb, özünü dua oxumağa həsr etdi. 999-cu ilin dekabrında isə bu qəribə taleyi yaşamış qadın dünyadan köçdü.

# FƏSİL 2
# FRANSADA KAPETİNQLƏR SÜLALƏSİNİN MEYDANA GƏLMƏSİ

Yeni yaranan fransız millətinin daxilində Qalliyanın şimalında bir əsr yarım ağalıq edən əvvəlki Karolinqlər sülaləsinə güclü nifrət yarandı. 888-ci ilin ərazi çevrilişinə digər bir xüsusiyyətli hərəkət də uyğun gəldi - Karolinqlər ailəsinə tam yad olan şəxs taxt-taca yüksəldi. Bu adam frank krallarından fərqlənməklə Fransa kralı adlanmalı olan Anju qrafının oğlu Odo idi. Odo qarışıq əhalinin xalq namizədi idi, bu əhali yarım əsr ərzində mübarizə aparmışdı ki, ayrıca dövlət yaratsın. Onun hakimiyyətə gəlməsi ilə yeni vətəndaş müharibələri seriyası başladı və onun nəticəsi yüz il sonra bütünlüklə Böyük Karlın ailəsinin taxt-tacdan uzaqlaşdırılması ilə nəticələndi. Bu ailə təmiz german mənşəli idi, öz xatirələri və adətləri ilə german dilli ölkələrlə sıx bağlı idi. Qaliblərin dili baronların qəsrlərində işlədilməkdən çıxmaqla hələ də kral ailəsində qalmışdı.

Frank imperatorunun törəmələri öz əcdadlarının dilini başa düşmələri ilə öyünürdülər. Bu xüsusiyyət kral ailəsinə hörməti artırmamaqla yanaşı xalqı təhqir edirdi və onda öz müstəqilliyinin möhkəm olmaması barədə narahatlıq yaradırdı. Həmin dövrdə germanlar bütöv qərbdə artıq çoxluq təşkil etmirdilər, bunun yerini işğal hüququna əsaslanan siyasi iddialar tutmuşdu. Bu isə yeni müdaxilələr üçün bəhanə rolunu oynaya bilərdi və xüsusən qonşu, həm də frankların ikinci vətəni olan Fransaya təhlükə törədirdi. Özünüqoruma instinkti yeni dövləti german dövləti ilə olan bütün münasibətləri kəsməyə sövq edirdi ki, bir daha onun işlərinə qarışmaq üçün onların hansısa bəhanəsi olmasın. Belə siyasi hesablama nəticəsində Şimali Qalliyanın sahibləri mənşəcə frank, lakin ölkənin maraqları ilə bağlı olan bu adamlar əcdadlarının Pipin sülaləsinə verdiyi andı pozub, Kompyendə kral səviyyəsinə sakson mənşəlini qaldırdılar. Odoya qarşı dayana bilməyən bu Sadə (və ya Səfeh) Karl alçalaraq german kralı Arnulfdan himayəçilik xahiş etdi. Lakin onun bu cəhdləri heç bir fayda vermədi.

Karolinqlər partiyası Almaniyadan dəstək almaqla Fransız adlanan partiya üzərində üstünlük qazana bildilər. Sadə Karl intriqalar və Almaniyaya qonşu olmaq hesabına Maasla Sena çayı arasında xeyli möhkəmləndi. Senanın axını ilə krallıq iki hissəyə bölündü. Karl şimaldakı hissənin kralı oldu, Odo isə cənub hissəsində ağalıq etdi. Köhnə german anlayışına görə vallonlar frank nəsillərinin təbii təbəələri olmaqla ona nail oldular ki, sülalə müharibəsi Reyn üzrə olan bütün ölkələrdə xalq müharibəsinə çevrilsin. Kral Arnulfun qanundan kənar oğlu german xalqlarından - lotaringiyalılardan, elzaslılardan və flamandlardan yığılmış ordu ilə 895-ci ildə fransız vilayətlərinə soxuldu, lakin tezliklə Odo ordusunun qarşısında geri çəkilməyə məcbur oldu. Bu uğursuzluqdan sonra bu vaxta qədər uzurpator adlanan Odonun xeyrinə german sarayı öz münasibətini dəyişdirməli oldu və o, kral kimi tanındı. Odo öləndən sonra sülalənin dəyişdirilməsi məsələsi yenidən qalxanda kayzer bu dəfə də frank kralları törə-

məsinin tərəfini tutdu.

893-cü ildə kral elan edilən Sadə Karl ilk 22 il ərzində heç bir müqavimət görmədən hökmranlıq etdi. Qorxduğu partiyadan özünü qorumaq üçün Senanın mənsəbindəki torpaqlar öz hüququnu normanların başçısı Rolla verdi. Lakin onun bu hərəkəti gözlədiyinin tam əksinə olan nəticələrə gətirib çıxardı. Normandiya hersoqluğu Fransız krallığına xidmət göstərdi, onu küncdən german imperiyasının və onun flamand və lotaringiyalı vassallarının hücumundan qoruyurdu. Yeni hersoqlar da sülalə ədavətinə tezliklə müdaxilə etdilər. Onlar Böyük Karlın törəmələrinin və onun əleyhdarlarının şəxsi mənafelərinə eyni dərəcədə laqeyd idilər, yalnız öz sərhədlərini Fransanın hesabına genişləndirmək üçün təsadüf axtarırdılar və ya istəyirdilər ki, özlərini vassal elan etdikləri taxt-tacdan daha müstəqil olsunlar. Onları heç bir milli hiss düşündürmürdü. Birinci norman hersoqu olan Roll Sadə Karlla bağladığı müqaviləyə sədaqətli olaraq qalırdı, Odonun qardaşı Robertə qarşı onu dəstəkləyirdi.

922-ci ildə kral seçilən Robert Karolinqləri devirməyə can atırdı. Onun oğlu I Vilhelm də bu siyasəti davam etdirirdi. Lakin bir neçə ildən sonra o, Sadə Karlın işini kənara atıb Kapetinqlərin kralı Raulla ittifaq bağladı. 936-cı ildə isə yenə əvvəlki müttəfiqlərinin yanına qayıtdı və Karlın oğlu Luinin taxt-taca bərpa edilməsini müdafiə etdi. Bu vaxt Fransız partiyası yorulduğundanmı, ya ağıllı məsələni əsas götürdüyündənmi yeni krala qarşı öz sırasından rəqib irəli sürmədi və Reyn arxasında özünə dost axtararaq german kralı I Ottonla sıx ittifaq bağladı. German təsirinə güclü nifrət edən baronlar arasında bu ciddi narazılıq yaratdı. Bu milli hisslərin təmsilçisi Paris qrafı, Sena və Luara arasındakı torpaqların sahibi Hüqo idi. Öz geniş torpaqlarına görə o, Böyük adlanırdı. Qarşılıqlı inamsızlıq 940-cı ildə o səviyyəyə qalxmışdı ki, bu partiyalar sonrakı yarım əsr ərzində bir-birinə düşmən münasibəti bəsləyirdi və yeni müharibə alovu qalxa bilərdi. Böyük Hüqo kral titulunu qəbul etməsə də, Luiyə, onun atasına öz sələflərinin bəslədiyi münasibəti göstərdi.

Normanlarla öz partiyasının ittifaqını daha möhkəm etmək üçün Böyük Hüqo onların hersoquna öz qızını ərə verməyi vəd etdi. Lakin Almaniyanın ən yaxın qonşuları olan iki qall dövlətinin ittifaqı german hökmdarlarının onlara qarşı koalisiyasının yaranmasına gətirib çıxardı. Onların içərisində ən güclüləri I Otton və Flandriya qrafı idi. Kral Luinin həbsdən azad edilməsi müharibə üçün bəhanə ola bilərdi, müttəfiqlər həm də digər nəticələrə ümid edirdilər. Onların məqsədi kralı öz taxt-tacına bərpa etmək və norman qüdrətini məhv edib hersoqluğu Fransaya birləşdirmək idi. Mükafat kimi onlar torpaqlar alacaq və öz dövlətlərini Fransa hesabına böyüdəcəkdilər. Almaniya kralının başçılığı altında 946-cı ildə müdaxilə baş verdi. 32 legionun başında Otton Reymsə qədər gəlib çatdı. Kralı məhbəsdə saxlayan Xalq partiyası yadellilərə cavab vermək üçün öz ətrafında kifayət qədər qüvvə toplaya bilmədi. Lui azad edildi və müttəfiqlər Ruanın divarları yanına gəldilər, lakin bu parlaq kampaniya heç bir həlledici nəticələr gətirmədi. Normandiya müstəqil olaraq qaldı, azad edilmiş kralın dostları artmadı, əksinə onu müharibə bədbəxtliklərində günahlandırdılar.

948-ci ildə isə yepiskopların məclisi Böyük Hüqoya qarşı o taylı Luinin şikayətini araşdırdı. Lui Hüqonun ona xəyanət etdiyini bildirdi. Buna görə məclis Hüqonu kilsədən təcrid etdi. Lakin ruhanilərin bu hökmü ən ağır hücuma məruz qalmış partiyanı məhv edə bilmədi. Lakin bir neçə ildən sonra frank sülaləsinin əleyhdarları axırıncı dəfə onu devirməyə və Şimali Qalliyanı Almaniya ilə birləşdirən axırıncı sapı qırmağa müvəffəq oldular. 954-cü ildə Lui öldükdən sonra oğlu Lotar taxt-tacda onu əvəz etdi. İki il sonra qraf Hüqo da öldü, onun üç oğlu qaldı, böyüyü eyni adı daşımaqla irs kimi Fransa hersoqluğu da adlanan Paris qraflığını aldı. Öləndən əvvəl atası onu Normandiya hersoqu Rikarda tapşırmışdı. Bu dövrdə Lotar da xalq ruhunun istəklərinə uyğun olaraq german dövlətləri ilə sözləşdi və öz krallığının sərhədlərini Reynə qədər genişləndirmək istədi. O, qəflətən imperiyaya müdaxilə etdi və qalib kimi bir müddət Axendə yaşadı. Bunun nəticəsi o oldu ki, 60 min alemandan, lotaringiyalıdan, flamanddan və saksondan ibarət germanlar öz növbəsində Fransaya soxuldular, lap Monmartr yüksəkliyinə qədər gəlib çıxdılar. Orduya başçılıq edən II Ottonun geri çəkilməyə nisbətən, hücumda bəxti gətirirdi. Endən keçəndə fransızlar tərəfindən darmadağın edildiyinə görə o, Lotarla barışıq bağlayıb geri çəkilə bildi. Bu müqavilə fransız qoşunlarının istəyinin ziddinə olaraq bağlandığından iki partiya arasında ixtilaf yaratdı, heç vaxt ortadan çıxmayan düşmənçiliyə yeni bəhanə verdi. Öz atası və babası kimi barışmaz əleyhdarları tərəfindən hədələnən Lotar öz nəzərlərini Reynə dikdi ki, bədbəxtlik anında orada özünə dayaq tapsın. O, Lotaringiyadakı bütün işğal etdiyi torpaqları imperatora verdi və krallığın bu hissəsinə olan Fransanın hüquqlarını ona güzəştə getdi. Bu hərəkət bütün fransız baronların ürəyini çox kədərləndirdi. 983-cü ildə o, II Ottonun ölümündən və onun oğlunun kiçik yaşlı olmasından istifadə edib qəflətən imperiya ilə bağlanmış sülhü pozub yenidən Lotaringiyaya cumdu ki, bu ərazini qaytarmaqla öz populyarlığını bir qədər bərpa etsin. Lotara qarşı açıq hiddət yaranmasa da, onun hakimiyyəti hər gün azalırdı və onun əlindən çıxıb Böyük Hüqonun oğlu, İl-de-Frans və Anjunun qrafı və "Kapet" ləqəbini almış Hüqonun əlinə keçirdi. Lotar yalnız ada görə kral idi, Hüqo isə kral titulunu daşımasa da, əslində kral idi - bunu onların müasirləri deyirdi.

Lotarın oğlu V Luinin 987-ci ildə vaxtından əvvəl ölümündən sonra baş verən hadisələrdə üçüncü sülalənin banisinin şəxsi şöhrətpərəstliyi və xarakteri mühüm rol oynadı. Hüqo Kapet ölkənin maraqları barədə deyil, özü barədə düşünürdü. Ölkənin müstəqilliyi də sonuncu qarantiya kimi Böyük Karlın nəslinin qovulmasını tələb edirdi. Baronların və xalqın böyük hissəsi qraf Hüqonun ətrafına toplaşdı və irsi titulu olan iddiaçı bir neçə dostu ilə qaldı. Bu vaxt onun rəqibi isə xalqın yekdil tələbi ilə kral elan edildi, ona tac qoyuldu. Bu hadisə 987-ci ildə baş verdi. Seçki düzgün formalara riayət edilməməklə keçirildi. Baronların səsini saymaq heç kəsin ağlına gəlmədi. Hüqo ona görə kral oldu ki, onun populyarlığı nəhayətsiz idi. O, özü german familiyasından olsa da, imperator sülaləsi ilə onun heç bir qohumluğu yox idi. Onun mənşəyi də qaranlıq idi və üçüncü qoldan o tərəfə gedib çıxmırdı.

Üçüncü sülalənin taxt-taca yüksəlməsi ikinci sülaləyə nisbətən daha böyük əhəmiyyətə malik idi. Bu frankların ağalığına son qoyurdu və işğallara əsaslanan hökumətləri xalq kralları ilə əvəz edirdi. Bu vaxtdan etibarən Fransanın tarixi sadələşir. Sivilizasiyanın adətlərindəki və uğurlarındakı dəyişikliklərə baxmayaraq, eyni xalq tarix səhnəsində hərəkət etməyə başlayır. Ona görə də üçüncü sülalə belə uzun ömürlü olub, az qala doqquz əsr yaşadı.

987-ci ildə Karolinqlərin dördüncü bərpa edilməsinin bir çox çətinlikləri german hökmdarlarını qorxutduğundan, onlar iddiaçı Karla köməyə qoşun göndərmədilər. Krallığın öz daxilində öz tərəfdarlarının zəif köməyi ilə məhdudlaşmaqla Karl yalnız Lan şəhərinə sahib ola bildi, öz tərəfdarlarından biri xəyanət edərək kralı onun düşmənlərinin əlinə verməyənə qədər şəhər blokada şəraitində möhkəm dayanmışdı. Hüqo onu Orleandakı qülləyə saldırdı və Karl 991-ci ildə burada da öldü. Onun iki oğlu atalarının ölümündən sonra Fransadan qovuldular və Almaniyada özlərinə sığınacaq tapdılar.

Sülalənin dəyişməsi həyatın digər sahələrinə də öz təsirini göstərdi. Fransada german dilindən əsər-əlamət qalmadı. Bu dil əvvəlcə bütün qaliblərin, sonra əyanların, ən nəhayət isə müstəsna olaraq kral evinin dili idi. 948-ci ildə O taylı Lui Böyük Hüqo barədə şikayətini I Ottona gətirdikdə Papanın latın dilindəki məktubunu nə Otton, nə Fransa kralı başa düşə bilmədilər, onlar üçün məktub german dilinə tərcümə edildi. Bəlkə də Hüqo Kapet üçün bu məktubun tərcüməsi onun originalından daha yaxşı başa düşülən deyildi. O, hakimiyyətə keçdikdən sonra Almaniya, Lotaringiya və Flandriyanın hökmdarları Fransaya səfirlər göndərəndə onlara tərcüməçi qoşmağa məcbur idilər. Bu vaxtdan etibarən fransız adları bütünlüklə german adlarını əvəz etməyə başladı.

Fransa belə böyük enerji ilə germanlara qarşı öz müstəqilliyi uğrunda mübarizə apardığı bir vaxtda ondan cənubda, Luara ilə Aralıq dənizi arasında yaranan dövlətlərin müstəqilliyini məhv etməyə çalışırdı. Almanlar özlərini Fransa və İtaliyanın ağalıqdan qanunsuz olaraq məhrum edilmiş hökmdarları saydıqları kimi, fransızlar da elə bu qaydada frank işğalları əhvalatlarına əsaslanaraq Alp və Pireney dağlarının ətəklərinədək digər bütün qallar üzərində ağalıq etmək iddialarından əl çəkmirdilər. Cənubda ağalıq ideyası şimal tərəfdən azad olmaq ideyasından ayrılmaz vəhdətdə idi. Ona görə də çox hallarda kralın seçilməsindən sonra cənub sərhədlərində müharibələr gedirdi.

# FƏSİL 3
# İNGİLTƏRƏ VİKİNQLƏR VƏ NORMANLAR DÖVRÜNDƏ

7-ci əsrin sonundan başlayaraq üç german tayfası olan anqllar, saksonlar və yutlandların bir-birindən fərqləndirilməsi tezliklə öz əhəmiyyətini itirdi və bu adamlar özlərini "ingilis milləti" adlandırmağa başladılar, baxmayaraq ki, bu vaxt bir neçə krallığa bölünmüşdülər. Onlar materikdəki germanlarla özlərinin qohumluq şüuruna malik olmaqla, əvvəlki sakinlərin sivilizasiyasının təsirinə az məruz qalmışdılar. Bununla onlar Qalliyada məskunlaşan german tayfaları ilə əkslik təşkil edirdilər. İngiltərədə az sayda britonlar (brittlər) kölə şəraitindən yuxarıda dayanırdılar. Birlik ruhu uzun müddət ərzində möhkəmlənmişdi, bu Hamberdən cənubda olan bütün krallıqlarda yeganə hökmdarın tanınması dövründə olmaqla 9-cu əsrdə baş vermişdi.

7-ci əsrin əvvəlində Etelfrit birləşmiş Nortumberlend çarlıqlarına hökmranlıq edəndə, 616-cı ildə onun özü Dayra taxt-tacına sürgün edilmiş varis olan Edvin tərəfindən məğlub edildi və öldürüldü, ona sonralar bütün cənub xalqlarının hökmranı olan Reduald kömək etmişdi. Edvin Uelsi məğlub etməyi davam etdirərək, Kent istisna olmaqla bütün İngiltərənin hökmranı kimi tanındı.

716-cı ildə isə bütün orta torpaqları idarə etməkdə və Esseklə Londona nəzarət etməkdə Etelbald uğur qazandı. 15 ildən sonra isə Hamberdən cənubda olan bütün əyalətlər onun tabeliyində idi. Onun hakimiyyət dövrü 757-ci ildəki ölümünə qədər davam etməklə əvvəlki hökmdarlarınkından xeyli uzun oldu. Etelbald öz ev adamı tərəfindən öldürüldü. Onun yerini tutan Ofə bir qədər sonra qüdrətli mövqeyə malik oldu və Böyük Karl onunla bərabər səviyyədə davranırdı. 776-cı ildə o, Kent üzərindəki hakimiyyətini itirdi, lakin doqquz il sonra bunu bərpa etməyi bacardı. Ofə qan tökürdü ki, öz oğlunun varisliyini qoruyub saxlasın və onun krallığından qaçanlar Böyük Karlın dövlətində sığınacaq tapırdılar. Karl isə Ofəyə İngiltərənin ən azı cənubunun yeganə kralı kimi yanaşırdı, digər yeganə kral kimi isə Nortumberlendin kralı tanınırdı. Ofə Nortumbriya kralı Etelredə 794-cü ildə qızını verməklə onunla ittifaqa girmişdi. O, digər əvvəlki ingilis krallarından daha çox qitə səhnəsində görünürdü. Karl məktubunda onu "əziz qardaşım" adlandırırdı və qızını öz oğluna almaq istəyirdi. Ofənin rədd cavabına baxmayaraq, Karlın qızının onun oğlu Ekqfritə ərə getməsinə razılıq verməsi üç il davam edən sözləşməyə gətirib çıxardı və buna görə Karl öz limanlarını İngiltərədən olan tacirlərin üzünə bağladı. Papa I Adrian da Ofədən qorxur və ona ehtiramla yanaşırdı, onun qanunları itirilsə də, Karl sarayının görkəmli alimi olan Alkuin onları tərifləyirdi. O, Uelslə sərhədi nişanlamaq üçün böyük xərc hesabına bənd tikdirmişdi.

Ofə 796-cı ildə öləndən bir neçə həftə sonra onun oğlu da həyatdan getdi və

onların varisi Kentdəki və Şərqi Anqliyadakı qiyamları yatırtdı, lakin o, heç vaxt Ofənin mövqeyinə çıxa bilmədi. Həmin varis Senvulf 808-ci ildə Karlın Nortumbriyaya müdaxiləsinə razılıq verdi, bu anqlo-sakson tarixində nadir hadisə idi. 802-ci ildə Uesseksdə Eqbertin kral olması başlayanda, ona Mersiyanın təsiri kəsildi. Eqbert Kornvallı işğal etdi. 825-ci ildə o, Mersiyanı məğlub etməklə ordusunu sonra Kentə göndərdi və nəticədə Kentin, Surreyin, Susseksin və Esseksin kralı kimi qəbul edildi. Dörd il sonra isə o, Mersiyanın və Hamberdən cənubda olan bütün ərazilərin hökmdarına çevrildi. Nortumbriyalılar Eqberti döyüşsüz qarşıladılar. Bu qürurlu mövqeyini o, yalnız bir il saxlaya bildi, bu vaxt Uiqlaf Mersiya taxt-tacını bərpa edib Eqbertə tabe olmadan krallığını idarə etdi.

Bu vaxtdan etibarən danimarkalı vikinqlərin böyük təhlükə törədən reydləri baş verdi. Norveçlilər kimi danimarkalılar da İrlandiya, Şotlandiya və Şimali İngiltərəni qarət edirdilər, isveçlilər isə şərqə doğru - Rusiyaya hərəkət edirdilər. Ona görə də onların vikinq müdaxiləçilərinin miqrasiya xarakterli uğurlarında əhəmiyyətli iştirakları yox idi. Onlar uzaq Qrenlandiyada, Konstantinopolda, İtaliyada və Siciliyada 10-cu əsrdən başlayaraq öz izlərini qoymuşdular. Ehtiyata malik olan dənizçilər və güclü tacirlər Avropanın üfüqlərini xeyli genişləndirdilər və yeni enerji ilə onun bu vaxtadək məlum olmayan guşələrinə nüfuz etdilər. Vikinqlər ilk dəfə anqlo-saksonların qarşısında dəniz quldurları və ölüm mələkləri kimi görünmüşdülər. Onların çoxu döyüşdə canavar kimi ulayır, heç bir zireh taxmadan soyuqqanlılıqla vuruşurdu, onlar saksonlardan daha yaxşı silahlanmışdılar. Vikinqlər Britaniya adalarına iki başlıca yürüşlə hücum etmişdilər. Şimaldan olan yürüşü əsasən norveçlilər, bir qədər az dərəcədə isə danimarkalılar həyata keçirmişdilər. Daimi Nors yaşayış məskənləri İrlandiyanın şərq sahilində meydana gəldi. 950-ci ildə Dublindən Yorka qədər uzanan Nors krallığı quruldu.

Eqbertin oğlu 839-cu ildə taxt-tacda onu əvəz etməklə ağıllı tərpənib vikinqlərə qarşı Mersiya və Uessekslə birləşdi. Onların arasındakı dostluq münasibətləri nikah ittifaqları ilə möhkəmləndi. Buna sərhədlərdəki dinc məskunlaşmalar da kömək edirdi. Bu 886-ci ildə Uesseks kralı Alfredin bütün ingilislərin lordu kimi qəbul edilməsinə yol açdı və Danimarka hökmranlığının altında da bu birlik dağılmadı.

Vikinq reydləri kiçik və səpələnmiş şəkildə olmaqla hələ 8-ci əsrin son illərində başlamışdı. Britaniyaya və Frank imperiyasına iri miqyaslı qarət yürüşləri isə 9-cu əsrdə baş vermişdi. Böyük Danimarka ordusu isə Şərqi Anqliyaya 865-ci ildə gəlmişdi, güman ki, niyyətləri buranı işğal etmək idi. 871-ci ildə onlar ilk dəfə Uesseksə hücum etdilər, artıq Yorku işğal etmişdilər, Şərqi Anqliyaya sahib olmuşdular. Uesseks kralı Alfred (871-899-cu illər) sülh bağlamağa məcbur edildi və bu ona 876-cı ilə qədər beş il ərzində sakit nəfəs almağa imkan verdi. Lakin o, qovuldu və onun yerinə marionet kral oturduldu. Ancaq

877-ci ildə Alfred danimarkalıları Uesseksi tərk etməyə məcbur etməyə qadir oldu və onlar Mersiyanın şimali-şərqində məskunlaşdılar.

Sonrakı il isə Alfred Somerset bataqlığında sığınacaq tapmalı oldu və gizlicə ordu toplayıb danimarkalıları Edinqtonda darmadağın etdi. Onların kralı xristianlığı qəbul edib öz qüvvələrini Şərqi Anqliyaya apardı və onlar orada məskunlaşdılar. Alfredin qələbəsinin əhəmiyyəti şişirdilmiş sayıla bilməz. Bu qələbə bütün İngiltərənin ağası olmaqda danimarkalılara mane oldu, Uesseks heç vaxt bir daha bu təhlükədə olmadı və məhz Uesseksdən sonrakı əsrdə danimarkalıların əraziləri yenidən tutuldu. 886-cı ildə Alfred Londonu işğal etdi. Digər krallıqlar yıxılanda, Uesseksin davam gətirməsini Alfredin igidliyinə və müdrikliyinə yazmaq olardı. O, ordusunu yenidən qurmaqla müdafiə xarakterli tədbirlər həyata keçirirdi, istehkamlar tikdirir və gəmilər qayırtdırırdı. Diplomatiyası hesabına Uels kralları onun müttəfiqlərinə çevrildi. Vikinqlərin timsalında düşmənlərin sonrakı hücumları da elə bir uğur gətirmədi. Yaxşı daxili idarəçilik Alfredin danimarkalılara olan müqavimətinə köməklik göstərirdi. O, bütün azad gənclərin ingilis dilində oxumağa öyrənmələrini arzu edirdi və belə məqsəd qoymuşdu ki, "bütün adamların bilməsi üçün hamını daha vacib olan kitablarla" təmin etsin, bu kitablar onun doğma dilində olmalı idi. Böyük çətinliklərə baxmayaraq, o, özü təhsil almışdı, bəzi kitabları tərcümə etmişdi, lakin bu işdə Mersiyadan, qitədən və Uelsdən olan alimlərin köməyindən faydalanmışdı. Onların arasında məşhur anqlo-sakson tarixçisi Bedanın, həmçinin Orozinin, din xadimləri Qriqori və Avqustinin kitabları var idi. Anqlo-sakson xronikasının yazılması onun dövründə başlamışdı.

Alfred 899-cu ildə öləndə onu oğlu Eduard əvəz etdi və ona öz əmisi oğlu ilə rəqabət aparmaq lazım gəldi, axırıncı isə danimarkalılardan dəstək alırdı. Lakin onların silahlı hücumları uğursuzluqla nəticələndi. O, Uesseksi dövrələyən istehkam dairəsi tikmək barədə atasının planını tamamladı, onun bacısı isə bu işi Mersiyada gördü. 912-ci ildə Eduard artıq İngiltərədəki danimarkalıların ərazisi olan Deynloya ardıcıl kampaniyalar keçirmək üçün irəlilədi. O, Esseksi, Şərqi Anqliyanı geri aldı. Bacısı isə Beş şəhər adlanan danimarkalıların ərazilərinə qarşı eyni qaydada hərəkət etdi. Ona düşmənlərin əlindən Derbi və Lisesteri çıxarmaq mümkün oldu. Bütün Mersiyada olan danimarkalılar isə Eduarda tabe oldular. Bu vaxt digər təhlükə meydana gəldi. Dublindən olan Nors lideri 919-cu ildə Yorkda özünü kral etdi. Eduard Mançesterdə istehkam tikdi və bir il sonra həmin Reqnaldı özünə tabe etdi.

924-cü ildə Atelstan öz atası Eduardı əvəz etdi. Üç il sonra Nortumbriyaya sahib olmaqla bütün İngiltərəni idarə edən ilk krala çevrildi. O, Uels və Şotlandiya krallarının tabe asılılığına nail oldu. O, özünü qürurla "bütün Britaniyanın kralı" adlandırırdı və bu sözlər onun sikkələrində nəqş edilmişdi. Uelşləri bac verməyə məcbur etmiş və Kornvalldakı britonların qiyamını yatırtmışdı. Onun bacıları qitədəki hökmdarlara - frankların kralı Sadə Karla, Quştutan Henrixin

oğlu Ottoya, frankların hersoqu Hüqoya ərə getmişdilər. Atelstan başlıca olaraq Dublin və şotland krallarına qalib gəldiyinə görə xatırlanır. Onlar 937-ci ildə İngiltərəyə müdaxilə etmişdilər və onların məğlubiyyəti anqlo-sakson xronikasındakı poemada tərənnüm edilmişdir.

Bütün İngiltərənin hökmdarlarına çevrilən Qərbi Sakson kralları regionlarda inzibatçılığı müxtəlif qaydalarla həyata keçirməli, müxtəlif qanunlar altında idarə etməli idilər. Cərimə sistemi də, ciddi cinayətlərə görə yüksək cərimə də müxtəlif formada mövcud idi. Krallar bu yerli fərqləri aradan götürməyə cəhd etmirdilər. Kral Edqar (959-975-ci illərdə hökmranlıq etmişdi) danimarkalılara xüsusi olaraq yerli muxtariyyət vermişdi. Lakin Atelstanın dövründən bütün kral torpaqlarında bir sikkənin mövcud olması fərmanı verilmişdi və inzibati bölgünün də bir şəkil almasına tədricən nail olundu.

978-ci ildə öz ögey qardaşı tərəfindən Eduard öldürüldükdə, taxt-tacda onu uşaq olan Etelred əvəz etdi. O, hakimiyyətə təhlükəsizlik və inamın olmadığı bir atmosferdə gəldi, onun dövründəki səriştəsizlik və xəyanət halları məhz bununla izah olunurdu. 980-ci ildə başlayan vikinq reydləri getdikcə intensivləşirdi. Onlara heybətli liderlər başçılıq edirdi, əvvəlcə gələcək Norveç kralı Olaf Triqvason, sonralar isə Danimarka kralı Sveyn. Etelredin İngiltərədə 1002-ci ilin Müqəddəs Brays günü həyata keçirdiyi danimarkalıların qırğını əvvəlcə Sveynin intiqam almasına, 1009-1012-ci illərdə isə məşhur vikinq Uzun Torkellin qisasına səbəb oldu. 1013-cü ildə ingilislər müharibənin davam etməsindən və müdaxiləçilərə ağır bac ödəməkdən cana gəlib Sveyni öz kralları kimi qəbul etdilər. Etelred, arvadı Emma və kiçik oğlanları Normandiya hersoqu və Emmanın qardaşı olan Robertin yanında sığınacaq tapdılar. Bir il sonra Sveyn öləndə Etelred yenidən İngiltərəyə çağırıldı, lakin Sveynin oğlu Kanyut müdaxilələri təzələdi və Etelredin oğlu və varisi Edmondun igid müqavimətinin acığına 1016-cı ildəki Aşinqdondakı qələbədən sonra İngiltərənin yarısını ələ keçirdi və yerdə qalanını isə həmin ilin noyabrında Edmondun ölümündən sonra tutdu.

Kanyut ingilis torpaqlarını özünün bir sıra ardıcıllarına hədiyyə verdi. O, bir çox görkəmli ingilisdən canını qəddarlıqla qurtardı. Edmondun körpə oğlanları qorunmaq üçün Macarıstana aparıldı. Lakin Kanyutun hökmranlığı tiranlıq qaydasında deyildi və bu dövr yaxşı qayda-qanun zamanı kimi xatırlanır. Onun ətrafındakı əyanlar arasında danimarkalılar elementi azaldı və ingilislər Mersiya qrafı Leofrik və Uesseks qrafı Qodvin ən qüdrətli maqnatlara çevrildilər. Kanyut Etelredin dul arvadı Emmaya evlənməklə onun Etelreddən olan oğlanlarına norman dəstəyi göstərilməsi təhlükəsini uzaqlaşdırdı. Kanyut 1031-ci ildə Şotlandiyada uğurlu döyüş keçirdi və ingilislər onun Skandinaviyadakı müharibələrinə cəlb edildi. Bu müharibələr onu Norveçin ağası etdi. Vətənində sakitlik hökm sürürdü və o, kilsəni möhkəm müdafiə edirdi. Həm dini, həm də siyasi motivlərə görə o, 1027-ci ildə Romaya ziyarət edib imperator Konradın taclanmasında iştirak etmişdi və orada görüşdüyü Papadan, imperatorlardan və digər

hökmdarlardan Romaya gələn ingilis zəvvarları və tacirləri üçün güzəştlər ala bilmişdi.

Artıq 1018-ci ildə ingilislər və danimarkalılar "Edqar qanununa uyğun olaraq" razılığa gəlmişdilər, idarəetmə maşınında da elə bir dəyişiklik edilməmişdi, yalnız kiçik qraflıqlar birləşdirilib qraflıqlara çevrilmişdi və onların sahiblərinin əlində böyük hakimiyyət toplanmışdı, 1035-ci ildə Kanyut öləndə ingilis xəttini bərpa etməyə elə bir cəhd göstərilmədi və oğlanları Harold və Hardikanyut onu əvəz etdilər, lakin onların hökmranlığı qeyri-populyar oldu. Danimarka Kanyutun bacısı oğlu Sveynin əlinə keçdi. Lakin norveçlilər Kanyutun onları idarə etməyə qoyduğu oğlu, digər Sveyni qovdu və kral vəzifəsinə Maqn seçildi. Hardikanyut ilə Maqn müqavilə bağladılar ki, əgər onlardan biri oğul varis qoyub getmədən ölsə sağ qalan hər iki krallığın taxt-tacına sahib olacaqdır. Hardikanyut 1042-ci ildə öləndə onun oğlu yox idi və Kanyut nəslinin kişi qoluna son qoyulmaqla, Etelredin oğlu Eduard tərəfindən əvəz olundu, möminliyinə görə ona "Müqəddəs" deyirdilər. Kanyut Etelredin dul arvadına evləndiyinə görə ölən kralın ögey qardaşı Maqnın İngiltərəyə planlaşdırdığı müdaxilənin qarşısını Danimarkadakı narahatlıqlar aldı, lakin ingilis taxt-tacına olan Maqnın iddiasını vərəsə kimi qəbul edən Harold Hardraada 1066-cı ildə İngiltərəyə gəldi ki, buna nail olsun. Buna qədər olan 24 il ərzində ölkəyə Skandinaviyadan heç bir müdaxilə olmamışdı. Buna bir səbəb də o idi ki, ailə yaxınlığına görə Eduard vaxtilə Normandiya sarayında sığınacaq tapmışdı, 13 il orada yaşayıb tərbiyə almışdı. Onun anası Emma Normandiya hersoqu I Riçardın qızı idi. Normanların dili şimal dili olmayıb, fransız dili idi. Eduard İngiltərəyə gələndə onu dostu Robert müşayiət etmişdi.

Lakin Eduardın dövrü 1066-cı il fəlakətinin prelyudiyası rolunu oynadı. Şotlandların və uelşlərin narahatlıqları və basqınları təsadüfi və yerli xarakter daşıyırdı. Şotlandiyalı Malkolmla adətən yaxşı münasibətlər saxlanırdı, Nortumbriya qrafı Sivord Makbetə qarşı 1054-cü ildə ona dəstək vermişdi. 1063-cü ildə Uesseks qrafı Haroldun qələbələri ilə Uelsdəki narahatlıqlar yatırılmışdı. Ticarət inkişaf edirdi. Kilsə bəzi yaxşı və səriştəli başçılara malik idi, lakin pis təyinatlar da baş verirdi, məsələn normanların Dorçesterə və Londona təyin olunması kimi. Normandiya hersoqu Uilyam Eduardın yanına görüşə gəlmişdi və bu görüş vaxtı ingilis taxt-tacına varis olmaq ona vəd edilə bilərdi. Səltənətin narahatlıqları rəqib evlər olan mersiyalı Leofrikin və uesseksli Qodvinin əlində güclü qüvvə cəmlənməsindən və kralın öz norman dostlarını ölkəyə gətirməsinə görə olan narazılıqdan yaranırdı. Qodvin hətta kralın göstərişinə məhəl qoymamışdı və bu böhran şəraiti yaratmışdı. Qraf Leofrikin və qraf Sivordun dəstəyi ilə Eduard Qodvinin və onun oğlanlarının qanundan kənar elan edilməsini qoruyub saxlaya bilmişdi. 1053-cü ildə Harold atası Qodvini Uesseks qrafı kimi əvəz etdi. Tostiq isə Nortumbriya qrafı oldu. Bir il sonra varisin kim olması məsələsini həll etmək üçün danışıqlar başlayanda Eduardın qohumu Edmondun

oğlu Macarıstandan gəldi, lakin üç il sonra öldü və onun kiçik yaşlı oğlu qaldı. 1064-cü ildə Normandiyaya səfər edərkən uesseksli Harold Uilyamın iddiasını dəstəkləyəcəyinə and içdi. Kral Eduard 1066-cı ilin ilk günlərində öləndə Haroldu öz varisi adlandırdı və nortumbriyalıların müqavimətinə baxmayaraq, yepiskopun köməyi ilə bu plan hamı tərəfindən qəbul edildi.

Harold özünün bacarıqlı hökmdar olduğunu göstərə bilərdi, lakin ona qarşı olan qüvvələr çox güclü idi. Papa ölkəyə müdaxilə etməyə xeyir-dua verməklə Uilyama böyük ordu toplamağa imkan yaratdı. Lakin Haroldun yeganə problemi Uilyam deyildi. Norveç kralı III Harold Hardraada İngiltərənin kralı olmaq istəyirdi. O, Tostiqlə birləşib Haroldun öz qüvvələrini cənubda toplamasının qarşısını aldı və böhran anında ona şimalda hücum etdi. Tostiq və Harold Hardraada 25 sentyabrda gedən döyüşdə öldürüldülər. Bundan yalnız 19 gün sonra Harold Hastinqsdə bu dəfə Normandiyalı Uilyama qarşı vuruşmalı oldu və döyüşdə öldürüldü. Normandiya hersoqu Haroldun qələbəsindən üç gün sonra İngiltərə sahilinə çıxmışdı. Uilyamın qüvvələri Haroldunkundan az olsa da, iki üstünlüyə malik idi. O, Haroldun qoşunları üzərinə döyüş qaydasında hücum edirdi. Onun ikinci üstünlüyü isə ordusunun təlim keçməsində və intizamlı olmasında idi. İngilislər bütün günü müqavimət göstərdilər, normanlara xeyli ziyan vurdular, müqavimət yalnız Harold və onun iki qardaşı həlak olduqdan sonra kəsildi və ingilis qüvvələri artıq lidersiz qaldılar.

Hastinqsdəki norman qələbəsi özünün necə həlledici olduğunu, Uilyamın sonrakı niyyətində özünü göstərdi. Uilyam irəli hərəkət edərək Edqarı və başqalarını özünə tabe etməyi qət etdi. Müqavimətsiz olaraq Londona girdi və Harolda tac qoyulmasından 11 ay sonra, 1066-cı ilin Milad bayramı günü Vestminsterdə Uilyamın başına İngiltərə kralının tacı qoyuldu. Həm İngiltərədə, həm də Fransada Uilyamı qısqanclıqla özlərinin kralı kimi tanıdılar.

Uilyamın hökmranlıq etdiyi 20 il ərzində ən başlıca dəyişiklik İngiltərənin norman kübarlığına tabe edilməsi idi. O, öz ardıcıllarına malikanələri bölüb verdi, bu torpaqlar işğal olunmuş hesab olunurdu. Onlardan çoxu bu adamların mərkəzləşdiyi feodal dövlətlər kimi idi. Bu mərkəzlər adətən qalalarla istehkamlanırdı. Normanlar öz inzibatçılığını yaradır, hərbi qüvvə təşkil edirdilər. Onlar Fatehdən bu torpağı almaqla əvəzində rıtsar xidməti birliyini yaradır, kralın feodal ordusunu müəyyən sayda rıtsarlarla təmin edirdilər. Qədimdən Normandiyada mövcud olan özəl müharibələr İngiltərədə uğurlu qaydada qadağan edilmişdi. Hersoqun vətənindəki onları yatırtmaq cəhdləri isə uğurlu olmamışdı. Yalnız kralın icazə verdiyi feodal ordu saxlana bilərdi. Bu işğalla İngiltərə anomaliyaya, birləşmiş və mərkəzləşmiş feodal dövlətə çevrildi.

I Uilyamın idarəçiliyi köhnə anqlo-sakson sistemi ilə yenisini birləşdirdi, onların ənənələri güclü Norman krallığı ilə qovuşdu. İngiltərə böyük ərazi sahibliyinin bir hissəsi oldu və öz irqindən olan adamlar tərəfindən idarə edilən dövlət xarakterini itirdi. 1154-cü ilə qədər İngiltərə Normandiyanın bir hissəsi,

sonrakı dövrdə isə Anjunun, imperiyanın bir hissəsi oldu. İngiltərə krallarına məxsus olan bu imperiyalar heç də İngiltərəyə məxsus deyildi. Onlar ingilis dilini işlətmirdilər, onların doğma dili fransız dili, rəsmi dilləri isə latın dili idi. Bu krallar və onların adamları öz mədəniyyətlərinə və öz vətənlərinə arxalanırdılar, onların da hər ikisi fransız adını daşıyırdı. 1066-cı ildən sonrakı dövrlərdə bunun siyasi nəticəsi kimi demək olar ki, İngiltərədəki hər bir baron norman fransızı idi və kilsədə bütün vacib postları qitədə anadan olmuş və təhsil görmüş adamlar tuturdular. Bütün orta əsrlərdə bu ingilis və Avropa tarixindəki fərq olaraq qalırdı. 1066-cı ildə Haroldun ölümündən sonrakı dövrdə İngiltərədə hökmranlıq etmiş yeganə ingilis altı əsr sonra gələn Oliver Kromvel olmuşdu. Deməli bu uzun tarixi dövrdə İngiltərəni ingilis olmayan hökmdarlar idarə etmişdilər.

Uilyam Fateh İngiltərə və Normandiyanı sıx birlikdə saxlasa da, heç vaxt onun elə bir niyyəti olmamışdı ki, onları vahid krallıqda birləşdirsin. Normandiyada o, yalnız hersoq idi, Fransa kralının vassalı idi. Onun böyük oğlu Robert Normandiyada varis olmalı idi. İngiltərədə isə krallıq seçkili olduğundan arxiyepiskop onun ikinci oğlu Uilyam Rufusun xeyrinə seçkini aparacaqdı. Ona görə də Uilyam qitədəki sülalə problemindən əziyyət çəkirdi. Bu işə oğlu Robertlə yanaşı ona düşmən olan Fransa kralı da qoşulmuşdu. Bundan əlavə Normandiyada narazılıqlar da baş verirdi, Men əyalətinin təbəələri qiyam qaldırmışdılar. Fransa kralı I Filipp və baronların bəziləri Robertin İngiltərə taxt-tacına sahib olmasını istəyirdilər. Uilyamın ölümündən sonra isə sərhəd məsələlərinin üstünə oğlanlarının rəqabəti əlavə olundu. Lakin taxt-taca onun oğlanları II Uilyam, sonra isə Henri gəldi və onların dövründə feodallaşmış cəmiyyətdə mərkəzləşmiş hökumətin idarəçiliyi davam edirdi. II Uilyamın dövründə norman baronlarının qiyamına kralın iki ögey əmisi başçılıq edirdi. Onlardan biri yoxa çıxdı, digəri isə xəyanətə görə mühakimə edildi. Axırıncı yepiskop vəzifəsini tutduğuna görə kral məhkəməsinin yurisdiksiyasına etiraz etdi. Lakin onun dünyəvi mülkün sahibi kimi mühakimə edildiyini əsas gətirdilər. Uilyam qorxurdu ki, işi Romaya götürə bilərlər. Ümumiyyətlə, kral öz vədini unudub tiran hökmdara çevrildi. O, Normandiyanı tərk edib onu İngiltərəyə birləşdirməyə çalışdı.

Atası Normandiyanı Robertə vermişdi, o böyük qardaş olsa da, bu üç qardaşdan ən bacarıqsızı idi. II Uilyam mümkün olduqca dinc metodlara üstünlük verirdi. Qısa müddətli döyüşdən sonra o, Robertdən hersoqluğun cənub hissəsini ala bildi və digər qardaşı Henriyə qarşı müharibəyə Roberti də cəlb etdi. Uilyamın planı norman qraflarının 1095-ci ildəki ikinci qiyamı ilə pozuldu, lakin bir il sonra Robertin səlib yürüşünə yollanması ilə irəlilədi. Robert özünün norman torpaqlarını Uilyama 10 min markaya girov qoymuşdu. 1100-cü ildə Uilyam Rufus Yeni Meşədə ov edəndə arxadan ox ilə ölümcül yaralandı, buna "bədbəxt hadisə" adı verdilər. Ov edən partiyaya yararlı olan Henri üçün ingilis taxt-tacını tutmağa əlverişli şərait yarandı və o, tələsik atını Vinçesterə çapdı, xəzi-

nəni əlinə keçirdi, sonrası günü isə kral seçildi. 28 sentyabr 1106-cı ildə atasının İngiltərədə sahilə çıxdığı gündən düz qırx il sonra dramanın oynandığı yer dəyişməklə İngiltərə kralı bu dəfə bütöv Normandiyanı işğal etdi, hersoq Robert əsir götürüldü və 80 illik ömrünün qalan hissəsini qala zindanında keçirdi. Henri Robertə qarşı mübarizədə fransız kralı I Filippdən dəstək almışdı, lakin onun oğlu və varisi VI Luinin dəstəyini qazana bilmədi.

1120-ci ildən başlayaraq Henri həm diplomatiyada, həm də müharibədə uğurlu oldu. Papa Normandiyaya nəzarət etməkdə ona köməklik göstərdi. Lakin onun yeganə qanuni oğlu 1120-ci ildə öldükdə Müqəddəs Roma imperatoru V Henrinin arvadı olan onun qızı Matilda varis kimi qaldı. İmperator 1125-ci ildə öləndə o, İngiltərəyə uşağı olmayan dul qadın kimi qayıtmışdı. Bu qızın qəribə taleyi var idi, 8 yaşı olanda bir il sonra imperator tacına yiyələnəcək V Henriyə nişanlanmış, dörd il sonra, 1114-cü ildə 12 yaşında ona ərə getmişdi. On bir il sonra əri xərçəng xəstəliyindən öləndə onların övladı yox idi. Matildanın varis olması ilə Alman-İngilis imperiyasının perspektivi yarandı. V Henri Fransaya qarşı qayınatasını dəstəkləyirdi, lakin bu hərbi yardıma keçməmişdi. Matilda iki il sonra Anjulu Cefri Plantegenetə ərə getdi. Bu vaxt Cefrinin 14, imperatriçanın isə 25 yaşı var idi və onların biri-birindən xoşu gəlmirdi. Qadının ondan üç uşağı oldu. Henri özünün qocalığını nəvələrini hədsiz sevməklə keçirdi və 1135-ci ildə öldü. Henrinin ölümü iyirmi illik böhrandan xəbər verdi və ölkədə xaos başladı.

Heç kəs Matildanın kraliça olmasına sevinmirdi, əri Cefri isə bundan xüsusilə narazı idi, çünki onu Henrinin norman düşmənləri ilə dostluq telləri bağlayırdı və Henri öləndə onlarla əsl müharibə vəziyyətində idi. Henrinin qanunsuz oğlu olan Robert, Qloster qrafı cəlbedici namizəd idi. Bu vaxt ölən kralın iki qohumu da vardı və gözənilməyən hadisə baş verdi, onlardan biri Tibalt Normandiyada qitədəki vassallar tərəfindən hörmətlə qarşılandı, digəri Stefen isə gəmi ilə İngiltərəyə gəlib kral taxt-tacına iddiasını bildirdi. Həmin ilin dekabrında Vinçesterdə ilk qorunan xəzinəni ələ keçirdi və ona tac qoyuldu. 1136-cı ilin əvvəllərində Papa bunu təsdiqlədi, bununla da ingilis baronlarına Matildanı dəstəkləməsi barədə verdiyi andı dəyişdirdi.

Stefen tezliklə özünün qətiyyətli və taxt-tacı qoruyub saxlamaq məsələsində yenilməz olduğunu göstərdi. Şotlandiya kralı Deyvid sərhədi keçib bir sıra şimal fortlarını tutdu. Stefen feodal köməyindən məhrum olmasına baxmayaraq, əsasən flamand muzdlularından ordu düzəldib şimala doğru hərəkət etdi. Stefen fortları mühasirəyə alanda Deyvid danışıqlar aparmağa razılaşdı. Şotland kralının İngiltərədəki qraflığı onun oğluna verildi.

O, I Henrinin inzibatçılarının yerinə mərkəzi hökumətdə başlıca vəzifələrinə öz adamlarını təyin etdi. O, qrafların sayını artırıb 7-dən 16-ya çatdırdı. Mərkəzi hökumətdə hakimiyyət Solsberi yepiskopu Rocerin və onun ailəsinin əlində cəmləndi. 1139-cu ildə Oksfordda böyük şuranın iclası gedəndə yepiskop

Rocerin və onun əleyhdarının adamları arasında səs-küylü küçə savaşması başladı. Kral yepiskoplardan dincliyi pozduqlarına görə satisfaksiya - məmnunluq verilməsini tələb etdi. Onlar xoş məram kimi öz qəsrlərini verməli oldular. Lakin bu epizod Stefenin taleyində dönüş nöqtəsi oldu, bu vaxtdan ruhanilərin ona münasibəti pisləşdi. O, öz qardaşını Kenterberi yepiskopu edə bilmədi.

1139-cu ildə Matilda İngiltərədə sahilə çıxdıqdan sonra dövlət irsi uğrunda müharibə başlandı. Matildanı onun ögey qardaşı Qlosterli Robert dəstəkləyirdi. Onlar cənubi-qərbdə bir neçə qəsri tutdular. Stefen əvvəlcə onları mühasirəyə alır, sonra mühasirəni götürürdü. Nəticədə o, müşayiət edənlərin nəzarəti altında imperatriçanı Bristola göndərdi. Müharibənin erkən hissəsindəki həlledici an 1141-ci il idi. Stefen bir qəsrə hücum edəndə böyük maqnatların çoxu onu qoyub qaçdı. O, məğlub olub bir sıra baronlarla birlikdə əsir götürüldü. Matilda Vinçesterə gələrək qələbədən xeyir götürdü və mart ayında dövləti qəbul etdi, bir az sonra ona Domina Anglorum titulu verildi. Londonlularla pis davranması onun böyük səhvi olmaqla müharibə dalğasının bütünlüklə ona qarşı dönməsinə səbəb oldu. Onlardan ittifaq və vergi tələb edəndə şəhərlilər silahlanıb onu buranı tərk etməyə məcbur etdilər. Bu vaxt Stefenin kral liqası kral qoşunları ilə Londona girdi. Stefen Qlosterli Robertə dəyişdirildi, axırıncı Vinçesterdə əsir götürülmüşdü. Stefen yenidən taxt-taca çıxdı.

Matilda cənubi-qərb ərazisini öz əlində saxlamasına baxmayaraq, onun bəxti artıq gətirmirdi. Sonrakı vuruşlardakı məğlubiyyət onu kraliça taxt-tacından və bacarıqlı müdafiəçilərindən məhrum etdi. Ona görə də 1148-ci ildə o, İngiltərəni tərk edib Normandiyaya getdi və bir daha geri dönmədi. Beş il sonra onun oğlu Henri vətənə qayıdıb uğurlu kampaniya apardı. Henrinin oğlu öldüyündən və maqnatlar Stefeni inandırdığından o, kompromiss sülhü bağladı. Stefen Henrini öz varisi etdi. Lakin Stefenin ölümü ilə uzun "anarxiya" dövründən sonra məsələləri həll etmək çətinləşdi. Stefenin dövründə ölkənin mərkəzləşmiş dövlət tərəfindən idarə edilməsi qaydası pozulmuşdu.

Matildanın oğlu Henri Plantagenet İngiltərənin Anju sülaləsindən olan üç böyük kralından birincisi idi. O, Stefeni 1154-cü ildə 21 yaşında əvəz etmişdi. O, geniş feodal imperiyanın varisi idi. Anasının və Stefenin varisi kimi isə İngiltərə və Normandiyanı idarə edirdi. Atasının varisi kimi Anjunu, qardaşı Cefrenin varisi kimi isə Bretanı əlində saxlayırdı. Fransa kralı VII Luinin boşadığı Eleanora evlənməklə onun kimi Cənubi Fransanın başlıca hissəsi olan Akvitaniyaya sahib idi. Bütövlükdə Fransadakı onun torpaqları Fransa kralının tabeliyində olanlardan böyük idi.

Henri bütün bu torpaqlara öz hüquqlarını həyata keçirmək üçün olduqca qətiyyətli hərəkət edirdi. O, İngiltərədə hərbi və idarəetmə inzibatçılığında bir sıra dəyişikliklər etdi. Özəl müharibələr qadağan edildiyinə görə feodalların özlərinə hərbi vassallar saxlamasına ehtiyac yox idi. Henri öz norman əcdadlarına nisbətən öz müharibələrinə görə feodal ordudan o qədər də asılı deyildi. O,

yerli baronların nəzarətində olan şeriflərin çoxunu vəzifədən azad etdi.

O, feodal sahibliyində olan bütün torpaqları kral yurisdiksiyası altına gətirməklə kralın məhkəmə hakimiyyətini xeyli genişləndirdi. Onun hökmranlığı dövründə and içənlərin səyyar məhkəmələri - assizlər tətbiq edildi. Böyük səyyar məhkəmələr üçün iddiaçı lord-kansler məhkəməsinə gedib ondan şerifin üstünə çağırış kağızı alırdı ki, iddiası olduğu torpağın sahibinin gəlməsini tələb etmək vəzifəsini o, öz üzərinə götürsün və dörd adam çağırsın ki, onlar işi həll etmək üçün 12 adam seçsinlər. Bu çağırış sənədə alternativ olaraq ya şikayət edilən torpaq sahibi lord-kanslerin məhkəməsinə çağırılmalı, yaxud da kral vəzifəlilərinin qarşısında dayanmalı idi. Bu hüquqi çağırış kağızına görə digər müxtəlif hərəkətlər daha az qorxulu idi və and içənlərin səyyar məhkəmələri o dövrün torpaq mübahisələrindən ötəri hər iki tərəf üçün əlverişli idi. Onlar sahib olma səyyar məhkəmələri adlanırdı. Bu məhkəmələr kimin birbaşa torpağa sahib olmağını həll etmək hüququna malik idi. Heç bir azad adam bu tədbirlər hesabına öz azadlığına görə kral məhkəməsindən savayı cavab vermək üçün başqa məhkəmələrə gətirilə bilməzdi. Bu yeniliklərin qəbul edilməsi onu göstərirdi ki, feodal torpaq sahibliyi və torpaq sahibliyi üzərində feodal yurisdiksiyası artıq vəziyyətdən çıxış yolunu tapmışdır.

Henri həmçinin norman kralları dövründə kilsə ilə dövlət arasında mövcud olan sıx əlaqələri bərpa etməyə cəhd göstərdi. Bu istiqamətdə onun ilk addımı Tomas Beketi Kenterberi arxiyepiskopu təyin etmək oldu. O, yeddi il ərzində Henrinin kansleri işləmişdi və özünü qeyri-adi dərəcədə kral xidmətçisi kimi göstərmişdi. Henri güman edirdi ki, Tomas arxiyepiskop kimi də özünün belə rolunu davam etdirəcəkdir. Lakin Beket onun ümidlərini doğrultmadı, kral müdaxiləsinə qarşı kilsənin hərbi müdafiəçisinə çevrildi və Papa VII Qriqorinin bütün dünya üzərində kilsənin aliliyi proqramının qızğın tərəfdarı oldu. Henri və Beket arasındakı mübarizə böhran səviyyəsinə çatdı. Beket kralın onu məhv etmək niyyətini anlayıb Fransaya qaçdı. Henri əyalətin gəlirlərini müsadirə etdi və onun dostlarını sürgünə göndərdi. Beket sürgündə olanda Romaya şikayət etdi və onu təhqir edən mərasimdə iştirak edən ruhanilərin dindən təcrid edilməsini xahiş etdi. Beket İngiltərəyə qayıdıb öz mövqeyində israr edəndə Normandiyada olan kral hiddətlənib gəmi ilə dörd rıtsar göndərdi ki, arxiyepiskopu öldürsünlər. Şəhid olan Tomas xalqın gözündə müqəddəsə çevrildi. Henri bu qətlə görə məsuliyyətdən yaxasını kənara çəkdi, kilsə isə səlib yürüşünə getmək vədi altında barışdı, ingilis məhkəməsindən Romaya şikayət etməyə razılıq verdi, Kenterberi əmlaklarını bərpa etdi.

Henrinin oğlanları da ictimai rəydə onun zəifliyindən istifadə edib onun düşmənləri ilə koalisiya bağlayırdılar. Onlar 1173-cü ildə özlərinin bütün torpaqlarında qiyam qaldırdılar. Lakin aralarında birlik olmadığından Henri onları məğlub etdi. Arvadı Eleanor Henrinin qalan bütün ömrü boyu nəzakətli dustaqlığa çəkilməli oldu. Sonrakı illərdə Henrinin nüfuzu və qüdrəti artdı. 1182-ci ilin əvvəlin-

də gənc Henri yenə atasına qarşı müxalifət təşkil etməyə cəhd etdi, lakin elə həmin ilin ortasında öldü. Ata Henri həyatının axırıncı illərini yeni fransız kralı II Filipp Avqustla mübarizədə keçirdi, oğlu Riçard da onunla ittifaqa girmişdi.

Henri taqətdən düşmüş qoca adam kimi 1189-cu ildə öldü və onu taxt-tacda Şir ürəkli ləqəbi almış I Riçard əvəz etdi. Riçard özünü Yerusəlimi geri almaq üçün yeni səlib yürüşü təşkil etmək ideyasına həsr etmişdi. Digər tərəfdən o, Fransadakı torpaqlarını Filipp Avqustdan qorumalı idi. 1147-1149-cu illərdə baş vermiş ikinci səlib yürüşü uğursuzluqla nəticələnmişdi. 1187-ci ildə isə sultan Səlahəddin Qaliley dənizindən qərbdə Hattin döyüşündə qələbə çalmışdı. Yerusəlim və digər müqəddəs yerlər itirilmiş, Tir istisna olmaqla xristianların bütün işğal etdikləri torpaqlar əldən çıxmışdı.

1189-cu ildə Filipp Avqust və yenicə taxta çıxmış ingiltərəli I Riçard özlərinin könüllü dəstələri ilə yürüşə çıxdılar. Riçardın 180 gəmisi var idi, onlar yüklənib yola düşdü. Bu ilk ingilis donanması idi ki, dar dənizlərin o tərəfinə gedirdi. Səlahəddin ilə 1192-ci ildə barışıq bağlanana qədər səlibçilər öz əməliyyatları üçün bütün ehtiyatları dəniz vasitəsilə alırdılar və bu müharibə aparmağın yeni ixtirası idi. Səlibçilər bəzi şeylərə də nail olmuşdular. Riçard geri qayıdanda Kipri işğal etdi, bu ada Şərqi Roma imperiyasının nominal və baxımsız qalmış torpağı idi. Kral onu müstəqil dövlət və dəniz bazası kimi təsis etdi. Səlahəddin isə vəd etmişdi ki, xristian zəvvarlar müqəddəs torpaqlara gəlib-gedəndə onlara heç bir xətər toxundurulmayacaqdır. Riçard Fransa kralı ilə sözləşmişdi. Vətənə dönəndə Riçard Adriatik dənizində gəmi qəzasına uğradı və quru yolla səfərini davam etdirərkən başqa, daha xoşagəlməyən hadisə ilə üzləşməli oldu. İngiltərə kralı Palestinada olanda Avstriya hersoqu Leopoldu, onun bayrağını çıxardıb atmaqla ölümcül təhqir etmişdi. Vətənə dönəndə kral hersoqun iqamətgahının yerləşdiyi Dunay üstündəki Vyanaya gəlmişdi. Onun burada olması xəbəri yayılanda hersoq Riçarddan təhqirinə görə qisas almaq istədi və ölkənin hər yerinə öz kəşfiyyatçılarını göndərdi. Kralın yaşadığı evi mühasirəyə alıb, onu təslim olmağa məcbur etdilər. Hersoq ona ehtiramla yanaşdı və dustaqxanaya salmağı əmr etdi. İmperator və bütün Almaniyanın kayzeri VI Henrix bunu eşitdikdə Avstriya hersoqundan öz vassalı kimi tələb etdi ki, əsiri ona təhvil versin. O, kralı öz məhbəsində saxlamaq istəyirdi. Riçarda çoxlu ittihamlar irəli sürüldü, onlara görə o, imperiyanın düşməni elan olunmalı idi. Məhkəmə onu fransız kralına verməkdən imtina etdi. Bir çox qeyri-müəyyənlikdən sonra çox böyük girov pulu hesabına 1194-cü ildə o, əsirlikdən azad edildi. Tələb olunan məbləğ kralın illik gəlirinin beş misli həcmində idi. O, qısa müddət İngiltərədə qaldıqdan sonra ömrünün qalan hissəsini öz işlərini yoluna qoymaq üçün Fransada keçirdi. Onun hökmdarlığının on ilində o, İngiltərədə yalnız altı ay olmuşdu.

Riçardın qardaşı Con 1193-cü ildə qiyam qaldırmışdı və onu yatırtmaq üçün sərt tədbirlərə əl atılmışdı. Onların həyata keçirilməsində kralın anası Eleanor

da iştirak etmişdi. Conun tərəfdarları qanundan kənar elan edilmiş və dindən təcrid edilmişdilər. Riçard xaricdəki məcaralarından geri dönəndə o, Conu bağışladı və ona öz varisliyini vəd etdi. O, həmçinin daimi ordu yaratmaq istəyəndə özünə qarşı müxalifət qaldırdı. Bu ordu 300 rıtsardan ibarət olacaqdı və bütün ili xidmət göstərəcəkdi. Yepiskopların başçılıq etdiyi baronlar Riçardın layihəsinin əleyhinə çıxdılar. Riçard 1199-cu ildə Fransada mühasirə əməliyyatını keçirərkən öldürüldü və onu qardaşı Con əvəz etdi. Yeni kral ingilis hökmdarları arasında ən qeyri-populyar və bəxti gətirməyənlərdən biri oldu. Öz bədbəxtliklərinə görə başlıca olaraq o, özü məsuliyyət daşıyırdı, digər tərəfdən o, qardaşına və atasına olan nifrəti də vərəsə kimi qəbul etmişdi. Ata Henri feodal yurisdiksiyaya müdaxilə etmişdi, Riçard isə İngiltərənin çox böyük miqdarda pulunu səlib yürüşünə və özünün azad edilməsi naminə girov pulu verilməsinə və Fransaya qarşı müharibəyə sərf etmişdi. Con böyük və müxtəlif cinsli Anju imperiyasına olan bütün iddiaları miras kimi almışdı. İngiltərədə və Normandiyada o, Riçardın varisi kimi qəbul edilirdisə, Bretonda, Anjuda, Mendə isə Conun qardaşı Cefrenin oğlu Arturu varis kimi tanıyırdılar. Conun anası Eleanor da Akvitaniyanı özünün cehiz hersoqluğu kimi saxlayırdı.

Con Fransadakı torpaqlarına görə onun ağası hesab olunan Fransa kralı II Filippin çağırışına getmədiyinə görə bu torpaqlar müsadirə olunmuş elan edildi. 1204-cü ildə isə öz strateji qəsrinin düşmənlərinin əlinə keçməsinə imkan verdi. İki il sonra norman krallarının vərəsəsindən ona yalnız La-Manşdakı adalar qaldı. O, İngiltərəyə qayıdanda artıq işğal kralına bənzəmirdi, bütün diqqətini öz səltənətinə verdi. Bu vaxt o, Papa III İnnokent ilə arxiyepiskop seçkisi üstündə münaqişəyə girdi. İngiltərə arxiyepiskopsuz qalmışdı. 1209-cu ildə II İnnokent Conu dindən təcrid etdi. Buna cavab olaraq üç yepiskop öz postlarını tərk etdi. Con bu dövrdə Şotlandiyaya, Uelsə və İrlandiyaya uğurlu ekspedisiyalar təşkil etdi. Normandiyanı itirdikdən sonra o, german hökmdarları ilə fransız kralına qarşı ona kömək göstərmələri üçün koalisiya bağladı. Onun baş müttəfiqi saksoniyalı Otton idi. O, german taxt-tacına iddiaçı olmaqla IV Otton kimi Müqəddəs Roma imperatoru oldu. Fransada Filippin köməyi ilə uelşlər qiyam qaldırdılar. Conun qoşunları Uelsi ram etməli idi. Lakin uelşlərə qarşı cəza tədbirlərinə keçməmişdən əvvəl şayiə gəzirdi ki, baronlar onu devirmək planı hazırlamışlar. Təhlükələr çoxalanda Conun problemi parlaq həll etməsi onun Papa ilə barışmasına səbəb oldu. O, əvvəllər qəti imtina etdiyi Stefen Lanqtonu arxiyepiskop kimi qəbul etdi, sürgün olunmuş ruhaniləri bərpa etdi və kilsənin itirilmiş gəlirlərinin əvəzini ödədi. Üstəlik İngiltərə və İrlandiyadakı öz krallıqlarını əvvəlcədən Papadan razılıq olmadığına görə ləğv etdi və sonra onu ildə 1 min marka təzminat vermək hesabına Papadan geri aldı. Belə baha qiymətə də olsa o, yenidən öz düşmənlərinə qarşı dayanmaq iqtidarında idi. Lakin yenə də heç nəyə nail olmadan Fransadan geri qayıtmağa məcbur oldu və öz vətənində narazı baronlarla üz-üzə gəldi. Qiyam yavaş-yavaş qalxırdı. Arxiyepiskop ba-

ronlara I Henrinin taclanması vaxtı xartiya oxuduqdan sonra onlar hərəkətə gəldilər. 1215-ci ilin yazında Cona qarşı müxalifət öz formasını aldı və Naməlum Xartiya adlanan sənədin layihəsi hazırlandı. Bu I Henrinin xartiyasına əsaslanırdı, lakin daha kədərli təsir bağışlayırdı.

Krala müqavimət başlıca olaraq şimal baronlarından gəlirdi, onlar Fransadakı müharibədə xidmət göstərdiklərinə görə qiyam qaldırmışdılar, indi isə onlara daha çox adam qoşulmuşdu və Conu feodal qanununa və adətinə hörmət etməməkdə və onlardan sui-istifadə etməkdə ittiham edirdilər. 5 iyun 1215-ci ildə qiyamçı baronlar Temzanın üzərində, Vindzor yaxınlığında Conla görüşdülər və burada krala baronların maddələri əsasında hazırlanmış sənədi təqdim etdilər. *Magna Carta* adlanan bir sənəd hazırlanmışdı. Bu sənəd səkkiz əsr bundan əvvəl yaranmaqla dəfələrlə ABŞ-ın İstiqlaliyyət Deklarasiyasının və Fransa İnqilabının İnsan və Vətəndaş Haqları Deklarasiyasının ilkin müjdəçisi hesab olunmuşdur. Magna Carta qeyri-adi dramatik olmayan bir sənəd idi. Bununla kral partiyası ilə baronlar partiyası arasında razılıq yarandı. Bu sənəd müqavilə rolunu oynadı və daimi torpaq qanunu oldu. Xartiya feodal sinfinin və şəhərlərin yuxarı tacirlər zümrəsinin mənafeyi üçün kral hakimiyyətinin özbaşınalığına məhdudiyyət qoymalı idi, həm də müəyyən dərəcədə onların hüquqlarını müdafiə etməli idi.

*Magna Carta* adlanan bu sənəddə kral söz verirdi ki, ingilis kilsəsi əbədi olaraq azad olacaq və öz hüquqlarına bütünlüklə sahib olacaqdır. Kral və onun məmurları nə qədər ki, borclunun daşınan əmlakı borcu ödəməyə kifayət edir nə torpağı, nə də ondan gələn gəliri borc əvəzinə tutmayacaqdır. İnsan haqlarına gəldikdə azad insan kiçik xətasına görə onun növünə müvafiq olaraq cərimə ediləcəkdir. Böyük xəta isə onun iriliyinə uyğun olaraq cərimələnəcəkdir. Bu vaxt onun əsas əmlakı toxunulmaz qalacaqdır. Tacir də cərimələnəndə onun malı toxunulmaz qalacaqdır. Kral tacına aid olan işləri digər vəzifəlilərin araşdırmasına icazə verilmirdi. Polis və digər məmur pulla qiymətini ödəmədən və ya ödəmənin ləngiməsinə könüllü razılıq almadan heç kəsdən taxılı və digər əmlakı götürə bilməzdi. Heç bir azad adam həbs edilməyəcək və ya dustaqxanaya salınmayacaq, nə sahib olduqlarından məhrum olacaq, nə qanundan kənar elan ediləcək, nə qovulacaq və ya digər yollarla didərgin ediləcəkdir və bunlara isə yalnız qanuni hökm əsasında və ölkənin qanunlarına görə gediləcəkdir. Heç kəsə hüquq və ədalət satılmayacaqdır, bunlardan heç kəsə imtina edilməyəcəkdir. Hər kəsə icazə veriləcəkdir ki, tam təhlükəsizlikdə bu ölkədən getsin və ona qayıtsın. Kral bu sənəddə elan etdi ki, onunla vassalları arasında yaranan hər cür pisliyi, nifrət və qəzəbi hamıya əfv edir və bağışlayır. Sənəd bu sözlərlə tamamlanırdı ki, həm kral tərəfindən, həm də baronlar tərəfindən and içilir ki, bütün yuxarıda göstərilənlərə vicdanla və heç bir pis fikir olmadan riayət ediləcəkdir. Belə vəzifələri öz üzərinə götürən kral hətta Papa tərəfindən də əvvəlki öhdəliklərindən azad edildi.

Kralın bu təəhhüdlərdən geri çəkilməsi və baronların razılığı həvəssiz olaraq icra etməsi vətəndaş müharibəsinin bərpa edilməsinə aparırdı. Lakin Conun bir il sonra ölməsi vətəndaş müharibəsinin sonunu gətirdi. Papa İnnokent də öldü və onların faciə səhnəsi başa çatdı. *Magna Carta* isə onların hər ikisindən uzun yaşadı və gələcək nəsillər üçün nümunə rolunu oynadı. Qullardan başqa bütün adamlara əsas azadlıqları verən bir sənəd kimi sonrakı dövrlərdə daha yaxşı başa düşüldü.

İngiltərənin iqtisadiyyatına gəldikdə, burada açıq tarla sistemi fəaliyyət göstərirdi. Kəndlilər şumlanan torpağı icma şəklində becərirdilər. Hətta sülh dövründə də yerli azlıqlar burada orta əsrlərin sonuna qədər başlıq vergisi verirdi. Erkən anqlo-sakson dövründə aclıq ümumi xarakter daşıyırdı, müasir ingilis dilindəki *"to starve"* - "ac qalmaq" feili anqlo-sakson sözü olan *"to die"* - "ölmək" sözündən götürülmüşdü. Təbabət primitiv idi, müharibə, xəstəliklər və vəba insanları yoxa çıxmayan günah kimi cəzalandırırdı. İngilis paltarı ixrac üçün daha çox yarayırdı. Açıq rəngi və yüksək keyfiyyətliyi onları həm xristian, həm də müsəlman dünyasında çox populyar etmişdi.

O dövrün bədbəxtlikləri İngiltərənin təhlükəli coğrafi mövqeyinin təbiətindən irəli gəlirdi. Özünün şərq və şimal sahillərinin zəif, hücum üçün asan olmasına görə İngiltərənin müstəqilliyi möhkəm donanmaya və yaxşı silahlanmış orduya böyük ehtiyac hiss edirdi. Onlara malik olmayanda və onlar tələb olunan səviyyədə möhkəm olmayanda ölkə ağır haqq verməyə məcbur olurdu. 1066-cı ildəki müstəqilliyin itirilməsinin başlıca səbəbi vergi hesabına saxlanan donanmanın ixtisar edilməsi və on altı il əvvəl kralın öz vuruşan ordusunun sayca kiçildilməsi idi. Təhlükəsizlik dövrü sona çatdı və gələcək nəsillər bunu anlamalı oldu. 12-ci əsr isə bütünlükdə iqtisadi tərəqqi dövrü idi. II Henrinin hökmranlığının sonunda taxt-tac sadəcə olaraq vərəsəliyə çevrildi. Bundan sonra seçilməyə bənzəyən bir şey olmadı. Rıtsarlar isə kralın qulluqçuları kimi siyasi hərəkət edirdilər, bu dincliyin ədalət sisteminin kiçik başlanğıcı idi.

Uilyam Fatehin dövründə İngiltərədə yüz şəhər var idisə, onların sayı iki qat artdı. Həm daxili, həm də xarici ticarət sürətlə artırdı. London Şimali Avropanın başlıca ticarət mərkəzinə çevrilmişdi. Buradan gəmilər Aralıq dənizində inhisar mövqelərinə yiyələnmiş italyan limanlarına üzürdülər. Genuya və Venetsiya isə təkcə Yaxın Şərq ilə deyil, ərəblərin vasitəsilə Hindistan və Çinlə ticarət etmək imkanı qazanmışdı. İngilis şəhərlərindən çoxu krala məxsus olan torpaqlarda yerləşirdi. Kral şəhərlərinin əhalisindən ağır vergilər yığılsa da, onlar "yüzdənsə bir tiranın olmasına" üstünlük verirdilər. İngilis kəndliləri isə feodal lordlara qarşı mübarizələrini heç vaxt dayandırmırdılar. Onların bir çoxu öz ağalarından qaçıb kralın meşələrində ov edirdilər, onlar "azad oxatanlar" adlanırdılar. Bu qaçanlar qruplarda birləşib feodal lordlara, saray qulluqçularına və hakimlərə hücum edirdilər. "Azad oxatanlar" kəndlilərin xoşuna gəlirdi və onlara kömək edirdilər.

# III HİSSƏ. SƏLİB YÜRÜŞLƏRİ

## FƏSİL 1
## ORTA ƏSRLƏRİN TƏBİƏTİ

Orta əsrləri qısaca təsvir etdikdə zaman ölçüsü kimi Qərbi Roma imperiyasının dağılmasından Yeni dünyanın kəşf edilməsi və reformatsiyanın başlanğıcına qədər olan minillik bir dövr yada düşdüyü kimi, bu minilliyə aid olan ideyalar və formalar: feodalizm, rıtsarlıq, papa və imperator hakimiyyətlərinin mübarizəsi, icmalar, qotik kilsələr, trubadur poeziyası, bir sözlə bu tarixin daxili mahiyyəti göz önünə gəlir. Orta əsrlər öz çiçəklənmə və bar vermə dövrünü isə 11-ci əsrdə başlamış və 13-cü əsrin sonunda artıq bu çiçəklər salmağa başlamışdı. Əvvəlki beş əsr, orta əsrlərin fərqləndirici xüsusiyyətlərinin hazırlanması və meydana gəlməsi dövrü idi. Sonrakı iki əsr isə dağılma epoxasını təşkil etməklə yeni tarixə keçid rolunu oynadı.

O dövrün Avropasının istənilən dövlətinə fikrən nəzər saldıqda müharibənin başlıca məşğuliyyət növü olduğu qənaətinə gəlirsən, elə bil ki, bu insan təbiətinə zidd olan bəlaya bütün əhali qayğı göstərirdi. Orta əsr şəhəri adətən yuxarısı diş-diş olan divarın içərisində olmaqla dərin xəndəklə əhatə olunurdu. Müharibə şəhərləri də müdafiə barədə düşünməyə, qalın divarlarla özünü düşməndən qorumağa çalışırdı. Qüllədə dayanan gözətçi ətrafda baş verənləri diqqətlə izləyirdi. Ayrıca evlər də qalaya bənzəyirdi. Orta əsrlərdən universitet və muzey binalarından deyil, hətta kilsələrdən də daha çox sayda qəsrlər, qalalar qalmışdır. İspaniyada, Fransada, İngiltərə və İtaliyada onların sayı-hesabı yoxdur. Hər tərəfdən düşmən təhlükəsi vardı və orta əsr şəhəri sonralar tarixə məlum olan partizan müharibəsindəki kimi düşmənin hansı tərəfdən hücum edəcəyini bilmirdi. Xarici müharibələr səngiyəndə daxili müharibələr qızışırdı, sexlər patritsilərə qarşı, icmanın bir hissəsi digərinə qarşı vuruşurdu. İnsanlar qan tökməyə elə öyrənmişdilər ki, bunsuz özlərinin vəhşi rahatlığını tapa bilmirdilər. Vuruş artıq ruhun vəziyyətinə, spartalılarda olduğu kimi peşəyə, sənətə, zəhmət növünə çevrilmişdi, kəndlər də şəhərlərdən fərqlənmirdi, təkcə miqyas fərqli idi. Hər bir təpə, hər bir yüksəklik möhkəm qəsrlərlə örtülmüşdü, onların başlıca məqsədi sakinlərə rahat yaşayış şəraiti vermək deyil, təhlükəsizliyi təmin etmək idi. Cəmiyyətin döyüşkən xarakteri dəmir yaraqlarla yanaşı feodal mövcudluğun zəruri xüsusiyyəti olan bu tikililərdə əks olunurdu. Lakin silahların təkmilləşməsi bu təhlükəsizliyi də çox kövrək hala gətirib çıxardı. Sonrakı əsrlərdə meydana gələn topların atəşinə qala divarları davam gətirə bilmirdi və ya bu maneələri asanlıqla dəf etməyi bacarırdı. Bunu qalın divarlar-

la əhatə olunmuş Konstantinopolun bədbəxt taleyi açıq şəkildə göstərdi.

Hətta Xristin dinc əsgərləri olan rahiblərin yaşadığı monastırlar da öz sakinlərinə təminatlı sığınacaq verə bilmirdi. Ona görə də monastırlar da şəhərlər kimi istehkamlarla əhatə olunurdu. Ətrafdakı torpaq sahiblərinin yırtıcı tamahı onlardan da yan keçmirdi.

Orta əsrlər Avropasında elə bil ki, sözün əsl mənasında xalqlar yox idi, sadəcə olaraq bir-birinə düşmən kəsilmiş zümrələr var idi. German tayfaları keçmiş Qərbi Roma imperiyasının torpaqlarını tutduqca yeni gəlmələr dövlətin müstəsna olaraq yuxarı sinfini, yerli əhali isə aşağı siniflərini təşkil edirdi. Bu dövlətlərin bünövrəsinin zorakılıq əsasında qoyulması onun tərkib hissələri arasında kəskin xətt çəkirdi. Baronun heç vecinə deyildi ki, şəhərdə onun həmvətənləri yaşayır. O, müdafiəsiz və hüquqsuz villana yuxarıdan aşağı baxırdı. Ona görə də rıtsar epopeyalarına məhz belə ruh hopmuşdu. Hətta rıtsar lirikası da sadə məhəbbətdən uzaq idi, onun daşıyıcıları da sadə adamlar ola bilməzdi. Təkcə bir sahə var idi ki, orada ixtilaflardan və müharibədən yorulmuş zəka sakitlik və barışıq tapa bilirdi. Bu da monastır divarları arasında böyüyən və sxolastika adlanan elm idi. Bu söz orta əsrlər elmini bütünlükdə xarakterizə edirdi. Bu yeganə sahə idi ki, burada qılınclar deyil, ağıllar bir-birilə toqquşur, bu vuruşdan yeni elmi kəşflər doğulur və cəmiyyətin özü kimi onun bu ögey balası da öz inkişafına nail olurdu. Sxolastikanın cəsurluğu isə onun gəncliyindən, axtarış romantikasından irəli gəlir, qidalanırdı. O qədər müsbət təcrübəyə, adi qayğıya malik olmasa da, bu mənada dağ döşündə, qayalar üstündə kök salan tənha ağaca bənzəyirdi, bu ağac kiçik torpaq qatına, ən başlıcası isə günəşə bel bağladığı kimi sxolastika da cəmiyyətdən daha çox zərbə gözlədiyi halda, insan zəkasının gücünə böyük inam bəsləyirdi və güman edirdi ki, feodal qəsri kimi həqiqəti də yalnız vuruşla almaq olar, əldə etmək olar. Öz təcrübəsinə söykənərək başa düşürdü ki, cəsarətli fikir üçün mümkün olmayan heç bir şey yoxdur.

Sxolastika bəlkə də böyük nailiyyətlərlə öyünə bilməzdi, lakin heç bir məsələ qarşısında özünü gücsüz hesab etmirdi və Avropa elminə nəcib axtarış hissini və möhkəm məntiq bəxş etdi. Elə onun ən böyük uğuru da bunda idi.

Erkən orta əsrlər bir çox müasir dövrə gəlib çıxmış və Avropa sivilizasiyasına böyük töhfə vermiş xalqların: ingilislərin, fransızların, almanların, ispanların, macarların, rusların bir millət kimi formalaşması dövrü oldu. Onlar müxtəlif barbar tayfaların qarışığından, sobada filiz əriyib saf metal xəlitə əmələ gətirdiyi kimi yaranmışdılar. İşğal müharibələri, yaranan kiçik və böyük imperiyalar hətta bu ad altında yaşamasalar da, bu əritmə prosesini sürətləndirdilər, həmin millətlərin tarix səhnəsinə çıxmasında mamaça rolunu oynadılar. Böyük Karl təkcə Qərb imperiyası yaratmamışdı, həm də Qərbi Avropa xalqlarının bir çoxunun, xüsusən fransızların təşəkkül tapmasına yol açmışdı. Anqlo-sakslar Britaniya adasına gələrək yerli xalqı öz əsarətinə aldıqdan sonra yadelli vikinqlərlə vuruşlarda öz ənənələrini saxlamaqla yanaşı, bir qədər dəyişərək və bir-

birinə qarışaraq ingilislər adlanmağa başlamışdılar. Müharibələr, işğallar olmasaydı, xalqların birinin zəifləyib sıradan çıxması, digərinin qalib gəlib qüvvətlənməsi, başqalarını absorbsiya etməsi prosesi bütünlükdə getməzdi, yaxud da çox uzanan bir proses olardı. Müharibələr həm də ərazi, torpaq üzərində mülkiyyəti möhkəmləndirməklə, mütləqiləşdirməklə yanaşı, ərazi birliyi hesabına da millətlərin formalaşmasını xeyli sürətləndirdi.

Saksonlar materikdəki öz vətənlərində ümumi german adı altında birləşsə də, adadakı yeni vətəndə ingilis adlanmağa başladılar. German tayfaları olan franklar yerli qallarla birləşib sonralar fransız adı altında öz dövlətlərini qurdular. Ərazilər işğal edildikdən sonra coğrafi məfhumdan daha çox hansısa xalqın daimi məskunlaşdığı və öz dövlətini yaratdığına görə onun rəmzi mənasında işlənməyə başladı. Şərqdən gələn macarlar Dunay ətrafındakı düzənliklərdə məskunlaşıb öz dövlətini yaratmaqla bu əraziyə özlərinin adlarını da verdilər və on nəsil mənasını verən "on ox" söz birləşməsindən *"hungary"* anlayışı yarandı. Orta əsrlərin son mərhələsində türklərin Mərkəzi Asiyadan böyük miqrasiyasının nəticəsi kimi Orta Asiyada və Cənubi Qafqazda bir çox türk millətləri, o cümlədən oğuz türklərinin nəsli kimi azərbaycanlılar formalaşdılar. Yaxın Şərqdə isə bir çox qədim xalqlar tarix səmasında kometa kimi görünüb sıradan çıxmışdı, bunlara hettləri, kassitləri, hiksosları misal gətirmək olar. Digərləri meydana çıxmış və sınaqlara davam gətirdiklərindən özlərini qoruyub saxlaya bilmişdilər.

Şərq xalqlarının birliyinin möhkəmlənməsində, qorunub saxlanmasında din və mədəniyyət mühüm rol oynamışdı. Qədim yəhudilərin dini olan iudaizm əslində bu ərazidəki müxtəlif tayfaları birləşdirib vahid yəhudi xalqını meydana gətirmişdi. Din, dəqiq deyilsə Moiseydən başlanan və genişlənən, sərtləşən qanunlar, bir az da dəqiqləşdirsək sayı 613-ə çatan qadağalar bu xalqın fərqləndirici xüsusiyyətlərini əsrlər boyu və dünyanın hər yerində qoruyub saxlamışdı. İslam dininə qədər ərəblər Ərəbistan yarımadasında məskunlaşan və patriarxal həyat tərzi keçirən bir xalq idi və ətrafda baş verən hadisələr onu maraqlandırmırdı. İslam dini bu xalqı dünya xalqları ailəsinə böyük təntənə ilə daxil etdi, bu xalqın maariflənməsi üçün geniş imkanlar açdı. İslam mədəniyyəti ərəblərin istila etdiyi xalqlardan çox şeyi əxz edərək görünməmiş sürətlə inkişaf etməyə başladı. İslam, ərəbləri və digər şərq xalqlarını mürgüləməkdən, ətalətdən oyadıb onlara yeni enerji verdi, bu din bayrağı altında müharibələr də getdi, böyük ərazilər də işğal edildi, lakin həm də bu ərazilərə bəlkə də başqalarından əxz edilib təkmilləşdirilmiş yeni mədəniyyət, yeni sivilizasiya nümunələri yayıldı.

Təkcə din deyil, mədəniyyətin özü də xalqın formalaşmasında, dövlətin təmərküzləşərək birləşməsi və iri ərazinin min illər boyu bu dövlətin əlində saxlanmasında mühüm rol oynayır. Bunu biz Çinin timsalında aydın görürük. Bu dövlət dəfələrlə parçalanıb birləşmişdi, nomad xalqların çoxlu müdaxilələrinə məruz qalmışdı. Hər şey dağılırdı, parçalanırdı, bölünürdü, ümumi və məğlub olmayan, öz yerini heç nəyə verməyən mədəniyyət nəinki qalırdı, hətta inkişaf

edirdi və bu məhlul böyük xalqı Sun Yat-senin sement adlandırdığı maddədə həmin qumları birləşdirib vahid millətə çevirirdi. Çinlilərin mədəniyyəti bu xalq adlanan gəmini təkcə məhv olmaqdan qorumayıb, həm də irəli aparan yelkən rolunu oynayırdı. Ona görə də m.ə. 3-cü əsrin sonunda Şi Huan-dinin yaratdığı imperiyanın ərazisi zamanın bütün tufanlarına baxmayaraq, qorunub, çoxlu çəkilmələrdən asılı olmayaraq 21-ci əsrin əvvəlindəki qüdrətli dövlətin məskəni olaraq qaldı.

Orta əsrlər minillik dövrü əhatə edir və bu məsafə "Qaranlıq dövr" adlansa da, tarixi inkişafda labüd addım idi. Bu minillik təkcə quldarlığı ləğv etmədi, həm də bəşəriyyətin güclü inkişafı üçün platsdarm rolunu oynadı, yeni erada elmin və mədəniyyətin, bütövlükdə sivilizasiyanın sürətli inkişafı, həm də Yeni dünyanı da əhatə etməsi üçün zamanın uzun əsrlər boyu tapdalayıb betona çevirdiyi və belə uçuş üçün bütün hazırlıq işlərini gördüyü kosmodrom rolunu oynadı. Orta əsrlər dinin yaydığı maarifin və cəhalətin ziddiyyətlərinin mübarizəsində əvvəlcə mədəniyyətdə Renessansın, dinin öz daxili cəbhəsində isə Reformatsiyanın yaranmasına yol açdı. Orta əsrlər elə bir dayanacağa bənzəyirdi ki, buradan yeni dövrə gedən qatar öz hərəkətinə başlayıb qədimdən qalmış yükünü götür-qoy etməklə yanaşı, daha qiymətli sərvəti daşımağa qadir oldu. Orta əsrlər yeni sivilizasiyanın nə bünövrəsi, nə də görünən qülləsi deyildi, lakin bu kərpiclər divarın ortasına hörülməklə antik dövrdən yeni eraya keçidi, körpünü andırırdı. Bəşəriyyət qan tökməklə, öz övladlarını müharibələrdən, xəstəliklərdən, aclıqdan itirə-itirə, min cür səhvlərə yol verə-verə irəliləyirdi və bu addımlar nə qədər xırda, bəzən əhəmiyyətsiz görünsə də, dayanmırdı və özü də istiqamətini dəqiq müəyyən edə bilməsə də, irəliyə doğru yönəlmişdi. Bir sözlə orta əsrlər nə qədər lənətlənsə də, nə qədər inkişafı ləngidən, bəlkə də onu süstləşdirən mərhələ olsa da, insan öz ömrünün ən mənasız, ən bədbəxt anlarından, illərindən imtina etmədiyi kimi, bəşəriyyət də öz ömrünün bu parlaq rənglərdən xəbər verməyən hissəsinə ağac quru budağına baxan kimi baxmamalıdır, unutmamalıdır ki, bu budaq barsız kimi görünsə də, məhz onun üzərində ağacın özünəməxsus həyatverici davamı kimi yeni bar budaqları əmələ gəlmişdir.

Xalqların, tayfaların, dövlətlərin ardı-arası kəsilməyən müharibələrinə gəldikdə hökmdarların çox vaxt qan tökməklə bir-birini əvəz etməsi bu dövrün dinamikasını sivilizasiyanın digər tərkib hissələrindən daha çox xarakterizə etdiyindən biz onlara diqqətlə yanaşmalıyıq. Bundan usananlar sivilizasiyanın inkişafına maraq göstərməyənlərdir. Buna azacıq həvəsi olanlar isə orta əsrlərin qarmaqarışıq münasibətlərinin cəngəlliklərindən keçməyi bacardıqda bəşəriyyətin inkişaf yolunun digər mərhələlərini də daha yaxşı anlaya bilir. Ona görə də bu dövrün tarixinə belə böyüdücü şüşə altında baxmaq ehtiyacı yaranır. Hər bir hadisə baş verdikdən sonra belə bütünlüklə yoxa çıxmır, yeni, daha mühüm həyat dramlarının baş verməsi üçün mənbə rolunu oynayır.

# FƏSİL 2
# SƏLİB YÜRÜŞLƏRİ EPOXASI

Səlib yürüşləri 12-ci və 13-cü əsrləri əhatə etməklə, dəqiq deyilsə 1096-1291-ci illər ərzində həyata keçirilmişdir. 11-ci əsrin sonunda Şərqi Roma imperiyası və ya Bizans artıq Afrikadakı və Asiyadakı Aralıq dənizi boyu torpaqlarını itirmişdi. Məhəmməd Peyğəmbərin 622-ci ildən başlayaraq Ərəbistanda əmələ gətirdiyi çevriliş əslində dini, siyasi, hərbi və iqtisadi cəhətdən inqilab xarakteri daşımaqla, səpələnmiş köçəri xalqları vahid bir bayraq altında birləşdirmiş və Bizans cəmiyyətinin tədricən dağıldığı bir şəraitdə bir ovuc adama yeni müsəlman dünyası yaratmağa imkan vermişdi. Xilafət adlanan bu dövlət İnd çayının sahillərindən İspaniyada Ebro çayına qədər uzanan nəhəng ərazini tuturdu. Əvvəlcə Məkkədə, sonra isə Mədinədə 7-ci əsrin əvvəlində xırda bir dini icma yaradan Məhəmməd öldükdən sonra onun ardıcılları hərbi kampaniyalara başçılıq edərək belə iri imperiya yaratmağa vur-tut bir əsrə bərabər olan vaxt sərf etmişdilər.

Lakin 11-ci əsrdə artıq Bağdad xilafəti adlanan müsəlman imperiyası zəifləməyə başlamış və üç hissəyə bölünmüşdü. İspaniyada Kordoba xilafəti, Misirdə və Afrikanın şimalında Fatimidlər xilafəti yaranmış, Asiyada isə Bağdad xilafəti meydana gəlmişdi. Bağdad xəlifəsinin özünün hakimiyyəti isə təkcə Bağdad şəhərinə hökmranlıqla məhdudlaşırdı. Əyalətlərin idarə edilməsi muzdlu qoşunların başçılarının əlində idi, bu muzdlular isə əsasən Türküstandan yığılırdı. Səlib yürüşləri başlamamışdan əvvəl türk-səlcuqların ağaları bütün Ön Asiyanı xəlifənin adından idarə edirdilər və 1092-ci ildə Məlik-şah öləndə (o, bu başçılardan biri olmaqla, Bağdad xəlifəsinin valisi idi) xilafəti öz qohumları arasında sultanlıqlara böldü. Dəclə çayından İnd çayına qədər olan ərazidə İran sultanlığı kimi onun böyük oğlu Barkiarok, Kiçik Asiyadakı İkoniya sultanlığında isə Suriya da daxil olmaqla Qılınc Arslan hökmranlıq edirdi. İki digər sultanlıq isə Aleppo və Dəməşq sultanlıqları idi. Onların da hər biri çox sayda ayrı-ayrı torpaqlara bölünmüşdü və sultanın uzaq qohumları tərəfindən idarə edilirdi. Məsələn, Dəməşq sultanlığının içərisində olan Yerusəlimdə Məlik-şahın qohumu Ortok hökmranlıq edirdi. Onların arasındakı çəkişmələr və Fatimidlərin, nə vaxtsa Bağdad xilafətinə məxsus olan Suriyaya iddiaları müsəlman dünyasını həddən çox zəiflətdi. Təkcə Bizans imperiyasının yaxın qonşusu olmaqla burada son vaxtlardan hökmranlıq edən Komninlər sülaləsini narahat edirdi. Bu vaxt taxt-tacda olan imperator Komnin kömək barədə qərb xristianlarına xahişlə müraciət etdi. Onların da təxəyyülü Yerusəlimin yeni sahibləri olan türk-səlcuqların qəddarlığını öz üzərində sınamış zəvvarların şikayətləri ilə kifayət qədər qızışmışdı. Səhra sakini Pyotr xüsusən öz din qardaşlarının şüuruna ciddi təsir göstərə bilmişdi və xalqın yaddaşında səlib yürüşlərinin başlanğıcının baş qəhrəmanı kimi qalmışdı.

Papa II Urban 1095-ci ildə Klermonda dini yığıncaq keçirdi və yürüş artıq müəyyən edildi. Səbirsizlik edənlər heç bir hazırlıq görmədən səfərə yollanmaq istəyirdilər və öz başçıları ilə birlikdə həlak oldular. Yalnız səhra sakini Pyotr xilas ola bilmişdi. Ancaq 1096-cı ilin avqustunda bir neçə ordu toplaşdı və onlar müxtəlif yollarla Bizansa gəlib çıxdılar. Bir-birinin ardınca buraya Lotaringiya hersoqu Qotfrid qardaşları Balduin və Yevstafi ilə, Normandiyalı Robert və Flandriyalı Robert, Stefan Bloa və Raymund Tuluzlu, Bozmund Tarentli, Tankred və başqaları gəldilər. Şübhələnən yunanlar tərəfindən dostcasına qarşılanmayan səlibçilər Aleksey Komninə and içdilər və Kiçik Asiyaya keçdilər. Burada yürüş 1097-ci ilin mayında Nikeyanın onların tərəfindən mühasirəsi ilə başlandı. Nikeyanı tutduqdan sonra onlar bütün Kiçik Asiyadan keçib Antioxiyaya çatdılar. Lakin knyazlardan biri Qotfridin qardaşı Balduin ümumi işi kənara atıb, Edessa sakinlərinin dəvətini aldıqdan sonra Fərat üzərinə çəkildi və orada birinci latın knyazlığını yaratdı.

Səlibçilər isə Antioxiyanı mühasirəyə alıb, yalnız 1098-ci ilin ortalarında şəhəri ələ keçirə bildilər. Lakin səlibçilər də öz növbəsində Kerboqanın başçılığı altında türklər tərəfindən mühasirəyə alındılar, güclə xilas oldular və bundan sonra Suriyadan keçməklə Yerusəlimə doğru öz səfərlərini davam etdirdilər və buraya 1099-cu ilin iyununda çatdılar. İyulun əvvəlində heç bir ay keçməmiş Yerusəlimi tutdular.

Birinci səlib yürüşü beləcə başa çatdı və yeni Yerusəlim krallığının tarixi başlandı. Bütün xristian torpaqlarının başçısı Qotfrid (1099-1100-cü illər) elan edildi, lakin torpaqların özü feodal əsasları üzrə bölündü. Yerusəlim taxt-tacının vassalları Edessa knyazı Balduin, Antioxiya knyazı Bozmund, Tripoli knyazı Raymond Tuluzlu və Qalliyanın knyazı Tankred oldu. Onların da torpaqları, mülkiyyətləri axırıncı qəsrə kimi yenidən bölündü. Bu feodal dövlətin yeni quruluşu Yerusəlim krallığının assizi və ya Sahibin Tabutunun məktubları adı altında ayrıca məcəllədən ibarət oldu.

Qotfridin idarə etməsinin əvvəlində Misir xəlifəsi Yerusəlimi geri almağa cəhd etdi, lakin 1099-cu ilin avqustunda Askalonda xristianlar tərəfindən darmadağın edildi. Bu döyüşdən heç bir il keçməmiş Qotfrid öldü və onun yerinə öz qardaşı I Balduin (1100-1118-ci illər) seçildi, ondan sonra isə qohumu Burjlu II Balduin bu taxt-tacı tutdu.

İlk Balduinlərin idarəçiliyi, səlibçilərin özlərinin xasiyyətlərinin korlanmasına baxmayaraq, Yerusəlim krallığının ən yaxşı dövrləri idi. Xristianların silahlı müdaxiləsinin yayılması Barkiarokun ölümündən sonra Səlcuqların hökmranlığının yıxılmasına xeyli köməklik göstərdi. Hələ onun öz dövründə himayəsində olan torpaqlarında Dağlı Qocanın rəhbərlik etdiyi təhlükəli assasin sektası yaranmışdı. Bu sektanın fanatizmindən sultanlar tir-tir əsirdilər. Onlar əbəs yerə özlərinin görünməyən düşmənləri ilə mübarizə aparırdılar, Palestinada digər xristian sektaları da meydana gəldi. Bütün bunlardan istifadə edən I Balduin

Ptolemaidanı və ya Akkonu, Beriti, Sidonu və digər şəhərləri işğal etdi, II Balduinin dövründə isə Tir də təslim oldu. Suriyada müsəlmanların əlində Dəməşq və Aleppo qalırdı, onlar da hər tərəfdən xristian torpaqları ilə əhatə edilmişdi.

Balduinlərlə Qotfridin kişi cinsindən olan xətti başa çatdı, Yerusəlim krallığının da çiçəklənməsi dövrü qurtardı. II Balduinin yerini onun yeznəsi Fulko Anjulu (1131-1143-cü illər) tutdu və o, yeni Anju sülaləsinin banisi oldu, İngiltərə kralı II Henri Plantagenet onun nəvəsi idi. Sülalənin dəyişməsi ilə əlaqədar olan daxili ixtilaflar və onun varisi olan oğlu III Balduinin azyaşlılığı (1143-1162-ci illər) xristianların uğurlarını dayandırdı, bu vaxt müsəlman dünyasında da onun üçün çox faydalı olan çevriliş baş verdi.

Kiçik türk hökmdarlarından biri İmadəddin Tsenqi və onun oğlu Nurəddin Mosulun ağaları olmaqla öz hakimiyyətləri altında Aleppo və Dəməşq sultanlıqlarının parçalanmış torpaqlarını birləşdirdilər, Fulkonun ölümündən sonra isə xristianlardan Edessanı da 1144-cü ildə aldılar. Edessanın tutulması barədə xəbərlər yeni moizəçilərin meydana çıxmasına səbəb oldu və Papa II Yevgeni abbat Klervoya tapşırdı ki, Müqəddəs Bernardın knyazlarına və xalqlarına müraciət etsin.

Fransa kralı VII Lui və german kralı III Konrad öz qohumu olan gənc Fridrix Barbarossa ilə birlikdə xaçı qəbul etdilər. Onların ikinci səlib yürüşü (1147-1149-cu illər) nəticəsiz oldu. Onlar Palestinaya gəlib Dəməşqi mühasirəyə aldılar, lakin onu tuta bilməyib Avropaya qayıtdılar.

Səlibçilər uzaqlaşdıqdan sonra yalnız öz gücünə arxalanan Yerusəlim krallığı tezliklə dağılmağa üz qoydu. Anju evinin sonuncu krallarının dövründə daxili çəkişmələr qızışmışdı. Baxmayaraq ki, III Balduinin qardaşı Amalrik (1162-1173-cü illər) saratsinlərin hücumunu müvəffəqiyyətlə dəf etdi, lakin onu əvəz edənlərin - oğlu IV Balduinin və nəvəsi V Balduinin azyaşlı olmaları ictimai bədbəxtliklərin artmasına şərait yaratdı. V Balduin öləndə onun atalığı Qvido Luzinyan (1186-1192-ci illər) özünü Yerusəlimin kralı elan etdi, bu vaxt düşmənləri Tripoli qrafı Raymundu ona qarşı qoydular. İddiaçıların bu daxili ixtilafı ilə birlikdə müsəlman dünyası Dəməşqə sahib olmuş Nurəddinin qələbələri hesabına əvvəlki şöhrətləri ilə qalxmağa başladılar. Onun sərkərdəsi Şirku və axırıncının qohumu Səlahəddin Fatimid xilafətini işğal etdilər. Nurəddin öldükdən sonra isə Səlahəddin öz hakimiyyəti altında demək olar ki, bütün Suriyanı və Misiri birləşdirdi və bununla da xristian torpaqlarının hamısını hər tərəfdən mühasirəyə aldı. Səlahəddin Raymund Tripolini dəstəkləyirdi, sonra isə xristianların onu təhqir etməsindən istifadə edib, onlarla açıq mübarizəyə girdi və 1187-ci ildə Tiveriadada onları darmadağın etdi. Kral Qvido əsir düşdü, lakin sonra azadlıq əldə etdi. 1187-ci ildə Yerusəlim təhvil verildi. Xristianların əlində yalnız üç mühüm şəhər: Antioxiya, Tir və Tripoli qaldı. Qvido itirilmiş hakimiyyətini qaytarmaq arzusu ilə qoşun toplayıb Ptolemaidanı mühasirəyə

aldı, Tir qrafı Konrad Monferratlı Qvidonun hüququna məhəl qoymayaraq, IV Balduinin kiçik bacısı İzabellanın əri olduğuna görə öz üzərinə Yerusəlim kralının titulunu götürdü.

Üçüncü səlib yürüşü 1189-cu ildə başlayanda müqəddəs torpaq belə vəziyyətdə idi. Dəclədən Nilə qədər uzanan Səlahəddin monarxiyasına Mesopotamiya, Suriya və Misir daxil idi. Yerusəlim krallığı artıq mövcud deyildi, buna baxmayaraq, Qvido və Konradın şəxsində iki Yerusəlim kralı var idi. Qvidonun dövləti Ptolemaidanın divarları altındakı düşərgədən ibarət idi. Konrad isə Tirdə ağalıq edirdi. Antioxiyaya həm türklərdən, həm də Bizans yunanlarından təhlükə var idi.

Yerusəlimin tutulması barədə xəbər müqəddəs şəhəri xristianlığa qaytarmaq üçün edilən iki cəhd üçün səbəb olmuşdu. Lakin üçüncü (1189-1192-ci illər) və dördüncü (1204-cü il) səlib yürüşləri Palestina üçün nəticəsiz oldu. Səlibçilərdən isə əziyyət çəkən yalnız Bizans imperiyası oldu. Üçüncü yürüş vaxtı imperiya Kipri itirdi, dördüncü yürüş isə Bizansın özünün işğalı ilə nəticələndi və onun xarabalıqlarında latın dövlətləri yaradıldı. Üçüncü səlib yürüşü Müqəddəs Roma imperatoru I Fridrix Barbarossa öz oğlu Fridrix Şvablı ilə, İngiltərə kralı Riçard Şir ürəkli və Fransa kralı II Filipp Avqustla birlikdə həyata keçirdi. I Fridrix 1189-cu ildə əvvəlcə bu səfərə yollanmışdı, lakin 1190-cı ildə yolda Kilikiyadakı Salef çayını keçəndə suda batmışdı.

Onun oğlu Fridrix qoşunu Ptolemaidaya gətirib çatdırmışdı. Buraya Qvidoya kömək etmək üçün İngiltərə və Fransa kralları da gəlmişdi. Lakin onlar hələ yolda, Siciliyada olarkən sözləşmişdilər. II Filipp əvvəlcə gəlib çıxmışdı, Riçard isə yunanlardan Kipri işğal etməklə almaq üçün bir qədər ləngiməli olmuşdu. Fransızlarla ingilislərin çəkişmələrinə baxmayaraq, Ptolemaida tezliklə təslim oldu. Lakin II Filipp Palestinada artıq qalmaq istəməyib Avropaya qayıtdı, ölən Fridrix Şvablını əvəz edən Leopold Avstriyalı Riçard tərəfindən təhqir edildiyindən Palestinadan çıxıb getdi. Tək qalan Riçard Səlahəddinlə qəhrəmancasına mübarizəsini davam etdirirdi, yalnız II Filippin intriqaları barədəki şayiələr onu Səlahəddinlə sülh bağlamağa məcbur etdi və o, 1192-ci ildə vətəninə qayıtmaq üçün yola düşdü. Geri qayıdarkən yolda əsir götürüldü və iki il sonra öz vassallarının verdiyi böyük məbləğdə pul hesabına əsirlikdən azad olundu.

Riçard Şir ürəkli ilə Səlahəddinin bağladığı sülhə görə xristianlar Tirdən Yaffaya qədər sahil zolağını aldılar və Sahibin qəbrinə gəlmək hüququ qazandılar. Konrad Tirli öldüyünə görə Riçard Yerusəlim taxt-tacını Henrix Şampanlıya (1192-1197-ci illər) verdi və o, Konradın arvadına evləndi. Qvido Luzinyan isə mükafat kimi Kipr adasını kral titulu ilə birlikdə aldı. Riçard vətənə yollanandan sonra 1193-cü ilsə Səlahəddin öldü, onun qardaşı Məlik Adil isə onun parçaladığı monarxiyanı birləşdirib Qahirə şəhərini öz paytaxtı kimi seçdi və xristianlarla düşmənçiliyi davam etdirdi. O, xristianların əlindən Yaffanı aldı,

bu vaxt Yerusəlim kralı Henrix də həlak oldu. Onun dul qadını İzabella dördüncü dəfə ərə gedib, bu dəfə o, mərhum Qvido Luzinyanın qardaşı, Kipr kralı II Amalrik Luzinyanın arvadı oldu. O, Yerusəlim krallığında 1210-cu ilə qədər 13 il ərzində hökmranlıq etdi.

II Amalrikin idarəetməsi dövründə Yerusəlimin azad edilməsi üçün ikinci cəhd edildi. Papa III İnnokentinin xeyir-duası ilə Fulko Nelyi xristianları yürüşə çağırdı və xaçı Balduin Flandriyalı və Bonifatsi Monferratlı qəbul etdi. Səfər üçün vəsaitləri olmadığından onlar Venetsiya şəhərinin doju Dandolonun xidmətinə girdilər. Onun yanına Bizans imperatoru İsaakın oğlu Aleksey də gəlmişdi. Bizansda Komninləri yeni sülalə əvəz etmişdi. İsaak öz qardaşı II Aleksey tərəfindən devrilib kor edilmişdi. Gənc Aleksey isə qaçmaqla xilas olmuşdu, Venetsiyadan və səlibçilərdən kömək umurdu. Səlibçilər Konstantinopola yaxınlaşdılar, əvvəlcə İsaak Anqeli və onun oğlunu taxt-taca bərpa etdilər, lakin xalq üsyanı nəticəsində 1204-cü ildə şəhərə sahib oldular və bütün imperiyanı öz aralarında bölüşdürdülər, I Balduin Flandriyalını isə imperator seçdilər.

Beləliklə, Palestina artıq unuduldu və II Amalrik köməyi gözləməyib öldü. Onun ölümündən sonra palestiniyalı xristianlar İoann Briyenni (1210-1215-ci illər) kral seçdilər, o, İzabellanın qızı İolantaya evlənmişdi. Bu Palestinada iqamətgahı olan axırıncı Yerusəlim kralı oldu. O, bütün gücünü sərf etdi ki, qərb xristianlarını müqəddəs torpağa köməyə çağırsın, lakin Qərbdə bu məsələyə qarşı artıq soyumuşdular, səlib ordusu yalnız uşaqlardan ibarət idi və 1212-ci ildə uşaqların yürüşü onların məhv olması ilə nəticələndi. Nəhayət, Macarıstan kralı II Andrey 1217-ci ildə yeni yürüşə başladı, lakin qoşunun bir hissəsini kral İoanna verib özü tezliklə geri qayıtdı. Beləliklə, İoann tək qalmaqla beşinci səlib yürüşünə (1218-1221-ci illər) başladı. Məlik Adil öldükdən sonra onun monarxiyası parçalandığından Yerusəlim Misir sultanının payına düşdü, bu vaxt səlibçilər Damiettaya hücum edib onu tutdular. Müsəlmanlar bunun əvəzində Yerusəlimi verməyi təklif etdilər, lakin Papa leqatı buna etiraz etdi, Nil daşanda isə səlibçilərin düşərgəsini basdı və onlar Damiettanı havayı təhvil verməyə məcbur oldular.

Bundan sonra İoann özü Avropaya getməyi qət etdi və Almaniya kralı, Müqəddəs Roma imperatoru II Fridrixə öz qızı İolantanı 1225-ci ildə ərə verib, qızı ilə birlikdə Yerusəlim kralı titulunu da ona verdi. Vəziyyətin belə dəyişməsi Yerusəlimin kralı kimi II Fridrixin üzərinə Palestinaya kömək göstərmək vəzifəsini qoydu və bu altıncı səlib yürüşünə (1228-1229-cu illər) səbəb oldu. İtaliyadakı öz torpaqlarının əldən çıxmasından və papaların düşmənçiliyindən qorxan II Fridrix ləng tərpənirdi, lakin nəhayət öz borcunu yerinə yetirməyə məcbur oldu. Dəməşq və Misir sultanlarının düşmənçiliyindən istifadə edib, heç qılıncını qınından çıxartmadan Yerusəlimi tutdu. Lakin Fridrix dini ordenlərin və papaların timsalında müsəlmanlardan daha təhlükəli düşmənlərlə qarşılaşmalı oldu, Yerusəlimdə vali qoyub, özü 1229-cu ildə tələsik Avropaya qayıtdı.

Hohenştaufen sülaləsindən axırıncı imperator olan II Fridrix orta əsrlərin ən koloritli və müəmmalı şəxsiyyətlərindən biridir. Bu qüvvəsinin izafiliyindən əziyyət çəkən qeyri-adi şəxsiyyət öz dövrünə məxsus olan və onu heç cür qənaətləndirməyən şəraitdə özünə yol tapmamışdı. Öz dövrü ilə onun şəxsiyyəti arasındakı ziddiyyət ondan irəli gəlirdi ki, nə öz ideyaları ilə, nə dünya baxışı ilə arasında yaşadığı nəslə məxsus deyildi, bir neçə əsrlik məsafədən yeni dövrün adamlarına cəsarətlə əlini uzadırdı. Buradan da onun bütün uğursuzluqları öz mənbəyini götürürdü. Böyük Fateh, mütəfəkkir, döyüşçü, şair, diplomat olan bu adam öz ideyasından kənarda dayanırdı, bu epoxada yalnız orta əsrlərin qaydalarına düşmən olan mənfi ideyaların təmsilçisi kimi çıxış edirdi. Müasirləri ona eyni ehtirasla nifrət edir, eyni ehtirasla onu sevirdilər, istisnasız olaraq hamı üçün o, başa düşülməyən idi, hamıya inamsızlıq və qorxu təlqin edirdi. O, imperator Fridrix Barbarossanın nəvəsi və imperator VI Henrixinin siciliyalı Konstansadan olan oğlu idi. O, anadan olanda atası Siciliyanı işğal etmək ərəfəsində idi və iki il sonra german hökmranları körpə Fridrixi Frankfurtda kral seçmişdilər. Lakin VI Henrix varisliyin irsi qaydada olması üçün hökmdarların dəstəyini ala bilməmiş, bir il sonra qısa müddətli xəstəlikdən sonra 32 yaşında vəfat etmişdi. İmperatorun ölümü imperiyanı pozulmağa yaxınlaşdırmışdı. Atasının ölümündən sonra anası II Fridrixi Siciliyaya gətirmiş və dörd yaşlı uşaq burada Siciliya kralı kimi taclanmışdı. Konstansa imperiya və Almaniya ilə Siciliyanı bağlayan əlaqələri adanın krallığının regenti kimi tam zəiflətmişdi və Papanın süzerenliyini qəbul etmişdi. 14 yaşında Fridrixin kamil yaşa çatdığı elan edilmiş, bir il sonra xeyli yaşlı olan Konstansa Araqonluya evlənmişdi. Sonra o, rıtsarların köməyi ilə Siciliyada hakimiyyəti öz əlinə götürmüş, kiçik olanda itirilmiş tac mülkiyyətini geri qaytarmış və bunlara görə 1211-ci ildə 17 yaşı olanda german hökmdarları onu yenidən kral seçmişdilər. Bir il sonra isə bu gənc kral bir yaşlı oğlu VII Henrini Siciliya kralı kimi taclandırmışdı. Heç bir müxalifət hiss etmədən Cənubi Almaniyanı sürətlə işğal etmiş, yenidən Almaniya kralı seçilmişdi. 1220-ci ildə isə onun doqquz yaşlı oğlu VII Henri german hökmdarları tərəfindən kral seçilmişdi.

Fridrix 1220-ci ildə Papa tərəfindən imperator kimi taclandıqda elə həmin gün imperiyanın Siciliya krallığından ayrılmasını fərmanla təsbit etmişdi. Üstəlik o, italyan ruhanilərinə mühüm imtiyazlar vermiş və dönüklərə qarşı qanunlar dərc etdirmişdi. Siciliyada hərbi-dəniz və ticarət donanması yaratmışdı. Dörd il sonra o, Brundiziyadan müqəddəs torpağa yola düşmüşdü. Orada mürəkkəb danışıqlar apararaq Yerusəlimi, Betlehemi və Nazareti Misir sultanından geri ala bilmişdi. Bu ərəb dünyasına onun şəxsi təsiri ilə əlaqədar idi və silahın qüdrətinə bel bağlamadan bu müqaviləni bağlamağı bacarmışdı. Tarixin istehzası bir daha öz gücünü göstərmişdi, bundan bir az əvvəl yeni Papa IX Qriqori səlib yürüşünü uğursuzluğa uğratdığına görə onun yurisdiksiyasını kənara atmış, onu hətta xristian dinindən təcrid etmişdi. Fridrix isə müqəddəs torpaqla-

ra xristianları qaytararaq özünü Yerusəlim kralı kimi taclandırmışdı. İmperator özünü Messiya, yeni David kimi qiymətləndirirdi. Onun diplomatiyası bir daha qalib gəldi, onun kilsədən təcrid olunması bağışlandı. Lakin onun ali kilsə başçıları ilə münasibəti düzəlmirdi. Papa onun həm dini, həm də siyasi işlərinə dərin inamsızlıqla yanaşırdı, ondan Moiseyi, Xristi və Məhəmmədi üç yalançı adlandırmaqda şübhələnirdilər, baxmayaraq ki, o, özü bu məsələdə aldadılmışdı. Siyasi səhnədə isə Papa ondan Papalıq dövlətlərini blokadaya alacağından qorxurdu, çünki Romada artıq imperial meylli partiya formalaşdırmışdı. İmperator həm də onu Romadan qovmaq istəyirdi, IX Qriqori ikinci dəfə onu dindən təcrid etdi. Bu Papalıq ilə imperiya arasında nəhəng mübarizənin sonrakı fazasının başlanğıcı oldu, yalnız imperatorun ölümü və onun sülaləsinin yıxılması ilə sona çatdı.

Fridrix özünün təcrid olunmasına bir sıra mühüm manifestlərlə cavab verdi. O, Papalıq dövlətlərinə öz ordusu ilə girdi və Romaya təhlükə yaratdı, lakin son anda Papa romalıların dəstəyini qazana bildi. Sonra imperator 100 yüksək ruhanini Romadakı Papa şurasına gətirən gəmiləri tutub sərnişinləri əsir kimi götürdü. Lakin bu Fridrixin kilsəyə zülm etməsi barədə təbliğatı gücləndirməyə kömək etdi. Yalnız Papa Qriqorinin öldüyünü eşitdikdə Roma qarşısındakı düşərgəsini yığışdırıb Siciliyaya çəkildi. Elə bu vaxt monqollar Avropaya müdaxilə etmişdilər, bu dövrdə də Çingizxanın qəflətən ölümü monqolların irəliləməsinin qarşısını aldı. İmperatorla Papalığın arasındakı yeni döyüş daha qızğın oldu, din xadimləri onu antixristin müjdəçisi kimi qələmə verirdilər. Onun sevimli oğlu, Sardiniya kralı Entso 1249-cu ildə əsir götürülmüşdü və o, ölənə qədər 23 il məhbəsdə saxlandı. İmperator Fridrix 1250-ci ilin sonunda gözlənilmədən Apuliyada öldü. Bu xəbər bütün Avropanı lərzəyə saldı, onun ölməsinə çoxları inanmırdı.

Fridrixin kobudluğu və sərtliyi onun yüksək bacarığı, qabiliyyəti ilə birgə mövcud idi. O, eyni dərəcədə dözümlü və dözümsüz idi. Hissi impulsiv olmaqla yanaşı, o, alicənab mömin idi. O, Siciliyada antik elementlərlə birləşmiş qarışıq mədəniyyət mühitində böyümüşdü, ərəb və yəhudi müdrikliyini, orta əsrlərin Qərb ruhunu mənimsəmişdi, norman realizmini müşahidə etmişdi. O, təbii elmlərlə yanaşı fəlsəfə, poeziya, matematika ilə qidalanmış, onları latın dilinə tərcümədə və originalda oxumuşdu. Özünün eksperimental tədqiqatlarını məşhur əsərində cəmləşdirmişdi. Fridrixin əqli və vədlərlə dolu olan siyasəti əslində faciələrlə üzləşirdi. İmperatorla Papalığın mübarizəsində çox vaxt məqsəd naminə vasitələrə məhəl qoyulmurdu. 1250-ci ildə Romaya qarşı apardığı axırıncı qoşun əsasən ərəblərdən və müsəlman muzdlulardan ibarət idi. Roma din xadimləri də imperatorla mübarizədə heç də həmişə xristian keşişinə layiq olan vasitələrdən istifadə etmirdilər. Axı çox vaxt siyasi məqsədlər eyni dinə məxsusluq qalasının divarlarında böyük yarıq açmağı bacarır və qələbəyə həsr olunan ehtiras din bayrağını da lazımsız bir şey kimi kənara ata bilir.

Yerusəlim bir müddət yalnız müsəlmanların ixtilafları hesabına öz müstəqilliyini qoruyub saxlaya bildi. Xristianlar daim Dəməşq sultanı ilə ittifaqda olurdular, bu da onları məhv etdi. Hələ 13-cü əsrin əvvəllərində tatar-monqolların hərəkatı başlandı, onlar Xivədən olan xarəzmliləri sıxışdırdılar və bundan da Misir sultanı istifadə etdi. O, axırıncıları öz xidmətinə götürdü və onların köməyi ilə Dəməşqi və həm də Yerusəlimi 1244-cü ildə işğal etdi. Xristianlar əvvəlki tək Tirə və Ptolemaidaya qaçmaqla xilas oldular, bu şəhərlər hələ çoxdan onların son sığınacağı olmuşdu.

Yerusəlimin yenidən tutulması barədə xəbər Qərbi Avropada heç bir həyəcan oyatmadı və fransız kralı IX Luiyə xeyli əziyyət çəkmək tələb olundu ki, o, öz vassallarını yeddinci səlib yürüşü (1248-1254-cü illər) etməyə inandıra bilsin. Misirdə sahilə çıxan fransızlar Damiettanı tutub irəli doğru hərəkət etdilər. Lakin 1250-ci ildə Mansur yaxınlığında darmadağın edildilər və Lui özü məmlyüklərə əsir düşdü. Sultan Luidən pul girovu aldı, lakin məmlyüklər bundan narazı qaldılar və onların başçısı Bibars Səlahəddinin axırıncı varisini öldürüb, yeni sülalə yaratdı. Luiyə Palestinaya getməyə icazə verildi, dörd ili o, orada keçirdi və bu dövrdə müsəlmanlarla mübarizəyə hazırlaşmaq üçün şəhərləri möhkəmləndirirdi. Lakin Fransadakı narahatlıqlar barədə şayiələr və ölkədə olmayanda dövləti idarə edən anası Blankanın ölüm xəbərini eşidib, 1254-cü ildə vətənə döndü.

IX Lui getdikdən sonra xristianlar özlərinə monqolların timsalında yeni müttəfiqlər tapdılar, lakin Bibars onları məğlub etdi və Antioxiyanı tutdu. Bu xəbərdən yalnız Lui həyəcanlandı və səkkizinci səlib yürüşünü (1270-1271-ci illər) başladı. Ona ingilis kralı III Henrinin oğlu prints Eduard kömək edirdi. Lakin öz qardaşı, Neapol kralı Karl Anjulunun xahişi ilə əvvəlcə Tunisə qarşı çıxış etdi və burada yoluxucu xəstəlikdən öldü. Buna baxmayaraq, Eduard başlanmış işi davam etdirdi və Ptolemaidaya gəlib çıxdı. Lakin Assasinin onun həyatına qəsdi və atasının ölüm xəbəri onu İngiltərəyə qayıtmağa məcbur etdi və o, Palestinada elə bir iş görə bilmədi.

Lui də böyük nüfuza və şöhrətə malik idi, lakin o, iki dəfə Mansur yaxınlığında və Tunisin ətrafında öz rıtsarlarının əsl qaymağını itirmişdi. O, Fransanın dövlət həyatına da heç bir yeni ideya gətirməmişdi, əksinə özündən əvvəlki institutların saxlanmasına və möhkəmlənməsinə bütün gücünü sərf etmişdi. Lakin o, təkcə xristian dininə sədaqətlə xidmət etmək hesabına digər nöqsanlarının və eybəcərliklərini ört-basdır edə, hətta məşhurlaşa bilirdi.

Beləliklə, qərb xristianlarının Sahibin qəbrini azad etmək cəhdləri sona yetdi. Eduardın buranı tərk etməsindən 20 il sonra məmlyüklər Ptolemaidanı tutdular. Tir, Sidon və Berit kimi şəhərlər müqavimətsiz təslim oldular. Tevtonlar bundan əvvəl Prussiyaya qayıtmışdılar, Tampliyer ordeninin üzvləri Fransaya getdilər, İoannit ordeni isə Rodos adasında möhkəmləndi. 16-cı əsrdə isə oradan Malta adasına keçməyə məcbur oldular və müsəlmanlar qərb xristianlarını

birdəfəlik Palestinadan qovdular.

Səlib yürüşlərinin ilk nümunəsi meydana gələndə Sahibin tabutu olan ərazi Səlcuq türklərin hakimiyyətində idi. Türklər Mərkəzi Asiyada öz müstəqil dövlətlərini yaratmış, oğuz türklərinin bir qolu öz başçıları Səlcuqun adı ilə adlanmaqla, bu ad altında 10-cu əsrdə və 11-ci əsrin əvvəlində Səlcuqikidlər sülaləsini yaratdılar. 11-ci əsrin 40-80-ci illərində onlar Orta Asiyanın bir hissəsini, İranın, Azərbaycanın, Kürdüstanın böyük hissəsini, İraqı, Ermənistanı, Kiçik Asiyanı, Gürcüstanı və bir sıra digər əraziləri işğal etdilər. Səlcuqlar dövləti Məlik-şahın vaxtında (1072-1092-ci illər) daha böyük siyasi qüdrətə malik olmuşdu. 1040-cı illərdən Səlcuq dövləti ayrıca sultanlıqlara bölünməyə başladı. 11-ci əsrin sonunda səlibçilər Palestinanı, Kiçik Asiyanın bir hissəsini səlcuqlardan alıb işğal etdilər, 12-ci əsrdə isə Xarəzmşahlar İranı ala bildilər. Lakin Səlcuqlar zəifləməkdə davam edirdi və 14-cu əsrdə onların hakimiyyəti altında yalnız Konya sultanlığı qalmışdı.

Türklər nomad xalq olub bir yerdən başqa yerə köçürdülər. Onların işğalları və ya miqrasiyası bu xalqı Mərkəzi Asiyadan başlamaqla qərbə doğru, qitənin hər yerinə yaymış və Kiçik Asiyada hələlik bu dalğanın hərəkəti elə bil ki, bir qədər dincini almaq üçün dayanmışdı. Sonra Osmanlı türklərinin timsalında yaranan yeni, daha böyük dalğa özündən əvvəl yatandan çox-çox artıq qüvvə və ehtirasla qərbə doğru hərəkətində təbii sədləri də eyni cəsarətlə və igidliklə aşaraq, Avropaya və Afrikanın şimalına yayılıb nəhəng imperiya yaratdı.

Səlcuq türkləri digərlərindən ayrılıb Persiyanın sərhədinə ilk dəfə gəlib çıxanda buranın özləri üçün olduqca əlverişli yer olduğu qərarına gəldilər. Onlar burada başqa yerlərdə olduqlarından daha uzun müddətə qaldılar, buranın hökmdarına razılaşdıqları vergini verirdilər. Bu dövrdə onların sayı xeyli artdı. Hökmranlıq edən Bağdad xəlifəsi və yerlilər gələcəklərini göz önünə gətirərək türklərin belə çoxalmasından çox qorxurdular. Onları buradan qovmağın mümkün olmayacağını hiss edib, türklərə qarşı cürbəcür tələblər və əlahiddə vergilər qoymağı qərara aldılar ki, şərait özü onları buradan uzaqlaşmağa məcbur etsin. Lakin türklər bir neçə il buna dözdülər və nəhayət daha tabe olmamağı qərara aldılar. Buna görə də hökmdar qasid göndərib qoyulmuş müddətdə onun torpaqlarını tərk etməyi tələb etdi. Bu vaxt türklər Mesopotamiya ilə Persiya arasındakı Kobar çayını keçib özlərinin perslərdən gücsüz olmadıqları qənaətinə gəldilər. Öz aralarında başçı seçəndə seçim Səlcuq ailəsinin üzvünün üzərinə düşdü. Bu Toğrul bəy idi və o, ilk sultan olmaqla 1038-ci ildən 1063-cü ilə qədər türklərə hökmranlıq etdi.

Türklərin başqa xalqlardan bir ciddi fərqi də onda idi ki, siyasi inzibatçılığa və hərbi işlərə rəhbərlik adlarını başqa dövlətlərdən və xalqlardan götürmür, onlara özlərinə məxsus olan titullar və vəzifələr verirdilər. Beləliklə, Toğrul bəy əslində onların kral kürsüsünə oturdulmuş olsa da, sultan adlanmağa başladı. O, Səlcuq dövlətinin banisi oldu və ona verilmiş hakimiyyətdə öz istedadını

nümayiş etdirməyə başladı. O, qasidlər göndərib əmr verdi ki, hamı çayın arxasına keçsin və yenidən Persiyanı silah gücünə işğal etsin. Bir neçə il ərzində o, təkcə Persiyanı deyil, həmçinin Şərqi Roma imperiyasına məxsus olan bütün digər Şərq dövlətlərini, ərəbləri və digər xalqları özünə tabe etdi. Bu əraziyə bir qədər əvvəl gəlmiş bir xalq bütün Şərqin ağası oldu. Bu işləri görmək üçün ona üç onillik vaxt kifayət etdi. Sonra onlar qüdrətli Misirə soxuldular, Suriyaya girdilər və 1076-cı ildə ilk səlib yürüşündən iyirmi il əvvəl Yerusəlimi bir neçə dəniz sahili şəhərləri ilə birlikdə tutdular. Dünyadakı qüvvələr nisbətinə gəldikdə 1050-ci il ətrafında Bizans imperiyası və ya islam dünyası ilə müqayisədə Qərb çox az inkişaf etmişdi, yalnız 250 ildən sonra güclə bu iki rəqibindən irəli getdi. Dünya miqyasında yalnız ilk iqtisadi, siyasi və mədəni inkişafda onlara bərabər sayıla bilərdi. Lakin bütünlükdə orta əsrləri durğunluq dövrü saymaq da düzgün deyildir.

Yerusəlimin səlibçilər tərəfindən işğalı dəhşətli qan axıdılması ilə müşayiət olundu. Solomon məbədinin ətrafında xüsusilə tükürpərdici hadisələr baş vermişdi. Məbədə girən Tankred orada çox sayda adamı öldürdü. Hər yerdə ölənlərin cəsədinə və səpələnmiş bədən üzvlərinə baxmaq belə çətin idi. Bütün torpaq qanla örtülmüşdü. Eybəcər vəziyyətə salınmış meyitlər və kəsilmiş başlar ürəkbulandıran mənzərə yaradırdı, qaliblərin özü də qan içində idi. Məbədin ətrafında 10 min müsəlman öldürülmüşdü, bundan əlavə şəhərin küçələrinə və meydanlarına səpələnmiş öldürülmüş adamların cəsədlərinin də sayı az deyildi. Qoşunun digər hissəsi şəhərə dağılıb dar döngələrdə qaçıb gizlənmiş adamları çıxarıb yerindəcə öldürürdülər. Digərləri evlərə girir, oradan ailə başçılarını arvadları və uşaqları ilə küçəyə çıxarıb qılıncla doğrayır və ya evin damından atıb boyunlarını sındırırdılar. Evə soxulan hər bir səlibçi burada olan hər şeyi öz mülkiyyətinə keçirirdi. İşğaldan əvvəl öz aralarında razılaşmışdılar ki, hər kəs əlinə keçəni həmişəlik mənimsəyəcəkdir. Ona görə də girdiyi evin qapısından ona məxsus olduğunu bildirmək üçün öz qalxanını və ya digər silahını asırdı ki, başqaları onun artıq yeni sahibi olduğunu bilsin. Şəhər işğal edilib qurtaranda və sakinlərin öldürülməsi başa çatdıqdan sonra onun müdafiəsi məsələlərinə baxıldı. Tutulan evlərdən isə onlar böyük miqdarda qızıl, gümüş, qiymətli daşlar, paltar, yağ götürürdülər, təkcə evlərə deyil, çoxlu sərvətə yiyələnirdilər. Bunlar barədə 12-ci əsr tarixçisi, arxiyepiskop Vilhelm Tirli öz kitabında şəhadət verir.

Səlibçilər öz qəddarlıqlarından həzz alırdılar. Başlanğıcdan onlar imperialistlər kimi hərəkət edirdilər və tutulmuş torpaqları özlərinin mülkiyyəti adlandırırdılar. Əldə etdiklərini dörd knyazlığa bölmüşdülər. Onlar Antioxiyanı işğal edəndə əsir götürmək kimi zəhmətli işə girişmədilər, bütün türkləri öldürdülər və həmin torpaqların üstünə mülkiyyət kimi öz əllərini qoydular. Yerusəlim işğal ediləndə isə onlar Xristin sülhsevər konsepsiyasını bütünlüklə kənara atıb, şəhərin bütün sakinlərini rəhmsizcəsinə qırdılar. Elə bil ki, xristianlar müsəl-

manların Qurban bayramını böyük canfəşanlıqla qeyd edirdilər, minlərlə kəsilən qurban bu dəfə qoyun, qaramal və ya dəvə olmayıb, insanlar idi və onların əksəriyyətinin yeganə günahı yalnız başqa dinə mənsub olmaları idi. Bəzi səlibçilər evlərinə yazdıqları məktubda lovğalanırdılar ki, "Solomon eyvanında və onun məbədində bizim adamlar atlarını dizə qədər saratsinlərin qanında çapırdılar". Bu səlibçilər müqəddəs torpaqda qaldıqdan sonra bir qədər sivilizasiyalaşır və dözümlü olurdular, lakin silahlı zəvvarların Qərbdən gələn yeni dalğaları qəddarlıqla davranmağı davam etdirirdilər. Bununla yanaşı məskunlaşan səlibçilər heç vaxt yerli əhaliyə qarışmadılar və ayrıca yaşadılar, islam dünyasının ürəyində əcnəbi element kimi qaldılar.

Bütün bunlarla birlikdə səlib yürüşləri praktiki əhəmiyyətə malik idi. Birinci səlib yürüşünün uğuru orta əsrlər Qərbinin özünə inamının yüksəlməsinə böyük köməklik göstərdi. Bir neçə əsr idi ki, Qərbi Avropa islama qarşı yalnız müdafiə olunurdu, bu vaxt isə Qərb ordusu islam qüdrətinin lap göbəyinə qədəm basdı. Bu dramatik qələbə 12-ci əsrdə müəyyən nikbinlik əhval-ruhiyyəsi yaratdı. Səlibçilər Qərb üfüqlərinin genişlənməsinə kömək etdi. Az sayda qərblilər ərəb dilini öyrəndilər və ya spesifik islam institutlarından, yaxud da ideyalarından faydalandılar. Buna qədər İspaniyada və Siciliyada xristianlar və müsəlmanlar arasında daha faydalı mədəni əlaqələr yaranmışdı. Lakin səlibçilər uzaq məsafələrə səyahət etmişdilər, əcnəbi torpaqlardan keçmişdilər və daha da ağıllanmışdılar. Səlibçilər o vaxtdan onlara əvvəllər məlum olmayan zinətli şeylərə maraq göstərməyə başladılar və sərvəti ədəbiyyatın və nağılların təsvir obyektinə çevirdilər.

İqtisadi nöqteyi-nəzərdən birinci səlib yürüşünün uğuru Şərqi Aralıq dənizini Qərb kommersiyası üçün açmağa kömək etdi. İtalyan şəhərləri Venetsiya və Genuya bu zonadakı ticarətdə aparıcı rol oynamağa başladı. Pul dəyişmək ehtiyacı və uzun məsafələr bank institutlarının erkən təcrübəsinin meydana çıxmasına şərait yaratdı. Siyasi nöqteyi-nəzərdən isə səlib yürüşlərini maliyyələşdirmək üçün ruhanilərə vergi qoyulması qaydası təkcə tezliklə Qərb monarxiyalarına fayda gətirmədi, həm də milli vergi sisteminin müxtəlif formalarının inkişafına şərait yaratdı. Meydana gələn milli dövlətlərdə, inzibati institutlarında səmərəliliyinin inkişafına mühüm stimul yarandı. Bütün bunlar səlib balans cədvəlinin debit və kredit tərəfləri idi.

Səlib yürüşlərinin vəhşi qırğınlarına heç cür haqq qazandırmaq olmaz, axı bu hərəkat başlayanda vətəndə əvvəlcə yəhudiləri, sonra isə kənarda müsəlmanları qırmağa başladılar. Bu biabırçı və qabarıq cəhəti ilə yanaşı səlib yürüşləri Qərbin Bizans imperiyası ilə əlaqələrini xeyli böyütdü və sonralar bəlalı nəticəsi olan sahənin məhv olmasına əsaslı surətdə köməklik göstərdi. Qərbin müqəddəs torpaqdakı müstəmləkəçiliyi XX əsrə qədər davam edən, indi isə iqtisadi eskpansiya formasını alan müstəmləkəçiliyin uzun tarixinin yalnız başlanğıcı rolunu oynadı.

Səlib yürüşündə üç əsrin ən görkəmli şəxsiyyətləri iştirak etmiş, onlardan bir neçəsi bu yürüş vaxtı taleyin ağır hökmü ilə üzləşmiş, digərləri bu yürüşlər dalğasında ağlasığmaz hündürlüyə qalxmış, başqa bir qrup isə bütün səylərinə baxmayaraq, nəticə etibarilə lənət ünvanına çevrilmişdi. I səlib yürüşünün baş qəhrəmanı Qotfrid Lotaringiyalı müqəddəs torpaqdakı bütün xristian torpaqlarının başçısı elan edildikdən sonrakı ili öldü. German kralı III Konrad və onun qohumu hersoq Fridrix Barbarossa uğursuzluğa düçar olub, vətənə döndülər. Yerusəlim kralı Qvido Səlahəddinin əsirliyinə düşdü. İmperator Fridrix Barbarossa Kilikiyada çayda batıb öldü. Bundan bir az sonra onun oğlu Fridrix Şvablı da öldü. İngiltərə kralı Riçard Şir ürəkli nə qədər igidliklə vuruşsa da, qayıdan baş öz müttəfiqi tərəfindən Avropada əsir götürüldü. Yerusəlim kralı Konrad Tirli öldü. Bir az sonra səlib yürüşü vaxtı böyük şöhrət tapmış hökmdar Səlahəddin də öldü. Dandolo Konstantinopolu işğal etməklə öz şəhəri Venetsiyaya əvəzsiz xidmət göstərsə də, ahıl yaşında Bizans imperiyasına sağalmaz yara vurdu. Digər Yerusəlim kralı II Amalrik də öldü. IX Lui Tunisdə xəstəlikdən öldü. Göründüyü kimi, səlib yürüşlərinin baş iştirakçısı ölüm və ardı-arası kəsilməyən faciəli hadisələr idi. Qana susayanların çoxu öz yanğısını söndürməmişdən əvvəl həyatla vidalaşmalı olurdu, bəzilərinin isə şərəfinə elə damğa vurulurdu ki, onu hətta girov qoyulan iri məbləğlərlə də yumaq mümkün olmurdu.

Xristian dünyası səlib yürüşlərinə uğurlu başçılıq edənləri müqəddəslər haləsinə qaldırmışdır. Lakin əks tərəfdə də öz hərbi istedadı və düşüncə miqyası ilə onlardan geri qalmayan, bəlkə də bəzi cəhətlərə görə onları kölgədə qoya bilən şəxsiyyətlər olmuşdur. Onlardan biri Səlahəddindir. O, Misirin, Suriyanın, Yəmən və Palestinanın sultanı olmaqla yanaşı Əyyubid sülaləsinin banisidir. Yusif ibn Əyyub Səlahəddin bütün dövrlər üçün ən məşhur müsəlman qəhrəmanı hesab olunur. Şərqdə o, müdrik hökmdar və böyük sərkərdə simvoluna çevrilmişdirsə, Qərbdə üçüncü səlib yürüşü dövründəki düşmən rıtsar kimi onun əfsanəvi şəxsiyyəti diqqəti özünə cəlb edir. O, 1137-ci ildə indiki İraqın Tikrit şəhərində nüfuzlu kürd ailəsində anadan olmuşdu. Gəncliyində hərbi işlərdən daha çox dini öyrənməyə böyük həvəs göstərmişdi. Sonra o, dayısı Şirkunun yanında əmir Nurəddinin başçılığı altında hərbi xidmətə daxil olmuş, Misirə edilən üç hərbi kampaniyada iştirak etmişdi. 34 yaşında onun mövqeyi yüksəlmişdi, bundan əvvəl o, artıq Suriya qoşunlarının komandanı və Misirin vəziri təyin olunmuşdu, bu vaxt isə o, şiələrin Fatimid xilafətini ləğv edərək Misirdə sünnülüyə qayıtmanı elan etmiş və nəticədə onun yeganə hökmdarı olmuşdu. Baxmayaraq ki, bir müddətə nəzəri cəhətdən İspaniyanı işğal edən Tarik kimi o da Nurəddinin vassalı olaraq qalırdı, buna isə Suriya əmiri öldükdə son qoyuldu.

Səlahəddin yaxşı maliyyə imkanlarına görə Suriyanın içərilərinə hərəkət etdi. Bir qədər sonra o, Suriya, Şimali Mesopotamiya, Palestina və Misirdəki bü-

tün müsəlman ərazilərini birləşdirmək niyyətinə düşdü. Hərbi gücə arxalanan bacarıqlı diplomatiyası hesabına o, buna nail oldu. Bəzən o, səlibçilərə müsəlmanların müqavimət göstərməsinə mane olur, öz siyasi məqsədlərindən çıxış edirdi. O, xristian səlibinin müsəlman ekvivalenti kimi cihad ideyasından ilham alırdı, müsəlman dini institutlarının böyüməsini və yayılmasını təqdir edirdi. İlahiyyat alimlərini və moizəçilərini toplayır, onların istifadəsi üçün mədrəsə və məscidlər açırdı. O, özünün səylərdən və entuziazmdan xəbər verən və ilk müsəlman nəslinin beş əsr əvvəl o vaxtlar məlum olan dünyanın yarısını tutması ilə nəticələnmiş nümunəsini yenidən yaratmaq istəyirdi. O, latın səlibçi krallıqları ilə mübarizədə qüvvələrin hərbi tarazlığını öz xeyrinə dəyişə bildi və öz ordularını onlarınkına bərabər səviyyəyə qaldırdı. O, Tveriada gölü yanındakı Hattində bir zərbə ilə taqətdən düşmüş səlib ordusunu əzdi. Səlibçilərin itkisi həddən artıq ağır idi. Müsəlmanlar bütün Yerusəlim krallığını viran qoydular, digər Palestina şəhərləri də onun əlində qalmışdı. Müsəlmanlar bu şəhəri 1187-ci ildə yenidən tutanda xristian kimi heç də qana susamırdılar, Səlahəddin və onun qoşunları ədəb-ərkanla davranırdılar. Səlahəddin Yerusəlimdə mühafizəçilər-nəzarətçilər qoydu ki, müsəlmanlar şəhərdə qalmış xristianları təhqir etməsin. Hər küçədə iki belə nəzarətçi qoyulmuşdu. Sonra o, şəhərdən bütün kasıbları buraxdı, daha sonra başqa bir mərhəmətli iş gördü, onun yanına gəlmiş səlibçilərin arvadlarının və qızlarının aman barədə yalvarışlarını eşitdikdən sonra icazə verdi ki, onlar öz ərlərini və atalarını zindanlarda axtarsınlar, tapılan belə rıtsarların hamısını buraxdırdı. Bəzi qatı müsəlmanlar Messiyanın sərdabəsini məhv etməyi, məbədi dağıtmağı təklif edəndə Səlahəddin islamın ilk illərində müqəddəs şəhəri tutan xəlifə Ömərin nümunəsinə müraciət etdi. Ömər xristianlara şəhərdə qalmağa icazə vermiş və Sahibin tabutu məbədinə hörmətlə yanaşmışdı.

O, 24 il Misirdə, 19 il isə Suriyada hökmranlıq etmişdi. Olduqca əliaçıq olan bu adam özünü hətta zəruri şeylərdən də məhrum edirdi. Xəzinədar son vaxtlarda sultandan gizli gözlənilməyən təsadüf üçün kənara bir az pul qoyurdu. Səlahəddin öləndə onun xəzinəsində bir qızıl, 47 gümüş pul tapmışdılar. Misirdə, Ərəbistanda, Suriyada və Mesopotamiyanın bir hissəsində əldə etdiyi gəlirlərdən belə cüzi məbləğ qalmışdı. Bu onun həddən artıq əliaçıqlığına dəlalət edir, çünki onun nə bir əmlakı, nə də bir mülkiyyəti qalmamışdı.

Riçard Şir ürəkli Şərqdən vətəninə yollandıqda döyüş başa çatdığına görə Səlahəddin öz paytaxtı Dəməşqə çəkildi. Uzun hərbi kampaniyalar və at belində keçirilən nəhayətsiz saatlar onun axırına çıxdı və 5 mart 1193-cü ildə Səlahəddin 57 yaşında öldü. Onun qohumları imperiyanı tikə-tikə parçaladılar, lakin müsəlman dünyasının ən qüdrətli və ən dahi hökmdarının öz qəbrini qaydaya salmaq üçün onun kifayət qədər pul qoymadan həyatdan getdiyi dostlarına məlum oldu. Səlahəddini yaxşı tanıyanları bu, təəccübləndirməməli idi, çünki onun təmənnasızlığı hamıya yaxşı məlum idi.

Səlahəddin Yerusəlimi tutanda bütün əsir götürülmüş rıtsarları öz çadırına gətirməyi əmr etdi. Onun yanına Yerusəlim kralını, digər knyazları, Tampliyer ordeninin magistrini, markiz Bonifatsi Monferratlını və digər hərbçiləri gətirdilər. Onlar döyüş vaxtı əsir götürülmüşdülər. O, kralın susadığını görüb onun yanğısını söndürmək üçün şərbət qədəhi gətirilməsini əmr etdi. Kral qədəhi knyaz Raynolda verdikdə Səlahəddin bundan qəzəblənib öz əli ilə knyazın başını kəsdi. Sonra əsirlər zindana aparıldı.

Kral Riçard Şir ürəkli Yaffa yaxınlığındakı qəsri tutanda çoxlu müsəlman qırmışdı. Səlahəddin onun yerini soruşanda təpədə adamlarının arasında dayandığını dedilər. Sultan onun piyada olmasından heyrətləndi və qasid krala Səlahəddinin adından at gətirib verdi. At belindəki döyüşçü ilə müsəlmanların düşərgəsinə qaçıb gələndə sultan ona başqa at göndərdi.

İslama sitayiş edənlərin arasında da ixtilaflar baş verirdi. Yerusəlimi müdafiə etməyə qalanlar tələb edirdilər ki, qoy onlarla ya sultanın özü, ya da onun ailəsindən kimsə qalsın. Kürdlər türklərə tabe olmaq istəmirdilər, türklər də kürdlərə.

Səlahəddin Nurəddinin ölümündən sonra Dəməşqə gəlib xəzinəni bütün əmirlər arasında böldü. O, Dəməşqi tutmaqda ona kömək etmiş bir əmirə bunu digər əmirlər arasında bölüşdürməyi tapşırdı. Əmir əlini salıb az qızıl götürdü. Səlahəddin təəccüblənib səbəbini soruşduqda, o, gülə-gülə dedi ki, nə vaxtsa Nurəddin kişmişi böləndə, əlinə çox götürdüyünü görüb irad tutmuşdu ki, o, belə çox götürsə, hamıya çatmayacaqdır. Buna Səlahəddin etiraz edib dedi ki, xəsisliyi tacirlər uydurmuşlar, bu hökmdarlar üçün deyildir.

Səlahəddin ona etiraz edənlərə dözürdü, söhbətdə çox ehtiyatlı hərəkət edirdi, heç kəs onun yanında başqasının ləyaqətinə toxuna bilməzdi. O, ərəblərin tarixini və məcaralarını əla bilirdi. Yetimlərə ürəyi yanmadan baxa bilmirdi. O, öz oğluna nəsihət vermişdi ki, qana nifrət elə, onu tökməkdən qorx və özünü onunla ləkələmə. Tökülən qanı heç vaxt ört-basdır etmək olmur. Düşmənçilik etmə, çünki bizim hamımız öləriyik. O, ədalət məhkəməsini aparmağı çox sevirdi və həftədə iki dəfə özü mühakimə aparırdı. Erməni taciri onun özünü haqsız olaraq məhkəməyə vermişdi. Səlahəddin isə nəinki özünü müdafiə etməkdən imtina etmədi, məhkəmədən sonra taciri, onun özü və məhkəməsi barədə yaxşı rəydə olduğuna görə mükafatlandırdı. Bir dəfə ona şikayət məktubu verən qadına gözləməyi əmr edəndə qadın məzəmmətlə demişdi ki, özünü hökmdar hesab edirsən, həm də bizim hakimimiz olmaq istəmirsən. Lakin şöhrətpərəstlik ona üstün gələn vaxtlarda o, hər cür həqiqəti kənara atırdı. Ölüm ərəfəsində o, Kiçik Asiyanı işğal etdikdən sonra Dəclənin sol sahilindən Azərbaycana soxulub Persiyanın qədim monarxiyasını dağıtmaq istəyirdi, lakin ölüm bu yürüşün baş tutmasına mane oldu.

Səlahəddin bircə dəfə Qərb xristianlarından ciddi müqavimət gördüyünə görə, frankları özünün düşməni sayırdı, onlarla müharibəni - müqəddəs müha-

ribə adlandırırdı. O, xristianları təkcə Palestinadan qovmaqla kifayətlənməyib, torpağı onlardan təmizləmək istəyirdi, Fransanı, İtaliyanı və bütün xristian dünyasını özünə tabe etməyi düşünürdü, bu ideya imperator Fridrix Barbarossanın bir məktubuna verdiyi cavabda da öz əksini tapır. Lakin Səlahəddinin xristianlara nifrəti onlar ondan asılı olmayan kimi qalana qədər davam etdi. Misirdə xristianlara qalib gəldikdən sonra onlarla çox xoş davranırdı. Səlahəddin hakimiyyətə gələndə Nurəddinə xoş gəlmək əlaməti olaraq xristianlar əleyhinə qədim fərmanları bərpa etdi. O, xristianlara at və qatır minməyi qadağan etdi, onlar yalnız eşşək minə bilərdilər, onlar xüsusi paltar və kəmər gəzdirməli idilər və heç bir ictimai vəzifələrə buraxılmırdılar. Lakin Nurəddin öldükdən sonra Səlahəddin tam hüquqlu ağa olduqda xristianların təqibini dayandırdı və onların bütün azadlıqlarını qaytardı. Onlar vəzifələrə götürüldülər, rəis, katib və köməkçi işləyirdilər. Buna görə Misir xristianları ona çox hörmətlə yanaşırdılar. Xristian yazıçıları, xüsusən italyanlar ona bol-bol tərif yağdırırdılar, məddahlıqda müsəlman müəlliflərini də ötüb keçirdilər. Bir xristian yazıçısı belə yazırdı: "Səlahəddin fransızlarla bütün müqavilələrdə verdiyi sözə sadiq qaldı. Əgər şəhər təslim olurdusa o, sakinlərə oradan arvadları, uşaqları və əmlakları ilə sərbəst çıxmağa imkan verirdi. Müsəlman əsirlərin əvəzinə Səlahəddin xristianlara pul təklif edirdi, franklar imtina etdikdə deyirdi: "Qoy əsirləriniz sizdə qalsın, lakin onlarla öz adamlarınızla davrandığınız kimi eyni qaydada yaxşı davranın". Bunun nəticəsində bir çox xristianlar könüllü olaraq ona müsəlman əsirləri göndərirdilər və sultan onları buna görə əliaçıqlıqla mükafatlandırırdı. Çox vaxt belə olurdu ki, şəhər tutulduqdan sonra mühasirədə olan düşmən oradan tam silahlı qaydada, zirehdə, dəbilqədə, bir sözlə döyüşə gedən kimi çıxırdı. Onları görəndə sultan əvvəlcə gülümsəyib sonra ağlayırdı. O, nəinki onlara xətər toxundurmurdu, hətta onları qorumaq üçün mühafizəçilər verirdi. Ona görə də o, yatağında sakitcə öldü". Səlahəddinin öz katibi İmadəddin isə demişdi: "Səlahəddinlə birlikdə böyük adamlar ölüb, yoxa çıxdılar, onunla birlikdə ləyaqətli adamlar da qeybə çəkildi, xeyirxah işlər azaldı, şər çoxaldı, həyat çətinləşdi, torpaq qaranlığa büründü. Bizim əsrimiz öz feniksinə yas tutmalıdır, islam öz axırıncı dayağından məhrum oldu".

Səlib yürüşlərinin ən biabırçı hadisələrindən biri 1198-1204-cü illərdə Konstantinopolun işğal edilməsidir. Səlibçilər maliyyə çətinliyi üzündən 1201-ci ildə Venetsiya şəhərinin doju Enriko Dandolonun yanına gəldilər. Dandolo dənizdə onları daşımaq üçün çox sayda gəmilər, doqquz ay üçün ərzaq ehtiyatı verməyə razılaşdı bu şərtlə ki, onun xərcini hər daşınan əmlak kimi ata 4 marka, hər adama iki marka olmaqla pulla ödəsinlər. Bu nəhəng məbləğ etdiyindən şərt qoyuldu ki, dənizdə və quruda nə ələ keçirilsə bütün qənimət Venetsiya ilə səlibçilər arasında yarı bölünsün. Səlibçilər razılaşıb müqavilə bağladılar. Sonrakı ili yola düşəndə qaleraların və gəmilərin sayı zəvvarlara lazım olduğundan üç dəfə çox idi, venetsiyalılar öz öhdəliklərinə əməl etmişdilər. Sonra Dandolo

onlara başçılıq etməyi öz üzərinə götürdü. Səlibçilər razılaşdılar. Dandolonun 90-dan çox yaşı olmasına, başından aldığı yaradan görmə qabiliyyətini itirməsinə baxmayaraq, o, gümrah və cəsur görünürdü.

Bu vaxt Konstantinopolda imperator İsaak idi və o, qardaşı Alekseyi türklərin əsirliyindən pulla xilas etmişdi. Həmin Aleksey imperator qardaşının gözünü töküb özü onun əvəzinə imperator olmuşdu. İmperatoru onun oğlu Alekseylə birlikdə zindanda saxladırdı. Oğluna zindandan qurtulmaq müyəssər olmuş, bacısının əri Almaniya kralı Filippin yanına qaçmışdı. Sonra səlibçilərə qoşulanda onun başına gələnləri öyrənən fransız baronları ona kömək etməyi vəd etdilər, bu şərtlə ki, o da öz növbəsində onların dediklərinə əməl etsin. Sonra səlibçilərin tələbləri iri məbləğdə gümüş ölçüsündə dəqiqləşdi.

Dandolonun məsləhəti ilə səlibçilər Bosfor boğazında Asiya sahilinə yan aldılar, buradan o biri sahilə keçməli idilər. İmperator Aleksey onları böyük qüvvə ilə döyüş qaydasında gözləyirdi. Rıtsarlar silahlanmış şəkildə dənizə tullandılar və qurşağa qədər suya batıb irəlilədilər. Əlbəyaxa döyüş başlayanda yunanlar qaçdılar və sahili onlara təhvil verdilər. Hələ heç bir liman bu qaydada tutulmamışdı. Səlibçilər imperator Aleksey dayandığı yerə gəlib çatanda o, öz çadırını tərk edib Konstantinopola tərəf döndü. Baronlar gecəni Qalata qülləsinin qarşısında, Stanor adlı yəhudi məhəlləsində keçirdilər.

Səlibçilər hücuma keçib yunanları əzdilər, bir çoxunu öldürdülər və əsir götürdülər. Qaçanlar şəhər qapısını bağlamağa macal tapmadılar. Qapı qarşısında əsas döyüş getdi, səlibçilər qapıları sındırdılar və bu vaxt yenə çox adamı öldürdülər və əsir götürdülər. Beləliklə Qalata qəsri və Konstantinopol limanı tutuldu. Şəhər sakinləri ruhdan düşdülər. Qərara alındı ki, venetsiyalılar dənizdən, baronlar və onların orduları isə qurudan hücuma keçəcəklər. Hücum dörd günlüyə təxirə salındı, beşinci gün ordu silaha əl atdı. Nəhayət şəhərə yaxınlaşdıqda orada onlara qarşı vuruşmağa heç kəs çıxmadı. Bu təəccüblü idi, ordudakı hər adama 200 şəhər sakini düşürdü.

Həmin gecə imperator Aleksey özü ilə apara biləcəyi sərvəti götürüb yaxın adamları ilə şəhərdən qaçdı. Şəhər sakinləri zindandan kor İsaakı çıxardıb ona imperator paltarını geyindirdilər, baş saray Vlaxernaya apardılar və orada taxta oturtdurdular. Lakin ordu yunanlara çox da inanmırdı. Onlar imperator və onun yanında dayanmış arvadı, Macarıstan kralının bacısı olan imperatriçanı gördülər. Sonra onun oğlu Alekseyi yeni imperator kimi taclandırdılar. Sonra ona öz vədini yada saldılar və bildirdilər ki, əgər onu icra etməsə onu hökmdar saymayacaq və özləri barədə bacardıqları kimi qayğı göstərəcəklər və heç bir xəyanətə dözməyəcəklər. Yunanlar bundan heyrətləndilər, bu vaxta qədər heç kəs onların imperatorunu belə təhqir etməmişdi. İmperator Aleksey ona bu sözləri deyən səfirlərə öz narazılığını bildirdi. Səfirlər qayıdıb baronlara baş verənlərin hamısını danışdılar. Beləliklə müharibə başladı, özü də həm quruda, həm də suda.

Yunanlar fransızlarla müqayisədə daha çox itki verdilər. Müharibə qışa qədər davam etdi. Vəziyyəti belə görən yunanlar imperatora qarşı xəyanət qəsdi düzəltdilər. Aleksey gecə yatanda onu tutub zindana saldılar və fransızlarla sözləşməyə sövq edən saray adamı Murzufl imperator titulunu qəbul etdi və Müqəddəs Sofiya kilsəsində taclandı. İsaak bunu eşidəndə qorxudan öldü. Murzuflun bir neçə dəfə Alekseyi zəhərləmək cəhdi baş tutmayanda, onu boğub öldürdü, lakin şayiə yaydı ki, o, öz əcəli ilə ölüb. Qətli gizlətmək mümkün olmadı və onlarla gəlmiş din xadimləri venetsiyalılara və baronlara sübut etdilər ki, belə qətli həyata keçirən adamın hakimiyyəti götürmək hüququ yoxdur və buna razılıq verənlərin özü də cinayətin iştirakçıları olacaqlar. Üstəlik onlar həm də Romaya tabe olmaqdan imtina edirlər. Ona görə də bu torpağı işğal etmək istəyinə görə müharibəni düzgün və ədalətli sayırlar, çünki bu torpaqları Romaya tabe etməklə səlibçilər öz günahlarının bağışlanmasına nail olacaqdılar.

1203-1204-cü ilin qışında arası kəsilməyən toqquşmalar getdi, 1204-cü ildə səlibçilər dənizdən axırıncı və ən cəsarətli hücum etdilər. Bu vaxt imperator Murzufl fransızların üstünə getdiyini deyib Qızıl darvazaya gəldi və bu yolla şəhərdən qaçdı. Həmin gecə yunanlarla səlibçiləri ayıran məhəlləyə yanğın düşdü, şəhər yanmağa başladı. Bu fransızlar bura gələndən Konstantinopolda baş verən üçüncü yanğın idi. Həddən çox ev yanıb sıradan çıxdı. Səlibçilər silahlanıb döyüşə hazırlaşdılar, onlar imperatorun qaçmasından xəbərsiz idilər. Onların qarşısına heç kəs çıxmadı. Bukoleon qəsrində dünyanın zadəgan qadınları: Fransa kralının bacısı və Macarıstan kralının bacısı olan keçmiş imperatriçalar, başqa nəsil-nəcabətli xanımlarla gizlənmişdilər. Bu sarayda tapılan sərvətin isə sayı-hesabı yox idi. Vlaxerna sarayında tapılan sərvətlər Bukoleondakından az idi. Səlibçilər şəhərə yayıldılar və qənimət yığmağa başladılar. Qənimət ağlasığmaz miqdarda idi, qızılın, gümüşün, qiymətli daşların və qab-qacağın, məxmərin, ipək parçaların, xəz paltarların sayı-hesabı yox idi. Uzun əsrlər ərzində hələ heç vaxt heç bir şəhərdə bu qədər qənimət əldə edilməmişdi. Səlibçilər istədiyi evi özünə götürürdü, çünki belə evlər hamı üçün kifayət idi. Ən qəribəsi bu idi ki, 20 min silahlı adam 400 min əhalisi olan bir şəhəri tutmuşdu, özü də bu şəhər əla müdafiə olunmuş şəkildə idi, böyük olmaqla yanaşı hər tərəfdən bağlı idi.

Sonra səlibçilər Venetsiya dojunun iştirakı ilə yeni imperatorun seçilməsinə keçdilər. Bu vəzifəyə Flandriya qrafı Balduin seçildi. Markiz Bonifatsi Monferratlıya isə evlənmək üçün imperator İsaakın dul arvadı, Macarıstan kralının bacısı düşdü. İmperator Balduin isə taclandıqdan sonra öz iqamətgahı kimi Bukoleon sarayına çəkildi.

Venetsiya doju Dandolo dördüncü səlib yürüşündə əvvəlcə fransız baronları ilə müqavilə bağlamışdı ki, onların ordularını gəmilərlə daşınmasını təmin etsin. Lakin o, Macarıstan kralının tabeliyində olan, Dalmatiya sahilindəki xristian şəhəri olan Zaranın işğalına sövq etdi və ən başlıcası isə Konstantinopolun venetsiyalılar tərəfindən zəbt edilməsində səlibçilərin kömək göstərmələrinə

onları inandırmağı bacardı. Ahıl yaşında olmasına baxmayaraq, o, daim ön cərgədə olurdu. Konstantinopola hücum vaxtı o, öz qalerasında tam silahlanmış qaydada dayanmışdı. Konstantinopılun işğalından sonra o, Venetsiyanın doju ilə yanaşı bütöv "Romaniya imperiyasının dörd yarım hissəsinin ağası" titulunu da götürmüşdü. Bu titul Bizans imperiyasından Venetsiyaya düşən payı əks etdirirdi. O, bütün hərbi əməliyyat vaxtı Bizans paytaxtında olmuşdu, həm də diqqətlə Venetsiyanın mənafelərini güdürdü. O, doğma şəhərindəki Böyük kanal üstündə iri saray tikdirmək üçün gəmi ilə xeyli yaxşı mərmər göndərmişdi. Dandolo başına faciə açdığı Konstantinopolda özü də 1205-ci ildə öldü, bu vaxt onun 98 yaşı var idi. O, Müqəddəs Sofiya kilsəsində mərmər sərdabədə dəfn edildi, 250 il sonra türklər şəhəri zəbt edəndə və bu məşhur kilsə məscidə çevriləndə onun qəbri də dağıdıldı. Onun burada dəfn edilməsi bu şəhərin Venetsiyanın var-dövlətdə və qüdrətdə yüksəlməsində Konstantinopolun xüsusi əhəmiyyət daşımasını rəmzləndirirdi. Gözəl şəhər öz sağalmaz bədbəxtliyinə görə yəqin ki, onu lənətləmişdi və özü bir əsrə qədər ömür sürən bir insanın qəbri onun xatirəsini uzun müddət əbədiləşdirə bilmədi və taleyinin acı günlərini yaşamağa başlayanda ona ilk zərbə vurana çatan intiqamla azacıq da olsa təsəlli tapdı.

Səlib yürüşlərinin daha eybəcər nümunələrindən biri az yaşlı uşaqları dini fanatizmin əsirliyinə cəlb etməklə yanaşı, onların həyatını yüksək məqsəd adı altında gizlənən hiyləgərliyə qurban vermək faciəsi idi. Bu hadisə səlib yürüşlərinin mahiyyətinə və məqsədlərinə ağır zərbə vurdu. 1212-ci ildə yenə ilk yürüşdən dillərə düşən niyyət altında dənizin o tərəfinə yürüş həyata keçirildi. Uşaqlardan ibarət olan dəstələrdən biri Almaniyadan olmaqla Adriatik dənizinin sahilinə gəldi, Fransa isə paytaxtının ətrafından yığdığı digər dəstəni Marselə gətirib çıxardı ki, buradan gəmilərə otursunlar. Gəncliyi həvəsləndirmək üçün bütün vasitələrdən istifadə edilmişdi, onlar xilaskar obrazına məftun olmuş, söylənilən möcüzələrdən ilhamlanmışdılar. Uşaqların səlib yürüşünün ideyasını verən Almaniyadan olan hansısa bir Nikolay idi. O, yalançı vəhylə bir qrup uşağı inandırmışdı ki, bu il elə dəhşətli quraqlıq olacaqdır ki, dəniz dibinə qədər quruyacaqdır. Uşaqlardan ibarət kütlə Genuyaya gəlmişdilər ki, Aralıq dənizinin quru dibi ilə Yerusəlimə yollansın. Bu dəstələrin tərkibi aldadılma ölçülərinə bütünlüklə uyğun gəlirdi. Hər yaşdan, hər zümrədən, hətta hər iki cinsdən uşaqlar var idi. Onların bəzilərinin yaşı 12-dən çox deyildi. Onlar şəhərlərdən və kəndlərdən başçısız, heç bir ərzaq ehtiyatları olmadan, boş cibləri ilə gəlib keçirdilər. Yaxınlarının, dostlarının onları bu işdən çəkindirməsi əbəs idi, əsir düşmək ehtimalının xatırladılması onların həvəsini, istəyini ikiqat artırırdı. Çox hallarda onlar qapını, divarı yarıb evdən qaçır və həmin dəstələrə qoşulurdular. Nə sual verilsə cavab bir idi: onlar müqəddəs yerlərdə olmaq istəyirlər. Hətta bu məsələdə Allahın iradəsini güman edən kişilər və qadınlar öz evlərini və tarlalarını atıb bu sərkərdan kütlələrinə qoşulurdular. Papa isə ah çə-

kərək bu yürüş haqqında istənilən qaydada yozmaq mümkün olan sözləri söyləmişdi: "Bu uşaqlar bizə ibrət dərsi verirlər, çünki biz yuxuya dalmışıq, bu vaxt onlar müqəddəs torpağın müdafiəsinə uçurlar". Ruhanilər arasında uzaq görənlər bu yürüşü açıqca qınayırdılar. Lakin kütləni dayandırmaq mümkün deyildi, heç dayandıran da yox idi.

Boyuna xaçı taxmaq kifayət idi ki, səlib yürüşünə buraxıla biləsən. Ona görə də hər cür tör-töküntülər səlibçilər dəstəsinə asanlıqla soxulurdular. Alman zəvvarlarına oğrular qoşulmuşdu və dindarların onlara verdikləri ianələri arabadan götürüb aradan çıxmışdılar. Bu oğrulardan biri Kölndə tutulub öz həyatını dar ağacında bitirdi. Yolun uzunluğundan yorğunluq, isti, əziyyətlər az yaşlı zəvvarların çoxunun həlak olması ilə nəticələndi. İtaliyaya gəlib çatdıqdan sonra onlar kəndlərə dağılışdılar, sakinlər tərəfindən qarət edildilər və qul olmağa götürüldülər. 7 min nəfərdən ibarət dəstə isə Genuyaya gəldi, lakin iğtişaşlar yaranacağından qorxub onlara şəhərdən çıxmaq əmr edildi.

Fransız səlibçilərinin də başına demək olar ki, eyni iş gəldi. Onların cüzi hissəsi qayıtdı, qalanları isə ya dənizdə həlak oldu, ya da iki Marsel tacirinin möhtəkirlik obyektinə çevrildilər. Həmin tacirlər saratsinlərlə birgə ticarət aparırdılar, bu ticarətin böyük hissəsini oğlan uşaqlarının satışı təşkil edirdi. Bu dəfə olduqca əlverişli təsadüf ələ düşmüşdü. Marselə gələn zəvvarlara onlar təklif etdilər ki, heç bir haqq tələb etmədən onları gəmilərində Şərqə daşıyacaqlar. Belə alicənablığa isə özlərinin dini vicdanlılığını bəhanə kimi gətirdilər. Zəvvarlar bu təklifi sevinclə qəbul edib yeddi gəmidə Suriya sahillərinə üzdülər. İki gün sonra dəhşətli fırtına baş verdi və dənizin dalğaları iki gəmini bütün sərnişinləri ilə birlikdə uddu. Qalan beş gəmi Aleksandriyaya gəlib çatdı və gənc səlibçilər ərəblərə, ya da qul tacirlərinə satıldılar. Xəlifə özü üçün qırx gənc oğlan aldı.

Uşaqların səlib yürüşü belə başa çatdı. Cəhalət və hiyləgərlik ekspedisiyası fəlakət ekspedisiyasına çevrildi. Səlib yürüşləri bu dəfə də gözlədiyi şərəf əvəzinə öz tarixçəsinə yeni alçalma və biabırçılıq səhifəsi yazmaqla kifayətlənməli oldu.

# FƏSİL 3
# BİZANS İMPERİYASI

Qərbi Roma imperiyası tənəzzülə uğrayanda yunan dilində danışan Şərqi imperiyada Diokletianın tətbiq etdiyi vergi sistemi ağır yük kimi kasıbların çiyninə düşdü, onlar bürokratiyanı, ordunu, bədxərc imperial sarayını saxlamağa məcbur edilmişdilər. Kasıblar bu yoxsulluqdan qaçmaq üçün heç bir şansa malik deyildilər, çünki qanunçuluq tələb edirdi ki, kasıblar və onların varisləri bu ağır vergilər altında qalsın. Qərbi imperiya dağılmaqla öz taleyinin birdəfəlik sonuna çatdısa, Şərqi Roma imperiyası xarici təhlükələrə məruz qalmaqda və daxili zəifliyin məngənəsində boğulmaqda davam edirdi. İngilis tarixçisi Gibbon haqlı olaraq Bizans sivilizasiyalarının əhvalatlarını "zəiflik və yoxsulluq barədə yorucu və bir növlü hekayə" adlandırmışdı. Lakin bu ağır xəstəliklər müqabilində Bizans imperiyası min il də əlavə ömür sürə bildi. Ancaq o, əkiz qardaşından fərqli olaraq birdəfəlik yoxa çıxdı və bir daha hansısa başqa ad altında dirilmədi, həyata gəlmədi. Bununla yanaşı, həm də ətrafındakı dünyaya böyük təsir göstərməklə öz sivilizasiya missiyasını lazımınca yerinə yetirə bilmişdi.

Sonralar iti sürətlə inkişaf edən islam dünyası memarlıqda, elmdə və incəsənətin bəzi sahələrində çox şeyi öz qonşularından əxz etmişdi. Digər bir çox nailiyyətləri arasında qədim yunan fikrinin qorunub saxlanmasında onun köməyi müqayisəyə gəlməzdir. Bundan əlavə bizanslılar bir sıra görkəmli sənət əsərləri yaratmış, xristian mədəniyyətini bütpərəst xalqlara çatdırmışdır. Onlardan bu sahədə daha çox faydalanan slavyanlar olmuşdur. Kiyev knyazı Vladimir 10-cu əsrdə din axtarışında olanda Romaya, Konstantinopola və Bağdada öz elçilərini göndərmişdi ki, bu mərkəzlərdə ayrı-ayrı dini cərəyanları öyrənsinlər və müqayisə edildikdə üstünlüyü ortodoks xristianlığa - pravoslavizmə vermişdilər. Varyaqların Konstantinopolla ticarəti Rusiya ərazisindən keçdiyinə görə bu ölkə özünü xristian dünyasından Bizansa daha yaxın hiss edirdi. Ona görə də qısaca deyilsə, Bizans dünyanın heç vaxt görmədiyi ən dözüm gətirən və nüfuzlu imperiyalardan biri idi.

Bizans tarixinin başlanğıcını müəyyən etmək də çətindir, çünki bu imperiya Roman dövlətinin fasilə tanımayan varisi idi. Ona görə də ayrı-ayrı tarixçilər bu başlanğıc barədə müxtəlif mülahizələr irəli sürürlər. Bəziləri sübut etməyə çalışır ki, Bizans Roma tarixində Diokletianın Şərq yönlü siyasətinin nəticəsi kimi meydana gəlmişdir, digərləri isə bunu Konstantinin, paytaxtı Romadan Konstantinopola köçürməsi ilə əlaqələndirirlər, axı bu şəhər sonralar Bizans dünyasının mərkəzinə çevrildi. Elə bu şəhərin tikildiyi tərəfin adı Vizantium olmuşdu və ona görə də çətin tələffüz edilən Konstantinopol əvəzinə daha çox Vizantin sifəti işlədilirdi. Bizansın ataları Diokletian və Konstantin sayılsa da, onlar birləşmiş Roma imperiyasına hökmranlığı davam etdirirdilər. İmperiya-

nın qərb hissəsi germanların əlinə keçdikdən sonra 6-cı əsrdə Şərqi Roma imperatoru Yustinian özünü Avqustun varisi hesab edərək Qərbi geri qaytarmaq üçün çətin döyüşlər apardı. Yustinianın hökmranlığı Bizans sivilizasiyası istiqamətində mühüm dönüş nöqtəsi oldu və bu vaxtdan etibarən fikir və incəsənət formaları "Roman" əvəzinə daha çox "Bizansınkı" kimi qiymətləndirilə bilərdi. Lakin Yustinianın özünə gəldikdə o, latın dilində danışmaqda davam edirdi və köhnə Romanı bərpa etməyi arzulayırdı.

Yalnız 610-cu ildən sonra Şərqdən gəlmiş və yunanca danışan yeni sülalə meydana çıxdı və bu sülalə tamamilə Şərqi və ya dəqiq deyilsə "Bizans" siyasətini dəstəkləyirdi. Diokletian, Konstantin və Yustinianın Bizans tarixinin başlanğıcını qoyması barədə nə qədər güclü dəlillər gətirilsə də, bu tarixə 610-cu ildə taxt-taca çıxan Heraklla başlamaq daha ədalətli olardı. Həm də bu dövrdən 1071-ci ilə qədər Bizans hərbi və siyasi tarixinin başlıca mərhələləri Şərqdən gələn və bir-birinin ardınca davam edən müdaxilə dalğalarına müqavimətlə müəyyən olunur. Herakl hakimiyyətə gələndə Bizans imperiyasının mövcudluğuna persiyalılar tərəfindən meydan oxunurdu, onlar imperiyanın Asiya ərazilərinin demək olar ki, hamısını işğal etmişdi. Persiyalılar öz zəfərinin rəmzi kimi Yerusəlimdən xristianların sitayiş mənbəyi olan ilkin Xaçı çıxardıb aparmışdılar. Herakl Bizans qüvvələrini bərpa etmək və qabarmanı döndərmək üçün etdiyi nəhəng cəhdlər hesabına Persiyaya yürüş etdi və 627-ci ildə Xaçı öz ilkin məskəninə qaytardı. Lakin sonrakı yeni ordular Bizans ərazisinə müdaxilə etdi, bu vaxta qədər sakit olan Ərəbistanı da oyatdı. Yeni islam dini ilə ilhamlanan və Persiya ilə mübarizədə Bizansın taqətdən düşməsindən faydalanan ərəblər təəccüblü qaydada sürətli qələbələr çaldılar. 650-ci ildən başlayaraq 7-ci əsrdə qısa müddətə persiyalıların işğal etdikləri Bizans ərazilərinin çoxunu ələ keçirdilər, bütün Persiyanı işğal etdilər və öz yollarını Şimali Afrikaya, qərb istiqamətində saldılar. Aralıq dənizi hakimiyyətinə çevrilən ərəblər həmçinin dənizi də tutdular. 677-ci ildə onlar Konstantinopolu donanma ilə tutmağa cəhd etdilər, lakin uğursuzluğa uğradılar, şəhəri bir daha 717-ci ildə tutmağa çalışsalar da, özü də bu dəfə hücum həm quru, həm də dəniz əməliyyatlarının birləşdirilməsi ilə aparılırdı, bu cəhd də uğurlu olmadı.

Konstantinopola 717-ci ildəki ərəb təhlükəsi Bizansın taleyində yeni ağır hal idi. Lakin bu təhlükəyə qarşı imperator İsaurian adlanan III Leo (717-741-ci illər) davam gətirə bildi. Bu dəfə o, bir əsr əvvəl Persiya təhlükəsinə qarşı Heraklın göstərdiyi qətiyyəti təkrar etdi. Bu məsələdə ona yeni ixtira etdikləri "Yunan alovu" adlanan məxfi vasitə və böyük hərbi bacarıq kömək etdi. "Yunan alovu" kükürdün, liqroinin və sönməmiş əhəngin qarışığı idi. Bürünc qablara doldurulub gəminin burnunda, həmçinin Konstantinopolun divarları üstünə qoyulmuşdu, bu maye alov düşmənin üstünə atılırdı. III Leo ərəbləri dənizdə və quruda məğlub etməyə qadir oldu. Onun Konstantinopolun vəziyyətini belə yüngülləşdirməsi Avropa tarixində ən mühüm döyüşlərdən biri oldu, lakin bu, Bizans imperiyasına daha bir neçə əsrliyə dözməyə şərait yaratdı, bu, həm də

Qərbin xilas olmasına kömək etdi. İslam orduları Konstantinopolu tutsaydılar, onların bütün qalan Avropanı süpürüb almasının qarşısını almaq üçün əsaslı bir iş görülə bilməzdi. Bir neçə sonrakı onilliklər ərzində bizanslılar Kiçik Asiyanın çox hissəsini yenidən özlərinə qaytara bildilər. Yunanıstanla birlikdə bu ərazi sonrakı üç yüz illik dövrdə onların imperiyasının göbəyinə çevrildi. Bundan sonra bizanslılar islam dünyası ilə pat vəziyyətinə düşdülər, bu o vaxta qədər davam etdi ki, 10-cu əsrin ikinci yarısında çürüyən islam hakimiyyətinə qarşı hücumçu müharibə aparmağa qadir oldular. Bizans tarixinin ən böyük dövrü adlanan bu illərdə imperiyanın qoşunları Suriyanın çox hissəsini işğal etdilər. Lakin 11-ci əsrdə başqa müsəlman xalqı olan Səlcuq türkləri bizanslıların tutduqları bütün torpaqları onların əlindən aldılar. 1071-ci ildə Kiçik Asiyadakı Manzikertdə Bizans ordusunu darmadağın etdilər, bu qələbə onlara Bizansın şərq əyalətlərini viran qoymağa imkan verdi. Konstantinopol yenidən Heraklın və Leonun dövründə olan vəziyyətə düşdü.

Belə ağır məğlubiyyətdən sonra da Bizans imperiyası sağala bildi, lakin bir daha əvvəlki gücünü bərpa edə bilmədi. Bunun başlıca sübutu 1071-ci ildə başlanan və 1453-cü ildə tam başa çatan imperiyanın məhv olma faktı idi. O vaxtlar Qərb o qədər zəif idi ki, Bizansa heç cür meydan oxuya bilməzdi, lakin bu vəziyyət 11-ci əsr ərzində dəyişdi. Səlcuqların Kiçik Asiyada bizanslılar üzərindəki qələbəsinin şahidi olan, həmin 1071-ci ildə normanlar kimi tanınan qərblilər, bizanslıları Cənubi İtaliyada əllərində saxladıqları axırıncı ərazidən də qovdular. Qərblilərin düşmənçiliyinin bu aşkar əlamətinə baxmayaraq, Bizans imperatoru Aleksey Komnin türklərə qarşı qərbliləri öz köməyinə çağırdı. O, bundan da ağır səhv edə bilməzdi. Səlibçilər Bizans dövlətinin yıxılmasının başlıca səbəbi oldu. Birinci səlib yürüşündə səlibçilər bizanslılara Kiçik Asiyadakı torpaqlarını geri almağa kömək etdilər, lakin Bizansın özünə götürmək istədiyi Suriyadakı əraziləri öz əllərində saxladılar. Vaxt keçdikcə onların arasındakı narazılıq böyüdü və hərbi cəhətdən üstün olan qərblilər getdikcə Konstantinopola, öz əllərinə düşəcək yetişmiş meyvə kimi baxırdılar. 1204-cü ildə isə nəticədə belə hadisə baş verdi, imperiyanın paytaxtı, Yerusəlimi tutmaq niyyətində olan səlibçilər tərəfindən işğal edildi və ağır soyğunçuluğa məruz qaldı. Çox kiçildilmiş Bizans idarəçiliyi yalnız sağ qala bildi və öz daimi iqamətgahı olan şəhərə yalnız 57 illik fasilədən sonra qayıda bildi. Bu vaxtdan etibarən Bizans dövləti yalnız sözdə imperiya idi və özünün cavanlıqdakı gözəlliyi ilə öyünən qarı kimi köhnə şöhrəti ilə yaşayırdı. 1261-ci ildən sonra Yunanıstanın kiçik bir hissəsini özünə əlavə etməklə 1453-cü ilə qədər mövcud oldu və həmin il Səlcuqların daha qüdrətli varisləri olan Osmanlı türkləri səlibçilərin bu dövləti məhv etmə işini tamamladılar. Onlar imperiyanın axırıncı nişanələrini və Konstantinopolu işğal etdilər. Türklər bu şəhərin adını dəyişib İstanbul etməklə, onun möhtəşəmliyini saxlamaq üçün bir az sonra öz imperiyalarının paytaxtı etdilər və bu imperiya da 470 ildən sonra dağıldıqda, şəhər bu titulunu da itirməli oldu.

Əslində Konstantinopolun tutulması təəccüb doğuran bir məsələ deyildi. Daha çox təəccüb edilməli cəhət o idi ki, Bizans dövləti bu qədər müxtəlif düşmən qüvvələri ilə üzbəüz neçə əsr necə sağ qalmağa müvəffəq olmuşdu. Bu təəccüb həm də onunla böyüyür ki, imperiyanın daxili siyasət tarixi müstəsna dərəcədə səs-küylü idi. Bizans imperatorları öz əvvəlki roman əcdadları kimi ilahi hakimiyyətə iddia etməklə mütləq monarxlara çevrilmişdilər. İntriqa və zorakılıqdan savayı onlara başqa müxalif olan yol və vasitə yox idi. Ona görə də Bizans tarixi təkrar baş verən saray qiyamları, fiziki xətər yetirmə və qətllərlə əlamətdar idi, gözləri kor etmə demək olar ki, adi hal şəklini almışdı. Bizans siyasəti səhnə arxası mürəkkəbliklərlə dolu olduğundan, belə siyasəti bildirən "bizanslı qayda" sözü yüksək dərəcədə mürəkkəb və qeyri-səmimi səhnə arxası maxinasiyaları ifadə etmək üçün işlədilir. İmperiyanın xoşbəxtliyindən müəyyən fasilələrlə fərasətli hökmdarlar da meydana gəlirdi və bürokratik maşın saray çevrilişləri dövrü ərzində də öz fəaliyyətini davam etdirirdi. Bu bürokratik idarəetmə Bizansın uğurunun və uzunömürlülüyünün həqiqətən də başlıca elementlərindən biri idi. Dövlət öz bürokratiyası üçün işçi qüvvəsini yığmaq və özünü savadlı ruhanilərlə əhatə etməyə çətinlik çəkmirdi, çünki Bizans sivilizasiyası onları hazırlayırdı. Bu, Bizans Şərqi ilə erkən Latın Qərbi arasındakı ən başlıca fərqlərdən biri idi. 600-cü ildən 1200-cü ilədək çox kiçik istisnalarla Qərbi xristianlıqda praktiki olaraq savadlı din xadimləri yox idi, bu vaxt Bizans Şərqində ruhani maarifi hökumətin nailiyyətlərinin əsasını təşkil edirdi.

Bizans vəzifəli şəxsləri həyatın bir çox cəhətlərini nizamlayırdı. Bürokratlar təhsilə və dinə nəzarətə kömək edirdilər və iqtisadi cəhdlərin bütün formalarına özləri başçılıq edirdilər. Misal üçün, Konstantinopolda şəhərin vəzifəli şəxsləri qiymətləri və maaşları nizamlayırdılar, lisenziya sistemini dəstəkləyirdilər, ixraca nəzarət edirdilər, adamları Şabatın riayət edilməsinə məcbur edirdilər. Onlar bunu olduqca səmərəli icra edirdilər və biznes təşəbbüsünün boğulmasına imkan vermirdilər. Bürokratik metodlar ordunu və donanmanı, məhkəmələri və diplomatik xidməti nizama salmağa kömək edirdi, onları həmin dövr üçün müqayisə edilməz təşkilati möhkəmliklə təmin edirdi.

Bizansın dözümlülüyünün digər ifadəsi dövlətin müqayisəli cəhətdən 11-ci əsrə qədər sağlam iqtisadi əsasa malik olması idi. Tarixçi Stiven Ransimanın yazdığı kimi: "Əgər Vizantium öz xidmətlərinin səmərəliliyinə öz möhkəmliyindən və təhlükəsizliyindən borc versəydi, bu onun sənəti olardı və bununla onlar üçün haqq ödəməyə qadir olardı". Qərbdə yüz illər ərzində uzun məsafələrə ticarət və şəhər həyatı yoxa çıxanda, Bizans Şərqində kommersiya və şəhərlər çiçəklənməkdə davam edirdi. Hər şeydən əvvəl 9-cu və 10-cu əsrlərdə Konstantinopol Uzaq Şərqin dəbdəbəli malları və Qərbin xammalı üçün canlı ticarət mərkəzi idi. İmperiya öz sənətkarlarını bəsləyir və onları himayə edirdi. Onlardan daha çox fərqlənənləri ipək parça toxucuları idi və bu 11-ci əsrə qədər imperiyanın qızıl və gümüş sikkələrinin stabil qalmasına kömək edirdi. Onun iri şəhər mərkəzləri təkcə Konstantinopoldan ibarət deyildi, bu şəhərin

əhalisi bəzi hallarda bir milyona yaxınlaşırdı, müəyyən dövrlərdə həmçinin Antioxiya və Bizans tarixinin sonuna qədər tərifli şəhərlər kimi qalan Fessalonika və Trapezund fərqlənirdilər.

Bizans ticarəti və sənətkarlığı bir müddət xeyli irəli çıxdı və dövlətin müdafiəsinə xidmət edən artan sərvətlə onu təchiz edirdi, lakin kənd təsərrüfatı həqiqətən Bizans iqtisadiyyatının ürəyini təşkil edirdi. Bizans kənd təsərrüfatı tarixinin əhvalatı başlıca olaraq xırda kəndlilərin, onların işlərinə varlı kübarların sahiblik etdiyi iri malikanələrin müdaxilə etməsinə qarşı öz azadlıqlarını saxlamaq uğrundakı mübarizəsinin tərkib hissəsi idi. 11-ci əsrə qədər azad kəndlilər dövlət qanunçuluğu vasitəsilə dəstəklənirdi, lakin 1025-ci ildən sonra kübarlıq hökumətdə hakimiyyətə yiyələndilər və onlar kəndliləri yoxsullaşmış icarəçilərə döndərməyə başladılar. Bu, bir çox bədbəxt nəticələrə səbəb oldu, ən azı kəndlilər düşmənə müqavimət göstərməkdə daha az maraq göstərənlərə çevrildilər. Manzikertdəki məğlubiyyət labüd nəticə idi.

Azad kəndlilərin yoxa çıxması, Bizans tarixinin sonrakı əsrlərində Bizans ticarətinə əcnəbilərin ağalıq etməsi ilə müşayiət olundu. İtalyan şəhərləri Venetsiya və Genuya ön mövqeyə çıxmaqla, 1204-cü ildən sonra onların Bizans səltənətinin daxilində öz ticarət avanpostunu qurmasına və imtiyazlar əldə etməsinə səbəb oldu. Bu şəhərlər dövlətin əvvəllər əsaslandığı sərvətin həmin kanallar vasitəsilə ölkədən çıxarılmasına şərait yaratdılar. Bu yolla imperiya venetsiyalılar tərəfindən məğlub edildi, bu məğlubiyyət isə türklərin daha böyük və qəti qələbəsinə yol açdı.

Bizanslıların adətən ən çox qayğı göstərdikləri sahə din idi. Öz inamlarına aid olan bircə sözə görə bizanslılar çox vaxt döyüşməyə, hətta ölməyə hazır idilər. Din mövzusu adi məişət söhbətlərinin mərkəzində dayanırdı. Bizansın erkən yazıçılarından biri yazır ki, o, çörəkçidən çörəyin qiymətini soruşanda belə cavab almışdı: "Ata Oğlundan böyükdür" və soruşanda ki, hamam artıq hazırdırmı, ona demişdilər ki, "Oğul heç nədən yaranmışdır".

Bizans dini təfriqəçiliyi bu səbəbə görə belə dolaşmışdı ki, imperatorlar ondan fəal rol oynayırdılar, çünki imperatorlar kilsənin həyatında böyük hakimiyyətə malik idilər, bəzi kilsə xadimləri onları "Allaha bənzər" kimi hesab edirdilər. Onlar kilsə mübahisələrinə böyük təsir göstərirdilər. Buna baxmayaraq, hökmdarlar əyalət separatizmi ilə üz-üzə gəldikdə heç vaxt öz təbəələrini özlərinin etdiklərinə inandıra bilmirdilər. Yalnız bir çox şərq əyalətləri itirildikdən sonra və doktrina əhəmiyyətli formulaların təmizlənməsi 8-ci əsrdə dini sülhə yaxınlaşma kimi göründü. Lakin sonra bu sülh İkonaya zidd mübahisə kimi tanınan hadisə vasitəsilə pozuldu.

İkonaya zidd olanlar o adamlar idi ki, onlar ikonalara sitayiş edilməsinin qadağan edilməsini arzulayırdılar, bu ikonalar isə Xristin və müqəddəslərin obrazları idi. İmperator III Leo tərəfindən İkonaya zidd hərəkat başlandığı vaxtdan və bunu onun oğlu V Konstantin daha ciddi-cəhdlə davam etdirəndə, buna bir çox motivlər irəli sürülürdü. Bunlardan biri hökmən ilahiyyat xarakteri daşı-

yırdı. Xrist özü də insan sənətində yaşamağı düşünmürdü və Allahın On Ehkamında "nəqş edilmiş obrazlara" sitayiş etmək qadağan olunurdu. Bu ilahiyyat məsələlərindən savayı digər nəzərə alınan cəhətlər də var idi. İmperator Leo Konstantinopolu islam hücumundan xilas edəndən sonra və müsəlmanlar yer üzərindəki obrazları "İblisin işi" kimi biabır edəndə, imperatorun İkonaya zidd siyasəti xristianlığın islam tərəfindən ən böyük tənqidinə cavab cəhdi kimi meydana çıxdı. Bu əslində islamı həmin ittihamdan məhrum edirdi. Bunun həm də müəyyən qədər daxili siyasət və maliyyə motivləri var idi. İmperatorlar yeni radikal dini hərəkatı elan etməklə kilsə üzərində öz nəzarətlərini bərpa etmək istəyirdilər, bu həm də monastırların artan gücünə qarşı döyüş idi. V Konstantin bir çox monastırların sərvətini müsadirə etmək üçün onları təqib etməyə başladı.

İkonaya zidd mübahisə 9-cu əsrdə status-kvoya qayıtmaqla həll olundu. Obrazlara sitayişə icazə verildi, lakin bu qarışıqlığın bəzi dərin nəticələri oldu. Onlardan biri çox sayda dini sənətlərin imperial dekreti ilə məhv edilməsi idi. Mübahisənin ikinci nəticəsi isə Şərqlə Qərb arasında ciddi dini uçurumun, yarığın açılması idi. Papa bir sıra səbəblər üzündən İkonaya zidd hərəkatı qəbul edə bilməzdi. Çünki bu hərəkat həm də müqəddəslərin kultuna da toxunurdu, Papanın birinciliyi isə onun Müqəddəs Pyotrun törəməsi olmasına əsaslanırdı.

İkonaya zidd hərəkatın bəzi nəticələri müvəqqəti xarakterli qələbə çaldı, başlıca nəticə isə onun məğlubiyyəti idi. Bizans həyatında o vaxtdan din o qədər üstün vəziyyətdə idi ki, sivilizasiyanın dünyəvi cəhətləri də çox vaxt nəzərə çarpmırdı. Lakin elə səbəblər var idi ki, onlar unudula bilməzdi. Bunlardan biri bizanslıların klassik əsərləri yenidən işləyib üzə çıxarmaları idi.

Bizans məktəbləri öz təlimlərini klassik yunan ədəbiyyatına əsaslandırırdılar. Bu o dərəcəyə çatmışdı ki, savadlı adam Homerdən geniş sitat gətirə bilərdi. Bizans alimləri Platon və Aristotelin fəlsəfəsini öyrənib izah edirdilər. Bizans yazıçıları Fukididin nəsrini təqlid edirdilər. Klassitsizmə belə həsr edilmə onun əqli və ədəbi həyatını zənginləşdirirdi və onlar yunan klassiklərinin sonrakı dövrlərə gəlib çıxmasına köməklik göstərmişdi. Bu gün bəşəriyyətin istifadə etdiyi klassik yunan ədəbiyyatı incilərinin çoxu yalnız Bizans xəttatları tərəfindən onların üzünün köçürülməsi ilə öz ömürlərini belə uzada bilmişdilər.

Bizans klassitsizmi dünyəvi təhsil sisteminin məhsulu idi, bu sistem kişilər kimi qadınları da əhatə edirdi. Xristian Qərbinin və islamın müasiri olması ilə Bizansda qadınların təhsili həqiqətən də adətdən kənar idi. Kübar və varlı ailələrdən olan qızlar məktəblərə getmirdilər, özəl müəllimlər tərəfindən evdə öyrədilirdilər. Bir Bizans qadını Platon və ya Pifaqor barədə apara bilərdi. Ən məşhur Bizans ziyalı qadını prinsessa Anna Komnina idi, o, atası Alekseyin əməllərini nəcib tərcümeyi-halda təsvir edirdi. Bu əsərində o, dəfələrlə Homerdən və Yevripiddən sitatlar gətirir. Qadın ədib şəxsiyyətlərdən başqa Bizans imperiyasında qadın həkimlər var idi, axı Qərbin başqa ölkələrində buna 20-ci əsrin əvvəllərində də rast gəlmək çətin idi.

Bizansın arxitektura və rəssamlıq sahəsində nailiyyətləri daha çox özünə məxsusluğu ilə seçilirdi. Bizans arxitekturasının ən gözəl nümunəsi Aya Sofiya kilsəsi idi, bu Müqəddəs Müdriklik mənasını verirdi. Bu bina 6-cı əsrdə böyük xərc hesabına tikilmişdi. Öz üslubuna və sonrakı təsirinə görə tipik Bizans memarlığı əsəri idi. Ellinistik nəsildən olan arxitektorlar tərəfindən onun layihəsinin hazırlanmasına baxmayaraq, bu tikili bir çox yunan məbədlərindən tam fərqli idi. Burada binanın niyyəti fərdin qüdrətinə görə insanın qürurunu ifadə etmək deyildi, xristian dininin daxili və ruhi xarakterini rəmzləndirmək məqsədini güdürdü. Bu səbəbdən də arxitektorlar binanın xarici görünüşünə az diqqət vermişdilər. Düz kərpiclər gipslə suvanmışdı və zahiri divarlar üçün başqa heç nədən istifadə olunmamışdı, nə mərmərlə üz çəkilmiş, nə möhtəşəm sütunlar onu bəzəyirdi, nə də xarici görünüşü heykəllər zənginləşdirirdi. Daxili isə ancaq zəngin rəngli mozaika ilə bəzədilmişdi. Divarlarda qızıl vərəqələr, rəngli mərmər sütunlar və günəş şüalarını sındıran azacıq rənglənmiş, tutqunlaşdırılmış şüşə pəncərələr parlaq qiymətli daş effekti yaradırdı. Möcüzə hissi yaratmaq üçün bina elə qurulmuşdu ki, kənardan heç bir yolla içəri işıq düşmürdü, yalnız içəridə quraşdırılmış mənbələr işıq saçırdı. Binanın mərkəzi xüsusiyyətlərindən biri onun kürə şəklində tikilmiş kümbəzi idi. Kilsə əvvəlcə xaç şəklində layihələnmişdi, sonra isə mərkəzi meydançanın üstünə gözəl kümbəz qaldırılmışdı və bu kümbəz bütün quruluşu tamamlamaqla ona hökmranlıq edirdi. Bu kümbəzi saxlamaq üçün mərkəzi meydançanın dörd küncündən sütunlardan çıxan dörd böyük tağ tikildi. Aya Sofiyanın kümbəzinin diametri 107 futa bərabər olmaqla, döşəmədən hündürlüyü 180 futa yaxın idi.

Bizans rəssamlığı da erkən yunan klassik üslubundan əhəmiyyətli surətdə fərqlənirdi. Bizanslılar fil sümüyündə nəqş etməkdə, xəttatlıqda, daş-qaş hazırlamaqda, hər şeydən əvvəl isə mozaikada çox üstün idilər. Mozaikada təsvir üçün kiçik rəngli şüşələrdən və ya daşlardan istifadə olunurdu. Bu mozaikalarda insan fiqurları adətən təhrif olunurdu və uzadılırdı. Bununla möminlik təəssüratı yaratmaq məqsədi güdülürdü. Bizanslıların rəsmlərinin çoxu yüksək dərəcədə mücərrədliklə əlamətlənmişdi, ona görə də zamansız təsvir modeli idi. Elə bil ki, bu əsərlərdə təsvir olunanlar keçmişdə yaşamışdılar, bu gündən keçirdilər və ya gələcəkdən gələnlər idi.

Bizansın slavyanlara, xüsusən ruslara dini və sivilizasiya təsiri böyük olduğundan Rusiya xristianlığın ortodoks məzhəbinə keçdiyi 988-ci ildən başlayaraq Bizansın mədəniyyət nöqteyi-nəzərindən əyalətinə çevrilməklə, 20-ci əsrə qədər şərqi ortodoks (pravoslav) dininin qalası olaraq qaldı. 1453-cü ildə Konstantinopol yıxıldıqdan sonra ruslar hiss etməyə başladılar ki, əvvəllər Bizans imperiyasının üzərinə düşən imperial missiyanı və dini inamı davam etdirmək üçün məhz onlar seçilmişlər. Buna görə də rus hökmdarları knyaz titulundan əl çəkib çar - *"царь"* adlanmağa başladılar və bu söz "kayzer", "qeysər" kimi "sezar" mənasını verirdi. Rusiyalılar belə qərara gəldilər ki, Moskva "üçüncü Ro-

ma"dır. Rus natiqi deyirdi ki, "İki Roma yıxılmışdır, üçüncü indiyədək durur və dördüncüsü olmayacaqdır". Bu ideologiya Rusiya imperializminin sonrakı böyüməsini müəyyən qədər izah etməyə kömək edir. Bizans ənənələri həmçinin Rusiya dövlətində hökmdarın ağalığını izah etməyə kömək edə bilər. Heç şübhəsiz bizanslıların stilistik prinsipləri Feofan Qrek və Andrey Rublyov kimi rus dini rəssamlığına xeyli təsir göstərmişdi və Bizans ideyaları böyük rus yazıçıları olan F.M.Dostoyevski və L.N.Tolstoyun düşüncə tərzinə əhəmiyyətli nüfuz etmişdi.

İkonaya zidd hərəkat dövründə Şərq və Qərb xristianları arasında gərginlik qalırdı, çünki Böyük Karlın 800-cü ildə Qərbin imperatoru kimi taclanmasından sonra Konstantinopol Qərbin rəqib imperiya yaratmaq iddialarından hiddətlənmişdi, lakin hər şeydən çox bu iki tərəf arasında mədəni və dini fərqlər böyümüşdü. Bizanslıların nöqteyi-nəzərinə görə qərblilər kobud və cahil idilər, qərblilərin gözündə isə bizanslılar nərmənazik, qadın kimi olmaqla dönüklüyə meylli idilər. Qərb qalxmağa başlayanda bu başlanğıc zəiflənən Şərqə qarşı həm nəzəri, həm də praktiki cəhətdən təhqiredici xüsusiyyətə çevrilirdi. 1054-cü ildə Şərq kilsəsi üzərində üstünlük barədə Papanın müstəsna iddiaları dini sxizmə təkan verdi və o vaxtdan bu meyl heç vaxt zəifləmədi. Bundan sonra səlibçilər evlərindən qaçıb, bu bölünməyə əlavə paz çaldılar.

1204-cü ildə Konstantinopol qarət edildikdən sonra bizanslıların qərblilərə nifrəti daha da dərinləşdi. Bir bizanslı yazırdı ki, "Bizimlə onların arasında indi dərin uçurum vardır, biz birlik barədə sadə bir düşüncəyə də malik olmayacağıq". Qərblilər isə şərqli din qardaşlarını "törtöküntülərin törtöküntüsü, ...günəş işığına layiq olmayanlar" adlandırırdılar. Şərqlilər də borclu qalmayıb qərb sakinlərini zülmətin uşaqları adlandırırdılar, bu vaxt ona işarə vururdular ki, günəş məhz Qərbdə batır. Bu nifrətdən fayda götürən türklər oldu. Onlar 1453-cü ildə təkcə Konstantinopolu işğal etməklə kifayətlənmədilər, tezliklə Cənubi-Şərqi Avropanın Vyanaya qədər olan əksər hissəsini zəbt etdilər.

Bizans sivilizasiyasının tarixi həm də bu kədərli düşmənçiliyi yada salır, digər tərəfdən xatırladır ki, indiki bəşəriyyət ona nə qədər borcludur. Əgər Bizans inkişaf etməsəydi və Avropanı müdafiə etməsəydi Qərbi xristian sivilizasiyası dağılardı. Digər tərəfdən bəşəriyyət Bizans alimlərinə mədəniyyət məsələlərində çox borcludur, onlar klassik yunan elminin qorunub saxlanmasına çox kömək etmişlər. Bizans və Qərbi Avropa alimləri arasında böyük əlaqələr italyan Renessansı dövründə yaranmışdı, bu vaxt bizanslılar italyan humanistlərinə Platonun əsərləri ilə tanış olmaqda kömək etmişdilər. Bizans incəsənəti Qərbi Avropa mədəniyyətinə də böyük təsir göstərmişdir. Venetsiyadakı Müqəddəs Mark kilsəsi Bizans üslubunu yaxından təqlid etməklə tikilmişdi. Bir sözlə Bizans imperiyası yoxa çıxsa da, Bizans mədəniyyəti ölmədi, bir vaxtlar parlaqlığı ilə göz qamaşdıran bu sivilizasiya heç də bütünlüklə sönmədi, Göy qübbəsindəki ulduzlar kimi sayrışmaqla, işıq saçmaqda davam etdi.

# IV HİSSƏ. İSLAM DİNİNİN YAYILMASI

## FƏSİL 6
## İSLAMIN MEYDANA GƏLMƏSİ VƏ DÜNYA DİNİNƏ ÇEVRİLMƏSİ

İslam dini özündən əvvəl mövcud olan dinlərdən çox fərqli qaydada yaransa da, onun meydana gəlməsində oxşar cəhətləri də tapmaq çətin deyildir. Qautama Budda, Zərdüşt və İisus Xrist kimi bu dinin də beşiyinin başında tarixi şəxsiyyət olan Məhəmməd Peyğəmbər dayanmışdı. Din baniləri olan sələflərindən Məhəmmədi fərqləndirən ilkin ən mühüm cəhət ondan ibarətdir ki, o, yaratdığı dinə heç də öz adını verməmiş, "tabe olmaq", "itaət etmək" mənasını verən "islam" adını seçmişdi. Özü də dinin yaradıcısına və ya onun xadimlərinə deyil, məhz Allaha tabe olmaq, onun təmsil etdiyi Tanrıya itaət etməkdən söhbət gedir. Bibliyada bu söz - ingiliscə *"obedience"* kəlməsi "allah" və "məhəbbət" ifadələrindən sonra bəlkə də ən çox işlənən və daim yada salınandır. Özü də islam dininin müqəddəs kitabı olan "Quran"da Allaha tabe olmağın hansısa din nöqteyi-nəzərindən müddət məhdudiyyəti qoyulmur, islamdan əvvəlki peyğəmbərlər və insanlar da məhz bu mövqeyi seçməklə düz yolu tapa bilmişdilər.

İslam dini nisbətən cavan din olduğundan başqa dinlərdən güman ki, çox şeyi əxz etmişdir, lakin bunlar kor-koranə təqlid xarakteri daşımır, əksinə yenidən işlənmiş, təkmilləşdirilmiş və tələb olunan dövrə və şəraitə uyğunlaşdırılmışdır. Din özü ilə birlikdə yeni bir sivilizasiya yaratmışdır və mübaliğəsiz demək lazımdır ki, həyatın elə bir sahəsi yoxdur ki, ona nüfuz edib nizamlamaqdan kənarda qalsın.

İslam mədəniyyəti heç də özündən əvvəlki bəşər mədəniyyətinin iri inkişaf yolundan kənarda, hər şeyi yenidən qurmaq kimi, dağıdıcılıqla müşayiət olunan qaydada yaranmamışdır. Onu əxz edərək bir qədər dəyişdirmiş, özünə məxsus qaydada yaxşılaşdırmışdır. İslam onu tənqid və inkar etməyə cəhd edənlərin səylərinə baxmayaraq, orta əsrlərin elmi və mədəni inkişafına böyük töhfə və təkan vermiş, bəşəriyyət qarşısında da öz borcunu şərəflə yerinə yetirə bilmişdir. Ona görə də müsəlmanlara Avropaya basqın edən bir qəsbkar orda kimi baxmaq olmaz, onlar geniş ərazilərdə görkəmli uğurlar qazanmış bir sivilizasiyanı təmsil edirdilər.

İslamın təsirinin, izlərinin rəngini, mahiyyətini müxtəlif qaydada görənlər, izah edənlər ola bilər, lakin heç kəs bəşər tarixinin bu uzun və çox şaxəli mərhələsinin dünya sivilizasiyasına etdiyi təsirin miqyasını kiçildə bilməz. Əlbəttə

islamın inkişaf tarixində kimlərisə qane etməyən hallar, dövrlər yox deyildir, lakin iri dağ hansısa keçidi çətinləşdirirsə, bu dağın mövcudluğuna dialektik qiymət verib onun böyüklüyünü nəzərə almaq əvəzinə, guya Fərhad igidliyini təkrar etmək məqsədilə onu yarmağa girişmək əbəs bir iş olduğu kimi, bunun böyük ağıldan da xəbər vermədiyini nümayiş etdirəcəkdir. İslam təcavüzünü əldə bayraq edənlər əlbəttə, digər sivilizasiyalar kimi o da müharibələrsiz və qansız keçinməmişdir, islamın özünə olan hücumları, bu dinin yayıldığı ölkələrin başına gətirilən fəlakətləri yada salmaq üçün də özlərinə əziyyət verməkdən çəkinməməlidirlər. İslam tarixi heç də gözləri oxşayan əsrarəngiz tablolar sərgisi deyildir, - qoy kimsə başqa bir dini deyil, adicə bir belə utopik ölkə tapsınlar ki, orada hər şey guya insan ruhuna və onun xoşbəxtliyinə xidmətə cəlb edilmişdir, - burada da həyatın özündə olduğu kimi hər şey - dini prinsiplərdən uzaqlaşmaq da, kanonlara məhəl qoymamaq da, işğal müharibələri və günahsız qan axıdılması halları da olmuşdur. Lakin islam bu keşməkeşləri dəf etmiş, öz təməl prinsiplərini, cürbəcür metamorfozalara uğramasına baxmayaraq qoruyub saxlaya bilmiş, yaşamaqda və inkişaf etməkdə davam etmişdir. İslam başqa dinlərdən fərqli olaraq digər məzhəblərə sitayiş edənlərə dözümlülüklə yanaşmış, təkcə bütpərəstliyə qarşı ilkin xristianlar kimi daha şiddətli mübarizə aparmışdır. Təkcə bir faktı göstərmək lazımdır ki, 1572-ci ildə Parisdə katoliklər Müqəddəs Varfolomey (Bartolome) gecəsi hüqenotların qırğınını təşkil edəndə, o dövrün ən iri müsəlman şəhəri və xilafətin paytaxtı olan İstanbulda müsəlmanlar xristianlarla və iudaistlərlə dinc yanaşı yaşayırdılar, burada dini əsasda heç bir ixtilaf və ya toqquşma baş vermirdi. 1618-1648-ci illərdəki Otuz illik müharibədə Avropanın göbəyində protestantlarla katoliklər bir-birini qırıb taqətdən salanda, qızğın katolik ölkəsi sayılan Fransa Rişelye siyasətinə boyun əyərək, bu müharibədə protestantların tərəfində çıxış edəndə, müsəlman dünyası ən azı öz münasibətlərinin həllində belə müstəsna vasitələrə və bu miqyasda əl atmırdı.

İslam silahla da əraziləri işğal etmişdir, lakin islam dininin yayıldığı ölkələrdə kütləvi surətdə yenidən dini dəyişmək halları baş verməmiş, əksinə onun yaşıl bayrağı altında birləşənlərin sayı getdikcə artmışdır. Təkcə bu həyati dözümlülüyünə, əsrləri aşaraq yaşamaqda davam etdiyinə görə islama bir dünya hadisəsi kimi hörmətlə yanaşmaq lazımdır. İslamın meydana gəldiyi Yaxın Şərq Avropanı özünə olduğu kimi göstərən güzgü rolunu hələ antik dövrdə sübut etmişdi. Avropalılar Şərqə çox vaxt qərəzli yanaşmışdılar, axı rus yazıçısı V.Q.Belinski fərqli böyük sivilizasiya yaratmış Yaponiyanın icad etdiyinin yalnız barama olduğunu iddia etmişdi.

İslam sivilizasiyası öz başlanğıcını islam dininin yarandığı 7-ci əsrin əvvəllərindən götürür. Məhəmməd ilk dəfə bu dini təbliğ edəndə Məkkədəki onun öz doğma Qüreyş tayfasından olan yalnız bir ovuc tərəfdarı var idi. Az keçməmiş Ərəbistanın iki böyük şəhəri Mədinə və Məkkə bu dinin qalalarına çevrildi və Məhəmməd ölümündən əvvəl bu inamın ilkin təntənəsinin şahidi oldu.

Onun ardıcılları olan xəlifələrin dövründə islam arealı genişlənərək bir əsrə yaxın müddətdə üç qitənin geniş ərazilərini tuta bildi. Dünyanın ən məşhur sərkərdələri belə sürətli fəthlərə yalnız qısqanclıq göstərə bilərdi. Yəqin ki, Məhəmmədin ilk icmasında onun moizələrinə qulaq asanlar heç ağıllarına da gətirə bilməzdilər ki, bir vaxt gələcəkdir ki, dünya əhalisinin hər altı nəfərindən biri bu dinə iman gətirən insanlar olacaqdır. Doğrudan da, 21-ci əsrin əvvəlində müsəlmanların sayı 1 milyarda çatmışdır, onlar əsasən Asiyada, Afrikada, müəyyən qədər Avropada da yaşayır, bu din dünyanın başqa ucqarlarına da yayılır.

İslam iudaizm və xristianlıqdan daha böyük olan geniş dünya cəmiyyəti qurmağa müvəffəq olmuşdur. Müsəlman dünyası irqi, dil və coğrafi fərqlərə əhəmiyyət verməyərək bütün müsəlmanları qeyri-adi birlik ruhu ilə birləşdirən icmalardan ibarətdir. İslam bir çox istiqamətlərdə genişlənmiş, Qərbi Asiyada və Avropada olduğu kimi, Afrikanın və Hindistanın da tarixinə böyük təsir göstərmişdir.

İslam başqa torpaqlara Ərəbistandan yayıldığından onun tarixinin əhvalatları da burada başlamışdı. Səhra yarımadası olan Ərəbistan islam meydana gələndən əvvəl çox geridə qalmış ərazi olduğundan onun iki aparıcı qonşusu olan Roma və Persiya imperiyaları öz hakimiyyətlərini bu əraziyə də yaymaq barədə heç düşünmürdülər də. Ərəblərin çoxu dəvə sürülərini otaran və onun südü və digər məhsullarından istifadə etməklə yaşayan bədəvilər idi. Digər ərzaq növü isə səhra vahələrində bitən xurma palmalarının meyvəsi idi. 6-cı əsrin ortalarından uzun məsafəli ticarətin yolu buradan keçdiyindən Ərəbistanda iqtisadi həyat inkişaf sürətini artırdı. Bizans ilə Persiya arasındakı müharibələrin uzanması Afrika və Asiyanın arasındakı tranzit karvan yolunun başqa ərazilərə nisbətən Ərəbistandan keçməsini daha təhlükəsiz etmişdi. Bu böyüyən ticarət yolunun üstündəki bəzi şəhərlər inkişaf etməyə başlayaraq ondan böyük gəlir götürüldü. Onların içərisində ən irəli çıxanı Məkkə idi. Bu şəhər təkcə başlıca ticarət yollarını birləşdirmirdi, həm də uzun müddət idi ki, yerli dini mərkəz kimi tanınırdı. Məkkədə zəvvarların axışdığı ibadət yeri olan Kəbə yerləşirdi və ona bir çox ərəb klanları və tayfaları sitayiş edirdilər. Kəbənin içərisində əslində meteorit olan Qara Daş var idi və müxtəlif inam sahibləri möcüzə kimi ona təzim edirdilər. Bu sitayiş yerinə nəzarət edən həm də Məkkə ərazisinin iqtisadi həyatına başçılıq etməklə, əsasən ticarət kübarlarının və iş adamlarını təmsil edən Qüreyş tayfasından idi və həmin şəxs əslində ərazini idarə edirdi.

İslam dininin banisi, müsəlmanların müqəddəs kitabı olan Quranda Allahın elçisi - rəsulu kimi göstərilən Məhəmmədin şöhrəti Ərəbistanın kiçik bir nöqtəsində yaransa da, zaman və məkan hədlərini dağıdıb görünməmiş miqyas aldı. İslamın dünya dininə çevrilməsi ilə Məhəmməd də ölməzlik qazandı. Məhəmməd 570-ci ildə Məkkədə Qüreyş tayfasına məxsus olan ailədə anadan olmuşdu. Məhəmmədin ulu babası şəhərin xeyirxah adamlarından biri sayılan Haşim idi. Dağlıq yerdə yerləşən bu şəhərdə ərzağa böyük ehtiyac olduğundan

Haşim ildə ətraf ölkələrə iki karvan göndərirdi və onun ölümündən sonra oğlu bu işi davam etdirdi. Haşimin beş oğul varisindən kiçiyi olan Abdullah Məhəmmədin atası idi, lakin gələcək Peyğəmbər dünyaya gəlməmişdən əvvəl onun atası ölmüşdü. Altı yaşı olanda isə o, anasını da itirib əmisi Əbu Talibin himayəsində yaşamışdı. Bir sözlə uşaqlıq dövründə onun sevincli günləri az olmuşdu. İisus Xrist kimi balaca Məhəmməd də doğma şəhərindəki müqəddəs məbəddə icra edilən ibadətləri müşahidə edirdi və bu seyr uşaqda dini düşüncələr yaratmaya bilməzdi. O, nə yazmağı, nə də oxumağı bacarmırdı, lakin təxəyyülünün kasadlığından da şikayət edə bilməzdi, onun ağlı yaşından çox uzağa getmişdi. Ağlı və iradəsi isə ona çətinlikləri dəf etməkdə kömək edirdi.

12 yaşı olanda Məhəmməd tacir olan əmisi Əbu Taliblə karvanla birlikdə Suriyaya getmişdi. Burada o, Nestorian monarxlarının rahibləri ilə çoxlu söhbətlər edir, ilahiyyatla çox maraqlanırdı. Bu rahiblər Konstantinopol patriarxı olmuş Nestorun ardıcılları kimi ikonalara sitayiş etməyi yasaq sayırdılar, hətta xristian ümumi əlaməti olan xaçı gəzdirməyi qadağan edirdilər. İlk dəfə o, burada xristian dini barədə müəyyən təəssürata yiyələndi. 16 yaşında isə o, Yəmənə gedən karvanı müşayiət etdi. Bu səfərlər onun dünyagörüşünü genişləndirdi. Sonrakı səfərlərində o, yarmarkalarda şeir yarışlarına qulaq asırdı. Sonra o, Məkkədə yaşayan Xədicə adlı dul qadının ticarət işlərinə başçılıq etmək üçün ona xidmət etməyə başladı. Onların arasında qarşılıqlı hörmət nikahla nəticələndi və Məhəmməd özündən 15 yaş böyük olan 40 yaşlı qadınla evləndi. Bu nikah Məhəmmədi şəhərin ən varlı adamlarından biri etdi. Onların altı uşağı oldu, lakin iki oğlu körpə yaşlarında öldü, dörd qızından isə yalnız Fatimə Peyğəmbərin nəslini davam etdirdi.

Məhəmmədin bütpərəstliyin kobudluğuna və cəhalətinə qarşı hiddəti artırdı və bu Quranda öz əksini tapır ki, dinin dəyişdirilməsi zəruridir. O, belə qənaətə gəlirdi ki, dinin ibtidai təmizliyini bərpa etmək lazımdır və bu məqsədlə də Allah ilahi vəhylərlə ilhamlanmış peyğəmbərləri müxtəlif vaxtlarda yer üzünə göndərmişdi. Bu peyğəmbərlərin sırasına o, Nuhu, Abrahamı, Moiseyi və İisusu daxil edirdi. Lakin sonradan dünya yenidən bütpərəstlik cəhalətinə batmışdı. Yeni peyğəmbər gəlməli idi ki, azmış bəşər oğlunu yenidən həqiqət yoluna qaytarsın, Kəbədə Abrahamın və patriarxların vaxtında olduğu kimi sitayiş bərpa edilsin. O, Hira dağındakı mağaraya gedir, xristian asketləri kimi bütöv günü və gecələri dua qılmaqda və düşüncələrdə keçirirdi. Xüsusən ərəblər üçün müqəddəs olan Ramazan ayını həmişə bu qaydada keçirirdi. Onun həyatının qırxıncı ilində isə bir yadda qalan hadisə baş verdi. Ərəblərin Əl-Qədr və ya Allahın buyruğu adlandırdığı gecə Quranda deyildiyinə görə mələklər Yerə enir və bu vaxt mələk Cəbrayıl Allahın göstərişini gətirir. Həmin gecə Məhəmməd onu çağıran səsi eşitdi və başını qaldıranda onu işıq seli işıqlandırdı. Hissiyyatını itirəndə insan sifətində olan mələyi gördü. Bu vaxt o, ipək parça üzərində Allahın göstərişini ifadə edən yazını oxudu. Beləliklə Quran nazil olmağa başladı.

Səhərisi gün o, özünün peyğəmbər olduğunun həqiqət olub-olmadığını ayırd etməmiş Xədicənin yanına gələndə, qadın ona inamlı baxışlarla baxdı və özü üçün onu xalqın peyğəmbəri kimi qəbul etdiyini bildirdi. Ona ürək-dirək verib dedi ki, "Allah belə qulunu buraxmaz". Əmisi Əbu Talibin gənc oğlu Əli də onun peyğəmbərliyinə ilk inananlardan oldu. Lakin vəhylər barədə heç kəsə bir söz demədi, çünki hətta yaxın qohumlarından da təhlükə gözləyə bilərdi. Ən böyük təhlükəni isə o, düşmən nəslin başçısı Əbu Süfyandan gözləyirdi və doğrudan da bu varlı və nüfuzlu adam Məhəmmədin barışmaz və güclü əleyhdarlarından biri oldu. İlk üç il ərzində onun tərəfdarlarının sayı 40 nəfərdən çox deyildi və onların arasında gələcək xəlifələr Əbu Bəkr və Osman, həmçinin Talha və Əbd ər-Rəhman da var idi. İbadətə onlar çox vaxt Məkkə yaxınlığındakı mağarada yığışırdılar. Bu məxfilik onları təqiblərdən qoruyurdu.

Özünün peyğəmbər kimi göndərildiyi ona agah olduqdan sonrakı dördüncü ildə o, özü tayfasının doğma qolundan olan bütün qüreyşliləri şəhərin yaxınlığındakı Səfa dağına yığıb, onlara bu məlumatı çatdırmaq istədi. Öz peyğəmbər missiyası barədə danışmağa və vəhyi elan etməyə başlayanda öz qohumları onu söyməyə başladı. Bəziləri onu daşla vurmaq istədi və yığıncaq belə qəzəbli şəkildə dağıldı. Öz evindəki ikinci məclisdə isə vəhyi bütün təfsilatı ilə danışdı. Bu vaxt ona qoşulmağı təklif edəndə, sükutu pozan Əli özünü Peyğəmbərin xidmətinə təklif etdi. Məhəmməd buna çox sevindi. Kütlə, xüsusən qadınlar arasında onun tərəfdarlarının sayı artırdı. Ona yaxınlaşan yəhudilər dəvə ətini yeməyə icazə verdiyini eşidib, natəmizliyinə görə onun dinini rədd etdilər.

Məhəmməd bütpərəstliyə son qoymaq, yəhudi və xristian qanunlarının sərtliyini yumşaltmaq üçün özünü Allahın göndərdiyi peyğəmbər elan etdi. O, tez-tez Hira dağındakı yeganə mağaraya çəkilib Quranın yeni vəhylərini qəbul edirdi. O, özünü yeni dinin moizəçisi hesab etmirdi, hamını inandırmağa çalışırdı ki, o, yalnız Allahın göndərdiyi qədim dini bərpa edir. Quranın ayələrindən məlum olurdu ki, ondan əvvəlki müqəddəs kitablar da öz yerini Qurana təhvil verməlidir. Quran qanunu tamamlayır və ondan sonra ilahi vəhylər olmayacaqdır. Məhəmməd peyğəmbərlər sırasının sonuncusu və ən böyüyü olmaqla Allahın iradəsini elan etməyə gəlmişdir.

Yeni dinin ən vacib cəhəti Allahın bir olmasını elan etməsi idi. Əlbəttə bundan əvvəl iudaizm və xristian dinində təkallahlılıq elan edilmişdi, lakin bu vahidliyə xələl gətirən cəhətlər də var idi. İudaistlərin allahı Yaxvenin Savaof, İeqova kimi də adları var idi. Xristian dini isə Allahı üç obrazda - Allahda, onun oğlunda və Müqəddəs ruhda tanıyırdı. Xristianlar ana bətnindən doğulmuş İisusu allah adlandırırdılar. 5-ci əsrdə (428-431-ci illərdə) Konstantinopol patriarxı olmuş Nestor bu fikrin əleyhinə çıxmış, İisus Xristi allah və allahın oğlu adlandırmaqdan imtina etmişdi. Məryəmin isə allah oğlunun anası olması ideyasını bütünlüklə rədd edirdi. Nestor İisusun yalnız sonradan allahın oğlu, Məsih (Messiya) olduğunu iddia edirdi. Məhəmmədə nestorianların bu ideyaları mə-

lum idi. Ona görə də Quranda Allahın vahidliyinin hansısa üç birlikdə ifadə olunması bütünlüklə rədd edilir və Allahdan başqa digər Allahın olmadığı ("Lailahəilləllah") təkrar-təkrar qeyd edilir. Yaxud "Sizin tanrınız tək olan Allahdır" ("Əl-Bəqərə" surəsi, 163-cü ayə) ifadəsi Quranın başlıca ehkamı kimi irəli sürülür. Digər bir yerdə isə göstərilir ki, "Allah hər şeyə qadirdir" ("Əl-Maidə surəsi", 19-cu və 40-cı ayələr). Bu baş ehkama digər ehkam da əlavə olunur: "Məhəmməd Allahın peyğəmbəridir". Quranda göstərildiyindən müsəlmanlar bunu Allahın göstərişi kimi qəbul edirlər. Bu isə vəhylərin Allaha məxsusluğu fikrini daha da möhkəmləndirir. Quran sözünün mənası isə "oxumaq", "tələffüz etmək", daha doğrusu Allahdan nazil olan sözlərin oxunması idi. Bütpərəstlik, bəlkə də Məhəmmədin ən çox nifrət etdiyi şey idi. Lakin Allahın vahidliyinə xələl gətirməyən və Peyğəmbərə uşaqlıqdan məlum olan bir çox dini qaydalar saxlanırdı. İbadət üçün Məkkəyə getmək, Kəbəyə səcdə qılmaq, Zəmzəm bulağının suyundan içmək və s. bütünlüklə icra olunurdu. İudaizm və xristian dinlərindən çox şeylər əxz edildiyi kimi sonralar fars sözü olan "namaz" anlayışı ilə ifadə olunan ibadətin sutka ərzində beş dəfə qılınması, yəqin ki, zoroastrizmdən götürülmüşdü. Qədim zoroastrlar da gündə beş dəfə ibadət edirdilər, ayinləri icra edirdilər. İbadət vaxtı müsəlmanlar birbaşa Allahın özünə müraciət edir, ona təzim qılır, üzü üstə yerə sərilirdilər. Bu vaxt dua edənlər üzünü qibləyə tərəf tutur və ona tərəf diz çökürlər.

Məhəmmədə peyğəmbərliyinin ilk dövrlərində əleyhdarlarının istehzaları ilə mübarizə aparmaq da çətinlik törədirdi. Bir şair ona həcv də yazmışdı. Məhəmməddən möcüzə tələb edənlər də az deyildi. Çünki adamlar Moisey və İisusun möcüzələri barədə çox şey eşitmişdilər. Bu tələblərə Quranda əksini tapmış Məhəmmədin sözləri ən tutarlı cavab idi: "Quranın özündən artıq nə möcüzə ola bilər?.. Quranın özü artıq möcüzədir". Ondan Səfa dağını bütünlüklə qızıla döndərmək kimi möcüzə göstərməyi xahiş edənlər də az deyildi.

Bədbəxtlikdən qüreyşlilərin düşmənçiliyi də günbəgün artırdı, söz həmləsindən fiziki həmləyə keçirdi. Bir dəfə vaxtında Əbu Bəkr onu xilas etməsəydi, onu boğub öldürə bilərdilər. Onun şagirdlərinin də həyatı təhlükə altında idi. Onun qızı və yeni kürəkəni Abissiniyada sığınacaq tapmışdı. Məhəmməd Peyğəmbər öz təhlükəsizliyi qayğısına qalmalı oldu, qüreyşlilər tayfası ona münasibət zəminində parçalanmışdı, şəhər sakinləri onlarla bütün əlaqələri kəsəcəkləri ilə hədələyirdilər. Elə bu vaxt Peyğəmbər ahıl yaşlı əmisini və 65 yaşlı arvadı Xədicəni itirdi, onların hər ikisi onun üçün olduqca əziz adamlar idi.

Məkkədə yaşamaq onun üçün daha təhlükəli idi, ona görə də gizlənməyə məcbur idi. Peyğəmbərliyinin onuncu ilində belə, Kəbəyə sitayiş etməyə gələnlər dindən dönmüş adam kimi ondan qaçırdılar. Nəhayət Yasribdən (bu şəhər sonralar Mədinə adlandı, başqa sözlə "Peyğəmbərin şəhəri" demək idi) olan zəvvarların dəvəti ilə o, buraya köçməli oldu. Əgər o, Məkkədə qalsaydı onu öldürə bilərdilər. 622-ci il sentyabrın 20-ni, Məhəmməd özünün Mədinə

şəhərinə təntənəli girişi gününü müsəlmanların bayramı elan etdi. Bu şəhər onun sığınacaq yeri oldu. Beləliklə məşhur "Peyğəmbərin köçməsi" və ya Hicrət baş verdi. Bu müsəlman erasının və müsəlman təqviminin başlanğıcı oldu.

53 yaşlı Peyğəmbərin Yasribə gəlməsi onun ictimai vəziyyətini kökündən dəyişdi. Tezliklə o, burada güclü və iri sektanın başçısı oldu. Bu sektaya onunla gəlmiş mühacirlərlə yanaşı, ona qoşulan Mədinə sakinləri də var idi, onlar ənsərlər adlanırdı, bu "müttəfiqlər" mənasını verirdi.

Məhəmməd burada öz dinini açıq təbliğ etmək imkanına malik oldu və məscid tikməyə başladı. O, məscidin tikilməsində şəxsən iştirak edirdi. Adamları məscidə namaz qılmaq üçün dəvət etməkdən ötəri əzan çəkmək adəti yarandı və bu gün də dünyadakı bütün məscidlərin minarələrindən müsəlmanlar ibadətə əzan vasitəsilə çağırılırlar və əzanda "Allahu əkbər! Allahu əkbər! Lailahəilləlah! Muhəmmədin rəsul allah! İbadətə gəlin! İbadətə gəlin!" sözləri işlədilir.

Məhəmməd ona müraciət edənlərin hamısına xeyirxah məsləhətlər verirdi. O, çox sadə yaşayırdı və onun həyatı şagirdlərinin sadə həyatından fərqlənmirdi. Onun adəti qidası xurmadan, südlə və balla yeyilən arpa çörəyindən ibarət idi. Otağını özü süpürürdü, ocaq qalayırdı, paltarını yamayırdı, ümumiyyətlə özü özünə nökər idi. Lakin o, artıq Mədinədə Məkkədə olduğu kimi köməksiz və müdafiəsiz adam deyildi. O, burada bütöv bir qoşuna malik oldu və ona edilmiş dəhşətli inciklikləri xatırladı. Lakin dinsizlikdə qalanlara qarşı zor tətbiq edilməsinə o, hələ icazə vermirdi. Hətta onun tərəfdarlarından biri ilk dəfə qüreyşlilərin karvanına hücum edib qan tökəndə, Məhəmməd ona belə tapşırıq vermədiyini irəli sürərək, bu hərəkətdən yaxasını kənara çəkmişdi. Hicrətin ikinci ilində isə onun başlıca düşməni Əbu Süfyan mallarla yüklənmiş karvanla Suriyadan Məkkəyə qayıdanda böyük qoşunla onun üstünə hücum təşkil edildi. Bu vaxt məkkəlilər də öz adamlarına köməyə tələsdi. Lakin Əbu Süfyan dəstəsilə başqa yolla Məkkəyə tərəf irəliləyirdi. Bu vaxt ona köməyə gələn qüvvəyə Məhəmmədin adamları hücum edib dəstə başçısını öldürdülər. Sonrakı döyüşdə Peyğəmbərin tərəfdarları qələbə çaldılar. O, özü də düşmənin üzərinə cumub döyüşçülərini ilhamlandırmaq üçün deyirdi: "Savaşın və qorxmayın! Cənnətin qapısı qılıncın sayəsində əldə edilir! Kim din uğrunda ölsə, şübhəsiz, cənnətə buraxılacaqdır". Qüreyşlilər sarsılıb qaçmağa başladılar. Əbu Süfyanın karvanı çıxıb getsə də, çoxlu silah və dəvə ələ keçirilmişdi, əsirlərin isə fidyə hesabına buraxılmasından böyük məbləğdə pul qazanılacaqdı.

"Bədir döyüşü" adlanan bu vuruşdakı qələbənin böyük əhəmiyyəti var idi, çünki islam dininin qalibiyyətli döyüşünə yol açırdı. Bədir döyüşündə Məhəmmədin cəsarəti ilə yanaşı sərkərdəlik qabiliyyəti də üzə çıxdı və bu dünyanın sonralar sifətinin dəyişdirilməsində mühüm başlanğıc nöqtəsi rolunu oynadı. Lakin o, sevinməyə macal tapmamış, vaxtilə qaçqın həyatı yaşamış qızının matəmini saxlamalı oldu.

Məğlubiyyət isə qüreyşlilərin hisslərini təhqir etmişdi. Əbu Süfyan Bədir

döyüşünü özünün şəxsi bədbəxtliyi kimi qəbul edirdi, arvadının isə əzizləri döyüşdə həlak olmuşdu. Ona görə də o, qisas almağı qət etdi, Mədinə ətrafını viranə qoydu, Peyğəmbərin iki ardıcılını öldürdü. Məhəmməd onun üstünə gələndə şəxsi düşməni qaçmağa üstünlük verdi. Qaçanda onlar özləriylə götürdükləri un kisəsini yolda atmışdılar və buna görə onların yürüşü istehza ilə "Un kisələrinin müharibəsi" adlandırıldı.

Bədir döyüşü Məhəmmədin vəziyyətini tamamilə dəyişdi, o, artıq qabiliyyətli rəhbər idi və onun qüdrəti böyüyürdü. Mədinənin bütpərəst əhalisi yeni dini qəbul etdi və şəhər bütünlüklə Məhəmmədin hakimiyyəti altına keçdi. O, artıq həm qanunverici, həm də hökmran idi. Bu dəyişikliyin ilk əlaməti onun yəhudilərlə necə davranması oldu. Mədinədə həmin dövrdə üç varlı yəhudi nəsli yaşayırdı. Yəhudilər öz dinlərində qalmaqla yanaşı, Məhəmmədə və onun təliminə gülürdülər. Yəhudi şairləri Məhəmmədə həcvlər yazırdılar. İki belə şair qızğın müsəlmanlar tərəfindən öldürülmüşdü və belə hadisələr sonralar da davam edirdi. Hər iki tərəfdən narazılıqlar vaxtı ölənlər olurdu. Bir belə hadisədən sonra müsəlmanlar silaha sarıldılar. Bu ixtilafdan sonra yəhudilərin əmlakı və sərvəti əllərindən alındı və 700 nəfərlik bir dəstə Suriyaya sürgün edildi. Bundan sonra Məhəmməd yəhudiləri öz tərəfinə çəkmək fikrindən imtina etdi. O, Yerusəlimi qiblə təyin etmək barədəki öz əvvəlki qərarını da dəyişib, onun əvəzinə qiblə kimi Məkkəni seçdi.

Mədinədə Məhəmmədin qüdrəti artdıqca Məkkədə qüreyşlilər arasında düşmənçilik qızışırdı. Əbu Süfyan müqəddəs şəhərin başçısı idi və arvadı onu intiqama təhrik edirdi. Hicrətin üçüncü ilində, Bədir döyüşündən bir il sonra Əbu Süfyan üç min nəfərlik qoşunla şəhərdən çıxdı və bunu Peyğəmbərə xəbər verdilər. Lakin onun qüvvəsi düşməninkindən dörd dəfə az idi. Atlıların sayında da 1:2 nisbəti mövcud idi. Bu kiçik qoşunla Məhəmməd Ühüd təpəsində dayandı, bura Mədinəyə yaxın idi. Qüreyşlilər təpəyə yaxınlaşdılar, mərkəzə Əbu Süfyan özü başçılıq edirdi. Əvvəlcə müsəlman oxatanları hücum etmək istəyən süvariləri geri oturtdular. Qarışıqlıq düşəndə müsəlmanlar düşmənin ortadakı alayının üstünə atıldılar. Düşmən bu hücumdan özünü itirdi. Atlılardan biri Məhəmmədi axtarırdı. Bu vaxt Peyğəmbər nizəni qapıb onun boğazına sancdı. Lakin o, özü də döyüşdə xəsarət aldı. Məkkəlilər şayiə yaydılar ki, Peyğəmbər ölüb və bu, müsəlmanlar arasında çaşqınlıq yaratdı, onlar qaçmağa başladılar. Qüreyşlilər isə onları təqib etmək istəməyib qarətçiliyə, ölüləri eybəcər hala salmağa başladılar. Məhəmməd Mədinəyə geri çəkilməyi qərara aldı, düşmən isə şəhərə hücum etməyə cəsarət etmədi. Bu uğursuzluq ona ağır dərd oldu, həm də ərəb və yəhudi tayfalarının ona münasibəti dəyişdi. Xəyanət işə düşdü. Cürbəcür yollarla onun adamlarını qətlə yetirirdilər. Hətta yəhudilər onu zəhərləyib öldürməyə cəhd etmişdilər, lakin qəsdin üstü açılmışdı. Qisas üçün tayfanın gizləndiyi qalanın yanındakı xurma ağaclarını qırdırıb yandırtdı. Bu ağaclar tayfanı qida ilə təmin edirdi. Nəhayət onlar Suriyaya və yəhudi şə-

həri olan Xeybərə sürgün edildilər. Lakin Ühüd məğlubiyyəti yaddan çıxmırdı və ayrı-ayrı tayfalar artıq Məhəmmədə qarşı vuruşmağa cəsarət edirdilər.

Atəşkəs müddəti bitdikdən sonra Əbu Süfyan müttəfiqləri ilə birlikdə yenidən Mədinə üzərinə yürüşə hazırlaşdı və onların birləşmiş qüvvələri on min nəfər döyüşçüdən ibarət idi. Məhəmməd belə qüvvənin qarşısına çıxmağa ehtiyat edirdi. Şəhərin müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görüldü və divarlardan aralıda dərin xəndək qazıldı. Düşmən yaxınlıqdakı təpələrdə görünəndə Məhəmməd üç min nəfərlik qüvvəsini üzü xəndəyə tərəf hərbi qaydada düzdü. Əbu Süfyan xəndək və yandırılmış alov həddi qarşısında dayanmalı oldu. Müsəlmanlar xəndəyin o tərəfindən çoxlu tonqal yandırmışdılar. Xəndəyin hər iki tərəfində dayanan döyüşçülər bir neçə gün ərzində bir-birinə daş və ox atırdılar. Bu vaxt Məhəmməd diplomatiyaya üstünlük verdi və yəhudi tayfasının düşmənlə ittifaqa girməsinin qarşısını almaq üçün onlara şəhərin xurma məhsulunun üçdə birini verməyi vəd etdi. "Xəndək yanındakı döyüş"də müsəlmanlar azacıq üstünlük qazanıb şəhəri müdafiə edə bildilər. Lakin Məhəmməd həlledici döyüşə girməyə cəsarət etmədi, düşmənin müttəfiqləri arasında şübhə toxumu səpmək məqsədilə onların yanına xüsusi adamlar göndərdi. Müttəfiqlər arasında məkrlə yayılan inamsızlıq öz bəhrəsini verdi. Yəhudilər Şabatı bəhanə gətirib döyüşdə iştirakdan imtina etdilər. Bu vaxt soyuq tufan baş verdi, çadırları qoparıb apardı, gözətçi tonqallarını söndürdü. Belə vəziyyətdə Əbu Süfyan geri çəkilmək əmrini verdi, müttəfiqlər həyəcanla qaçmağa başladılar, çünki Məhəmmədin sehrli qaydada bu tufanı qaldırmasına inanmışdılar. Bundan sonra hər iki başçı bir-birinə hədə ilə dolu məktublar göndərdi.

Məhəmmədin Məkkədən Mədinəyə hicrətindən altı il keçsə də, bu müqəddəs şəhərə hücum etməkdən çəkinirdi, çünki belə hərəkət tayfaların çoxunun gözündə ona ziyan vurardı və onun dininin yayılmasını çətinləşdirərdi. Artıq onu müşayiət edən tərəfdarları da vətən üçün darıxırdı. Dindarlıq ziyarətləri ayı başlayanda hər cür müharibələr kəsilirdi və dini hədlər daxilində düşmənlər dinc qaydada görüşə bilərdilər. Nəhayət on il müddətinə sülh müqaviləsi bağlamaq təklifi ortaya çıxdı və bu müddət ərzində Məhəmməd və onun ardıcılları Məkkəyə gedə bilərdilər, ziyarət edənlər kimi üç gün orada qala bilərdilər. Şərtlər qəbul edildi və müqavilə imzalandı.

Hicrətin yeddinci ilinin başlanğıcında Məhəmməd 12 minlik piyada qoşun və 200 nəfərlik süvari dəstəsi ilə Xeybərə qarşı yürüşə başladı. Yəhudilər üzərindəki qələbənin qazanılmasında "Allahın şiri" adlandırılan Əli xüsusən fərqləndi. Burada yenə Məhəmmədi zəhərləmək cəhdi edildi, lakin o, ilk tikəni ağzına alıb tüpürdü və beləliklə ölümdən qurtuldu. O, Əbu Süfyanla düşmənçiliyə son qoymaq üçün hər cür ləyaqətli saydığı tədbirlərə əl atırdı və onun qızına evləndi, lakin düşməni bu daha da hiddətləndirdi.

Məhəmməd öz dinini dinc yolla yaymaq üçün Persiya şahının və Şərqi Roma imperatorunun yanına elçilər göndərdi. Şah II Xosrov kiminsə öz adını

məktubda ondan qabaqda qoymasına hiddətləndi və onun məzmunu ilə tanış olmadan məktubu cırdı və Yəməndəki canişinə göstərişini çatdırdı ki, Mədinədə Qüreyş qəbiləsindən olan bir dəli özünü peyğəmbər kimi qələmə verir, onu ağıllandır, bunu bacarmasan, onda onun başını mənə göndər! Məhəmməd Xosrovun onun məktubu ilə necə davrandığını eşitdikdə demişdi: "Allah da onun səltənətini belə parçalara böləcəkdir". Bizans imperatoru İrakli isə məktubu ehtiramla qəbul etdi, məktubda ona təlqin edilirdi ki, xristian dinindən imtina etsin, lakin o da məktubu cırmasa da, ona əhəmiyyət vermədi. Digər elçini isə o, Misir hökmdarının yanına göndərmişdi. Bu hökmdar imperiyanın Persiya ilə müharibə aparmağından istifadə edərək Şərqi Roma imperatoruna tabeçilikdən çıxmışdı. O, belə məsələ barədə uzun müddət fikirləşmək lazım olduğunu deyib Məhəmmədə qiymətli hədiyyələr və iki kopt qızı göndərdi.

Nəhayət zəvvar kimi Məkkəyə yollanmaq vaxtı gəlib çatdı. Məhəmməd ora iri qoşunla getdi və qurban kəsmək üçün 70 dəvə apardı. Məkkə ərazisinə daxil olanda onlar çox sevindilər. Məhəmməd köhnə qaydaları ciddi-cəhdlə icra edirdi. O, ərəb tayfalarının çoxu üzərində hakimiyyətə nail olsa da, doğma şəhəri olan Məkkə hələ də barışmaz düşmənlərinin əlində qalırdı. O, Məkkənin divarları üzərində islamın bayrağını qaldırmaq istəyirdi və ən böyük arzusu şəhəri islama itaət edənlərin ixtiyarına vermək idi.

Qüreyşlilərlə bağlanan müqavilə yalnız hansısa hərbi əməliyyatın qarşısını alırdı. Qüreyşlilər də öz növbəsində müsəlmanların qüdrətinin belə sürətlə böyüməsindən təlaş keçirirdilər. Onlar da müsəlmanlarla incikliyi yoluna qoymaq istəyirdilər. Ona görə də Əbu Süfyan Məhəmmədlə əlaqəyə girmək yollarını aramağa başladı. Lakin sonra o, Məhəmmədin gözətçilərinə əsir düşdükdə onu Peyğəmbərin yanına gətirdilər. Ona Məkkəyə yola düşən qoşunu müşahidə etməyə imkan verildikdə o, Məhəmmədin necə qüdrətli olduğunu anladı və Məkkəyə qayıdıb bildirdi ki, hansısa bir müqavimət göstərmək fayda verməyəcəkdir. Beləliklə Peyğəmbərin şəhərə dinc qaydada girməsinə şərait yarandı. Məhəmməd də Məkkəni gücə tabe etdirmək istəmirdi. Onlar şəhər yanındakı dağa gəlib çatanda Əli din bayrağını qaldırdı. Lakin Məhəmməd vadidə qızğın döyüş getdiyini gördü. Bir azdan düşmən qaçmağa başladı və şəhərə üz tutdu. Məhəmməd öz göstərişi ilə Məkkəni ümumi qırğından xilas edə bildi. O, öz şəhərinə qalib şərəfi ilə gəlsə də, sadə zəvvar libasında bura daxil oldu. O, Müqəddəs məbədi, dolu olduğu bütpərəstlik simvollarından təmizlədi. Günorta onun ardıcıllarından biri xalqı Kəbənin qülləsindən ibadətə çağırdı. Burada da o, bir daha qiblənin yerini və istiqamətini təsdiq etdi. Sonra Peyğəmbər moizə ilə xalqa müraciət etdi. Bu moizədə öz təliminin başlıca ehkamlarını göstərdi. Kütlə onun nitqinə "Allahu əkbər! Lailahəillallah! Muhəmmədin Rəsul Allah!" nidaları ilə cavab verdi. Sonra o, ən qatı düşmənlərini belə bağışladı. Bu hərəkətləri ilə o, sərkərdədən daha çox dini lider olduğunu göstərdi.

Peyğəmbər və fateh kimi onun şöhrəti Ərəbistanın ən uzaq guşələrinə yayıl-

mışdı. O, artıq istedadlı dövlət xadiminə çevrilmişdi, sürətlə böyüyən səltənətinin maliyyə məsələlərini məharətlə yoluna qoymuşdu. Bütün dindarlar sədəqə (ianə) adı altında zəkat verirdi. Bu zəkat çay suyu ilə suvarılan və yağışın məhsuldar etdiyi torpaqlarda istehsal edilən məhsulun onda birinə, süni suvarmadan asılı olan yerlərdə isə iyirmidən birinə bərabər idi. Hər on dəvəyə görə iki qoyun, hər qırx beş iri buynuzlu mal-qaraya bir inək, otuz başa görə iki yaşlı buzov, hər qırx qoyuna görə bir qoyun verilməli idi. Hər kəs çox zəkat verməklə dinə bağlılığını göstərirdi. Bu din pərdəsi altında ustalıqla ört-basdır edilmiş uğurlu vergi sistemi idi.

İslam dini sürətlə yayılırdı. Şəhərlər və qəsrlər bir-birinin ardınca dini qəbul edib, Məhəmmədə tabe olurdu. Sözün və işğalların gücü ilə Məhəmməd bütün Ərəbistan üzərində ağalıq edirdi, peyğəmbər rütbəsi ona nəhəng qüvvə üzərində mütləq hakimiyyət verirdi. İndi islamın qüdrətini özgə xalqların torpaqlarında da yaymaq vaxtı gəlib çatmışdı.

632-ci ildə Məhəmmədin xəstəliyi güclənməyə başladı. O, güclü qızdırmadan əziyyət çəkirdi. Öləndə o, vəsiyyət etdi ki, Ərəbistandan bütün bütpərəstləri qovun, dini qəbul edənlərin hamısına özünüzlə bərabər hüquqlar verin və özünüzü ardı kəsilməyən dualara həsr edin. Bir neçə gündən sonra o, həyatla vidalaşdı. Heç kəs öz gözlərinə inanmaq istəmirdi və camaat qışqırırdı ki, onun cəsədini dəfn etmək olmaz. Əbu Bəkr gəlib xalqı sakitləşdirərək dedi ki, əgər siz təkcə Məhəmmədə sitayiş edirsinizsə, Məhəmməd ölmüşdür. Ancaq əgər siz Allaha sitayiş edirsinizsə, Allah ölə bilməz. Məhəmməd yalnız Allahın peyğəmbəri idi. Camaatın səs-küyü kəsildi.

Məhəmməd qeyri-adi zəka qabiliyyətinə malik idi. Təbiət onu dahilik xüsusiyyətləri ilə mükafatlandırmışdı. Onun güclü məntiqi var idi və böyük natiqlik istedadına malik idi. Geyimində o, çox sadə idi, bəzək-düzəyi sevmirdi. O, təmiz ipək paltar geyinməyi qadağan etmişdi, qızıl üzük gəzdirməyi də.

İslamın prinsipləri, mahiyyəti çox sadə idi. Bu inam Allaha mütləq tabeliyi tələb edirdi. Müsəlmanlar üçün Allah başqa dinlərdəkindən fərqlidir, o Qadir Tanrı Allahdır və onların inamına görə Allahdan başqa digər ilahi qüvvə yoxdur. Məhəmmədə gəldikdə müsəlmanlar onu Allahın sonuncu və ən böyük peyğəmbəri sayırlar, lakin qüdrət barədə hətta Peyğəmbər olan onun rəsulu da Allahın özünə yaxınlaşa bilməz. Üstəlik Məhəmmədin monoteizmi - təkallahlığı öyrədirdi ki, hamı özünü bütünlüklə Allaha tabe etməlidir, çünki ilahi mühakimə, Qiyamət günü hökmən gələcəkdir. Öləri insanlar öz seçimini etməlidir, çünki kim ki, özünü dinə bağlamışdır, Allah onu xoşbəxtliyə aparacaqdır, bunu etməyən adamlardan isə Allah uzaqlaşacaq və onlar sağalmaz pis olaraq qalacaqlar. Qiyamət günü möminlər şadlıq məskəni olan cənnətdə əbədi həyata qovuşacaq, lənətlənənlər isə əbədi yanmaq və əzab çəkmək səltənətinə aparılacaqlar. Bu açıqlamaların, vəhylərin izah edilməsini Allah Məhəmmədə tapşırmışdı və dinə iman gətirənlərin atacağı praktiki addımlar Quranda öz əksini

tapmışdı. Bu addımlar əxlaqi vicdanlılığı və dərdi bölüşməyi bütünlüklə əhatə etməklə, dini ibadətlərin icra edilməsini vacib sayır. Mühüm ibadətlər sırasına namaz qılmaq və oruc tutmaq, Məkkəyə ziyarət etmək daxil idi. Müsəlmanların vəzifələrinə hər il xüms və zəkat vermək də daxil idi. Bunlar islamın "beş dayağını" təşkil edir. Bu sırada birinci borc Allahın bir ilahi qüvvə və Məhəmmədin onun peyğəmbəri olduğuna inamdır. Bu inam isə Göydən nazil olmuş Qurana əsaslanır və bu müqəddəs kitab Peyğəmbərə göndərilmiş ilahi vəhylərin toplumudur.

Quran surə adlanan 114 fəsildən ibarətdir. Bütünlükdə Quran sitayiş, etik, hüquqi, təsərrüfat xarakterli göstərişləri, qaydaları, qadağaları, məsləhətləri özündə əks etdirdiyindən onun birmənalı qəbul edilməsi üçün təfsir ənənəsi yaranmışdı. Müsəlmanın digər vəzifələrinə namaz (səlyət), oruc (saum), Kəbəyə ziyarəti nəzərdə tutan həcc və nəhayət, zəkat şəklində vergi vermək daxildir. Sonuncunun din birliyi üçün vacib olduğu nəzərə alınaraq sələmçilik qadağan olunmuşdu.

Müsəlman dinində ondan əvvəlki dinin təsirini tapmaq çətin deyildir. Buna başlıca olaraq sərt təkallahlığı, onun şəxsi əxlaqa və başqasının dərdinə qalmağa təsirini və müqəddəs kitaba yazılanlara əsaslanmaq qaydasını aid etmək olar. Xristianlıqdan Qiyamət günü, sonrakı mükafat və ya cəza üçün bədənin yenidən dirilməsi, mələklərə inam cəhətləri götürülmüşdü. Quran İisus Xristi peyğəmbərlərin uzun siyahısında onların ən böyüklərindən biri hesab etsə də, Xristin ilahiliyinə inanmırdı və bəzi ayələr onu "Məryəm oğlu İsa Əl-Məsih" adlandırırdı.

Müsəlmanlar məscidlərdə birgə namaz qılsalar da, bu heç də katolik xristianların messasına bənzəmir. Ruhanilərin, kilsə xadimlərinin olmaması islamı iudaizmə daha çox oxşatmaqla yanaşı, islam iudaizmdən fərqli olaraq universalizmə can atır və dünyanın birləşdirilməsində unikal rol oynamaq istəyir. Axı onlar ilkin dövrlərdə belə birləşdirmə fazasını keçmişdilər, bir şəhərdə, bir tayfada yaranan yeni din tezliklə bütün Ərəbistanı öz ağuşuna almışdı. Sonradan bütün dünyaya istiqamətlənən bu hərəkat Məhəmmədin ölümündən az sonra praktiki olaraq öz bəhrələrini vermişdi.

Ərəblər siyasi varislik barədə aydın konsepsiyaya malik deyildilər. Heç Məhəmmədin icmasının uzun müddət yaşayacağı perspektivi də açıq bilinmirdi. Məhəmməd öldükdən sonra təşəbbüsü əlinə onun qayınatası Əbu Bəkr, xəlifə - "Peyğəmbərin köməkçisi" titulu ilə aldı. Beləliklə xəlifə ölkənin, sonra isə xilafətin ali dini və siyasi rəhbərinə çevrildi. Ondan sonrakı xəlifələr isə Ömər, Osman və Əli oldu. Əbu Bəkr xəlifə olduqdan sonra müxtəlif ərəb tayfalarını tabe etmək üçün hərbi kampaniyalara başladı. Onları uğurla başa çatdırdıqdan sonra onun qüvvələri Ərəbistanın şimal sərhədlərindən kənara axışmağa başladılar. Onların təəccübünə rəğmən Bizans və Persiya qüvvələri tərəfindən olduqca zəif müqavimətlə üz-üzə gəldilər. İki il hakimiyyətdə olduqdan sonra

ölən Əbu Bəkrin yerini Ömər tutdu və yeni xəlifə qonşu imperiyalara birbaşa müdaxilələri davam etdirdi. 630-cu ildə ərəblər Bizans ordusunu Suriyada darmadağın etdilər, çox tezliklə onları bütöv bu ərazidən süpürüb atdılar və Antioxiya, Dəməşq və Yerusəlim kimi aparıcı şəhərləri işğal etdilər. 637-ci ildə onlar persiyalıların başlıca ordusunu əzdilər və Persiyanın paytaxtı Ktesifon şəhərini tutdular. İnzibatçı mərkəzinin əldən getməsi ilə Persiya imperiyası hansısa müqavimət göstərməyə qadir deyildi. Buna görə də artıq 652-ci ildə bütöv Persiya səltənətinin ərəblər tərəfindən işğalı başa çatdı.

Bu vaxtlar Bizans Konstantinopolun ətrafındakı yaxın ərazidə mərkəzləşmişdi. Ərəblər onu tutmağa qadir olmasalar da, tezliklə imperiyanı onun tərkib hissəsi olan Misirdən 646-cı ildə ayırdılar, sonra isə onları Şimali Afrikanın qərbindən süpürüb atdılar. 711-ci ildə isə artıq ərəblər oradan İspaniyaya keçdilər və qısa müddətdə demək olar ki, ölkənin bütün ərazisini tutdular. Beləliklə bir əsrdən az müddət ərzində islam bütün qədim Persiyanı və Roman dünyasının böyük hissəsini işğal etdi.

Müsəlmanların ekspansiyası digər ölkələrə, xüsusən İspaniyada qeyri-adi bir hal hesab edilsə də, onların özü üçün hələ Peyğəmbərin sağlığında başlanan prosesin adi davamı idi. Bu proses köçəri basqınlarının transformasiyası hesabına inkişaf etmişdi. Əsrlərlə köçəri ərəb tayfaları qonşularının üzərinə basqınlar edirdilər. Dəvənin və digər mal-qaranın aparılmasına xidmət edən bu basqınların çox işlənən metodu qüvvəcə üstün olan dəstənin, hansısa tayfanın kiçik hissəsinə qəflətən etdiyi hücum idi. Belə olan halda hücum edilən tərəf qaçmağı özünə biabırçılıq hesab etmirdi, çünki belə toqquşmalarda adətən insan qurbanı böyük olmurdu. Peyğəmbər özü də karvanların üstünə basqınlarda iştirak etmişdi. Sonrakı müdaxilələrlə həmin basqınların fərqi onların strateji istiqamətlərində idi. Ona görə də islam dininə qoşulan köçəri tayfaların basqınları artıq bir-birinə deyil, müsəlman ittifaqına bağlı olmayan qonşu bütpərəst tayfalara qarşı istiqamətlənmişdi. Bu onu göstərir ki, islamın qılıncla yayılması fikri düzgün deyildir, bu bütpərəst tayfalara seçim hüququ vermirdi: ya islam, ya qılınc. Lakin iudeylərə, xristianlara və digər bəzi dinlərin təmsilçilərinə monoteist inamın sahibi kimi baxılmaqla, münasibət başqa idi. Bu dinlər islama qohum dinlər sayılırdı, lakin həm də nəzərə alınırdı ki, onların müasir ardıcılları ilk dövrlərdəki "inamın təmizliyindən" uzaqlaşmışlar. Lakin onlar heç də bütpərəstlər deyildilər və ona görə də müsəlmanların müttəfiqləri sayıla bilərdilər.

Ərəblərin ilk dəfə müdaxilə etdiyi Ərəbistandan kənardakı ölkələrdə əhalinin əksəriyyəti monoteist kimi qəbul edilirdi. Ona görə də bu vaxt dini müharibənin - cihadın məqsədi sakinlərin islama döndərilməsi deyil, onların öz himayələri altında müsəlman qaydalarına tabe edilməsi idi. Onlar hamısı birlikdə "əhl əz-zimmə", ayrılıqda isə "zimmi" adlanırdılar. Bu kateqoriyaya o qruplar daxil idi ki, onlar bir dinə sitayiş edirdilər və onlara patriarxın və ya ravvinin rəhbərliyi altında daxili muxtariyyət verilirdi. Hər qrupun üzvü müsəlman vali-

sinə can vergisi ödəyirdi və eyni qaydada bağlanmış müqaviləyə uyğun olaraq digər vergilər verilirdi. Bəzi hallarda bu vergilərin məbləği müsəlman hökmranlığına qədər olduğundan az olurdu. Müsəlman dövləti əhalinin müdafiəsini öz üzərinə götürürdü. Əsasən himayə olunan qrupların vəziyyəti dözülən idi, baxmayaraq ki, onlar üçün bir sıra məhdudiyyətlər də var idi. Belə ki, onlara silah gəzdirməyə və müsəlman qadınlarına evlənməyə icazə verilmirdi. Onları adətən yüksək dövlət vəzifələrinə buraxmırdılar. Bu məhdudiyyətlər üzündən zimmi özünü "ikinci sort" vətəndaş hesab edirdi və yəqin buna görədir ki, əsrlər boyu davam edən kütləvi qaydada olmasa da, xristianların müsəlmanlığa keçməsinə bu, müəyyən stimul yaradırdı. Müsəlmanlar heç vaxt bu faktla lovğalanmırdılar, 7-ci əsrin sonundan isə bir sıra müsəlman liderləri praktiki olaraq belə keçidi təqdir etmirdilər, çünki bu can vergisinin daxil olmasını azaldırdı və bununla dövlət büdcəsinin dayaqları laxlayırdı. Ona görə də müsəlmanların hərbi ekspansiyası birbaşa islama keçməyə xidmət etmirdi.

Himayə edilən qruplarda adətən yerli inzibatçılıq saxlanırdı. Bu praktika böyük imperiyanın sürətli və səmərəli təşkilinə kömək edirdi. Ərəblər hər bir əyalətdə ali idarəetməni və hər qrupdan verginin yığılmasını həyata keçirirdi. Əvvəllər hər bir müsəlman xəzinədən illik müavinət alırdı və beləliklə özünü bütünlüklə hərbi xidmətə həsr edə bilərdi. Lakin bu müavinətlərin verilməsi sistemi 750-ci ildən öz fəaliyyətini dayandırdı.

Karl Martellin 732-ci ildə Puatye yaxınlığındakı qələbəsi dünya tarixində ən həlledici an hesab edilsə də, bu müəyyən mənada həqiqətən belə idi, lakin bu döyüş həm də müsəlmanların bu dövrdə Avropanın içərilərinə doğru daha uzaqlara irəliləməsinin axırıncı sərhədini qoydu. Elə bil ki, bu döyüş müsəlmanların "gəlirli" basqınlarının öz həddinə gəlib çatdığını göstərdi. Mərkəzi Fransaya irəliləmək üçün onları gözləyən müqaviməti əzməkdən ötəri vacib sayılan hərbi ehtiyatları kifayət qədər deyildi. Bu döyüşdən on il sonra Yaxın Şərqin özündə başlanan ixtilaflar təkcə Əməvilər üçün fəlakətli olmadı, həm də İspaniya ərəblərinin özünün şimala yeni yürüş təşkil etmək üçün artıq gücü çatmırdı. İspaniya başında Əməvi əmiri duran ayrıca dövlətə çevrildikdən sonra bütün səylər ölkənin birləşdirilməsinə və ram edilməsinə yönəldilmişdi. Ona görə də Puatye döyüşü ərəb ekspansiyasının bu istiqamətdəki kulminasiya nöqtəsi olmaqla yanaşı, onun tənəzzülünün başlanğıcı oldu. Həm də müsəlman dünyasının Qərbi Avropaya təsiri əsasən İspaniyadan və nisbətən az dərəcədə isə Siciliyadan yayıldı.

Ərəblərdən əvvəl və sonra köhnə Roma imperiyasına məxsus olan ərazilərə germanlar və slavyanlar, macarlar və vikinqlər hücumlar etmişdilər və bunlar "barbar" basqınları kimi qiymətləndirilirdi. Əlbəttə, ərəblər və onların barbar müttəfiqləri digər işğalçılardan heç də yüksək mədəni səviyyədə deyildilər, lakin onların arasında prinsipial fərq də var idi. Avropanın "barbar" işğalçıları hələ tayfa inkişafı səviyyəsində idilər və onların şəhər həyatı ilə heç bir əlaqəsi

olmamışdı. Ərəblər isə imperiyanı təmsil edirdilər və bu imperiyanı bir ya iki əsr ərzində Atlantikadan Əfqanıstana qədər olan geniş regionda mədəniyyətin daşıyıcılarına çevirmişdilər. Ərəblər İraq, Suriya və Misirdəki qəsblərinin gedişində öz ərazilərinə Yaxın Şərqin bir neçə iri mədəni mərkəzlərini əlavə etmişdilər. Erkən sivilizasiyaları təmsil edənlərdən çoxu müsəlmanlığı qəbul etmişdi və əsrlər boyu davam edən əqli qıcqırma baş vermişdi. Dünyanın bu hissəsindəki əhali Şumerə, Akkada, Qədim Misirə gedib çıxan minilliklərlə ölçülən şəhər mədəniyyəti təcrübəsinə malik idi. Bu minilliklərdən keçmiş bütün mədəni dəyərlər indi ərəb dilində ifadə olunurdu.

Romanın Yunanıstanı işğal etməsini bir yunan şairinin çox yerində qiymətləndirdiyi "Məğlub edilmiş Yunanıstan qəzəbli düşməni məftun etdi" timsalından fərqli olaraq ərəb işğalları qəsbkarları belə "əsirliyə" gətirib çıxarmadı. Əksinə, ərəblər öz dillərini başqa xalqlara təlqin etdilər və onlara öz zahiri görünüşlərindən bəzi şeyləri verdilər. Bu ərəblərin yenilməz qüruruna, onların özlərinə əmin olmalarına əsaslanırdı. Həqiqi ərəb köçərisi əmin idi ki, onlar bütün insanlardan üstündürlər. Bu qürurdan bəzi xüsusiyyətlər islama da keçdi, müsəlmanlar öz dinlərini ən yüksək və allaha ən təmiz qaydada itaət etmək forması hesab edirlər.

İspaniyaya və Siciliyaya müdaxilə müsəlmanların bir müddət Qərbi Avropada xristianlarla böyür-böyürə yaşaması demək idi. Bu mədəni əlaqələr üçün şərait yaradırdı. Lakin qonşuluqdan daha çox, müsəlman mədəniyyətinin yayılmasına ticarət sahəsində onların enerjisi və ustalığı daha çox kömək edirdi. Müsəlman sivilizasiyasında ticarət xüsusi yer tuturdu. İslam səhra sakinlərinin və ya kəndlilərin deyil, birinci növbədə ticarətçilərin dini idi. İlk müsəlmanlar səhra bədəviləri deyil, ticarət mərkəzi olan Məkkənin və əkinçilik vahəsi olan Mədinənin sakinləri idi. Səhra isə o yol idi ki, onun köməyi ilə Məkkə tacirləri öz kommersiya əməliyyatlarını aparırdılar, necə ki, dəniz Venetsiya və digər italyan şəhərləri tacirlərinin ticarət yolu idi. Digər tərəfdən bədəvilər istər Məhəmmədin dövründə, istərsə də sonralar nadir hallarda mömin müsəlmanlara çevrilirdilər. İslamın kəndlilərə və onların əmək fəaliyyətinə əhəmiyyət verməməsini, onun on iki səma ayı ilə müəyyən edilən təqvim ayından və 354 gündən ibarət olmasından istifadə etməsi bir daha sübut edir. Beləliklə islam öz sistemini günəş ili ilə ölçməkdən və ilin fəsillərini nəzərə almaqdan imtina etmişdi.

Ticarətin genişlənməsi ərəbləri daha iri dəniz donanmasına malik olmağa məcbur etdi. 800-cü ilə yaxın dövrdə onların donanması Aralıq dənizinin əksər hissəsində üstün mövqedə idi, baxmayaraq ki, bizanslılar Adriatik və Egey dənizlərini öz əllərində saxlayırdılar. Ərəb dəniz quldurları Sardiniyada və Korsikada öz bazalarını yaratmışdılar. Donanma yaratmaq üçün çoxlu meşə materialı və dəmir lazım olduğundan, bu tələbat özü də Avropa ilə ticarəti genişləndirirdi. Bu ticarət sonrakı müstəmləkə ticarətinin xüsusiyyətlərini andırırdı, bircə fərq orasında idi ki, bu vaxt Avropa müstəmləkə şəraitində idi. İstehlak malları

müsəlman dünyasından Avropaya idxal edilirdi, əvəzində isə Avropa xammal və qul ixrac edirdi. Qulların çoxu slavyan bütpərəstlərindən ibarət idi və Avropa dillərində "qul" mənasını verən *"slave"* ifadəsi "slavyan" - *"slav"* sözündən əmələ gəlmişdi. Qul ticarətinin böyük hissəsi İspaniyadan keçirdi, sonra qullar Misirə və Şərqə aparılırdı. Yalnız 11-ci əsrdə slavyanların xristianlığı qəbul etməsi ilə bu mənbə bütünlüklə tükəndi. Dəniz səyahətləri dəniz kompasından istifadəni genişləndirdi, bu vacib cihazın təkmilləşməsində avropalıların və ərəblərin xidməti vardır. Kompasın miladdan əvvəl 3-cü minillikdə çinlilər tərəfindən kəşf edildiyi güman edilirdi, bu da öz növbəsində bir əfsanəyə əsaslanırdı. Elə bu əfsanədə qeyd edilirdi ki, çinlilər əcnəbilərin kompasdan istifadə etdiklərini görmüşdülər. Yəqin ki, bu əcnəbilər ərəblər idi, onlar ərəblər ola bilərdi, çünki çinlilər m.ə. 9-cu əsrdə Fars körfəzində və Qırmızı dənizdə ticarət aparırdılar. Sonrakı dövrlərdə avropalıların kompası ilə müqayisədə çinlilərinkinin pis olduğu məlum olmuşdu. Vasko da Qama isə Hind okeanında gördüyü ərəblərin dəniz üzgüçülüyü sənətində portuqaliyalılardan geri qalmadığı qənaətinə gəlmişdi.

Ərəblər yaxşı dəniz xəritələri düzəldirdilər. Elə buna görə də bir çox ərəb terminləri ingilis dilinə keçmiş, yeni tarixin başlanğıcı dövründə isə dənizçilikdə holland terminologiyası aparıcı yerə çıxmışdı. Avropalılar dünya barədə daha geniş və dəqiq məlumatları ərəblərdən almışdılar. Ərəblər romalılar dövründən İspaniyada qalmış suvarma sistemini Yaxın Şərqdə qazanılmış suyun paylanması və qənaət edilməsi təcrübəsinə əsaslanaraq inkişaf etdirdilər və təkmilləşdirdilər. Buna görə də irriqasiyaya aid bir sıra ispan dilindəki terminlər ərəb mənşəli olmaları ilə seçilir. İspaniyadakı su çarxları da formasına görə Mərakeşdə və Yaxın Şərqdə olanlara bənzəməklə, məhz Yaxın Şərqdə icad edildiyindən xəbər verir.

Müsəlmanlar İspaniyada həm daxili bazar, həm də ixrac üçün məmulat istehsal edən müxtəlif sənətləri inkişaf etdirirdilər. Burada dulusçuluq çox yayılmışdı, Kordobada ilk dəfə billur istehsalının sirri açılmışdı. Müsəlmanların qızıl, gümüş və digər zərgərlik malları Bizans ustalarının hazırladıqları ilə müqayisə oluna bilərdi. Müsəlmanlar İspaniyada Mavritaniya üslubu adlanan memarlıq cərəyanını yaratdılar. Bu üslubda nalabənzər alaqapılardan istifadə olunurdu, mavritan arxitekturası bu fərqləndirici xüsusiyyətini vestqotlardan götürmüşdülər. Ərəblər tikinti texnikasını da xeyli təkmilləşdirmişdilər. Mədinə və Bağdad kimi şərq mərkəzlərinin təsiri altında ərəblər incə zövq formalaşdırmışdılar. Ərəblər bir çox musiqi alətlərini ixtira etmiş və ya təkmilləşdirmişdilər. Ərəblərin İspaniyada nümunə göstərdikləri "gözəl həyatın" mühüm cəhətlərindən biri kitablarla tanışlıq idi. Kitaba sahib olmaq bu sahədə kağızın tətbiqi ilə xeyli asanlaşmışdı. Kağız Çində icad olunmuşdu, lakin 8-ci əsrin ortalarında bir neçə çinli sənətkar ərəblər tərəfindən əsir kimi tutulmuş və kağız hazırlamaqla azadlıqlarını əldə edə bilmişdilər. Kağız Misir papirusundan daha

ucuz olmaqla praktiki tətbiq cəhətincə xeyli sərfəli idi. Xəlifə Harun ər-Rəşidin vəziri Yəhya Barməki 800-cü il ərəfəsində Bağdadda kağız fabrikini tikdirmişdi. Sonra Suriya və Şimali Afrika vasitəsilə kağız qərbdə, o cümlədən İspaniyada yayılmışdı. Bu "gözəl həyat" əsasən şəhərlərdə kök salırdı.

Bütün bu misallar onu deməyə əsas verir ki, Qərbi Avropa Bizans imperiyası ilə əlaqədə olmasına baxmayaraq, bizanslılara nisbətən ərəblərdən daha çox şeyi əxz etmişdilər. Ərəblərdə yunanlardakı kimi qüdrətli düha, elmi təxəyyül qabiliyyəti, fikir orijinallığı, elə entuziazm olmasa da, onlar yunanların bacarıqlı şagirdləri olmaqla yunan elmini davam etdirir, inkişaf etdirir və təkmilləşdirirdilər. Onlar elmdə nəhəng uğurlar qazanmışdılar, yunanlarda olmayan səthi və sferik triqonometriyanın əsasını qoymuşdular. Onlar Avropanı yunan elmi ilə tanış etməkdə, yunanların törəmələri olan bizanslılardan daha çox iştirak etməklə elmlərin gur inkişafına yeni yol açılmasında bəşəriyyətə əvəzsiz xidmət göstərmişdilər.

Ərəblərin ekspansiyası heyrətamiz idi. Onların bu qabiliyyət yolunu təmizləyən cəhətlər də az deyildi. Lakin islam bunları heç də dini səlibçilik yolu ilə əldə etməmişdi. Çünki ərəblər tutduqları ərazilərdə xalqları bütövlüklə müsəlmanlığa döndərməyə meyl etmirdilər və bunda maraqlı deyildilər. Əksinə onlar güman edirdilər ki, dini dəyişməməklə yerli əhali onların hökmranlıq və vergi yığanlar icması olmaları niyyətlərinin həyata keçməsinə köməklik göstərmiş olacaqlar. Bu ekspansiyanın həqiqi motivləri dini xarakter daşımasa da, dini ruh bu işğallarda həlledici rol oynayırdı. Ərəb döyüşçüsü vuruş meydanında xəlifənin göstərişlərinə əməl etməklə Allahın iradəsini icra etdiyini düşünürdü. Bu işğalların əsl səbəbinin mahiyyəti maddi xarakter daşıyırdı, səhradan çıxmış ərəblər daha münbit, məhsuldar torpaqlar və qənimət axtarırdılar. Ərəb döyüşçüsünün atası ümumi tərəqqi sayəsində yeni var-dövləti əldə etməyə asanlıqla nail olsa da, o, bu məqsəddən kənarlaşmaq, yürüşdən qalmaq istəmirdi. İslam öz döyüşçülərini ruhlandırdığı bir şəraitdə onların düşmənləri zəiflik və ruhdan düşmə fazasında qalmaqda davam edirdilər. Bizanslılar və persiyalılar öz aralarında uzun sürən müharibələr nəticəsində taqətdən düşmüşdülər və yeni səyləri bərpa etmək iqtidarında deyildilər. Bundan başqa Persiyanın və Bizansın yerli əhalisi özlərinin bürokratik imperiyalarının ağır maliyyə tələblərindən cana doymaqla bu tələblərə düşmənçilik münasibəti bəsləyirdilər. Həmçinin Suriyadakı və Misirdəki Bizans torpaqları Konstantinopol ortodoksiyası tərəfindən təqib edildiklərindən "dönüklərə" çevrilmişdilər. Ona görə də ərəblərin dini dəyişikliyi tələb etməməsi və imperiyalara nisbətən az vergi yığması onları xoş münasibətlə qarşılamağa gətirib çıxarırdı və yeni hökmdarları onlar köhnələrdən daha yararlı hesab edirdilər. Suriyadan olan bir xristian yazıçısı daha uzağa gedərək yazırdı: "İntiqam Allahı bizi romanların (başqa sözlə Bizans imperiyasının) əlindən alıb ərəblərin əlinə verdi". Bütün bu səbəblərdən islam tezliklə Misirlə İran arasındakı geniş əraziyə yayıldı, sonra isə daha uzaqdakı ərazilərə

gedib çıxdı. Məhz Ömərin dövründə formalaşan ərəb-müsəlman imperiyasının bütün əsas inzibati-hüquqi institutları, xüsusən vergi sistemi quruldu. Müsəlman icmasının sürətlə teokratik dövlətə çevrilməsi özünün rəsmi ifadəsini hicrətin 19-cu ilində Ömərin əlavə "əmir əl-mömin" titulunu qəbul etməsi idi.

Lakin ərəblər öz işğallarını genişləndirəndə özləri də ilk ciddi parçalanmalarla üzləşdilər. 644-cü ildə Ömər öləndə xəlifəlik ona görə zəif olan Osmanın əlinə keçdi. O, Məkkənin varlı klanı olan Ümeyya tayfasının nümayəndəsi olmaqla, bu ailəyə mənsub olan digərlərinin də nöqsanları buraya əlavə olundu. Əvvəllər də onlar Məhəmmədin çağırışını qəbul etməmişdilər. Bu tayfa sonra öz adını Əməvilər sülaləsinə verdi. 656-cı ildə Osman qiyamçılar tərəfindən öldürüldükdə, Osmandan narazı qalanlar artıq Məhəmmədin əmisi oğlu və kürəkəni Əlinin ətrafına yığışmışdılar və onun peyğəmbərlərlə qan qohumluğu və döyüşçü ruhu onu liderliyə daha uyğun gələn edirdi. Əlinin tərəfdarları onu xəlifə elan etdilər, lakin Osmanın güclü ailəsi və onu dəstəkləyənlər Əlini bu vəzifəyə qəbul etmək istəmirdilər. Axı Suriya, İraq, Misir və ya Kirenaika kimi "vilayətləri" olan canişinlər böyük iqtisadi və hərbi potensiala malik idilər, onların hər biri xəlifənin varisi olmağa can atırdı və belə vəziyyət daxili mübarizəni qızışdıran amil rolunu oynayırdı. İddiaçıların çoxluğu əslində ahıl yaşlı və az təşəbbüskar olan Osman kimi bir neytral "fiquranın" tapılmasını tələb edirdi. Həm də Osmanın mərkəzləşdirmə siyasəti uğursuzluqla nəticələndikdə, bu, hakimiyyəti nəinki möhkəmləndirmədi, əksinə gözdən saldı və separatizmi hərtərəfli qaydada gücləndirdi. Xilafət sürətlə bir-birindən uzaqlaşan partiyalar arasındakı vətəndaş müharibəsinə cəlb olunurdu. Bu partiyalar isə bir az əvvəl vahid və sıx birləşmiş olan müsəlman icmasının liderləri ətrafında yarandı.

Osmanın süqutunda mühüm rol oynamış Misir nümayəndələri əvvəlcə Əlini xəlifə kimi müdafiə etdilər. Bir az tərəddüddən sonra onlara müqəddəs şəhərlər olan Məkkə və Mədinə, axırıncılarla birlikdə İraq da qoşuldu. Lakin Suriya canişini, həlak olmuş Osmanın əmisi oğlu Müaviyə, Məhəmmədin digər silahdaşları, həm də Peyğəmbərin nüfuzlu dul qadını Aişə şəxsi-qərəzliyinə görə Əlinin xəlifə vəzifəsinə namizədliyini müdafiə etməkdən imtina etdilər. Hakimiyyət uğrunda kəskin mübarizə müsəlmanların Əli tərəfdarlarına - şiələrə və onun əleyhdarları olan sünnülərə bölünməsinin başlanğıcını qoydu. Bu mübarizə uzunmüddətli xarakter aldı və dəyişilən uğurla getdi.

İlk dövrlərdə - 656-cı ildə Əli "dəvə döyüşü" adlanan Bəsrə yaxınlığındakı vuruşda ona müxalif olan Talka və əz-Zübeyrin az saylı və pis təşkil olunmuş qoşununu darmadağın etməklə üstünlük qazandı. Lakin varlı Suriyanın hökmranı Müaviyə qalırdı, o, Əlinin Ərəbistandakı qüvvə və vasitələrindən xeyli güclü olan hərbi və iqtisadi potensiala malik idi. Bu vaxt Əli öz iqamətgahını İraqdakı Kufəyə köçürdü və öz əleyhdarı ilə mübarizəyə hazırlaşmağa başladı. 657-ci ildə böyük döyüş baş verdi. Rəvayətə görə vuruşun özləri üçün ağır anında Müaviyənin döyüşçüləri nizələrinin ucuna Quranın vərəqlərini keçirdi-

lər və bununla bildirmək istədilər ki, müsəlmanların müqəddəs kitabının göstərişlərinə uyğun olaraq onlar sülh təklif edirlər. Bu hiyləgərliyə aldanan və işin münsiflər məhkəməsinə verilməsi ilə razılaşan Əli qələbəni əldən buraxdı. Məhkəmə Əlinin vəzifədən salınması ilə razılaşdı. Həm də Əlinin döyüşü dayandırmaq qərarı ilə razılaşmayan döyüşçülərin böyük bir hissəsi (4 mindən 12 min adama qədər) onun düşərgəsini tərk etmişdilər. Ümumiyyətlə, Əli tarixə erkən islamın ən faciəli və ən ziddiyyətli fiqurlarından biri kimi daxil olmuşdur. Əlinin Ələvilər adlanan nəsli öz başlanğıcını onun çox sayda olan uşaqlarından götürür. O, islam yolunda böyük igidliklər göstərmiş, bir sıra hallarda öz qəhrəmanlığı hesabına döyüşün nəticəsinin uğurlu olmasına nail olmuşdu. Lakin belə igid və təcrübəli adam Müaviyəyə qarşı silahlı mübarizədə təşəbbüsü əldən vermişdi və 661-ci ildə Kufə məscidinə daxil olanda Xaricilər cərəyanına (öz cəbhəsindən ayrılanlar) mənsub olan bir döyüşçü tərəfindən qılıncla ölümcül yaralandı və aldığı yaradan tezliklə öldü.

Əlinin arvadı, Məhəmmədin qızı Fatimədən Peyğəmbərin bütün nəsli öz başlanğıcını götürür. Şiə İsmailit sülaləsi olan və 10-cu -12-ci əsrlərdə Misirdə və Şimali Afrikada hökmranlıq etmiş Fatimilər sülaləsi də öz mənbəyini Fatimədən götürdüyünü xüsusi qürurla qeyd edirdi. Əli və Fatimənin övladları olan Həsən və Hüseynin də həyatı faciəli surətdə sona çatdı. Atası öldürüldükdən sonra Həsən 661-ci ildə İraqda xəlifə elan edildi. Buradakı Əli tərəfdarları Həsəni suriyalılarla mübarizəni bərpa etməyə təhrik etdi, lakin Həsən xəlifə Müaviyə ilə danışıqlar aparmağa can atırdı. Ali hakimiyyət iddiasından imtina etmək üçün o, Müaviyədən pul kompensasiyası istədi. Bu təklif qəbul olunduqda Həsən İraqı tərk etməyə məcbur oldu. Müaviyə üçün o, artıq heç bir siyasi təhlükə hesab oluna bilməzdi. 669-cu ildə o, öləndə şiələr bu zəhərlənmə hadisəsinin günahını Müaviyənin üstünə atdılar və Həsən "böyük şəhidə" çevrildi. Kiçik qardaş Hüseyn bu vaxt Ələvi nəslinin başçısı oldu. 680-ci ildə xəlifə Müaviyə öldükdən sonra Əməvilər əleyhinə müxalifət fəallaşdıqda, Kufə şiələri Hüseyni xəlifə Yezidə qarşı üsyana başçılıq etməyə dəvət etdilər. Bu çağırışa görə Hüseyn kiçik dəstə ilə Məkkədən yola düşdü və Kufə canişininin qüvvələri ilə üz-üzə gəldi. Kufə yaxınlığındakı Susuz Kərbəla deyilən yerdə Hüseyn 70 döyüşçüsü ilə düşərgə saldı və xəlifənin 4 min nəfərlik ordusu onun üstünə gəldi. Qeyri-bərabər döyüşdə Hüseyn həlak oldu və o, "ən böyük şəhid" adlandırıldı.

Əməvilər sülaləsinin 661-ci ildəki zəfəri ilə xilafət tarixinin daha qaydalı olan dövrü başladı və bu 945-ci ilə qədər davam etdi. Bu müddət ərzində iki başlıca idarəçilik istiqaməti mövcud idi, bunlardan biri Əməvilərin hökmranlığı idi, digərini isə onları əvəz edən Abbasilər təmsil edirdi. Əməvilər öz qüvvələrini Suriyadakı köhnə Bizans ərazilərində cəmləşdirmişdilər və öz inzibatçılıqlarında müsəlman olmayan yerli vəzifəlilərdən istifadə etməkdə davam edirdilər. Bu səbəbdən Əməvi xilafəti Bizansın varis dövləti kimi nəzərə çarpırdı.

Özlərinin daha çox Qərb orientasiyası ilə Əməvilər öz enerjilərini Aralıq dənizində ağalıq etməyə və Konstantinopolu işğal etməyə yönəltmişdilər. 717-ci ildə onların Bizans paytaxtına kütləvi hücumu uğursuzluqla başa çatanda Əməvilərin gücü ciddi surətdə zəiflədi. Bu yalnız yeni orientasiyanın inkişaf etməsindən əvvəlki dövrün məsələsi olaraq qaldı.

750-ci ildə isə yeni, Abbasilər sülaləsi hakimiyyəti öz əlinə aldı. Onların hökmranlığı Bizans elementlərinə nisbətən daha çox Persiya təsirinə məruz qalmışdı. Bu dəyişikliyin xarakterik xüsusiyyəti paytaxtın dəyişdirilməsində öz əksini tapdı. İkinci Abbasi xəlifəsi öz yeni paytaxtını İraqda, Persiyanın köhnə paytaxtının xarabalıqlarının yaxınlığında tikilən Bağdadı etdi. Tikinti işlərində hətta xarabalıqlardan müsadirə edilmiş daşlardan istifadə olunmuşdu. Abbasilər öz müsəlman inzibatçılıqlarını inkişaf etdirdilər və Persiya mütləqiyyətini təqlid etməyə başladılar. Abbasi xəlifələri öz düşmənləri ilə qəddarlıqla davranırdılar, özlərini zərif saray mərasimləri ilə əhatə etmişdilər, pozğun ədəbiyyata əliaçıqlıqla himayəçilik edirdilər. Onların dünyası Abbasilərin dövründə Bağdadda yazılmış parlaq əhvalatlar toplumu olan "Min bir gecə" nağıllarında təsvir olunmuşdur. Bu əhvalatların aparıcı qəhrəmanı olan Harun ər-Rəşid həqiqətən də 786-cı ildən 809-cu ilə qədər xəlifə kimi hökmranlıq etmiş, nağıllarda təsvir olunduğu kimi özünü qeyri-adi qaydada apararmış, küçələrdə sikkələr səpərmiş, öz favoritlərinə qiymətli hədiyyələr verərmiş və öz düşmənlərini sərt qaydada cəzalandırarmış. Qərblilər Abbasi xilafətinə bu əfsanələrə görə deyil, Aralıq dənizi ətrafına təzyiq göstərdiyinə görə diqqət göstərirdilər. Bizans imperiyası sağalıb ayağa qalxa bilmişdi, uzaq Qərbdə isə franklar öz qüvvələrini inkişaf etdirməyə başlamışdılar. Məşhur frank hökmdarı, Qərbin imperatoru Böyük Karl Harun ər-Rəşid xilafəti ilə diplomatik əlaqələr yaratmışdı. Xəlifə onun xahişini nəzərə alaraq özünün yeganə filini də ona hədiyyə kimi göndərmişdi.

10-cu əsrdə Abbasilərin qüdrəti tənəzzül etməyə başlayanda mərkəzləşmənin dağılması və ya desentralizasiya dövrü daha da genişləndi. Abbasilərin zəifləməsinin başlıca səbəbi onların əsas iqtisadi bazalarının tədricən yoxsullaşması idi. Bu da Dəclə-Fərat hövzəsindəki kənd təsərrüfat istehsalının tənəzzülü ilə əlaqədar idi. Bu tənəzzül sonrakı Abbasilərin özlərini türk sərkərdələri ilə əhatə etməyə keçdikdə daha da artdı. Türklər tezliklə belə qənaətə gəldilər ki, onlar dövlətdə əsl hakimiyyəti əllərinə ala bilərlər. 945-ci ildə şiə tayfası Bağdadı tutanda Abbasi imperiyası parçalandı. Ondan sonra Abbasilər gücsüz marionetlərə çevrildilər, bu vəziyyət xilafətin tam dağılması və 1258-ci ildə monqollar tərəfindən məhv edilməsinə qədər davam etdi. 945-ci ildən başlayaraq 16-cı əsrə qədər islam siyasi həyatı yerliçiliklə əlamətdar oldu, müxtəlif kiçik hökmdarlar, onların da əksəriyyətini türklər təşkil edirdi, müxtəlif ərazilərdə hakim mövqeyi ələ alırdılar. Bu belə bir fikir yaradırdı ki, desentralizasiya da artıq çürümüşdür, lakin əslində islam sivilizasiyası "orta dövrdə" güclü surətdə inkişaf edirdi.

Hər şeydən əvvəl, 900-cü illə 1250-ci il arasında islam hökmranlığı indiki Türkiyə və Hindistan ərazisinə də yayıldı. Sonralar yeni islam imperiyaları yarandı, onlardan ən aparıcı olanlardan biri Osmanlı türklərinin Qərbdə yaratdığı imperiya idi ki, Şərqi Avropanın və Yaxın Şərqin çox hissəsinə 15-ci əsrdən başlayaraq 1918-ci ilə qədər nəzarət etdi. Ona görə də guya Harun ər-Rəşidin hökmranlığından keçən qısa müddətdən sonra islam tarixinin aşağı düşməsi və yıxılması heç bir dəlilə və sağlam məntiqə əsaslanmır. Xilafətlər dəyişirdi, süqut edirdi, lakin islam dünyası bütövlükdə öz mahiyyətini və möhtəşəmliyini qoruyub saxlayırdı, siyasi kataklizmlərdən asılı olmayaraq bu sivilizasiya geriyə doğru addım atmaqdan uzaq idi.

Ən maraqlı cəhət orasında idi ki, islam sivilizasiyası yaranandan sonrakı xeyli müddət ərzində Məhəmmədin dövründən ən azı 1500-cü ilə qədər islam mədəniyyəti və cəmiyyəti qeyri-adi dərəcədə kosmopolit xarakterli və dinamik idi. Axı Məhəmməd özü də səhra ərəbi, bədəvi deyildi, şəhər sakini olmaqla yanaşı, tacir olmaqla irəli çıxmış ideyaların təsirinə məruz qalmışdı. Ümumiyyətlə din köçəri xalqlar içərisində yaranmır, ilk dəfə iri icması olan şəhərlərdə meydana gəlir və buradan da əlverişli yayılma imkanlarına malik olur. Köçəri xalq əgər özünə ev tikmirdisə, şəhər salmaq onun təbiətinə yad idisə, o necə məbəd tikmək barədə düşünə bilərdi. Köçərilər təbiətin uşaqları olduğundan hansısa məbəddənsə təbiətin özünə, onun ayrı-ayrı hissələrinə daha çox sitayiş edirdilər. Ona görə də Məhəmmədin belə bir şəhərin sakini olması və Məkkənin iri ticarət yollarının üstündə mövcudluğu dünyagörüşün üfüqlərinin genişlənməsinə, tək öz tayfasının içində deyil, ətraf şəhərlərdə, hətta ölkələrdə baş verən hadisələrdən, ruhi xarakterli cərəyanlardan xəbər tutmağa, onları dərk və təhlil etməyə şərait yaradırdı.

Şəhər sakini səhralarda məskən tapmış bədəvidən fərqli olaraq özünə qapılıb qalmırdı, nəzərlərini müxtəlif, bəzən ona tanış olmayan insanlara və maraqlı hadisələrə dikməyə məhkum idi. Bunu şəhərin havası, onun yaratdığı və daim yeniliyə can atan mühiti tələb edirdi. Bədəvi ərəb yalnız özünün, ailəsinin və dəvəsinin, mal-qarasının həyatı barədə düşündüyü halda, şəhər sakini düşüncələrində sərhədləri aşmaq, yad xalqlarla real həyatda olduğu kimi ünsiyyətdə olmaq imkanına malik olurdu və onun şüuru tayfa, qəbilə həyatının hüdudlarından kənara çıxıb bütün oykumenanın taleyi barədə düşünməyə girişirdi. Belə şüur daim maraqlanan və axtaran olduğundan öz istəklərinə uyğun olan yad və özgə sayılanları da qəbul və təhlil edib özününküləşdirir və doğmalaşdırırdı. Şəhər sakini gördükləri və eşitdikləri müqabilində özündə yeni qabiliyyət aşkar edirdi, o, təkcə təbiət hadisələrini deyil, cəmiyyətdə baş verənləri də dərk etməyə, anlamağa, təhlil və izah etməyə çalışırdı. Bu onun əqli inkişafını xeyli sürətləndirirdi və beyin, şüur taxçasında təkcə tayfanın məhdud tarixi və həyatı deyil, həm də digər xalqların və ən azı yaxın ölkələrin hadisələri özünə yer tapa bilirdi. Bu isə geniş əqli və mədəni inkişafa yol açırdı.

Bütün bu müddəaları əsas götürdükdə, barama futlyarının divarlarına bənzər öz xırda qılafından çıxıb başqa meridianlarda da dolaşan müsəlman mədəniyyəti bu təsirlər altında nəticə etibarilə kosmopolit olmalı idi. Bunun bir neçə əsas səbəbi vardır. Bu mədəniyyət Bizansın və Persiyanın sofistikasını irs kimi götürmüşdü, Uzaq Şərqlə Qərb arasındakı uzun məsafəli ticarətin yol kəsişməsinin mərkəzində qalırdı və çiçəklənən şəhər həyatı müsəlman ərazilərinin əksəriyyətində kənd təsərrüfatı ilə əks tarazlıq yaradırdı. Ticarətin əhəmiyyəti coğrafi hərəkətlilik, mobillik yaradırdı. Məhəmmədin təlimi getdikcə sosial mobilliyi təqdir edirdi, çünki Quran istisnasız olaraq bütün müsəlmanlara təzyiq göstərirdi. Bunun nəticəsi o oldu ki, Bağdad sarayında və sonrakı desentralizasiya olunmuş müsəlman dövlətlərində istedadlı olan adamların qulluq vəzifələrini tutması üçün geniş imkan yarandı, çünki vəzifəyə yiyələnmək üçün birinci yerə bacarıq, səriştə qoyulurdu. Bu dövrdə savadlılıq çox geniş yayılmışdı. Təqribi hesablamalara görə 1000-ci il ətrafında kişi cinsindən olan bütün müsəlmanların 20 faizi təhsillə əhatə olunmuşdu. Qulluq vəzifələri nadir hallarda irsi qaydada verilirdi və "yeni adam" işin və əqli fəaliyyətin zirvəsinə qalxa bilərdi.

Müsəlmanlar həm də digər dinlərə heyrət edilən dərəcədə dözümlü idilər. Onlar nadir hallarda güclə dini dəyişdirməyə əl atırdılar, həm də öz dövlətlərində ümumən yəhudilərin və xristianların yerləşməsinə icazə verirdilər. Bu adamlara onlar kitab əhli kimi baxırdılar, çünki Bibliyanı Quranın müjdəçisi hesab edirdilər. Dözümlülüyü bu fakt da bir daha təsdiq edir ki, erkən xəlifələr xristianları öz baş katibliklərində işlədirdilər. Əməvi xəlifələri ərəb dilində şeir yazan xristianlara himayəçilik edirdilər. Müsəlman İspaniyası qədim dövrlə müasir dövrün arasında yəhudi mədəniyyətinin çiçəklənməsini görmüşdü. Bu mədəniyyətin görkəmli nümayəndələrindən biri Moisey Maymonid (1135-1204-cü illər) idi, bu dərin dini mütəfəkkir bəzi hallarda "ikinci Moisey" adlanır və öz əsərlərini həm yəhudi, həm də ərəb dillərində yazırdı.

Ərəblər həm də özündə bu münasibəti tərbiyə etdiyinə görə lap əvvəlki kontaktlarına çox borclu idi. 7-ci əsrdə ərəblər İraqı, Suriyanı və Misiri işğal edəndə müxtəlif elmi mərkəzlərdə Bizansın izi kimi yunan elmini və fəlsəfəsini öyrənirdilər. Misirdəki məşhur Aleksandriya məktəbi əvvəlcə Suriyaya köçürülmüş, sonra isə 900-cü ilə yaxın Bağdadda qərar tutmuşdu. Bu məktəbin nümayəndələri xristianlar olsa da, fəlsəfi diskussiyalarda geniş iştirak edirdilər. Yunan elminin hansı xəzinəyə sahib olduğunu anlayan xəlifələr və digər müsəlman rəhbərləri mühüm əsərlərin suriyalıların dilindən ərəb dilinə tərcümə edilməsini təşkil etdilər. Tərcüməçilərin əsas işi xəlifə əl-Mamunun (813-833-cü illər) dövründə başlanmışdı. O, bunun üçün "Müdriklik evi" - *"Beyt ül-hikmə"* adlı xüsusi müəssisə yaratmışdı. İlk tərcümələr suriyalıların dilindən edilirdi, çünki böyük miqdarda yunan əsərləri artıq Suriya dilində danışan xristianlar üçün bu dilə tərcümə edilmişdi. Bir qədər sonra isə birbaşa yunan dilindən ərəb dilinə tərcümələ-

rə keçildi. Yeganə çətinlik onda idi ki, 9-cu əsrdə tərcüməçilər bu şəraitlə qarşılaşırdılar ki, hələ tərcümə etdikləri mövzulara aid ərəb dilində heç bir orijinal əsər mövcud deyildi. Tədricən dəqiq elmlər, məntiq və metafizikaya dair müstəqil ərəb əsərləri yaranmağa başladı, terminologiya inkişaf etdirildi.

Müsəlman bərabərliyinin və dözümlülüyünün başlıca müstəsna cəhəti qadınlarla davranmaq xüsusiyyəti idi. Sosial status ötüb keçən olduğundan uğurlu adamlar öz mövqelərini və "şərəflərini" saxlamağa və yüksəltməyə çalışırdılar. Onlar buna öz əmlaklarını qoruyub saxlamaq və artırmaqla nail ola bilərdilər. Bu kateqoriyaya qadın da daxil idi. Kişi üçün qadın onun statusuna görə "çox qiymətli" idi, ona görə də qadına qarşı zorakılığa yol verilmirdi. Quran kişiyə dörd arvad almağa icazə verirdi, beləliklə qadın nominal qiymətindən yuxarı idi və kim ərə gedirdisə digər kişilərdən ayrı düşürdü. Görkəmli adam həmçinin bir neçə qadın qulluqçuya və kənizə malik ola bilərdi və bütün bu qadınları hərəmxana adlanan öz iqamətgahının bir hissəsində saxlamalı idi. Baxmayaraq ki, iri hərəmxanalar yalnız varlı adamlar tərəfindən saxlana bilərdi, bu sistemin tətbiqini mümkün olduqca bütün siniflər təqlid edirdilər. Hərəmxanalarda qadınları yevnuxlar-xədimlər (xacələr), başqa sözlə kişi orqanından məhrum edilmişlər qoruyurdular. Yuxarı siniflərin cəmiyyətlərində kişi homoseksual əlaqələrə dözürdülər. Bu əlaqələr də asılılıq münasibətlərinə əsaslanırdı, adətən qüdrətli yaşlı adam gənc oğlan üzərində ağalıq edirdi.

Dini həyata özünü həsr etməyin iki başlıca yolu mövcud idi. Bunlardan biri üləma olmaq idi, bu adam oxumuş olmaqla din xadimlərinə yaxın səviyyədə dayanırdı. Onların işi dinin bütün aspektlərini və dini qanunları öyrənib onlar barədə adamlara məsləhət vermək idi. Onlar adətən ənənələri müdafiə edir və inamı ciddi qaydada qoruyurdular və çox vaxt onlar ictimai həyatdakı davranışa böyük təsir göstərirdilər. Onları tamamlayan sufilər idi. Dini mistiklər olan bu adamları xristian rahibləri ilə müqayisə etmək olardı, lakin onlar bir qayda olaraq tselibata - nikaha girməməyə riayət etmirdilər və nadir hallarda icmanın həyatından kənara çəkilirdilər. Sufilər düşüncələrə dalmağa və ekstaza girməyə meyl edirdilər, ülәmalar isə əsas diqqəti dini qanunlara verirdilər, onlar heç bir ümumi proqrama malik deyildilər və praktiki sahədə özlərini müxtəlif qaydada aparırdılar. Sufilərin bəziləri fırlanan dərvişlər idi, Türkiyədə böyük mütəfəkkir, 13-cü əsrdə Konyada yaşamış Cəlaləddin Ruminin yaratdığı bu sekta onun adı ilə adlandığından onlar "mövlanə dərvişləri" kimi öz rəqsləri ilə məşhur olmuşdular. Digərləri isə fakirlər idi, bazar meydanlarında ilanı cadulamaqla məşğul olmaqla öz cəmiyyətlərini yaradırdılar. Digərləri isə meditasiyaya dalmağı sevən adamlar idi. Onlar ekzotik ibadətlər edirdilər. Sufilər Qərbdə orta əsrlərdə meydana çıxan masonlar - "daş hörənlər" kimi adətən "qardaşlıqlar"da birləşirdilər, Afrika və Hindistana qədər uzaq ərazilərə yayılmışdılar. İslam dünyasının hər yerində sufizm daha intensiv dini ilham üçün özünə yol tapırdı. Üləma və sufilərin birgə mövcudluğu, yan-yana yaşaması islam mədə-

ni plyuralizminin gözəl əlamətlərindən biri idi.

Daha əlamətdar fakt isə ondan ibarət idi ki, bu iki qrup özü də digər dünya baxışa malik olanların təmsilçiləri, tələbələr, fəlsəfə və elm adamları ilə bir yerdə mövcud idi, onlarla yan-yana yaşayırdılar. İslam filosofları ərəb dilində faylasuflar adlanırdılar, çünki onlar özlərini yunanların filosofiya adlandırdıqları elmi öyrənməyə həsr edirdilər. İslam fəlsəfəsi erkən yunan fikrinin öyrənilməsinə əsaslanırdı, hər şeydən çox isə onlar diqqəti Aristotel və neoplatonizm qolunun fəlsəfəsinə verirdilər. Afinada fəlsəfi məktəblər imperator Yustinianın göstərişi əsasında bağlanan bir vaxtda yunan filosofları şərqə yollandılar və Aristotelin, digər filosofların əsərləri suriyalıların dilinin semit dialektinə tərcümə olundu. Bu vaxtdan yunan fəlsəfəsi tədricən islam həyatına daxil olmağa və faylasuf təbəqəsi tərəfindən istifadə edilməyə, işlənməyə başladı. Onlar inanırdılar ki, kainat rasionaldır və həyata fəlsəfi yanaşma yüksək dərəcədə allah tərəfindən verilən vergidir. Faylasufların Aristoteli dərindən bilməyi, misal üçün, ondan görünür ki, həqiqətən Əbu Əli ibn-Sina (1037-ci ildə vəfat etmişdir) ən böyük faylasuflardan biri olmaqla Mərkəzi Asiyanın Buxara şəhərində hələ 18 yaşına çatmayanda praktiki olaraq Aristotelin bütün əsərlərini artıq oxumuşdu. Ərəblər böyük yunan filosoflarının dühasına əslində pərəstiş etdiklərindən onları özününküləşdirmişdilər, Şərqdə ərəblərdən götürülərək Aristotel və Platon bu adlar altında deyil, daha çox ərəbləşdirilmiş Ərəstun və Əflatun kimi məşhur idilər.

Faylasufların rastlaşdığı ən ciddi problem yunan fəlsəfəsini islam dini ilə barışdırmaq idi. Çünki onlar islam təliminə müxalif olan inamda yunan mənbələrinin arxasınca gedirdilər, bu inama görə dünya əbədi idi və fərdi ruh üçün heç bir ölməzlik yoxdur. Müxtəlif faylasuflar bu problemə müxtəlif qaydada yanaşırdılar. Üç böyük filosofdan biri olan və əsasən Bağdadda yaşayan əl-Fərabi (950-ci ildə vəfat etmişdir) bu fikirlərlə daha az razılaşırdı. O, düşünürdü ki, maariflənmiş, təhsil görmüş yüksək zümrə kütləsinin ümumi inamı ilə bağlı olmaqla öz yolundan fəlsəfi qaydada azdırılması güman edilə bilər. Hətta o, heç vaxt bu inamlara qarşı çıxmırdı, güman edirdi ki, onlar cəmiyyəti birlikdə saxlamaq üçün vacibdirlər.

Əl-Fərabidən fərqli olaraq Əbu Əli ibn-Sina və ya Avitsenna daha Uzaq Şərqdə fəaliyyət göstərməklə bir çox cəhətlərdən sufi mistitsizminə yaxın olan rasionalist fəlsəfəni öyrədirdi. Belə bir əhvalat qalmışdır ki, Avitsenna sufilər haqqında demişdi: "bütün mən bildiklərimi, o, görür", bu vaxt sufi ona belə cavab vermişdi: "bütün mən gördüklərimi, o, bilir". Axırda İspaniyadakı Kordobadan olan ibn-Rüşd və ya Averroes (1126-1198-ci illər) bütünlüklə Aristotel qaydasında yaşayırdı, iki həyat sürürdü, özəl həyatda o, müstəsna dərəcədə rasionalist idi, ictimai həyatda isə rəsmi dinə inanırdı və hətta rəsmi senzor kimi fəaliyyət göstərirdi. Averroes axırıncı həqiqi böyük islam filosofu idi, onun ölümündən sonra onun rasionalizmi sufizmə qarışmışdı, Avitsennanın qoyduğu

yolla gedirdi, yaxud da dini ortodoksiya tərəfindən o qədər məhdudlaşdırılmışdı ki, müstəqil mövcudluğa başlamışdı. Lakin bu da bir həqiqətdir ki, 850-ci illə 1200-cü illər arasında islam fəlsəfəsi çox irəli getmişdi və Bizansda və ya Qərb xristian səltənətlərində nə vaxtsa rast gəlinəndən daha çox sofistika ilə məşğul olurdu.

İslam faylasufları tənəzzülə uğramamışdan əvvəl təbiət elmlərini öyrənməkdə xüsusilə fərqlənmişdilər. Onlar fəlsəfi düşüncələrə dalmaqla yanaşı, bu işi görürdülər. Adətən eyni adamlar həm filosof idi və həm də alim, çünki onlar təkcə Aristoteli izah etməklə özlərinə maddi güzəran düzəldə bilmirdilər. Bu elmi öyrətmək üçün heç bir universitet yox idi. Universitetlər yalnız tətbiqi elmlər üzrə mütəxəssislər hazırlayırdılar. Ona görə də onlar astrologiya və təbabətlə məşğul olmaqla var-dövlət və qüdrət mövqeyinə yüksəlirdilər. Bizim dövrümüzdə elmdən çox xurafat kimi görünən astrologiya müsəlmanlar arasında astronomik müşahidələrlə yaxından bağlı olan "tətbiqi elm" hesab olunurdu. İslam astroloqları göy cisimlərinin hərəkətini dəqiq qaydada öyrənib onu əvvəlcədən xəbər verə bilirdilər. Onlar bu cəhdlərini bəşər hadisələrinin gedişini təyin etmək sahəsindəki öz bilikləri üçün istifadə edirdilər, bu yolla xüsusən varlı himayəçilərinin bəxtini müəyyən edirdilər. Göy cisimlərinin hərəkətini hesablamaqla məşğul olanda müsəlman Yerin öz oxu ətrafında və Günəşin ətrafında fırlanmasının mümkünlüyü qənaətinə gəlmişdi. Lakin bu nəzəriyyələr qəbul olunmurdu, çünki dövri planetar orbitləri barədəki qədim konsepsiyalara uyğun gəlmirdi. Bu heç də müsəlman astroloqlarının sonralar Qərbə təsir göstərməsi kimi mülahizələrə əsas vermir, lakin onların müstəsna dərəcədə irəli gedən müşahidələri və əvvəlcədən göy cisimlərinin hərəkətini xəbər verən cədvəlləri çox vaxt yunanların ən qiymətli əsərlərində təsvir olunanlardan uzağa getmiş olurdu.

Astronomiya həmin dövrdə praktiki elm hesab olunurdu, hər şeydən əvvəl ona görə ki, astrologiyaya inam çox böyük idi, digər tərəfdən bu elm Məkkənin istiqamətini öyrənməyə imkan verirdi, bu isə namaz qılmaq üçün vacib idi. İraqda astronomiya ərəb istilasından hələ bir əsr əvvəl mövcud idi, bu elm bir qədər yunan astronomiyasına, xüsusən Ptolomeyin əsərlərinə, digər tərəfdən isə hind astronomiyasına əsaslanırdı. Ərəblər astronomiya ilə maraqlandıqda yunan, Suriya dillərindən olduğu kimi sanskritdən və pəhləvi dilindən tərcümələr edilməyə başlandı. Ərəb astronomları güman edirdilər ki, Yer hərəkətsizdir. Onun ətrafında səkkiz dövrə mövcuddur və onlarda günəş, ay, beş planet və hərəkətsiz ulduzlar dayanır. Sonralar ərəblər Ptolomey sisteminin zəifliyinə əmin olduqdan sonra onu tənqid etməyə başladılar, lakin əvəzində elə bir ciddi şey təklif etmədilər. Astronomiya sahəsindəki işlərin çoxu nəzəriyyə məsələlərinə aid deyildi, ümumi şəkildə *"zic"* adlanan astronomik cədvəllərin tərtibinə başlıca diqqət yönəldilmişdi. Belə cədvəllərin toplumu çox idi. Onlar öz başlanğıclarını hind, pers və yunan mənbələrindən götürürdü. Onların arasındakı uyğunsuzluq ərəbləri şəfəq saçan ulduzların daha dəqiq müşahidələrini apar-

mağa sövq edirdi. 900-cü ilə yaxın əl-Bəttaninin tərtib etdiyi cədvəllər daha dəqiqliyi ilə seçilirdi. Onun Günəşin batması sahəsindəki çox diqqətli müşahidələri 18-ci əsrə qədər istifadə edilmişdi.

Tibb elminə gəldikdə ərəblər İraqı işğal etdikdə burada gözəl təşkil edilmiş səhiyyə xidmətini gördülər. Burada təbabət əsasən Qalenin nəzəriyyəsinə əsaslanırdı, məşğələlər məktəbin yanındakı təhsil xəstəxanasındakı praktika ilə müşayiət olunurdu. Öyrədilən fənnlərin sırasına "yunan elmi" və fəlsəfə də daxil idi. Müsəlmanlar öz məktəblərini açanda fənnlərin belə birliyini saxlayırdılar. Avitsenna ən böyük müsəlman filosofu olduğu kimi, həm də görkəmli həkim idi. Averroes isə filosof kimi Avitsennaya demək olar ki, bərabər olsa da, həm də həkim kimi mühakimə aparırdı və bir neçə tibbi əsərin də müəllifi idi.

Ərəblər özləri 800-cü ilə yaxın Bağdadda xəstəxana təşkil etdilər. Onun açılması təşəbbüsü xəlifə Harun ər-Rəşidə mənsub idi. 10-cu əsrin birinci rübündə isə Bağdadda əlavə dörd xəstəxana açılmışdı. Onların əsasını qoyanlar vəzirlər kimi varlı adamlar idi, onlar bu xəstəxanalara böyük məbləğdə pul xərcləyirdilər. Müalicə müəssisələrindən gələn gəlir isə işçilərin maaşına sərf olunurdu. 13-cü əsrdə Qahirədə köhnə sarayda açılan Mənsuri xəstəxanasında səkkiz min çarpayı və gözəl vasitələr var idi. Burada həm kişi və həm də qadın şöbələri var idi, qızdırma, göz xəstəlikləri, mədə-bağırsaq və cərrahi əməliyyat tələb edən xəstəliklər müalicə olunurdu. Qalenin və Hippokratın əsas əsərləri ərəblərə tanış idi, xristianlar təbabət üzərindəki inhisarı itirmişdilər. Təkcə ər-Razinin 50-dən artıq əsəri gəlib bizim dövrə çıxmışdır. Onlardan daha məşhur olan "Çiçək və qızılca haqqında traktat" əsas Avropa xalqlarının və latın dilinə tərcümə olunmuşdu. Onun ən böyük əsəri olan *"Əl-Xavi"* - "Hər şeyi əhatə edən kitab" həmin dövrün tibb biliklərinin ensiklopediyası olmaqla, ölümündən sonra onun şagirdləri tərəfindən tamamlanmışdı. Onun "insani koloritə" aid olan kiçik əsərlərinin adları təbabətin prinsiplərini sadə şəkildə izah edir: "Hətta məharətli həkim bütün xəstəlikləri müalicə edə bilmir" və ya "Niyə qorxudulmuş xəstə hətta məharətli həkimdən də qaçır" və s. Ər-Razidən bir əsr sonra yaşayıb-yaratmış Avitsennanın "Təbib elmi kanonu" isə ərəb sistemləşdirməsinin yüksək nailiyyəti, incisi idi.

Təbabətdə islam alimlərinin nailiyyətləri olduqca böyük idi. Faylasuflar həkimlər kimi xidmət etdiklərindən ellinistik eranın tibb əsərlərində olan bilikləri yaxşı mənimsəmişdilər. Lakin onlarla nadir hallarda kifayətlənirdilər. Avitsenna vərəmin yoluxucu təbiətini kəşf etmişdi, plevriti və bir sıra fərqli əsəb qidalanmalarını təsvir etmiş və bu qənaətə gəlmişdi ki, xəstəlik suyun və torpağın çirklənməsi vasitəsilə də yayıla bilər. Onun "Kanon" adlanan əsas tibb əsəri 17-ci əsrə qədər Avropada böyük nüfuza malik idi.

Avitsennanın yaşlı müasiri Əbu Bəkr ər-Razi (865-925-ci illər) orta əsrlər dünyasının ən böyük klinik həkimi idi. Onun başlıca nailiyyəti qızılca ilə çiçək arasındakı fərqi kəşf etməsi idi. Digər islam təbibləri müalicə məqsədilə dağla-

ma və qan alma vasitələrinin faydasını kəşf etmişdilər, mədə xərçənginin diaqnozunu müəyyən etmişdilər, zəhərlənmə hadisələri vaxtı əks olan vasitələri təsvir etmişdilər və göz xəstəliklərinin müalicəsində nəzərə çarpan uğurlar qazanmışdılar. Üstəlik onlar bubon taununun yoluxucu xarakter daşıdığını müəyyən etmişdilər və onu da qeyd etmişdilər ki, bu xəstəlik paltar vasitəsi ilə də keçə bilər. Nəticədə müsəlmanlar xəstəxanaların təşkilində və tibbi təcrübəyə nəzarətdə orta əsrlərdəki bütün xalqlardan üstün mövqeyə çıxdılar. Persiyanın, Suriyanın və Misirin əsas şəhərlərində yerləşən ən azı 34 xəstəxana var idi ki, onların hamısı təəccüblü şəkildə müasir xəstəxanalara xas olan qaydada təşkil olunmuşdu. Hər birinin xüsusi xəstəlik üçün palataları, apteki və kitabxanası var idi. Baş həkimlər və cərrahlar tələbələrə və digər həkimlərə mühazirələr oxuyur, onlardan imtahan götürür, həkim təcrübəsi ilə məşğul olmaq üçün lisenziyalar verirdilər. Hətta əksər hallarda həm də bərbər olan zəli sahibləri müntəzəm vaxtlarda onları təftiş etmək üçün bu baş həkimlərə və cərrahlara tabe olmalı idilər.

İslama məxsus olan digər böyük elmi nailiyyətlər optikada, kimyada və matematikada qazanılmışdı. İslam fizikləri optika elminin əsasını qoymuşdular, böyüdücü linzalar və işığın sürəti, ötürülməsi və sınması nəzəriyyələrini zənginləşdirən bir sıra əhəmiyyətli kəşflər etmişdilər. İslamçı kimya əlkimyadan böyüyüb meydana gəlmişdi, əlkimya isə ellinistik yunanların ixtirası idi və onun inam sistemi bu prinsipə əsaslanırdı ki, bütün metallar eyni mahiyyətə malikdirlər və düzgün vasitə, "filosof daşı" tətbiq edilsə istənilən metal qızıla çevrilə bilər. Bu "filosof daşını" isə tapmaq lazım idi. Lakin alimlərin bu sahədə cəhdləri belə bəhrəsiz sualı aydınlaşdıra bilmədi, bəziləri hətta metalların bir-birinə çevrilməsi barədəki bütöv nəzəriyyəni inkar edirdi. Müsəlman alimlərin eksperimentlərinin nəticəsi kimi müxtəlif yeni maddələr və birləşmələr kəşf edildi, onların arasında kaustik soda, zəy, boraks, gümüş nitratı, şora, nitrat və sulfat turşuları var idi. Üstəlik islam alimləri ilk dəfə distillə, filtrasiya və sublimasiya proseslərini təsvir etdilər.

Matematikada islamın ən böyük nailiyyəti yunanların həndəsəsini hindlilərin ədəd elmi ilə birləşdirməsi oldu. Sıfır da daxil olmaqla qərblilərin onlardan "ərəb ədədləri" kimi əxz etdikləri bu elm hindlilərdən götürülmüşdü. İslamçı riyaziyyatçılar onu onluq sistemə əsaslanan hesab kimi inkişaf etdirməyə qadir oldular və həmçinin cəbrdə xeyli irəliləyişə nail oldular - "cəbr" özü ərəb sözü idi. Yunan həndəsəsi əsasındakı tikililər sferik triqonometriyanı çox irəli apardı, bu həndəsədən göy cisimlərinin hərəkətini hesablamaqda da istifadə olunurdu. Bununla onlar riyaziyyat biliklərinin bütün sahələrini birlikdə götürdülər və xeyli irəli aparmışdılar. Bundan sonra belə inkişaf yalnız xristian Qərbində mümkün oldu.

Həm riyaziyyatda, həm də astronomiyada ən tanınmış alim əl-Xarəzmi idi, o, avropalılara Alqorism adı altında tanışdır və bu addan "alqoritm" termini meydana gəlmişdir. Xəlifə əl-Mamunun hökmranlığı dövründə o, *Beyt ül-hikmədə* işləyirdi. O, xəlifə üçün bir neçə astronomik cədvəllərinin toplumunu dü-

zəltmişdi, bu əsər "Sind Hind" adı altında məşhurdur. Əl-Xarəzmi Ptolomeyin "Coğrafiya"sına əsaslanaraq dünyanın insan yaşayan hissəsinin təsvirini vermişdi. Lakin onun əsərlərindən daha çox yayılanı riyaziyyat sahəsindəki işləri idi. Onlardan biri cəbrin təməli sayılır. Digər işi isə hesaba həsr olunmuşdu, burada indi məlum olan hesablama sistemindən istifadə olunur. Əl-Xarəzmi və onun ardıcılları müxtəlif mürəkkəb əməliyyatların hesab yolu ilə aparılması metodikasını işləyib hazırlamışdı, bu əməliyyatlardan biri kvadrat kökün çıxarılması idi. Digər alim, əl-Uxlidisi onluq kəsir barədəki təlimin başlanğıcından məlumat verən əsər yazmışdı.

Filosofları və alimləri ilə yanaşı islam öz şairlərinə də malik idi və ədəbi nailiyyət özünü fərqləndirmək yolu kimi sarayda da tanınmışdı. Güman ki, islam şairlərinin ən böyükləri persiyalılar və ya fars dilində yazanlar idi. Mahmud Qəznəvinin sifarişi ilə Firdovsi özünün məşhur "Şahnaməsi"ni yazmışdı. Qərbdə çox tanınan Ömər Xəyyam (1123-cü ildə ölmüşdür) idi, çünki onun rübailəri populyar ingilis şeirlərinə çevrilmişdi. Ömər Xəyyam hedonizmi müsəlman dünyasını hərtərəfli öyrənməyə kömək edirdi. Onun rübailərindən birində gözəl qıza müraciət edərək, həyatın mənasının "bir bardaq şərabda, bir loxma çörəkdə və səndədir" olduğu bildirilirdi. Bu göstərir ki, heç də bütün müsəlmanlar öz puritanlığı, saflığı ilə lovğalana bilməzdilər. Fars dilində yazan şairlərin içərisində Azərbaycanın Gəncə şəhərində azərbaycanlı ailəsində doğulmuş və ömrünün sonuna qədər bu şəhərdə yaşayıb yaratmış Nizami Gəncəvi orta əsr Şərq ədəbiyyatının yeddi qüdrətli simalarından biri sayılır. Adını Moiseyin "Beş kitabından" əxz etdiyi onun "Xəmsə"si dərin məzmunlu və yüksək poeziyadan xəbər verən beş poemadan ibarətdir. Nizami həyatın dərk edilməsinə bir filosof kimi yanaşır, Şərqin tarixinə dair bir çox mövzuları qələmə alır. Onun Şərq ədəbiyyatına böyük təsirini sübut edən başqa bir cəhət də Hindistanda Əmir Xosrov Dəhləvinin və Özbəkistanda Əlişir Nəvainin Nizamini təqlid edərək eyni adlı poemalardan ibarət öz "Xəmsə"lərini yaratması olmuşdu. Sonralar Sədinin "Bustan" və "Gülüstan" poemaları, Cəlaləddin Ruminin müdriklik təlqin edən şeirləri, Hafizin yaradıcılığı Ömər Xəyyam poeziyasını miqyas və poetik səviyyə cəhətincə xeyli üstələdi. Persiyadan kənarda müsəlman İspaniyasının saraylarında poeziya gur inkişaf etmişdi. Buradakı poeziya kənar köklərdən böyümüşdü. Bunu aşağıdakı sətirlər də təsdiq edir.

Müsəlmanlar incəsənəti inkişaf etdirməkdəki öz cəhdlərində yüksək dərəcədə eklektik olaraq qalırdılar. Onların başlıca ilham mənbələri Bizans və Persiya incəsənətindən gəlirdi. Onlar islam memarlığının quruluş xüsusiyyətlərinin çoxuna köməklik etmişdilər, bunlara xüsusən kümbəzi, sütunları və tağı daxil etmək olar. Persiyalıların təsiri güman ki, daha çox qarışıq, qeyri-təbii bəzəklərdə müşahidə olunurdu. Onlar bütün incəsənət növlərində dekorativ məqsədlər üçün istifadə olunurdu. Formanın zəngin və hissiyyatlı rənglərə tabe edilməsi meyli həm Persiyadan, həm də Bizansdan gəlmişdi. Ərəblər öz daha

istedadlı sələflərindən çox şey götürdükləri kimi, sadəcə ötürücü rolu oynamamışdılar, onlar elmi və mədəniyyəti inkişaf etdirərək sonrakı dövrlərə, həm də başqa xalqlara tarixi hədiyyə vermişlər.

Ərəb tədqiqatları, ərəb fikri, ərəb əsərləri bütün həcmində götürüldükdə aydın olur ki, ərəblərsiz Avropa elmi və fəlsəfəsi belə sürətlə inkişaf edə bilməzdi. Yunanlardan geniş əxz etmə qabiliyyətinə gəldikdə də onlar mexaniki ötürmə prosesinə xidmət etmirdilər, yunan fikrinin həqiqi daşıyıcılarına çevrildilər. Onlar nəinki elmləri diri, yaşamağa qadir saxladılar, həm də onları dərk edərək, diapazonlarını genişləndirdilər. 1100-cü ilə yaxın avropalılar öz düşmənləri olan saratsinlərin elmi və fəlsəfəsi ilə ciddi surətdə maraqlananda, bu elmlər çiçəklənmə dövrünü yaşayırdı. Avropalılar irəli getməyi bacarandan əvvəl, mümkün olan hər şeyi ərəblərdən öyrənməli oldular.

İslam dünyasının iqtisadi həyatı zaman və məkanına müvafiq olaraq bir-birindən fərqlənirdi, lakin onların heç biri ləng inkişaf üçün ilkin şərt hesab oluna bilməzdi. Əksinə, islam sivilizasiyasının mərkəzi zonalarında ərəb işğalları başlayandan 14-cü əsrə qədər merkantil həyat qeyri-adi dərəcədə irəli getmişdi. Bunun üçün prinsipial səbəb o idi ki, ərəblər Suriyada və Persiyada elə əraziləri vərəsə kimi almışdılar ki, onlar artıq işgüzar şəhər mədəniyyəti ilə əlamətlənmişdi və onlar Afrika, Avropa, Hindistan və Çin arasındakı başlıca ticarət yollarının üstündə, dünyanın yol kəsişmələrində yerləşmişdi. İslam tacirləri və iş adamları öz fəaliyyətlərini bu ilkin təməllər üzərində məcara sayağı qurmuşdular. Müsəlman tacirləri Cənubi Rusiyanın içərilərinə daxil olur, bəzən hətta Afrikanın ekvator regionlarına gedib çıxırdılar. Bu vaxt minlərlə dəvə karvanları Hindistan və Çinin qapılarına qədər gedib çatırdılar. Müsəlman yol tikmək və təkərli araba qayırmaq əvəzinə, dəvələrdən yük heyvanı kimi istifadə edirdi. İslam dövründən gəmilər Hind okeanında, Fars körfəzində və Xəzər dənizində özlərinə yeni yollar açırdılar. Həmin dövrdə islam gəmiləri həmçinin Aralıq dənizində ağalıq edirdilər. Həqiqətən də islamın sonrakı tənəzzülünün bir səbəbi də o idi ki, Qərb xristianları 11-ci və 12-ci əsrlərdə Aralıq dənizini özlərinə götürdülər və 16-cı əsrdə Hind okeanında nəzarəti onların əlindən çıxardılar.

Böyük islam kommersiya ekspansiyası sənətkarlığın inkişafı olmadan mümkün deyildi. Bu bir regionun xalqının öz təbii resurslarını digər regionlara satılmaq üçün son məhsula çevirmək bacarığı idi. Bu məhsullar ticarətin böyük hissəsinin əsasını təşkil edirdi. Demək olar ki, böyük şəhərlərin hər biri manufakturalar rəngarəngliyinin bəzi xüsusi növlərində ixtisaslaşırdı. Suriyadakı Mosul pambıq parça manufakturasının mərkəzi idi. Bağdad şüşə mallar, zərgərlik, dulusçuluq və ipək istehsalında ixtisaslaşmışdı. Dəməşq öz gözəl poladına və "dəməşq" və ya toxuma bəzəkli ipəyinə görə məşhur idi. Mərakeş dəri manufakturalarına görə tanınırdı, İspaniyadakı Toledoda isə yüksək keyfiyyətli qılınclar hazırlanırdı. Bu şəhərlərin məhsulları bu manufakturaların siyahısı ilə bitmirdi. Dərmanlar, ətriyyat, xalçalar, şpalerlər, parça, yun parçalar, sətinlər,

metal məmulatlar və çox sayda digər mallar bir çox şəhərlərin sənətkarları tərəfindən istehsal edilirdi. Çinlilərdən müsəlmanlar kağız düzəltməyi öyrənmişdilər və bu sənətkarlıq məhsullarına böyük tələbat var idi, özü də təkcə imperiyanın öz daxilində deyil, həm də Avropada.

Bütün hər yerdə islam sivilizasiyası xristian Qərbini o dərəcədə kölgədə qoyurdu ki, 12-ci əsrə qədər burada heç bir müqayisə də ola bilməzdi. Qərb daha irəli gedəndə müəyyən dərəcədə bunu etməyə ona görə qadir olmuşdu ki, bunları islamdan öyrənmişdi. İqtisadi sferada qərblilər islam texnologiyasının bir sıra nailiyyətlərini absorbsiya etməklə faydalanmışdılar. Bunlara irriqasiya texnikası, yeni taxıl növlərinin yetişdirilməsi, kağız istehsal etmək və alkoqolun distillə edilməsi daxil idi. İslam iqtisadi təsirinə Avropanın məruz qalmasını ərəb və fars mənşəli çoxlu sözlərin ingilis dilində olması sübut edir. Onların sırasına traffik, tarif, maqazin, alkohol, muslin, orinc, limon, alfalfa (üç yarpaq yonca), zəfəran, şəkər və maska daxil idi. Admiral sözü də ərəblərin əmir titulundan götürülmüşdü.

Qərb iqtisadi həyatda olduğu kimi islama əqli və elmi inkişafa görə də çox borcludur. Bu sahələrdə əxz edilən sözlərdə də həmin fikri təsdiq edir: cəbr, ədəd, sıfır, nadir, amalqama, əlkimya, soda, almanax və bir çox ulduzların adı. Yunan fəlsəfəsi və elmi bilikləri demək olar ki, artıq bütünlüklə unudulanda, islam sivilizasiyası onu qoruyub saxladı və genişləndirdi. Bütün mühüm yunan alimlərinin əsərləri antik dövrdən indiyədək salamat qalmasında, onların ərəb dilinə tərcümə edilməsi mühüm rol oynamışdı, çünki ərəb dilindən də onlar orta əsrlər Qərbində latın dilinə çevrildi. Hər şeydən əvvəl Aristotelin əsərlərinin qorunub saxlanması və təfsir edilməsi islamın uzun dövr ərzində daha çox davam gətirən nailiyyəti idi. Qərb təkcə ərəb tərcümələri vasitəsilə Aristotelə yenidən malik olmadı, həm də Aristotel məhz islam alimlərinin köməyi ilə izah və təfsir edildi. Bu xüsusən Avveroesin xidməti idi, onun nüfuzu o qədər böyük idi ki, o, orta əsr yazıçıları tərəfindən sadəcə olaraq "icmalçı" adlanırdı. Bütün bu spesifik köməkliklərdən savayı, islam sivilizasiyası həm də Qərbə onun sadəcə rəqibi və təxəyyülə sövq etməsi ilə də böyük təsir göstərmişdi.

Bizans sivilizasiyası Qərbə çox yaxın olmasına baxmayaraq, ona belə xidməti göstərməkdə çox zəif idi. Qərblilər adətən ədalətli, ya ədalətsizlik etmələrindən asılı olmayaraq Bizans yunanlarına yuxarıdan aşağı baxırdılar, lakin onlar çox vaxt müsəlmanlara hörmət edir və onlardan qorxurdular. İslam sivilizasiyası, yenə də ərəb sözünə müraciət edilsə, öz zenitində həqiqətən də dünyanın ən böyük sivilizasiyalarından biri idi. Sərbəst təşkil edilməsinə baxmayaraq, o, bir-birindən fərqli ərəb, persiyalı, türk xalqlarını, müxtəlif afrikan tayfalarını, hindliləri böyük din altında və ümumi institutlarla birləşdirmişdi. Çoxluq içərisindəki birlik islamın fərqləndirici xüsusiyyəti olmaqla fərqli cəmiyyət və orijinal kəşflərin və nailiyyətlərin gözəl irsini yaratmışdı.

# V HİSSƏ. FEODALİZMİN MÖVCUDLUĞU ŞƏRTLƏRİ

## FƏSİL 1
## FEODALİZMİN İQTİSADİ VƏ SOSİAL XÜSUSİYYƏTLƏRİ

Orta əsrlər mülk rejimini həyata gətirməklə təhkimçi kəndli əməyinə əsaslanan feodalizm sistemini yaratmışdı. Kənd həyatı malikanə sahibi olan ağalardan və bu malikanələrdə işləyən təhkimlilərin mühitindən ibarət idi. Kənd təsərrüfat işçisi "əli toxalı adam" olmaqla yeni dövrün sənayeləşməsinə qədər qalmaqda davam etdi. Karolinq dövründən isə varlı kənd malikanələrində metal alətlərdən istifadə edilməyə başlandı.

Feodalizm dolaşıq və fərqli idi, yerli müstəvidə idarəetmənin bir növü idi. Burada heç bir təşkil olunmuş dövlət mövcud deyildi. Karolinq imperiyası süqut etdikdən sonra həqiqi hakimiyyət çox hallarda "qraf" adlanan şəxslərin əlinə düşürdü. Qraf bir neçə yüz kvadrat mil sahəni əhatə edən regionda ən mühüm adam idi. Öz qraflığında o, sülhü qoruyub saxlayırdı və özündən aşağı ağalara nəzarət edirdi. Bu aşağı ağalar onun himayəsini qəbul edir, ya da buna məcbur edilirdi. Onlar onun vassallarına, o, isə onların "ağasına" çevrilirdi. Ağa və vassal əlaqəsi qarşılıqlı borclara əsaslanırdı. Ağa vassalını himayə edirdi. Əgər eyni ağanın iki vassalı eyni kəndə malik olmaq üstündə mübahisə etsə, ağa məsələni həll edirdi, bunu bütün vassalların iştirak etdiyi şurada müzakirə edirdi və mahalın adət qanununa uyğun olaraq hökm verirdi. Əgər vassal gənc yaşında ölsə, kiçik uşaqlarını qoyub getsə, ağa onun ailəsini öz "himayəsinə" və ya mühafizəsinə götürürdü, müəyyən olunmuş müddətdə qanuni irsin ona çatmasına təminat verirdi. Buna müvafiq olaraq vassal ilin bir neçə günündə ağaya döyüşən adam kimi xidmət etməyə razılıq verirdi. Vassal həmçinin ağanın yanına gəlməyə və ondan məsləhət almağa borclu idi. Adətən o, heç bir pul və ya maddi haqq ödəməli deyildi. Lakin ağa əsirlikdən azad olunmaq üçün ona girov verilməsindən ötəri və ya onun uşaqları nikaha girəndə vassal rüsum ödəyirdi.

Bu feodal qayda güman ki, əvvəlcə məhdud ərazilərdə təşkil olunduğu halda, tədricən yayılmağa başladı. Qraflar səviyyəsində olan ağalar bu vaxt hersoqların vassallarına çevrildilər. 987-ci ildə Fransanın böyük lordları Hüqo Kapeti özlərinin kralı seçdilər və onun vassallarına çevrildilər. Fransa kralları iki yüz il ərzində kiçik real hakimiyyətə malik oldular, lakin Hüqonun törəmələri taxt-tacı səkkiz əsr ərzində əllərində saxladı və bu Fransa inqilabına qədər davam etdi. Buna bənzər qaydada Almaniyanın maqnatları 911-ci ildə kral seçdilər. 962-ci ildə alman kralı, bundan əvvəl Karolinq kimi imperator tək taclandı. Bununla da Müqəddəs Roma imperiyası öz tarixinə başladı. Almaniyada impe-

ratorla maqnatların əlaqəsi mahiyyətcə feodal xarakterli olmaqla, 1806-cı ilə qədər davam etdi. İngiltərədə isə bu əsrlərdə kralın seçki vasitəsilə seçilməsinə imkan verilmirdi. İngiltərə 1066-cı ildə Normandiya hersoqu Uilyam tərəfindən işğal edildi. Normanlar Normandiyada istifadə etdikləri mərkəzləşmiş və səmərəli feodalizm tipini İngiltərədə tətbiq etdilər. İngiltərədə lap əvvəllərdən kral və onun mərkəzi qulluqçuları müəyyən hakimiyyətə malik idilər. Burada qitəyə nisbətən daha çox vətəndaş sülhü və şəxsi təhlükəsizlik mövcud idi. Möhkəm monarxiya içərisində özünü idarə edən institutlar adətən çox az qayda pozğunluqları ilə fəaliyyət göstərirdi.

Feodalizmin diqqəti cəlb edən xüsusiyyətlərindən biri onun qarşılıqlı xarakterə malik olması idi. Bu köhnə roman imperial prinsipindən fərqli idi, imperator alihəzrət sayılmaqla bütün hakimiyyətə malik idi. Feodlizmdə isə heç bir hökmdar yox idi. Kral və xalq, ağa və vassal müqavilə əsasında birləşmişdilər. Hər biri digərinə nədəsə borclu idi. Biri öz vəzifəsini yerinə yetirməsə bu vəzifə dayandırılırdı. Əgər vassal öz xidmətindən imtina etsə, kral onu güzəştə getməyə məcbur etmək hüququna malik idi. Əgər kral zorakı qaydada vassalın hüquqlarını pozsa, vassallar ona qarşı birləşə bilərdilər. Kral vassalların məsləhəti ilə hərəkət etməli idi, vassallar onun şurasını və ya məhkəməsini formalaşdırırdı. Əgər vassallar əmin olsa ki, kral öz qanuni hakimiyyət həddini aşmışdır, onlar onun üzərinə şərtlər qoya bilərdilər. Bu feodalizmin müqavilə xarakterli və ya qarşılıqlı xüsusiyyətindən irəli gəlirdi, bundan da konstitusiyalı idarəetmə ideyaları inkişaf etdi.

Feodalizm yalnız hərbi və ya kübar sinfi üçün ciddi düşüncəni tətbiq edirdi. Feodal dünyasından aşağıda geniş kəndli kütləsi dururdu. Burada kənddəki ən yüksək kübarın ən aşağı vassalı öz təbəələri üzərində ağa idi. Kənd, onun sakinləri və əhatə edən kənd təsərrüfatı torpaqları ilə "mülkü", ağanın malikanəsini əmələ gətirirdi. 11-ci əsrdə malikanələrin adamlarının çoxu təhkimçi kəndlilər idi. Onlar "torpağa bağlı idilər" və ağanın icazəsi olmadan torpağı tərk edə bilməzdilər. Az sayda olanlar hansısa yolla kəndi tərk etmək istəyirdilər, lakin bu vaxt kənddən kənardakı dünya naməlum və təhlükəli idi. Ağa da öz tərəfindən kəndliləri istismar edə və ya onları kənara qova bilməzdi. Heç bir pul əli əvəz edə bilməzdi, çünki faktiki olaraq dövriyyədə heç bir pul yox idi. Malikanə sistemi kənd təsərrüfatına əsaslanırdı, bunu həm idarə edən sinif, həm də ruhanilər dəstəkləyirdi. Tədricən quldarlıq Avropada yoxa çıxdı, onun yerini daha az pisləşən təhkimçi statusu tutdu. Orta əsr Avropası ilk mürəkkəb cəmiyyətə malik idi ki, onun təməlində quldarlıq yox idi.

1050-ci və 1250-ci illər arasında hər şeyin dəyişməsi ilə iki əsr ərzində kənd təsərrüfatı inqilabı baş verdi. Bu kəndli əməyinin təbiətini bir qədər dəyişməklə yanaşı, Qərbi Avropa fermalarında məhsulun da əhəmiyyətli artımına səbəb oldu. Kənd təsərrüfatı inqilabının əsas cizgiləri 11-ci əsrin ortalarında özünü büruzə verdi. Ən mühüm cəhət Avropa sivilizasiyası vəzninin Aralıq dənizi ətrafından Şimali Atlantika regionlarına keçməsi idi. Şimali Avropanın Cənubi

İngiltərədən başlayaraq Urala qədər olan ərazisi geniş, rütubətli olmaqla yanaşı, yüksək münbit - alluvial torpaqlara malik idi. Romalılar bur torpaqları becərməyə girişməmişdilər, əsas səbəb də bu torpaqlarda işləmək üçün alətlərin və sistemin mövcud olmaması idi. Yalnız Karolinqlər bu ərazilərin məskunlaşdırılmasına və düzənliklərin şumlanmasına daha çox diqqət verməyə başladılar. Onlar yeni alətlər və metodlar da tətbiq edirdilər. Nəticə digər Karolinq nailiyyətlərinin qazanılmasına kömək etdi.

10-cu əsrdəki müdaxilələrdən sonra şimalın potensial sərvətindən istifadə edilməyə başlandı. Uzun müddət ərzində Qərb sivilizasiyası İngiltərədə, Şimali Fransada, Çökək ölkələrdə və Almaniyada mərkəzləşdi, buradakı torpaqlar becərmə üçün yararlı olaraq qalmışdı.

Əkinçiliyin inkişafına iqlimin yaxşılaşması da köməklik göstərdi. Əvvəlki dövrlərə nisbətən orta hesabla illik hərarət $1^0$S artdı, hava bir qədər quru oldu və belə iqlim əkinçilik üçün "optimal" sayılırdı. Hətta İslandiyada əkinçilik üçün daha yaxşı şərait yarandı. Norsmenlər Qrenlandiyaya və Nyufaundlendə gəlib çıxdılar və Qrenlandiya o vaxtlar qarlarla örtülməmişdi, bitki örtüyündən yaşıl görünürdü.

Karolinqlərin texnoloji ixtiraları qərbi avropalıların ilk kənd təsərrüfatı inqilabına nail olmağa köməklik göstərdi. Sülhün uzun müddət davam etməsi də əkinçilik ekspansiyası üçün vacib idi. Torpaq sahibləri istehlak edilməsindən daha artıq fayda verən məhsul istehsalında maraqlı idilər. Alətlərdən ən vacibi istifadə edilən ağır kotanlar idi. Romalılara yalnız torpağın üzünü "cırmaqlayan kotanlar" məlum idi, onlar torpağın səthini dağıdır, ancaq onu tam çevirmirdilər. Bu kotanlar Aralıq dənizi hövzəsinin yüngül torpaqları üçün yararlı idisə, ağır, rütubətli torpaqlarda əl vermirdi, xüsusən də şırım aça bilmirdi. Su yığılan torpaqlarda isə drenaj məqsədilə şırım vacib idi. Romalılar əgər şumu iki müxtəlif istiqamətdə aparırdılarsa, ağır kotanla bir əməliyyat aparmaq kifayət idi.

Ağır kotanla yanaşı üç tarla sistemi də tətbiq edildi. Fermerlər torpağın bir hissəsini herik altında qoyurdular. Orta əsrlərdə üç tarlalı sistem tətbiq edilməklə herik altında saxlanılan torpaqların sahəsi üçdə birə qədər azaldıldı, digər üçdə ikisindən isə yarısı erkən yayda yetişən taxıl üçün, digər yarısı isə yeni dənli bitkilər üçün - yulaf, arpa və ya paxlalılar üçün ayrılırdı. Sonuncular nisbətən gec yetişirdi. Yeni bitkilər, buğda və vələmir kimi torpaqların taqətdən düşməsinə imkan vermirdi, həm də yeni növ ərzaq istehsalına şərait yaradırdı. Yulafı həm adamlar, həm də at yeyirdi, paxlalılar isə protein mənbəyi kimi qidanın tarazlaşmasına kömək edirdi. Üçüncü böyük yenilik dəyirmanlar idi. Romalılar su dəyirmanı ilə tanış olsalar da, ondan istifadə etmirdilər, bu həm qul əməyinin ucuz olması, həm də ərazidə iti axan çayların olmaması idi. Şimali Avropada isə 11-ci əsrin ikinci yarısından başlayaraq su dəyirmanları tikintisi çoxaldı. 10-cu əsrdə Fransada 60 su dəyirmanı tikilmişdisə, 12-ci əsrin 50 ili ərzində əlavə 245 dəyirman işə salınmışdı. Avropalılar külək enerjisindən də istifadə etməyə başladılar. Hollandiyanın düzənlik torpaqlarında iti axan çay ol-

madığından külək dəyirmanları çox yayıldı və onun tarixi rəmzinə çevrildi. Dəyirmanlar təkcə dəni üyütmək üçün deyil, həm də müxtəlif vacib əməliyyatlar üçün istifadə edildi. Onların köməyi ilə ağac mişarla kəsilir, parça toxunur, bitki məhsullarından sıxılıb yağ alınır, pivə bişirilir, dəmirəridən sobalarda istifadə edilir və kağız istehsalında tətbiq edilirdi.

Mühüm texnoloji yeniliklərdən biri də əkinçilikdə iş heyvanı kimi atdan istifadə idi. Yumşaldılmış xomutun ilk dəfə Avropada tətbiq edilməsi buna yol açdı. Elə bu vaxtlar at nalından da istifadə edilməyə başlandı. Öküzlə müqayisədə at daha tez və uzun müddət işləyirdi. Sonra mala kəşf olundu, bu torpağın düzləndirilməsində və toxumun üstünün örtüldülməsində böyük rol oynadı. Bunlar intensiv əkinçiliyə şərait yaratdı. 12-ci əsrdən genişlənən torpaqların təmizlənməsi hərəkatı bütünlüklə Şimali Avropanın topoqrafiyasını dəyişdi. Meşələrin, kolluqların təmizlənməsi və bataqlıqların qurudulması daha sürətlə aparılırdı. Bundan bir az sonra yeni ərazilər məskunlaşır və torpaqlar becərilmə üçün açılırdı. Bu Şimali İngiltərədə, Hollandiyada və hamıdan əvvəl Almaniyanın şərq hissələrində baş verdi.

Bütün bu dəyişikliklər əkinçilik məhsulları istehsalının xeyli artması ilə müşayiət olundu. Əgər Karolinqlər dövründə əkilən toxum ikiqat məhsul verirdisə, 1300-cü il ətrafında bu üç-dörd dəfəyə çatdı. Avropalılar bu vaxt ilk dəfə olaraq müntəzəm və stabil qida ehtiyatına malik olmalarına bel bağlaya bilərdilər. Yüksək orta əsrlərdə isə kənd təsərrüfatının böyük diversifikasiyası və ixtisaslaşması baş verdi. Böyük ərazilər qoyun yetişdirilməyə ayrıldı, digəri üzüm plantasiyaları altında idi, başqalarında isə pambıq və boyadıcı maddə bitkiləri becərilirdi. Ticarətin və manufakturaların böyüməsi şəhərlərin böyüməsinə təkan verirdi. Kənd təsərrüfatının gur inkişafı şəhərin böyüməsinə başqa yolla təsir göstərirdi, onun əhalisinin sayını artırırdı. İnsanların ömrü də yaxşı qidalanma hesabına artmışdı, Karolinq dövründəki orta otuz yaşdan Yüksək orta əsrlərdə 40-50 ilə çatmışdı. Uşaq doğumu da çoxalmışdı. Ona görə də əhali 1050-ci illə 1300-cü illər arasında üç dəfə artmışdı. Bütün bunların nəticəsində avropalılar daha nikbin, daha fərasətli adamlara çevrilmişdilər.

Feodalizmin sinonimi olan malikanəçilik iri kənd təsərrüfatı iqtisadiyyatı sistemi olmaqla təhkimçi kəndlilərin əməyinə əsaslanırdı. Feodalizm isə idarəetmənin desentralizasiya olunduğu siyasi sistem idi. Malikanələr bir-birindən ölçüsünə və təməl xüsusiyyətlərinə görə çox fərqlənirdi. İtaliyada kənd təsərrüfatının bir çoxu quldarlığa əsaslansa da, Mərkəzi və Şərqi Almaniyada çox sayda kiçik fermalarda azad kəndlilər işləyirdi. İlk malikanə Karolinq dövründə meydana gəlmişdi və Şimali-Qərbi Avropada 13-cü əsrə qədər aqrar sosial və iqtisadi təşkilatın aparıcı forması olmaqda davam edirdi. O, iri roman malikanəsinin törəməsi olsa da, roman mülkünə bənzəmirdi, çünki burada qullar yox idi, yalnız təhkimçilər işləyirdi. Təhkimçi kəndlilər heç də azad deyildilər, onlar öz torpaqlarını tərk edib gedə bilməzdilər, öz ağaları tərəfindən haqqı ödənilmədən işləməyə məcbur edilirdilər, çox sayda alçaldıcı vəzifələri icra etməli idi

və ağanın mühakiməsinin yurisdiksiyasına tabe idi. Lakin onlar qullardan yaxşı vəziyyətdə idilər, ayrılmış torpaqda özlərini saxlamaq üçün işləyirdilər və oradan normal şəraitdə kənarlaşdırıla bilməzdilər. Ərazisi bir neçə yüz akrdan bir neçə kvadrat milə bərabər olan malikanənin torpaqları ağaya məxsus olan və onun təhkimçilərinə verdiyi sahələrdən ibarət idi.

Təhkimçilər sahibin torpağında həftədə üç gün işləyirdi. Torpaqlar dar şumlanmamış zolaqlarla bir-birindən ayrılırdı. Təhkimçilər öz torpaqlarını birgə, icma şəklində becərirdilər, çünki adətən birlikdə iş heyvanlarına və alətlərə malik olurdular. Bütövlükdə malikanə sistemi kommuna işgüzarlığını və həmrəyliyini vurğulayırdı. Təhkimçilər kasıb komalarda yaşayırdılar. Onlar tərəvəzdən bişirilmiş duru şorba yeyirdilər. Ət ildə cəmi bir neçə dəfə yeyilirdi. Məhsul qıt olan illərdə isə bu təhkimçilərə daha çox təsir göstərirdi, hətta onun uşağı acından öləndə o, malik olduğu taxılı ağasına verməyə məcbur edilirdi. Bəzən isə toxumluq dənə qətiyyən toxunulmurdu, çünki bu dənin olmaması bütün gələcəyi puça çıxara bilərdi. Yüksək orta əsrlərdə aclıq əvvəlki dövrlərə nisbətən daha az hallarda baş verirdi. Bir çox səbəblərə görə təhkimçilərin təhkimçilikdən azad edilməsi də baş verirdi. Torpaq sahibləri yeni torpaqlar açdıqda yalnız bu yolla işçi qüvvəsini cəlb edə bilirdilər. Azad əmək zonaları adətən təhkimçiləri qaçmağa həvəsləndirirdi. Bəzilərində isə torpaq sahibləri biyar şəklində xidmətlər tələbini müəyyən edilmiş renta ilə əvəz edirdilər. Bundan varlanan kəndlilər öz azadlıqlarını satın alırdılar. Müxtəlif yollarla təhkimçilik Avropanın əksər hissəsində 13-cü əsr ərzində tədricən öz sonuna çatdı.

Təhkimçilər hətta icma şəklində işləməkdə davam etdikləri halda, azad olunanlara çevrilməklə azad kəndli statusu qazanırdılar. Bundan sonra torpaq sahibləri də əsasən renta hesabına yaşamağa başladılar.

Köhnə döyüş ruhunun şüursuz əvəzi kimi rıtsarlıq kodeksi meydana gəldi. Rıtsarlıq hərfi mənada "atçılıq" demək idi və rıtsar kübarlar atlı sənətinə yiyələnirdilər. Rıtsarlar şərəf işini müdafiə etmək üçün vuruşmaq borcunu yerinə yetirirdilər. Rıtsar adətən yuxarı aristokratdan az torpağa sahib olurdu, təkcə igidliyinə görə deyil, həm də həqiqətpərəstliyinə, ehtiramına və faydaya laqeydliyinə görə hörmət qazanırdı.

Yuxarı orta əsrlərdə qadına münasibət dəyişmişdi. Bunun ilk səbəbi ədəbiyyat idi və bu baxış növü həqiqətən həyatı təsvir edirdi. Digər tərədən bir sıra alim qadınlar meydana gəlmişdi. 12-ci əsrə qədər qadınlara ədəbiyyatda məhəl qoyulmurdu. Həmin əsrdə və sonrakı yüzillikdə bəzi qadınlar öz dövlətlərini idarə edirdilər. II Henrinin arvadı Eleonor Akvitanlı oğlu I Riçard Şir ürəkli dörd il ərzində səlib yürüşündə olanda özünün 70-dən çox yaşı olmasına baxmayaraq, İngiltərənin idarə edilməsinə köməklik göstərmişdi. Möhkəm iradəli Blanş Kastiliyalı 13-cü əsrdə iki dəfə, bir dəfə oğlu IX Lui kiçik yaşda olanda, sonradan isə o, səlib yürüşünə yollananda Fransanı müstəsna dərəcədə yaxşı idarə etmişdi.

# FƏSİL 2
# TİCARƏTİN İNKİŞAFI VƏ ŞƏHƏR İNQİLABI

Orta əsr adamları 11-ci əsrdən başlayaraq diqqəti quru nəqliyyata verdilər. Aralıq dənizinin özü də əlaqə "gölü" rolunu oynadı və həm yaxın, həm də uzaq ərazilərdə sahil zolağı genişləndi. 1050-ci və 1300-cü illər arasında Genuya, Piza və Venetsiya şəhər-dövlətləri Aralıq dənizinin çox hissəsini müsəlmanlardan azad edib, keçmiş Bizans sularında ticarətə inhisarçılıq etməyə başladılar və Şərqi Aralıq dənizi limanlarında Şərqlə kommersiya əlaqələri qurdular. Nəticədə ədviyyat, daş-qaşlar, ətriyyat və gözəl paltar kimi bahalı mallar Qərb bazarlarında görünməyə başladı və bu iqtisadi həyatı xeyli canlandırdı. Ticarətin yenidən genişlənməsi haqqın ödənilməsinin yeni qaydasını yaratdı və yeni kommersiya texnikalarını inkişaf etdirdi. Daha əhəmiyyətlisi o idi ki, sikkə mübadilə vasitəsi kimi işlədildiyindən, dörd əsr sonra Avropa yenidən pul iqtisadiyyatına qayıtdı. Lakin bazarların böyüməsi ilə sikkələr daha çox lazım gəlirdi. Onların dəyəri isə o qədər böyük deyildi, həm də qiymətli mallar pulun denominasiyasının böyüməsini tələb edirdi. 13-cü əsrdən İtaliyanın Florensiya və Venetsiya kimi dövlətlərində qızıl sikkələr buraxılırdı. Lakin iri miqyaslı ticarət daha müasir biznes texnikası tələb edirdi, bu kredit məktubunun verilməsində öz əksini tapan, şəklini dəyişmiş kredit mexanizmi idi. Tarixçilər onları ilkin Qərb kommersial kapitalistləri adlandırırdılar.

Pul və kreditin ekspansiyası ilə yanaşı şəhərlərin sürətlə böyüməsi ticarətin inkişafına çox kömək edirdi. Şəhər həyatı hər yerdən çox İtaliyada cəmlənmişdi. Venetsiya, Genuya, Milan, Bolonya, Palermo, Florensiya və Neapol Avropanın ən iri şəhərlərini ötüb keçirdilər. Onların bəzilərinin əhalisi 100 min nəfərdən çox idi. Orta əsr şəhərlərinin küçələri adətən daş döşənmiş olmurdu, evlər tərəvəz yetişdirmək üçün bağlara malik olurdu, tövlələrdə inək və donuz saxlayırdılar, küçələrdən qoyun sürüləri keçirdi.

Şəhərlərin iqtisadi və sosial təşkilatının ən fərqləndirici xüsusiyyəti gildiya idi. Bu sənət assosiasiyaları xüsusi maraqları himayə etmək və inkişaf etdirmək üçün təşkil olunurdu. Gildiyaların başlıca növləri tacir və sənətkarlıq üzrə olanlar idi. Onlar öz üzvləri üçün yerli bazarda inhisarı saxlamalı idi. Həm də o stabil iqtisadi sistem kimi çıxış edirdi. Tacir gildiyaları şəhərdə əcnəbilərin ticarət aparmasını sərt qaydada məhdudlaşdırır, təklif edilən satışlarda digər üzvlərin iştirak etməsi hüququna təminat verirdilər. Sənətkar gildiyaları isə bənzər qaydada sənətkarların işini nizamlayırdı. Onların tam səs hüququna malik olan və usta adlanan üzvləri sənət üzrə ekspert sayılmaqla öz dükanlarına malik olurdu. Sənətkar gildiyalarının ikinci sinif üzvləri isə sənətləri öyrənməklə usta üçün işləyirdi. Şagirdlik şərtləri

məharətlə nizama salınırdı. Sənətkar gildiyası da tacir gildiyası kimi inhisar mövqeyini saxlamağa çalışırdı və rəqabəti məhdudlaşdırmağa cəhd edirdi.

Şəhərlərin inkişafı Qərbdə intellektual həyatın da sürətlənməsinə səbəb oldu. Şəhərlər alimlərə qanuni himayədarlıq edirdi. Bu dövrdə tələbələr və müəllimlər daim keşişlər olurdular, lakin 13-cü əsrdən tacirlərin oxumağı məşq etmələrinə ehtiyac yarandı və bu iş məktəblərin üzərinə düşdü.

Avropanın siyasi gələcəyində aparıcı yer tutacaq yeni idarəetmə forması olan milli monarxiyalar yaranmağa başladı. 1050-ci il ətrafında Almaniya ən mərkəzləşmiş və öz ərazisini daha yaxşı idarə edən idi, lakin 1300-cü ildən başlayaraq döyüşkən kiçik dövlətlərin toplumu vəziyyətinə düşdü. Otton macarlar üzərində şərəfli qələbə çaldıqdan və imperator titulunu qəbul etdikdən sonra ölkənin sonrakı müdaxiləçilərin qurbanı olmasının qarşısını almaqla, monarxiya üçün böyük nüfuz qazandı. Onun varislərinin yaxın siyasi rəqibləri beş iri alman ərazilərinin hərbi liderləri olan Lotaringiya, Saksoniya, Frankoniya, Şvabiya və Bavariya hersoqları oldu. Lakin bu dövrün əksər hissəsində hersoqlar imperatorun böyük gücündən qorxurdular.

Almaniya hökumətinə meydan oxunması IV Henrixin (1056-1106-cı illər) hökmranlığı dövründə gəldi və bunu Papa VII Qriqori istiqamətləndirirdi. O, kilsəni dünyəvi nəzarətdən azad etmək istəyirdi və bu məqsədinə çatmaq üçün öz mübarizəsini IV Henrixə qarşı başladı. O, hersoqlarla və digər alman hökmdarları ilə ittifaq bağladı. Hökmdarlar Henrixi devirməklə hədələyəndə, bu qüdrətli kral tabe olmadığı Papadan bağışlanmaq barədə xahiş etməyə məcbur oldu və bu, orta əsrlərin ən melodramatik və alçaldıcı səhnələrindən birinə çevrildi. 1077-ci ildə qışın sərt vaxtında Henrix Alp dağlarından keçərək Papanın qarşısında alçalmaq üçün Şimali İtaliyadakı Kanossa qəsrinə gəldi. Üç gün ərzində o, ayaqyalın halda qarın üstündə qəsrin qabağında dayanıb qəbulu gözlədi. Hələ heç bir alman hökmdarı belə alçaldılmamışdı. Baxmayaraq ki, Kanossadakı hadisələr Henrixin devrilməsini ləngitdi, lakin onun nüfuzuna böyük zərbə vurdu. Elə buradan da alçalmanın rəmzi kimi "Kanossaya getmək" ifadəsi qaldı.

Fransa və İngiltərə tədricən öz mərkəzləşmiş hökumət aparatını yaradanda Almaniya öz mərkəzləşmiş hökumətini itirməli oldu. 12-ci əsrin sonunda I Fridrix Barbarossa öz səltənətini "Müqəddəs Roma imperiyası" adlandırmaqla öz imperial ləyaqətini müdafiə etməyə cəhd etdi. Bədbəxtlikdən Fridrixin əcdadlarının torpaqları Almaniyanın ən kasıb hissəsi olan Şvabiyada yerləşirdi. O, İtaliyanın şimalını öz hakimiyyətinin əsası etməyi qərara aldı. Lakin Alp dağları İtaliya barədə onun iradəsinin həyata keçirilməsinə və Almaniyanı yaxşı idarə etmək ümidinə böyük maneə idi. Lombardiya liqası 1176-cı ildə onun qoşunlarını Şimali İtaliyada məğlub etdikdən sonra bu ərazi faktiki olaraq müstəqil oldu.

Orta əsrlərdə Alman imperiyasının yenidən qalxması üçün şərait meydana gəlmədi. Onun nəvəsi II Fridrix professional ordu yaratdı, ümumiləşmiş roman hüququnu elan etdi. II Fridrix dövründə Cənubi İtaliya tədricən geriliyə gömüldü və Almaniyanın özünə də zərbə dəydi. Titulyar "imperatorlar" sonralar da seçilməkdə davam etsələr də, hökmdarlar ölkənin həqiqi hökmranları idilər. Volterin sonralar dediyi kimi axı "Müqəddəs Roma imperiyası" heç vaxt nə müqəddəs, nə roman, nə də imperiya olmamışdı. Mərkəzi İtaliyanın böyük hissəsini Yüksək orta əsrlərdə Papalıq idarə edirdi, lakin papalar yaxşı idarə edilən dövlət yaratmaq üçün nadir hallarda güclü olurdular.

Siyasi feodalizm mahiyyətcə müstəsna siyasi desentralizasiya sistemi idi, burada hakimiyyət özəl əllərdə idi. Fransa bu fazada olanda 10-cu əsrdə vikinq təcavüzünə məruz qaldı. Yerli torpaq sahibləri vikinqlərə qarşı daha yaxşı müdafiə olunmaq üçün bütün köhnə idarəetmə hakimiyyətini əldə etməyə praktiki olaraq qadir oldular. Onlar öz kiçik ordularını yaratdılar, öz kamil olmayan məhkəmələrini təşkil etdilər, özlərinin primitiv sikkələrini buraxdılar. Krallar, xüsusən Fransada çox zəif idilər. Burada çoxlu səpələnmiş hersoqlar və qraflar var idi. Kiçik malikanə sahibləri hərbi xidmətdə olurdular və bu zəncir ən aşağı rıtsarlarda kəsilirdi. Mülkün, lenin sahibi onu bağışlayanın, verənin vassalı adlanırdı. Vassallıq təmiz şərəfli status olmaqla, bütün malikanə sahibləri "kübar" hesab olunurdu.

Feodalizm bünövrədən desentralizasiya forması idi, indi də feodalizm özü geridə qalmışlıq mənasını verir. Lakin feodalizm özü də tərəqqiyə cəhd göstərmiş, müasir dövlətin yaranması üçün onun başlanğıc yola düşməsi nöqtəsi olmuşdu. Almaniya və İtaliyada heç hansısa elə bir feodalizm də olmamışdı, lakin bu ölkələrdə stabillik və birləşmə yalnız 19-cu əsrdə mümkün olmuşdu. Feodalizmin tam təşəkkül tapdığı Fransa və İngiltərə ərazilərində isə stabillik və idarəetmə mərkəzləşməsi bir az sonra tezliklə gəldi. Feodal sistem nizama salındıqdan sonra bu adi hala çevrilirdi ki, vassallar ildə azı bir dəfə öz hökmdarlarının sarayına gəlirdilər. Bu "saraya haqq" kimi qiymətlənirdi, ona loyallığın mərasim əlaməti idi. Bu həm də sarayda mühakimələrdə iştirak etmək qaydasında və şuraya təklif kimi xidməti bildirirdi. İdarəetmə işinin icrasına adət edildikdə onlar saray adamları və siyasətçilər kimi davranırdılar. Fransa və İngiltərədə monarx statusu inkişaf etdikcə krallar feodal sarayının necə faydalı olduğunu gördülər.

İngiltərədə feodalizmin böyük imkanları ilk dəfə 1066-cı ildəki norman işğalından sonra özünü nümayiş etdirdi. Bu vaxtdan ölkədə siyasi stabillik yüksəldi. Qraf adlanan döyüşçü kübarların əvvəlki ölkəni parçalama təhlükəsinə onların gücünü məhv etməklə son qoyuldu. Onların yerini feodalizm sistemi tutdu, İngiltərədəki torpaqlar yenidən kral tərəfindən feodal mülkü kimi verildi.

Uilyam özü pul buraxmaq, torpaq vergisini yığmaq və başlıca cinayət işlərinin məhkəməsinə nəzarət etmək səlahiyyətlərini əlində saxladı.

Bir sözlə orta əsrlər tarixi başqa xarakter aldı. Tarix teatrı xeyli genişləndi. Roma gölünə çevrilən Aralıq dənizinin sahillərindən tarix şimala doğru uzağa gedir, german xalqları birinci plana çıxırlar. Şərqi Avropa - qədim Skifiya tədricən tarixə daxil olur, özü də bütünlüklə yox, german dünyasının kənarlarında yaşayan öz qabaqcıl xalqları vasitəsi ilə. Orta əsrlər tarixini qədimdən təkcə zahiri fərqlər ayırmır. Onları başqa həyat formaları, başqa anlayışla fərqləndirir. Qədim həyat munisipal olduğu halda hər şəhər Roma imperiyası onu özündə əridənə qədər ayrıca yaşasa da, orta əsrlər tarixində ilk yeddi əsr ərzində şəhərlər demək olar ki, heç bir rol oynamırdı. Tarixi çiynində daşıyan xalqlar şəhərlərdən kənarda yaşayırdılar. Orta əsrlərin tarixində həyatın bu zahiri şəraitləri, qəsr, hərbi geyim, silahlanma ram olmayan xarakterlərin, özünə məxsus şəxsiyyətlərin əmələ gəlməsinə köməklik göstərdi. Onlar heç nəyin, heç bir qanunun qarşısında çəkinmirdilər. Bununla da orta əsrlər tarixi qədimə əks olan hadisələri əks etdirir. Qədim dünyada ayrı-ayrı şəxsiyyətlər dövlətdə itdiyi halda, orta tarixdə şəxs özünü dövlətdən xeyli yuxarıda qoyur.

Feodalizm dövləti inkar edirdi, feodal dövlət adlansa da, mahiyyətcə bu dövlətin özü yox idi. Dövlət deyəndə nəsə bir üzvi bütövlük göz önünə gəlir, burada hər bir üzv öz vəzifəsinə, öz hüququna malikdir. Feodal dövlətdə isə yalnız hakim zümrə hüquqlara malik idi. Orta və qədim dünyanın digər mühüm fərqi dini fərq idi. Qədim dünyada hər kəs öz dininə malik idi, bu əslində xalq dini idi, necə ki, incəsənət kimi millətin məhsulu idi. Qədim mifologiyada hər bir xalq özünü idarə edirdi, onu öz obrazına uyğun yaradırdı. Təkcə adamlar deyil, allahlar da vuruşurdular. Ona görə də romalılar qədim dünyanın dövlətlərini birləşdirəndə onların allahlarını öz Panteonuna yığdılar. Doğma torpağından qoparılan ilahi qüvvələr bütünlüklə əhəmiyyətini itirdi. Onlar vətəndən ayrılsa da, Romada özünə yer tapa bilmədilər. Orta əsrlərdə isə tam başqa vəziyyət mövcuddur. Burada bütün bəşəriyyəti bir böyük qardaşlıqda birləşdirən, onlara vahid gələcək vəd edən iki dünya dini - xristianlıq və islam mövcud idi. Qərb xalqlarının qəbul etdiyi din birliyi vahid Avropa sivilizasiyasının meydana gəlməsini şərtləndirdi.

Parçalanmalara və reformasiyalara baxmayaraq, rəngarəng xalq sivilizasiyalarının çoxluğunda Qərb sivilizasiyası nəsə cəm olanı, ümumi Avropa sivilizasiyasını qoruyub saxladı və ona hər bir xalq öz bacını vermişdi. Qədim dünyaya məlum olan dini mübarizələr orta əsrlərdə daha böyük həcmdə yayılmağa başladı, xristianlıqla islamın mübarizəsinə bütöv kütlələr və dini sistemlər qoşuldu. İslamla ilk toqquşmalarda xristianlıq qədim sivilizasiyaların qalıqları ilə örtülmüş bir çox ölkələri təhvil verməli oldu. 11-ci əsrdən isə bu mübarizə digər

dövrəyə girdi, bu dəfə hücumçu hərəkat artıq xristianlığa məxsus idi. Səlib yürüşləri Qərbi Avropa üçün uğursuz olduğundan öz işğallarından əl çəkməli oldu, lakin Avropa bu müharibələrdən digər, ruhi, daxili qələbə əldə etdi. İslamın qələbəsi isə onunla müqayisədə zahiri, xarici idi. İslamın və xristianlığın döyüşünün sonuncu aktı Bizans imperiyasının yıxılması oldu. Bu dövlət o qədər qocalıb zəifləmişdi ki, demək olar ki, təkcə bir şəhərdən ibarət olmağa qədər məhdudlaşmışdı, xristian xalqlarından aralanmışdı. Çünki türklər onların öz döyüşçülərini yığdığı slavyan torpaqlarını tutmağa müvəffəq olmuşdular. İslamın irəliləməsi üçün alınmaz maneə olan Konstantinopol 1453-cü ildə sultan II Mehmet "Fateh"in komandanlıq etdiyi türklərə təslim oldu. 1459-cu ildə Serbiya itirildi, 1470-ci ildə isə Albaniyanın da növbəsi çatdı. Qərbi avropalılar üçün ən qorxulusu 1480-ci ildə türklərin İtaliya yarımadasında sahilə çıxması idi, onlar Otranto şəhərinin işğal edilməsini və onun sakinlərinin yarısının öldürülməsini gördülər. Yalnız 1481-ci ildə Mehmetin vəfatı türklərin italyan torpaqlarını tərk etməsinə səbəb oldu, lakin çoxları qorxurdular ki, "dinsizlər" tezliklə qayıda bilərlər. Türklərə qarşı birləşmiş avropalıların müqavimətini uğursuz təşkil edildiyi vaxtların ortasında Papa II Piy (1458-1464-cü illər) müşahidə etmişdi ki, "Mən üfüqdə yaxşı olan heç nə görmürəm".

Antik millətlər o qədər inadkar idilər ki, onlarda hər şey, hətta din ayrı idi. Millət ideyası isə orta əsrlər dünyasına yad idi, o millətləri tanımırdı, yalnız təbəqələri tanıyırdı. Hər yerdə, Avropanın bütün uc-bucaqlarında feodal sahibin ümumi düşməni - şəhərlər və villanlar idi. Avropanın hər yerində millətlərin yaranması kimi ağrılı proses gedirdi, buradakı iş görənlər monarxlar idi. Ona itaət etməyən icmanı və tabe olmayan qəsri əzmək lazım idi, bu qəsrin divarlarının arxasında sahib özünü eyni qaydadakı ağa və hökmran hesab edirdi. Bu ciddi xüsusiyyətlər qarşılıqlı surətdə əriyib milləti əmələ gətirməli idi. 14-cü və 15-ci əsrlər bu əzablı proseslərlə dolu idi. Onlar heç də zəhmətsiz, dəhşətli mübarizələrsiz əmələ gəlmədi. Feodalizm darmadağın olaraq, siyasi müstəqilliyini itirərək, yalnız hekayətlərdə, ümidlərdə qaldı. Məkan fərqinə gəldikdə bütöv dünya - Amerika əvvəlki torpaqlara əlavə olundu və Avropa öz izafi əhalisini bu ərazilərə ötürdü.

Beləliklə qədim tarixlə münasibətdə olduğu kimi orta və yeni tarixlər arasında dərin fərqlər var idi. Əşyaların bir qaydası yıxılanda hər dəfə yıxılmanı bildirən müjdələr özünü göstərir və yeni həlledici istiqamət yaranır. Orta əsrlərin öz coğrafiyası, öz dövləti, öz kilsəsi və elmi var di. Lakin 15-ci əsrdə yeni bəşəriyyətə əvvəlki hüdudlarında yaşamaq dar gəldi və Xristofor Kolumb elə bil ki, bütün qaçqınlar üçün cazibədar sığınacaq düzəltdi. Orta əsrlərin həm də öz dövləti, öz siyasi nəzəriyyələri var idi. 15-ci əsrin sonunda, 16-cı əsrin əvvəlində Florensiya siyasət filosofu Nikkolo Makiavellinin qorxulu səsi yüksəlir.

Orta əsrlər nəzəriyyələrinin bu qədər kəskin inkarını düşünmək belə çətin idi. Orta əsr kilsəsinin birliyini isə reformatsiya dağıtdı. Lakin orta əsrlər hələ öz əsaslarını axıra qədər itirməmişdi. Nəhayət orta əsr elmi olan sxolastika 14-cü və 15-ci əsrlərdə forma haqqında elm olmaqla orta əsrlərin həqiqətini və anlayışını müdafiə etməkdə öz bəhrəsizliyini göstərdi və Erazm və Reyxlin kimi humanistlərin səyləri ilə darmadağın edildi. Onlardan sonra klassik incəsənəti dərindən öyrənən və ona hörmət edən gənc nəsil dəstəsi yarandı.

Hər yerdə, orta əsrlər yeni həyat arasında ayrılma nəzərə çarpdı. Bəlkə də bəşəriyyətin bütöv tarixində yeni era kimi təntənəli və sevincli dövr olmamışdı. Hətta alimlərin quru tədqiqatları da hansısa bir lirik xarakter daşımağa başladı. Uzun sınaqlar qurtardı: elə görünürdü ki, bəşəriyyətin bütün idealları həyata keçməyə hazırdır. Lakin hadisələr bu ümidləri doğrultmadı. İnsanlar daim səbirsizlik göstərirlər, güman edirlər ki, bu quruluş yıxılanda daha yaxşısı fəaliyyətə başlayacaqdır, lakin tarix tələsmir. O, dağıtdığının xarabalıqlarının çürüməsinə vaxt ayırır və dağıdanlar özləri qoyduqları məqsədi öz gözləri ilə görə bilmirlər. Ona görə də orta əsrlərin salamat qalmış elementləri ilə yeni tələblərin, yeni elmin, yeni ideyaların arası kəsilməyən mübarizəsi gedirdi. Bu yeni tarixə belə dramatik xarakter verir.

# FƏSİL 3
# AVROPA YÜKSƏK ORTA ƏSRLƏRDƏ

1215-ci ildə qəbul edilən baronlarla kilsə xadimlərinin kral Conla bağladığı müqavilə növü olan xartiya - *Magna Carta* zamanın üstə gəldiyi bir sıra əlavələrlə ingilis konstitusiyasının böyük binasının gələcəyini müəyyən etdi. Xartiya böyük əhəmiyyət kəsb etdi, ümumi şüura daxil oldu. Hər bir kral öz hökmranlığı dövründə onu bir neçə dəfə təsdiq edirdi və iki əsr sonra krallar artıq onun əsaslarına məhəl qoymaya bilməzdilər. Bu vaxt ingilis siyasi tarixində ikinci böyük yenilik meydana gəldi və ilk dəfə olaraq orta əsr ingilis idarəetmə sisteminin axırıncı və ən məşhur qanadı olan parlament meydana gəldi. İdarəetmənin ayrıca qolu kimi 13-cü əsrin son dövründə kral Conun nəvəsi və kral III Henrinin oğlu I Eduardın (1272-1307-ci illər) arzusuna uyğun olaraq tədricən yaranmışdı.

Prints Eduard səlib yürüşünə getməkdə özünü sərbəst hesab edirdi və səlibçi kimi şöhrət tapmışdı və Siciliyada o, atasının ölüm xəbərini eşitdi. İngiltərəyə iki il sonra, 1274-cü ildə gəlib çıxdı və ölkədən kənarda olanda baronlar və yepiskoplar ona and içdilər. Yeni kral ümid verən şəxs idi, yaxşı hərbi və mülki təcrübəyə malik idi. İki viranedici kampaniyada Şimali və Qərbi Uelsi anneksiya etdi. Öz işğallarını əbədiləşdirmək üçün burada möhtəşəm qəsrlər tikdirdi. Elə Eduardın pula ehtiyacı olduğu ilk müharibə Uels müharibələrindən birincisi idi. Eduardın qələbəsinin və qanunlarının uğuru 1301-ci ildə onun oğlunun vaxtilə doğulduğu yerin şərəfinə onun ilk dəfə Uels printsi titulu ilə təltif edilməsinə səbəb oldu və bu ənənə artıq səkkiz əsrdir ki, yaşayır. Kralın oğlu Karnarvan qəsrində bu fəxri adı aldı və bu hadisə heç də boş karnaval xarakteri daşımırdı. İlk dəfə idi ki, ingilis taxt-tacının varisi bu titulu daşıyırdı.

Parlament kral mütləqiyyətinə qarşı sonralar nəzarət orqanına çevrilsə də, öz başlanğıcından heç də "xalqın tələbi ilə" yığıldığını iddia edə bilməzdi və həqiqətən də xalqın təmsilçisi olmaq üçün az imkanlara malik idi, daha çox böyük miqyasda yığılan kral feodal sarayı idi. I Eduard güclü kral olmaqla parlamenti dəfələrlə yığmışdı ki, onun xarici müharibələrini maliyyələşdirmək üçün tez pul toplanmaqda ona kömək etsin. O vaxtlar parlamentdə iştirak edənləri təkcə ona görə gözləmirdilər ki, vergi yığmağa öz razılıqlarını versinlər, onlar bundan imtina edə bilməzdilər. Onlar yığışmaqla daha az qısqanclıqla pulu ödəməyə razılıq verməli olurdular. Onlar həmçinin vergini yığmağın və verməyin detalları ilə razılaşa bilərdilər. Bu görüşlərdə Eduard təxirəsalınmaz məsələlər barədə məsləhət alırdı, müstəsna işlər üzrə mühakimə aparırdı, yerli inzibatçılığa baxış keçirirdi, yeni qanunlar elan edirdi. Eduardın parlamentlərini qitədəki bənzər məclislərlə müqayisə etdikdə ingilis parlamenti qraflıqlardan və şəhərlərin nümayəndələrindən və yüksək kübarlardan ibarət idi. Onların təmsilçiləri özlərini çətinliklə "xalq" nümayəndəsi adlandıra bilərdi, çünki İn-

giltərənin əhalisinin çoxu azad edilməmiş təhkimçilərdən və kəndlilərdən ibarət idi, qadınların səs verməsini isə yada salmağa heç ehtiyac da yox idi.

Eduard əsasən maliyyə səbəblərinə görə onları "icmalar"dan yığırdı. Bununla da, həm də monarxiya barədə xoş təəssürat yaradırdı. Vaxt ötdükcə icmaçılar daha tez-tez parlamentə yığışırdı və onun təşkilatının etiraf edilən hissəsinə çevrilmişdi. 14-cü əsrin ortalarından isə onlar müntəzəm olaraq öz "palatalarında" otururdular, lakin onlar hələ də yalnız qraflıqların və xırda şəhərlərin imkanlı əhalisini təmsil edirdilər və adətən tac və ya kübarlar tərəfindən bir alət kimi istifadə edilirdilər.

İngiltərə parlamenti iki - yüksək və aşağı palatalardan ibarət idi. Birincidə baronlar və yüksək mənsəb sahibləri, ikincidə isə rıtsarlar, qraflıqların və şəhərlərin nümayəndələri iclas keçirirdilər. Aşağı palata o dövrdə müstəsna olaraq maliyyə məsələləri ilə məşğul olurdu, onun razılığı olmadan yeni vergilər qoymaq olmazdı. Bu hüquq ona dövlətə xeyli təsir göstərməyə imkan verirdi. Palata müharibəyə zidd çıxa bilərdi və puldan imtina etməklə tezliklə sülhün bağlanmasına nail ola bilərdi. Hər bir vacib məsələdə kralın onun nümayəndələri ilə sövdələşməsi lazım gəlirdi. Beləliklə mübaliğəsiz olaraq demək lazımdır ki, demək olar ki, ingilis xalqının 14-cü və 15-ci əsrlərdə əldə etdiyi bütün mühüm hüquqlar satın alınmışdı - bu kral və aşağı palata tərəfindən bir-birilə güzəşt mübadiləsi idi.

I Eduardın hökmranlığı həm də digər aspektlərdə güclü milli monarxiyanın inkişafının kulminasiya nöqtəsi oldu. Ordunun gücü ilə Eduard bütöv Britaniya adasını birləşdirdi, Uelsi işğal etməklə yanaşı Şotlandiyanı demək olar ki, özünə tabe etdi. Sonuncu tabelik müvəqqəti idi, kralın ölümündən sonra şotlandların mübarizəsi daha şiddətli xarakter aldı. Onun öz dövründə şotland üsyanına başçılıq edən Uilyam Uolles 1305-ci ildə tutulub edam edildikdən sonra, mübarizəyə 1306-cı ildə Şotlandiya kralı olan Robert Bryus başçılıq etdi və Eduard ona qarşı orduya başçılıq edəndə öldü. Uzun çəkən müharibə nəticəsində Bryus 1328-ci ildə Şotlandiyanın müstəqilliyinə nail ola bildi.

Eduard müntəzəm olaraq qanunlar dərc etmək qaydasını tətbiq etdi. Orijinal ictimai qanunvericiliyin bütün səltənət üçün tətbiq edilməsi qeyri-müəyyən idi. Belə qanunvericilik fəaliyyətinə görə Eduard çox vaxt "ingilis Yustinianı" adlanırdı. Daha vacib olanı o idi ki, Eduard öz baronlarının hakimiyyətini özəl məhkəmələr keçirməkdə və öz torpaqlarını feodal malikanələri kimi bağışlamaqda hədd qoymaqla xeyli azaltmışdı. Beləliklə onun hökmranlığının sonunda Uilyam Fatehin baronlara verdiyi müstəqil hakimiyyət onlardan geri alınmışdı. Bunu izah etmək üçün göstərmək lazımdır ki, Yüksək orta əsrlərdə kral özünün idarəetmə institutlarını inkişaf etdirib o dərəcəyə çatdırdı ki, köhnə qaydadakı feodalizm bu vaxt heç də hansısa real xidmətdə buluna bilmirdi. Çünki Eduard öz möhkəm idarəetməsi və maliyyə tələbləri ilə elə təzyiq göstərirdi ki, bunlardan bəziləri dövrün ruhunu da ötüb keçirdi və ona görə də onun ölümündən

sonra monarxiya əleyhinə narazılıqlar başladı. Lakin İngiltərə monarxial institutları tərəfindən idarə edilən birləşmiş ölkə olaraq qalırdı. İngiltərə Yüksək orta əsrlərdə tac ətrafında birləşmişdi və bu birliyi, pozulduğu azacıq istisnalarla axıra qədər saxlaya bildi.

1307-ci ildə ölən I Eduard hökmranlığının sonunda fransız kralından öz müstəqilliyini yenidən əldə edə bilmişdi. 1305-ci il müqaviləsinə qədər Eduard Qaskoniyaya hörmət əlaməti olaraq fransız kralının vassalı olaraq qalırdı. O, həmçinin öz oğlu ilə fransız kralının qızının nikahına nail oldu və bu nikahdan doğulan III Eduard babasının ölümündən otuz il sonra - 1337-ci ildə fransız taxt-tacına olan iddia barədəki köhnə rəqabəti təzələdi. Axı o, anası İzabella vasitəsi ilə Fransa kralının nəvəsi idi. Bununla ilk ingilis-fransız müharibələri başlandı və ümumilikdə onlar fasilələrlə yanaşı 1453-cü ilə qədər davam edərək Yüz illik müharibə adını aldı.

II Eduard isə taxt-taca çıxanda onun 23 yaşı var idi. Bu vaxt krala qarşı müxalifətdə olan ən fəal hersoqlardan biri Lankaster idi. Hökmranlığı dövründə Eduard ölkəni kral favoritlərindən azad etməyə və idarəetmədə öz haqlı yerlərini tutmağa çalışan baronların ciddi narazılığına səbəb olmuşdu. 1311-ci ildə elan edilən ordinansla kral sarayında təyinatlar üçün onun səlahiyyətləri məhdudlaşdırılmış və aradan götürülməsini baronların tələb etdiyi favoriti Piers Qeyviston tutulub edam edilmişdi. Lakin kral homoseksualist olması ilə favoritlərinə yenə meydan verirdi. Ordinans on il sonra ləğv edildi və kralın Despenserlər olan yeni favoritləri də narazılıq yaratmışdı və xüsusən onlar kraliça İzabellanın (Fransa kralı IV Filippin qızı) düşmənçiliyini qazanmışdılar. Març qrafı Rocer Mortimer kraliçanın məşuqu olmaqla ona Despenserləri aşırmaqda köməklik göstərdi və Eduardın özü dustaq edildi. O, öz böyük oğlunun xeyrinə taxt-tacdan əl çəkdi, bu oğul kral III Eduard idi və həmin 1327-ci ildə II Eduard Berkli qəsrində öldürüldü. Bu dəfə Març qrafı titulunu əldə edən Mortimer gənc III Eduardın regenti kimi onun adından krallığı üç il ərzində çapıb talamağa başladı. Lakin gənc kralın uğurlu gedişi ilə onun silahlı adamları onu tutdular, Mortimer parlamentdə məhkum edildi və dar ağacından asıldı. İngiltərə yenidən həqiqi krala sahib olmuşdu, Mortimerin müttəfiqi olan kraliça İzabella isə daha otuz il yaşadı.

III Eduard Şotlandiya taxt-tacının II Deyviddən alınmasındakı cəhddə daxili müxalifətə köməklik göstərdi və döyüşdəki qələbəsindən sonra onu Fransaya qaçmağa və orada sığınacaq axtarmağa məcbur etdi. 1337-ci ildə Fransa kralı VI Filipp müsadirə məqsədi ilə Qaskoniyaya daxil olduqda, Eduard Fransa taxt-tacına olan öz varislik iddiasını təzələdi, bununla da Yüz illik müharibə başlandı. O, dörd il sonrakı dəniz döyüşündə fransız donanmasını darmadağın etdi. İngilislər Bretanı və Kaleni möhkəmləndirdilər. 14-cü əsrin dəhşətli hadisəsi olan taunun - Qara ölümün qarəti fasilə verdikdən sonra Eduardın oğlu Qara Printsin başçılığı altımda ordu Bordodan hərəkət etdi, bu şəhər həmin vaxt Qaskoniyadakı ingilis ərazisi idi. Fransanın cənubi-şərqindəki, Aralıq dənizi üstündəki Nar-

bonna qədər, şimalda isə Orleana tərəf yürüş edib həmin əraziləri qarət etdi. 1356-cı ildə Puatyedəki Potiyersdə Qara Prints Fransa kralı Mərhəmətli Janın başçılıq etdiyi ən böyük ordu ilə qarşılaşdı. İngilislər yenə qalib gəldilər və Jan ikinci kral idi ki, özünün əsir sifətində olduğunu gördü. Bunun Fransaya təsiri böyük idi. Kralın olmaması siyasi parçalanmanın meydana gəlməsinə səbəb oldu. Fransızlar 1360-cı ildə alçaldıcı sülhə razılıq verdilər. Fransız taxt-tacına öz iddiasından əl çəkmək üçün Eduard demək olar ki, bütün Cənubi-Qərbi Fransanın sahibi oldu, bu bütün krallığın üçdə birinə yaxın idi. Janın girovla alınması Eduardın beş illik normal gəlirinə bərabər olan bir məbləği ona bəxş etdi.

1369-cu ildə Qara Printsin səhhəti korlandı və Eduardın uzun müddətli yarım kəmağıllığı başlandı. 1375-ci ildə ingilislər Kaledən uzaqdakı bütün fransız torpaqlarını itirdi, Bordo ətrafı, bir neçə qiymətli Bretan limanları əldən getdi. 1370-ci ildən 1413-cü ilə qədər vəziyyət İngiltərənin özündə çox pis idi. Taun burada epidemiya olmaqla yanaşı, həm də endemik sayılırdı. Ən pisi isə o idi ki, Eduardın idarəetmə qabiliyyəti onun qələbələrinin qısa müddətli şərəfindən uzun çəkmirdi. 1370-ci illərdə o, məşuqəsi tərəfindən idarə edilən yaşlı dul kişi idi. Kralı digər idarə edənlər isə onun ordudakı keçmiş silahdaşı, bu vaxt xəzinədar kimi xidmət göstərən Latimer və ambisiyalı Arıq Con idi. Onlar 1376-cı ildə Mərhəmətli parlament tərəfindən rüşvətxorluqda ittiham edildilər, lakin bunun elə bir səmərəsi olmadı. 1377-ci ildə Eduardın ölümü qarışıqlığı daha da artırdı.

İngilis taxt-tacına 1413-cü ildə V Henri sahib olanda Fransada vəziyyət əvvəlkinə nisbətən pis idi. Uşaq yaşında Fransa taxt-tacını qəbul edən VI Karl 12 il sonra, 1392-ci ildə dəliyə çevrildi və özünün 1422-ci ildəki ölümünə qədər belə vəziyyətdə də qaldı. 1419-cu ildən 1435-ci ilə qədər Burqundiyanın ingilislərlə müttəfiq olması müstəqil fransız taxt-tacının mövcudluğunu sual altında qoymuşdu. Qitədəki Anju qələbəsi ingilislərin 1704-cü ildəki Blenheym qələbəsinə qədər ən mühüm hərbi qələbəsi idi. 1422-ci ildə vaxtsız vəfat edən V Henri yəqin ki, ingilis dilindən istifadə etməyə qabil olan ilk ingilis monarxı idi. Onun bütün Normandiyaya faktiki nəzarəti ələ keçirməsinin əhəmiyyəti Anjunun nəticəsindən az idi. 1420-ci ildə bağlanan müqaviləyə görə VI Karlın qızı Katerina Valu Henriyə ərə verildi və bu, Henrini dəli qoca kralın açıq-aydın varisi etdi. Lakin onların bir-birinin ardınca ölümləri körpə VI Henrini eyni dərəcədə potensial olaraq İngiltərə və Fransa kralına çevirdi. Bu vaxt VI Henri doqquz aylıq körpə idi, 15 il sonra onun uşaqlığı başa çatanda tam hökmranlıq etməyə başladı və bacarığını göstərmək imkanı qazandı. Bu vaxt V Henrinin qardaşları, daha səriştəli Bedford hersoqu Con və Qloster hersoqu Hemfri, həmçinin onların əmisi Henri Byufort arasında söz-söhbət qalxmağa başladı. 1447-ci ildə Byufort və Qloster öldülər, bu vaxt Saffolk hersoqunun nüfuzu xeyli yüksəldi. Saffolk Qlosteri xəyanətə görə həbs etdirmişdi, sonra Saffolk öldürüldü.

Minlərlə yomen, işçi, tacir və sənətkar kralı müdafiə edən şər yönlü müşavirlərə hücum etdilər. Bu müşavirlər kralı qanundan üstün tutur və adamların

bütünlüklə kralın sərəncamında olduğunu iddia edirdilər. Onlar həm də hakimlərin və jüri üzvlərinin rüşvətxorluğunu məhkum edirdilər, yalnız kralın təkbaşına kimin xəyanətkar olub-olmamasını müəyyən etməsi qaydasını da pisləyirdilər. 1458-ci ildə Henri ruhi pozğunluqdan əziyyət çəkirdi və bu, onu 16 ay iqtidarsız vəziyyətə saldı. Elə həmin il onun arvadı Marqaret Anjulu gözlənildiyinin əksinə olaraq krala oğul doğdu. 1460-cı ildə Yorkların tərəfdarı kimi Varvik Solsberi qrafı olan atası ilə və Març qrafı, Yorkun 18 yaşlı oğlu IV Eduard ilə birlikdə İngiltərədə sahilə çıxdılar, Londonu işğal etdilər və Northampton döyüşündən sonra Lankasterlərdən olan kral VI Henrini əsir götürdülər və onu paytaxta geri qaytardılar. York bu vaxt hər şeyi həll edib çalışırdı ki, elan etsin ki, İngiltərənin qanuni kralı Henri yox, o, özüdür. Dörd il bundan əvvəl Lankasterlər müvəqqəti olaraq kifayət qədər qüvvəyə malik olmuşdular və Yorkları xəyanətkar elan etmişdilər. Lordlar kompromiss təklif etdilər: York Uels printsi olmaqla səltənətin protektoru və Henrinin həqiqi varisi olmalı idi. Marqaret Anjulu tərəfindən təşkil edilən Lankasterlərin cavabını gözləmək lazım gəlmədi. Kraliçanın qoşunları 1460-cı ildə Uenfilddə onları əzdi və York özü öldürüldü. Lankaster ordusu darmadağın edildi. Eduard özünü 1461-ci ildə kral olduqdan sonra müstəqil aparmağa cəhd edəndə Varvik Lankasterlərə qoşuldu və kralı Hollandiyaya qaçmağa məcbur etdi, VI Henrini taxt-taca bərpa etdi. 1471-ci ilin əvvəlində digər toqquşmada Varvik də IV Eduard tərəfindən döyüşdə məğlub edildi və öldürüldü, lakin VI Henrinin devrilməsindən sonra York hersoqunun böyük oğlu IV Eduard kral oldu. Sonra isə 1473-cü illə 1483-cü il arasında kral hakimiyyətini bərpa etdi. O, Tüdor sülaləsinin bütün nailiyyətlərinin VII Henridən daha çox banisi hesab olunur. Elə bu vaxt 1483-cü ildə Fransada kral XI Lui öldü, onun varisi körpə idi. Elə həmin 1483-cü ildə IV Eduard da öldü və onun iki oğlu qaldı. Atasından sonra İngiltərə taxt-tacına çıxan V Eduardın 12 yaşı var idi. Lakin atasının onun regentliyinin arvadınınmı, yaxud öz qardaşı Qloster hersoqu Riçardın icra etməsini istəməsi dəqiq məlum deyildir. Qloster öz qardaşına böyük loyallıqla xidmət edirdi və şimalı səmərəli idarə edirdi. Lakin o, yaxşı bilirdi ki, qardaşının arvadı Elizabetin mənsub olduğu Uorldvillər onu məhv etmək istəyirlər, buna görə də onların başçısı Riversi həbs etdirdi və iki aydan sonra, 1483-cü ilin iyununda gənc kralın səlahiyyətlərini öz üzərinə götürdü və öz-özünü protektor elan etdi. IV Eduardın keçmiş tərəfdarları xəyanətdə ittiham edildi və onların hamısı edam edildi. Riçard IV Eduardın Elizabet Uordvillə gizli nikahını qanunsuz elan etdi, beləliklə, onun oğlu V Eduard da qanunsuz krala çevrildi. Təntənəli qaydada III Riçard adı altında ona tac qoyuldu. V Eduard və onun kiçik qardaşı Tauer qalasına salındı və onları heç vaxt bir daha diri görən olmadı.

Riçardın digər mühüm müdafiəçisi olan Bukingem hersoqu Henri Safford 1483-cü ilin sonunda onun yanından qaçdı və Henri Tüdorun sürgün edilməsi əhvalatları başlandı. Qraf Henri Riçmond Lankaster deyildi, Varviklərin Tüdor

ailəsindən çıxmışdı. Lakin Bukingemin Henrinin tərəfində qalxması cəhdi uğursuz oldu. Bukingem əsir götürüldü və edam edildi. Kral olduqdan bir il sonra Riçardın oğlu, o biri ili isə arvadı öldü. Bu iki hadisə Lankasterlərin ümidini artırdı. Riçard da Henri Tüdorun xeyrinə fransız müdaxiləsindən qorxurdu. 1485-ci ilin yazında Henri gəlib çıxmadı, çünki o, Bukingemi məhv edən uğursuzluğun təkrarından qorxurdu. Henri 1485-ci ildə İngiltərəyə qayıdıb Lesterşerdəki Bosvortda Riçardla üz-üzə gələndə kral özünə az kömək cəlb edə bilmişdi. Henrinin beş min nəfərlik qüvvəsi ikinin birə qarşı üstünlüyündən xəbər verirdi. Ancaq Riçard xəyanət nəticəsində məğlub oldu. Heç kəs ona görə ölümə getməyə risq etmirdi. Riçard ümidsizlikdən rıtsar səhvinə yol verərək, Henrinin şəxsi əlbəyaxa vuruşmaq çağırışına cavab şəklində özünü irəli atanda, ordusundan aralı düşdü və öldürüldü. III Riçardı məğlub edən Henri VII Henri kimi kral oldu.

Mənşəcə uelş olan VII Henri ağıllı adam idi, onu əvəz edəcək oğlundan və nəvələrinin hökmranlığının onunkuna bənzəməyəcəyini başa düşürdü. Onun dövründə daxili çəkişmələrə son qoyuldu. O, özü səbəb olmadan qan axıtmırdı, lakin kimin başı ona təhlükəli görünsə heç bir xidmət bu şübhələnən adamı xilas edə bilmirdi. Onun sıxışdırıb çıxardığı York sülaləsinin üsyanlarına son qoymaq üçün o, Eduardın böyük qızı Elizabetə evləndi. O, bu taxt-tacı döyüşdə əldə etmişdi və bu allahın iradəsi hesab olunurdu. Ondan sonra Tüdor monarxiyası çox gözə çarpan oldu, onun öz hökmranlıq dövrü daha çox sülalənin prelyudiyası kimi görünürdü.

VII Henri hökmranlığına olduqca çətin şəraitdə başlamalı oldu. Parlamentin ilk yığıncağında birinci palatada iştirak edənlərin sayı 20-dən artıq deyildi. Digərləri daxili ixtilaflarda və kralın özünün təqibi nəticəsində həlak olmuşdular. Torpaqların xeyli hissəsi becərilmirdi, xalq müharibə ilə yaşamağa adət edərək vəhşiləşmişdi. Elə sərt qanunlar dərc etmək lazım idi ki, nəsə bir qayda yaradılsın. Salamat qalan az sayda torpaq sahibləri özlərinə ordu saxlayırdılar. Henri bunu xüsusi qanunla qadağan etdi. Sonra o, aşağı palatanın şübhəli yumşalmasına müraciət etməmək üçün yeni gəlir mənbəyi tapdı. O, özünü təcrübəli hüquqşünaslarla əhatə etdi, onlar ölkəni gəzib çoxlu məhkəmə prosesləri aparırdılar. Onların araşdırılması üçün xüsusi mühakimə - Ulduz kamerası düzəldildi. Bu yolla kral İngiltərənin bütün mülkiyyətini müsadirə etdi. Hüquqşünaslar xəzinənin varlandırılması məqsədini güdürdülər. Mülkiyyət sahibləri pul verməklə canlarını qurtara bilərdilər, ittiham ediləndən təqsirinə görə xeyli məbləğdə pul tələb edirdilər, bəzən belə olurdu ki, həmin adam bu pulu verə bilmirdi və bu vaxt kral yazırdı: "İlk dəfəyə filankəsdən bir belə alın, qalan məbləğin ödənmə müddətini təxirə salın və onu buraxın". Belə siyasətin nəticələrini müəyyən etmək çətin deyildir. İngilislər üçün fərqləndirici xüsusiyyət olan hüquq, qanunçuluq hissi xeyli dərəcədə zəiflədi. Parlament nadir hallarda çox vacib olanda yığışırdı, xalq onun yığıncaqlarına adətini tərgitmişdi, kral hakimiyyəti böyük uğurlar qazanmışdı. Güman etmək olardı ki, ingilis institutları-

nın 12-ci əsrdən 15-ci əsrə qədər olan hərəkəti faydasız və bəhrəsiz imiş. Digər tərəfdən Henri bir mənfi qabiliyyətdən kənarda idi, o, Avropa qitəsindəki müharibələrə meyl etmirdi və daha çox dövlətin daxili rifahını gücləndirmək istəyirdi. Ona görə də 1509-cu ildə öləndə oğluna elə bir zəngin xəzinə qoyub getdi ki, həmin vaxt ona bərabəri yox idi.

Sülalənin irs iddiası isə 1066-cı ildən sonra gələn bütün monarxlarınkından zəif idi, iki kişi və iki qadından ibarət olan varisləri var idi. VII Henrinin nənəsi V Henrinin fransız dul qadını Katerina Valu, babası isə bu qadının ikinci əri olan Ouen Tüdor idi. Onun anası IV Henrinin nəvə qohumu olan Marqaret Byufort idi. Onun diplomatiyası öz kübarlarından aralanmağı, Avropa sülalələri siyahısına daxil olmağı nəzərdə tuturdu.

O, öz oğlunu İspaniyanın yüksələn monarxlar Ferdinand və İzabellanın qızı Katerina Araqonluya evləndirdi və öz qızı Marqareti isə Şotlandiya kralı IV Ceymsə ərə verdi. O, əlbəttə ki, daha bərk əsən küləklərdən istifadə etməyə üstünlük verirdi. Həmin dövrlərdə 40 yaş qoca hesab olunurdu. O, özü V Henrinin ögey nəvəsi olduğu kimi, arvadı Elizabet də həmin kralın qohumu idi və əsrin sonunda onlar qoca yaş sayılan 40-a yaxınlaşırdılar. Həm də Henri heç vaxt əmin ola bilməzdi ki, o, əbəs yerə əziyyət çəkir. Varisləri və nəvəsi Mariya kimi o, valideynlik məsələsində az xoşbəxt idi. 1502-ci ildə onun böyük oğlu Artur 16 yaşında öldü, onun arvadı Katerina Araqonlu beləliklə dul qaldı və bütün ümidlər indi sağ qalan 11 yaşlı prints Henriyə dikilmişdi. Bu uşaq cəsarətli gənc kimi böyüyürdü və 1509-cu ildə VIII Henri kimi taxt-taca sahib oldu. Bu vaxtdan etibarən güc tətbiq edilməklə kralların yeddi dəfə taxt-tacdan qovulması, beş hökmranın və iki vəliəhdin zorakılıqla öldürülməsi dövrünə birdəfəlik son qoyuldu. VIII Henri kral elan edildikdən bir az sonra qardaşı Arturun dul qadını 24 yaşlı Katerina Araqonluya evləndi.

Fransada isə idarəetmə birləşməsi prosesi nisbətən yavaş gedirdi. Çünki 11-ci əsrdə bu dövlət İngiltərəyə nisbətən daha çox desentralizasiya olunmuşdu və daha böyük problemlərlə üzləşmişdi. 987-ci ildə zəif Karolinq krallarından axırıncısı Paris qrafı Hüqo Kapet tərəfindən əvəz edilməklə yeni Kapetinq sülaləsi meydana gəldi və bu sülalə 1328-ci ilə qədər fasiləsiz olaraq hökmranlıq etdi. Bu ilk növbədə Karolinqlərdən daha güclü idi. Hətta 12-ci əsrin çox hissəsi ərzində Fransa kralları birbaşa yalnız Paris ətrafındakı kiçik bir ərazini idarə edirdilər. Bu ərazi İl-de-Frans kimi tanınırdı. Bu olduqca kiçik ərazi idi, təqribən Azərbaycan ərazisinin üçdə birinə bərabər idi. Hersoqlar və qraflar isə indiki Fransa ərazisinin böyük hissəsini idarə edirdilər. Bu hersoqlar və qraflar demək olar ki, bütünlüklə müstəqil idilər. Belə bir əhvalat vardır ki, Fransa kralı birinci Normandiya hersoqundan ehtiram tələb edəndə hersoq öz döyüşçülərinin birinə həvalə etdi ki, kralın ayağını öpsün. Bu vaxt həmin döyüşçü kralın ayaqlarından yapışıb onu arxası üstə yerə yıxdı. Bu iştirak edənlərin hamısının istehzasına səbəb oldu. Fransız krallığı çox zəif olanda Fransanın müxtəlif his-

sələri özlərinin ayrıca yerli ənənələrini və dialektlərini inkişaf etdirirdilər.

Uilyam Fateh İngiltərəni irs kimi qəbul edəndə ölkə artıq birləşmişdi və parçalanmaq ərəfəsində idi, fransız kralları isə yüksək orta əsrlərdə öz ölkəsini xırda-xırda hissələrdən yığıb birləşdirməli idilər və yalnız Karolinq birliyinin qeyri-müəyyən xatirəsini dirçəltmək istəyirdilər. Bir sıra məsələlərdə xoşbəxtlik onların tərəfində idi. Hər şeydən əvvəl yüz illər ərzində onları əvəz edən geniş növdən olan varislərə malik olmuşdular. Nəticədə varislik üstündə elə bir ciddi söz-söhbət, mübahisə baş vermirdi. İkinci yerdə o idi ki, Fransa krallarının çoxu irəli gedən dövrdə yaşamışdılar, onların hər birinin orta hesabla hökmranlıq dövrü otuz ilə bərabər idi. Bundan əlavə Fransa kralları daim yüksək dərəcədə, gözə çarpan idilər. Kralın uzun müddət taxt-tacda olması onların oğullarının kamil adamlar kimi hakimiyyətə gəlməsinə şərait yaradırdı və çox az printslərin dövründə regentliyin mövcudluğuna ehtiyac yaranmışdı.

Hər yerdə hakimiyyət mübarizəsi gedəndə qonşuluqda yaşayan xalqlar qeyri-stabil dünyada krallığa stabillik gücü kimi baxırdılar. Üçüncü əlverişli şərait ondan ibarət idi ki, kralların doğma regionlarında inkişaf etmiş kənd təsərrüfatı və ticarət böyüyürdü. Bu onların gəlirləri üçün mühüm mənbə idi. Dördüncü xoş cəhət ondan ibarət idi ki, krallar papalardan özünə dəstək almağı bacarırdılar, çünki axırıncılar alman imperatorlarla arası kəsilməyən mübarizədə adətən belə müttəfiqlərə ehtiyac duyurdular. Papalar vaxtilə Karolinqlərə olduğu kimi, fransız krallarına nüfuz borcu verirdilər və onlara yerli kilsələr üzərində birbaşa hakimiyyət icazə verirdilər. Bu himayəçilikdən və hakimiyyətdən krallar əlavə gəlir və nüfuz qazanırdılar. Fransız krallarının xeyrinə olan digər cəhət isə 12-ci və 13-cü əsrlərdə Avropada aparıcı təhsil mərkəzi olan Paris universitetinin böyüməsi idi. Əcnəbilər bu universitetə axışırdılar, onlar fransız krallarının artan nüfuzuna öyrəşirdilər və öz təəssüratlarını vətənlərinə qayıdanda orada yayırdılar. Bütün bunlarla yanaşı, bir sıra fransız krallarının özlərinin hiyləgərliyi və cəsarəti onların uğurlarında az rol oynamırdı.

İlk diqqəti cəlb edən Kapetinq kralı VI Lui "Şişman" (1108-1137-ci illər) idi. Lui ən azı öz vətənində dinclik yarada bildi, İl-de-Fransdan "soyğunçu baronların" qarışıqlığını yatırdı və ya onları öz ərazisindən qovdu. Bu əldə edildikdən sonra kənd təsərrüfatı və ticarət inkişaf etdi və Parisin əqli həyatı çiçəklənməyə başladı. Bundan sonra fransız kralları alman hökmdarı Fridrix Barbarossanın axtardığı, lakin tapa bilmədiyi hakimiyyətin coğrafi mənbələrinə malik idilər.

Öz səltənətlərinə həqiqi heyrətləndirici əlavəni Luinin nəvəsi Filipp Avqust (1180-1223-cü illər) etdi. Filipp ingilis kralı Condan fransız ərazisinin qərbinin xeyli hissəsini qoparmaq üçün mövcud feodal hüquqlarından necə faydalanmağı bilirdi. O, döyüşdə əldə etdiklərini necə qorumağı da kifayət qədər bilirdi və qətiyyətli idi. Hər şeydən daha nəzərə çarpan o idi ki, Filipp özünün yeni əldə etdiyi torpaqları necə idarə etmək formulasını da işləyib hazırlamışdı. Bütün bunlar onun hökmranlığa başladığı vaxtdakı torpaqları dörd dəfəyə yaxın böyü-

də bilmişdi və həmin vaxtdan hər bir yeni ərazi özünün yüksək dərəcədə fərqli olan adətlərinə malik idi, ona görə də köhnə inzibati sistemə bənzəyən idarəetmə standartlaşdırılması olduqca ümid verməyən bir iş idi. Bunun əvəzində Filipp öz yeni əyalətlərinə yerli idarəetmə praktikalarından çoxunu davam etdirməyə icazə verdi, lakin onların üzərində "beyli" adlanan yeni kral qulluqçuları təyin etdi. Bu vəzifəli şəxslər bütünlüklə Filippə loyal idilər, çünki onlar heç vaxt xidmət etdikləri regionlardan gəlmirdilər və onlara hər gün üçün yaxşı maaş verilirdi. Onlar öz beyliliklərində - həvalə edilmiş ərazilərdə tam hüquqi, inzibati və hərbi hakimiyyətə malik idilər. Kral göstərişlərinə uyğun olaraq onlar regional rəngarəngliyə, müxtəlifliyə dözümlü yanaşmaqla yanaşı, onu kralın xeyrinə doğru istiqamətləndirirdilər. İşğal edilmiş torpaqlarda heç bir qiyam baş vermirdi və kral hakimiyyəti yüksəlirdi. Yerli müxtəlifliyin bu nümunəsi bürokratik mərkəzləşmə ilə tarazlaşırdı və bu tarazlıq fransız idarəetməsinin təməl modelinə çevrildi. Bu nöqteyi-nəzərdən Filipp Avqust müasir Fransa dövlətinin mühüm banisi sayıla bilər.

Filippin oğlu VIII Luinin üç illik hökmranlığı dövründə Fransanın demək olar ki, bütün cənubu dini küfrə qarşı müdaxilə adı altında taxt-tacın torpaqlarına əlavə olundu. Birləşdikdən sonra bu ərazilər əsasən Filippin tətbiq etdiyi prinsiplər əsasında idarə olunurdu. Sonrakı kral IX Lui (1226-1270-ci illər) o qədər dindar idi ki, sonralar kilsə tərəfindən kanonlaşdırılmışdı və Müqəddəs Lui kimi tanınmışdı. O, ölkəni möhkəm qaydada, yəhudilərə və dinsizlərə qarşı böyük dözümsüzlüyü istisna olunmaqla, həm də ədalətli qaydada idarə edirdi, bütün ölkə üçün standartlaşdırılmış sikkə buraxdırmışdı, məhkəmə sistemini təkmilləşdirmişdi və Fransanı daxili dincliyin uzun qızıl dövrünə daxil etmişdi. Ona görə də onu çox sevirdilər və monarxiya ondan sonrakı bir çox illərdə də onun nüfuzundan faydalandı. O da bir qədər İngiltərə kralı Riçard Şir ürəklinin taleyini yaşamalı oldu. Səlib yürüşündə iştirak etdi, lakin Misirdə əsir götürüldü və pul girovu hesabına əsirlikdən azad edildi. Ömrünün sonunda o, yeni səlib yürüşü həyata keçirmək istəyirdi, lakin taun xəstəliyindən ölümü buna mane oldu.

Onun nüfuzu rəhmsiz nəvəsi Qəşəng IV Filipp (1285-1314-cü illər) tərəfindən az qala bədxərcliklə itirilməyə yaxınlaşdı. Filipp çoxlu döyüşlər keçirdi ki, fransız ərazisini şimalda və cənubi-qərbdə əhatə edən torpaqları tutsun və Romadakı Papa ilə şərik olmaq əvəzinə fransız kilsəsinə tam nəzarəti əldə edə bilsin. Bütün bu fəaliyyət onu məcbur edirdi ki, idarəetmənin mərkəzləşdirilməsi prosesini sürətləndirsin, başlıca məqsədi isə daha çox pul əldə etmək idi. Bununla onun hökmranlığı orta əsr fransız hökumətini inkişafın tamamlanmasına yaxınlaşdırdı, bir sıra inzibati institutlar tezliklə formalaşdırıldı. Bu mənada onun fəaliyyəti müasiri İngiltərə kralı I Eduardınınkına bənzəyirdi. Filippin dövründə həmçinin məclislər toplanırdı və bu bir qədər ingilis parlamentinə bərabər idi, lakin sonra "Baş ştatlar" adlanan bu məclislər fransız idarəetmə sistemində heç vaxt mərkəzi rol oynaya bilmədi. Qəşəng Filipp öz həyata keçirdi-

yi risqli tədbirlərinin çoxunda uğurlu olurdu, hər şeydən əvvəl o, Papanı faktiki olaraq fransız marioneti səviyyəsinə endirdi. Onun ölümündən sonra ölkədə elə həmin vaxt İngiltərədə olan kimi antimonarxiya narazılığı baş verdi, lakin onun hökmranlığı dövründən Fransa Avropadakı ən qüdrətli dövlətə çevrildi. 16-cı əsrdəki fasiləni nəzərə almaqla bu 19-cu əsrə qədər davam etdi.

Bu dövrdə İngiltərədə və Fransada monarxiya mərkəzləşməsi və millətin yaranması kimi oxşar proseslər cərəyan edirdi, sonrakı əsrlərdəki inkişafın fərqlərini də tipik etdi. İngiltərə Fransaya görə kiçik ölkə olduğundan daha yaxşı birləşmişdi. Uels və Şotlandiyadan başqa Britaniyada elə bir region yox idi ki, onların dil və ya ənənələrinin fərqləri bu sakinləri dövlətdən ayrılmaq barədəki fikirə gətirib çıxarsın. Müvafiq olaraq burada elə kübarlar yox idi ki, regional hiddəti separatizmə doğru istiqamətləndirə bilsin. Bu o demək idi ki, İngiltərə heç vaxt real olaraq daxili parçalanma təhlükəsi ilə üz-üzə gəlməyəcəkdi və parlament kimi möhkəm birləşmiş milli idarəetmə institutlarını inkişaf etdirə biləcəkdir. Bu həm də o demək idi ki, ilkin olaraq II Henridən başlayaraq ingilis kralları çox sayda yerli zadəganlara, hər şeydən əvvəl rıtsarlara arxalana bilərdi. Bu onlara haqq ödəmədən yerli idarəetmənin yaxşı fəaliyyət göstərməsinə şərait yaradırdı. Açıqca fayda onda idi ki, yerli idarəetmə çox ucuz başa gəlirdi, həm də sistemin gizli xüsusiyyəti ondan ibarət idi ki, belə idarəetmə populyar olmalı idi, digər tərəfdən könüllü işin çoxu hansısa tərəddüdü aradan qaldırırdı. Şübhəsiz, bu başlıca səbəb idi ki, ingilis kralları öz hərəkətləri üçün formal razılıq axtarmalı olurdular. Onların bəziləri açıqca hökmranlıq etməyin mümkün olmadığını gördükdə müdrikliklə ibrət dərsini öyrənirdilər və bu dövrlərdə İngiltərə aydın şəkildə məhdud monarxiyaya çevrilirdi. Fransız kralları isə əksinə varlı və daha iri ölkəni idarə edirdilər və bu ölkə onlara kifayət qədər sərvət verirdi ki, həm mərkəzi, həm də yerli səviyyələrdə daha bürokratik və maaş alan inzibatçılığı saxlaya bilsinlər. Fransız kralları ona görə də daha mütləq qaydada hökmranlıq edə bilirdilər, lakin onlar ardıcıl olaraq regional separatizmin ciddi təhlükələri ilə üzləşirdilər. Müxtəlif regionlar öz ənənələri ilə öyünməkdə davam edirdilər və yuxarı kübarlıq ilə birlikdə mərkəzdən qaçma meyllərini dəstəkləyirdilər. Beləliklə fransız kralları bir sıra hallarda regional parçalanma cəhdləri ilə mübarizə aparmalı olurdular və öz kübarlarını tabe etdirmək üçün müxtəlif tədbirlərə əl atırdılar.

Bu dövrün xeyli hissəsini Fransa mübarizədə keçirdi, çünki Fransa ilə İngiltərə arasında Yüz illik müharibə gedirdi. Bu müharibə münaqişələr seriyasından ibarət olmaqla adında göstərilən müddətdən də çox davam etmişdi. 1337-ci ildə başlayıb 1453-cü ildə başa çatmışdı. Bu uzun çəkən mübarizənin bir neçə müxtəlif əhəmiyyətli səbəbləri var idi. Başlıca və uzun sürən problem ingilis krallarının Fransa torpaqlarını öz əllərində saxlamaq istəyi idi. 14-cü əsrin başlanğıcında ingilis kralları hələ də fransız tacının vassalları kimi Qaskoniya və Akvitaniya kimi cənubdakı münbit fransız torpaqlarını idarə edirdilər. Filipp Avqustun hökmranlıq etdiyi vaxtdan fransızlar öz idarəetmələrini genişləndirmiş və kon-

solidə etmişdilər, qabaqcadan ingilisləri qovmağa ümid etdiklərindən, müharibəni labüd hesab edirdilər. Mübarizə üçün digər səbəb isə o idi ki, flandriyalılarla ingilislərin yun ticarətinə əsaslanan iqtisadi maraqları, fransız idarəetməsinə qarşı təkrar olunan flemiş burgerlərinin qiyam cəhdləri həmçinin buna əsas yaradırdı. Nəticədə fransız taxt-tacına birbaşa Kapetinq xəttindən olan varis 1328-ci ildə öldükdə azad olan bu sülalənin yerini ona qohum olan Valu sülaləsi tutdu və buna görə də özlərini nikah qohumluğunun nəticəsi kimi Kapetinqlərin törəmələri hesab edən ingilis kralları fransız taxt-tacına öz iddialarını bildirdilər.

Fransa başlanğıcda İngiltərəni məğlub etmək üçün heç bir çətinlik çəkməməli idi, Avropanın ən varlı ölkəsi olmaqla əhalisinin sayı cəhətincə də İngiltərədən xeyli üstün idi. Lakin buna baxmayaraq, Yüz illik müharibənin ilk üç rübündə ingilislər həlledici döyüşlərin çoxunda qələbə qazandılar. Bunun bir səbəbi o idi ki, ingilislər yüksək hərbi taktikaya yiyələnmişdilər, yaxşı təhsil görmüş oxatanlara malik idilər. Üç ən böyük döyüşdə sayca çox olan ingilislər yaxşı intizama və uzun nizələrə arxalanaraq fransızları acı məğlubiyyətə uğratdılar. İngilis uğurunun digər bir səbəbi isə müharibənin Fransa torpağında aparılması idi. İngilis əsgərləri asanlıqla döyüşürdülər, çünki onlar səbirsizliklə qarəti gözləyirdilər, bu vaxt onların vətəni müharibə bədbəxtliyindən əziyyət çəkmirdi. Ən pisi isə o idi ki, fransızlar çox vaxt parçalanmış olurdular. Fransız taxt-tacı daim əyalətlərin muxtariyyət qazanmalarından qorxurdu. İngilislər fransızların parçalanma meyllərini qızışdırırdılar, bir çox kübar əyalət rəhbərləri düşmənlə ittifaqa girir və öz xeyirlərini axtarırdılar. Daha dramatik hadisə Burqundiyanın qopub ayrılması oldu, onun hersoqları 1419-cu ildən 1435-ci ilədək ingilislərlə ittifaqda oldular. Onların bu hərəkəti müstəqil fransız tacının mövcudluğunun özünü sual altında qoyurdu.

Belə bir faciəli anda Fransada Janna D`Ark kimi qəhrəman şəxsiyyət meydana çıxdı. Janna Lotaringiyanın Domremi-la-Pusell kəndində anadan olmuşdu. Yeniyetmə yaşında o, kiçik mehmanxanada qulluqçu işləyəndə tez-tez müsafirlərin atını sulamağa meşəyə aparır və burada onun gözünə müqəddəslər görünürdü. Nəhayət o, özünü inandırdı ki, onun üzərinə Fransanı azad etmək missiyası düşmüşdür və 16 yaşında o, hərbi komendantın köməyi ilə Dofinin yanına gedib çıxa bilmişdi. Dofin Karlın razılığını aldıqdan sonra Orlean şəhərini ingilislərin mühasirəsindən xilas etmək üçün kiçik ordu ilə ora yollanmış və 1429-cu ilin mayında bu 17 yaşlı qız ingilis qoşunlarını Orleandan geri çəkilməyə məcbur etmişdi. Bu Fransada ruh yüksəkliyini, öz qüvvələrinə inamı xeyli artırmışdı, müharibədə dönüş əmələ gətirmişdi. Sonra o, Dofini Reymsə gəlməyə inandırmış və onun başına VII Karl adı altında kral tacı qoyulmuşdu. Bu mərasimdə Janna kralın yanında öz bayrağı ilə dayanmışdı. Lakin sonra Parisə hücum uğursuz oldu və Janna ağır yaralandı. O, üst-üstə "iyirmi qələbə" qazanmışdı. O, Parisi Fransaya qaytarmağı çox arzulayırdı. Kompyen qalasının düşmənə təslim edilməsi barədə kralın qərarına əleyhinə çıxıb, altı min adamla şəhər sakinlərinə kömək göstərməyə cəhd etdi, lakin Kompyen şəhərinin vali-

si qaldırılan körpünü çəkdi və 1430-cu ilin martında Janna burqundiyalıların əlinə keçdi. Burqundiyalılar isə onu ingilislərə satdılar. Sonra o, cadugərlikdə və küfrdə ittiham edilərək fransız ruhaniləri tərəfindən Ruanda uzun, rəhmsiz və ədalətsiz mühakiməyə məruz qaldı.

Bu savadsız kəndli qızı olduqca qəddar və qərəzli mühakimədə həm də böyük iradəyə və müdrik ağıla sahib olduğunu göstərdi. Bütün il boyu onun taleyi qeyri-müəyyənlikdə qaldı, nankor kral onu azad etmək üçün heç bir cəhd göstərmədi, girov pulu da təklif etmədi. Məhkəmədə isə yepiskop Koşon xüsusilə canfəşanlıq göstərirdi. Əslində məhkəmə öz ittihamlarını sübut etmək üçün elə bir dəlil tapmadı, onun Allaha inamını isə kilsəyə hörmətsizlik və küfr kimi qiymətləndirdi. Paris universitetindən gəlmiş ilahiyyat alimi qəddar hökmə bəraət qazandırmaq üçün demişdi ki, "kilsənin bir üzvü xəstə olanda, bütün kilsə xəstə olur. Bu yazıq kilsə həmin bədən üzvünü kəsib atmaqla özünü sağalda bilər. Bu necə ki, dəniz xərçənginə bənzəyir. Onlar bir-birilə vuruşduqda ayaqlarının biri və ya bir neçəsi yaralandıqda hərəkətlərinə mane olmamaq üçün həmin ayaqları özləri qırıb atırlar". Bu "mülayim və rəhmdil" hakimlər onu tonqalda yanmağa məhkum etdilər. 30 may 1431-ci ildə bu 19 yaşlı nəcib qız və Fransa tarixinin ən böyük qəhrəmanlarından biri Ruanda vəhşicəsinə tonqalda yandırıldı. Vətənə bütün varlığı ilə xidmət edən, dindarlığı və Allaha inamı minlərlə adama təlqin etməsi ilə seçilən bu mömin insan öz həmvətənləri tərəfindən amansız şəkildə qətlə yetirildi. Əslində o, gözünə görünən müqəddəslərə iman gətirsə də, həyatı və əməlləri hesabına müqəddəs adlanmağa daha çox layiq idi. Onu şəhər qarşısında xidmətlərinə görə Orlean qızı adlandırırdılar, lakin özünü Fransa torpaqlarının düşməndən azad edilməsinə həsr etdiyinə görə Janna tam hüquqla Fransa qızı adlana bilərdi.

Bundan sonra fransızlar öz qələbələrindən ilhama gələrək hücumçu döyüşlərini davam etdirdilər və ingilis kralı VI Henri bütünlüklə səriştəsizlik göstərərək fransız tərəfinin arası kəsilməyən zəfərlərinə boyun əyməli oldu. 1453-cü ildə cənub-qərbdəki sonuncu ingilis dayaq nöqtəsi olan Bordo təhvil verildikdən sonra uzun sürən müharibə nəhayət ki, başa çatdı. İngilislərin bu vaxt La-Manş üzərindəki Kale limanından başqa Fransada heç bir torpağı qalmadı, bu şəhər də yüz il sonra, 1558-ci ildə itirildi.

İngilislərin Fransa ərazisindən qovulması Yüz illik müharibənin sadəcə nəticəsindən daha çox fransız taxt-tacının qüdrətinin əsaslı surətdə möhkəmlənməsinə səbəb oldu. Baxmayaraq ki, uzun sürən müharibə dövründə hökmranlıq etmiş fransız krallarının çoxu olduqca bacarıqsız şəxsiyyətlər idi, onlardan biri olan VI Karl arabir dəlilikdən əziyyət çəkirdi, monarxiya özü bu vaxt gözəl dayanıqlı hakimiyyət nümayiş etdirirdi. Bu sübut edirdi ki, Fransa öz möhkəm institutları ilə uzun sürən stabillik və sülh üçün yeganə real ümid yaradır. Bununla yanaşı müharibə əhvalatları krallara özlərinə əlavə yeni hakimiyyət toplamağa imkan verdi, hər şeydən əvvəl onlar milli vergiləri yığmaq və daimi ordunu saxlamaq hüququ əldə etdilər. Bundan sonra VII Karl ingilisləri məğlub

etməkdə uğur qazandıqdan sonra taxt-tac ölkəni idarə etməkdə kral ənənələrini yeniləşdirməyə qadir idi. Karlın varisləri XI Lui və XII Luinin hökmranlıqları dövründə monarxiya daha da möhkəmləndi. Onların ən böyük nailiyyəti 1477-ci ildə Burqundiya hakimiyyətini məhv etmək oldu. Bu vaxt Burqundiya hersoqu Cəsur Karl Nansi döyüşündə isveçrəlilərin əlinə düşdü, Karl onları özünə tabe etməyə cəhd göstərmişdi. Karl kişi cinsindən varisi olmadan öləndə Fransa kralı XI Lui Burqundiyaya yürüş etdi və bu hersoqluğu dağıtmaqla onu yenidən ölkənin tərkibinə absorbsiya etdi. Sonralar XII Lui nikah yolu ilə Bretanı əldə edə bildi və fransız kralları bütünlüklə demək olar ki, indiki Fransanın sərhədləri daxilindəki əraziləri idarə etdi.

Baxmayaraq ki, Yüz illik müharibə ingilis torpağı əvəzinə fransız torpaqlarında gedirdi, İngiltərə sonrakı orta əsrlərdə daxili qeyri-stabillikdən irəli gələn böyük sarsıntılarla üzləşdi. Həqiqətən də, İngiltərə qiyamlar üçün istixana mühiti idi. 1307-ci və 1485-ci illər arasında taxt-taca gələn ingilis krallarından doqquzundan beşi qiyamlar və ya sui-qəsdlər nəticəsində zorakılıqla öldürülmüşdü. Bu qətlə yetirilən krallardan çoxu özlərini qabiliyyətsiz hökmdarlar kimi göstərmişdilər. Lakin İngiltərənin siyasi qarışıqlığı üçün digər səbəblər də var idi. Onlardan biri o idi ki, taxt-tac həm Fransadakı ərazilərini əldə saxlamaq, həm də Şotlandiyanı tabe etmək üçün çox ambitsiyalı idi. Bu siyasət çox vaxt ağır vergilər tətbiqini zəruri edirdi və kübarlığa böyük siyasi güzəştlərə getmək lazım gəlirdi. İngilis orduları Fransada uğurlu vuruşanda populyarlığın zirvəsində idi və kübarlıq hərbi qarətlərdən və girovlardan varlanırdı. Lakin döyüş dalğası məğlubiyyət istiqamətinə döndükdə taxt-tac maliyyə cəhətdən çətinlik çəkirdi və siyasi müdafiə olunma yoluna keçirdi. İşləri daha pis edən o idi ki, ingilis kübarlığı bu dövrdə idarə olunmurdu və həm kübarlar təkcə ağılsız krallara inanmamaqda haqlı idilər, həm də iqtisadi təzyiqlər onları öz malikanələrini böyütməyə məcbur edirdi. Bu fraksiyaçılığa gətirib çıxarırdı, fraksiyaçılıq isə çox vaxt vətəndaş müharibəsinə yol açırdı. Belə daha səriştəsiz krallardan biri olan VI Henrinin iradəsizliyi 1455-ci ildən 1485-ci ilə qədər davam edən Qırmızı və Ağ Qızıl Güllərin müharibəsinin başlanmasına səbəb oldu. Onların adı iki rəqabət aparan fraksiyaların adından götürülmüşdü. Qırmızı qızıl gül Lankasterdən olan Henrinin ailəsinin, Ağ qızıl gül isə rəqib York sülaləsinin rəmzi idi və onlar kralın başlıca düşməni idi. Yorkçular bir müddətə III Riçard timsalında krallığı ələ aldılar, lakin 1485-ci ildə onlar yeni Tüdor sülaləsi tərəfindən əvəz olundu və bu sülalə İngiltərə tarixində yeni mərhələ başladı. 30 il davam edən qanlı müharibə əhalinin sayını bir qədər azaltdı. İlk Tüdor kralı olan VII Henri taxt-taca rəqib iddiaçıları ləğv etdi, böyük xərcə səbəb olan xarici müharibələrdən uzaqlaşdı və tədricən kübarlıq üzərində kral hakimiyyətini bərpa etdi, maliyyə imkanlarını artırdı. 1509-cu ildə o, öləndə öz oğlu VIII Henriyə bundan əvvəl heç vaxt mövcud olmamış böyük kral hakimiyyəti qoyub getdi.

# FƏSİL 4
# İSPANİYA ORTA ƏSRLƏRDƏ

19-cu əsrdə Almaniya qalxana qədər qitə dövlətləri içərisində Fransaya yeganə rəqib olan İspaniya idi. İspaniyanın böyüklüyünün əsası həmçinin Yüksək orta əsrlərdə qoyuldu, lakin orta əsrlərdə bütün İberiya yarımadasını idarə edən heç də tək monarxiya deyildi. 1100-cü illər ətrafında xristianlar islam qüvvələrini geri oturtmağa başlayanda burda dörd xristian ispan dövləti var idi: şimaldakı kiçik dağlıq dövləti olan Navarra, hansı ki, heç vaxt müqayisəli qaydada elə bir əhəmiyyət kəsb etməmişdi, qərbdə Portuqaliya, şimali-şərqdə Araqon və mərkəzdə Kastiliya. Yüksək orta əsrlərdə başlıca ispan məşğuliyyəti rekonkista idi, bu söz yarımadanı xristianlıq üçün "yenidən işğal etmək" mənasını verirdi. 1212-ci ildə Araqon-Kastiliya birləşmiş ordusunun müsəlmanlar üzərində Las Navas de Tolosadakı başlıca qələbəsində bu hərəkat öz kulminasiya nöqtəsinə çatdı. Sonrakının hamısı təmizləmə əməliyyatı idi. 13-cü əsrin sonundan əvvəlki bütün müsəlman torpaqlarının qalıqları cənubdakı Qranada dövlətində təmsil olundu. Qranadanın da mövcudluğu başlıca olaraq onun xristianlara bac verməsi ilə əlaqədar idi. Kastiliya geniş açıq sərhədlərə malik olduğundan daha böyük İspan krallığına çevrildi, lakin bu dövlət var-dövlətdə daha çox şəhəri olan və ticarətə istiqamətlənmiş Araqonla tarazlıqda idi. Hər iki krallığın 13-cü əsrdəki inkişaf etmiş institutları əsasən Fransadakılara bənzəyirdi. Lakin kral Ferdinandın və kraliça İzabellanın başçılığı altında Araqon və Kastiliyanın birləşməsinə qədər İberiya dövlətləri ayrı-ayrılıqda varlı və əhalisi çox olan Fransa kimi qüvvətli olmağa ümid bəsləyə bilməzdi.

Araqonda, Kastiliyada və müəyyən qədər Portuqaliyada yüksək zadəganlar demək olar ki, knyaz hüquqlarına malik idilər. İspan baronları krala ona xidmət etməyi dayandırmaq və onu müharibə elan etmək hüququna malik idilər. Bu qayda qanunla müəyyən olunmuşdu. Lakin bu müharibədə üstünlük baronların tərəfində olurdu, çünki qanun krala baronun öz ailəsini saxladığı qəsrə hücum etməyə icazə vermirdi. Araqon qanunları isə təbəələri birbaşa üsyana qalxmaq hüququ verirdi. 13-cü əsrin sonunun kortesləri Kastiliyada da, Araqonda da yığışırdı. Onların razılığı olmadan (korteslər yüksək zadəganların, ruhanilərin və şəhərlilərin təmsilçilərindən ibarət parlament idi) vergilər yığıla bilməzdi, sülh, müharibə məsələləri və yeni qanunlar üçün onların razılığı hökmən lazım idi. Zümrələrin inadkar müstəqillik ruhu da bu qaydaları möhkəmləndirirdi. Kralın heç bir köməyi olmadan onların hər biri ən azı bir dəfə mavrlar kütləsini geri oturda bilmişdilər. Ona görə də İspaniyada milli birlik anlayışı digər

dövlətlərdə olduğu kimi o qədər aydın deyildi. Hər kübar ailəsi öz tarixində nə vaxtsa kral olmasa da, kral ailəsindən kiminsə həyatını xilas etməsi ilə öyünə bilərdi. Digər tərəfdən Katoloniyanın qraflığının, bəzi şəhərlərin Aralıq dənizindəki güclü ticarəti onları xeyli varlandırmışdı. Zadəganların çox sayda malikanələri var idi, bəzi ailələrin üzvləri lovğalanırdılar ki, əgər İspaniyanı köndələninə keçib getsələr hər gecəni özlərinin bir qəsrində gecələməklə keçirə bilərlər.

Fransada XI Luinin və İngiltərədə VII Henrinin öz ölkələrinin xeyrinə kral hakimiyyətini yenidən müdafiə edib möhkəmləndirməsini ispan monarxları Ferdinanad və İzabella eyni qaydada İberiya yarımadasında həyata keçirdilər. Burada həmçinin ardı kəsilməyən mübarizə gedirdi. Araqon və Kastiliya çox vaxt bir-birilə vuruşurdu və krallıqların daxilindəki aristokratik fraksiyalar ardıcıl olaraq taxt-tacla vuruşurdu. Lakin 1469-cu ildə Araqon vəliəhdi Ferdinand Kastiliya printsessası İzabellaya evləndi və o vaxtdan indiki İspaniyanın əsasını təşkil edən birlik yaradıldı. Lakin 1716-cı ilə qədər İspaniya tam birləşmiş millət olmadı, çünki Araqon və Kastiliya öz ayrıca institutlarını saxlayırdı, ən azı iki əvvəlki müstəqil krallıq arasında müharibəyə son qoyuldu və yeni ölkə birgə siyasət aparmağa qadir idi. İzabella və Ferdinand müvafiq olaraq 1504-cü və 1516-cı ilə qədər hökmranlıq etdilər, öz kübarlarını özlərinə tabe etdilər, elə həmin 1492-ci ildə yarımadadakı axırıncı müsəlman dövləti olan Qranadanı anneksiya etdilər və bütün ispan yəhudilərini ölkədən qovdular. Yəhudilərin qovulmasını izah etmək üçün müxtəlif səbəblər gətirilsə də, bu dövlətin olduqca rəhmsiz və qəddar hərəkəti idi. Yəhudiləri ölkədən çıxarmaqla Ferdinand və İzabellanın niyyəti birləşmiş millətçiliyə daxili təhlükəni aradan qaldırmaq idi. Lakin bu onların okeanın o tayının ekspansiyasına yol açdı, bunlardan ən mühümü Xristofor Kolumbun səyahətinə köməklik göstərmək idi. Onlar həm də qətiyyətli qaydada İtaliyanın siyasət arenasına da daxil oldular. 16-cı əsrin əvvəllərində Meksikanın və Perunun işğalından sonra Amerika qızılının və gümüşünün ölkəyə axmasından varlanmaqla və döyüş meydanında məğlubiyyətsiz olmaqla İspaniya sürətlə həmin əsrdə Avropanın çox qüdrətli dövlətinə çevrildi.

Ferdinand və İzabella İspaniyada öz hökmranlıqlarının ilk on ili ərzində kübarlar və onların mülkiyyəti üzərində xeyli qələbə çaldılar. Lakin bu kifayət etmirdi, kübarlar qüvvətli olaraq qalırdılar, şəhərlərin özündə müxalif elementlər çox idi. Kral hakimiyyətinə tabe olmayanlar hansısa köhnə qanunun kölgəsində gizlənə bilirdilər. Bu müxalifəti əzmək üçün Ferdinand və İzabella inkvizisiya tətbiq etməklə ayrıca məhkəmələr yaratdılar. Bu dəhşətli mühakimənin başlanğıcı 12-ci əsrin birinci yarısına gedib çıxır, bu məhkəmə Cənubi Fransada yaranmışdı və yalnız dini məqsəd daşıyırdı, İspaniyada isə

din yalnız bəhanə idi. Kilsəyə qarşı xəta bəhanəsi altında dövlətin ən mühüm şəxslərini götürüb, onları adi məhkəmələrdən uzaqlaşdırırdılar. İnkvizisiya bütün dünyəvi məhkəmələrdən və qanunlardan yuxarıda qoyulmuşdu. Onun siyasi məqsədlərinin sübutu o idi ki, papalar onun təsis edilməsinə razı deyildilər, ispan ruhaniləri də buna əks çıxırdı. Bu ən azı əvvəllərdə əsasən siyasi mühakimələr idi. Lakin inkvizisiyanın birinci zərbəsi xristian dininin əleyhdarları olan yəhudilərə dəydi və bu mənada öz başlanğıcına sadiq qaldı. Lakin yəhudilərin təqibinin əsasında da siyasi motivlər dayanırdı.

Avropanın heç yerində yəhudilər İspaniyadakı kimi var-dövlətə və savadlılığa çatmamışdılar. İspaniya öz yəhudilərinin məktəbləri ilə şöhrət tapmışdı, onlarda təhsil almağa təkcə yəhudilər deyil, xristianlar da gəlirdilər. Yəhudilərə qarşı dözümsüzlüyə baxmayaraq, onlardan dövlət işlərində istifadə edirdilər. 15-ci əsrdə isə onlar baş bankirlər, ispan kübarlarının malikanələrini idarə edənlər idilər. Yəhudilər digərlərindən daha savadlı və uzaqgörən idilər və ilk zərbə onlara dəydi. Araqon öz hüquqlarını müdafiə edərək bir əsr ərzində inkvizisiyanı yaxın buraxmadı, lakin sonra burada o daha quduzluqla hərəkət etdi.

Bütün təbəqələr Ferdinand və İzabellanın hökmranlığı dövründə monarxiya əsaslarının öz üzərlərindəki üstünlüyünü qəbul etdilər. Böyük ideyaların və dəyişikliklərin müəllifliyi öz ərindən daha istedadlı olan İzabellaya məxsus idi və onların uzaqgörən siyasəti nəticəsində şəhərlərin imtiyazları düşməyə başladı. Onlar ustalıqla təbəqələri bir-birindən ayırdılar, sadəcə olaraq zadəgan və ruhaniləri vergi vermədiklərinə görə korteslərə çağırmırdılar.

Onların şərəfli hökmranlığı dövrünə Amerikanın kəşf edilməsi də təsadüf etdi. Hələ 15-ci əsrin əvvəlində Henrix Dənizçi Afrikanın qərb sahilini tədqiq etmək təklifini etdi, ora nəhəng sərvət mənbəyi ola bilərdi. Portuqal dənizçilərinin cəsarətli cəhdləri bu fikrin doğru olduğunu təsdiq etdi. 15-ci əsrin sonunda onlar Xoş Ümid burnuna gəlib çıxdılar, orada ticarət əlaqələri və kantorlar yaratdılar. Bu Vasko da Qamanın gələcəkdə Hindistanı dəniz yolu vasitəsilə kəşf etməsinə yol açdı.

Avropada milli monarxiyalar meydana gəlməmişdən əvvəl idarəetmənin iki əsas nümunəsi: şəhər-dövlətlər və imperiyalar mövcud idi. Şəhər-dövlətlər vətəndaşların ictimai həyatda fəal iştirakından və loyallığından faydalanırdı və bununla da öz insan potensialından yüksək dərəcədə səmərəli istifadə edirdi. Lakin onlar çox vaxt iqtisadi rəqabət nəticəsində parçalanırdılar və onlar özlərini imperial qüvvələrindən müdafiə etmək üçün hərbi cəhətdən kifayət dərəcədə güclü deyildilər. Digər tərəfdən imperiyalar döyüşləri uda bilirdilər və çox vaxt səmərəli bürokratik inzibatçılıq aparatını saxlamaq üçün ehtiyatlara malik olurdular, lakin onlar olduqca kiçik könüllü iştirakçılar çıxarda bilirdilər və elə də dərin loyallıq hisslərini vəcdə gətirə bilmirdilər. Yeni milli monarxiyalar bu əksliklər arasında "qızıl aralığı" əmələ gətirirdi. Onlar adekvat hərbi

güc saxlamaq üçün kifayət dərəcədə böyük idilər və onlar Roman və Bizans imperiyalarına rəqib ola biləcək və üstün gələcək inzibati mexanizmi inkişaf etdirirdilər. Onlar ilk olaraq feodalizm əsasında qurulduğundan çətin anlarda onları dəstəkləmək üçün kifayət dərəcədə vətəndaş iştirakını və loyallığını əldə edə bilirdilər. Bu vaxt imperiyaların əsası qoyulurdu. 1300-cü illər ətrafında İngiltərə, Fransa və İberiya yarımadası krallıqları öz təbəələrindən birinci növbədə loyallıq alırdılar, bu icmalar regionlara və kilsənin idarəçiliyinə olan loyallığı sıxışdırıb çıxarırdı. Bütün bu səbəblərə görə onlar Avropanın böyük hissələrində daha çox daxili sülhə nail olurdular. Lakin İtaliyanın və Almaniyanın əraziləri 1300-cü illərdən əvvəl olduğu kimi yenə də siyasi cəhətdən parçalanmış kimi qalırdı. Hər iki ərazidə 15-ci əsrdə meydana gələn orta ölçülü şəhərlər əvvəllər olduğundan daha çox stabillik gətirirdilər. Lakin hadisələr bu vaxtadək elə cərəyan edirdi ki, İtaliya və Almaniya Qərb dövlətlərinin şikarı olaraq qalırdılar. Axırıncılar daha qüvvətli idilər, çünki güclü milli monarxiyalar ətrafında konsolidə olunmuşdular. Sonrakı orta əsrlərin mühakimələri onları sınağa çəkmişdi, lakin 1450-ci ildən sonra onlar əvvəllər olduğundan daha qüvvətli görünürdülər. Onların üstünlüyü 1494-cü ildən sonra İtaliya tarixində baş verən hadisələrdə özünü göstərdi. Bu vaxta qədər italyan dövlətləri yaxşı idarə edilən və inkişaf edən kimi görünürdülər. Onlar irəli getmiş inzibatçılıq modeli və diplomatiya həyata keçirirdilər. Lakin Fransa və İspaniya yarımadaya müdaxilə etdikdə İtaliya dövlətləri kartdan düzələn evciklər kimi yıxılmağa başladılar.

Qərb monarxiyaları sadəcə olaraq böyük ehtiyatlar çıxara bilirdilər və bununla Avropanın gələcəyini özləri üçün irs kimi götürürdülər. 15-ci əsrin ikinci yarısında təhsilə, xalqda yaranan ideya kütləsinə, hətta maddi rifaha görə Avropanın heç bir ölkəsi İtaliya ilə müqayisə edilə bilməzdi. Lakin İtaliyaya siyasi birlik və vahid milli şüur çatışmırdı ki, xalqlar arasında layiqli yer tutsun. Bu milli şüur yalnız ədəbiyyatda mövcud idi. Bir-birinə düşmən olan çox sayda dövlətlərə bölünməklə İtaliya həm ölkənin daxilindəki, həm də xarici düşmən üçün yüngül şikara çevrilirdi. İtaliyada bu vaxt ən şöhrət tapmış dövlət - aristokratik respublika olan Venetsiya digər bütün italyan dövlətlərini ötüb keçmişdi. Lakin ona bu dövrdə ikili təhlükə mövcud idi. Onun var-dövləti Şərqlə əlaqələrə əsaslanırdı, Hindistanla ticarəti öz əlinə götürmüşdü. 15-ci əsrdə ona güclü və təhlükəli rəqib olan Portuqaliya meydana girmişdi və 16-cı əsrin əvvəlində Hindistanla ticarət inhisarını onun əlindən çıxarmışdı.

Osmanlı türkləri də qarşısı alınmadan irəliləyirdi, Venetsiya hamıdan çox bundan ziyan çəkməli idi. Hersoq Sfortsanın başçılığı altında Milan hersoqluğu daha böyük əhəmiyyət kəsb edirdi, iki sistem - hərbi quruluş vətəndaş respublikası ilə mübarizə aparırdı. Xalqın bədbəxtlik anında Françesko Sfortsanın ələ keçirdiyi Milan onun irsi mülkiyyəti olmuşdu. Heç Sfortsanın hersoqluğa həqiqi hüquqları da yox idi, onun hüquqları gücə və xeyli saydakı muzdlu qoşunlara arxalanırdı.

İtaliyanın şəhərləri arasında 12-ci və 13-cü əsrlərdə bədbəxt irs kimi ayrı-ayrı vilayətlər və şəhərlər arasındakı dərin nifrət qalırdı. Hüquqlar və qanunçuluq işləməyəndə maddi güc ali hüquqa çevrildi. Milanda daim hersoq hakimiyyətini devirmək uğrunda yeni cəhdlər baş verirdi. Hersoq Françesko Sfortsanın oğlu şəhərin yüksək ailələrindən olan sui-qəsdçilər tərəfindən kilsədə öldürüldü. Genuya respublikası da Venetsiyanın dənizdəki ağalığına etiraz edəndə tutduğu yüksək mövqeyi itirməli oldu. Toskanada isə digər şəhərlərin hesabına Florensiya gücləndi. Burada demokratiya qəti surətdə zadəganlar üzərində qələbə çaldı. Çoxdan burada Avropanın ilk bankirləri var idi, onlar ən böyük veksel dövriyyəsini həyata keçirirdilər. 15-ci əsrin əvvəlindən burada ticarət evlərindən biri olan Mediçi sülaləsinin təsiri möhkəmləndi. Florensiya kimi şəhər-dövlətlərdə təbii olaraq kredit böyük əhəmiyyət kəsb edirdi.

Papalıq vilayətinin taleyinə gəldikdə dövlət kimi elə bir əhəmiyyətə malik deyildi. Papaların öz vəziyyəti ikili idi - o, bir tərəfdən italyan knyazı idi, digər tərəfdən qərb kilsəsinin başçısı idi. Elm müstəqil hərəkət etməyə başlayanda papalar ona qarşı çıxırdılar. Onlar yalnız elmin zərif tərifini sevirdilər. 15-ci əsrin sonunda Papa hakimiyyəti artıq elə hörmətə malik deyildi. Borcia sülaləsindən olan VI Aleksandr bu nüfuza daha böyük zərbə vurdu. O, seçkini öz nəqd pulu ilə udmuşdu, Papa taxt-tacına çıxdıqdan sonra daim yalnız öz ailəsinin sərvətini artırmaq barədə düşünürdü. Onun üç uşağı - iki oğlu və bir qızı var idi. Onların hamısı özləri barədə dəhşətli xatirə qoydular. Məşhur Çezare Borcia öz böyük qardaşını öldürmüşdü. Qızı Lukretsiya Borcia İtaliyada adam zəhərləməklə məşhur idi. VI Aleksandrın siyasəti, hərəkət tərzi sülalə xarakteri daşıyırdı. O, hər cür vasitələrdən istifadə edirdi ki, Çezare Borciaya qüdrətli italyan dövləti yaratmağa imkan versin. Heç kəs onun kimi katolitsizm üçün bədnam rol oynayan indulgensiyalardan belə çox istifadə etməmişdi, bu pullara o, oğlu üçün muzdlu qoşunlar tuturdu. Bir çox zadəgan ailələri vətəni tərk etdilər və ya həlak oldular. Borcia evinin bütün əleyhdarları Papanın vilayətindən uzaqlaşmalı oldu. Papa özü kardinalları zəhərləyirdi, eybəcər edamlar fikirləşib tapırdı. Ziyafətlərdə o, əleyhdarlarını zəhərləyib öldürürdü. Hər cür cinayətlər törədən Sezar Borcia nə qədər paradoksal görünsə də, İtaliyanın bütün istedadlı adamlarının diqqətini özünə cəlb edirdi. Əxlaq qanunlarının siyasi məqsədlərə belə tabe edilməsi İtaliya tarixinin səhifələrinin çoxuna öz damğasını vurmuşdu.

Neapol dövlətinin hökmdarı Ferdinand Neapollu da öz məşhur əcnəbi həmkarlarına layiqli müasir idi. Ferdinand istedadda onlara uduzsa da, qəddarlıqda onları çox ötüb keçirdi. O, bütün hökmranlığını feodal baronlarla mübarizəyə həsr etmişdi.

# FƏSİL 5
# ORTA ƏSRLƏRDƏ FİKİR, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

Bir çoxlarına Qərbi Avropada orta əsrlər zehni fəaliyyətin və incəsənət sahəsindəki cəhdlərin tənəzzülü və durğunluğu kimi görünə bilər, əslində isə bu dövr fikir, ədəbiyyat və incəsənət dairələrində çox məhsuldar illər hesab oluna bilər. Başlıca intellektual nailiyyətlər dörd növ inkişafla əlaqədar idi: ibtidai təhsilin və savadlılığın yayılması, universitetlərin yaranması və yayılması, klassik və islam bilikləri ilə tanışlıq və qərblilər tərəfindən fikirdə meydana gələn həqiqi tərəqqi. Bu nailiyyətlərdən hər biri Qərb bilikləri tarixində rəmzi yer kimi qiymətləndirilə bilər.

800-cü illər ətrafında Karolinq öz səltənətində hər bir yepiskopluqda və monastırda ibtidai məktəblərin açılması barədə göstəriş vermişdi. Sonralar bu göstərişə o qədər də ciddi əməl edilməsə də, Karolinq dövrü ərzində doğrudan da çoxlu məktəblər yarandı. Onların sonrakı mövcudluğuna vikinq müdaxilələri təhlükə törətdi. Bir sıra monastırlarda və kiçik kafedral şəhərlərdə ibtidai təhsil özünü qoruyub saxlaya bildi, lakin 1050-ci illərə qədər Qərbi Avropada ibtidai təlimin keyfiyyəti aşağı idi. Bununla yanaşı Avropanın hər yerində məktəblər meydana gəlməyə başladı, lakin müəllimlər çatışmırdı, bir fransız rahibinin 1115-ci ildə yazdığı kimi, qırx il əvvəl o, uşaq olanda "müəllimlərin çatışmaması o qədər böyük idi ki, kəndlərdə bir müəllim də yox idi, şəhərlərdə isə bir neçəsinə çətinliklə rast gəlmək olardı", lakin o, yaşa dolanda artıq "çox sayda məktəblər var idi" və qrammatikanın öyrənilməsi "inkişaf edirdi və geniş idi". İqtisadi cəhətdən oyanış, kiçik şəhərlərin böyüməsi və möhkəm idarəetmənin meydana gəlməsi avropalıların özlərini əvvəllərdə mövcud olmayan təməl təhsilə həsr etmələrinə imkan yaratdı.

Yüksək orta əsr təhsilinin canlanması sadəcə məktəblərin çoxalması deyildi, məktəblərin özünün təbiəti dəyişirdi. İlk qarışıqlıq ondan ibarət idi ki, 12-ci əsrdə monastırlar öz təhsil ocağı xüsusiyyətlərini itirdi. Əvvəllər monastırlar az sayda rahib olmayan imtiyazlı tələbələri oxumağa öyrədirdilər, çünki şagirdlər üçün o vaxtlar digər heç bir məktəb yox idi. 12-ci əsrdən isə artıq alternativlər mövcud idi. Hər şeydən əvvəl latın qrammatikasını öyrətmək yolu ilə Tsitseronun və Vergilinin əsərləri kimi bəzi roman klassiklərinin inciləri də şagirdlərə təlqin edilməyə başlandı. Bu mətnlərə maraq və onları təqlid etmək cəhdləri alimləri "12-ci əsrin Renessansını" seçmək yoluna yönəltdi.

1200-cü illərə qədər şəhər məktəbləri əsasən klerikal (dini) olaraq qalırdı. Sadəcə keşiş yox, hətta hüquqşünas və inzibatçı olmağa ümid edənlər də adətən kilsə qaydalarını götürməkdə fayda tapmalı idilər. Lakin sonralar şagirdlərin çoxu keşişlərə aid olmayan məktəblərə girirdilər, özləri də heç vaxt keşiş olmaq istəmirdilər. 13-cü əsrdə bu məktəblər sürətlə çoxalmağa başladı və on-

lar bütünlüklə kilsə nəzarətindən müstəqil oldu. Bu vaxt tələbəliyə təkcə dünyəvi adamlardan qəbul edilmirdi, onların müəllimləri də adətən dünyəvi adamlar olurdu. Təlimin latın dilində olması kəsildi, onun əvəzinə Avropanın yerli dillərində təhsilin aparılması qaydası qoyuldu. Dünyəvi təhsilin qalxması iki mühüm səbəblə əlaqədar idi. Birinci səbəb o idi ki, kilsə təhsil üzərindəki demək olar ki, min il ərzində davam edən nəzarətini itirmişdi. Bu vaxt savadlılıq və bundan meydana gələn münasibət daha çox dünyəvi olmuşdu və bu meyl böyüyürdü. Qərb mədəniyyəti də bütünlüklə daha artıq dərəcədə müstəqil olmuşdu. Axı dünyanın digər mədəniyyətləri ilə müqayisədə burada ənənəçiliyin çoxu din barədə təsəvvür yaradırdı. İkincisi, dünyəvi məktəblərin çoxalması dünyəvi adamlara təhsil verən kilsə məktəblərinin böyüməsi ilə müşayiət olunurdu və bu dünyəvi savadlılığın nəhəng dərəcədə artmasına səbəb olurdu.

1340-cı ildən Florensiya əhalisinin təqribən 40 faizi oxuya bilirdi. Sonrakı 15-ci əsrdə isə İngiltərənin ümumi əhalisinin 40 faizə yaxını savadlı idi. Bura qadınlar da daxil idi, onlar bir qayda olaraq oxumağa məktəbdə deyil, pullu müəllim və ya ailənin kişi üzvləri tərəfindən evdə öyrədilirdilər. Əgər 1050-ci ilə yaxın demək olar ki, savadlıların demək olar ki, hamısı kişilər idisə və savadlılar Qərbi Avropa əhalisinin 1 faizini təşkil edirdisə, bu, möcüzəli inqilabın baş verməsi kimi qiymətləndirilə bilərdi. Bunsuz yəqin ki, Avropanın bir çox digər nailiyyətləri ağıla belə gələ bilməzdi.

Universitetlərin meydana gəlməsi təhsil uğurlarının bir hissəsi idi. Başlanğıcdan universitetlər orta kafedral məktəblərdə mümkün olmayan təhsilin davamına xidmət edirdi. Liberal incəsənət növləri inkişaf edirdi və burada hüquq, təbabət və teologiya tədris edilirdi. Ən ilkin İtaliya universiteti Boloniyada açılan idi, bu təhsil müəssisələri öz formasını 12-ci əsr ərzində aldı. Alpdan şimalda ən erkən və ən görkəmli universitet Paris universiteti idi. Bu universitet əvvəlcə digər çoxları kimi fəaliyyətinə kafedral məktəb kimi başlamışdı, lakin 12-ci əsrdə şimal intellektual həyatının mərkəzi kimi tanınmağa başladı. Paris universiteti özünün daha xarizmatik və ziddiyyətli müəllimi olan Pyer Abelyarla (1079-1142-ci illər) öyünə bilərdi. O vaxtlarda Papa III İnnokenti özü Parisdə təhsil aldığı üçün məktəbi "bütün dünya üçün çörək bişirən soba" adlandırmışdı. Əvvəllər orta əsr universitetləri əsl bir icad olsalar da, alimlər qrupu üçün onların toplaşdığı yer deyildi. Universitet termini başlanğıcdan korporasiya və ya gildiya mənasını verirdi. Doğrudan da, orta əsr universitetləri müəllimlərin və ya tələbələrin şirkətləri idi, başqa gildiyalar kimi onların mənafelərinin və hüquqlarının himayə edilməsi üçün təşkil edilirdi. Tədricən universitet sözü təhsil institutu mənasını verməyə başladı. 1200-cü illərdən sonra Boloniya və Paris universitetləri digər universitetlərin prototipləri hesab olunmağa başlandı. 13-cü əsr ərzində Oksford, Kembric, Monpelye, Salamanka və Neapol kimi məşhur institutların əsası qoyuldu və ya onlara rəsmi tanınma verildi. Almaniyada 14-cü əsrə qədər heç bir universitet yox idi, Heydelberq universiteti 1385-

ci ildə açıldı. Bu alman torpağında ilk universitet idi, çox sayda digərləri onun ardınca yaranmağa başladı.

Orta əsr Avropasındakı hər bir universitet biri digərindən iki müxtəlif modelə görə fərqlənirdi. Bütün İtaliyada, İspaniyada və Cənubi Fransada ümumi standart rolunu Boloniya universiteti oynayırdı, burada tələbələr özləri korporasiya yaratmışdılar. Onlar müəllimlər tutur, onlara maaş verir, səmərəsiz təlimə və ya öz vəzifələrinə laqeyd yanaşdıqlarına görə onları cərimə edir və ya vəzifələrindən kənarlaşdırırdılar. Şimali Avropanın universitetləri isə sonralar öz işlərini Paris universiteti üslubunda qururdular, burada isə tələbələrin deyil, müəllimlərin gildiyası var idi. Bu ali məktəb incəsənət, teologiya, hüquq və təbabət kimi dörd fakültədən ibarət idi, onların hər birinə dekan başçılıq edirdi. 13-cü əsrin sonunda ayrılıqda mövcud olan kolleclər Paris universitetinin tərkibinə keçdilər. Orijinal kollec kasıb tələbələr üçün ev rolunu oynayırdı, bir qayda olaraq kolleclər təlim və məskunlaşma mərkəzinə çevrilirdilər. Belə kolleclərin çoxu Avropada yoxa çıxanda Oksford və Kembric universitetləri Parisdən götürdüyü federal təşkilatlanma nümunəsini saxlamışdılar. Onların tərkibində olan kolleclər isə yarımmüstəqil təhsil birlikləri idi.

Orta əsr universitetlərinin tələbələri çox vaxt intizamsız olurdular. Tələbələrin çoxu hələ kamilliyə çatmamışdılar, çünki 12-13 yaşında universitetdə təhsil almağa başlayırdılar. Bütün universitet tələbələri müstəqil və imtiyazlı icmalarda birləşirdilər və onlar yerli şəhər əhalisindən kənarda dayanırdılar. Axırıncılar o vaxtdan tələbələrdən maliyyə faydası götürməyə çalışırdılar, tələbələr isə təbii qaydada çılğın olduqlarından tez-tez qiyam qaldırırdılar və bir sıra hallarda "şəhər" və "mantiya" (*"town" and "gown"*) arasında həlledici döyüşlər gedirdi. Paris universitetində 13-cü əsrdə 7 min nəfərə yaxın tələbə oxuyurdu, Oksfordda isə hər il 2 min tələbə olurdu. Bu onu göstərir ki, kəndlilərdən və ya sənətkarlıqdan yuxarı olan və kişi cinsindən olan avropalıların müəyyən hissəsi yüksək səviyyəli təhsil alırdı.

Abelyarın ölümündən az sonra kamil sxolastitsizmə hazırlıq görülmək üçün daha iki addım atıldı. Bunlardan biri Abelyarın tələbəsi Peter Lombard tərəfindən yazılmış "Sentensiyalar kitabı" idi. Bu əsər bütün fundamental ilahiyyat məsələlərini qaldırırdı, hər suala Bibliya və xristianlıq müəlliflərinin hər iki tərəfdən olan cavablarını əlavə edirdi və bununla da hər bir məsələdə mühakimə yürüdülürdü. Sxolastitsizmin inkişafında digər mühüm addım klassik fəlsəfəni onun yenidən qəbul etməsi idi. Abelyar yunan fikrinə yaxınlaşmağına şad olardı, lakin hələ yunan əsərlərindən yalnız çox azı tərcüməyə məruz qalmışdı. Sonralar ilahiyyatçılar özləri bütünlüklə yunan biliyinə malik oldular, hər şeydən əvvəl bu Aristoletilin əsərləri idi və onlara ərəb icmalçılarının izahları əlavə olunurdu. 1250-ci il ərəfəsində Aristotelin təsiri o qədər böyüdü ki, onu sadəcə olaraq "Filosof" adlandırırdılar. Xristian ilahiyyatçıları bütöv kainatı dərk etmək üçün elə sistem qurmağa cəhd edirdilər ki, bu əvvəllər ayrılıqda mövcud

olan inamı və təbiət biliklərini daha tam qaydada harmoniyalaşdırsın.

Bu cəhddə ən böyük nailiyyəti Müqəddəs Foma Akvinas (1225-1274-cü illər) qazanmışdı, o, Paris universitetinin aparıcı sxolastik teoloqu idi. Dominikan ordeninin üzvü kimi Müqəddəs Foma təbiət biliklərinə inanırdı və buna əsaslanırdı ki, təbiət dünyasını da Allah özü yaratmışdır. O, insan ağlının və insan təcrübəsinin dəyərinə dərin inamdan ilhamlanırdı, bununla yanaşı, yunan fəlsəfəsini xristian teologiyası ilə birləşdirməyə qadir idi. Foma müqəddəslərdən ən sakiti idi və o, ilahiyyatın iki böyük "məcmularını" yazdı, bunlardan biri "Teologiya məcmuu", digəri isə "Bütpərəstliyə qarşı məcmu" əsərləri idi. Bu əsərlərdə o, inam barədə ən yaxşı əsaslarla demək istədiklərini yazmağa ümid edirdi. Foma Akvinas özünün qeyri-adi ambitsiyalı məqsədinə çatmağa yaxın idi. Onun geniş məcmuları cəsarətli istiqamətinə və əqli nüfuzuna görə qorxulu idi. O, qəbul edirdi ki, Üçlük və təcəssüm təlimlərində müəyyən "dini möcüzələr" vardır, bu məqsədsiz insan intellekti tərəfindən dərk edilə bilməzdi. Digər tərəfdən bütün ilahiyyat məsələlərini o, fəlsəfi tələblər baxımından tədqiq edirdi. Bunlarda o, Aristotelin əsərlərinə əsaslanırdı, lakin o, heç də Aristoteli "xaçlandırmaq" istəmirdi. Bütünlüklə Aristotelə tabe olmamaqla xristian prinsiplərinin təməlinə onun əvəzinə özünün yaratdığı orijinal fəlsəfi və teoloji sistemini qoydu. Akvinas insan ağlına, dünyadakı insan həyatına və özünün xilasında iştirak etməkdə insanların bacarığına yüksək qiymət verirdi. Ölümündən bir qədər sonra Müqəddəs Foma kanonizə olundu, onun özünün intellektual nailiyyətləri möcüzəyə bənzəyirdi.

Yüksək orta əsrlərin ədəbiyyatı müxtəlif idi və bu ədəbiyyat Qərb tarixinin digər hansısa dövründə yaradılanlardan daha ciddi təsir bağışlayırdı. Qrammatikanın kafedral məktəblərində və universitetlərdə öyrədilməsinin bərpa edilməsi bir sıra əla latın poeziyasının yaranmasına səbəb oldu. Ən yaxşı nümunələr dünyəvi lirika idi, bunlar xüsusən 12-ci əsrdə Qoliardlar adlanan şairlər qrupu tərəfindən yazılanlar idi. Bu adı onların haradan götürdüyü məlum deyildir. Onlar dini dualara və İncil mövzularına parodiyalar yazırdılar. Onların lirikası dəyişən mövsümlərin gözəlliklərini, qayğısız həyatı, içmək və idmanla məşğul olmaq həzzlərini tərənnüm edirdi. Onlar xüsusən məhəbbətdən həzz alırdılar. Latın dilindən istifadə etməkdən əlavə, onlar yerli fransız, alman, ispan və italyan dillərində də populyarlıq qazanan şeirlər yazırdılar. Əvvəlcə yerli dillərdə yazılan ədəbiyyatın çoxu epik qəhrəmanlıq poemaları formasında idi. Ən məşhur nümunələr arasında fransızların "Roland haqqında mahnı"sı, Şimal saqaları, almanların "Nibelunq nəğməsi", ispanların "Sid haqqında poema"sı seçilirdi. Bu əsərlərin hamısı 11-ci əsrin yarısından sonrakı bir əsr ərzində yazılmışdı. Bu epik poemalar igid, cilalanmamış döyüşçü cəmiyyətlərini təsvir edirdi. Bol-bol qan axırdı, kəllələr döyüş baltaları ilə parçalanırdı və qəhrəmanlıq müharibəsi, şərəf və loyallıq başlıca mövzular idi. Əgər ümumiyyətlə qadınlar xatırlanırdısa onlar kişilərə tabe idilər. Qızlar öz nişanlandıqları oğlanların ölümünü

gözləməli idilər, ərlər isə öz arvadlarını döyməkdə azad idilər. Bir fransız epik poemasında öz ərinə təsir göstərmək istəyən kraliça ondan burnunu əzən yumruq zərbəsi alır. Hətta qanı axanda qadın belə cavab verir: "Çox təşəkkür edirəm. Əgər bu sənə xoşdursa, bunu təkrar edə bilərsən".

Epik poemalarla müqayisədə 12-ci əsrdə Fransada trubadur şairlər və saray romansları yazanlar həm mövzu sahəsində, həm də üslubda nəhəng dəyişikliklər etdilər. Bu dəyişikliklərin dramatik təbiəti özünün faydasını Yüksək orta əsr mədəniyyətinin mühafizəkar olmamasında göstərdi. Trubadurlar Fransanın cənubundan gəlmiş saray şairləri idi, onlar fransız dilinə yaxın olan provansal dilində yazırdılar. Onlar sonrakı Qərb ədəbiyyatına dərin təsir göstərdilər. Trubadurlar möcüzəli məxluq kimi qadını idealizə edirdilər, bu məxluq güclü ruhi və hissi həzz verirdi. Məhəbbət lirikasından əlavə trubadurlar bir neçə növ qısa poemalar yazmışdılar.

12-ci əsrin fransız icadı uzun nəql poemaları tərtib etmək idi, onlar romanlar, rıtsar məcara hekayətləri kimi tanınırdı. Bəzi romanlar klassik yunan mövzularına həsr olunurdu, lakin ən məşhurları və daha yaxşıları "Arturian"lar idi. Onlar öz mövzusunu kelt qəhrəmanı kral Arturun əfsanəvi əməllərindən və digər cəngavər rıtsarların əhvalatlarından götürmüşdü. Arturian romanlarının ilk böyük müəllifi Şimali Fransadan olan Şretyen de Troyes idi. O, 12-ci əsrin ikinci yarısında yazıb yaratmışdı. Bir nəsil sonra Şretyenin işini böyük alman şairləri Volfram fon Eşenbax və Qotfrid fon Strassburq davam etdirdi. Volfram məhəbbət və Müqəddəs Piyalənin axtarışı barədəki əhvalatı "Persifal" poemasında qələmə aldı. Bu əsər Dantenin "İlahi komediyası" istisna olmaqla, həmin dövrdə yazılmış bütün əsərlərdən yuxarıda dururdu, Şretyen kimi Volfram da əmin idi ki, həqiqi məhəbbət yalnız nikahda həyata keçə bilər və yunanlardan sonra Qərb ədəbiyyatında ilk dəfə qəhrəman özünün tam psixoloji vəziyyətində təsvir edilirdi. Strassburqun "Tristan"ında Tristan və İzoldanın ümidsiz məhəbbəti qələmə alınmışdı. Qotfrid ilk o yazıçılardan idi ki, ədəbiyyat mövzusu kimi fərdi əzab ideyasını bütünlüklə inkişaf etdirmişdi. Trubadurlardan fərqli olaraq o, yalnız ölüm anında məhəbbətin bütünlüklə həyata keçirilməsini görə bildi. "Persifal" və "Tristan" 19-cu əsrdə alman bəstəkarı Riçard Vaqnerin yazdığı eyni adlı operalara görə daha da məşhurlaşdı.

Romanların digər növü şeirdə yazılmış qısa povestlər olan fablio idi. Baxmayaraq ki, fablio Ezopun əxlaqi heyvan əhvalatlarından götürülmüşdü, lakin yumoristik və romantik olmayan qaydada yazılırdı. Ona görə də fabliolar "saray üçün olmayan" sayıldığından, bu povestlər ancaq yeni şəhər sinifləri üçün yazılırdı. Onlar həmçinin kübarlara da ünvanlanırdı, bu əsərlərin gülüşü onlara da xoş gəlirdi. Onlardan ən yaxşıları sonralar Bokkaççonun və Çoserin əsərləri kimi meydana çıxdı.

Orta əsr ədəbiyyatının ən böyük əsəri Dantenin "İlahi komediyası" idi. Dante Aligyeri (1265-1321-ci illər) öz fəaliyyətinin ilk dövrlərində doğma şəhəri Flo-

rensiyada siyasi işlərdə çalışmışdı. O, dünyəvi adam olsa da, yaxşı dini, fəlsəfi və ədəbi təhsil almışdı. O, təkcə Bibliyanı bilmirdi, həm də dünyəvi adamlara xas olmayan qaydada yaxın dövrlərdəki sxolastik ilahiyyatın çoxunu mənimsəmişdi. Üstəlik o, Vergilinin, Tsitseronun əsərləri ilə yaxından tanış idi, bundan başqa öz dövrünün trubadur poemalarından və italyan poeziyasından yaxşı baş çıxarırdı. 1302-ci ildə siyasi dəyişikliklərlə əlaqədar o, Florensiyadan sürgün edilmişdi və ömrünün qalan hissəsini sürgündə keçirməyə məcbur olmuşdu. Onun başlıca əsəri olan "İlahi komediya" həmin son dövrdə yazılmışdı. Dante bu əsərində italyan şeirindən istifadə edərək şairin cəhənnəmə, Ərafa və cənnətə olan səyahətini təsvir edir. Başlanğıcda o, "qaranlıq meşəyə" necə düşdüyündən söhbət açır, metaforadan öz dərin həyat böhranını təsvir etmək üçün istifadə edir. Onu ümidsizlik meşəsindən romalı Vergili çıxarır, axı bu şair klassik idrakın və fəlsəfənin yüksəkliyində dayanır. Vergili Danteni cığırla cəhənnəmdən və Ərafdan keçirir və sonra Dantenin mərhum sevgilisi Beatriça xristian müdrikliyi və mərhəmətliliyi naminə onu qəbul edib, cənnətə aparır. Bu tərəqqi yolunda o, həm tarixi varlıqları, həm də öz müasirlərini görür, onların hamısı həyatdan sonra təyin olunmuş yerlərini tutmuşlar, onlar Danteni təlimatlandırırlar və nəyə görə belə sərt tale ilə üzləşdiklərini ona danışırlar. Poema davan etdikcə şair özü ümidsizlik şəraitini tərk edir, onun müdrikliyi böyüyür və bütünlüklə o, öz xilasına əmin olmaq səviyyəsinə çatır. Şair güman edir ki, insanların azad iradəsi xeyiri seçməyə və şərdən qaçmağa qadirdir və özünün bu sferasında yunan fəlsəfəsini tam nüfuz sahibi kimi qəbul edir. O, Aristoteli "tanıdıqlarının müəllimi" adlandırır. Lakin Dante öz dövrünün dini münasibətlərindən nəinki azad ola bilməmiş, əksinə xristian ehkamlarının təsiri ilə tarixi dühaların çoxunu bütpərəstlər və dinsizlər kimi cəhənnəmdə məskunlaşdırmışdır. Onun cəhənnəminin belə sakinlərinin siyahısında qədim yunan filosofları, qədim Romanın fəxr etdiyi dahilər, islam dininin iftixar bəslədiyi şəxsiyyətlər də vardır.

Bu dövrdə böyük qotik kafedral kilsə binalarının tikilməsi başlıca arxitektura üslubuna çevrildi. Qotik üslubundan əvvəl onun sələfi roman üslubu idi. Roman üslubu ilk növbədə tikinti üslubu idi. Roman üslubunun mühüm xüsusiyyəti dövrələnmiş tağlar, ağır daş divarlar, nəhəng qüllələr, kiçik pəncərələr və aparıcı üfüqi xəttlər idi. 12-ci və 13-cü əsrlərdə roman üslubu Avropanın əksər hissələrində qotik üslubla əvəz olundu. Qotik üslub 12-ci əsrin ortasında Fransada meydana çıxdı. Qotik arxitektura daha qarışıq tikinti üslubu idi. Onun təməl elementləri rənglənmiş tağlar və qübbələr idi. Rənglənmiş şüşələrdən, vitrajlardan olan pəncərələr xüsusi olaraq işıq üçün deyildi, onu şöhrətləndirmək üçün idi, onlar günəş işığının şüalarını tutub ona dəbdəbə və təbiətin özündən gələn rəng istiliyi verirdi. Qotik arxitektura həmçinin orta əsr intellektual istedadının ifadəsi idi. Hər bir kafedral kilsə öz simvolik fiqurları ilə daşda həkk olunmuş orta əsr biliyinin bir növ ensiklopediyası idi. Oxuya bilməyən adamlar bu fiqurlarla müəyyən biliklər əldə edirdilər.

Orta əsrlərin nailiyyətləri çox vaxt dram və musiqiyə elə əhəmiyyət vermirdi. Dram dua ibadətlərində inkişaf edib sonra ondan kənara çıxdı. Qərb musiqisi də bu vəziyyətdə idi. Orta əsr Qərb musiqisi homofonik idi, müasir musiqiyə bənzəmirdi. Onlarda hansısa harmonik mühit yox idi, yalnız bir melodiyadan ibarət idi. Yüksək orta əsrlərin böyük ixtirası polifoniya idi, bu vaxt iki və ya daha çox harmonik melodiya birlikdə çalınırdı. 1170-ci ildə Paris kafedral kilsəsində messa ilk dəfə iki müxtəlif melodiyaların bir-birinə toxunması ilə iki səslə oxundu.

İlahiyyat və fəlsəfə 1300-cü ildən sonra şübhə böhranı ilə üzləşdi. Aparıcı mücərrəd mütəfəkkir ingilis frantsiskanı Uilyam Okhamlı idi. O, 1349-cu ildə güman ki, Qara ölümdən ölmüşdü. Ənənəvi olaraq fransiskanlar Müqəddəs Fomanın mənsub olduğu dominikanlardan daha böyük şübhəyə malik idilər, öz dövrünün hadisələrindən ibrət götürərək onların çoxunu heybətli kimi ifadə edirdilər. Okhamlı nominalizm adlanan mövqeyə keçdi, bu fikrə görə kollektiv yox, yalnız fərdi işlər realdır. Onun məntiqinə görə sözlər real şeyləri ifadə etməkdən daha çox, özünü bildirir.

Bu dövrün ən yayılan ədəbiyyatı isə naturalizm idi. Yerli nəsrin ən böyük yazıçısı italyan Covanni Bokkaçço (1313-1375-ci illər) idi. Onun ən böyük əsəri olan "Dekameron" yüz əhvalatın toplumundan ibarət idi, onların çoxu məhəbbətə və şəhvətə, macəralara həsr olunmuşdu. Bokkaççonun nəsri ruhuna görə "yenilikçi" idi. O, adamları olduğu kimi göstərmək istəyirdi. Naturalist ədəbiyyatın digər nümayəndəsi ingilis Coffri Çoser (1340-1400-cü illər) idi. Onun incisi heç şübhəsiz "Kentenberi hekayələri" hesab olunur. Burada bütün müxtəlif siniflərin nümayəndələri, cəngavər rıtsarlardan tutmuş universitet tələbəsinə və oğurluq edən dəyirmançıya qədər olan adamlar təsvir edilir. Burada qadınlar da vardır, onlardan biri bütün "məhəbbət dərsliklərini" bilir. Hər bir qəhrəman özünü və öz sənətini nümayiş etdirən əhvalatlar danışır, buradan da onların dünyaya baxışı yaranır. Bu ixtirasına görə Çoser "İnsan komediyası"nı yaratmağa qadir hesab edilirdi.

Dövrün ən böyük rəssamlarından biri florensiyalı Cotto (1267-1337-ci illər) idi. O, fərdi portretlər çəkmirdi. O, görkəmli naturalist idi, təbiəti təqlid edirdi. Onun əsərlərində insan məxluqları və heyvanlar öz sələflərinin işlərində olduğundan daha təbii alınırdı. Cottonun freskaları ilk dəfə "divarda deşik açan zərbə" hesab olunurdu. Şimali Avropanın aparıcı rəssamları isə flamandlar idi, onlardan ən məşhurları Hubert və Jan van Eyk qardaşları, Rocer van der Veyden və Hans Memmlinq idi. Van Eyklər və van der Veyden iki şeydə çoxlarından üstün idi. Onlar dərin dindar olmaqla yanaşı, gündəlik gördüklərini kətana köçürürdülər.

# FƏSİL 6
# ALMANİYA VƏ ŞƏRQİ AVROPA DÖVLƏTLƏRİ. RENESSANSIN MEYDANA GƏLMƏSİ

15-ci əsrin sonunda Avropanın heç bir torpağı siyasi qüdrətdə Almaniya ilə yarışa bilməzdi. Bir tərəfdə çox sayda döyüşkən zadəganlar, digər tərəfdə ticarətin və sənayenin inkişaf etdiyi şəhərlərin sərvəti. Avropanın ürəyində əlverişli coğrafi vəziyyəti isə imperatora nəhəng vəsaitlərə malik olmağa imkan verirdi. Seymlərdə mühüm daxili və xarici siyasət məsələləri müzakirə edilirdi. Bir alman tarixçisinin sözü ilə deyilsə, 16-cı əsr Avropasında elə bir böyük döyüş yox idi ki, orada alman muzdurları - landsknextlər iştirak etməmiş olsunlar. Gənclər dəstə-dəstə Almaniyanı tərk edib özlərinə hərbi xidmət axtarırdılar, bu ölkədə döyüşkən ruh yüksək dərəcədə inkişaf etmişdi. Hohentştaufen sülaləsinin yerinə gələn Habsburqlar imperator titulunun əhəmiyyətini yenidən qaldıra bilmədilər. Yeni sülalə imperator taxt-tacının möhkəmliyinə inanmırdı və ona görə də imperiyanın yox, öz torpaqlarının artırılması qayğısına qalırdı. İmperator Maksimilianın birinci işi Almaniyanın öz quruluşunu həll etmək idi. Bu ölkə İtaliya müstəsna olmaqla Avropada yeganə ölkə idi ki, xırda özəl maraqlar ucbatından belə taqətdən düşmüşdü. İmperator mahiyyətcə hakimiyyətsiz idi. Alman hüquqşünasları imperator hakimiyyətinin əhəmiyyəti barədə yağlı kəlmələrlə dəm vururdular, nəzəriyyədən kənarda isə əslində bu hakimiyyətin özü yox idi. İmperator özü bu hakimiyyətdən imtina edib öz nəsil maraqlarına qayğı göstərirdi. Çox sayda knyazlar özlərini müstəqil hökmdarlar kimi aparırdılar. İmperator imperiya rıtsarları ilə mübarizə aparmalı idi. O, imperiya şəhərləri ilə həm saziş bağlamalı, həm də mübarizə etməli idi. Onlar bilavasitə imperatordan asılı idilər. 15-ci əsrdə daim knyazların özləri arasında, knyazlarla şəhərlərin və hər ikisinə də tabe olmayan rıtsarlıqla müharibələri gedirdi.

Hələ 13-cü əsrdə Hanza şəhərlərinin ittifaqı yaranmışdı, bu sonra Reyn üzərindəki şəhərlərin ittifaqına keçdi. Bu ittifaqların yaranmasının səbəbi Almaniyanın anarxiya vəziyyəti idi. Mövcud ədavətə imperatorun müdaxiləsi çox vaxt onun üçün biabırçı uğursuzluqla nəticələnirdi. Ona görə də hər yerdə qanlı münaqişələrə rast gəlinirdi. Almaniyanın mühüm şəhərlərindən hər biri öz dəhşətli inqilabına malik idi, bu inqilablarda ən yaxşı vətəndaşlar tələf olurdu. Rottenburq şəhəri 1300-cü ildən 1450-ci ilədək hər il azı bir müharibə aparırdı, bəzən isə onların sayı üç olurdu. Nyürnberq şəhərini əhatə edən yırtıcı rıtsarlar şəhər tacirlərini qarət edirdi.

Skandinaviya yarımadasındakı german tayfasına məxsus olan dövlətlərə gəldikdə onlar üçün 14-cü əsrin sonunda elə bir rolu olmayan Kalmar ittifaqını əmələ gətirmişdi. İsveçin Danimarkaya tabe olması da sözdə mövcud idi. Onun

Danimarkadakı kralı kimi öz idarə edən hökmdarı var idi. Həmin hökmdarın ölümü özünü kral elan etməyə mane olduğundan, İsveç yenə də Danimarkaya qoşuldu.

Slavyan dövlətlərindən isə Avropanın diqqətini özünə cəlb edən Polşa və Çexiya idi. Polşa bu vaxt güclü idi, döyüşən əhaliyə malik idi, öz geniş ərazisi ilə yanaşı, böyük Litva knyazlıqları da bura daxil idi. Lakin bu dövlət öz daxili quruluşu məsələsini həll edə bilmirdi. Çox sayda tabe olmayan şlyaxta kralın hakimiyyətini məhdudlaşdırır və onun faydalı tədbirlərinə mane olurdu. Təkcə düşmənlərə qarşı döyüşlərdə onlar öz xidmətlərini göstərirdilər. Polşa türklərə qarşı müqavimət göstərmək üçün bir neçə dəfə Macarıstan və Bohemiya ilə birləşmişdi.

15-ci əsrdə Avropa dövlətləri cərgəsində ləyaqətlə dayanan Bohemiya müharibələrdə öz əhalisinin qaymaqlarını itirirdi. Əsr yarım ona almanlarla müharibə etmək lazım gəldi və 16-cı əsrdə bu təmiz alman elementi olan katolitsizm və iezuitizm tərəfindən köləliyə alınmaqla nəticələndi. 15-ci əsrdə Macarıstan Polşa ilə birlikdə Türkiyə ilə daim müharibə aparıb Avropaya böyük xidmət göstərdi.

Bu dövrdə kilsə ilə dünyəvi hakimiyyətin mübarizəsi heç də çox vaxt kilsənin nüfuzunun yüksəlməsi ilə nəticələnmirdi. İmperator IV Henrixin Kanassoda Papa qarşısında alçalması çoxdan ötüb keçmişdi. Vəziyyət diametral qaydada dəyişmişdi. İndi dünyəvi hakimiyyət kilsə üzərində üstünlüyünü nümayiş etdirmək üçün hərbi qüvvədən də çəkinmirdi. 1294-cü ildə Papa olan VIII Bonifatsi öz sələfi VII Qriqorinin yolu ilə gedib Fransa kralından ona tabe olmağı tələb edəndə gözləmədiyi biabırçılıqla üzləşdi. Kral IV Filipp onun üstünə silahlı dəstə göndərdi və bu adamlardan biri Papaya sillə vurmuşdu. Sonra Anaqnidə əsir götürüldü və 1303-cü ildə bu biabırçı hadisədən bir ay sonra Papa öldü. Bu təhqir heç də təkcə birinin digərinə qarşı şəxsi zorakılığı və həyasızcasına hücumu deyildi. Bu onu göstərirdi ki, Papanın siyasi rolunun böyüklüyü artıq başa çatmışdır. Bonifatsi əhvalatından sonra tezliklə ali dini iqamətgah Avinyona köçdü və papaların bu şəhərdəki əsirliyi başlandı. Çünki burada onlar nəzarət altında, fransız krallarının himayəsində yaşayırdılar. Papalar öz ideal yüksəkliklərindən düşdülər. Hər şeydən əvvəl Fransa Papadan müstəqil olduğunu elan etdi və fransız kilsəsi ona əvvəlki tabelikdən çıxdı. III Eduardın dövründə İngiltərə də Papaya ianə verməkdən imtina etdi. Nə vaxtsa Papa leqatları imperatorun seçilməsinə təsir göstərirdilər. 14-cü əsrdə isə kurfyurstlar Reymsdə toplaşıb yalnız özləri tərəfindən imperatoru seçməyi qərara aldılar, artıq buna yadellilər, başqa sözlə Papa leqatları müdaxilə edə bilməzdilər. Hər yerdə ayrı-ayrı millətlər azad olurdular.

Bundan sonra isə böyük sxizma - kilsənin parçalanması baş verdi. Bu ruhani hakimiyyətinə qarşı dünyəvi hakimiyyətə yeni əlavə imkanlar verirdi. 15-ci əsrin əvvəlində hətta eyni vaxtda üç Papa mövcud idi, onlardan biri İspaniyada

yaşayırdı. Onlar bir-birini taxt-tacı oğurlamaqda ittiham edir və öz söyüşləri ilə Avropanı şirnikləndirirdilər. Bu və ya digər Papanın tanınması şəxsi istəkdən asılı idi. Onda Avropanın hər yerində papaların əhəmiyyətini yüksəltmək, bərpa etmək barədə bir çağırış eşidildi. Bu məqsədlə 15-ci əsrin əvvəlində üç məclis toplandı. 1409-cu ildə Pizadakı birinci məclis Qərb kilsəsinin bütün xoralarını və xəstəliklərini göstərdi. 1414-cü ildə Konstansada keçirilən ikinci məclisin nəticəsi isə Papa üçün qorxulu olan yeni istiqaməti göstərən Yan Husun edamı oldu.

Müqəddəs Roma imperiyasının tərkibində olan Bohemiya ən güclü dövlətlərdən biri hesab olunmaqla onun kralı, imperatoru seçənlərin arasında birinci cərgədə idi. Gümüş istehsalında ölkə Avropada aparıcı yer tuturdu, həmin dövrdə gümüş sikkə buraxmaq üçün işlənirdi. IV Karlın dövründə 40 min əhalisi olan Praqa imperiyanın paytaxtı olmaqla dövrün iri şəhəri idi. Həmin dövrdə məşhur Karl körpüsü tikilmiş və Müqəddəs Vitus kafedral kilsəsinin inşasına başlanmışdı. Praqa Avropanın ən gözəl şəhərlərindən biri hesab olunmaqla universiteti materikdə ən köhnə ali təhsil ocaqlarından biri idi, onun əsası həmin vaxtlarda qoyulmuşdu.

Bohemiyada ən böyük torpaq sahibi katolik kilsəsi idi, ən münbit torpaqların üçdə biri ona mənsub idi. Bohemiyadakı kilsənin başçısı olan Praqa arxiyepiskopu 14 şəhərin və 900 kəndin sahibi idi. Monastırlar xüsusən varlı idi. Məhsul qıt olan illərdə öz izafi məhsullarını ac xalqa baha qiymətə satmaqla onlar daha çox varlanırdılar. Saysız-hesabsız kilsə vəzifəliləri kəndliləri və şəhər sakinlərini taqətdən salırdı. Bohemiyada qazanılan gəlirin bir hissəsi Romaya göndərilirdi. Papaların acgözlüyü bütün Avropada hiddət doğururdu. Həmin dövrün ən populyar acı zarafatı bu sözlərdə ifadə olunurdu: "Əgər Xrist Romaya gəlsə və rüşvət verməsə onu qəbul etməyəcəklər".

Katolik kilsəsinə qarşı əsas narazılıq Bohemiyada böyüyürdü. 15-ci əsrin əvvəllərində Praqadakı kiçik kilsə daha çox adamı cəlb edirdi. Şəhər sakinləri, kəndlilər və rıtsarlar buraya Praqa universitetinin professoru Yan Husun qəzəbli çıxışlarını dinləməyə yığışırdılar. Yan Hus (1371-1415-ci illər) öz xalqının vəziyyətini çox yaxşı başa düşürdü. Xalqı Husun nitqlərini dinləməyə cəlb edən, ruhanilərin tamahkarlığına qarşı onun amansız olması idi. Kilsənin mövqelərini ifşa etdiyinə görə Roma da ona nifrət edilirdi. O, Papanı baş dələduz adlandırırdı: "Az sayda keşiş vardır ki, öz vəzifələrini pulla satın almamışdır və inam bəsləyənlərdən pul qazanmamışdır. Qoca qadın son qəpiyini kənara qoyur ki, alçaq keşiş onu əlindən alacaqdır. Beləliklə düzgün olmazmı ki, deyəsən o, oğrudan daha hiyləgər və daha əclafdır". Yan Hus Bohemiyada indulgensiyanın satılmasını pisləyirdi. İndulgensiya isə kilsəyə müəyyən məbləğ pul verməklə Allah qarşısında günahların bağışlanması və buna görə şəhadət almaq idi. Bu biabırçı qayda 12-ci əsrdən başlayaraq yaxşı qazanc mənbəyinə çevrilmişdi və bədnam Papa VIII Bonifatsinin dövründə daha geniş tətbiq edilməyə başlanmışdı.

Hus keşişləri tənqid etdikdən sonra kilsədə islahat keçirilməsini tələb edirdi. O, təkidlə bildirirdi ki, kilsənin yığdığı var-dövlət ondan geri alınacaqdır. Yepiskoplara və monastırlara məxsus olan torpaqlar da onların əlindən çıxacaqdır. O, deyirdi ki, bu qədər ruhaninin olmasına dindarların ehtiyacı yoxdur, Bohemiyanın Papadan asılı olmayan öz kilsəsi olmalıdır, ona kral başçılıq etməlidir və həmin qüvvə Papaya qarşı istifadə olunmalıdır. O, deyirdi: "Qardaşlar, müharibə və qılınc dövrü tezliklə gələcəkdir". Hus tələb edirdi ki, kilsə mərasimləri məcburiyyətdən azad olsun və bütün ayinlər doğma dildə icra edilsin. O, özü çex dilinin qrammatikasını hazırlamışdı. O, bir vətənpərvər kimi deyirdi ki, "çexlər geridə yox, irəlidə olmalıdır" və onları əcnəbi müdaxiləçilərə qarşı qalxmağa çağırırdı. Lakin onun başqa xalqlara heç bir nifrəti yox idi və deyirdi ki, "yaxşı alman onun üçün pis çexdən daha əzizdir". O, feodal sisteminə əks olmasa da, hesab edirdi ki, kəndlilərin yoxsul və dilənçilikdə yaşaması düzgün deyildir.

Praqa arxiyepiskopu onu dindən təcrid etdi. Lakin Husun ardıcıllarının sayı artmaqda davam edirdi. Bu vaxt Papa onu baş kilsə məclisinə çağırdı. Bu məclis Cənubi Almaniyadakı (indiki Rumıniyada) Konstansa şəhərində toplaşmışdı. Alman imperatoru onun təhlükəsizliyini təmin etmək üçün mühafizəçilər göndərdi. Konstansada isə Hus həbs edildi, zəncirləndi və kafir-yeretik elan edildi. Kilsə məclisi tələb etdi ki, o, öz baxışlarından imtina etsin. Huc cavab verdi: "Əgər mən öz sözümü dəyişsəm, onda mən həmişə həqiqəti qəti deməyə öyrətdiyim adamlarla necə üz-üzə gələcəyəm". Öz düşüncələrini dəyişməkdənsə o, ölməyi üstün tutdu. Kilsə məclisi onu ölümə məhkum etdi. 6 iyul 1415-ci ildə Yan Hus tonqalda yandırıldı. Müstəsna dərəcədə əzablı ölümlə üzləşdikdə, o, özünü çox mərd apardı. Onun edamı çex xalqını çox qəzəbləndirdi.

Papadan narazı olan kardinallar və arxiyepiskoplar da onun hakimiyyətini məclislər vasitəsilə məhdudlaşdırmaq istəyirdilər. Bununla da onlar katolitsizmin başlıca əsaslarından birinə təcavüz edirdilər. 1431-ci ildə Bazeldə keçirilən məclis belə cəsarətli çıxışlar etdi ki, məclislər Papadan yuxarıda dayanır, məclis onun qərarlarını dəyişə bilər, onu devirə bilər. Onlar deyirdilər ki, məclisdə Papa keşişə bərabərdir. İşin nə şəkil aldığını görən Papa və onun tərəfdarları ayrı-ayrı dövlətlərə təkliflərlə müraciət etdilər, fransız və ingilis kilsələrinə mühüm azadlıq verdilər, onları çoxlu hüquqlarla təmin etdilər, bununla həm də Husun çexlərinə öz doqmatlarında güzəştə getdilər. Bu yolla onlar çalışırdılar ki, Papa hakimiyyətindən nəyi isə saxlaya bilsinlər, lakin bu güzəştlərin nəticələri aydın idi. Məclisin müqəddəs atalarının islahatı baş tutmadı, lakin milli kilsələr hər yerdə udurdular. Burada zamanın ümumi xarakteri özünü büruzə verirdi.

Hər bir ictimai qayda sxolastikaya qarşı mübarizə əsasında duran, onun nəticəsi və məhsulu olan ideyalarla sıx əlaqədədir. Orta əsr onun siyasi formalarının, kilsə idarələrinin və əxlaqi qaydalarının əsasında dayanan öz tamamlanmış nəzəriyyəsinə malik idi. Orta əsr həyatının hadisələrinə haqq qazandıran, onun

qanuniliyini təsdiq edən öz elmi var idi. Burada inkar ruhu nüfuz etmişdi, onun bütün bu vacib əsasları ciddi tədqiqatlara məruz qalmışdı.

Orta əsr elminin və ya sxolastikanın ən koloritli nümayədələrindən biri Pyer Abelyar (1079-1142-ci illər) idi. O, çox mürəkkəb həyat yaşamışdı, çoxlu mübarizələr aparmışdı, o vaxtkı dövrün elmlərinin bütün sahələrinə toxunmuşdu və onlarda müəyyən iz qoymuşdu. Onun mühazirələri böyük maraq doğururdu. Ona yer üstündə mühazirə oxumaq qadağan ediləndə o, ağaca dırmaşıb oradan nitqini davam etdirirdi və çoxlu dinləyici toplayırdı. Ona havadan moizə oxumaq qadağan olunanda, o, çayın ortasındakı qayıqdan mühazirəsini davam etdirirdi və sahilə yığılmış tələbələr onu diqqətlə dinləyirdilər. Abelyar kilsədən təcrid edilirdi, onun şagirdi Arnold Bresçinli İtaliyada siyasi formanı dəyişdirməyə cəhd etdiyinə görə tonqalda yandırılmışdı. Çünki bu vaxt sxolastika iki əleyhdara malik idi, bunlardan biri dünyəvi, digəri isə ruhani hakimiyyət idi. O dövrün parlaq sxolastikləri Papa taxt-tacı ilə və dünyəvi hakimiyyətlə daim düşmənçilikdə olurdu.

Abelyarın həyatı da daim sınaqlarla üzləşirdi. Notr-Dam kilsəsində mühazirəçi olarkən o, 17 yaşlı Eloizaya vurulmuşdu. Sevgililər birlikdə Britaniyaya qaçıb orada özəl qaydada evlənmişdilər. Bir az sonra Eloiza Abelyarın işlərinə mane olmamaq üçün ərə getdiyini dandı və qız monastırına yollandı. Sonralar qızın dayısı Abelyardan qisas almaq üçün onu xədim etdirmişdi. Bundan sonra Abelyar da rahibliyə keçmişdi. Sonra bu sevgililərin məhəbbət dolu məktubları əsl vurğunluq və saf hisslərin ifadəsi kimi qaldı, bəziləri bu sevgi sətirlərini Qərb Renessansının ilk müjdəsi hesab edirlər. Sonra onun düşmənləri onu küfrdə ittiham etdilər və o, təqsirli sayıldı. Romaya özünü müdafiə etmək üçün yollananda yolda öldü və sevgilisi onun dəfnini təşkil etdi, 12 il sonra özü də öləndə Abelyarın yanında torpağa tapşırıldı.

Sxolastika səhv yolla getməklə müqəddəs kitabın mətninə diqqət verməyi də dayandırdı, ona öz izahlarını verməyə başladı, çünki bu vaxt ilahiyyat alimlərinin bəziləri hətta Bibliyanı bilmirdilər. Abelyarın qaldırdığı mühüm məsələlərdən fərqli olaraq universitet disputlarında sxolastiklər niyə Adəmin cənnətdə armud deyil, alma yediyi barədə mübahisə edirdilər. Bir sözlə, canlı, ifadəli mahiyyət, məzmun bütünlüklə elmdən qeybə çəkildi, tarix, filologiya, təbiət elmləri ümumiyyətlə tədris olunmurdu. Bu rəsmi elmdən başqa digər elm də var idi. Sxolastikanın təkcə cəsarətli cəhdləri papalığa qalib gəlmədi, o Avropadakı küfr üstündə digər qanlı qələbəni qazandı. Katolitsizmin güclənməsi ilə yanaşı onun kölgəsində olan müxalif istiqamətdə inkişaf edirdi. Bu hərəkatın ürəyi Cənubi Fransa idi. 13-cü əsrdə İtaliyada bu yeni istiqamətlərin artıq bəhrələri göründü. Fransada iki növ - lirik və nəql ədəbiyyatı meydana gəldi. Lirik istiqamət İtaliyada qapanıb qaldı. İtalyan milli poeziyasının banisi olan Françesko Petrarka çox vaxt Papa sarayında yaşasa da, daha uzağa gedərək Romaya birbaşa güclü məzəmmət sözləri ilə, nifrət ifadələri ilə müraciət edirdi.

Onun yaradıcılığı həm də musiqililiyi ilə, müasir formaları ilə bütün Avropa poeziyasının inkişafına öz təsirini göstərdi. Onun şeirləri təkcə İtaliyada populyar deyildi, bütün Avropaya tanış idi.

Şimali Fransada isə şəhər ədəbiyyatı olan fransız fabliosu meydana gəldi, bu əsərlərdə rıtsarlığın, ruhaniliyin məzəli tərəfləri işıqlandırılırdı və bu orta əsrlərin bütün ideallarını biabır edirdi. İtaliyada həmin növ ədəbiyyatın ən görkəmli nümunəsi Bokkaççonun "Dekameron"u idi. Formanın qeyri-adi incəliyi ruhaniliyin gözündə bu povestlərin şirnikləndirici məzmununu ört-basdır edirdi. Onlar bütün dillərə tərcümə edilmişdi və saraylarda oxunurdu. "Dekameron"da orta əsrlərin bütün idealları ələ salınırdı. Onların dağıdıcı gücü bədii forma altında ört-basdır edilirdi, ona görə də müəllif təqib olunmurdu. Dante Aligyerinin "İlahi komediyası"nda da orta əsr elementlərinin yeniləri ilə mübarizəsi ön plana çəkilir. Dante orta əsr elminin dərin və ehtiraslı aludəçisi idi, lakin onu öz idrakının ziddiyyətləri ilə razılığa gətirə bilmirdi. "İlahi komediya"da bu daxili mübarizədən irəli gələn disharmoniya mövcud idi. Bu əsərdə bir fikir irəli sürülürdü ki, orta əsr ideyalarında böyük olanlar inkişaf edə bilməzdi. Orta əsr ilahiyyatının və elminin müdafiəçisi olmaqla yanaşı, Dante papalığın düşməni idi. "Monarxiya" kitabında isə o, öz dövründə papalar tərəfindən yayılan nəzəriyyələrə tam əks olan dövlət nəzəriyyəsini irəli sürmüşdü. Lakin onun islam dininə münasibəti əslində səlibçilərin dünyagörüşündən o qədər də uzağa getmirdi. "İlahi komediya"da Məhəmməd Peyğəmbəri və şiələrin lideri Əlini cəhənnəmdə əzab içərisində təsvir edir, guya onlar öz günahlarının cəzalarını çəkirlər. Dantenin xristianlara aid olmayanların hamısına münasibəti mənfidir, ona görə də antik dünyanın görkəmli şəxsiyyətlərini cəhənnəmin guşələrində məskunlaşdırır.

Renessans ilk dəfə bu adı alanda "yenidən doğulma" mənasını verirdi. Bu o demək idi ki, orta əsrləri qaranlıq dövr kimi düşünənlərə görə bu vəziyyətdən insan ruhu oyanmalı idi. Uzun fasilədən sonra 15-ci əsrdə insanlar yunan-roman sivilizasiyasını əxz edib, onu yenidən bərpa etdilər. Bu o vaxt idi ki, Renessansın özündə orta əsrlər barədə "aralıq" dövrü kimi düşünməyə başladılar. O vaxtdan da Renessans çox vaxt "yeni" dövrlərin başlanğıcı kimi hesab olundu. Bizim dövrümüzdə isə orta əsrlər qaranlıq dövr kimi qiymətləndirilmir, ən azı bu termin 1000-ci və 1100-cü illərdən sonraya aid edilmir. Çünki "yeni" dövrlər qəflətən meydana gəlməmişdir. Renessans həm də fikirdə və hissiyyatda yeni eranı rəmzləndirirdi, onun vasitəsilə Avropanın və onun institutlarının uzun davam edən yeniləşməsi, dəyişilməsi baş verdi. Bu İtaliyadakı kvatroçento (italyanlar 15-ci əsri belə adlandırırdılar) idi və o demək olar ki, təmiz dünyəvi münasibət kimi ilk dəfə meydana çıxdı. Renessans kilsəsinin özündən artıq dünyəvi olan heç bir institut ola bilməzdi.

İtaliyada şəhərlər Aralıq dənizində ticarət meydana gəldiyi vaxtdan Avropadakı ən iri şəhərlər idi. Tacirlər öz bəxtlərini kommersiyada sınayırdılar. Onlar

öz pullarını papalara və hökmdarlara borc verirdilər, beləliklə bankirlərə çevrilirdilər. Onlar sənətkarların düzəltdiyi bədii qiyməti olan malları satın alırdılar. Belələrindən biri Mediçi ailəsi idi. Bu ailənin əsasını qoyan Florensiya taciri və bankiri Covanni (1429-cu ildə ölmüşdür) olmuşdu. Onun oğlu Kozimo de Mediçi tezliklə qeyri-rəsmi hökmdara çevrildi. Kozimonun nəvəsi Parlaq Lorentso (1449-1492-ci illər) respublikanı idarə etmək üçün böyük sərvət toplamışdı. Lakin o, daha çox şair, həmçinin incəsənətin və elmin əliaçıq xeyriyyəçisi kimi xatırlanır. Lorentsonun ölümündən sonra Toskana böyük hersoqluğa çevrildi və ailə 1735-ci ildə ölüb yoxa çıxana qədər üzvləri irsi olaraq böyük hersoqlar kimi fəaliyyət göstərdilər. Bu ailədən kilsə üçün çox sayda kardinal və iki papa çıxmışdı, iki Mediçi qadını Fransa krallarının kraliçaları olmuşdu. Bunlar II Henrixin arvadı Katerina Mediçi və IV Henrixin arvadı Mariya Mediçi idi.

İtaliyada bu vaxt qalxan ideya insanın özü haqqındakı yeni konsepsiya idi. Tselibat, nikahsızlıq həyatı yüksək səviyyədə idi. İnsanın iradəsinin və bacarığının onu səhv yola apara bilməsi kədərli bir təlim kimi görünürdü. İnsanın kövrək, zəif məxluq olması, onun Allahın mərhəmətinə və xilasına möhtac olması barədəki gümana baxmayaraq, bəzən belə deyirdilər ki, bu yalnız dilə gətirilən idi, heç də ürəkdən düşünülmürdü. Bunun əksinə italyanların irəli sürdüyü Renessans insanın nəhəng qüvvəsi, insan təbiətinin zəngin potensialı, insan istedadının hər bir sahədə azad fəaliyyət göstərməsi barədə düşüncələrdən ibarət idi. Renessans fərdiyyətçiliyi azadlıqda şərəfləndirdi. Böyük fərd digərlərindən kənarda dayanırdı. O, ağılda və ruhda azad idi. O, öz taleyini özü həll edirdi. O, *virtu*-ya malik idi. Bu söz azacıq şəkildə "ləyaqət" ifadəsi ilə əlaqədar idi. Bu insan varlığının (*vir* -"insan" demək idi) xüsusiyyətini bildirirdi. Renessans rəssamlarının əsərlərində insan bacarığının və istedadının izləri özünü daha çox nəzərə çarpdırır, baxmayaraq ki, bu tablolarda əsasən dini mövzular təsvir edilirdi. Adamlar arasındakı fərqlər nəzərə çarpırdı. Leonardo da Vinçinin "Axırıncı şam yeməyi" əsərində Xrist və onun şagirdləri öz xüsusiyyətləri ilə təsvir edilmişdi. Mikelancelonun təsvir etdiyi qəhrəmanların xüsusiyyətləri elə görünürdü ki, elə bil ki, onlar Göyün özünə müdaxilə edəcəklər. İtaliya Renessansındakı ədəbi hərəkat "humanizm" adlanırdı, çünki bu dövrün yazıçıları bəşəri və insan qüvvəsi kultunu tərənnüm edirdilər. Onlar bəşəriyyətin ən yaxşısını antik dövrün insanları arasında tapdılar. Əsl roman müəllifləri orta əsrlərdə tanınırdı və oxunurdu. Renessansda onlara incə vəcdlə yanaşılırdı. Bu vəcdlənmə 1400-cü illər ətrafında böyüdü, italyanlar yunanları öyrənəndə isə ilk dəfə olaraq ümumi hala çevrildi. İtalyan humanistləri Avropa yazıçılarının içərisində ilk dəfə idi ki, ruhanilərin üzvləri deyildilər. Onlar əsasən dünyəvi adamlar idilər, yunanların və romanların içərisində də onlar həmçinin dünyəvi olanları gördülər. Livinin və ya Tsitseronun səhifələrindən gələn antik ədəbiyyat onlara olduqca aydın və fərqli gəlirdi. Bu işıq dünyası idi, bu dünya fövqəltəbii və ya sehrli deyildi. O kilsə və ya ruhanilər, ya da kiçik rahib sözləşmə-

ləri ilə pozulmurdu, bu dünyada insanlar Yuli Sezar kimi rasional və anlaşılan motivlər əsasında hərəkət edirdi və ya Tsitseron kimi fəlsəfi mövzularda ağıllı qaydada və insani üslubda yazırdı. Bu elə bir dünya idi ki, orada dünyəvi ruh özünü olduqca yüngül hesab edir. Yunanlar və romanlar, buna baxmayaraq, şübhəsiz üsluba malik idilər, bu forma düşüncəsi, zərif və epiqramma üçün zövq hissi idi.

İtalyan humanistləri də buna bənzər ruhda düşünürdülər. Humanistlər özlərini antik mədəniyyətin ağuşuna atırdılar. Onlar geyimlərində, danışıqlarında və rahat həyat şəraiti yaratmaqda özlərini nəcib romalılara bənzətməyə çalışırdılar. Orta əsr latın dili klassik latından götürülmüşdü. Lakin humanistlər orta əsr latınından, onun barbarlığına və korlanmasına görə imtina etmişdilər. Humanistlər yalnız Tsitseronun və ya Vergilinin leksikasında və üslubunda yazmaqla razılaşırdılar. Bir keşişin belə adəti var idi ki, messa ibadətini keçirəndə danışdıqdan sonra ağzını yuyurmuş, çünki o, hesab edirmiş ki, messa latını adamı alçaldır. Humanistlər də tam qədimlər kimi yazmağa cəhd, etdikdə təbii olaraq, müasir məsələlərin çoxuna toxunmağı qeyri-mümkün edirdilər.

Renessans elit hərəkatı idi. Bu heç də bütünlüklə kübar hərəkatı deyildi, lakin müstəsna olaraq cəmiyyətin yuxarı hissəsinin ruhunu tərənnüm edirdi. Humanistlər yeni növ sirrlərdən yazırdılar və bunda yalnız özləri usta idilər. 1450-ci illərə yaxın Almaniyada çap icad ediləndən sonra İtaliyaya yayılmağa başlayanda italyan humanistləri bunu narazılıqla qəbul etdilər. Çap olunan kitablar onlara sevdikləri qədim yazıların ucuz əvəzedicisi kimi görünürdü, onlar həm də istəmirdilər ki, zövqü olmayan hər bir adam onları oxuyanlara qoşulsun.

İtalyan Renessansı cəmiyyətdə yaşayan adamların birlikdə qoruyub saxlaya biləcəyi elə bir institut və ya böyük ideya yaratmamışdı. Həqiqətən də, Avropanın ən böyük institutu olan roman kilsəsi Renessans papalarının dövründə tam biganəliyə məruz qaldı. İtaliya hansısa səmərəli siyasi institut da əldə etmədi. Şəhər-dövlətlərə nəzarət edən tacirlər və estetik entuziastlar nə özləri vuruşa bilirdilər, nə də öz vətəndaşlarını onların naminə döyüşə qaldıra bilirdilər. Onlar kondotyeri adlanan peşəkar vuruşan adamlar tuturdular, onlar silahlı dəstələrin özəl başçıları idi. İtalyan siyasəti dolaşıq tora, məxfilik labirintinə çevrilmişdi. "İtalyan hiyləgərliyi" bütün Avropada dillərə düşmüşdü. İtaliyada hakimiyyət heç bir qanuniliyə can atmırdı, hansısa əxlaqi ideyanı təmsil etmirdi. Diktatorlar qalxır və yıxılırdı. Köhnə respublika ruhu yoxa çıxmışdı. Mediçilər Florensiyada, Sfortsalar Milanda hersoqlara çevrilmişdilər, bu vaxt Venetsiya və Genuyada isə respublika quruluşu saxlanırdı, dar oliqarxiya qrupu idarəetməni əllərində saxlayırdı.

15-ci əsrdə İtaliyada Platon və Aristotelin əsaslı öyrənilməsi başlanır. 1439-cu ildə Florensiya məclisində kilsə xadimlərindən biri xristian doqmatlarını Platon ideyaları ilə əvəz etməkdə şübhə altına alındı. Elə həmin əsrdə Kozimo Mediçi Florensiyada akademiya yaratdı. Bu akademiyanın üzvlüyünə İtaliyanın

ən yaxşı adamları, o cümlədən türklər tərəfindən işğal edilmiş Konstantinopoldan qaçmış bir neçə yunan daxil olmuşdu. Akademiyaya Platonun tərcüməçisi rəhbərlik edirdi və onun əsərləri dini əsər kimi öyrənilirdi. Görkəmli italyan reformatoru Savonarola deyirdi ki, onun dövründə Platondan olan mətnlərdə kilsələrə moizə paylanırdı. Papanın razılığı olmadan Florensiyada alimlər yığışıb öz iradələri ilə Platonu müqəddəs elan etmək istəyirdilər. İtaliyanın bu tədbirlərində digər xalqların nümayəndələri də iştirak edirdilər. Sonralar Papa leqatı olan Nikolay Kuzalı Almaniyada universitet təhsili aldıqdan sonra İtaliyaya gəlib orada qədim alimləri öyrəndi. Əsas fikir ondan ibarət idi ki, qədim elmlə yeninin, qədim fəlsəfə ilə xristianlığın əlaqəsi göstərir ki, onlar bir-birinə heç də düşmən deyillər. Bu ideya ilə Piko de Mirandola da çıxış etdi. Bu iyirmi üç yaşlı gənc Romaya mübahisə üçün 900 tezisdən ibarət öz təkliflərini verdi. Mirandola xüsusi istedada malik idi, demək olar ki, bütün qədim Avropa dillərini və şərq dillərindən mühüm olanları bilirdi. O, 15-ci əsrin ən böyük və nəcib şəxsiyyətlərindən biri idi. O, Lorentso Mediçinin protejesi olmuşdu və qədim yəhudi, ərəb dillərini və Kabalanı öyrənmişdi, italyan Renessansının aparıcı alimlərindən birinə çevrilmişdi. O, mistitsizmə bir qədər meyl etsə də, ölümünün son illərini Kabalanın öyrənilməsinə həsr etmişdi. Bu ad altında yəhudilər allahın Adəmə və Abrahama vəhy etdiyi elmi nəzərdə tuturdular. Sonralar bu biliklərdən əlavə Moisey 10 ehkam almışdı. Bu bilik az adamlar üçün mümkün idi və açılırdı, şifahi olaraq bir nəsildən digərinə keçirdi.

15-ci əsrdə alimlərin çoxu guya bilavasitə Allah tərəfindən insana verilmiş elmə inanırdı. Mirandola da ona vurulmuşdu, özü də bu həmin adam idi ki, astroloji sayıqlamaların təkzibi barədə bir əsər yazmışdı. O, Kabalada həqiqətin insana gəlib çatmış simvolları axtarırdı. Onun əsas qayəsi Adəmdən başlayaraq uzanan inkişaf sapı, insan əhvalatlarının birliyi idi. Onun düşüncəsinə görə xristianlıq bütün tarixin yüksək forması idi, Şərqin dinləri və qədim fəlsəfi inamlar da ona istiqamətlənmişdi. Qədim elmləri dərindən bilən Mirandola sxolastikanı da müdafiə edirdi, ona hörmətlə yanaşırdı. Öz cavanlığına, qəşəngliyinə, knyaz olmasına baxmayaraq, o, guşənişin həyatı yaşayırdı, elmə xidməti müqəddəs iş hesab edirdi. O, 1494-cü ildə özünü bütünlüklə elmi zəhmətə həsr edəndə öldü, ideyaları isə vətəninin hüdudlarından kənara çıxdı, 16-cı əsrdə isə Almaniya və Fransada yayıldı.

1468-ci ildə Papa III Pavel İtaliyada ilk dəfə elmin təqib edilməsinə başladı. Lakin bu təqibin elə ciddi izləri qalmadı. Yunan və Roma klassikləri gənc adamların ağlına, şüuruna əsaslı təsir göstərirdilər. Bunu İtaliyadakı hər bir dövlətin tarixində aydın görmək olar. Bir qrup gənc Milanı Sfortsalardan azad etməyə cəhd etdi. Onların hamısı həlak oldular. Dəstənin başçısı isə dəhşətli işgəncə ilə edam ediləndə, latınca "Ölüm bərabərləşdirsə də, əbədi şərəf verir" sözlərini deyərək, özünə təskinlik verirdi. Bu istiqaməti isə Florensiya respublikasının dövlət xadimi Nikkolo Makiavelli başa çatdırdı.

Makiavellini öyrənmək 16-cı əsrin xarakterini anlamaq üçün çox vacibdir. O, orta və yeni dövrün qovuşduğu yerdə dayanır. Ədəbiyyat təhsili aldıqdan sonra bu gənc, Mediçilərin Florensiyada hakimiyyətdən devrilməsinin şahidi oldu. Fransızların İtaliyaya gəlməsindən istifadə edən Florensiya vətəndaşları Mediçiləri qovdular. İdarəetmənin qədim, respublika forması bərpa edildi. Makiavelli yeni hakimiyyətdə məsul vəzifələr tutdu, bütün əsas işlər onun əlindən gəlib keçirdi. O, tez-tez respublikanın tapşırığı ilə müxtəlif xarici dövlətlərdə olurdu və bu səfərlərində həmin dövr Avropasının işləri ilə tanış olurdu. 1512-ci ildə imperator V Karlın qüvvələrinin köməyi ilə Mediçilər çevriliş etdikdə, yenidən Florensiyaya qayıtdılar. Əvvəlki partiyanın tərəfdarları süqut etdilər. Makiavelli dustaq edildi və işgəncələrə məruz qaldı. Özü bu işgəncələr barədə demişdi ki, "bir az davam etsə, mən ölərdim". Ona qarşı əsaslı bir dəlil tapılmadığından azad edildi və şəhərin ətrafındakı malikanəsinə çəkildi. Burada da o, ədəbi fəaliyyətinə başladı, məşhur "Hökmdar" əsərini yazdı. Sonra o, tarixçi Tit Livi barədə söhbətlərini yazdı. 1527-ci ildə əzab çəkmiş adam kimi öldü və özünə ağla sığmayan ad qoyub getdi: onun adını hiyləgər, məkrli siyasət anlayışı ilə birləşdirdilər. Siyasətdə bütün vasitələrin istifadə edilməsinin vacibliyini ilk dəfə o, nəzəri cəhətdən əsaslandırmışdı.

Ancaq İtaliya ona heç də elə baxmırdı və onu özünün ən böyük vətəndaşları sırasına daxil edirdi. Onun təlimindən çox ziyan çəkən yeni Avropada onun müdafiəsinə qalxmış səslər eşilirdi. Mübahisə onunla həll olundu ki, onun şərəfi bərpa edildi. O, İtaliyanın ən ehtiraslı və nəcib şəxsiyyətlərindən biri idi.

Əsərlərinə gəldikdə, onun hətta kiçik həcmli rəsmi hesabatları da ən mühüm tarixi abidə xarakteri daşıyır. Fransa və Almaniya barədəki hesabatlar çox dərin təhlildən xəbər verir və bu iradlara sonralar tarix haqq qazandırdı.

Florensiyanın tarixi barədəki əsərində isə o, Papa VI Aleksandrın oğlu olan Çezare Borcianın yanında işlədiyi dövrü qələmə alır. Çezare ruhani rütbəsini kənara atıb dünyəvi hakimiyyətə yiyələnməyə can atırdı. Bu həmin epoxanın tipik xüsusiyyəti idi. Çezare Borcia İtaliyada qüdrətli dövlət yaratmağı düşünürdü. Bu məqsəd üçün heç bir vasitədən çəkinmirdi, gizli zəhərləmələr, xəyanət, müharibə işə salınırdı. Onun yaxşı təlim keçmiş və sədaqətli ordusu var idi, bu o dövr Avropasının bütün qoşunları ilə qüvvəsini sınamağa hazır olan ordu idi. O, özü də olduqca fəal olmaqla yanaşı, xeyir və şər arasındakı fərqi çoxdan itirmişdi. O, aşağı təbəqələrə zülm etmirdi, zərbələri əsasən onun cəhdlərinə müxalif çıxanlara dəyirdi. Makiavellinin özünə gəldikdə, onun da əxlaq barədə anlayışı siyasi xarakter daşıyırdı, deyirdi ki, xalqın rifahı ali qanundur.

Çezare Borcianın xüsusiyyətləri ona dəhşət təlqin etmirdi, əksinə xoşuna gəlirdi. Ona görə də "Hökmdar" əsərində cinayətlərə haqq qazandırılır və onlar barədə dərs verilir. Bütün cinayətləri faydalı və faydasızlara bölürdü, yalnız axırıncıları rədd edirdi, birinciləri isə dövlətdə zəruri sayırdı. Bu kitabda o, özəl əxlaqı siyasi və vətəndaş əxlaqından kəskin surətdə fərqləndirir, onların arasında

heç bir ümumi cəhət yoxdur. Məhz bu kitab müəllifinə bədnam ad qazandırdı.

Bəziləri güman edir ki, Makiavelli bu kitabı alçaq yaltaq kimi yazıb ki, yenidən əvvəlki vəzifəsini alsın. Digərləri isə müasiri olduğu siyasəti ifşa etmək üçün onun bu gizli niyyətlərini önə çıxarırdılar, nəhayət, üçüncülər daha asan qaydada izah edərək bunu Makiavellinin həyatının və rəylərinin xarakteri ilə əlaqələndirirdilər. O, yaxşı görürdü ki, ümumi əxlaqın korlandığı şəraitdə qaydanı bərpa etmək üçün İtaliya bütün vasitələrdən məhrum olmuşdur. Onun xilası üçün o, diktatura arzu edirdi və bu inama o, qədim tarixi öyrənməklə yiyələnmişdi. Onun üçün diktatorun kim olması vacib deyildi, təki İtaliya xilas olunsun. Onun rəyinə görə belə diktator Çezare Borcia ola bilərdi. Bu əsərində o, fransızlar və almanlar barədə nifrətamiz qaydada danışır, bu yəqin ki, onun öz vətəninə sevgisindən irəli gəlirdi. Alman tarixçisi Ranke Makiavelli haqqında düzgün demişdi - Makiavelli İtaliya ilə həkim xəstə ilə davranan kimi davrandı: xəstənin ağır vəziyyətini görüb həkim ona zəhər verdi, başqa vasitə yox idi.

Makiavelli ayrıca adamın subyektiv tələblərindən çıxış edərək xristianlığı, ictimai əxlaqı və şücaətləri zəiflətməkdə ittiham etdi, bununla əslində o, xristianlığı İtaliyaya çox şeydə ziyan vurmuş Roma ierarxiyası ilə qarışıq salırdı. Bununla yanaşı o, deyirdi ki, "Yalnız dərin dindar olan xalqlar böyük tarixi hünərləri göstərməyə qadirdir". Onun üçün tarix, Tsitseron üçün olduğu kimi həyatın müəllimi idi. O, Tit Livi barədəki əsərində əxlaq üçün dərslər və misallar verir və bu nümunələrin gücünə inanır. Ona görə də bəziləri Makiavellini qədim tarixi lazımınca bilməməkdə günahlandırır.

Lakin Makiavelli daha çox praktiki insan, vətəndaş idi. Onun həyata baxışı da acı və satirik idi. O, yazırdı: "Bədbəxtlik gələndə onu damcı-damcı deyil, bütöv ud, ağılsız o adamdır ki, onun dadına xırda-xırda baxır". Makiavelli təlimi də öz zəhərli qarışığı ilə 16-cı əsrin siyasi ideyalarına daxil oldu. Məqsəd nə qədər böyük olsa da, əxlaqsız vasitələr məhz məqsədin özünə ziyan vurur. Makiavelli özü nə qədər böyük şəxsiyyət olsa da, əsərləri necə böyük ləyaqətlərə malik olsa da, onlar müəllifin gözləmədiyi təsirlə nəticələndi.

15-ci əsrdə alman universitetlərinin çoxu meydana gəldi. Bu universitetlərdə təhsil əsasən sxolastik idi, sxolastikanın müxtəlif sahələri üzrə ilahiyyat, kanon hüququ və Roma hüququ barədə mühazirələr oxunurdu. Təbiət elmləri, tarix və fəlsəfə haqqında anlayış belə yox idi. Lakin həmin əsrin sonunda şəhərlərdə bir neçə adamlar üzə çıxdı ki, onlar qədim yazıçılar, şairlər, tarixçilər haqqında mühazirələr oxuyurdu və gənclər böyük həzzlə bu mühazirələri dinləyirdilər. Bu hərəkatla birlikdə kitab çapı da yayılmağa başladı. Kitabı əldə etmək asanlaşdı, qədim yazıçıların yeni nəşrləri hər yerdə yayılırdı. Lakin bir mühüm fərq Almaniyanı İtaliyadan ayırırdı. İtaliyada bu elmi hərəkat qədim dünyaya qayıdış o saatca katolitsizmə, xristianlığa qarşı müxalifət xarakteri aldı. Təkcə qədim yunan və Roma ədəbiyyatı ilə məşğul olan dünyəvi alimlərdən deyil, həm də kardinalların çoxundan xristian təliminə qarşı laqeydliyə görə şübhə-

lənməyə başladılar. Almaniyada isə vəziyyət bambaşqa idi. Burada elmi hərəkat dini hərəkatla birlikdə gedirdi.

Məktəbləri dəyişdirmək, sxolastikanı nəsə canlı olan bir şeylə əvəz etmək cəhdləri ilk dəfə Niderlandda gözə çarpdı. Onlar Foma Kempisin məxsus olduğu dini qardaşlıqdan, qarşılıqlı məhəbbət qardaşlığından çıxmışdılar. Qardaşlığın üzvlərinin başçılıq etdikləri bu məktəblərdə ilk dəfə olaraq qədim dillərin əsaslı surətdə öyrənilməsi başlanır. Əlbəttə, məqsəd müqəddəs kitabın orijinaldan öyrənilməsi idi, heç də dünyəvi yazıçıların əsərlərinin öyrənilməsi deyildi, lakin qədim yazıçıların öyrənilməsi onlarla birlikdə gedirdi. Tarixdə hər bir hərəkat adətən onun görkəmli nümayəndələrində təcəssüm olunur. Hələ 15-ci əsrin birinci yarısında Almaniya bu məsələdə Avropaya böyük xidmət göstərdi. Onun görkəmli təmsilçiləri sərgərdanlıq edən elm rıtsarları, o vaxtlar adlandırıldıqları kimi humanistlər idilər. Onlar bir şəhərdən digərinə keçirdilər. Üç nəfər xüsusilə fərqlənirdi, bunlardan biri İoann Reyxlin idi. O, İtaliyada təhsilini başa çatdırmışdı. Homerin "Odisseya"sının bir nüsxəsini oradan Almaniyaya gətirmişdi. Latın lüğətini, yunan qrammatikasını, bu dillərin öyrənilməsini asanlaşdıran böyük igidliklər təsvirini nəşr etdirdi.

Bu dövrdə Bibliyanı ancaq o qədər də dəqiq olmayan latın tərcüməsindən öyrənirdilər. Yəhudi dilini yalnız savadlı ravvinlər bilirdilər. Reyxlin bu dili öyrəndi. Piko Mirandola kimi o da bütün elmləri birləşdirən yeganə elmi arzu edirdi və bu elmi Kabalada tapmaq istəyirdi. Onun düşüncəsinə görə ümumdünya simvolikasının açarı bunda idi. Kolumb Asiyanın şərq sahillərini axtaranda Amerikanı kəşf etdiyi kimi, Reyxlin alman alimlərinin ədavət və ixtilaflarında iştirak etməklə xristianlığın qızğın müdafiəçilərinin ziddinə olaraq qədim yəhudi irsinin məhv edilməsinin əleyhinə çıxdı. Hadisə belə olmuşdu. 1510-cu ildə tamah məqsədilə Köln dominikançıları tərəfindən bir yəhudi pulla satın alınaraq xristianlığa keçmişdi. O, yəhudilər haqqında kitab nəşr etdirib tələb etdi ki, xristianlıq naminə bütün yəhudi kitabları yandırılsın. Dominikançılar o vaxtlar inkvizisiya məhkəməsinə başçılıq etdiklərindən və kafedraları tutduqlarından imperatordan tələb etdilər ki, o, yəhudi kitablarının ümumi təqibinə və onların yandırılmasına icazə versin. Lakin onların rəyi qəbul olunmadı, imperator Maksimilianın sarayındakı alimlər buna mane oldular. İmperator bu məsələyə baxmağı və rəyini bildirməyi Reyxlinə tapşırdı. Əlbəttə ki, Reyxlin dominikançılara qarşı çıxdı, bu vaxt onun özünü küfrdə ittiham etdilər. Papa X Leo isə qərarınıləngidirdi. Səkkiz il ərzində bu münaqişə davam etdi. Yalnız böyük Reformatsiya hərəkatı onu kölgədə qoydu.

Lakin Reyxlin tək deyildi, onunla birgə demək olar ki, eyni istiqamətdə, lakin digər vasitələrlə Erazm Rotterdamlı fəaliyyət göstərirdi. O, Niderlandda anadan olmuşdu, uşaqlıqdan monastırda böyümüş valideynləri onu qeyri-qanuni qaydada dünyaya gətirmişdilər. Ona görə də uşaqlıqdan o, monastır həyatına nifrət edirdi, dini təlim olan sxolastika ilə məşğul olmaq onu hiddətləndirirdi.

Sonra o, Parisdə təhsilini davam etdirdi və müstəsna qaydada qədim yazıçıları öyrənməyə başladı. O, yunan yazıçılarını latın dilinə tərcümə edir və bu tərcümələr çox yaxşı qarşılanırdı. O, məzmunu qədim dünyadan əxz edilmiş xırda kitabçalar nəşr etdirməyə başladı və onların hesabına məşhurlaşdı. O, nadir hallarda şəxsi mübahisəyə girişirdi, münaqişədən qaçırdı. O, dövrün istiqamətini və tələblərini yaxşı dərk edirdi. O, Yeni Vəsiyyətin təmizlənmiş yunan mətnini dərc etdirdi. Qədim yazıçılardan ibrətamiz sözləri götürüb onları ayrıca kitabçalar kimi nəşr etdirirdi. Onun çox incə istehzası var idi, ona görə də özünə nifrət qazanmırdı. Onun "Səfehliyin tərifi" əsəri çox məşhur idi. Burada səfehlik - hökmrandır, öz təbəələrinə baxış keçirir, hər zümrə onun nöqteyi-nəzərindən qiymətləndirilir. Erazm rahiblərin üzərinə xüsusilə hücum çəkir. Reyxlin mübahisəsində o, iştirak etməmişdi. Reyxlinin inkvizisiya məhkəməsi qarşısında dayanmasını tələb edirdilər. Erazm belə ixtilafları sevmirdi, hətta yanında "ölüm" kəlməsinin işlədilməsindən xoşu gəlmirdi. Bu olduqca savadlı adam idi, sxolastikanın, əvvəlki elmin düşməni idi.

Tam başqa xarakterlə səhnəyə üçüncü olan Ulrix fon Hutten çıxdı. O, Almaniyanın ən böyük yazıçılarından biri idi. O, məşhur rıtsar nəslinə mənsub idi. Monastırda tərbiyə aldıqdan sonra o, buradan qaçdı, bu xətasına görə atası ondan imtina etmişdi. Gənc oğlan zəhmətilə özünə çörək qazanmalı idi. Universitetlərdə mühazirə oxuyurdu. Hələ 30 yaşı olmayanda onu Almaniyada yeni məktəbin ən istedadlı nümayəndəsi kimi tanıyırdılar. Sonra o, İtaliyada hüququ öyrəndi, daha çox klassik filologiya ilə məşğul oldu. Yoxsulluqdan, xəstəliklərdən çox əziyyət çəkdi. Nəhayət, Almaniyaya qayıdıb imperatorun Nyürnberqdə iştirak etdiyi məclisdə poeziya yaradıcılığına görə dəfnə çələngi ilə mükafatlandırıldı. Tezliklə o, Reyxlinin tərəfini saxladığına görə Maynts kurfyurstluğu sarayındakı vəzifədən getdi. 1516-cı ildə onun "Cahil adamların məktubları" əsərinin birinci hissəsi nəşr edildi, bu dominikançılara qarşı satira idi, onların bir-birinə məktubundan tərtib olunmuşdu, biri digərinə öz özəl həyatı haqqında, elmi yeniliklər barədə məlumatlar verirdi. Pis latınca yazılsa da, kitabın təsiri dəhşətli idi. Burada ironiya və hiddət çox güclü olmaqla, həm də olduqca acı zarafat var idi.

Almaniyada yeni elmin hərəkatı belə idi. Bu hərəkatın müdafiəçilərinə universitetlərdə böyük çətinliklərlə mübarizə etmək lazım gəlirdi. Bu müdafiəçilərin çoxu kafedraları tərk etməli olurdular. 1502-ci ildə Saksoniya kurfyurstu Fridrix Müdrik Vittenberqdə universitet yaratdı, onun məqsədi yeni istiqamətə və elmə yeni qüvvə vermək idi. Bu universitetin müəllimləri sırasına sonralar Martin Lüter də daxil idi. Bir qədər sonra universitetin humanistlərlə sıx əlaqəsi yarandı.

# FƏSİL 7
# YENİ COĞRAFİ KƏŞFLƏR

Bu dövrdə böyük coğrafi kəşflər baş verdi və dünya xəritəsi yeni torpaqlar hesabına zənginləşdi, tamamlandı. 15-ci əsrin əvvəlində portuqaliyalılar bütün əsr üçün əlamətdar olan kəşflər etdilər. Bu kəşflərin baiskarı və baş himayəçisi Portuqaliya infantı Henrix Dənizçi idi. O, yüksək dərəcədə maraqlı və koloritli şəxsiyyət idi.

Portuqaliyalılar bu yolda digər xalqları xeyli qabaqladılar. 1415-ci ildə kral İoann Portuqaliyalı öz beş oğluna rıtsar titulu vermək üçün Afrikanın sahilində Seuta şəhərini mühasirəyə aldı. Bu əməliyyatda onun üçüncü oğlu infant Henrix xüsusilə fərqləndi. Həmin gündən etibarən o, özünü bütünlüklə Afrikanın tədqiqinə və dinsizlərlə müharibəyə həsr etdi. Saray həyatından imtina edəndə o, çox cavan idi, özünün uzun ömrü boyu nəzərlərini Atlantik okeandan və Afrikadan çəkmirdi. Onun ətrafında alimlər dəstəsi toplaşmışdı, onlar dənizçilik məsələlərini öyrənirdilər və bu sahədə çoxlu kəşflər etmişdilər. Bütün bunlardan coğrafiya irəliyə doğru böyük addım atdı. Qədim insanlar güman edirdilər ki, Yer dəyirmi formalı səthə malikdir və hər tərəfdən okeanla əhatə olunur. Pifaqorçular belə fikrə gəlmişdilər ki, Yer planeti kürə şəklindədir. Onların mülahizəsi sonralar təsdiqini tapdı və Aleksandriya məktəbinin coğrafiyaşünasları və astronomları tərəfindən elmi cəhətdən sübut edildi. Portuqaliya infantı özü bu mülahizələrə bələd idi, xəritələr tərtib edirdi, lakin onun məqsədi Afrikanı dövrələyib gedib Hindistana çıxmaq idi. Lakin bu hələ mümkün deyildi. Dənizçilər güman edirdilər ki, orada ən narahat və tufanlı dəniz başlayır.

1460-cı ildə Henri Dənizçinin ölümündən sonra bəzi Portuqaliya tədqiqatları kral II İoannın (1481-1495-ci illər) taxt-taca çıxması ilə yeni qüvvə aldı. Portuqaliyalılar artıq Afrika Qızıl sahilinə və qul ticarətinə bütünlüklə nəzarəti ələ keçirmişdilər və təbii olaraq onlar nəzərlərini Asiya sərvətlərini ələ keçirməyə dikdilər. Bu cəhdlərdə Portuqaliya kapitanı Bartolomeo Diasın 1487-ci ildə Afrikanın ən cənub nöqtəsinə dövrə vurması dönüş nöqtəsi oldu. Həmin vaxt Dias tufanın onu yaxaladığına görə bu igidliyinə nail olmuşdu, ona görə o, bu körfəzi bədbin qaydada "Qasırğalar burnu" adlandırmışdı, lakin II İoann məsələyə daha nikbin yanaşaraq onun adını dəyişdirib Xoş Ümid burnu qoydu. Daha sonra İoann burundan o tərəfə olan yolla bütün Hindistana səyahət etmək üçün planlaşdırılan başlıca dəniz ekspedisiyasını təşkil etmək qərarına gəldi.

Bir qədər ləngimələrdən sonra İoannın varisi Manuel (1495-1521-ci illər) nəticədə 1497-ci ildə Vasko da Qamanın başçılığı altında donanma yola saldı və bu komanda bütün planlaşdırılan məqsədlərin hamısına nail oldu. Da Qamanın tədqiqatları o qədər qəhrəmanlıq xarakteri daşıyırdı ki, sonralar onlar Portuqaliya milli eposu olan "Lisiad"ın əsası rolunu oynadı. Afrikaya dövrə vurduq-

dan dörd ay sonra kapitan da Qama Afrikanın şərq sahilində olan Keniyaya üzüb gəldi, sonra isə Hind okeanını keçib Qərbi Hindistana çatdı, burada öz gəmilərinə ədviyyat yüklədi. Yola düşdükdən iki il sonra da Qama qayıtdı, o, donanmasının yarısını və adamlarının üçdə birini itirmişdi.

Henrix Dənizçi sirrlərlə dolu, əfsanəvi sərvət mənbəyi olan Hindistana bu yolla çatmaq istəyəndə, digər bir rəy də mövcud idi. Bu rəy sırf elmi mülahizələr əsasında qurulmuşdu və həmin mülahizəyə görə Asiyanın şərq sahilindəki Hindistanı tapmaq üçün sadəcə Avropadan düz qərbə getmək lazımdır. Bu fikrin əsasında Yerin kürə şəkilli olması rəyi dururdu. Dəniz səyahətlərinə böyük maraq yaranan dövrdə, 1446-cı ildə İtaliyanın Genuya şəhərində Xristofor Kolumb dünyaya gəlmişdi. O, yaxşı təhsil görmüşdü, Paviyada oxumuşdu, lakin ailə vəziyyətinə görə təhsilini davam etdirməmişdi. 15 yaşı olanda o, artıq dənizçi idi. Dənizin başqalarına o dövrdə məlum olan sirrləri ona da tanış idi. O, portuqaliyalıların kəşf etdikləri bütün torpaqlarda olmuşdu. 21 yaşında o, İslandiya sahillərinə gedib çıxmışdı. Güman edirlər ki, burada o, Amerika barədə müəyyən təsəvvürə yiyələnmişdi. Normanlar artıq 11-ci əsrdə Qrenlandiyaya üzmüşdülər, lakin sonrakı əsrlərdə onların yeni koloniyalarla əlaqələri tamamilə kəsilmişdi. Belə mülahizə də vardır ki, normanları tufan qovub bura gətirib çıxarmışdı.

Başqa bir mülahizəyə görə vikinqlər hələ 10-cu əsrdə Amerikaya üzüb gəlmişdi, lakin bu kəşflərindən elə də səmərəli istifadə etməmişdilər. İslandiyadakı şayiələr Kolumba nə qədər təsir göstərsə də, onun inamı elmi konsepsiyalara əsaslanırdı. O dövrün böyük ağıla və yaxşı təhsilə malik olan coğrafiyaşünasları ilə tanış idi və Asiyanın şərq sahilinə gedib çıxmağa əmin idi. 1470-ci ildən on dörd il ərzində Portuqaliyada yaşadı, burada evlənmişdi. O, coğrafiyaşünaslarla məktublaşırdı. Xəritədə çatmağa güman etdiyi torpaqları nişanlamışdı. Haitinin yerində onun gümanına görə Yapon adaları yerləşirdi. Beləliklə o, Yerin həcmini xeyli kiçiltsə də, ancaq onun formasını düzgün müəyyən etmişdi, yalnız məlumatsızlıq ucbatından böyük bir materikin mövcudluğunu nəzərdən qaçırmışdı.

Məktublaşdığı bir florensiyalı alim də ona xeyir-da vermiş və onun Asiyanın varlı torpaqlarına çatacağı əminliyini bildirmişdi. Bu hünər üçün çoxlu xurafat maneələrini də ötüb keçmək lazım idi. Özü də bu cəhalət həm elmdə, həm də ictimai rəydə mövcud idi. O, bir saraydan digərinə keçib heç yerdə xoş münasibətlə qarşılaşmırdı, onu hətta dəli hesab edirdilər. Onun təqdim etdiyi xəritələri belə geri qaytarmırdılar. Atlantik dənizi isə nəzərdə tutulan istiqamətdə keçilməz hesab edilirdi. Hətta belə deyirdilər ki, burada heç vaxt günəş işıq saçmır, başqa sözlə zülmət dənizdir. Lakin çox sayda kiçik şəraitlər Kolumbun niyyətinin həqiqiliyini, ağılsız olmadığını təsdiq edirdi.

Azor adalarında dənizin sahilə atdığı iki cəsəd indiyədək məlum olmayan irqə mənsub idi. Portuqaliyalıların kəşf etdikləri digər bir adada isə dəniz avropalılara tanış olmayan bitkiləri sahilə atırdı. Kolumbun müşahidələri və inamı daha da möhkəmlənirdi. Avropada artıq çox adam var idi ki, onlar Asiyanın

şərq sahilinin açılmasının mümkün olmasına inanırdılar.

Lakin qorxulu hallar da az deyildi. Az qala inkvizisiya küfrə görə Kolumbun məhkəməyə verilməsini tələb etmişdi. Çoxlu axtarışlardan sonra Kastiliya və Araqonun kraliçası, yeniliyə himayəsi və möhkəm iradəsi ilə seçilən İzabella 1492-ci ildə Cənubi İspaniyadan, Pilos limanından üç çox da böyük olmayan gəmi ilə üzməyə ona icazə verdi. Bəlkə də Kolumbun siyasi təbiətini yaxşı anlamağı bacaran kraliça olmasaydı, bu tarixi səfər ümumiyyətlə baş tutmayacaqdı. Kolumbun 19-cu əsrdə dərc edilmiş gündəliyindən görünür ki, bu üzmək çox sayda təhlükələrlə müşayiət olunmuşdu. O, Antil adalarını tapanda güman edirdi ki, bundan sonra artıq Çinin sahilləri gələcəkdir. Sonra o, fikirləşdi ki, artıq Çini tapmışdır və burada o, böyük xəzinə aşkar edəcək və onları səlib yürüşlərinə sərf etmək mümkün olacaqdır. Özü də belə rəydə olan təkcə Kolumb deyildi, onun tərəfdarları və müasirləri düşünürdülər ki, onun gəlib çıxdığı yer Asiyanın şərq sahilidir.

Yalnız 21 il sonra ispan səyyahı Vasko Nunyes de Balboa Panama boynunda Amerika qitəsinin o tərəfinə keçməklə digər tərəfdə dənizi gördükdə əks olan fikrə əmin oldu. Kolumbdan altı il sonra portuqaliyalı Vasko da Qama Qasırğalı və ya Xoş Ümid burnunu keçib Madaqaskarın yanından ötüb Şərqi Hindistanın qərb sahilinə gəlib çıxdı.

Ən başlıcası isə o idi ki, zəkalar azad olurdu, orta əsrlərin buxovları açılırdı, insanları nə sxolastika, nə dominikan universitetləri saxlaya bilmirdi. Elə bil ki, adamlara köhnə dünya dar gəlirdi və bu vaxt yeni dünya açıldı. Bu tarixin təntənəli anları idi. Mühüm abidələr sırasına o vaxtlar jurnalları əvəz edən Avropa alimlərinin məktubları daxildir. Bu məktublar qeyri-müəyyən gözləmələrlə və cuşə gəlmələrlə dolu idi. Yeni, gözlənilməyən dünya avropalı insana açılırdı, elmə məlum olan yeni fənnlər göstərirdi ki, heç nə məğlub edilməmiş qalmır. Öyünməyə də əsas var idi.

Ciddi danışılsa, iki səbəbə görə deyilə bilməz ki, Kolumb "Amerikanı kəşf etmişdir". Birinci yerdə odur ki, ekspertlər indi bununla razılaşırlar ki, Qərb yarımkürəsinə ilk gəlib çatan avropalılar, vikinqlər olmuşlar. Onlar indiki Nyufaundlendə, Labradora, güman ki, Yeni İngiltərəyə özlərinin 1000-ci il ətrafında olan səfərləri vaxtı gəlib çıxmışdılar. İkincisi, Kolumb "Amerikanı kəşf etməmişdir", çünki o, heç vaxt nəyi tapdığını bilməmişdi, bu inamla da ölmüşdü ki, onun qarşılaşdığı yeni torpaqların hamısı sadəcə olaraq gəlib çıxdığı Asiyanın kənarlarıdır. Baxmayaraq ki, Kolumb özünün 1492-ci ildəki səfərindən geriyə heç bir Asiya ədviyyatı gətirməmişdi, o, bir qədər xırda qızıl nümunələri və bir neçə yerli adam gətirmişdi və belə vəd vermişdi ki, bütöv tayfanı qul etmək olar. Bu ispan monarxları Ferdinand və İzabellanı qənaətləndirirdi, ona görə də Kolumbun özünə üç, başqalarına isə çox sayda ekspedisiyanı maliyyələşdirməyə razılıq verdilər.

Tezliklə adalar kimi qitə özü də kəşf edildi. Baxmayaraq ki, Kolumb öz ölümünə qədər həqiqəti qəbul etməkdən imtina etmişdi, bu həqiqət isə ondan iba-

rət idi ki, 1500-cü illər ətrafında belə bir fikir yaranmışdı ki, əslində yeni dünya kəşf edilmişdir. Həmin vaxt həqiqətən Kolumbun yeni torpağa ayaq basması təsdiqlənmişdi, bunu italyan coğrafiyaşünası Ameriqo Vespuççi geniş nəşr etdirmişdi. Qərb yarımkürəsi tezliklə Vespuççinin birinci adı olan "Amerika" kimi tanınmağa başladı. Niyə o vaxtlar Amerika kəşf edildiyindən xeyli əvvəl açılmamışdı? Tarixçilər bu baş verməyən hadisədən irəli gələn zərəri müxtəlif yollarla izah etməyə cəhd edirdilər, lakin iki cür hipoteza təklif edə bilərdilər. Biri bu faktla əlaqədar idi ki, 14-cü və 15-ci əsrlər bütün Qərbi Avropada dərin depressiya və siyasi qarmaqarışıqlıq dövrü idi. Həmin vaxtlar Atlantikanın böyük dövlətləri olan Fransa, İngiltərə və İspan yarımadasında aparıcı krallıq olan Kastiliya iqtisadi ziddiyyətlərdən zəifləmişdilər, arası kəsilməyən müharibələrə cəlb olunurdular, ona görə də qərb istiqamətindəki bahalı və risqli dəniz macəralarını, onların heç biri bunu arzu etmədiklərinə görə sınaqdan çıxarmamışdı. İkincisi, daha az düşünülən hipotezalardan biri isə, Atlantik okeanda artıq ambitsiyalı dəniz axtarışlarına cəlb olunmuş Portuqaliya dövləti tərəfindən düzgünlüyünə inandırılan yolu dəyişdirməklə əlaqədar idi. 14-cü əsrin ikinci yarısında Atlantik adaları olan Azorda və Madeyrada müstəmləkələr yaradıldıqdan sonra, cəzbedici şəkər və şərab ticarətinə qurşanan Portuqaliya 15-ci əsrin əvvəllərində öz diqqətini tam düşünülmüş qaydada Qərbi Afrika sahillərinin tədqiq edilməsinə çevirdi, çünki Afrika qızıldan və qullardan ibarət olan daha böyük sərvət vəd edirdi. Bundan sonra Portuqaliya Afrikasının bir-birinin ardınca kəşfləri meydana gəldi və nəhayət, 1487-ci ildə Xoş Ümid burnuna dövrə vurmaq və Asiya ədviyyatları üçün səfər baş tutdu və bu Avropanın okeanın o tayında ən dramatik tədqiqatların başlanmasına gətirib çıxardı.

Bu coğrafi kəşflərin ilk bilavasitə nəticələri özünü ticarətdə göstərirdi. Karvan ticarətinin dövrü ötüb keçmişdi. Qədim zamanlardan karvan ticarəti semit tayfalarının əlində idi və tarixi qaydanın formalarının dəyişməz olduğunu nəzərdə tuturdu. Bu ticarət həmin yolların qalmasını tələb edirdi. Bu vaxt hər şey dəyişdi, fiziki və siyasi maneələrin aradan qaldırılması üçün dəniz birləşdirici həlqəyə çevrildi. Bu həlqə ən uzaq ucqarlardakı xalqları birləşdirirdi. Dəniz ticarətində inhisar mövqeyi tutan Venetsiya öz yüksək mövqeyindən düşdü. Portuqaliyalılar hind mallarını əvvəlkindən üç qat - dörd qat ucuz qiymətə satmağa başladılar, çünki Venetsiya həm karvana görə haqq ödəməli, həm də türk sultanına rüsum verməli idi. Beləliklə, orta və yeni tarix arasındakı dövrdə planetin ayrı-ayrı hissələri ilə möhkəm əlaqə yaranmışdı.

Köhnə dünyanın bu sahilində xüsusi hərəkət hiss olunurdu, hər şeyi nəsə yeni əldə etmək tələbatı bürümüşdü. Asiyada, Hindistanda moğollar qərar tutduqdan sonra iki dini islahata cəhd edildi, insanların qardaşlığı, islamın və brəhmənizmin ideyaları təbliğ edilirdi. Bir sözlə Asiyada da dini hərəkat başlandı, lakin onun elə bir mühüm təsiri olmadı. Asiyada bu hərəkat izsiz qalsa da, Avropada bircinsli hərəkat bütün yeni təzahürlərin əsasını təşkil etdi.

# FƏSİL 8
# REFORMATSİYANIN BAŞLANĞICI. İTALİYANI ƏLƏ KEÇİRMƏK CƏHDLƏRİ

Orta və yeni tarixlər arasındakı hüdudlarda baş verən hadisələr iki dövrün aralığını təşkil etdi. Əvvəlki hərəkatın nəticələri Reformatsiya adlanan bir böyük hadisədə öz ifadəsini tapdı. Reformatsiya onunla əlaqədə olan bir sıra siyasi hadisələrlə bağlı idi və onlarda Avropa xalqlarının birliyi öz əksini tapırdı, bunsuz Reformatsiyanın yayılması da qeyri-mümkün idi. Bu hadisələr 15-ci əsrin sonunda başlayan və 16-cı əsrin ortalarına qədər davam edən italyan müharibələri idi. Bu müharibələrin nəticələri heç də təkcə siyasi xarakter daşımırdı.

XI Lui öləndə Fransada kral hakimiyyəti qəti qələbə çaldı. Dövlətlərin birliyi böyük lenlərin birləşdirilməsi ilə möhkəmlənirdi. Bütün krallıqda bircə müstəqil len - Bretan hersoqluğu qaldı. XI Lui bu məqsədinə çatmaq üçün bir çox vasitələrə əl atdı, bunlar tətbiq edildikdə fransız monarxiyası əxlaqi xarakterli çox şeyi itirdi. Onun varisinin dövründə əzilmiş feodal hakimiyyətinin və təhqir edilmiş əxlaqi hisslərin kəskin reaksiyası üzə çıxdı. Dövlət vəzifəliləri 1484-cü ildə toplaşıb bir çox ədalətsiz qərarların ləğv edilməsini tələb etdilər. Onlar bu ədalətsizliyin haqqının ödənilməsi və XI Luinin məhkum edilməsi tələbi ilə çıxış etdilər. Əgər bu vaxt işləri XI Luinin qızı Anna Burbon idarə etməsəydi, feodalizmin yenidən güclənməsi baş verə bilərdi.

VIII Karl hələ çox cavan idi, səthi təhsil almışdı, əqli imkanları o qədər də güclü deyildi. Krallığa onun böyük bacısı hökmranlıq edirdi, bu qadın idarəçiliyinin yeddi ili ərzində bütün partiyaları əzə bildi. VIII Karl həddi-buluğa çatanda idarəetmə işlərinə alicənablıqdan başladı və feodalizm tərəfdarlarının qiyamının başçısı olan Orlean hersoqunu azad etdi, sonra Bretan hersoqluğunun varisi olan Anna Bretanlıya evləndi. Beləliklə, Bretan da krallığa birləşdirildi. Lakin kral pis tərbiyə olunmuşdu, atasının laqeydliyi üzündən o, kənarda yaşamışdı, onun təxəyyülünü rıtsar romanları vəcdə gətirmişdi. Səlib yürüşləri ideyası hər yerdə öz cəlbediciliyini itirəndə o, səlibin bərpa edilməsini arzu edirdi. Neapol krallığına öz iddiasını gerçəkləşdirməyi düşünürdü, axı nə vaxtsa bu ərazi Anju sülaləsinə məxsus olmuşdu, sonra Araqon sülaləsi krallığı onun əlindən almışdı. Karl Araqonlu öləndə isə öz krallığını Luiyə vermişdi və bu hüquqa indi VIII Karl yiyələnmişdi.

Digər tərəfdən şərait əlverişli idi. İtaliya çoxlu dövlətlərə parçalanmışdı. Milanın azyaşlı hersoqunun dayısı və himayəçisi Luici Maro ispanlardan qorxduğuna görə özü Fransa kralını dəvət etmişdi. Bu adamda italyan vətənpərvərliyi hissi yox idi, hər bir vasitəni məqbul sayırdı. Fransızları dəvət etsə də, onlara bir barbar kimi nifrətlə baxırdı. Lakin o, öz gümanında yanıldı. Axı Karlı təkcə o, dəvət etməmişdi. Qarışıqlıq vaxtı ölkədən qovulmuş italyanların bö-

yük bir qrupu da onu dəvət etmişdi. Bu ehtiyatsız və əslində cinayətkar arzu ilə onlar əcnəbilərin öz vətənlərinin işinə qarışmasına yol açdılar və bu İtaliyanın bir neçə əsirliyə əcnəbi tayfalara tabe edilməsi ilə nəticələndi. Onlar Roderikdən hayıf almaq istəyən Andalusiya printslərinin ərəbləri dəvət edərək, onların çıxıb gedəcəklərinə ümid etməkdə yanıldıqları və bununla da İspaniyadakı səkkiz əsrlik ərəb istilasına yol açdıqları kimi belə ağılsız, əslində xəyanətə bərabər bir iş gördülər.

24 yaşlı VIII Karl 1494-cü ildə yürüşə başladı və onun ordusunda 60 min döyüşçü var idi. Alp dağlarından isə 40 min nəfər keçmişdi. Bu ordu fransız jandarmeriyasından, İsveçrə piyadalarından və Britaniya atıcılarından ibarət olmaqla yaxşı döyüş hazırlığına malik idi. Ordu İtaliyada heç bir müqavimət görmədi. Onlar Toskananı işğal edəndə Mediçilər onlarla biabırçı sülh bağladılar. Yalnız Florensiya tutulduqda italyan vətənpərvərliyi ilə üz-üzə gəlməli oldular. Şəhərin dini xadimlərindən biri fransız kralına demişdi: "Əgər siz trubaları çalsanız, biz də zəngləri çalacağıq və döyüşəcəyik". Kral geri çəkilməyə məcbur oldu və Florensiya öz taleyini özü həll edəcəkdi.

Bu vaxt siyasi meydana dominikan rahibi Savonarola çıxdı. O, islahat partiyasına başçılıq etməklə katolik dininin doqmatlarına toxunmurdu, katolitsizmun özündə əxlaqi dəyişikliklər etmək istəyirdi. Lakin bu hərəkəti ilə Papa VI Aleksandrın qəzəbinə tuş gəldi. Papa üçün doqmatlara zərbə elə bir əhəmiyyət kəsb etmirdi, təki əxlaqa bir müdaxilə olmasın. Savonarola Mediçilərin hökmranlığına qarşı çıxdı və tələb etdi ki, hakimiyyət xalqa qaytarılsın, xalq isə öz dəbdəbə və sərvət adətlərindən imtina etsin. O, parlaq moizəçi idi, lakin hərəkətlərində birtərəfli və sərt idi, fanatizmə meyl edirdi. Əxlaqi hisslərin zəifləməsindən hiddətə gələrək o, çox uzağa gedib çıxdı, incəsənəti təqib etməyə başladı. Qadınlar öz paltarlarını məhv etməli idilər, Savonarola tərəfdarları tərəfindən yığılan musiqi alətləri, rəsm əsərləri, kitablar şəhər meydanında yandırılırdı. Əks partiyanın cəhdləri və Papa VI Aleksandrın köməyi ilə Savonarola uzun işgəncələrdən sonra tonqalda yandırıldı.

Toskanadan Romaya hərəkət edən fransızlar heç bir müqavimət görmədilər. VI Aleksandr şəhərdəki Müqəddəs Ancel qalasına çəkildi. Fransız qüvvələrinin üstünlüyünü görüb oğlu Çezare Borcianı girov verməklə, onlarla müqavilə bağladı. Karl ondan Osmanlı imperatoru Bayazidin Müqəddəs İoann rıtsarlarının yanına qaçmış, sonra isə Papanın müdafiəsinə qısılmış qardaşını ona verməyi tələb etdi. Karl ondan Türkiyə əleyhinə istifadə etmək istəyirdi. Aleksandr türkü zəhərləyib verdiyindən o, tezliklə öldü. Bayazid özü Aleksandrın yanına elçilər göndərib, onu bu işə təhrik etmişdi.

Neapolda fransızlar nisbətən güclü müqavimət gördülər - iki şəhər qılıncdan keçirilmişdi, əsirlərə də aman verilmirdi. İtalyan kondotyerləri belə müharibələrə öyrənmədiklərindən, fransızlarla bir dəfə üz-üzə gəldikdən sonra döyüşdən imtina etdilər. Kral Alfons taxt-tacı tərk edib onu hərbi istedadı olmayan

oğluna verdi və öz ordusunun onu tutub düşmənə təhvil verəcəyindən qorxub adaya qaçdı. 1495-ci ilin əvvəlində Karl düşmənin paytaxtı Neapola girdi və burada əlavə olaraq Siciliya və Yerusəlim kralları titullarına yiyələndi.

Karl Neapolda vaxtını Mark Antoninin Aleksandriyadakı əyləncələri kimi bayramlara və oyunlara həsr edirdi və elə bu günlərdə arxasında onun üçün ciddi təhlükə yaranırdı. Venetsiyalılar başqalarından fərqli olaraq əcnəbilərdən italyan yarımadasına olan təhlükənin necə güclü olduğunu hiss etdilər. Onlar digər ölkələrdən kömək almağı qət etdilər. İspaniya kralı və Müqəddəs Roma imperatoru fransızlarla müharibəyə hazırlaşdılar. Neapolda eyş-işrətlə məşğul olan Karl milanlılarla venetsiyalıların ona qarşı birləşdiyini və ispanların təhlükəsi barədə eşitdi. O, geri çəkilməyi qərara alıb Fransaya qayıtmağa tələsdi. Yolda Parma hersoqluğunda 40 minlik İtaliya qoşunu onun yolunu kəsdi, fransızlar sayca üç dəfə az idi. Buna baxmayaraq, italyanlar məğlub oldular. İlk dəfə olaraq Avropa onun xalqlarından birinə olan təhlükənin ümumi təhlükəyə çevriləcəyini başa düşdü. Onlar ümumi siyasi məqsəd naminə birləşdilər, bundan əvvəl onlar ümumi din bayrağı altında səlib yürüşləri vaxtında birləşmişdilər. Fransanın digər ölkələr üzərindəki üstünlüyü təhlükəsi uzaqlaşdırıldı. Lakin Karl yeni ordu toplayıb İtaliyaya yürüşə hazırlaşdı. 1498-ci ildə onun ölümü bu işlərə ciddi mane oldu. Neapoldakı qoşunlar da ya təslim olmalı, ya da Fransaya qayıtmalı idilər. Xalq üsyanı qarşısında onlar gücsüz idilər.

Karlın Fransada varisi, öz övladlarını itirdiyindən oğulluğa götürdüyü Orlean hersoqu XII Lui oldu. O, gəncliyindən sərt təbiətə malik idi, Karla qarşı feodal müxalifətin başında dayanmışdı, lakin taxt-taca çıxdıqdan sonra Vətənin atası adını qazandı. Nadir hökmdar olardı ki, öz aşağı siniflərdən olan əhalisinə belə qayğı göstərsin. Apardığı İtaliya müharibələrinin ağırlığına baxmayaraq, o, aşağı siniflər üçün çox iş gördü. O, Karlın Neapola olan iddialarının üzərinə özünün nəsil qohumunun Milana olan irs hüququnu əlavə etdi. Papa VI Aleksandrla sıx ittifaq yaradıb onun oğlu Çezareni qohumu olan qıza evləndirməklə, Fransada ona hersoqluq verdi. 1499-cu ildə Çezare İtaliyaya yollanıb Milana sahib oldu, lakin sonrakı ili onu itirdi. Milan fransız əyalətinə çevrildi.

Çezare Borcianın həyatı və əməlləri həmin epoxanın ən maraqlı epizodlarından biridir. Çezarenin siyasətinin bütün qəddarlıqlarına və əxlaqsızlıqlarına baxmayaraq, onun italyan vətənpərvərləri içərisində necə hörmət qazandığını tarixi xatirələr sübut edir. Romanı özünə özəl knyazlıq kimi tabe etdikdən sonra orada qeyri-adi qayda yaratdı. O, ilk italyan dövlətinin əsasını qoydu, məhz bu yolla italyanlar əcnəbi tayfalara qarşı dura bilərdilər. Yəqin Makiavellinin də Çezareyə münasibəti və digər vətənpərvərlərin ona qəribə məhəbbəti buradan irəli gəlirdi. Lakin ümumbəşəri dəyərlərdən yanaşdıqda xalqın Çezarenin istifadə etdiyi vasitələrə ehtiyac duyması ən azı təəssüf doğurmaya bilməz.

Cənubi İtaliyaya daxil olanda XII Lui əvvəlcədən Kastiliya və Araqon kralı Ferdinandla gizli müqavilə bağlamışdı və İtaliyanı öz aralarında bölüşdürməyi

ona təklif etmişdi. Fransızlar və ispanlar Neapol krallığını özlərinə götürdülər, lakin aralarındakı razılıq qısa müddət çəkdi. Bölgüdə Ferdinand Luini aldatdı və axırıncı onunla müharibəyə başladı. İtalyan dövlətləri vuruşanların birinin tərəfindən digərinə keçirdi. Nəhayət, 1504-cü ildə məğlub olan Lui Neapolu Ferdinanda verdi. Bundan bir az əvvəl - 1503-cü ildə VI Aleksandr ölmüşdü. Makiavelli yaxşı demişdi: Çezare Borcia istedadlı adam idi, bütün halları nəzərə alırdı, təkcə atasının tezliklə öləcəyini nəzərə almamışdı. Onun planları alt-üst oldu, İspaniya və Fransa onun düşmənlərinə köməklik göstərirdilər. Yeni Papa II Yuli Çezarenin ən sərt əleyhdarlarından biri idi. O, Romanın geri qaytarılmasını tələb etdi, Çezare İtaliyada tutuldu, lakin o, İspaniyaya qaça bildi və İtaliyadakı kiçik bir toqquşmada öldürüldü.

Əcnəbilər tərəfindən təhlükə aydın idi, lakin italyanlar onları məhv edən adəti tərgidə bilmirdilər, onlar bir-birinə daxili müharibələr aparır və onların həll olunması üçün əcnəbiləri çağırırdılar.

Papa II Yuli İtaliyanın taleyinə böyük təsir göstərdi. O, həmin sürgün edilmiş italyanlardan idi ki, onlar 1494-cü ildə VIII Karlı İtaliyaya yürüşə təhrik etmişdilər. Kardinal olduğu bütün müddət ərzində o, Papaya müxalif olmuşdu. 60 yaşında papa taxt-tacına çıxan Yuli öz bədəninin və ruhunun enerjisini qoruyub saxlaya bilmişdi. Onun ən böyük məqsədi İtaliyanı yadellilərdən azad etmək idi. Bu məqsədə o, Papa nüfuzunun qiymətini də tabe etmişdi. Lakin bunu o, ağılsızcasına edirdi. O, Papa seçiləndə Şimali İtaliya, həmçinin Milan və Genuya fransızlara məxsus idi. Florensiya bərpa edilmiş demokratik idarəetmə altında idi, İtaliyanın taleyində əvvəllər oynadığı böyük rolu oynaya bilmirdi. Cənubi İtaliya Ferdinand İspaniyasının əlində idi. Yeganə möhkəm qalan italyan dövləti Venetsiya idi və vətənpərvərlər bütün ümidlərini ona dikmişdilər. Elə onunla da II Yulinin mübahisəsi başlandı, o, Venetsiyadan Romadakı tutduğu torpaqları qaytarmağı tələb etdi, digər şəhərlərə də iddia etmək üçün bəzi hüquqlar axtarıb tapdı. Venetsiyalılar bu tələbləri rədd etdikdə hirslənmiş qoca Fransaya, imperiyaya, İspaniyaya, italyan knyazlarına müraciət etdi və onların hamısına İtaliya qənimətinin bölüşdürülməsində iştirak etməyi təklif etdi. Venetsiyaya və onunla əlaqəyə girən hər kəsə isə o, lənətlər yağdırdı.

1508-ci ilin sonunda Kambredə kral Ferdinandın, imperator Maksimilianın, kral XII Luinin, Papanın, Macarıstan kralının, Savoy və Ferrara hersoqlarının və digər kiçik italyan torpaqlarının hökmranlarının daxil olduğu Kambre liqası toplandı. Hər bir iştirakçıya Venetsiya qənimətinin hansı bir hissəsinin düşəcəyi müəyyən edildi, lakin buna Venetsiyanın şərqdəki inhisarının itirilməsi, Hindistan sahillərindəki portuqaliyalılarla döyüşlərdə onların uğursuzluğu əlavə olundu. Lakin bədbəxtliklərin sayı artırdı. Venetsiyada barıt anbarı partladıldı. Fəlakətli hadisə nəticəsində bir qala partlayıb yerlə yeksan oldu. Venetsiyaya göndərilən pul vəsaiti yolda tutuldu. Lakin şəhər ruhdan düşmürdü, heç vaxt o belə hörmətə malik olmamışdı. Bütün İtaliyanı silaha sarılmağa çağırdı və bil-

dirdi ki, söhbət təkcə Venetsiyadan deyil, bütün İtaliyadan gedir. Bu vaxt ölkə yadellilərdən azad olunmasa, heç vaxt olunmayacaqdı. 614 Venetsiya zadəganı özlərinin var-dövlətinin əksər hissəsini ayrı-ayrı hərbi dəstələrin silahlanmasına sərf etdilər. Bir sözlə, onun bütün qüvvələri qeyri-bərabər mübarizəyə yönəldilmişdi. Lakin senat, hökumət öz etimadsızlığına görə qoşunları bir hərbi rəisə həvalə etməyib, iki adam arasında böldü. Bu ən uğursuz addım idi. Onların hər ikisi hərbi səriştəyə malik olsa da, tam fərqli xüsusiyyətlərə malik insan idilər. Birinin əcnəbilərə güclü nifrəti var idi, çoxdan onlarla haqq-hesabı çürütməyi arzu edirdi. Digəri isə məharətli hərbi xadim olmaqla yanaşı, qoca yaşında olmaqla ehtiyatlı hərəkət edirdi, cavan, qızğın yoldaşı ilə hakimiyyəti bölüşmək iqtidarında deyildi.

1509-cu ildə fransızlar venetsiyalılarla qarşılaşdılar. Bu vaxt iki hərbi rəis arasında narazılıq meydana gəldi. Nisbətən gənc olan Albiano döyüşə başlayanda qoca kolleqası ona kömək etmədi və venetsiyalılar darmadağın edildilər. Bu İtaliya tərəfindən uduzulan axırıncı milli döyüş idi. Bundan sonra uzun müddət İtaliya öz milli qoşunlarını görə bilmədi. Bu döyüşdə onun ən yaxşı nümayəndələri məhv oldu. Venetsiya onunla öyünürdü ki, 8 min nəfər həlak olmuş döyüşçü içərisində, qədim spartalılar kimi bir nəfər də olsun arxadan zərbə almış adam yox idi.

XII Luinin bu qələbəsindən sonra uğursuzluqlar seriyası başlandı. Müqəddəs Roma imperatoru Maksimilian şimalda torpaqları tutdu, şəhərlər bir-birinin ardınca təslim olurdu. Lui Venetsiyaya yaxınlaşıb ona bir neçə top atəşi açdı. Lakin bu dəhşətli şəraitdə belə senat ruhdan düşmürdü, Venetsiyanı möhkəmləndirib, ölümcül müharibəyə hazırlaşırdı, həm də əlverişli anı gözləyirdi. Venetsiyanın başında duran təcrübəli siyasətçilər başa düşürdülər ki, açıq qüvvələrlə müqavimət göstərmək çətin olduğu kimi, Kambre ittifaqı da elə möhkəm deyildir. Birinci olaraq onlarla ittifaqın keçmiş təşəbbüsçüsü olan II Yuli barışdı. Onun Venetsiyaya hayıfı gəldi, hərbi əməliyyatları dayandırdı, lənətini geri götürdü və Venetsiya ilə İspaniya arasındakı vasitəçiyə çevrildi. Venetsiya bir neçə məsələdə İspaniyaya güzəştə getdikdə o tərəfdən təhlükə sovuşub keçdi. Öz qüvvəsi ilə müharibə aparmaq iqtidarında olmayan Maksimilian Lui ilə sözləşdiyindən, həmçinin ittifaqdan imtina etdi.

Venetsiyaya daha çox ziyan vuran, əvəzində isə heç nəyə nail olmayan Lui tək qaldı. Beləliklə o, öz niyyətindən geri çəkilməyə məcbur oldu. 1511-ci ildə ona qarşı Romada Müqəddəs liqa yarandı. Bu liqa Papadan, Venetsiyadan, Ferdinanddan və Maksimiliandan ibarət olmaqla, İtaliyadan əcnəbiləri və düşmənləri qovmaq məqsədini güdürdü. Müharibə üç ildən bir qədər çox çəkdi. Müttəfiqlər fasiləsiz olaraq bir-birinə xəyanət edirdilər, bir tərəfdən digərinə keçirdilər. 1512-ci ildə Fransa öz düşmənləri üzərində üstünlük əldə etdi. Kralın qohumu olan Namyur hersoqu müharibə teatrına daxil olan kimi üç ay ərzində dörd böyük qələbə çaldı, lakin bu çoxlu itki ilə müşayiət olunurdu. Ravenna ya-

xınlığında 12 min ispan veteranı və Papa qoşunlarının döyüşçüləri həlak oldu, lakin 23 yaşlı fransız hersoqu da öldü. Onun ölümü ilə xoşbəxtlik Fransadan üzünü döndərdi. Onun qoşunları 1513-cü ildə Navarrada isveçrəlilər tərəfindən darmadağın edildi, bir il sonra yadellilər artıq Fransanın özünü hədələyirdilər. VIII Henri Flandriyaya daxil oldu, Maksimilian onunla birləşdi. Fransanın müttəfiqi olan Navarra kralı Pireneyin o tərəfindəki bütün torpaqlarını itirdi. XII Lui əleyhdarları ilə sülh bağladı, lakin 1515-ci ilin əvvəlində öldü. II Yuli isə ondan iki il əvvəl 70 yaşında ölmüşdü. Milan fransızlardan geri alındı. Neapolda onlar hələ qalırdılar, lakin qüvvələri tükənirdi.

Müharibələr dövlətlərin münasibətlərində böyük dəyişikliklər əmələ gətirdi. Orta əsrlərdə Avropa xalqları öz aralarında sıx əlaqə yaratdılar və artıq siyasi tarazlıq sistemi meydana gəlmişdi. Fransanın cəhdləri digər dövlətlər üçün təhlükə törədirdi. Müharibənin də xarakteri orta əsrlərdəkinə nisbətən dəyişmişdi. Orta əsrlərdə döyüşlər az qan axıdılması ilə gedirdi. İtaliya müharibələri isə nadir halda dəhşətli qan tökülməsi olmadan başa çatırdı. Burada sonuncu dəfə orta əsrlərin rıtsar igidlikləri parlamışdı. Bayard belə qorxmaz rıtsar idi. İspaniya bu vaxt Avropanı rəhmsiz müharibələrlə tanış etdi, onların məqsədi vasitələrinə məhəl qoymadan uğur qazanmaq idi. Müharibələrin nəticələri bununla kifayətlənmirdi. Fransızlar, almanlar və ispanlar İtaliyanın klassik mühitində bərpa edilməyə başlayan antik dünya ilə tanış oldular. İtaliyanın ideyalarını və təsirini təkcə alimlər qəbul etmədilər, feodal ideyaların dar dairəsindən çıxmış zadəganlar da yüksək zövq və tələblərlə tanış oldular.

Luinin varisi Anqulem qrafı I Frantsisk taxt-taca çıxanda 21 yaşı var idi. O, yaxşı tərbiyə almışdı, Fransanın birinci zadəganı adlanırdı. Frantsiskin birinci işi bu vaxt Moronun oğlu Maksimilian Sfortsanın əlində olan Milanı geri qaytarmaq üçün İtaliyaya getmək oldu. 1515-ci ilin sonunda o, İsveçrədən və Alp dağlarından keçib İtaliyaya girdi. Maksimilian kömək üçün isveçrəlilərə müraciət etdi, onlar Milanı özlərinin leni hesab etdiklərindən kömək vəd etdilər. Bu vaxt isveçrəlilərdə bütün İtaliyaya sahib olmaq iştahı yarandı. Onlar lovğalanırdılar ki, Fransanın bir tərəfindən o biri tərəfinə nizələrini qaldırmadan keçib gedə bilərlər və bu vaxt müqavimətlə qarşılaşmayacaqlar. Bu vaxta qədər onlar məğlub olmamışdılar. Adətən qələbə italyan və fransız ordularında olan isveçrəli döyüşçülərdən asılı olurdu. Onlar fransızlardan şəhəri qorumaq üçün Milanın keşiyində dayanmışdılar.

Papa X Leo Mediçi isveçrəlilərin müdafiəsinə bel bağlayaraq fransızların basqınını sakitcə gözləyirdi. Şəhərin yaxınlığında fransızlar isveçrəlilərə hücum etdilər. Marinyano döyüşünü titanların vuruşu adlandırırdılar. İsveçrəlilər igidliklə vuruşurdular. Fransız ordusu bir neçə dəfə az qala tarmar olunmaq vəziyyətində idi, lakin döyüş başlanandan bir gün sonra isveçrəlilər bütün mövqelərindən geri çəkildilər, onlar 20 min döyüşçünü və həm də məğlubedilməzlik şöhrətini itirdilər. Bu vuruşla Frantsisk tarixə düşdü, bunu ona qədər nə VIII

Karl, nə də Lui bacarmamışdı. Maksimilian Sfortsa Fransaya gedib orada öldü. Papa X Leo sülh xahiş etməyi qərara aldı və kralı qarşılamaq üçün Bolonyaya getdi. Fransa ilə Papa arasında sülh bağlandı. Fransız kilsəsi Papa iddialarından asılılığını itirdi. Papa 1512-ci ildə Lateran məclisini keçirəndə Frantsisk ondan hər cür güzəştlər tələb etdi. Lakin o, özü də çoxlu güzəştlərə getdi. Qəribə vəziyyət yarandı: Papa öz ruhani hüquqlarından imtina edib onu krala verirdi, kral isə öz dünyəvi hüquqlarından imtina edib onları Papaya güzəştə gedirdi. Lakin konkordat Fransada ruhanilər və Paris parlamenti tərəfindən ciddi müqavimətlə qarşılandı. Heç vaxt parlament belə güclü müxalifət büruzə verməmişdi. Kral güc tətbiq etməli, hədələrə keçməli idi və parlamentin etirazını çətinliklə yatırda bildi. Lakin konkordata nifrət Fransada iki əsrdən çox qala bildi.

1516-cı ildə ölən Ferdinand katolik ispan taxt-tacına iki nəvəsini - Karlı və Ferdinandı varis kimi qoyub getdi. Bu iki gənclə İspaniya və Habsburq sülaləsinin bütün ümidləri bağlı idi. Karl və Ferdinand Maksimilianın oğlu Filippin iki arvadından - Mariya Burgundiyalıdan və Ferdinand İspaniyalının qızı İoannadan olan oğlanları idi. Beləliklə onlara Avstriya evi, Burgundiya, İspaniya miras kimi qaldı. Bu vaxt həm də İspaniya Amerikanın kəşfi və nəhəng torpaqları işğal etməsi ilə güclənirdi. Çoxları güman edirdi ki, Ferdinand öz vəsiyyətində torpaqları böləcəkdir, lakin İzabella və Ferdinandın dövründə baş rol oynayan kardinal Ximenes öz məsləhəti ilə onu bundan çəkindirdi. O, belə bölgünün bütün təhlükəsini açıb göstərdi, ona görə də böyük qardaş olan Karl İspaniya taxt-tacına varis təyin edildi, Ferdinanda isə bu dövlətdən ömürlük pensiya kəsildi.

Bu vaxt Avropanın iki boş taxt-tacında iki gənc var idi, onlar I Frantsisk və I Karl İspaniyalı idi, sonuncu sonra həm də Müqəddəs Roma imperatoru olmaqla V Karl adlandı. Karl daha cavan idi, lakin Frantsisk kimi ümidlər vermirdi. Müasirləri onu qətiyyətsiz, utancaq adam kimi təsəvvür edirdilər. O, elə bir fəaliyyət və istedad nümayiş etdirmirdi. Bununla yanaşı İspaniyada şərait çətin idi. Ferdinand və İzabellanın gördüyü işlər dağılmağa hazır idi. Onların tətbiq etdikləri inkvizisiya ümumi narazılıq yaradırdı. Katolik dövlətin kübarlara qarşı mübarizəsində arxalandığı şəhərlər öz növbəsində müxalif mövqe tutmuşdular. Korteslər yeni krala sədaqət andı içmək istəmirdilər, əvvəlcə ondan bütün hüquqlara razılıq verməsini gözləyirdilər. Bu müxalifəti saxlaya bilən yeganə adam Ximenes idi. Lakin Karl onu işlərdən uzaqlaşdırdı, bunu ona Niderlanddan olan müşavirləri məsləhət görmüşdülər. Ximenes buna dözməyib öldü. Karl Niderlandda tərbiyə almışdı, ispana nisbətən daha çox niderlandlı xarakterinə sahib idi, Niderlanda məxsus idi və onun hökmranlığının ilk illəri o tərəfdən olan təsir altında keçdi. Karlın bədbəxtliyi bir də bunda idi ki, çox sayda torpaqları idarə edirdi, lakin hər yerdə əcnəbi hesab olunurdu. İstər Almaniyada, istər İspaniyada, istərsə də İtaliyada onu yad sayırdılar. Bu, onu öz təbəələrinə münasibətdə ağır vəziyyətdə qoyurdu. Bir az sonra ispan icmalarının kral

hakimiyyətinə qarşı mübarizəsi daha kəskin xarakter aldı. Lakin indi Avropanın taleyi iki gəncin təsiri altında idi və heç vaxt qitənin vəziyyəti belə çətin olmamışdı, onun üçün təcrübəli rəhbərlərin vacibliyi belə mühüm əhəmiyyət kəsb etməmişdi. 1517-ci ildə isə Reformatsiya hərəkatı başlandı.

Reformatsiyanın başlanmasına qədər ağıllarda böyük hərəkat baş vermişdi. Humanistlər tərəfindən sxolastikaya kəskin hücumlar edilirdi. Söhbət təkcə elmdən deyil, siyasi və kilsə həyatının bütün sistemindən gedirdi. Heç vaxt Papalıq bu dövrdə olduğu kimi ortaya belə iddialar və özündən razı nəzəriyyələr qoymamışdı. İlahiyyatçılar Papanın hüququnu hər şeydən yüksəkdə qoyurdular, hətta elə dərəcəyə gedib çıxırdılar ki, Papadan Allaha şikayət etmək olarmı sualını verirdilər və özləri də buna mənfi cavab verirdilər. 15-ci əsrin sonunda dominikançı, 1481-ci ildən inkvizisiyanın başçısı olan qəddar Tomas Torkvemada belə bir qəribə mülahizə irəli sürdü: əgər Papa olmasaydı, müqəddəs kitabın heç bir qüvvəsi olmazdı. Digər ilahiyyatçılar isə daha uzağa gedərək deyirdilər ki, Papanın pozulması baş verdikdə kilsə yalnız onun düz yola qayıtması barədə dua etmək hüququna malikdir, bundan narazılıq edə bilməz. Lakin müxalif olanlar da çox idi. Bir tərəfdən dünyəvi hökmdarlar papaların müdaxilələrindən narazı idilər. Bu müdaxilələr pul tədbirləri və maliyyə yığımları ilə kifayətlənirdi. Digər tərəfdən xalq nəhəng miqdarda pulun yığılmasından şikayət edirdi. Bu pullar hər bir dövlətdən Romaya axırdı. Xalq həm də əcnəbilərin ruhani vəzifələrinə təyin edilməsindən narazılıq edirdilər. Çünki Papa çox vaxt, xüsusən Almaniyada yepiskop və abbat vəzifələrinə ölkədəki dili bilməyən italyanları təyin edirdi. Əhalinin savadlı hissəsi ilk humanizm cəhdləri edən ədəbiyyat hərəkatı da sui-istifadə hallarına görə Papaya düşmən mövqeyində idi. Papanı cəhalətin və xurafatın müdafiəçisi hesab edirdilər. Lakin humanistlərin düşüncələri cəmiyyətin aşağı təbəqələrinə gəlib çatmırdı.

12-ci əsrdə artıq Martin Lyüterin protestantizm ruhaniliyinə məxsus olan şəxslər ədəbiyyat aləmində mühüm rol oynamağa başlayır, ədəbiyyat əvvəlki nağıllardan fərqli olaraq daha çox satirik xarakter daşıyır. Bu ədəbiyyat İtaliyada Bokkaççonun "Dekameron"unda ən yüksək bədii formasına çatdı. Almaniyada isə bu ədəbiyyat yalnız 15-ci əsrdə ən sərt və istehzalı yolu qəbul etdi. Kobud forma altında sağlam düşüncə gizlənirdi, elmə və o vaxtkı cəmiyyətin nümayəndələrinə hücumlar edilirdi. Sebastyan Brantın "Səfehlər gəmisi"ndə bütün ağılsız adamlar bir gəmiyə yığılır, onlar bütün təbəqələri təmsil edirlər. Bu əsər çox böyük təsir göstərdi, xalq hərəkatına nüfuz etdi. Ruhaniliyin sui-istifadələri, rahiblərin qüsurları və cahilliyi, xalqın onları ələ salmaları üçün təqdim olunurdu.

Bununla yanaşı ciddi və dərin hərəkat da var idi. 14-cü və 15-ci əsrlərdə Uiklif və Hus böyük hərəkat başladılar. Katolitsizm mübarizə aparmalı olduğu hansısa bir güclü küfrlə həmişə üz-üzə gəlirdi, bütün bu küfrlər səsə malik oldular, bütün satirik əsərlər həmin müxalifətdə olan adamlar tərəfindən oxunur-

du. Avqustin ordeni rahibləri içərisindən dövrün güclü moizəçiləri çıxdı. Belə böyük moizəçilərdən biri Tauler idi. Mənşəcə italyan olan Papa alman xalqının mənafelərinə düşmən münasibəti bəsləyirdi, ona görə də katolitsizmi çox vaxt italyan ilahiyyatı adlandırırdılar.

Zəkası mübarizəyə yönələn Martin Lyüter meydana çıxdı. Martin Lyüterin həyatı iki dövrə bölünür - 1517-ci ildə islahatçılığa qədər və ondan sonra olan dövr. Martin Lyüter 1483-cü ildə Eyslebendə anadan olmuşdu. O, təhsil alanda pəncərələrin altında ianə dilənmişdi. Bir dəfə yanındakı dostunu ildırım vurub öldürəndə 22 yaşlı Lyüter rahibliyə keçməyə and içdi. Universitet partasında o, orta əsr elminə tam nifrət hiss etməsə də, onun qeyri-qənaətbəxş olduğu qənaətinə gəldi. O, ilahiyyatla məşğul olmağa başlayanda, Bibliya haqqında heç bir anlayışı yox idi. Monastırda isə ağır şübhələr onu boğurdu. Nəhayət o, Müqəddəs Avqustinin əsərlərinə müraciət etdi və onlarda özünü həyəcanlandıran şübhələrə cavab tapdı. O, əmin oldu ki, tövbənin zahiri əlamətləri ilə insan nəsə etmək gücündə deyildir, yalnız yuxarıdan gələn mərhəmət onu təmizləyir. 1508-ci ildə o, yenicə yaradılan Vittenberq universitetində yer alır. Saksoniya kurfyurstu Fridrix öz müdrikliyinə görə köhnəlmiş elmin həyata münasibətini başa düşürdü. Ona görə də altı il əvvəl bu universiteti yaratmış və ora gənc qüvvələr cəlb olunmuşdu. Lyüter burada Aristotelin latın dilinə tərcüməsindəki müxtəlif əsərlərinə izahlar, icmallar verirdi. O, öz mühazirələrində sxolastikadan aldığı təhqirlərin hayıfını bütünlüklə çıxırdı. Bundan əlavə o, əla moizəçi reputasiyasını qazanmışdı, həm də kilsələrin birində keşiş idi.

O, Romada olarkən ona olan öz ehtiramında yanıldığını anladı, Papanın və ruhaniliyin davranışını lap yaxından müşahidə etdi. Oradan yazırdı ki, onlarda hər şey alınıb, satılır. Hətta Papa II Yulinin döyüşkən ruhu da onda dini hisslərlə dolu düşüncələr yarada bilmədi. 1517-ci ildə o, təkcə Vittenberqdə deyil, Almaniyada, bütün Avropada məşhurlaşdı. Hələ 13-cü əsrdən papalar günahların bağışlanmasını satmağa başlamışdılar. Bu tədbir aşağıdakı qaydada həyata keçirilirdi. Kilsə belə hesab edirdi ki, müqəddəslər və şəhidlər o qədər çox sayda xeyirxah iş görür və müqəddəs hünərlər göstərirlər ki, onların məcmuu günahların bağışlanmasına lazım olandan da çoxdur. Buna *rezartus sanctorum* - "müqəddəslər hesabına artıqlıq" deyirdilər. Hələ III İnnokenti bu doqmatı təsdiq etmişdi. Əvvəlcə bağışlanmanı əldə edən adamdan daxili tövbə tələb olunurdusa, 15-ci əsrdə günahların bağışlanması ilə utanmadan alver edən VI Aleksandrın dövründə isə yavaş-yavaş bu ticarət zahiri cəhətdən biabırçı xarakter almağa başladı. Hər şey bağışlanmaq üçün verilən məbləğlərlə ölçülürdü. Hələ II Yuli Romada bir sıra möhtəşəm tikililər tikməyə başlamışdı, lakin onların maliyyələşməsinə Papanın gəlirləri çatmırdı. O, bütün Avropa üçün indulgensiya - günahları bağışlamağı satmaq vasitəsinə əl atdı. Yaxşı təhsil görmüş Papa X Leonun vaxtında məsariflər artdı, Papanın gəlirləri isə böyük deyildi. Xalq dəfələrlə bu ianə yığımından şikayətlənirdi, ianələr Papaya çatmırdı, onu yığanların

əlində qalırdı, yığılanın çox az hissəsi Papaya çatırdı. Papa Almaniyada indulgensiya satışını Maynts yepiskopu olan kurfyursta etibar etmişdi. Dominikan ordeninin rahibi Tetsel isə təkcə keçmişdə olan günahları deyil, gələcəkdə, hətta 200 min il sonra törədiləcək günahı da əvvəlcədən bağışlamağı vəd edirdi. O, ən eybəcər günahların da bağışlanmasının mümkün olduğunu bildirirdi. Şimali Almaniya əhalisi belə bağışlanmalardan ehtiyat yığmağa tələsdi. Bəzən alçaldıcı hadisələr də baş verirdi. Drezdendə bir zadəgan Tetseldən üç gün əvvəlcədən günahın bağışlanmasını aldı və sonra Tetseli qəddarlıqla döydü. Papa belə biabırçı alverlə məşğul olanda Lateran məclisi öz qərarı ilə Ruhun ölməzliyini təsdiq etdi. Xristian təliminin ən dərin dayaqlarında bu dərəcədə titrəyişlər mövcud idi.

Vittenberqdə isə Tetsel gözləmədiyi əleyhdarı ilə qarşılaşdı. Lyüter əvvəlcə ona nəzakətli məktub yazıb, Vittenberq sakinlərinə əziyyət verməməyi xahiş etdi, çünki şəhərdə əxlaq aşağı düşürdü. Tetsel ona kobud rədd cavabı verdi. Elanlarda isə yazırdı ki, sizin pulunuz bu məqsədlə yığılan kilsənin içərisinə düşməmişdən, sizin ruhunuz göylərdə olacaqdır. Bu vaxt Lyüter açıq müqavimətə keçməyi qərara aldı. O, Vİttenberq məbədlərindən birinin qapısına sxolastik adətə uyğun olaraq 95 tezisini yapışdırdı. Bu tezislərdə deyilirdi ki, Papanın belə bağışlamaları etmək hüququ yoxdur, o, əbədi əzablardan azad edə bilməz və yalnız mərhəmət günahlardan adamları təmizləyir. Bunun əvəzində bir ilahiyyat professoru özünün yazdığı kobud, cəhalətli cavabında dinsiz Lyüterin edam edilməsini tələb etdi.

Almaniyanın bütün savadlı adamları bu mübahisədə iştirak etdi. X Leo Lyüterin cəsarətinə məəttəl qalmışdı, lakin Lyüteri bu cəhdinə görə təhqiqatdan uzaqlaşdırmaq istəyirdi. Lakin öz ətrafından çəkinib o, Lyüterin təqib edilməsinə razılıq verdi. Saksoniya kurfyurstu Fridrix Müdrik Lyüterə himayəçilik edirdi, o, ümid edirdi ki, məsələ dinc qaydada yoluna qoyulacaq və sui-istifadələr aradan qaldırılacaqdır. O, Papa leqatına Lyüteri Auqsburqda sorğu-sual etməyə icazə verdi. Kasıb geyiminə görə kardinalın ondan zəhləsi getdi və güman etdi ki, sxolastika sitatları ilə onun ağzını qapaya biləcəkdir, Lyüter isə ona müqəddəs kitaba əsaslanmaqla cavab verirdi. Kardinal ona gözə görünməyi qadağan etdi. Gecə Lyüter Auqsburqdan qaçdı, əks halda səhərisi günü o, tutulacaqdı. Şüurlarda isə hərəkət güclənirdi. Ölümündən əvvəl öz başında imperator və papa çələnglərini görməyi arzulayan Maksimilian gözlərini maraqla ona dikmişdi. O, demişdi: "Bu rahibi o vaxta qədər saxlamaq lazımdır ki, lazım olanda onu buraxasan". Hərəkat əvvəlcə universitetlərdə əks-səda doğurdu. İlahiyyat alimi ilə mübahisədə Lyüteri tələbələr müşayiət etmişdi və burada o, elan etdi ki, Papalıq heç də ilahi idarə deyildir, bu tarixin işidir, insan əlinin əməlidir. Onun Hus barədə fikrini soruşduqda demişdi ki, "Hus çox şeydə düz danışırdı" və onun barəsindəki Konstantsa məclisinin hökmünü səhv hesab edirdi. Lyüter artıq katolitsizmin bətnində hazırlanan islahat barədə düşünürdü.

İmperator I Maksimilian 1519-cu ildə öldü. İmperator taxt-tacına üç gənc hökmdar iddia edirdi: I Karl İspaniyalı, I Frantsisk Fransalı, VIII Henri İngiltərəli. Digərlərindən daha çox özünə hərbi şöhrət qazanmış I Frantsisk bu sahədəki uğuruna da çox ümid edirdi. O, türklərə qarşı müharibədə Almaniyaya kömək göstərməyi vəd etmişdi. Bundan əlavə o, kurfyurstların səsini pulla almışdı. Lakin I Karlın partiyası ondan güclü çıxdı, bu partiya fransızı Müqəddəs Roma imperatorunun taxt-tacında görmək istəmirdi. Karl Maksimilianın nəvəsi olmaqla uzaqda yaşayırdı və ona görə də vəzifəlilərə olan güzəştlər onun tərəfindən az təhlükəyə məruz qalacaqdı. Bu mübahisəni qəti olaraq Karlın xeyrinə səs verən və arxasınca çoxlarını aparmağı bacaran Fridrix Saksoniyalı həll etdi. Lakin Papa Karlın seçilməsini istəmirdi, o, imperator sülaləsinin güclənməsindən qorxurdu. Çünki bir gəncin əlində birləşmiş İspaniya, Cənubi İtaliya, Amerika torpaqları nəhayət Avstriya evinin nəsil torpaqları və imperator titulu cəmlənəcəkdi. Avropa dövlətləri arasında tarazlıq pozulurdu və seçki keçirildikdən sonra Papa heç nə edə bilməzdi. Ona görə də yeni imperatora xoş münasibəti olduğunu bildirməyə tələsdi və ondan xahiş etdi ki, Almaniyadakı mübahisəli məsələyə köməklik göstərsin.

Papa Leo öz iradəsinin əksinə onu əhatə edənlərin təsiri altında Lyüterin kilsədən təcrid edilməsi haqqında bullanı imzalamalı oldu. Almaniyada ictimai rəy bununla təhqir olundu, bulla burada heç elan edilmədi də. Lakin Lyüterin vəziyyəti təhlükəli idi. 1520-ci ilin sonunda Vittenberq universitetinin professor və tələbələrinin əhatəsində o, təntənəli şəkildə Papa bullasını və kanon hüququ kitabını yandırdı. Elə həmin ili ümumi rəyə böyük təsir göstərən iki əsər nəşr etdirdi. Onlar təkcə birbaşa sui-istifadələrə qarşı olmayıb, katolitsizmin başlıca əsaslarına qarşı idi. Lyüter papaların hakimiyyətinin istiqamətini burada ciddi tənqid atəşinə tutur, tələb edir ki, Papanın dünyəvi hakimiyyəti onun əlindən alınsın, kilsə dövlətə tabe edilsin. Doqmatlara aid olmayan məsələlərdə yepiskoplar Papa qarşısında and içməsinlər. Almaniya üçün o, müstəqil papa taxt-tacı tələb edir. Onun yeni təlimi tez yayılmağa başladı. Kitab çapına 60 il əvvəl başlanmasına baxmayaraq, dərc olunan kitabların sayı az idi. Əsasən filologiya məzmunlu kitablar çap olunurdu. Təkcə 1520-ci ildə nəşr edilən kitabların sayı son dörd ildə buraxılan kitabların sayından on dəfə çox idi. Onların çoxu polemik xarakter daşıyırdı. Katolitsizm əleyhinə olan kitablar iki-üç dəfə çox çıxırdı. Almaniyada ən güclü zəkalar Lyüterin tərəfinə keçdi. Reyxlin onu müdafiə etdi. Hutten bu hərəkata dini olmaqdan daha çox milli xarakter verdi. Lyüterdə dərin dini tələbatdan irəli gələn fikirlər Huttendə İtaliyaya qarşı patriotizm reaksiyası nümunəsi idi. Huttenə görə Almaniya çoxdan Papaya qarşı düşmənçilik mövqeyində idi, ölkə ondan azad olmalı idi. Beləliklə burada eyni vaxtda bir neçə hərəkat birləşdi - dini, elmi, nəhayət, təmiz milli hərəkat.

Lakin Lyüterin də vəziyyəti çətin idi. Bu vaxta qədər onu Fridrix Müdrik himayə edirdi. İmperator Maksimilian ona himayə göstərməsə də, ona ziyan da

vurmurdu. Yeni imperator da hələ Almaniyanın işlərinə qarışmırdı. 1521-ci ildə imperator V Karl Vormsda imperiya seymi çağırmışdı ki, orada imperiyanın bəzi işlərini, həmçinin Lyüter məsələsini araşdırsın. Buna qədər imperatorla Papa arasında sıx ittifaq yaranmışdı. İmperator Papadan İspaniya üçün inkvizisiyanı təsdiq etməyi təklif etmişdi. Papa uzun müddət imtina etmişdi, lakin axırda inkvizisiyaya tam gücü ilə fəaliyyət göstərməyə imkan verdi. Bu, Lyüter üçün olduqca fəlakətli xəbərdarlıq idi. Həqiqətən də elə həmin ili o, Vormsa gəlmək barədə göstəriş aldı. Dostları Husu xatırlayaraq ona gizlənməyi təklif etdilər. 1521-ci ilin aprelində Lyüter bura gəldi. O, xoşa gəlməyən təəssürat yaradırdı. O, salona girəndə utandı, heç bir söz tapmayıb məsələni təxirə salmağı xahiş etdi. Sonrakı günü o, bir qədər cəsarətləndi, öz şübhələrini dilə gətirdi. O, yalnız müqəddəs kitaba əsasən təkzib olunmasını istəyirdi. Onu öz fikirlərindən imtina etməyə məcbur etmək üçün bütün cəhdlər faydasız idi. Onu o saatca həbs etmək səsləri eşidilirdi, lakin ona Vittenberqə qayıtmağa icazə verildi. Ona sığınacaq verən və himayə edən hər kəs təqib olunacaqdı. Yolda Lyüter yoxa çıxdı, belə səs-küy yayıldı ki, o, düşmənləri tərəfindən tutulmuşdur, lakin kurfyurst Fridrix atlılar göndərib, onu o saatca Vartburq qəsrinə apartdı. Fridrix Lyüterin çılğın xasiyyətinə bələd olduğundan ona sığınacaq vermək istəyirdi. Bir il burada qalması onun üçün faydasız olmadı. O, müqəddəs kitabı alman dilinə tərcümə etdi. Kitabın tərcüməsi və nəşri 15 il ərzində getdi və 1534-cü ildə başa çatdı. Dini əhəmiyyətindən əlavə bu əsər alman təhsilinin əsasını təşkil etdi. Bu kitablar hər evdə, həm varlıların, həm kasıbların evlərində var idi.

Lyüterin hərəkatına adamlar təkcə öz inamlarına və nəzəriyyələrinə görə gəlmirdi, çoxlarının təmənnalı məqsədləri var idi. Lyüter artıq ruhanilərin nikahsızlığını - tselibatı inkar edirdi, kilsə torpaqlarına knyazların hüququnu təsdiq edirdi, Roma Papasının nəfinə olan vergilərin ləğv edilməsini tələb edirdi. Rahiblərin çoxu monastırları atıb dünyəvi həyata qayıdırdı, alman knyazlarından çoxu protestantlığı qəbul etməyə hazır idi. Onları şirnikdirən cəhət müsadirə etmək hüququ, qazandıqları kilsə torpaqları idi. Bu zahiri hərəkatın arxasınca digər, dəhşətli dərəcədə fanatikliyi ilə seçilən savadsız və kobud kütlə gedirdi. Bu hərəkatın mərkəzi Vittenberqin özü oldu. Bəzi professorlar bütün təhsilin ləğv edilməsini, məktəbləri ləğv etməyi, müdriklik və yer elminin mənasızlığını tədris etməyi məsləhət görürdü. Vittenberqdə dəhşətli və komik səhnələr baş verirdi. Xalq məbədlərə hücum edir və məktəbləri uçururdu. Vittenberq məktəblərinin rektorları məktəbləri bağlayır və şagirdləri qovur, izah edirdilər ki, oxumaq zərərlidir. Bu barədə Lyüterə məlumat gəlib çatanda o, dözməyib qaldığı Vartburq qəsrini tələsik tərk etdi. Kurfyurst ona qalmağı təklif etdi, çünki Vittenberqdə onu müdafiə etmək mümkün olmayacaqdı. Lyüter isə demişdi: "İndi mən kurfyurstu müdafiə etməliyəm" və birbaşa ora yollandı.

Orta əsrlərdə dövlət kilsə ilə sıx bağlı idi. Lyüter ciddi surətdə kilsəni dövlətdən ayırdı, lakin Papanın hakimiyyətinə qarşı qalxanda kilsəyə toxunmaqla

bütün dövlətə də toxundu. Onun Vittenberqdən sıxışdırıb çıxardığı moizəçilər Qərbi Almaniyada hazır münbit mühit tapdılar. Almaniyada kəndli təbəqəsinin vəziyyəti bu vaxt olduqca ağır idi. Kəndli ən kəskin yoxsulluq halına salınmışdı, təzə moizəçilər onlara təkcə ruhi deyil, həm də dünyəvi sərvət vəd edirdilər. 1524-1525-ci illərdə Qərbi Almaniyanın kəndliləri üsyana qalxdılar, bu artıq zadəganlarla və knyazlarla vuruşan rıtsarlar deyildi. Bu cahil, fanatik, öz tələblərinin hüdudunu bilməyən kütlələr tərəfindən elan edilmiş müharibə idi. Orta Almaniyada onların başında həqiqət hissini bütünlüklə itirmiş, bütün xalqları və məxluqları azad etmək barədə düşünən fanatik Foma Myuntser durmuşdu. Myulhauzendə o, icma təşkil etdi, buradan ətrafdakı qəsrlərə qarşı alaylar göndərirdi. Ona qarşı rıtsarlar döyüşməyə başlayanda o, qələbəyə çox əmin idi və öz adamlarını inandırırdı ki, top gülləsindən onlara ziyan dəyməyəcəkdir. Lakin onlar darmadağın edildilər, o, özü əsir götürüldü, işgəncələrə məruz qaldı və əzablar içərisində öldü. Frankoniyada və Şvabiyada kəndlilər bəzi rıtsarları onlara başçılıq etməyə məcbur etdilər. Onlar qəsrləri dağıdır, sahiblərini öldürür, ruhanilərə xüsusi nifrət bəsləyirdilər. Onlar özləri ilə 12 tələblərini gəzdirirdilər. Katolitsizmin tərəfdarları Lyüteri məzəmmət edirdilər ki, bütün işlər ondan başlanmışdır. Lyüter kəndlilərə müraciət edib onları tabe olmağa inandırırdı, əks halda dünyəvi hakimiyyətə onları itlər kimi döyməyi təlqin edirdi. Onun ümidləri özünü doğrultmadı. Rıtsarlar, ruhanilər, heç bir fərqi olmadan protestantlar və katoliklər bütün səylərini kəndlilərə qarşı birləşdirdilər. Onlar əzdirildi və daha ağır zülmə tabe edildilər. Reformatsiyanın ilk səkkiz ili belə dəhşətli hadisələrlə müşayiət olundu.

İsveçrə Reformatsiyasının lideri Ulrix Tsvinqli Lyüterin həmyaşıdı idi, lakin fərqli təhsil almışdı. Lyüterin Bibliyadan aldığı ilhamı, Tsvinqli klassik ədəbiyyatdan, onun əxlaqi ideyalarından götürmüşdü. O, əsasən Reformatsiyanın doqmatik tərəfinə deyil, əxlaqi tərəfinə diqqət verirdi. Lyüter üçün isə əxlaq ikinci dərəcəli əhəmiyyət kəsb edirdi. Tsvinqli fəal, döyüşkən həyat sürürdü, İtaliyadakı isveçrəli muzdluların yanında alay moizəçisi kimi xidmət edirdi və bütün böyük vuruşlarda iştirak etmişdi. İsveçrədə dominikançı indulgensiyanı təbliğ edəndə Tsvinqli ona qarşı çıxış etdi. Tsyürix şəhər şurası öz keşişi olan Tsvinqliyə əsl himayəçilik göstərdi. Tezliklə o, bütün hərəkatın mərkəzi oldu və ona daha geniş və çoxtərəfli xarakter verdi. Tsvinqli təkcə doqmatların dəyişdirilməsi və katolitsizmin sui-istifadələrinin inkar edilməsi ilə kifayətlənmədi. O, qaydaların, xarakterlərin, onlarla birlikdə siyasi vəziyyətin dəyişdirilməsini tələb etdi. O, İsveçrə patritsilərinə və isveçrəli dəstələrin satqınlığına qarşı çıxdı. Bununla da o, özünə Lyüterdən daha artıq nifrət qazandırdı. Bütün İsveçrə patritsiləri onun əleyhdarlarına çevrildilər, lakin Tsvinqli cəsur və möhkəm dayanırdı.

Almaniyanın özündə Reformatsiya əsasən imperiya şəhərlərində yayılırdı. Bu şəhərlərdəki varlı, savadlı orta silk öz yerli rəislərindən narazı idi. Prussiya ordeni özünü daha yaxşı aparırdı. 12-ci əsrdə Palestinada yaradılmış alman or-

deni üç əsr ərzində polyak knyazlarının təklifi ilə hələ də bütpərəst olan Prussiyaya köçmüşdü. Lakin Polşa bu ordenin timsalında narahat və təhlükəli qonşuya malik olmuşdu. 15-ci əsrdə orden artıq Polşaya qarşı dayana bilmirdi. İş onda idi ki, orden artıq zamanın ruhuna uyğun gələ bilmirdi və Almaniya ona az kömək edirdi. Lakin ordenin torpaqlarında artıq güclü müxalifət elementləri mövcud idi, bunlar ilk növbədə əsasən Almaniyadan çıxmış şəhərlilər idi. Orden öz gücü hesabına dayanmaq və Polşa ilə müharibə aparmaq üçün muzdlular kirayə etməli idi. Belə bir şəraitdə Reformatsiya alman ordenini yaxaladı.

1523-cü ildə Keniqsberq şəhərindəki (Şərqi Prussiya) katolik yepiskopu protestantizmə keçdi. İki il sonra ordenin qrossmeysteri də protestantizmə keçdi, ordenin torpaqlarını dünyəvi ərazilər elan etməklə özünü hersoq adlandırdı. Orden ləğv edildi, rıtsarların böyük hissəsi bu məsələ ilə həvəslə razılaşdı, digərləri Almaniyaya köçdü. İmperatora bu xoş gəlmirdi, o, Prussiya hersoqunu dövlət təqibinə məruz qoydu, lakin hersoq Polşanın və Hohentsollern evinin lenniki olaraq qalırdı. Sonra başqa əyalətlər də bütün müqavimətlərə baxmayaraq, onların nümunəsinə uyğun hərəkət etdilər. Reformatsiya sürətlə yayılırdı və siyasi əhəmiyyət kəsb etməyə başlayırdı. Artıq söhbət Lyüterdən yox, qüdrətli knyazlıqlardan gedirdi. Reformatsiyanın yayıldığı torpaqlarda isə knyazların hakimiyyəti çox güclənirdi. Birincisi, knyaz artıq vilayət ruhaniliyinin başçısı olurdu, buna qədər isə çox vaxt ona əks çıxsa da, indi Papadan asılı idi. İkincisi, knyazlar katolik ruhanilərin mülkünün əksər hissəsini onların əlindən almışdılar. Əlbəttə, Lyüter və digər moizəçilər buna başqa qaydada baxırdılar, rahiblərin malikanələrini alanda onları məktəblərin istifadəsinə vermək istəyirdilər. Knyazlar isə onları əsasən öz mənafeləri üçün istifadə edirdilər. Onlara nəzarətçi olan keşişləri Papa deyil, knyazlar özü təyin edirdi. Lyüter haqqında Vorms hökmü qüvvədə qaldığına görə knyazlar müdafiə tədbirləri barədə düşündülər. Sonrakı seym barədə isə Lyüter demişdi ki, onlar alman ənənəsinə görə çoxlu içdilər, lakin heç nə etmədilər. Lakin xarici siyasətlə əlaqədar olan hadisələr elə şəkil aldı ki, bu daxili məsələlərə də təsir etməyə bilməzdi.

1520-ci ildə taxt-tacda olan üç gənc iqtisadi mənafelər ucbatından bir-biri ilə ən azı mübahisəyə girişməli idilər. Onların torpaqlarının yerləşməsi italyan vilayətlərinə və fransız torpaqlarının bir hissəsinə irsi iddialar, Frantsiskin Karla düşmən münasibəti bəsləməsinə gətirib çıxarmışdı. Lakin Karl imperator olduqda onun rəqibinin torpaqları dənizdən başqa Frantsiskin bütün ərazisini əhatə edirdi. Onların arasında müharibə labüd idi, hər ikisi buna hazırlaşırdı və öz tərəflərinə ingilis kralı VIII Henrini cəlb etmək istəyirdi. 1520-ci illərdə Henri Frantsisklə görüşmək üçün Fransaya gəldi, hər iki hökmdar bir-birinə öz var-dövlətini nümayiş etdirdi, rıtsar oyunlarında iştirak etdilər, lakin mühüm olan bir iş görülmədi və dostluq əminliyi mübadiləsi ilə bir-birindən ayrıldılar. Karlın İngiltərəyə səfəri daha uğurlu oldu, özü də Henri üçün olmasa da, kardinal Tomas Vulzeeyə o, böyük təsir bağışladı. Henri onu lord-kansler təyin etmişdi

və Vulzee kralın ən yaxın məsləhətçisi sayılırdı. Karl onu pul hədiyyəsi və vədlərlə öz tərəfinə çəkdi. Müharibə 1521-ci ildə başlandı. Münasibətlərin pozulmasının baiskarı Frantsiskin özü idi, çünki Marinyano qələbəsi onda müəyyən qədər özünə inam yaratmışdı. Lakin onun qoşunları ciddi məğlubiyyətə uğradı. Frantsisk yaxşı davam edən müharibəni apara bilmədiyini nümayiş etdirdi. Onun sərkərdələri pulsuz qalmışdılar. Kral onlara qarışıq və ən uğursuz göstərişlər verirdi. Papa X Leo öləndən sonra onun Papa ilə ittifaqı dağılmışdı. Onun yerinə fransızlara qarşı düşmən partiyadan olan VI Adrian seçilmişdi, o, Karlın keçmiş müəllimi olmaqla yanaşı, onun İspaniyadakı valisi idi. Bu Papanın şəxsiyyəti Reformatsiyanın taleyinə də öz təsirini göstərdi.

VI Adrian öz əleyhdarlarının - protestantların ittihamlarına qarşı özünün qüsursuz şəxsiyyətini və öz vəzifələrinə ciddi riayət etməsini qoydu. O, sərt Papa idi, katolitsizmdə islahat aparılmasının zəruriliyinə inanırdı, həm də kilsədən ayrılmağına görə Lyüterə hiddətlənirdi. O, Romaya gələndə italyan ruhanilərinə qətiyyən xoş gəlmədi. X Leonun dövründəki ruhanilərin adətləri əsrin və müvafiq idarəçiliyin təsirindən yaranan xarakter almışdı. Papalar teatr tamaşalarında şəxsən iştirak edirdilər. Makiavellinin ədəb-ərkanlılığı ilə seçilməyən "Mandraqora" pyesinin tamaşaçıları arasında Papa da var idi. O, incəsənətin himayəçisi idi, kardinallar da onu təqlid edirdilər, kilsəyə onlar az qayğı göstərirdilər. Bir kardinal yazırdı ki, o, Pavelin (apostol) məktublarını oxumur ki, klassik ədəbiyyata adət etmiş nitqini korlamasın. VI Adrian İtaliyada hakim kəsilən incəsənəti anlamaqdan məhrum idi. Ona Romada sənət incilərini göstərdikdə o, bu əsərlərə elə bir hörmət nümayiş etdirməmişdi. Bir çox heykəllər haqqında o, kobud sözlər işlətmişdi, bunlarda o, günahkar bütpərəstliyin qalıqlarını görürdü, deyirdi ki, onları xalqa göstərmək lazım deyildir. Rəssamlar və şairlər o saatca Papanın düşmənləri oldular. Bəzi hadisələr onun belə sərt hərəkətinə səbəb rolunu oynayırdı. Bir neçə gənc, bütpərəst qaydasında bəzədilmiş öküzü çıxarıb Zevsə qurban kəsdilər. Burada bütün bütpərəst qaydaları icra olundu. Papaya həm Romadakı bütpərəstliyin dostları, həm də Reformatsiya ilə mübarizə aparmaq lazım gəlirdi. Papa üç illik hökmranlığından sonra ürək partlamasından öldü, həm katolik italyan partiyasının, həm də lyüteranların düşmənçiliyini qazandı.

Müharibə Fransa üçün əlverişsiz şəraitlərdə başlanmışdı. İmperator Papaya, Cənubi İtaliyaya bel bağlayırdı, onun qardaşı Ferdinand Avstriya torpaqlarının başında dururdu. İmperator qoşunlarına həmin dövrün ən yaxşı sərkərdələri başçılıq edirdi. Yeni müharibə qaydası, üslubu başlayanda, şəxsi igidlik az şey demək idi. Ordu əsasən ispanlardan və italyanlardan ibarət idi. Ümumən italyan müharibələrinə xas olan kimi, xarakterinə görə dramatik əyləncə kimi görünürdü. 1523-cü ildə imperator qoşunları az qala Fransaya girmişdilər, orada isə bədbəxt nəticələrə gətirib çıxara bilən hadisə baş vermişdi. I Frantsiskin əyanları arasında kral ailəsi ilə qohum olan Karl Burbona bərabər olanı yox idi.

Onun Fransanın mərkəzində böyük torpaq sahələri var idi. Ona çoxlu qəsrlər məxsus idi, öz qoşunu var idi, kraldan sonra ən yüksək vəzifələri tuturdu. Lakin onun arvadı öləndə Frantsiskin anası Luiza Savoylu ona ərə getmək istədi. Karl onun anasından cavan olduğunu nəzərə alaraq etiraz etdi. Bu ədavətlə nəticələndi, Luiza ərinin irsini tələb etdi. Parlamentdə üstünlük Luizanın tərəfində idi. Frantsisk anasını bu prosesdən kənarlaşdırmaq istəyirdi. Artıq 1522-ci ilin sonunda müttəfiqlər - VIII Henri və V Karl konnetabl Burbona təkliflə müraciət etdilər. Onlar onun qüdrətini, inciklikləri̇ni və itkilərini yada saldılar, ona Fransa krallığını bölüşdürməyi təklif etdilər. VIII Henri özünə Şimali Fransanı götürəcək, V Karla keçmiş Burqundiya torpaqları və Fransanın ortasındakı əla bir neçə torpaq sahəsi çatacaqdı, konnetabla isə kral titulu ilə Cənubi Fransa, Akvitaniya düşəcəkdi.

Bu niyyət onunla qorxulu idi ki, Fransanın hərbi işləri pis gedirdi. Kraldan çoxları narazı idi, onun anasından narazılıq daha böyük idi. Frantsisk xoşbəxtlikdən öz bədxahlarının niyyətindən hali oldu. 1523-cü ildə öz niyyətinin açıldığını görən konnetabl qaçmağa məcbur oldu. Frantsisk onun ardınca prosesi qurtarmaq və barışmaq təklifi ilə adamlar göndərdi. Lakin Karl Burbon qayıtmadı, ordusuz imperatorun düşərgəsinə gəldi. Onu xırda saray əyanları dəstəsi müşayiət edirdi, özü isə yalnız adını və istedadını gətirmişdi. Onun birinci işi Cənubi Fransaya yürüşü oldu. O, müttəfiq monarxlara vəd etmişdi ki, onlar orada müqavimət görməyəcəklər, onun adı kifayətdir ki, Cənubi Fransanın bütün qapıları açılsın. Şimali İtaliya artıq imperatorun əlində idi. Fransızlar döyüşdə məğlub oldular və 1524-cü ildə geri çəkiləndə qorxmaz rıtsar Bayard həlak oldu. Elə həmin il imperator qoşunları Cənubi Fransaya daxil oldular, lakin Burbonun vədi boş çıxdı. Marsel şəhəri qəti müqavimət göstərdi, buna görə imperatorun qoşunları mühasirəni götürməyə məcbur oldular. Frantsisk özünü qalib hesab edə bilərdi. İmperator qoşunları sursat çatışmamazlığından əziyyət çəkirdi. Karlın ordusu bütün yol uzunu səpələnmişdi, ordunun qalıqları 1525-ci ilin əvvəlində Paviyada qalmışdı, burada Frantsisk onlara hücum etdi. Əgər o, və onun sərkərdələri daha yaxşı hərbi məharətə malik olsaydılar, İtaliyanın taleyi yenidən dəyişilə bilərdi. Lakin Frantsisk 12 min alman landsknextinin yaxınlaşmasına imkan verdi, bu azmış kimi, döyüşü olduqca əlverişsiz şəraitdə başladı. O, imperatora nisbətən daha böyük orduya malik idi. Onun qoşunları, xüsusən artilleriyası əla vəziyyətdə idi. Lakin həm o, həm də fransız zadəganları rıtsar müharibələrini tərgitməmişdilər. Onlar elə hərəkət etdilər ki, fransız artilleriyası öz döyüşçülərinə atəş açdı. Onların heç bir vuruş planı yox idi. Lakin imperatorun sərkərdələri və konnetabl Burbon məharətli hərbi taktika nümayiş etdirirdilər. Fransızlar 10 min adam itirdilər, Frantsiskin özü 1525-ci ilin fevralında əsir götürüldü. Paviya qələbəsi müttəfiqlərə sevincdən çox dəhşət gətirdi. Belə uğuru VIII Henri də gözləmirdi. Bu vaxt Papa taxt-tacında Mediçi ailəsindən olan VII Klement oturmuşdu. Papa da, ingilis kralı da İspaniyaya tam üstünlük

gətirmiş bu həlledici uğurdan məəttəl qalmışdılar.

Amerikanın Şərqə barrikada kimi görünməsi ümidləri boşa çıxmaqla, ispanlara tədricən aydın oldu ki, Yeni Dünyanın özü böyük sərvətlərə malikdir. Kolumbun qızıl nümunələrindən başlanğıcını götürməklə belə ümidlər yarandı ki, Amerikada bəzi yerlərdə qızıl təpələr kimi mövcuddur və şayiələr ispan məcaraçıları həqiqətən bu var-dövlətə çatana qədər bunu qidalandırırdı. Əvvəlcə sərvətlər təəccüblü qaydada orduların igidliyi hesabına ələ keçirildi. 1519-cu ildən 1521-ci ilə kimi iki il ərzində *konkistador* (ispan dilində bu, işğalçı, qalib demək idi) Ernando Kortes altı yüz adama komandanlıq edərək bir milyon əhalisi olan Meksikanın Attsek imperiyasını özünə tabe etdi və attseklərin ağlasığmaz var-dövlətinin hamısını İspaniyaya daşıdı. Sonra 1533-cü ildə digər *konkistador* Fransisko Pisarro sadəcə 180 adamla işğal etdiyi Peruda İnkaların saysız-hesabsız miqdarda qızılını qarət etdi. Kortes və Pisarro bu qələbələrinə birinci növbədə sırf igidlik, xəyanət və hiyləgərlik hesabına nail olurdu. Əvvəllər və ya o dövrdə heç bir vaxt bu qədər az sayda adam belə iri səltənətləri məğlub etməmişdi, həmçinin nadir hallarda adamlar belə qəddarlıqla və belə iyrənc qaydada hərəkət etmişdilər.

Kortes, Pisarro və onların ardınca gələn *konkistadorlar* İspaniya üçün deyil, yalnız özləri üçün vuruşurdular və necə soyğunçuluq etməyi bilirdilər. Lakin 16-cı əsrin ortalarından ispan tacı bütün Mərkəzi və Cənubi Amerikanı (portuqallar tərəfindən məskunlaşdırılmış Braziliya istisna olmaqla) hökumət nəzarətinə götürdü, oğurluq əvəzinə mədənlərdən milyarddan çox olan böyük ölçüdə sərvət əldə etdi.

# FƏSİL 9
# İSPANİYA-FRANSA MÜNAQİŞƏLƏRİ

Yüz illik müharibədən sonra ilk dəfə idi ki, Fransa belə ağır vəziyyətə düşürdü və ümidsiz tədbirlərə əl atmalı oldu. Luiza Parisi möhkəmləndirirdi, lakin iş bu yerə gəlib çatmadı. Frantsisk Madridə aparıldı, bir ilə yaxın orada ciddi nəzarət altında saxlandı. Ümidsizliyə qapılan kral İspaniyadan yazırdı: "Namusdan başqa hər şey əldən getmişdir". Belə dustaqlıq şən və hərbi həyata öyrənmiş hökmdara təsir etməyə bilməzdi. Sülh təklif edildikdə Karlın şərtləri çox ağır idi. Frantsisk Milana, digər İtaliya dövlətlərinə bütün iddialarından əl çəkməli və bütün Burqundiya hersoqluğunu, Burqundiya irsinin bütün qalıqlarını Karla verməli idi. XI Luinin bütün uzun müddətli zəhməti, VIII Karlın və XII Luinin müharibələri Fransa üçün itirilmiş olurdu. Burqundiyanı Karla verməklə Frantsisk onu Fransanın birbaşa ürəyinə buraxırdı və bununla dövlətin müstəqilliyinə son qoyulurdu. Buna baxmayaraq, Frantsisk müqaviləyə qol çəkdi, elə buradaca ona etiraz etdi və deyirdi ki, bu sənəd ondan zorla alınmışdır. Madrid müqaviləsinin digər maddələrinə görə razılaşdırıldı ki, Frantsisk Portuqaliya kralının dua kraliçası olan, Karlın bacısı Eleanora evlənəcək və özünün birinci nikahından olan iki oğlunu müqavilənin təminatı kimi girov verəcəkdir. İki oğuldan biri, gələcək kral II Henrix idi. 1526-cı ildə Frantsisk azad edildi və Fransaya döndü.

Nə VIII Henri, nə Papa artıq Karla kömək etmək fikrində deyildi, onlar Karlın qüdrətinin böyüməsini dayandırmaq barədə düşünürdülər. Bu vaxt hadisələr başlıca xadimlərin iradələrindən asılı olmadan cərəyan edirdi, qabağı görməyi bacarığına malik olanlar üçün hətta gözlənilməz olurdu. Bu qəribə hadisələrin teatrı yenə də İtaliya idi. Konnetabla böyük vədlər verilmişdi, Paviya döyüşü udulmuşdu. Bu vaxt Karl Burbon şərtlərin icra edilməsini tələb etdi. V Karl tərəddüd edirdi, o, başa düşürdü ki, Fransaya müdaxilə onu İngiltərə ilə yeni müharibələrə cəlb edəcəkdir. O, bundan vaz keçdi. Digər mülahizələrə görə Karlın başqa fikri var idi, o, Fransanı təkcə ələ keçirmək istəyirdi. Konnetablı mükafatlandırmaq üçün onu Şimali İtaliyadakı qoşunlara komandan təyin etdi. Bu təyinat fəxri iş olsa da, böyük çətinliklər və təhlükə gətirə bilərdi. Karl konnetabla müharibənin viran qoyduğu diyarı verdi, maaşını vermək mümkün olmayan muzdlulardan düzəldilmiş qoşun verdi. Bir sözlə, ona İspaniyaya xeyrindən çox, ziyanı olan təhlükəli qüvvələri verdi.

Əvvəllər konnetabl öz əsgərlərini itaətdə saxlayırdı, onlara Milan hersoqluğundan böyük təzminat vəd edirdi. Lakin narazılıq artırdı. 1526-cı ildə konnetabl digər sistem tətbiq etdi, özü hərəkət etməyi qərara aldı, Fransadakı krallığı İtaliyadakı krallıqla əvəz etmək fikrinə düşdü. O, Karla yazdı ki, muzdluları

saxlaya bilmir, onlar Roma üzərinə getmək istəyirlər. Onun bu məlumatına digər faktlar zidd gəlirdi. O, Almaniyadan yeni landsknextlər və protestantlar dəvət edirdi. Landsknextlərin başçısı böyük dəstə gətirmişdi və özü ilə qızıl zəncir gətirmişdi ki, onu Papanın boynuna taxsın. Landsknextlər hədələrlə gəlirdilər, onları məşhur sərkərdə yaxşı tanıyırdı, onlar da nəyə görə vuruşacaqlarını bilirdilər. 1527-ci ilin əvvəlində konnetabl Romaya tərəf hərəkət etdi, hələ də özünü inandırırdı ki, könülsüz gedir. Lakin onun nüfuzu böyük deyildi, o, sadəcə Karlın sərkərdəsi sifətində tanınırdı. O, Orta və Cənubi İtaliyanı zəbt etmək istəyir və İtaliyanın kral tacını arzu edirdi.

Papa VII Klement Romada həyəcan keçirirdi, Papa ordusu konnetablla yanaşı gedirdi, lakin döyüşə girməyə cəsarət etmirdi. Neapollular da döyüşmək iqtidarında deyildi. 1527-ci ilin mayında Burbonun qoşunları Romanı mühasirəyə aldı və vaxt itirmədən şəhəri hücumla tutmaq istədi. Hücum başladı, birincilər sırasında konnetabl divarın üstünə dırmaşdı və ilk öldürülənlərdən biri oldu. Onun ölümünü əvvəlcə gizlətdilər, bir saatdan sonra bu məlum olanda şəhər artıq muzdluların əlində idi. Vandalların basqınları dövründən Roma belə bədbəxtliklə üzləşməmişdi. Katoliklər də, protestantlar da eyni qaydada kilsələri qarət edir, özbaşınalıqlar edirdilər. Nəhəng sərvət, sənət abidələri - hər şey oğurlanırdı. Küçələrdə katolik ibadətlərinin dəhşətli parodiyası baş verirdi. Papa və kardinal paltarını geyinmiş landsknextlər küçələrdə gəzişirdilər. Konnetablın yerini tutan Orant printsinin elə bir nüfuzu yox idi. Bir sözlə, qoşun Romanı istədiyi qədər qarət edirdi. Karla bu xəbər çatanda o, Papanın xilas edilməsi barədə dua mərasimi keçirmək göstərişini verdi. Papa Müqəddəs Ancel qəsrində idi, əsgərlərə böyük məbləğdə pul verib oradan qaçdı. Romanı zəbt edən ordu demək olar ki, bütünlüklə həlak oldu. Romada bir neçə həftə ərzində onların keçirdiyi həyat tərzi xəstəliklərin meydana gəlməsinə səbəb oldu, sonra onlar varlanıb tək-tək evlərinə dönməyə başladılar, yollarda onları sakinlər döyüb qarət edirdilər. Bu nəhəng ordu yoxa çıxdı, soyğunçuluq xatirəsindən başqa heç bir iz qoya bilmədi.

Lakin Frantsisk öz növbəsində bu hadisələrdən istifadə edib elan etdi ki, o, Madrid sülhünün şərtlərini yerinə yetirə bilməz. Frantsisk parlamentlə X Leonun konkordatı əsasında davranırdı. Lakin indi o, parlamentə bu sualla müraciət etdi ki, parlamentin razılığı olmadan kral Fransanın vilayətlərindən birini başqa dövlətə verə bilərmi? Parlament sualın mənasını başa düşüb mənfi cavab verdi və Frantsisk bəyan etdi ki, əsas qanunları pozmadan o, müqaviləni icra edə bilməz və ona görə də Burqundiyanın əvəzində imperatora xeyli məbləğdə pul təklif edir. 1527-ci ildə yenidən hərbi əməliyyatlar başlandı. Bu dəfə artıq Henri qarışmırdı, daha çox Fransanın tərəfini saxlayırdı, Papa da onun tərəfində idi. Fransız qoşunları Neapola çatdı, hər iki tərəf sülh istəyirdi və Kambredə 1529-cu ildə Qadın sülhü bağlandı. Onu Luiza Savoylu və V Karlın xalası Marqarita bağlamışdı. Frantsisk imperator torpaqlarından imtina edib, Burqundiyanı

saxladı və girov kimi saxlanılan oğlanlarını geri aldı. O, Karlın bacısı Eleanor Portuqaliyalı ilə evləndi.

Karl özü şəxsən İtaliyaya gəldi. Papa ilə onun arasında ittifaq bağlandı. Papa VII Klement öz sələflərinə bənzəmirdi, istedadda X Leoya, əxlaq məsələsində isə Adriana uduzsa da, o, xəyanətkar siyasətin nümayəndəsi idi. İtalyan knyazları da bu xüsusiyyətləri ilə seçilirdi. Papa bir tərəfdən başqa tərəfə keçirdi, bu vaxt ona imperatorla ittifaq daha faydalı göründüyündən o, buna hazırlıqla getdi. Bu imperatorla Papanı xeyli yaxınlaşdırdı. İmperator buna müvafiq olaraq yenidən Mediçiləri qovmuşdu, Florensiyanı bərpa etməyi vəd etdi. Klement özü Mediçilər ailəsindən idi və Florensiyanı imperator qoşunları tutmuşdu və Mediçilər Florensiya taxt-tacında möhkəmlənmişdi. Lakin ailənin içərisində 15-ci əsrdə olan kimi böyük şəxsiyyətlər yox idi. Florensiyanın İtaliyadakı və bütöv Avropadakı böyük rolu keçib getmişdi. Şəhər ancaq öz xatirələri ilə yaşayırdı. Sülh bərqərar olduqdan sonra Karl Reformatsiyaya böyük diqqət verməyə başladı. 1529-cu ildə o, Şpeyerdə seymi topladı, bura katolik partiyasından olan knyazlar yığışdı. Seymin qərarı ilə cəza qorxusu altında protestant təliminin sonrakı yayılması qadağan olundu. Vorms seyminin hüquqi qüvvəsi olmayan qərarlarının icra edilməsi qət olundu. Bu seymlərin arasındakı səkkiz il ərzində Almaniyada hər knyaz sərbəst qaydada bir dindən digərinə keçirdi. Belə bir prinsip hökm sürürdü: *cujus regio, ejus religio* - "hakimiyyət kimindirsə, din də onunkudur". Ona görə də belə keçidlər üçün heç bir maneə yox idi. Yeni qərar əsasında bu qadağan edildi. Lakin protestant knyazlar sakit dayanmadılar, onlar seym keçirilən vaxt öz etirazlarını bildirdilər. İmperiyanın 14 şəhəri ittifaq bağladı və buna ehtiyac yarandıqda güc tətbiq etməyə keçəcəkdilər. Lyüter isə sülhü israr edirdi, o, əvvəlcə imperatora şərtsiz tabe olmağı təbliğ edirdi. O, deyirdi ki, kilsə və təlim yalnız ruhi silahla müdafiə oluna bilər: "Dua edəcəyik, gözləyəcəyik ki, Allah imperatorun ürəyini yumşaltsın və ona işığını açsın".

Bir il sonra Auqsburqda keçirilən seymdə protestant və katolik keşişlər iştirak edirdi. Protestantlar yalnız xaç suyuna çəkilməni və ölüm qabağı tövbəni qəbul edirdilər. Zahiri formalara gələndə Lyüter latın adətlərini ləğv etdi və xalq dilini dualarda tətbiq etdi. Kilsəyə xüsusi növ poeziya mahnıları gətirdi, onlar dini mövzularda idi. Kilsə dünyəvi hakimiyyətin tabeliyinə keçdi. Lyüter öyrədirdi ki, Allahla insanlar arasında İisus Xristdən başqa digər vasitəçi yoxdur. Keşişlər dünyəvi şəxslərlə Allah arasında vasitəçi olmalarını dayandırdılar. Onlar dünyəvi hakimiyyət tərəfindən təyin edilir və ya icmalar tərəfindən seçilirdi. Protestantlara etirazlar seymdə o qədər də uğurlu olmadı. Onlar öz əleyhdarlarının zəif arqumentlərinə gülürdülər. Lakin katolik knyazların çoxu hazır rəylə gəlmişdilər, ona görə də katolitsizmin təntənəsinə şübhə edilmirdi.

Lyüterdən fərqli olaraq İsveçrədə Tsvinqli təkcə dinə deyil, vətənpərvərlik və mənəvi hisslərə də müraciət edirdi. Yalnız beş kantonda katolitsizm dərin kök salmışdı, katolik keşişlər insanların ağlına güclü təsir edə bilirdilər. Onlar-

da Tsvinqliyə xüsusilə ciddi müqavimət göstərildi. Avstriya evinin qalibləri Reformatsiyaya qarşı onlarla sıx ittifaq bağlamışdılar. Burada heç də əsas məsələ dini inam deyildi. Bu kantonlardan İsveçrə drujinalarının igid döyüşçüləri çıxırdı. Tsvinqli bu sistemə qarşı çıxdığından özünə barışmaz şəxsi düşmənlər qazandırmışdı. Lakin Tsürixdə onun nüfuzu böyük idi, Bern kantonu da çox güclü olmaqla Reformatsiyanı qəbul etmişdi. Digər şəhərlər də praktiki məqsədlər naminə bunu etmişdilər. Digər tərəfdən onlar Lyüterdən daha çox, katolik doqmatlarından uzaqlaşırdılar. Tsvinqli yalnız Xilaskarın xatirəsinə görə ölümdən əvvəlki tövbənin sirrliyini qəbul etmişdi.

İki islahatçı - Lyüterlə Tsvinqli arasında ziddiyyətlər var idi və onları barışdırmaq cəhdləri uğursuzluğa uğradı. Tsvinqli bəzi güzəştlərə getməyə hazır idi. lakin Lyüter yenilməz olaraq qalırdı. Onun üçün doqmatın təmizliyi hər şeydən yüksəkdə dururdu. Lakin Lyüterin imperatora itaəti qoruyub saxlaması knyazları daha qətiyyətli hərəkətdən çəkindirə bilmədi. İmperatorun başı xarici siyasət məsələlərinə qarışdığından, öz əleyhdarlarına qarşı güc tətbiq etməyə imkanı yox idi. Ferdinand Katolikin və Maksimilian Almaniyasının irsini əldə etdikdən sonra, o, Avstriya torpaqlarının idarə edilməsini öz kiçik qardaşı Ferdinanda həvalə etdi. 1526-cı ildə macar və çex kralı II Lyudviq Mohaç yaxınlığında türklərlə döyüşdə həlak oldu. Ferdinand taxt-taca iddia etdi və ona bu işdə Lyudviqin dul qadını, öz doğma bacısı kraliça Mariya kömək edirdi. Bohemiya, Moraviya, Luzatsiya onu kral kimi tanıdı. Macarıstanda İoann Zapolyanı kral elan etdilər. Qovulanda o, türklərdən kömək xahiş etdi. Osmanlı taxt-tacı bu vaxt imperator Süleyman Kanuninin əlində idi. I Süleyman Ferdinandın qoşununu Macarıstandan qovub, Vyananın özünü mühasirəyə aldı. Lyüter əhaliyə alovlu müraciət edib mübahisələri unutmağı və xristianlığa olan təhlükəni yaddan çıxarmamağı xahiş etdi. Müharibə davam edirdi, imperator Türkiyə və Macarıstanla mübarizə aparmalı və Ferdinandın bir tərəfli qaydada alman kralı təyin edilməsinə haqq qazandırmalı idi. 1531-ci ildə Tsvinqlinin başçılığı altında iki min nəfər Tsürix vətəndaşı yürüşə başladı, onlar qələbəyə çox ümid edirdilər. Lakin onlardan çox azı sağ qaldı, Tsvinqli də həlak olanlar arasında idi. Reformatsiya işi İsveçrədə məğlub olan kimi görünürdü. Lakin yeni reformator İoann Kalvin daha ardıcıl və daha bəxti gətirən idi. Lakin Tsvinqlinin Reformatsiyaya verdiyi siyasi məna məhv oldu. Katolik əsasların bəlkə də bu qələbəsi katolik knyazlarını Almaniyada güzəştə getməyə sövq etdi, onlar güman edirdilər ki, sonralar asanlıqla bu işin öhdəsindən gələcəklər.

1532-ci ildə isə Nyürnberq dini sülhü meydana gəldi, onlara maneəsiz olaraq dini qaydaya salmaq imkanı verildi. Katoliklər protestantları narahat etməməyə söz verdilər, çünki xalqın ümumi qüvvələrini Türkiyəyə qarşı yönəltmək lazım idi. Həqiqətən də, çoxsaylı və güclü ordu türkləri Macarıstandan geri çəkilməyə məcbur etdi. Xarici düşmən geri oturduldu, dini sülh yaradıldı, lakin onun möhkəmliyinə heç kəs inanmırdı. Açıqca müharibə gözlənirdi. Fransada I

Frantsisk Madriddən qayıtdıqdan sonra öz hərbi uğursuzluqlarını ört-basdır etmək üçün elmə və incəsənətə gözəl qayğı göstərməyə başladı. Bundan əvvəl isə o, görkəmli italyan rəssamı Leonardo da Vinçiyə onun ömrünün son üç ilində qayğı göstərmişdi, ona pension kəsmişdi. O, Fransada qədim incəsənətin intibahı dövrünü başladı. Özünün siyasi ideyalarında bir qayda olaraq siyasi məqsədlərini əsas tuturdu, türklərlə Makiavelli prinsipilərinə uyğun olaraq ittifaq bağladı. Daim siyasi məsələləri dini məsələlərdən yuxarı tuturdu. Frantsisk öz vətənində olduğu kimi, Almaniyada da protestant hərəkətinə dözümsüzlüklə yanaşırdı, lakin Karla qarşı başlanmış hərbi əməliyyatları razılıqla qarşılayırdı.

İngiltərədə vəziyyət daha qarışıq idi, bu vaxta qədər VIII Henri Vulzeenin məsləhətlərindən istifadə edirdi. Vulzee taxt-tacda olmasa da, ən yüksək pillədə dayanırdı. Lakin onun qüdrəti öz sonuna çatırdı, o, kral VIII Henrinin yanında yalnız şəxsi münasibətlərinə görə qalırdı, onun tələblərinə boyun əyirdi. Qəflətən o da krala müqavimət göstərməli oldu. Kral Henri öz qardaşının dul arvadı Katerina Araqonluya evlənmişdi. İlk illər bəlkə də onu sevsə də, sonralar özündən yaşlı qadına onun münasibəti xeyli zəifləmişdi. 1520-ci illərin sonunda o, Parisdən vətənə qayıtmış, incə formalara malik olan Anna Boleynə vurulmuşdu. Kralın öz qardaşı arvadı ilə evlənməsinə Papa özü icazə vermişdi və o, Katerina ilə çoxdandı ki, nikahda idi. O, öz hisslərini Vulzeeyə açdı, kralın yeni nikaha girməsinə axırıncı razı idi, ancaq Anna Boleynlə yox, hansısa fransız printsessası ilə, Frantsiskin bacısı Marqarita ilə və ya XII Luinin qızı Renata ilə. Çox yaxşı bir səfirliklə o, Fransaya yollandı, güman edirdi ki, Frantsisk izdivaca, Papa isə boşanmaya razılıq verəcəkdir. Vulzeenin ümidləri doğrulmadı. Onun səfəri vaxtı kral Anna Boleynlə evlənmək niyyətini açıqladı və ortaya boşanma məsələsi çıxdı. Buradan da İngiltərəyə qarşı bir sıra mühüm münasibətlər və İngiltərənin Papa taxt-tacından ayrılması hadisəsi öz mənbəyini götürdü.

Almaniyada yeni təlim köhnə dini sistemə üstün gəlirdi. Bunun səbəbini təkcə daxili dini istəkdə deyil, alman knyazlarının təmənnalı məqsədlərində axtarmaq lazım idi. Onlar kilsə mülklərindən müsadirə edilmiş sərvətdən öz gəlirlərini çıxarmaq istəyirdilər. Katoliklərlə protestantların yaxınlaşması vaxt ötdükcə daha çox qeyri-mümkün olurdu. Vorms məclisindən keçən on bir il ərzində məsələ başqa xarakter almışdı, hər iki tərəf daha da sərtləşmişdi. Lyüteri öz ardıcılları zəiflikdə ittiham edirdilər. Digər tərəfdən katoliklər arasında qatı dindar partiya var idi ki, onlar nəinki protestantlarla barışmağa, heç daxili islahat aparılmasına da razı deyildilər. Avropanın böyük dövlətlərindən yalnız İspaniya Reformatsiyaya öz aydın münasibətini müəyyən etmişdi. Böyük ağıl və təhsil sahibi olan Karl əvvəlcə mülayim dini partiyanın başında durmaq istəyirdi.

Bu partiya protestantların ayrılma tələbini rədd etsə də, katolik partiyasının qatı inadkarlığına da yad idi. O, yeni, daha mülayim partiya yaratmaq istəyirdi, lakin belə niyyət nadir hallarda baş tutur. Ona görə də həm katoliklər, həm də protestantlar tərəfindən müqavimətlə qarşılaşırdı. İngiltərədə isə gənc kralın öz

şəxsi ehtiraslarına başı qarışdığından, Papa ilə ittifaqını pozdu. Bu təkcə onun şəhvəti, vurğunluğu məsələsi deyildi. VIII Henri protestantlarla katoliklər arasında orta yer tutmaq istəyirdi. I Frantsiskin dövründə Fransa Papalıqla ittifaqını kəsməmişdi, lakin ona zahiri ehtiram əlamətləri göstərməklə yanaşı, dövlət həm də protestantları əzizləyirdi, onlara dini deyil, daha çox siyasi partiya kimi yanaşırdı. Bu azmış kimi, Frantsisk xristian Avropasının ən qorxulu düşməni olan türk sultanı I Süleymanla birləşmişdi.

V Karl Kambre sülhündən sonra İtaliyaya gəlib bir neçə ili orada keçirdi. Özü haqqında danışıqlara bəhanə verməyən bu adam artıq siyasi müstəvidə bilavasitə çıxış etməyə başladı və ilk addımlarından özünü hiyləgər, bic və cəsarətli hökmdar kimi göstərdi. O, Papanın vəziyyətindən məharətlə istifadə etdi və kilsə başçısını italyan knyazlığından ayıra bildi. Katolitsizmin başçısına öz köməyini vəd etdi, Mediçilər sülaləsinin üzvü olan italyan knyazını o, Florensiyaya gətirdi. Papa ilə onun arasında qalxan bir məsələ Papanı çox çətin vəziyyətə saldı. Bu kral VIII Henrinin Katerina Araqonlunu boşaması məsələsi idi. Papa kralın bu barədəki tələbini yerinə yetirməyə hazır idi, çünki əvvəldən bilirdi ki, kral öz inadkarlığından əl çəkməyəcəkdir. Lakin V Karlın nüfuzuna görə o, güzəştə gedə bilmirdi. Karl Katerinanın qohumu idi və bu məsələyə təkcə ailə işi kimi deyil, həm də katolik dünyası üçün vacib olan bir iş kimi baxırdı. Ona görə də VII Klementin qətiyyətsizliyi dörd il ərzində davam etdi və 1534-cü ildə İngiltərənin katolitsizmdən tam ayrılması baş verdi.

V Karl katolikliyin əsaslarına protestantlığa görə daha böyük şöhrət vermək istəyirdi, çünki axırıncı cərəyan Avropa dövlətlərinin xeyrinə elə bir hünər göstərməmişdi. 15-ci əsrin sonunda Cənubi Avropa müsəlman dəniz quldurlarından çoxlu əziyyət çəkirdi. 16-cı əsrin əvvəllərində Afrikanın şimal sahillərində quldurlardan təşkil olunmuş müsəlman knyazlığı yarandı. Onlar xristianlardan qopardıqları qənimətlə, xüsusən qulları satmaqla ticarət aparırdılar. Şərq bazarları dəniz quldurlarının İspaniyadan, Cənubi Fransa və Cənubi İtaliya ərazilərindən yığdıqları çox sayda adamlarla dolu idi. Bu quldurların arasında barbar pirat Barbarossa daha məşhur idi. Onlar iki qardaş olmuşdular və Osmanlı imperiyasının dairəsində Əlcəzair və Tunisdə fəaliyyət göstərmişdilər. Böyük qardaş Aruc 1518-ci ildə ispanlarla döyüşdə həlak olduqdan sonra, ilk adı Xıdır olan digər qardaşı liderliyi ələ almışdı. Onlar ispan və Portuqaliya gəmilərinə hücum edir, türk və müsəlmanların Şimali Afrikaya immiqrasiyasına şərait yaradırdılar. İstanbulda sultana ehtiram göstərdiyinə görə artıq Xeyrəddin adına yiyələnmiş Xıdır ondan qoşun aldı və bəylərbəyi rütbəsinə layiq görüldü. O, Əlcəzairi işğal etdi, Osmanlı donanmasının admiralı oldu, Tunisi işğal etdikdən sonra oranı İtaliyaya qarşı öz quldurlarının bazasına çevirdi. Lakin Tunisi V Karla təhvil verməyə məcbur oldu və bunun əvəzini imperatorun donanmasını məğlub etməklə çıxdı. 1535-ci ildə Karlın öz silahını Tunisə qarşı qaldırması parlaq qələbə ilə başa çatmaqla yanaşı, imperatorun şəxsi igidliyinin nümayişi-

nə çevrildi. Tunisin azad edilməsi ilə yanaşı, 20 min nəfər xristian köləlikdən xilas oldu.

Oradan qayıtdıqdan sonra kral Fransa ilə yeni müharibə başlamağa hazırlaşdı. Bəhanə isə ondan ibarət idi ki, Frantsisk yenidən Milan hersoqluğuna öz iddiasını elan etdi, o, bu əraziyə hələ hökmranlığının əvvəlində sahib olmuşdu və Karlın əla hərəkətinin nəticəsində ərazi onun əlindən çıxmışdı. Karl hersoqluğu II Sfortsaya vermişdi, o da övladsız kimi ölmüşdü. Bu vaxt Frantsisk ondan Milanı tələb etdi. Karl buranı imperiyanın leni kimi saxlamaq istəyirdi. Mübarizə gözləniləndə Frantsisk türk sultanı ilə əlaqəyə girdi. Bu dövrdə türk qüdrəti ən yüksək inkişaf səviyyəsinə çatmışdı. *Yeniçerilər* ən yaxşı piyada qoşunu idi, türk süvari qoşunu da öz şöhrətini itirməmişdi. Taxt-tacda isə ən böyük türk sultanlarından biri oturmuşdu. Türkiyənin belə qüdrəti Avropanın o vaxtkı vəziyyəti üçün böyük əhəmiyyət kəsb edirdi. Süleyman Kanuni II Mehmet Fatehin ən istedadlı varislərindən biri idi. Lakin məhz onun dövründə türk qüdrətinin zəifləməsi başladı. *Yeniçerilər* onun dövründə nikaha girmək hüququ qazandılar və özlərinin əvvəlki fanatik xarakterini itirdilər. Onun vaxtında böyük vəzirlər daha böyük əhəmiyyət kəsb etməyə başladılar. Qoşunlara başçılıq etməmək məsələsində sultan özü birinci nümunə nümayiş etdirdi. Bütün bunlar gələcəkdə türk dövlətinin dağılmasına öz təsirini göstərdi. 1535-ci ildə onun təsiri güclü idi və Frantsiskin Türkiyə ilə ittifaqı Avropa üçün bədbəxtlikdən başqa bir şey deyildi.

Bir il sonra imperator Romada təntənəli surətdə Papanın və kardinalların iştirakı ilə xristianlığın düşməni kimi özünü göstərmiş və Türkiyə ilə birləşmiş Frantsiskə qarşı onu müharibəyə sövq edən səbəbləri açıb göstərdi. Elə həmin ilin yayında Karl Var çayını keçib Provansa girdi. O, özü ilə 16-cı əsrin ən güclü ordusunu aparırdı, ümidləri böyük idi, bütün Fransanı işğal edəcəyini güman edirdi. Frantsisk ona olan təhlükəni yaxşı başa düşürdü və dəhşətli vasitəyə əl atdı. Provans fransızların özü tərəfindən tamamilə qarət edildi, onun paytaxtı yandırıldı, tarlalar boş qaldı, bütün ehtiyatlar məhv edildi. İmperator ordusu bu çiçəklənən diyara qədəm qoyanda bol ərzaq tapacağını gözlədiyi halda, dəhşətli səhra ilə üzləşdi. Marsel şəhəri imperiya ordusuna ikinci dəfə müqavimət göstərdi. Bu vaxt fransız ordusu konnetabl Monmoransinin başçılığı altında Avinyon yaxınlığında möhkəmlənmiş düşərgədə dayanmışdı və Karl öz qoşununun çətin və bəhrəsiz hərəkətini müşahidə edirdi. Aclıq və xəstəliklər nəhayət Karlı geri çəkilməyə məcbur etdi. 25 sentyabr 1536-cı ildə o, öz ordusunu geri apardı, ordunun ancaq yarısı qalmışdı. Lakin müharibə iki il də davam etdi. Türklər Fransaya birbaşa kömək edirdilər. Türk donanması ilə Barbarossa Cənubi Fransada dayanmışdı və fransız eskadrası ilə birlikdə Cənubi İtaliya sahillərini qarət edirdi. Narazılıq güclü idi, hətta V Karlın düşmənləri də Frantsiskin siyasətindən utanırdılar. Lakin fransız dövlət xadimləri aparılan siyasətə öz hərəkətlərilə haqq qazandırmaq istəyirdilər. Bu mənada Venetsiyadakı fransız səfirinin

nitqi maraq doğurur. O, dövrdə öz ağlına və təhsilinə görə bu adam ən böyük rollardan birini oynayırdı. Onda Makiavellinin təsiri güclü idi: "Əgər mənə düşməni məhv etmək lazım olsa, mən nəinki türklərlə, hətta şeytanla da birləşərdim". Dörd əsr sonra uzun müddət düşməni hesab etdiyi Stalinlə ittifaqa girdiyinə görə onu məzəmmət edənlərə Uinston Çörçill də eynilə belə cavab vermişdi: "Mənim yalnız Hitleri məhv etmək niyyətim var idi və bunun vasitəsilə mənim həyatım çox sadələşmişdi. Əgər Hitler cəhənnəmə təcavüz etsəydi, mən ən azı icmalar palatasında hörmətlə Şeytana arxalanardım". Yuxarıdakı sözlərin müəllifi olan Monlyuk sonralar Frantsisk siyasətinin ehtiyatsız olduğunu görüb, bu dəfə onu qınamağa başladı.

1538-ci ildə Frantsisk Karlla Nittsada on illiyə atəşkəs bağladı. Bu atəşkəsə onu Türkiyə ilə özünün əlaqələrinə qarşı narazılıq məcbur etdi. Lakin bu dəfə də atəşkəs vaxtı Frantsisk ehtiyatsızlıq göstərdi. Bu vaxt o, Monmoransinin təsiri altında idi və sərkərdəsi onu inandırmışdı ki, Fransada protestant dinsizliyini yatırtmaq üçün imperatorla müharibə aparmaq daha faydalı olacaqdır. Müharibə həm də digər daxili problemləri həll etməyə kömək edərdi. Frantsisk isə Karlla barışdı, onunla şəxsən görüşdü və qızışıb ona öz əvvəlki müttəfiqləri - türk sultanının və alman protestant knyazlarının nə düşündüklərini açıb dedi. Sülh münasibətləri üç il davam etdi. Karl o qədər Frantsiskə etibar etdi ki, 1540-cı ilin əvvəlində Fransadan keçərək Niderlanda getdi. Onun bu hərəkəti bütün Avropanı təəccübləndirdi. Frantsiskin saray təlxəyi Tribule bu hərəkətinə görə imperatoru bütün Avropa səfehlərinin başında qoydu. Karl ondan soruşanda ki, "Əgər mən dəqiq olaraq təhlükəsiz keçsəm necə?" - təlxək buna belə cavab vermişdi: "Onda mən sizin adınızı kralınkı ilə əvəz edəcəyəm". Lakin Frantsisk o qədər də alicənab deyildi və Karl Parisdə olanda buna şirniklənə bilərdi. Karl isə işi yaxşı anlayırdı. O, tezliklə Niderlanda yola düşdü, qayıdanda isə başqa yolla getdi.

Parisdə yaşayanda Karl sözdə vəd etdi ki, Milanı Frantsiskin ikinci oğlu olan Orlean hersoquna verəcəkdir, lakin geri qayıdanda öz oğlu Filippə verdi. Buradan da narazılıq başlandı. 1541-ci ildə Karl Əlcəzairə qarşı Afrikaya ikinci yürüş etdi. Əlcəzair dəniz quldurlarının başlıca yuvası idi, Barbarossa da öz gəmiləri ilə məhz oradan çıxırdı. Lakin ekspedisiya uğursuz oldu, gəmiləri tufan tərəfindən məhv edildi və səpələndi, qoşunları məğlub oldu. Bütün Avropa üçün kədərli olan bu hadisə münasibətilə Frantsisk öz sevincini açıq şəkildə göstərməkdən utanmırdı. Ümumiyyətlə, hər iki hökmdar biri digəri haqqında fikir söyləməkdə heç bir hədd gözləmirdilər. Özü də onlar tez-tez görüşürdülər. Frantsisk hətta Karlı dofini zəhərləməkdə ittiham etmişdi. Karl da öz növbəsində ona borclu qalmadı. 1542-ci ildə yenə onların arasında müharibə başlandı. Bu dəfə formal olaraq haqq Frantsiskin tərəfində idi. Türk sarayındakı fransız səfiri öz ölkəsinə məlumatla geri dönəndə, Milan hökmdarının göstərişi ilə öldürülüb qarət edildi. Makiavelli təlimi siyasi adətlərdə öz kökünü belə dərinə

buraxmışdı. Frantsisk V Karla müharibə elan etdi. Bu vaxta qədər Frantsiskə kömək edən alman protestantları bu dəfə ona köməklik göstərməkdən imtina etdilər. Nittsa atəşkəsi bağlananda onlar onun məkrli açıq hərəkətini xatırlayırdılar. Frantsisk beş ordu çıxardı. Barbarossa yenidən Cənubi Fransa sahillərinə gəlib Tulonda dayandı, burada məscid tikdirdi, İtaliyada və İspaniyada isə tutulmuş xristianları bazarda satırdı.

Qarışıqlığın sonunda VIII Henri də Karlla birləşdi. Müharibə 1543-cü ildə sönük gedirdi, sonrakı ili isə həlledici dövr etməyə keçdi. Pyemontdan başqa bütün hər yerdə fransızlar məğlub oldular. Henri Bulonu mühasirəyə almışdı. Karl Fransanın özünə girmişdi və bir neçə şəhəri tutmuşdu. O, artıq Parisdən 48 saatlıq məsafədə idi. Fransa yalnız ona görə Frantsiskin əlində qalırdı ki, Henri Bulonun mühasirəsində ləngidi və bu gecikməyə görə Karl geri çəkilməyə məcbur oldu. Frantsisk Karlla axırıncı sülh müqaviləsi bağlamağa məcbur oldu, italyan torpaqlarına və Burqundiyadakı öz torpaqlarına iddiadan əl çəkdi. Müqavilənin bir maddəsinə görə kralın ikinci oğlu Orlean hersoqu Karlın qızına evləndi. Karl ona cehiz kimi Milan hersoqluğunu verməyi vəd etdi. Lakin tezliklə onun ölümü bu şərti də əhəmiyyətsiz etdi. Fransanın İtaliyaya sahib olmaq barədəki yarım əsrlik cəhdləri belə başa çatdı. Fransa öz qüvvələrinə heç nə əlavə edə bilmədi, lakin bu müharibələr digər, ali əhəmiyyətə malik idi.

# FƏSİL 10
# ALMANİYANIN DAXİLİ SARSINTILARI

Müqəddəs Roma imperatoru ilə Fransa kralı arasındakı Nyürnberq sülhü hər iki tərəfin açıq və aydın düşmənçiliyinə son qoydu. Lakin bu sülh o qədər də möhkəm deyildi. Sonrakı 1533-cü ildə qovulmuş Vyurtemberq hersoqunun öz hersoqluğuna qayıtması səbəbindən Almaniya daxili müharibələrə cəlb olundu, hələ Reformatsiyanın əvvəlində, dəqiq deyildikdə, 1519-cu ildə hersoq Uilrix Vyurtemberqli öz əli ilə rıtsar Hutteni öz arvadının həyatına təhlükə törətdiyinə görə öldürmüşdü. Buna görə üsyan qaldırmış təbəələri və Şvabiya ittifaqının üzvləri tərəfindən o, öz hersoqluğundan qovulmuşdu. Sonra o, yeni təlimlə tanış olub onu qəbul etmişdi. Lakin yeni təlim təkcə katoliklərdə qorxu yaratmırdı. Onu savadsız adamlar isə təhrif edirdilər. Belə icmalardan biri anabaptistlər idi, onların gümanına görə insanın ağlının və iradəsinin iştirakı olmadan uşaqlıq dövründəki xaç suyuna çəkilmə düzgün deyildir. Onları təkcə katoliklər deyil, həmçinin lyüteranlar və İsveçrə reformatorları da təqib edirdilər. Münster əvvəllər ciddi katolik şəhəri idi və yepiskop buraya protestant moizəçilərinin daxil olmasına icazə verməli oldu. Onlarla birlikdə hərəkatın başında dayanan daha cəsarətli adamlar: İoann Mattis və İoann Bokhold buraya gəldilər, axırıncı Leydendən olan dərzi idi və bir az şair istedadına da malik idi. Lakin onun savadı yox idi. Onlar çoxarvadlılığı təbliğ edirdilər və Köhnə Vəsiyyətin bəzi mətnlərinin səhv başa düşülməsi ilə bunu əsaslandırırdılar. Onlar həmçinin xüsusi mülkiyyətin ləğv edilməsini və Yeni İsrail çarlığının bərpa edilməsini moizə edirdilər. Onlar peyğəmbərlər seçib, onları moizə üçün Almaniyanın hər tərəfinə göndərirdilər. Onlar Münsterdə protestantlığı təsdiq etməkdən daha çox, digər məqsədlər güdürdülər. Hərəkata Münster vətəndaşları deyil, Niderlanddan çıxmış gəlmələr kütləsi başçılıq edirdi. Belə vəziyyət diqqəti özünə cəlb etməyə bilməzdi.

Münster yepiskopu, Köln kurfyurstu Hessen qoşunları ilə şəhərə yaxınlaşdılar. Lakin şəhərdə yaxşı ehtiyat var idi, sakinlər təslim olmağı düşünmürdülər və fövqəltəbii qüvvənin köməyinə ümid edirdilər. Mattis öldürüldükdən sonra onun yerini İoann Leydenli tutdu. Bu vaxt qəribə hadisə üzə çıxdı: Bokhold yeni İsrail çarı titulunu qəbul etdi, 12 apostol təyin etdi, əlini kimə toxundursa, guya ona peyğəmbərlik qabiliyyəti verirdi. Hər gün o, Münsterin meydanında Davidin taxtında oturub kasıb vətəndaşları mühakimə edirdi. Bir nəfər güman ki, qaniçiciliyinə görə burqomistr təyin edilmişdi, o, həm də İsrail çarının birinci naziri idi. Həm də onun yanında cəllad rolunu oynayırdı. Edamlar hər gün icra edilirdi, onlar həm də dəhşətli orgiyalarla müşayiət olunurdu. Yeni İsrail çarı-

nın nəhəng hərəmxanası var idi, sədaqətsiz arvadlarını ölümlə cəzalandırırdı, onların əməli dinə zidd olan cinayət hesab olunurdu.

Anabaptistlərin təlimi Reyn ətrafı kəndlərə də daxil olub təşviş yaratmışdı. Bu ona qarşı bütün cəhdləri tətbiq etməyi tələb edirdi. İoann Leydenli tutulub dəhşətli edama məruz qaldı. Münsterdə Reformatsiyanın izləri də məhv edildi və şəhər uzun müddətə katolik məskəni olaraq qaldı. Lakin anabaptistlərin səpələnmiş qalıqları sakitcə öz hərəkatlarını davam etdirdilər. Bir qədər sonra ondan dünyəvi cəmiyyətə aid olanlar təmizlənməklə siyasi qarışıqlar yeni forma aldı və bundan mennonitlər sektası yarandı.

Bu təmayüllər lyüteranizmin düzgün inkişafına mane ola bilmədi. Yeni təlimə hansısa bir kanonik kitab vermək lazım idi ki, ardıcılları ona əsaslana bilsinlər. Auqsburq qərarları əsasında onların təliminin simvolik kitabı tərtib edildi. Katolik doqmatlarına hücum edən protestantların özü də öz təliminin doqmatları çərçivəsinə salındı. Papa III Pavel nəhayət kilsənin ixtilaflarını kəsmək üçün ümumdünya məclisi toplamağı qərara aldı. Bu niyyəti ifadə edən aktda o, protestantların ünvanına təhqiredici hədələr göndərdi, sənəddə deyilirdi ki, məclis "yaranmış küfrü məhv etmək" üçün çağırılır. Ona cavab kimi Lyüter qəti etirazını bildirdi və protestantizmlə katolitsizmin birləşməsinin şərtlərini irəli sürdü. Lakin bu şərtləri qəbul etmək mümkün deyildi, onlar qəbul olunsa katolitsizm öz-özündən imtina etməli və öz əhəmiyyətini itirməli idi. Artıq protestant və katolik knyazlar da bir-birilərinə etibar etmirdilər. Belə görünürdü ki, hərəkat protestantizmin xeyrinə başa çatır. İmperiya şəhərləri, kurfyurstlar bir-birinin ardınca protestantizmə keçirdilər. Beləliklə, 1544-cü və 1545-ci illərdə Reformatsiya daim irəli gedirdi, artıq siyasi əhəmiyyət də qazanırdı. Nikah və torpaq irsi də şirnikləndirici vasitə rolunu oynayırdı. Hətta eyni vaxtda iki arvad alanlar da var idi. İki partiyanın qarşılıqlı güzəştlərə getmək cəhdi də uğursuzluğa uğradı. İmperator V Karl həmin şəraitdə məclisin çağırılmasının heç bir fayda vəd etmədiyini görüb Niderlandda, Tirolda və İtaliyada qoşunlarını hazırladı. Papa bu səlib yürüşü üçün ona böyük məbləğdə maliyyə yardımı etdi. 1546-cı ilə qədər müharibə başlanmamışdı və həmin ili onun başlanğıcını görmədən Lyüter öldü. Lyüter bəşəriyyətin tarixinə Qərb kilsəsinin birliyini dağıtmaqla böyük təsir göstərdi və buna müvafiq də şöhrət qazandı.

Lyüterə təkcə katoliklər tərəfindən ciddi ittihamlar yağdırılmırdı, yeni təlimin ardıcılları arasında da onun qızğın əleyhdarları var idi. Onu ardıcıl olmamaqda günahlandırırdılar. Doğrudan da o, öz fəaliyyətini doqmat sferası ilə məhdudlaşdırırdı. Bütün bu tənqidlərə baxmayaraq, Lyüter katolik Avropasının böyük birliyini parçaladı. Lyüterdən isə bütün ümidlərin həyata keçirilməsini gözləyirdilər. Onun islahatı sonralar elə təsirə malik oldu ki, Lyüter nəticələrini əvvəlcədən bilsəydi, yəqin ki, onlardan imtina edərdi. Lakin bu onun islahatının əhəmiyyətini heç də azalda bilməz.

Nəhayət, sülh Karlın əl-qolunu açdığından o, kilsə işlərinə daha çox diqqət verməyə başladı. 1545-ci ilin sonunda Tridentdə məclis açıldı. Bundan əlavə imperator Almaniyadakı protestant məsələsini silahlı yolla həll etməyə hazırlaşırdı. İsveçrə katolik kantonlarına onun göndərdiyi məktub ələ düşdükdə, onun niyyətləri ifşa olundu.

Bu vaxt alman protestantları mübarizəyə hazırlaşdılar və knyazlar öz etirazlarını bildirdilər. İmperator da artıq öz niyyətlərini gizlətmirdi. Üstünlük protestant knyazların tərəfində idi, onların qüvvələri Karlınkından çox idi, hətta onu Almaniyaya buraxmaya da bilərdilər, çünki Tirola keçid onların əlində idi. Lakin protestantların ittifaqında razılıq yox idi, hər kəs bir təklif irəli sürürdü və onlara razılıq verilmirdi. Karl özü Tirolda idi. Papanın göndərdiyi 10 min italyan döyüşçüsü ona yaxınlaşırdı. Niderlanddan qoşunlar gəldi və hərbi əməliyyatlar başlandı. Əvvəlcə üstünlük protestantların tərəfində idi, lakin vaxt itirildikdə imperator Şvabiyaya daxil oldu. Protestant qüvvələrini Karl bir-birindən ayrı sala bildi. Böyük ümidlər bəslənən Morits Saksonlu imperatora hücum etmək əvəzinə məhz onun adından öz qohumu olan İoann Fridrix Saksonlunun torpaqlarını tutdu və özünün Karlın tərəfində olduğunu elan etdi. Fridrix öz torpaqlarına tələsməli oldu. Muzdlu döyüşçülər tezliklə qaçıb dağılışdılar, qorxmuş şəhərlər öz drujinalarını geri çağırdı.

Karl Qərbi və Cənubi Almaniyanın tabe etdirilməsinə başladı. O, tez və qətiyyətli hərəkət edirdi. Şəhərlər bir-birinin ardınca təslim olurdu. Beləliklə Almaniyanın qərbi və cənubu Karlın hakimiyyəti altına keçdi. Lakin Şimali Almaniya Karla elə bir ümid vermirdi, şəhərlər burada qızğın müdafiəyə hazırlaşırdı. Karl da vaxtı itirməyib 1547-ci ilin yazında Elbaya gəldi. Onun qoşunlarına o dövrdə görkəmli sərkərdələrdən biri sayılan hersoq Alba komandanlıq edirdi. Saksonlar demək olar ki, döyüşsüz qaçıb dağıldılar. Kurfyurst İoann Fridrixin özü isə yaralandı və əsir götürüldü. Bu uğursuzluq protestantların müqavimətini zəiflətsə də, sarsıda bilmədi. Karl kurfyurst İoann Fridrixdən Trident məclisinin hakimiyyətini və qərarını qəbul etməyi tələb edəndə, kurfyurstluğu başqasına - Moritsə verməyə əvvəlcə razılıq verdiyi halda, o, bunu qəti surətdə rədd etdi. Ona görə onu ömürlük zindana saldılar, torpaqları isə Moritsə verildi.

Özünü sərbəst aparmaq istəyənlərin hamısı imperator tərəfindən cəzalandırılırdı. Landqraf Filipp Hessenli Moritsin vasitəçiliyi ilə bəd işlərdən qaçmaq üçün imperatorun yanına gəldi və diz üstə ondan bağışlanmasını xahiş etdi. Lakin o, daim gülümsünürdü və Karl bu təbəssümü görəndə demişdi: "Gülməyi mən ona tərgidərəm". Həmin axşamı hersoq Albanın yanında nahar edən Landqraf həbs edildi. Filipp Niderlanda göndərildi və orada ciddi şəraitdə saxlandı. Morits Saksonlu öz satqınlığının bəhrələrini dadmalı oldu. Karl Almaniya ilə ispan əyaləti kimi davranırdı. Buraya çox sayda ispan və italyan qoşunları gətir-

mişdi, alman şəhərlərindən böyük məbləğdə pul yığırdı.

Karl heç vaxt belə qüdrətli olmamışdı və bu Papada qorxu yaratmaya bilməzdi. Papa protestantlar üzərindəki qəti qələbədən kədərlənmişdi, indi ona daha qorxulu olan imperatorun üstünlüyü təhlükə törədirdi. Ona görə də o, öz qoşunlarını geri çağırdı və Karla pul verməyini kəsdi. Papanın çağırdığı məclis imperatorun müdaxiləsi hesabına parçalandı. Avropanın gözləri qarşısında qəribə mənzərə yaranmışdı. Protestantlar üzərində zəfər çalan imperator və bu zəfərdən narazı qalan Papa. Karl mülayim orta partiyanı yaratmaq istəyirdi ki, onunla Papadan və reformatorlardan yuxarıda dayana bilsin. Onun göstərişi ilə hər iki tərəfdən yığılan ilahiyyatçılar Auqsburq *interiminin* qərarını tərtib etdilər, bu sənədə görə Papanın hakimiyyəti xeyli məhdudlaşdırılırdı, ruhanilərə nikaha girməyə icazə verilirdi, dünyəvi adamlar üçün ölümdən əvvəlki tövbə hər iki növə aid edilirdi. Yepiskoplar öz hakimiyyətlərini saxladılar və bütün katolik ibadətləri icra ediləcəkdi. İmperator isə bütün kilsənin başçısı olurdu.

Papa bu seymin qərarlarından imtina etdi. Bavariya hersoqu və digər ciddi katolik hersoqlar da onun müddəalarını qəbul etmədilər. Bu sənəd protestantları da hiddətləndirdi. Şimali Almaniyanın çox yerində onlar qəbul edilmədi. Karl Almaniyanın müqavimətinə ən möhkəm dayanan Maqdeburq şəhərini tutmaqla son qoymaq istədi. Artıq Morits də imperatorun gizli əleyhdarlarına çevrilmişdi, lakin hələ onu aldada bilirdi. Karl isə hər şeydə ona etibar edirdi və demişdi: "Alman ispanı ya italyanı necə aldada bilər". Lakin əslində alman onları aldadırdı. Karl isə onun xəyanəti barədəki şayiələrə inanmırdı. Morits Maqdeburqun mühasirəsini davam etdirsə də, məqsədli qaydada onu uzadırdı. Protestantların axırıncı dayağı olan bu şəhəri o, götürmək istəmirdi. Ona protestant hərəkatının digər başçıları ilə əlaqəyə girmək lazım idi ki, qoşunlar bir yerdə birləşsinlər. 1552-ci ilin yazında o, bu niyyətlərin icrasına başladı. Almaniyadakı qüvvələrin az olduğunu görüb onlar Fransa ilə əlaqəyə girdilər. Frantsiskin oğlu kral II Henrix onlara kömək vəd etdi.

Morits apreldə Maqdeburqun mühasirəsini götürüb 25 minlik qoşunla Cənubi Almaniyaya cumdu və burada öz müttəfiqləri ilə birləşəndə onların ordusunda artıq 50 min döyüşçü var idi. Müqavimət göstərmək üçün Karlın belə qüvvəsi yox idi. Əgər landsknextlərin buntu olmasaydı, Karl əsir götürülə bilərdi. İmperator İnsbrukda (Avstriya) xəstə idi və onu xərəkdə şəhərdən çıxardılar. Bu zərbə ilə onun bütün ümidləri məhv oldu, onun yürüşünün bütün nəticələri əldən çıxdı. İmperator sağalmayan yara aldı. O, əvvəllər də hipoxondriyadan - ağır xəstəliklə sirayətlənmək qorxusundan əziyyət çəkirdi, bu vaxt isə həmin ruhi qaydasızlıq onda güclü dərəcədə inkişaf etdi. O, bütün günü qara mahud çəkilmiş otaqda məşəl işığında tək keçirir, saatlarla dua edir, ona daxil olan məruzələrə narazı qaydada dərkənar qoyurdu. Moritslə sülhə o, heç cür razılaşmırdı, bunda o, imperator ləyaqətinin tam alçaldılmasını görürdü, lakin müqavimət

göstərmək üçün də vəsait yox idi. Öz qardaşı Ferdinand da israrlı şəkildə sülh tələb edirdi, təkidini isə onunla əsaslandırırdı ki, Almaniya bu qaydada bölünsə, türklərə qarşı öz torpaqlarımızı da müdafiə edə bilməyəcəyik. Morits öz ordusunu buraxmağı vəd etdi, bu şərtlə ki, onun muzdluları fransız kralının xidmətinə keçməsin, lakin Moritsin əvvəlki xətaları cəzasız qalmadı. O, artıq özünə etibar qazana bilmirdi, ömrü boyu katoliklər və protestantlar arasında şübhə və nifrət obyekti olaraq qaldı.

Fransız kralı II Henrix öz vədinə əməl edib Karla qarşı çıxış etdi və Kambreni, Metsi və Verdeni tutdu. Bu Almaniya üçün mühüm əhəmiyyət kəsb edirdi, coğrafi şəraitinə görə fransız və imperator torpaqlarının arasında idi. II Henri öz vətənində də protestantları, onların dininə görə deyil, siyasi təhlükə törətdiklərinə görə təqib edirdi. Karl mənəvi fəsadına və fiziki xəstəliyinə baxmayaraq, 1552-ci ildə fransızlara qarşı yürüşə başladı. Metsin mühasirəsi başlandı. Şəhər qarnizonuna sonralar məşhurlaşan Frantsisk Qiz başçılıq edirdi. İmperator ordusu çoxlu itki verdi. Ordu hücuma getməkdən imtina etdi. Təhqir olunmuş imperator demişdi: "Avropada artıq kişi qalmamışdır, nəsil cırlaşmışdır". Həqiqətən də o, bütün öz tərəfdarlarına olduqca qatı şübhə ilə baxırdı. Hətta protestant knyazlarının daxili ixtilafları onu yenidən hərəkət etməyə ruhlandırmadı. 1552-ci ildə Almaniyanın başında imperator deyil, Morits dayanmışdı. O, Almaniyanın protestant kralı olmağı düşünürdü. Lakin Morits 32 yaşında aldığı yaradan öldü və özü ilə böyük planlarını apardı. O, Auqsburq sülhünün bağlanmasını gözləyə bilmədi, bu sənəd protestantlarla katoliklər arasındakı ədavəti qapadı. İmperator danışıqlarda iştirak etmirdi, onu başlıca olaraq Ferdinand əvəz edirdi. Papa leqatının etirazına baxmayaraq, knyazlar məclisin qərarını gözləmədən sülh bağlamağı qərara aldılar. Ən ciddi məsələ knyazın razılığı olmadan təbəələrin dinini dəyişmək hüququ idi.

Katolik keşişi protestantlığa keçəndə öz torpaqlarını itirdi. Lakin bu geri dönmə hüququna malik deyildi. Təbəələrə gəldikdə, Auqsburq seyminə qədər digər inama yiyələnənin torpaqlarında yaşayanlar orada yaşamaq hüququnu saxlayırdılar. Lakin protestant knyazının təbəələri katolitsizmə keçəndə onun torpağını tərk etməli idi. Beləliklə din azadlığından yalnız knyazlar istifadə edə bilirdilər, təbəələr üçün isə məhdud hüquqlar mövcud idi. Bütün bunlarla yanaşı sülh sevinclə qarşılandı, çünki qarışıqlıqlara son qoyurdu.

Elə həmin 1555-ci ildə imperator V Karl öz tacından əl çəkdi. Brüsseldə təntənəli mərasim keçirildi. Karl elan etdi ki, Niderlandı və İspaniyanı öz oğlu Filippə verir. İmperator titulunu da oğluna vermək istəyirdi, lakin buna Filipp Almaniyada olarkən onun münasibətindən narazı qalan alman knyazları və Ferdinand müqavimət göstərdilər. Alman knyazları üçün o, həmişəlik əcnəbi olaraq qaldı. İmperator titulu Ferdinanda keçdi. Beləliklə, Habsburq evi iki böyük xəttə bölündü: ispan xəttinə, onun başında Filipp dururdu və Avstriya xəttinə

Filippə İspaniya, Niderland, italyan torpaqları və Yeni Dünyadakı ərazilər, Ferdinanda isə Avstriya evinin nəsil torpaqları düşdü. Karl İspaniyaya yollandı, Papa onun xəbəri olmadan imperatorun öz vəzifələrindən imtina etməsindən özünü təhqir olunmuş hesab edirdi. İmperator ömrünün qalan hissəsini Estramaduradakı Müqəddəs Yust monastırında keçirdi. Onun əqli qabiliyyəti zədələnmişdi, o, əmr etdi ki, sağlığında onun dəfn mərasimini keçirsinlər və özü öz dəfn mərasimində dualar oxudu. Oğlu da onunla həmişə ehtiramla davranmırdı. V Karl 58 yaşında öldü. O, böyük ağıl və istedad adamı olmaqla yanaşı, öz böyük şöhrətinin müəyyən hissəsinə görə yaşadığı və fəaliyyət göstərdiyi şəraitlərə borclu idi. Lakin Almaniya üçün onu dostcasına yada salmağa məcbur edən heç nə qoyub getməmişdi, almanlar üçün o, yadelli olaraq qalmışdı.

# FƏSİL 11
# FRANSADA REFORMATSİYA HƏRƏKATI

Reformatsiya təkcə Almaniyadakıların deyil, bütün Avropadakı zəkaların hərəkətinin nəticəsi idi. Bu hərəkət Fransada da gedirdi, dəyişiklik tələbləri orada da eşidilirdi. Paris universiteti 16-cı əsrin əvvəlindəki iki böyük məclisin keçirilməsini tələb etmişdi. Lakin islahat ideyaları burada Almaniyada olduğuna nisbətən zəif idi. Almaniyada dini islahat məsələsi milli məsələ ilə əlaqədar idi, dözülməz latın zülmünün bilavasitə devrilməsi ilə əlaqədar idi. Fransada isə bu mümkün deyildi, fransızlarla italyanlar arasında elə ziddiyyət yox idi. Roman tayfaları bir yerə gəlib öz aralarında sövdələşə bilərdilər. Məhz buna görə də 16-cı əsrin əvvəlində Reformatsiya az sayda olan xalqlar tərəfindən qəbul edildi. Sonra isə o siyasi məsələ xarakteri aldı. Frantsisk əvvəlcə öz ölkəsində Reformatsiyaya laqeydliklə yanaşırdı. Bu hərəkatın tərəfdarları əsasən alimlər, ziyansız adamlar idilər. Lakin tezliklə o, protestantlardan qorxmağa başladı.

1540-cı ildə Fransada dəhşətli hadisələr baş verdi. Provansın valisi 22 kəndi yandırdı və sakinləri qırdı. Hətta daha maarifpərəst katoliklər də bu barbar əmələ narazılıqlarını bildirdilər. Frantsisk bu hadisədə iştirak etməsə də, ona mane də olmamışdı. Onun dövründə artıq bir neçə protestant edam edilmişdi, digərləri isə qaçmağa məcbur olmuşdu. Onun oğlu II Henrinin dövründə edamlar çoxaldı. Fransa onun tələblərinə Lyüterdən daha çox uyğun gələn reformatoru gözləyirdi. Bu adam Kalvin oldu. O, 16-cı əsrin əvvəlində, 1509-cu ildə Pikardiyada anadan olmuşdu. Buradan tarixdə mühüm rol oynayan çoxlu adamlar çıxmışdı. Buradan birinci Fransa İnqilabının iştirakçıları olan montanyarların liderləri çıxacaqdı. Ümumiyyətlə, 1789-cu il Fransa inqilabının iştirakçıları ilə Kalvin arasında oxşar cəhətlər çox idi.

Kalvin ali təhsili Parisdə və sonra isə Orleanda almışdı. Hüquq və ilahiyyat barədə mühazirələri dinləmişdi. 20 yaşında Parisdəki cəsarətli moizələri ilə yeni təlimi təbliğ edirdi. Katolitsizmə qarşı nitqi tərtib etməkdə şübhəli bilindiyinə görə Parisdən qaçmalı oldu və İtaliyaya getdi. Burada kral I Frantsiskin bacısı ona köməklik göstərdi. 1535-ci ildə İsveçrədə özünün ilk məşhur "Xristian inamında nəsihətlər"ini çap etdirdi və burada öz təlimini qısaca ifadə etdi. O, protestantlara haqq qazandıraraq deyir ki, onlar yalnız kilsənin təmizliyini bərpa etmək istəyirlər. Burada özünün sərt təlimini irəli sürür. Əvvəldən Allah insan nəslini iki hissəyə bölmüşdür: biri əbədi xoşbəxtliyə, digəri isə əbədi əzablara qovuşmalıdır. Heç bir cəhd insanı bu qismətdən qurtara bilməz, ilk günah ucbatından insanın azadlığı pozulmuşdur. Belə yanaşma, heç şübhəsiz, özünə və bəşəriyyətə hər cür inamı öldürür. Məntiq nöqteyi-nəzərindən bu əsər Lyüterin və digər reformatorların əsərlərindən çox üstün idi. Bir qədər sonra o, yunan dilini tədris etmək üçün Cenevrəyə dəvət olundu və burada məhsuldar fəaliyyət mühiti tapdı. İmperiya şəhəri olmaqla Cenevrə reformator təliminin uğu-

ru üçün hər şeyi hazırlamışdı. Şəhər yepiskopun hakimiyyəti altında idi, Savoy hersoqları ilə mübarizə aparırdı. 16-cı əsrin əvvəlində bu mübarizə daha qızğın xarakter aldı. Şəhərdə əxlaq xeyli aşağı düşmüşdü, yepiskopun hakimiyyəti inkar edilirdi, ümumiyyətlə dini və dünyəvi hakimiyyət arasında düşmənçilik güclənirdi.

Gənc yaşlarında olan Kalvin öz təliminin ciddi xarakteri və şəxsiyyətinin yenilməzliyi ilə hamını heyrətləndirirdi. O, əxlaqın düzəldilməsini, ciddi həyat tərzinə keçilməsini tələb edirdi. Ən adi, günahsız həzzlərə belə qadağa qoyurdu. Cenevrəlilər bu sərtliyə dözə bilmirdilər. Üç ildən sonra yenidən Strasburqdan buraya qayıdan Kalvin artıq şəhərin daimi başçısı oldu. Reforma işlərində Cənubi-Qərbi Avropa üçün Cenevrə Almaniyanın Vittenberqi kimi oldu. Fransada Kalvini reformator papası adlandırırdılar. Cavanlığında nə vaxtsa o, klassik əsərlərin təsiri altında yazdığı *"De clementia"* - "Mərhəmət" adlı kitabda ümumi dözümlülüyü təbliğ edirdi. Cenevrədə isə onun fəaliyyəti fərqli, tam sərt xarakter almışdı. O, vətəndaşların əxlaqına nəzarət etmək üçün protestant pastorlarından konsistorium yaratmışdı. Bu institutun müxtəlif cəzalar tətbiq etmək hüququ var idi. Lakin bu cəzalar da Kalvinin başçılıq etdiyi mühakimələri qane etmirdi. 1547-ci ildə protestantlar katoliklərə dəhşətli nümunə göstərdilər. Jan Qryuye küfr rəyinə və Kalvin barədə pis danışdığına görə edam edilmişdi. Altı il sonra başqa bir biabırçı hadisə baş verdi. Bir ispan həkimi ilahiyyat əsərlərini çap etdirdiyinə görə edam edildi. Bəlkə də katolitsizm nöqteyi-nəzərindən Kalvinin əməlinə haqq qazandırmaq olardı, lakin protestant nöqteyi-nəzərinə görə belə şey olmamalı idi. İspan həkim Almaniyaya gedərkən yolüstü Cenevrədə dayananda onu tutmuş, mühakimə etmiş və tonqalda yandırılmağa məhkum etmişdilər və o, yandırılmışdı. Bu cinayətin günahkarı Kalvin idi. 1564-cü ilə qədər Kalvin Cenevrədə qeyri-məhdud ağalıq etdi. O, şəhəri də idarə edirdi. Onun nüfuzu əsasən xarakterinin əxlaqi gücünə əsaslanırdı, o, digərlərinə sərt həyat tərzi nümunəsi göstərirdi, bu ona inam və hörmət yaradırdı.

Kalvinin təlimi Fransada geniş yayılırdı, onun əsərlərinin fransız dilində yazılması buna kömək edirdi. Bu əsərlər quru və sərt məntiqə əsaslanaraq yazılmışdı. Bu təlim görünməmiş sürətlə yayılırdı. Fransadan sonra Şotlandiyaya keçdi, oradan isə İngiltərəyə keçməyə cəhd etdi. Almaniyada isə kalvinizm qərb vilayətlərinə keçdi. Nəhayət, bu təlim Brandenburqda qəbul olundu. Kalvin Lyüterdən uzağa getdi, o, təkcə kilsənin təlimi ilə kifayətlənmədi, mülki münasibətlərə də qəsd etdi. Kilsənin idarəçiliyinin presviterlərin məclisinə həvalə etdi, onlar ruhanilərin böyükləri idi. 16-cı əsrin sonunda Kalvinin əsasını qoyduğu presviterian kilsəsi böyük rol oynadı və onun tərəfdarlarının çoxu da baninin özü kimi ruhun sərtliyi ilə fərqlənirdi. Saksoniyada lyüteranlarla kalvinistlər arasında qızğın mübarizə gedirdi. 16-cı əsrin əvvəlində Reformatsiya təliminə qərb xalqlarının bəslədiyi ümidlər əsrin sonunda özünü doğrultmadı, birlik pozuldu. Avropa qəribə bir qıcqırma mərhələsinə daxil oldu və bu, uzun müddət davam etdi.

# FƏSİL 12
# İNGİLTƏRƏDƏ CƏRƏYAN EDƏN HADİSƏLƏR

Kral VII Henri təkcə daxili siyasəti ilə deyil, həm də Avropa dövlətləri ilə xoş münasibətlər yaratmaq qayğısına qalırdı ki, İngiltərəni yeni müharibələrdən kənarda saxlasın. Çətin qonşu olan Şotlandiya ilə münasibətləri mümkün qədər yoluna qoymaq vacib idi. Şotland kralı IV Ceyms tam ölçüdə müharibə aparmağa şirniklənirdi. 1497-ci və 1498-ci illərdə təkrar olunan sərhəd vuruşundan sonra o, barışığa getməli oldu və bu addım 15 il ərzində sülhü təmin etdi. O, VII Henrinin qızı Marqaretlə evlənməyə razılıq verdi. Bu özlüyündə qonşu əlaqələrinin simvolu kimi mühüm əhəmiyyət kəsb edirdi, gələcək üçün bir əlamət rolunu oynayırdı. Çünki düz bir əsr sonra Ceymsin və Marqaretin böyük nəvəsi I Ceyms ingilis taxt-tacının sahibi olmaqla, Tüdor sülaləsinin Styuart sülaləsi ilə əvəz edilməsinə yol açdı, bir şəxsin iki məmləkəti birliyin içərisinə daxil etməsinə gətirib çıxardı. Bu birləşmə imkanı doğumlar, ölümlər və nikahlar şansları ilə bəzən yaxınlaşır, bəzən uzaqlaşırdı. Bu, punktirlə yanaşı, Şotlandiyaya qarşı ingilislərin münasibətində bir sabit amil timsalı olaraq qalırdı.

VII Henri digər nikah məsələsini də uğurla həll etdi, lakin tale onun bəhrə verən olmasını təmin etmədi. Bu nikah Uels printsi Artur ilə İspaniyanın birləşmiş hökmdarları - Araqon kralı Ferdinandın və Kastiliya kraliçası İzabellanın gənc qızı olan Katerina arasındakı izdivac idi. İspaniyanın mənafeləri bir sıra səbəblərə görə ingilislərinkindən fərqli və uzaq idi. Lakin həmin hadisə ilə VII Henri nikah alyansları vasitəsilə öz sülaləsini gücləndirirdi. İspaniya ilə əldə edilən bu yaxınlıq isə başqalarından daha faydalı ola bilərdi. Avropadakı nikah şəbəkəsi İngiltərəni qitənin həyati mənafeyinə yaxınlaşdırmağa başladı.

1481-ci ildə imperator Maksimilianın və Mariya Burqundiyalının körpə oğlu, Avstriya ershersoqu Filipp anasının sərvətinin və Niderlanddakı idarə olunmayan əyalətlərin irs varisi olmuşdu. 1496-cı ildə Filipp Ferdinandın və İzabellanın ruhi cəhətdən sabit vəziyyətdə qalmayan qızı İoannaya evləndi. Bu Habsburq nikah alyanslarının daha böyük imkanlarla mayalanan nəticələrinə səbəb oldu. İmperiya və Niderlandın İspaniya ilə birliyi meydana gəldi. Əgər İspaniya bu şəbəkəyə Tüdorları cəlb etməyə başlasaydı, bununla ən azı iddiaçılardan özünü qorumaqda məmnunluq tapardı. Toydan yarım il keçməmiş prints Artur Ladlou qəsrində öldü. Arturun uşaq yaşında olan qardaşı Henrinin dul qadına evlənməsi şansları barədə diplomatlar və hüquqşünaslar müzakirələrə başladılar. Katerina məsələnin həllini gözləmək üçün İngiltərədə qalırdı. VII Henrinin ömrünün son illərində gələcəyin qeyri-müəyyənliyinə işarə edən kiçik əlamətlər görünürdü.

VII Henri Amerikanın, özü də adaların deyil, məhz qitənin özünün onun təbəəsi tərəfindən kəşf edilməsi ilə öyünə bilərdi. XIX əsrdə fransız tarixçiləri

Renessansın fazalarını yekunlaşdıraraq belə fikrə, belə qənaətə gəlmişdilər ki, bu vaxt üç dünya kəşf edilmişdir: yeni dünya, antik dünya və kainat. Yeni dünya Kolumb tərəfindən kəşf edilmişdi və ona bu tapşırığı kraliça İzabella Kastiliyalı vermişdi. Papa bu yeni kəşf edilən əraziləri İspaniya və Portuqaliya üçün ehtiyat kimi saxlamaqdan ötəri Yer kürəsinin bu hissəsini iki zonaya bölmüşdü. İngiltərə və Fransa ədalət naminə bu müstəsnalığı heç vaxt qəbul etməzdi. Axı Amerika qitəsinin özünü Con Kabot kəşf etmişdi. Henrinin verdiyi səlahiyyətlə 1490-cı ildən ingilis xidmətində olan italyan Kabot kralın icazəsi ilə 1497-ci və 1498-ci illərdə Bristoldan dəniz səyahətinə çıxmış, Atlantik okeanı keçərək Nyufaundlend yaxınlığında Şimali Amerika sahillərinə qədəm basmışdı. Con və onun oğlu Sebastyan Kabot birlikdə uzun dəniz səfərləri həyata keçirdilər, lakin onlar həm məskunlaşma, həm də okean ticarətini təşkil etmək məsələlərində uğursuzluğa düçar oldular.

Klassik təlimlərin də rəqabəti buna bənzəyirdi. Onların 15-ci əsrin əvvəllərində İtaliyadan gəlməsi barədə ehyamlar əsrin sonunda Henrinin dövründə xeyli çoxalmışdı. Bütün Avropadakı klassik tədqiqatların liderinə çevrilən Erazm Rotterdamlı da ilk səfərini 1499-1500-cü illərdə İngiltərəyə etdi və iki qəribə gənc oğlanın - Con Koletin və Tomas Morun təsiri altına düşdü.

1509-cu ildə atasının ölümü ilə VIII Henrinin taxt-taca çıxması sarayda abhavanı dəyişdi. O, gənc olmaqla yanaşı, savadlı idi, ambitsiyalı olmaqla əndazədən çıxan hərəkətlərə yol verirdi, ağalıq etməklə yanaşı kobud idi. Erazm Rotterdamlı və onun dostları gənc kralın fəaliyyətinə ümid bəsləyirdilər. Onun uzun müddət sürən hökmranlığının 18 və ya 19-cu ilində onlar artıq Henrinin şəxsən xoşu gəldiyi adamlardan və 1512-ci ildən etibarən onun baş məsləhətçisi olan Tomas Vulzeedən qorxurdular. Erazm xeyli müddət İngiltərədə qalıb məşhur əsərlərini çap etdirdi. Bu dövrdə artıq dövrün ən orijinal siyasi əsəri olan Tomas Morun "Utopiya" kitabı yazılmışdı. Humanistlərin arxasınca 1526-cı ildə ən məşhur şimal rəssamı olan Gans Holbeyn də ilk dəfə İngiltərəyə gəldi və 16 il sonra taun xəstəliyindən Londonda öldü.

VIII Henri hökmranlığının birinci yarısı başa çatanda, hələ də 15-ci əsrin təsirinə müvafiq olaraq hərəkət edirdi. Xarici münasibətlərə gəldikdə başlıca olaraq Fransa, Şotlandiya və Çökək ölkələrlə əlaqə saxlayırdı. Varlı və daha çox əhalisi olan qərb ölkəsi kimi Fransa və daha uğurlu şəraitdə olan İspaniya İngiltərə ilə birbaşa uzlaşmayan mənafelərə və ittifaqlara malik idilər. Bu iki əsas dövlət dostluq mükafatı ilə İngiltərəni bu ittifaqlara dartırdı. Müttəfiqlər arasında xeyirxahlıq, xoş münasibət standartı çox aşağı idi. İngiltərəyə real qaydada heç vaxt müdaxilə edilməmişdi, onun qitə ilə yeganə meyl nöqtəsi Niderlandla apardığı kommersiya əlaqələri idi. Bu şəraitdə Henri Fransaya qarşı iki müharibə apardı, bir neçə iri həcmli gəmi qayırtdırmağa başladı. 1512-ci ildə o, Kaledən Fransaya hücum etdi, ingilis qoşunları 11 min nəfərdən, həm də 800 alman muzdlu əsgərindən ibarət idi. Şotlandlar öz fransız müttəfiqlərini dəs-

təkləmək üçün hərəkət etdilər. Kral IV Ceyms Tvidi keçdi və çayın cənubunda ağır məğlubiyyətə düçar oldu və öldürüldü. Bundan bir az əvvəl Henriyə məlum olmuşdu ki, iki müttəfiqi onu tərk etmişdir və buna görə o, sülh bağladı.

Sonrakı müharibədən əvvəl mühüm iştirakçıların ikisi - fransız XII Lui və ispan Ferdinand öldülər. Fransanın yeni kralı I Frantsisk, İspaniyanın isə kralı Karl oldu. Bir qədər sonra axırıncı həm də imperatora çevrildi. Onlar Henriyə əks mövqedə idilər və həmçinin qarşılıqlı rəqabət aparırdılar. 1521-ci ildə onlar müharibəyə başladıqda Henri Fransa ilə ittifaq bağladı.

Henri hökmranlığının ilk yeddi ilində parlamenti altı dəfə çağırdı. Yeri düşdükcə sərt, hətta qəddar hərəkətlərdən də çəkinmirdi. 1517-ci ilin mayında London əhalisi əcnəbi tacirlərin və sənətkarların qiyamına qoşuldu. Qoşunlar qiyamı yatırtdı və 14 adam edam olundu. Lakin Henri bu vaxt Vestminster holunda dramatik bir səhnə göstərdi - 400 dustağı əfv etdi. Elə bu dövrdə Vulzeenin də yüksəlməsi sona çatdı. O, Oksford kollecində oxumuşdu. VII Henrinin kapellanı olmuş və fərasətli adam olduğunu göstərmişdi. 1512-ci ildəki Fransa müharibəsi dövründə maliyyə, nəqliyyat və təchizat məsələlərinə səriştəli başçılıq etmişdi. Yaşlı adamların paxıllığının əksinə o, cavan kralın tam etibarını qazanmışdı. O, kilsə xadimi kimi də irəli getmişdi, 40 yaşına çatmamış Yorkun arxiyepiskopu olmuşdu, kardinal tituluna yiyələnmişdi. Bu titullar səlib yürüşünü təşkil etməyə görə verilmişdi. O, kilsədə və idarəçilikdə tutduğu vəzifələrin əhəmiyyətini daim böyüdürdü. Onun kralla yaxın münasibəti çox vacib idi ki, ölkəsində və xaricdə siyasətə nəzarət edə bilsin. Heç bir təbəə onun kimi belə qüdrətli olmamışdı. Lakin bu populyarlığı olmayan qüdrət idi. Vulzee çox vəzifə daşısa da, acgöz, xəsis idi. Bir hadisə onun qüdrətinin həddini göstərdi. 1523-cü ildə parlament çağırıldı ki, ikinci Fransa müharibəsi üçün ordunun təchizatına səs versin, bu səkkiz il ərzində ilk sessiya idi. Londonun müharibə xatirinə onun sakinlərini əzən borc almaqdan zəhləsi gedirdi. Qızğın müzakirələrdən sonra icma Vulzeenin tələb etdiyi məbləğin yarısı qədər pul ayırmağa səs verdi.

Vulzeenin böyüklüyünün bütün dövrü ərzində dövlət işindəki təhlükəli problem yaxınlaşırdı. Kralın qanuni doğulmuş oğlu yox idi. Bu vaxta qədər İngiltərədə hökmranlıq edən kraliça olmamışdı və əgər taxt-tacın qadın və ya qız varisi olsaydı, bu həm Tüdor sülaləsi, həm də milli təhlükəsizlik üçün ciddi qorxu törədə bilərdi. 16-cı əsrdə siyasi nikahlar çox hallarda səmimiyyətə və ya qanuni bəhanələrin qeyri-səmimiyyətinə bürünürdü. VIII Henrinin kraliçası Katerina Araqonlu dövlətlərarası alyansın girovuna çevrilmişdi. 1514-cü ildə gizli söhbətlər gedirdi ki, nə etmək lazımdır ki, bu nikahın ləğv edilməsi imkanı tapılsın və həm də yeni ittifaqın, yeni nikahın yolu təmizlənsin. 1527-ci ildə Henri və Vulzee İspaniya ilə olan alyansdan fransızlarla olan alyansa tərəf döndülər. İmzalanmış müqaviləyə görə ingilislər kraliçanın qohumu, imperator V Karla qarşı müharibəyə qoşulurdu. Vulzee bununla bağı olaraq nikahın ləğv

olunması yollarını axtardı. Həm də o, bilirdi ki, məsələ uğurlu həll edilsə, bu fransız qızı və ya digər başqası ilə nikaha aparıb çıxarmayacaqdır.

V Karlın qoşunları Romanı tutub qarət etdi. İngiltərə müharibə elan etdi, lakin bütün cənub ölkələri onunla əməkdaşlıqdan imtina etdi. Bu hökuməti hazırlığı dayandırmağa və Niderland ilə barışığa getməyə məcbur etdi. Vulzee heç bir yerdə təzyiqini artıra bilmirdi, Papa da onun səlahiyyəti olan məsələlərdə öz mənafeyinə uyğun hərəkət edirdi. Vulzee dünyəvi vəzifələrindən məhrum edilsə də, arxiyepiskop və kardinal olaraq qalırdı. Əgər səhvə yol verməsə, kral ondan istifadə edə bilərdi. Lakin o, Katerinadan yaxanı qurtarmaqda Papanın razılığına nail ola bilmədiyinə görə həbs edildi və xəyanətkarlıqla ittiham edildikdə öldü.

Kralın vacib məsələsi yavaş-yavaş sona yaxınlaşırdı. Kral boşanma barədə Papadan razılıq alınmasına da ehtiyac görmədi və özü məsələni həll etdi. Saray ledisi, Norfolk hersoqu Tomas Houardın qohumu Anna Boleynlə evləndi. Bu 1533-cü ildə baş verdi. Katerina ilə Henrinin nikahına gəldikdə, kanonik qanun adama öz qardaşı arvadına evlənməyi qadağan edirdi. O vaxt Papa buna razılıq vermişdi. Lakin Henri təkid etməyə başladı ki, razılıq qanunsuz hesab edilsin. Onu da bildirirdi ki, nikahı günahlı olduğundan, Allah Katerinanın bütün oğlan uşaqlarını ya doğulanda, ya da doğulduqdan bir az sonra öldürüb. Ona görə də Papa öz borcunu əsas götürüb elan etməli idi ki, Henri və Katerina heç vaxt ər-arvad olmamışlar. Bundan sonra kral Anna ilə həqiqi nikaha girə bilərdi, onun şəhvət iştahası bu məsələdə əsl siyasi qayğısı ilə birləşirdi, öz ölümündən sonra o, heç bir şübhə yeri qalmayan varisə malik olacaqdı.

Bədbəxtlikdən Katerina Habsburq printsessası olmaqla, atası İspaniya kralı olmuşdu, qohumu isə artıq Müqəddəs Roma imperatoru idi. V Karl 1525-ci ildə yenicə Paviyada fransızları məğlub edib özünü Avropada ən qüdrətli hökmdara çevirmişdi. Müəyyən qədər o, İtaliyaya ağalıq edirdi, bura onun Papa üzərindəki nəzarəti də daxil idi. Vulzee axırda işləri, Karla müqavimət göstərmək üçün müxtəlif dövlətlərin ittifaqını yaratmaq yolu ilə korladı. Roma tutulduqdan sonra isə Papa VII Klement imperatorun dustağına çevrildi. Papa bu vaxt öz sələfinin səhvindən nəticə çıxarmağa məcbur oldu, öz qərarını verməkdə o, artıq sərbəst deyildi. Kralın təkid etdiyi qərarla imperatorun xalası iyirmi il ərzində günahda yaşamış olurdu.

VII Henrinin hiddətinin başlıca səbəbi Vulzeenin uğursuzluğu və Papanın boşanmaya icazə verməməsi idi. O, parlamentdən kilsənin qüdrətinə və sərvətinə qarşı bir hücum aləti kimi istifadə etdi. Papanın siyasəti uğursuzluğa düçar olanda, Henri İngiltərədə onun hakimiyyətini qadağan etdi. Kilsənin "islahatı" sadəcə olaraq onu dövlətin idarəçiliyinin altına salmaq idi. Kilsələr krala vergi verirdilər, lakin müntəzəm olaraq Papaya daha böyük vergi ödəyirdilər. Allah, nəhayət, kralın gözlərini açmışdı. Bir parlament üzvü demişdi ki, keşiş ölmüş valideynlərin dəfn edilməsi üçün rüsum kimi uşaqlarının acından ölməsinə razı

olmaqla belə, onlardan inəyi tələb edəcəkdir.

Tomas Kranmer Kentenberinin yeni arxiyepiskopu oldu. O, kralın suverenliyinə inanırdı, Katerinanın nikahının qanunsuz olduğunu və Anna Boleynin kralın həqiqi arvadı olduğunu təsdiq etməyə hazır idi. Bu vaxt Anna hamilə olduğundan uşağın nikahın bəhrəsi kimi doğulması imperativ bir məsələ idi. Uşaq nəhayət doğulanda isə, tale bir daha öz istehzasını nümayiş etdirdi, dünyaya arzu edilən oğlan yox, qız gəldi. Bu vaxt Tomas Kromvel Henrinin sağ əli kimi fəaliyyət göstərirdi. Vulzeenin yerini tutan bu adamla İngiltərədə Papa hakimiyyətinin ləğv edilməsi qət edilmiş oldu. 1533-cü ildə qəbul edilən Müraciət Aktı ilə Bibliyaya və ya nikah məsələsinə dair Romaya müraciət edilməsi qadağan olundu. Beləliklə Katerinaya şikayət üçün heç bir hüquq verilmirdi. Kranmerə adamları kilsədən təcrid etmək hüququ verildi. İngiltərədən Papaya müraciət etməmək üçün o, "Roma yepiskopu" adlanırdı.

1534-cü ildə isə parlament yeni situasiyanı qısaca şəkildə Alilik Aktında ifadə etdi. Bu akta görə kral "ədalətli və haqlıdır və İngiltərə kilsəsinin Ali Başçısı olmağa borcludur". Bu sənədlər ölkədə dini, böyük islahata uğratmaqdan daha çox, Roma Papasının ağalığından azad etdi, kraliça Katerina isə "ingilis Reformatsiyasının" ilk və ən mühüm nümayiş xarakterli günahsız qurbanı oldu. 1530-cu illə 1536-cı il arasındakı müddətdə iki hakimiyyət - dini və dünyəvi hakimiyyət nəzəriyyəsi mövcud idi və İngiltərənin də razılaşdığı bu nəzəriyyə puç oldu. 1536-cı ildən etibarən müstəsna hakimiyyəti heç kəs məhdudlaşdıra bilməzdi və İngiltərədə məhz belə hakimiyyət bərqərar oldu. Belə vəziyyət yarım minilliyə qədər davam etdi və 1973-cü il Roma müqaviləsi imzalanana qədər dövlət işlərində özünü göstərdi. Hətta 1642-ci ildə vətəndaş müharibəsi başlayanda hər iki tərəf inanırdı ki, kral parlament uğrunda vuruşur. Henri və Kromvel nə istədiklərini bilirdi, parlament də bunu istəməli olurdu. 1535-ci ildə "Reformatsiya" razılaşdırıldı. Həll edilməyən problem o idi ki, hansı növ kilsəyə ingilis xalqı tabe olacaqdır.

Bu vaxt Papalıq üçün gözlənildiyi kimi ingilis kilsəsi müstəqil oldu. Taxttacla parlament arasında bu məsələdəki münaqişə həmin vaxt bir-birinə bənzəyirdi, lakin əsrdən bir qədər az müddət adamlara sübut etdi ki, şüarlar vətəndaş müharibəsinin şüarlarıdır. Dünyəvi hakimiyyət hiss etdi ki, on min rahib və iki min rahibə monastırların var-dövlətini qoruyub saxlamağı əsaslandırmaq üçün bir şey edə bilmir. Kilsə ayrıldıqdan sonra rahibələrin 25 faizi, rahiblərin isə daha çox hissəsi ailə qurdu, nikaha daxil oldu. VIII Henri və Tomas Kromvel öz avtoritar inqilablarını başa çatdırdılar, onların iradəsi qalib gəldi. Reformatsiyanın uzun sürən parlamenti axırda buraxıldı.

Dəniz kəşflərindən faydalanan İspaniyanın Amerika imperiyası əslində idarə olunmayan ölçüdə idi. Nəzəri cəhətdən İspaniya, Braziliya istisna olmaqla, bütün Amerikanı əlində saxlayırdı. Portuqaliyalılar kimi kiçik millət, onun əhalisinin sayı bir milyona qədər idi, böyük ərazidə ağalıq edəcəyini gözləyirdi. Bu

ağalıq ümidi Lissabonun Xoş Ümid burnu ilə Zənzibar və Toa kimi onlardan uzaqdakı Ədviyyat adaları ilə olan dəniz ticarətindən başlamışdı.

VII Henrinin mənafeyi naminə Kabotların Nyufaundlend, sonralar isə Hadson buxtasına səyahətləri birbaşa kiçik nəticələr vermişdi, lakin ingilislərin 1553-cü ildə uzaq Kateyə (Çinə) Arxangelsk marşrutu ilə, Şimal dəniz yolundan istifadə etməklə cəhd etdikləri səyahət Moskovi şirkətinin yaranmasına gətirib çıxardı və şirkət Rusiyanın Qərbi Avropa ilə ticarətində həmin dövrdə üstün rol oynamağa başladı. Digər böyük risqli iş Frensis Dreykin dünya ətrafına səyahəti idi. 1577-1580-ci illərdə həyata keçirilən bu səyahətdə kraliça I Elizabet təkcə risqə deyil, həm də nəhəng faydaya şərik idi. Haukinsin 1560-cı illərdəki Afrika kompaniyası İngiltərənin hüznlü, lakin faydalı zənci qulları ticarətində iştirakının əsasını qoydu.

Henrinin din islahatları şəxsi və siyasi məqsədlərinə xidmət edirdi, bütün həyatı boyu ilahiyyatda ortodoks mövqeyi tutmuşdu və Lyüterə qarşı kəskin kitab yazdığına görə Papa onu "Dinin müdafiəçisi" titulu ilə mükafatlandırmışdı. Nə Henri, nə də onun təbəələri yeni kilsənin qurulmasının mümkünlüyü barədə düşünə də bilməzdilər. Henri yeni addımı ilə özünü mütləq monarx etdi və öz kral hakimiyyətini Vulzeenin təhvil verdiyi hakimiyyətlə birləşdirdi. Lakin bunu tam həqiqət hesab etmək olmaz. Vulzeenin hakimiyyətinin bir hissəsi kilsənin beynəlxalq ierarxiyasına, bəziləri isə Henrinin parlament tərəfindən aldığı dəstəyə əsaslanırdı. Henrinin kilsə inqilabı yeddi il davam etdi. Burada yeddi başlıca cəhət var idi. Bunlardan biri İngiltərədəki kilsə ilə Papa arasındakı əlaqə idi. İngilis sarayı barədə Romaya heç bir şikayət getmirdi. Seçilən yepiskoplar bir qayda olaraq kralın irəli sürdüyü namizədlərdən seçilirdi. Anti-Roma münasibəti küfrə qarşı olan bir sıra qanunlarda özünü nümayiş etdirirdi.

Vulzeenin lord-kansler kimi varisi Tomas Mor oldu, artıq o, ədəbiyyat aləmində məşhurlaşmışdı və protestantlar əleyhinə sərt yazıların müəllifi idi. Qanuni sistemin rəsmi başçısı kimi o, parlamentin aktlarında bir sıra istəklərinə nail oldu və Henrinin dəyişikliklərinin çoxunu o, təqdim etmişdi. 1533-cü ildə Kenterberi arxiyepiskopu olan Tomas Kranmer Katerina Araqonlu ilə kralın nikahının heç bir qanuni qüvvəsi olmadığını elan edəndə və kral Anna Boleynə evlənəndə, parlament bu yeni nikahın qanuni olduğunu təsdiq etdi. Beləliklə, Annadan doğulan uşaqlar taxt-taca varis olacaqdılar. Lakin kral istəyirdi ki, onun bütün təbəələri aktın bu müddəasını müdafiə etdikləri barədə and içsinlər. İki təbəə and içməkdən imtina etdi, onlardan biri Roçesterin qoca və sevilən yepiskopu, həm də Kembric universitetinin kansleri olan Con Fişer, digəri isə Tomas Mor idi. Onlar rəsmi konstitusiya nəzəriyyəsini qəbul etmədilər, bir müddəanı əsas götürdülər ki, qaydaya görə Allahın qanunu İngiltərə qanununun bir hissəsidir və ən yüksək hissəsidir. Bu inamlarına görə onlar ölümü qəbul etdilər, daha doğrusu edam edildilər.

Sonrakı ili kral və onun əyanları digər inqilabi akt hazırlamağa başladılar, bu

sənəd monastırların ləğv edilməsini nəzərdə tuturdu. Bununla kral aliliyinin arasında heç bir zəruri əlaqə yox idi. Keçmişdə az sayda monastırlar ləğv edilmişdi, bəziləri bir az əvvəl Oksford və Kembricin yeni kolleclərinə hədiyyə verilmişdi. Başlıca məqsəd monastırların sərvətinin kralın əlinə keçməsi idi, rahiblər evləri təkcə ümumi şəbəkədə 135 min funt sterlenqlik mənfəətə malik idi. Monastır əmlakına digər göz dikənlər də var idi. Henrinin dini tədbirlərini dəstəkləyənlər maddi mənafe güdürdülər. Onun müdafiəçilərindən bəziləri azad qrant əldə etdilər, lakin torpaqların çoxu qonşulara və keçmiş abbatlığın qulluqçularına, bir hissəsi isə alqı-satqını təşkil edən möhtəkirlərə satıldı.

Anna Boleynin belə səs-küy salan və dövlətin taleyində mühüm rol oynayan nikahı, yumşaq deyilsə, uğursuz oldu. O, krala gözlənilən oğulu deyil, qız doğdu, onsuz da Henri övladsız deyildi və Katerinadan Mariya adlı qızı var idi. Üç il ərzində artan bədbəxtliklər nəticəsində o, cinayətkarlıqda təqsirli bilindi. Bu kralın arvadı üçün xəyanət demək idi və Anna Boleyn mühakimə edildikdən sonra onun meydanda, camaatın gözləri qarşısında boynu vuruldu. Tarix təkrar olunurdu. Vaxtilə keşiş Fişer edam ediləndə Anna bunu sevinclə qarşılamış, qisas naminə mərhumu ələ salmaqdan da çəkinməmişdi. Annanın boynu da cəlladın bu dəfə qılıncının hədəfinə çevrilmişdi. Onun kraliça yerini Ceyn Seymur tutdu, o, kübar ailəsində doğulmuş qız idi. Bu qadın Henri üçün çox qiymətli olan bir işi gördü, ona oğul doğdu, lakin uşaq doğulanda ana öldü. Bu uşaq Uels printsi Eduard idi. Henri dördüncü dəfə evlənməyə ehtiyac duydu. Kromvelin seçimi səhv idi. Niderlandın sərhədindəki hersoqluqdan, V Karla qarşı olan Almaniyadakı hökmdarlardan birinin qızı olan Anna Klevli idi, onların lideri olan Saksoniya kurfyurstunun qardaşının arvadı olmuşdu. Bu vaxt Niderland ilə ticarət hər iki tərəf üçün çox faydalı idi. Lakin Anna Klevli ilə nikah ləğv edildi və kral beşinci arvadına, hersoqun qohumu olan qıza - Katerina Houarda evləndi.

Henrinin kilsənin idarə edilməsində etdiyi dəyişiklik onun qitə ilə əlaqələrində elə bir ciddi təsirə malik olmadı, lakin onun İrlandiya ilə münasibətləri xeyli pisləşdi. İrlandlar kömək üçün III Pavelə və imperatora müraciət etdilər. Dublin arxiyepiskopu, kansler Con Allen öldürüldü və şəhər mühasirəyə alındı. Payız və qış ərzində qiyamçıların nəzarəti ələ keçirdiyi kimi görünürdü. İngilis qoşunları sahilə çıxdı və irland ordusu kənara səpələnməyə məcbur oldu. Dublin parlamentinin qərarı ilə Henri "İrlandiya kralı" tituluna yiyələndi. Kral öləndən hələ əvvəl qatı katolik ordeni olan iezuit missionerləri İrlandiyada fəaliyyət göstərirdilər.

İngilis-şotland münasibətləri də pozulmuş qaydada davam edirdi. Fransa ilə 1522-ci ildə başlanmış müharibə dövründə Şotlandiya əvvəlcə barışıq əldə edilməsini və danışıqları dəstəkləyirdi, lakin sonra sərhədə hücum etdi, ancaq bundan heç bir səmərə əldə edə bilmədi. Şotlandiyanın ingilis kraliçası olan Marqaret oğlu, uşaq olan V Ceymsi öz hüquqlarına müvafiq olaraq kral elan etdi. Söhbət gəzirdi ki, yeni kral özünün qohumu, Henrinin və Katerina Araqon-

lunun qızı Mariyaya evlənəcəkdir, lakin bu baş tutmadı. Ceyms yaşa dolduqda Fransa kralı I Frantsiskin qızına evləndi, arvadının ölümündən sonra isə 1538-ci ildə oradan Qiz ailəsindən olan digər qadınla nikaha girdi. Kral xəstə və fikri dağınıq adam idi. Solvey Mossda biabırçı məğlubiyyətindən sonra öldü. Bu vaxt onun qızı, kraliça Mariya Styuart altı gün idi ki, anadan olmuşdu.

Henrinin arvadı Katerina Houard əvvəlcədən özünü Anna Boleyndən daha təqsirli apardığından, onun da boynu vuruldu. Henrinin altıncı və sonuncu arvadı Katerina Parr artıq iki dəfə dul olmuşdu, 1544-cü ildə kral Fransa ilə müharibə apararkən ona qulluq etmişdi. Nəhayət, Henrinin nikah epopeyası və həyatı başa çatdı, bu məşhur ingilis kralı 1547-ci ildə öldü.

VIII Henri öləndə öz vəsiyyətini bir sıra detallarla doldurmuşdu. Varislik məsələsinə gəldikdə başlıca niyyət belə idi ki, hakimiyyət onun doqquz yaşlı oğlu VI Eduarda çatmalıdır. Gənc kral üçün heç bir regent yox idi, 16 icraçıdan ibarət bir orqan var idi ki, bu qarışıq şuraya bənzəyirdi. Digər bir orqan isə 12 şura üzvündən ibarət olmaqla, sırf məsləhətçi rolunu oynayırdı. Bəzi adamlar formal olaraq hökmdar rolunu icra etməli idi. Bu səfirliklərin qəbul edilməsi ilə məhdudlaşdığından mərasim xarakteri daşıyırdı. Gənc kralın dayısı, Fransa müharibəsində uğurlu komandan kimi xidmət etmiş Hertford qrafı Eduard Seymur öz üzərinə protektorun bütün səlahiyyətlərini götürdü və o, Somerset hersoqu titulunu aldı.

VIII Henrinin vəfatından sonra onun mərhum arvadı Ceyn Seymurun qardaşı Eduard Seymur beləliklə yeni hökumətin lideri oldu. Onun qardaşı Tomas Mariya Tüdorla evlənməkdə ona kömək etməsini xahiş etdi. Lakin Eduard onun bu yüksəkliyə qalxmasını istəmədiyindən bildirdi ki, Mariya heç vaxt buna razı olmaz. Kral əri öldükdən sonra onun dul qalan axırıncı arvadı Katerina kraliça titulunu saxladığından Tomas Seymur bu qadından bu dəfə ona ərə getməyi xahiş etdi. Tomas axşamlar bu qadının yanına gəlirdi. Deyəsən qəbirdə yatan Henri özü şərəfsizlik mərhələsini yaşamağa başlamışdı. Tomas Morun başqa münasibətlə dediyi: "O adam ki, öz uşaqları üçün göz yaşları ilə ağlamamışdır, o, ata adını daşıya bilməz" sözlərini mərhum krala da aid etmək olardı. Bu vaxt Tomas Seymurun ona ərə getməyə Elizabetdən də razılıq əldə etməyə çalışdığı barədə söz-söhbətlər kəsilmirdi. O, Elizabetin həyatına daxil olmağı bacarmışdı, onunla kobud zarafata da yol verirdi. Protektor olan Eduard Seymur isə hakimiyyətin cilovunu bütünlüklə öz əlinə yığmışdı. 12 yaşda olanda kral VI Eduard öz dəftərində yazmışdı: "Burada şayiə yayılıb ki, mən ölmüşəm. Həmin vaxt mən Londonun küçələrindən keçirdim". Yazıq uşaq ciddi surətdə coğrafiyanı öyrənirdi ki, bir kral kimi ordunu və donanmanı idarə edə bilsin. O, Fransanın və Flandriyanın sahillərindəki buxtalar barədə çox şey danışa bilərdi. Gənc krala adamlar xüsusi qaydada təqdim edilirdi. Elizabet atasının qarşısında üç dəfə baş əydiyi halda, qardaşı qarşısında beş dəfə əyilirdi. Onun sarayı hökmranlıq illyuziyası yaradırdı, həqiqətdə isə bu belə deyildi.

Şotlandiya İngiltərəyə müdaxilə üçün "arxa qapı" kimi ənənəvi strateji rol oynayırdı. Əsrlər boyu fransızlar öz faydaları naminə şotland siyasətçilərindən istifadə etmişdilər. Gənc şotland kraliçası Mariya Styuart VI Eduarda nişanlanmışdı, lakin şotlandlar bu razılaşmanı rədd etmişdilər. Kralın bacısı və taxt-tac sahibi olmaq sırasında ikinci olan Elizabet 1547-1548-ci illərdə siyasi fırtınanın gözündə yaşayırdı.

Tomas Seymur Elizabetə olan ümidlərindən əl çəkmirdi, səhər tezdən qızın yataq otağına gəlir, kefini soruşduqdan sonra "intim qaydada onun belinə və ya yançaqlarına əli ilə vururdu". Bu vaxt alt paltarında olan qızın üzü qızarır, ona müqavimət göstərirdi. Bir dəfə rəfiqəsi Tomasın onu öpmək istədiyini görüb, Toması "biabırçılığına görə" qovmuşdu. Şayiələr gəzirdi ki, Tomas Seymur kralı, protektoru və Mariyanı hökmən öldürməyə çalışır ki, sonra Elizabetə evlənsin və özü kral kimi hökmranlıq etsin. Bir nəfər Elizabeti nəzərdə tutaraq yazırdı ki, "o, çoxlu fırtınalardan keçəcəkdir". Uorsterin keçmiş yepiskopu Hyuq Latimer kilsə tribunasından Tomas Seymurla Elizabetin günahkar əməlləri barədə ildırım çaxan çıxışlar edirdi. Tomas isə elə bil ki, bədxahlarına cavab vermək üçün yazırdı: "İngiltərədə bircə adam da krala və onun varislərinə və ya səltənətə saxta rıtsar olduğum barədə məni ittiham etsə, mən yaşamaq istəməzdim. Əgər mən beləyəmsə, düşünürəm ki, mənim üstümə atılmaq üçün daşlar yerdən qaldırılacaqdır". Elizabet də özü haqqında şeirlə yazırdı:

***"Bilirlər ki, namusluyam mən,***
***Həm də hava kimi cəldəm,***
***Bircəsi də minindən***
***Mənimlə müqayisəyə girməz".***

Eduard evlənməmişdən əvvəl ölsəydi, onun varisi böyük bacı kimi Mariya olmalı idi. Dinini dəyişdirməsinə görə ona nifrət edirdilər. Elizabetə münasibət isə bambaşqa idi. Papanın elçisi onun haqqında yazırdı: "Bu kafir və sxizmatik bacının adı hər kəsin ürəyində və nitqindədir". Elizabetin özünə gəldikdə o, ölümcül qorxu ilə yaşamağa adət etmişdi. İngilislərin çoxu Filippin və onun elçilərinin İngiltərə torpaqlarına ayaq basmalarındansa, ölməyə razı idilər.

Şotlandiyaya hücum artıq hazır idi, toqquşma hərbi qələbə ilə nəticələnsə də, heç bir fayda vermədi. Somersetin ordusu sərhədi keçdi, ona güclü donanma kömək edirdi. Şotlandlar pis hazırlanmışdılar, onlar qaçmağa başladılar. İngilislər adekvat hərbi tədbirlər gördülər ki, Şotlandiyaya nəzarət etsinlər. Oradan geri çəkildikdə məğlubiyyət Şotlandiyanı Fransanın ağuşuna atdı. Şotlandiyanın kiçik yaşlı kraliçası Fransaya getdi ki, orada taxt-tacın varisinin arvadı olsun. İki il Şotlandiyada döyüş getdi, heç bir sülh bağlanmasa da, İngiltərə geri çəkildi və Fransa müharibə elan etdi.

Somerset diplomatiyası hər iki cəbhədə uğursuzluğa düçar oldu. Bu ölkənin daxilindəki iki problemlə müşayiət olundu, bunlar dini və sosial narazılıq idi. Almaniyada və Skandinaviyada lyüteranlar aparıcı rol oynayırdılar. Daha ra-

dikal İsveçrə ənənəsinin yerini kalvinizm tutdu. Protestant ilahiyyatçılar Henrinin Romaya qarşı çıxmasını təqdir edirdilər, lakin onlar ingilis kralının mühafizəkarlığından razı deyildilər. Bircə yaxşı cəhət orasında idi ki, lyüteran və kalvinist məzhəbləri dənizin o tərəfində qalmışdı.

Somersetin tərəddüd göstərməsi və liberal mövqeyi onun əhəmiyyətini azaldırdı və siyasətçilər onu protektor vəzifəsindən saldılar. Varvik onun yerini tutdu, qanun-qayda tərəfdarı olan bu adam güclü idarə edən idi. Bulon geri alındı, ingilislər bütünlüklə Şotlandiyadan çıxdılar. Varvik Nortumberlend hersoqu titulunu aldı və Somersetin cinayətinə görə edam edilməsinə səbəb oldu. Nortumberlendin ümidləri bütünlüklə kraldan asılı idi. Kral protestant müəllimlərdən tərbiyə almışdı. Nortumberlend isə Eduarda təklif etdi ki, taxt-tacın onun əmisi qızına verilməsini nəzərdə tutan bir sənəd yazsın. O, ledi Ceyn Qrey kimi tanınan qadın idi. Onun ana tərəfdən nənəsi VIII Henrinin kiçik bacısı Mariya idi. VI Eduardın xəstəliyi başlayandan sonra bu qız protektorun oğlu Gildford Dadliyə ərə getmişdi. Protektor bu planının tərəfdarlarını özünə bağlamaq üçün mümkün olan hər şeyi edirdi. Şura üzvləri və digərləri öz razılıqlarını imzalanmış qaydada vermişdilər. Kral VI Eduard 1553-cü ilin iyulunda öldü.

VIII Henri Katerina Araqonludan olan qızı Mariyanı Eduardın varisi adlandırmışdı. Təkcə ölən kral VI Eduardın qərarı ilə taxt-tac ledi Ceyn Qreyə keçə bilərdi, bu qız azacıq əvvəl Nortumberlendin böyük oğluna ərə getmişdi. Belə olsa, təkcə Mariya deyil, digər bacı Elizabet də taxt-tac irsindən məhrum olurdu. VIII Henrinin iki bacısından böyüyünün törəməsi olan Styuartları da irsdən məhrum edirdi.

Nortumberlendin hakimiyyəti özünə götürməsi cəhdləri ümidsiz bir iş idi. Kral öləndə məlum oldu ki, VIII Henrinin və Katerina Araqonlunun qızı printsessa Mariya şuraya məktub yazaraq özünün həqiqi varis olduğunu və arxasında ölkənin dayandığını bəyan etmişdi. Özünü kraliça Ceyn adlandıran və 9 iyulda kraliça elan edilən Qrey tacın daş-qaşlarını aldı və dövlətin bir sıra aktlarını icra etdi. Ordunun onu müdafiə etməsi üçün Nortumberlendin nə dostları, nə də pulu var idi. Heç atəş də açılmadı, 19 iyulda və ya kralın ölümündən 13 gün sonra öz atası onun dustaq olduğunu və hökmranlığının başa çatdığını dedi. Nortumberlend Tauerə yola salındı və edam edildi.

Gənc kralın ölümü ilə Ceyn Qreyin qısa müddət çəkən əhvalatından sonra Mariya kraliça oldu. O, deyirdi: "Mən deyə bilmərəm ki, ana uşağını təbii qaydada necə sevir, çünki heç vaxt ana olmamışam. Lakin həqiqətən əgər hökmdar və idarə edən təbii və ciddi qaydada təbəələrini ana uşağını sevən kimi sevə bilirsə, o vaxt mən sizi əmin edirəm ki, mən sizin lediniz və ağanız olduqda, belə ciddi və mehribanlıqla sizi sevəcək və mərhəmət göstərəcəyəm".

İnqilab günləri ərzində kraliça Mariya saraya gəlməkdən və ya qaçmaqdan imtina edirdi, öz təhlükəsizliyini Houardın qəsrində qoruyurdu. Bu qız sədaqətli Roma katoliki idi, öz inamını ən təhlükəli dövrlərdə belə qoruyub saxlamışdı.

36 yaşında olmasına baxmayaraq, hələ ərə getməmişdi, indiyədək bakirə qız kimi qalmışdı. Öz qohumu olan imperatorun məsləhətlərinə etibar edirdi, çünki o, Niderlandın ağası kimi Mariyanın təbii müttəfiqi idi. İngiltərədə heç bir Fransa partiyası yox idi, protestant hisslərindən başqa kraliçaya heç bir təhlükə yox idi. Mariya hökmranlığı yaxşı başladı, Nortumberlendlə birlikdə onun partiyasından olan iki nəfəri də edam etdirdi. Ledi Ceyn və bir neçə adam ölüm cəzasına məhkum edildi, lakin dustaq kimi Tauerdə saxlandılar. Yeni şura çox böyük idi, bura mərhum Eduardın 12 şura üzvü, kral Henrinin 7 şura üzvü və 12 əlavə üzv daxil idi. Onların arasında kifayət qədər qabiliyyətli adamlar olsa da, rəylər müxtəlif idi. Liderliyə VIII Henri dövründə Vinçester yepiskopu olmuş, yeni şura üzvü Stefen Qardiner yüksəldi. O, bundan əvvəl beş il Tauerdə dustaq olmuşdu, mülayim və mühafizəkar təbiətli bir adam idi.

Mariyanın hökmranlığı dövründə qanunun formal cəhətinə hörmət göstərilirdi, iqtisadi və çoxdan gözlənilən maliyyə islahatları keçirildi, inzibatçılıq işi də pis getmirdi. Dini qanuniləşdirmək üçün Mariyanın parlamentə ehtiyacı var idi, lakin qanunverici orqan bundan artığını etdi. Mariya ingilis tarixində ilk hökmranlıq edən kraliça idi. Parlamentdə və ondan kənarda adamların çoxu inanırdı ki, Mariyanın əcnəbidənsə ingilisə ərə getməsi daha yaxşı olardı.

Onun taxt-taca gələndə verdiyi vəd həyatda özünü doğrultmadı. Hər gün Mariyanın qəzəbinin əlamətləri görünürdü. "Hər kiminsə edam edilməsindən başqa bir xəbər eşidilmirdi. Bir nəfər edam ediləndə, digəri dustaq kimi götürülürdü". Elizabet sonrakı qurban olmalı idi və nəticədə şəhərə gəlib çıxdı. "Kim onu görmüşdüsə, uzun müddət sevəciyini vəd edə bilməzdi". Kraliça Mariya və onun sevmədiyi bacısı heç yerdə gözə dəymirdilər. Elizabeti xəyanətdə rəsmi qaydada ittiham etmək üçün səbəb yox idi, lakin xəbərlər ona gəlib çatanda, onlardan bəziləri ölüm hökmü qədər qorxulu olurdu.

İyirmi il əvvəl VIII Henri qoca yepiskop Fişeri Tauerdəki otaqda dustaq etmişdi, bu yaşlı adam burada xəstə və baxımsız qalmışdı. Aşağıdakı otaqda isə Tomas Mor öz dustaqlığını keçirirdi. Fişer və Mor Tauer təpəsində edam edilmişdilər. Anna Boleyn də belə taleyi yaşamışdı. Bəs görən onun qızı anası kimi əzablara düçar olacaqdımı? Elizabet də öldürülə bilərdi və etiraf etmişdi ki, öz anası kimi fransız cəlladını tələb etsin ki, qılınc zərbəsi ilə onun boynu vurulsun. Lakin özü haqqında şeirlə yazırdı ki, çoxları şübhə etsə də, mən səbəb verməmişəm ki, Elizabeti dustaq etsinlər.

Mariya öz həyatına görə qorxduğuna görə atasının yalnız əlli mühafizəçisi olduğu halda, öz cangüdənlərinin sayını dörd yüzə çatdırmışdı. Sarayda yaltaqlıq ruhu hökm sürürdü. Elizabet şeirində yazırdı:

"Gül, yalan de, yaltaqlan, həyasızlıq et
Sarayda hörmət qazanmağın dörd yoludur bu".

Ər olmağa namizəd kimi əcnəbilər içərisində kraliça Mariyadan 11 yaş cavan olan, bir oğlu ilə dul qalmış, həmçinin İspaniya kralı və imperatoru V Kar-

lın oğlu Filipp daha yüksək səviyyədə dayanırdı. Atası artıq ona Neapol krallığını, Milan hersoqluğunu vermişdi və tezliklə onun hökmranlığı İspaniyaya, Niderlanda və Amerikadakı hindular üzərinə də keçəcəkdi. İmperator V Karl dördüncü və sonuncu dəfə Fransa ilə müharibədə idi. Bu dəfə onun ordusu o qədər də güclü deyildi. İngiltərə ona müttəfiq kimi çox lazım idi. Mariya məxfi qaydada Filippin təklifini qəbul etdi və düşünürdü ki, bu izdivaca parlamentin razılığı olacaqdır. Şura üzvlərindən bəziləri, o cümlədən Qardiner həvəssiz razılıq verdilər, nikah müqaviləsinə bəzi şərtlərin daxil edilməsini təkid etdilər. Bu şərtləri yalnız ingilislər müdafiə edəcəkdi. Nikah İngiltərəni V Karlın müharibələrinə cəlb etməməli idi, İngiltərə ilə Fransa arasında sülh münasibətləri qalmalı idi. Əgər kraliça uşaq doğmadan ölsə Filipp İngiltərə taxt-tacına iddia etməməli idi. Lakin onların nikahından uşaq doğulsa bu övlad Niderlanddakı və Franş-Kontedəki bütün Burqundiya irsinə varis olacaqdı. Bu şərtlər çağırılmış parlament qarşısında açıq elan olundu, lakin bu qasırğa təzahürünün qarşısını ala bilmədi. Danışıqlar barədəki xəbərlər çıxdı, Kentdə və digər yerlərdə nümayişlər başlandı. Fransa və Venetsiya səfirləri, həmçinin kraliçanın ögey bacısı olan printsessa ilə görüşlər keçirildi. Cəsarətli kraliça şəhərə qayıdanda London körpüsü adamlarla dolu idi. Yol boyu əsgərlər cərgəyə düzülmüşdü və adamlar döyüşsüz təslim oldular. 60 nəfər edam edildi, onların arasında Ceyn Qreyin atası olan Saffolk qrafı da var idi. Repressiya tədbirlərinə elə bir ehtiyac yox idi. Elizabet də kompromissə getmirdi. Parlament yığıldıqda nikahı bəyəndi və konstitusional qarantiyaları təsdiq etdi.

Ölkədə katolitsizmin bərpası üçün bir sıra tədbirlər görüldü. Yepiskoplar evlənən din xadimlərini mülklərindən qovmaq üçün birləşdilər. Evlənmiş rahiblər arvadlarını boşadı. Dünyəvi cəmiyyətlər onların arvadları ilə doldu. 1500 keşiş öz vəzifəsindən uzaqlaşdırıldı. Başlıca katolik hücumları din xadimlərinə qarşı yönəlmişdi. Kraliça Ceynin müdafiəçisi kimi Kranmer artıq ölümə məhkum edilmişdi. Onunla birlikdə Oksfordda iki digər yepiskop, kasıbların dostu Hyuq Latimer və Nikolas Ridli də tonqalda yandırıldı. Hər bir edama qurbanların şəhid olacağına inanan bir neçə nəfər də əlavə olunurdu. İspaniyanın İngiltərə sarayındakı səfiri yazırdı ki, kraliçanın xoş məramlı və cəsarətli ürəyi olmasından savayı, hər şey səhv idi. Mariya özünün acı alçaldılmasının acığına bu xəttlə hərəkət edirdi. O, Filippə uşaq doğmadı, lakin ümid edirdi ki, bunu edə biləcəkdir. Üç ay ərzində kraliça ilə birlikdə saray heç vaxt baş verməyəcək bir möcüzəni gözləməli oldu. Guya o, hamilə idi, əslində isə heç bir hamiləlik işarəsi yox idi. Hətta mamaçalar da uşağın doğulacağını gözləmirdilər. Üç ay tamam olanda sarayın salonu adamlarla dolu idi, otaqlarda isə müşahidəçilər yığılmışdı. Mariyanın mifik hamiləliyi heç vaxt rəsmi qaydada açıqlanmadı. Son xəbər kraliça üçün kədərli olsa da, aydın idi. Kraliçanın övladsızlığı ucbatından həm də Elizabet taxt-taca yaxınlaşırdı. Mariyaya nifrət də artırdı. Çoxları insanlıqdan kənar qaydada adamların tonqalda yandırılmasına, ərzağın qıtlığına, hət-

ta soyuq yay havasına görə Mariyanı günahlandırırdı.

Kraliçanın əri Filipp nəzakətli və öz borcunu yerinə yetirən ər olsa da, onun çoxlu biabırçı məşğuliyyətləri var idi. O, dini hədə-qorxu siyasətinə də mülayimliklə yanaşmağa çalışırdı. Heç nəyə ümid etmədiyindən ingilis mənafelərinə də qayğı göstərmirdi. Papa IV Pavel də neapollu olmaqla ispanların düşməni idi, Mariya ilə razılaşmırdı. Kraliça və kardinal Poulun hər ikisi 1558-ci ilin noyabrında, eyni gündə öldülər, borclu olduqları adamların çoxunu tərk etməklə, onları ağır vəziyyətdə qoydular. Kraliça Mariyanın siyasətini məhkum edənlər də etiraf etməli idilər ki, onun sonu faciəli oldu. Bu vaxt İngiltərə yeni maddi güc toplamışdı. Həm də 16-cı əsr bütün Qərbi və Mərkəzi Avropa üçün iqtisadi dəyişikliklər dövrü idi. Portuqaliya və İspaniya səyyahları hələ əvvəlki əsrdə səyahətlərə başlamışdılar. Okean ticarətinə ən gec daxil olan ölkə İngiltərə idi. VI Eduardın dövründə ingilis səyyahları Hindistana şimali-şərq yolunu tədqiq etmişdilər və bu Rusiya ilə kommersiya əlaqələri üçün Moskovi kompaniyasının təşkil edilməsi ilə nəticələnmişdi. Xarici ticarət sahəsində bu, ilk ingilis səhmdar kompaniyası idi.

Mariya Tüdorun ölümündən bir neçə saat sonra Vestminsterdəki parlamentdə Elizabet kraliça elan olundu və bunu eşidən londonlular coşqun sevinc nümayiş etdirdilər.

# FƏSİL 13
# RUSİYA DÖVLƏTİNİN MEYDANA GƏLMƏSİ

9-12-ci əsrlərdə Kiyev Rusunda vahid qədim rus xalqı formalaşmışdı, 13-15-ci əsrlərdə onun əsasında rus, ukraynalı və belorus xalqları meydana gəlmişdi. 12-ci əsrdə Mərkəzi Rusiyada Vladimir-Suzdal knyazlığı, Novqorod feodal respublikası əmələ gəlmişdi. 13-cü əsrdə rus xalqı Alekandr Nevskinin başçılığı altında 1240-cı ildə Neva döyüşündə, 1242-ci ildə isə Buz döyüşündə müvafiq olaraq isveç və alman təcavüzünü dəf etmişdi. Həmin əsrdə tatar-monqol basqınına məruz qalmışdı, 250 il ərzində tatar-monqol zülmünə qarşı mübarizə aparmış, 1380-ci ildə Kulikovo döyüşündə Dmitri Donskoyun başçılığı altında Mamayın sərkərdəlik etdiyi tatar-monqol qüvvələrini darmadağın etmişdi. 14-16-cı əsrlərdə Moskva ətrafında bütün şimali-şərq və şimali-qərb Rusunun torpaqlarını birləşdirən mərkəzləşmiş dövlət yaranmışdı. 1450-ci ildən sonra əsrin ortalarında Qərbi Avropa milli dövlətlərin hakimiyyətləri əsaslı surətdə möhkəmlənəndə Şərqi Avropada aparıcı qüvvə kimi Rusiya dövləti irəli çıxdı. Lakin Rusiya Qərbin milli dövlətlərinə bənzəmirdi.

1500-cü ildən başlayaraq Rusiya ilk həlledici addımı atdı və bu yolla Avropanın şərq üslubundakı aparıcı imperiyasına çevrildi. Qərbdə olduğu kimi Rusiya dövlətindən biri və ya bir neçəsi yaxşı inkişaf etdi. İndiki Rusiya ərazilərində bu siyasi birliyin ilk əsasını qoyanların özləri qərblilər olub, isveç vikinqləri idi. Onlar özlərinin Skandinaviyadan Konstantinopola gedən ticarət yollarını himayə etmək niyyəti ilə 10-cu əsrdə Kiyev ətrafında mərkəzləşən öz knyazlıqlarını yaratmışdılar. İki ya üç nəsil içərisində bu vikinqlər öz slavyan mühitləri tərəfindən dil cəhətdən assimilyasiya olundular. Lakin onların yaratdığı Kiyev dövləti 1200-cü ilə qədər qaldı və bu dövlət millətlərin ən böyük Avropa icmasından ibarət idi. Kiyev Rusiya düzənliyinin qərb kənarında yerləşirdi və bu dövlət yüksək orta əsrlərdə Qərbi Avropa ilə yaxın və sıx diplomatik və ticarət əlaqələri saxlayırdı. Misal üçün, 11-ci əsrdə Fransa kralı I Henrix Kiyev printsessası Annaya evlənmişdi və onların oğluna Kiyev adı olan Filipp adı verilmişdi. Bu Qərbə daxil olan ilk əcnəbi adı idi, bu adı isə ruslar Makedoniya çarının, Böyük Aleksandrın atasının adından götürmüşdülər. Qərb mədəniyyətindən başqa, Kiyev hökuməti Qərbin məhdudlaşdırılmış monarxiyasına uyğun idarəetmə hakimiyyətinə - xalq yığıncağı olan veçeyə malik idi.

Lakin 1200-cü ildən sonra dörd əsrlik epoxa yaradan inkişaflar prosesi Rusiya ilə Avropa sivilizasiyası arasında onları ayıran sədd əmələ gətirdi. Bunlardan birincisi Rusiyanın əksər hissəsinin 13-cü əsrdə tatar-monqollar tərəfindən (monqollar və ya tatarlar tərəfindən) işğal edilməsi idi. Hələ erkən 12-ci əsrin ortalarında Kiyev Asiya tayfası olan kumanların basqınlarına məruz qalırdı və

onlara davam gətirmək üçün Kiyev və digər Rusiya knyazlıqlarının sərbəst federasiyası birgə hərəkət edirdi. Bütünlüklə qəddar olan monqolların Uraldan keçərək 1237-ci ildə Rusiya ərazilərinə soxulması isə başqa məsələ idi. Qorxulu Çingiz xanın nəvəsi olan Batının komandanlığı altında monqollar qərbə doğru irəlilədikcə əraziləri viran qoyurdular. Həmin dövrün bir adamının dediyi kimi "bir göz də açıq qalmırdı ki, ölənlər üçün ağlasın".

1240-cı ildə monqollar Kiyevi qarət etdilər və Volqa çayının aşağılarında özlərinin dövləti olan Qızıl Orda xaqanatını yaratdılar. Bu dövlət demək olar ki, bütün Rusiya üzərində təqribən sonrakı iki əsr ərzində öz süzerenliyini qurdu. Rusiyanın geniş ərazilərinə özlərinin birbaşa idarəetmələrinə imkan verən idarəetmə qurumları yaratmaq istəmədiklərindən və ya onu bacarmadıqlarından, monqol xanları bir sıra yerli Rusiya dövlətlərinin mövcudluğuna da dözümlü yanaşırdılar. Onlardan ehtiram və müntəzəm pul təzminatı tələb edirdilər. Bu "tatar boyunduruğu" altında Rusiyanın siyasi inkişafının normal gedişi mümkün deyildi.

Yerli Rusiya knyazlıqları nəticədə monqolları məğlub etdilər və 15-ci əsrdə Rusiyanın çox hissəsini Böyük Moskva knyazlığı - Moskva dövləti altında birləşdirdilər, bu dövlət Rusiyanın şimali-şərq içərilərində yerləşirdi. Moskva Volqanın aşağılarında yerləşən monqol hakimiyyətindən çox uzaq olmaqla Moskovit knyazları öz rəqiblərindən fərqli olaraq monqolların müdaxiləsi olmadan öz qüvvələrini möhkəmləndirirdilər və monqol xanlar nə baş verdiyini anlayanda, artıq bunu dayandırmaq gec idi.

Lakin Moskva Qərbi Avropadan da çox uzaqda yerləşirdi. Buranı Kiyevdən böyük məsafə ayırdığı kimi, Fransa və İtaliyanı bu şəhərlə çox vaxt qarla örtülmüş daha uzun yol ayırırdı. Bu uzaq məsafə Qərblə Moskva arasında əlaqə yaradılmasına mane olurdu. 1386-cı ildə Polşa Litvanın qalxması və 1453-cü ildə Konstantinopolun türklərin əlinə keçməsi ilə işlər daha da pisləşdi və sıx əlaqələr qeyri-mümkün oldu.

Orta əsrlərin əksər dövrlərində Polşa krallığı ikinci dərəcəli dövlət idi, daim alman basqınlarından özünü müdafiə etmək qayğısına qalırdı. Lakin 14-cü əsrdən şərait dramatik qaydada dəyişdi, bu, müəyyən cəhətdən alman gücünün xeyli zəifləməsi ilə, hər şeydən əvvəl isə 1386-cı ildə Polşanın hökmranlıq edən kraliçası Yadviqanın Litva böyük hersoquna ərə getməsi ilə əlaqədar idi. Bu nikah hesabına Polşanın ölçüsü iki dəfə böyüdü və Polşa başlıca ekspansiya dövlətinə çevrildi. Hələ bu hadisədən əvvəl Litva böyük hersoqu öz ərazilərini genişləndirməyə cəhd edirdi, özü də təkcə Baltik sahillərində deyil, Qərbi Rusiya regionları olan Belorusiyada və Ukraynada. Aydın idi ki, Polşa ilə birləşdikdən sonra litvalıların ekspansiya ətaləti artdı. 1410-cu ildə birləşmiş polyak-Litva qüvvələri Tannenberq döyüşündə qonşu Prussiyanı idarə edən alman hərbi ordeni olan tevtonları təəccüblü qaydada məğlub etdilər və 15-ci əsrin əvvəllərində Polşa-Litva sərhədləri şərqə doğru xeyli genişləndi. Bu yeni dövlət bü-

tün Rusiyanı işğal etməyə yaxınlaşırdı. Lakin Polşa-Litva dildə roman katolitsizminə birləşmişdi, lakin onun işğal etdiyi Rusiya xalqlarının çoxu isə Şərq ortodoks kilsəsinə məxsus idi və buna görə də öz yeni hökmranlarına nifrət edirdilər. Moskva Şərqi ortodoksiyası (provalaslav məzhəbi) o qədər narazı idi ki, Polşaya qarşı dini müqavimətin mərkəzinə çevrildi.

15-ci əsrin sonunda Moskva Polşa-Litvaya qarşı hücumçu hərəkət etməyə qadir oldu. Bu yürüşdə onlar həm dini, həm də milli hisslərə müraciət edirdilər. Uzanan müharibə və aralarındakı antoqonizm moskvalılarda belə bir inam yaratmışdı ki, Polşa-Litva bütün qərbi təmsil edir. Bütün Qərb sivilizasiyasına qarşı Moskvanın münasibəti düşmənçilikdən xəbər verirdi.

Kiyev dövləti dövründə Şərq ortodoksiyasına keçid Qərbi Avropa ilə sıx münasibətlərə mane ola bilmirdi, çünki bu vaxt hələ Bizans ortodoksiyası ilə Qərb arasında dini düşmənçilik hələ belə dözülməz deyildi. Bizansın Romaya nifrətamiz münasibəti qərblilərin dördüncü səlib yürüşünün iştirakçıları tərəfindən 1204-cü ildə Konstantinopolun qarət olunmasından başladı. 1453-cü ildə Konstantinopol türklərin əlinə keçəndə, bir roman katolik rıtsarı əlini də qaldırmadı. Konstantinopol yıxıldıqdan sonra moskovitlər belə bir fikrə gəldilər ki, türklərin qələbəsi Bizansın dini xəyanətinə görə ilahi cəzadır və Moskva dövləti xüsusən qızğın olan anti-roman ideologiyasının mərkəzinə çevrildi.

Böyük Moskva knyazlığının imperiyaya çevrilməsində III İvan (1462-1505-ci illər) böyük rol oynadı, o, adətən Böyük İvan kimi tanınır. İvanın birbaşa sələfi olan II Vasili monqolların hökmranlığını ağır mübarizədə devirmişdi, lakin İvan 1480-ci ildə rəsmi qaydada monqol xaqanatına bütün köləliyi məhkum etmək prosesini başa çatdırdı. Bu vaxtdan monqollar Moskvanın gücündən elə qorxmuşdular ki, bir daha heç bir müqavimət göstərmədilər. 1462-ci illə 1485-ci il arasında İvan bir-birinin ardınca Moskva ilə Polşa-Litva arasında qalan bütün müstəqil Rusiya knyazlıqlarını öz dövlətinə anneksiya etdi. Bu fərasətli fateh bütün Belorusiya və Ukrayna ərazilərini qərb sərhədləri boyu tutub aldı. 1505-ci ildə Böyük İvan öləndə Moskvanın Avropa səhnəsində müqayisə olunan dövlət olduğu aydınlaşdı. Bu vaxt ancaq o da müşahidə olunurdu ki, Rusiya mədəniyyəti və hökuməti qərblilərinkinə bənzəmir. Bütün prinsipial məsələlərdə Qərbdən ayrılan Rusiya Qərbin intellektual və mədəni inkişafının əsaslarını qoruyub saxlamırdı. Misal üçün, burada faktiki olaraq heç bir dünyəvi ədəbiyyat yox idi, arifmetika çox cüzi şəkildə tanış idi. Ərəb rəqəmləri işlədilmirdi, tacirlər öz haqq-hesablarını çötkü (abakus) vasitəsilə aparırdılar. Heç bir qayda və adətlər Qərbdə olanlarla müqayisə oluna bilməzdi. Yuxarı siniflərin qadınları rübənd örtürdülər və təcrid olunmuş qaydada yaşayırdılar, uzun saqqal saxlama və köynək xalatları geyinmək keşişlər üçün ümumi hal idi.

Çar III İvanın hökmranlığı dövründə Rusiya birbaşa Şərq üslubundakı siyasi avtokratiyaya və imperializmə keçdi. Bunu İvanın öz üzərinə "bütün rusların çarı" titulunu götürməsi də sübut edir. Bu söz rus dilində "sezar" mənasını ve-

rirdi və bununla İvan Bizans imperatorlarının varisliyinə iddiasını ifadə edirdi. Bu iddiasını möhkəmləndirmək üçün İvan axırıncı Bizans hökmdarının qohumu olan qıza evləndi, öz gerbinə Bizansın ikibaşlı qartalını qəbul etdi və Moskva hökmdarının istehkamlanmış iqamətgahı olan Kremli yenidən qurdu. Bu onun imperial böyüklüyünə işarə idi. İvanın Bizans modellərini qəbul etməsi Rusiyanın gələcəyinin siyasi inkişafı üçün taleyüklü məsələ idi. Buna görə onun varisləri Bizans imperatorlarını təqlid edərək davranışda özlərini Şərq despotları kimi aparırdılar, onlar belə qənaətə gəlmişdilər ki, "nə hökmdara xoşdursa, o da qanun gücünə malikdir". Beləliklə İvan özünü "bütün rusların çarı" elan etməklə təkcə Moskva ruslarının deyil, bütün rusların avtokratik hökmdarı kimi, hətta belorusların və ukraynalıların hökmdarı kimi düşünürdü. Sonrakı hadisələr göstərdi ki, bu, gələcək Rusiya çarlarının ekspansionist siyasətinin başlanğıcı olmaqla, rusların və geniş müxtəliflikdə olan qeyri-rus xalqlarının ən böyük Avropa imperiyasında birləşməsinə yol açdı.

# VI HİSSƏ. HUNLAR VƏ TÜRKLƏR

## FƏSİL 1
## HUNLARIN VƏ TÜRKLƏRİN TARİX SƏHNƏSİNƏ GƏLİŞİ

M.ə. 200-cü illər ətrafında Çinin qərb sərhədlərinə yeni və güclü barbar xalqı olan hsiunq-nular və ya hunların əcdadları meydana gəldi. Onların imperiyasının əsasını Tou-Man qoymuşdu. Lakin o, m.ə. 209-cu ildə öz oğlu Mao-Tun tərəfindən öldürülmüş və sonrakı 35 il davam edən onun hökmranlığı dövründə hsiunq-nular başlıca qüvvəyə çevrilmiş və Çinə təhlükə yaratmışdılar. Bəzi mülahizələrə görə hsiunq-nular skifiyalıların şərq qolu hesab olunur. Çin tarixçilərinin təsvir etdiyi hsiunq-nu köçərilərinin taktikası və strategiyası demək olar ki, Herodotun təsvirindəki skiflərin tətbiq etdikləri ilə eynidir. Çin tarixçilərinə görə hsiunq-nular "su və otlaq tapmaq üçün hərəkət edirdilər və divarları olan heç bir şəhərə və ya daimi yaşayış yerlərinə malik deyildilər və onlar əkinçiliyin hansısa növü ilə məşğul olmurdular". Hsiunq-nuların imperiyasının mərkəzi Monqolustan idi və yəqin ki, bura onların birbaşa nəzarət etdikləri ərazilərin qərb hüdudları idi. Baktriya hsiunq-nu hökmranlığında deyildi, lakin sonuncu yunan-Baktriya çarlığı m.ə. 2-ci əsrin ikinci yarısında iranlı Yüeh-çih tərəfindən viranə qoyuldu. Onları isə məhz hsiunq-nular Çindəki Kansunun qərbində olan köhnə ölkələrindən qovmuşdu. Bu konfederasiyanın bir hissəsi olan Asi tayfası qərbə doğru daha da irəliləyərək Qafqaza daxil olmuşdu, digər Yüeh-çih tayfaları isə birləşib b.e. 1-ci əsrində Kuşan imperiyasını yaratmışdılar, bu imperiya isə Hindistana qədər gedib çıxırdı. İki əsrdən çox müddət ərzində Hsiunq-nu imperiyası Çinlə müntəzəm olaraq müharibə aparırdı və Daxili Asiyada başlıca qüvvə idi. Onlar tədricən böyüyən transkontinental ticarətə nəzarət edirdilər, bu ticarət isə Çini Baktriya vasitəsilə Roma ilə birləşdirirdi. Monqolustandakı qəbir yerlərində çoxlu yerli "heyvan üslubundakı" müxtəlif mənşəli və gözəl əşya nümunələri tapılmışdır. B.e. 48-ci ilində isə daxili mübarizə nəticəsində taqətdən düşərək Hsiunq-nu imperiyası dağıldı. Cənubi Hsiunq-nu kimi tanınan bir sıra tayfalar çinlilərin süzerenliyini tanıdılar və Ordos regionunda məskunlaşdılar. Digər fraksiya olan şimal hsiunq-nuları özlərini Monqolustanda qoruyub saxladılar və 2-ci əsrin ortalarında isə onlar çinlilərin davam edən hücumlarına davam gətirməyib təslim oldular.

M.ə. 1-ci əsrin ortalarında hsiunq-nuların uğursuz siyasi fraksiyası qərbə tərəf hərəkət etdi və onların lideri Çih-çih m.ə. 36-cı ildə öldükdən sonra bu qrup göz önündən yoxa çıxdı. Bir nəzəriyyəyə görə onlar yeni budaq verməyə baş-

ladılar, bu budaq Cənubi Rusiya çöllərində meydana gələn hunlar idi.

Hunlar köçəri çoban xalqı idi və b.e. 370-ci ilində Cənubi-Şərqi Avropaya müdaxilə etdilər və sonrakı 70 il ərzində orada nəhəng imperiya yaratdılar. Bu imperiya artıq Mərkəzi Avropaya doğru genişlənmişdi. 4-cü əsrin ortalarından Volqa çayının arxasından gəlib çıxaraq onlar əvvəlcə Alaniyanı viran qoydular, alanlar Volqa ilə Don çayları arasındakı düzənlikləri tutmuşdular. Sonra hunlar tezliklə Don və Dnestr arasındakı Ostqotların imperiyasını dağıtdılar. 376-cı ilə yaxın onlar təqribən indiki Rumıniyada yaşayan vestqotları məğlub edib Roma imperiyasının Dunay sərhədinə çıxdılar.

Hunlar yəqin ki, primitiv çobanlar olmaqla əkinçilik barədə heç nə bilmirdilər. Onların daimi evləri və çarları yox idi, hər bir qrupa tarixçi Ammianın adlandırdığı kimi, primatlar başçılıq edirdi. Onların 4-cü əsrdə ümumi bir liderə malik olması barədə dəqiq məlumat yoxdur.

Döyüşçü kimi hunlar bütün Avropada görünməmiş qorxu yaratmışdılar. Onlar təəccüblü qaydada at üstündə məharətli oxatanlar idi və onların atlılardan ibarət olan hərbi qüvvəsi, sərt hücumları və gözlənilmədən geri çəkilmələri, strateji hərəkətlərinin sürəti onlara tar-mar edici qələbələr gətirirdi. Vestqotları (visiqotları) darmadağın etdikdən yarım əsr sonra hunlar öz hakimiyyətlərini Mərkəzi Avropadakı bir çox german xalqlarının üzərinə genişləndirdilər və Roma imperiyasını ələ keçirmək üçün vuruşdular. 432-ci ildən başlayaraq müxtəlif hun qruplarının liderliyi bir çar hakimiyyəti altında mərkəzləşdi. Bu çar Rua və ya Ruqila adlanırdı. 434-cü ildə o, öləndə çar taxt-tacını iki qohumu - Bleda və Attila tutdu. Bu iki birgə hökmdar Şərqi Roma imperiyası ilə sülh müqaviləsi barədə danışıqlar apardılar, bu müqaviləyə görə romalılar hunlara ödədikləri pul məbləğini ikiqat artırmaqla razılaşdılar.

Hunların çarı Attila 434-cü ildən 453-cü ilə qədər hökmranlıq etməklə Qərbi Avropada "Allahın bəlası" kimi tanınırdı. Axı o, ən böyük barbar hökmdarlarından biri idi ki, Roma imperiyasına hücum etmişdi. Ondan xeyli əvvəl, hələ 4-cü əsrdə Mərkəzi Asiyanın şimalından köçəri xalq olan hunlar Avropada bir çox işğallara başlamışdılar. Öz böyük qardaşı Bleda ilə Attilanın imperiyası qərbdə Alplardan və Baltik dənizindən, şərqdə Xəzər dənizinə qədər uzanana kimi görünürdü. Şərqi Roma imperiyası sülh müqaviləsinə görə ildə 700 funt (300 kiloqram) qızıl verməklə əvvəlki bacın məbləğini iki dəfə artırmalı olmuşdu. 430-cu illərin sonuna qədər Attila öz torpaqlarındakı şimala və ya şərqə tərəf olan barbar xalqları özünə tabe etməklə məşğul olmuşdu. Şərqi Roma imperiyası nəzərdə tutulan bacı ödəməyə gəlmədikdə və onlar qərbdəki və şərqdəki sərhədləri tutduqda, Attila imperiyanın Dunay sərhədinə güclü hücum başladı. O, bir çox mühüm şəhərləri, o cümlədən indiki Belqradı işğal etdi. Şərqi romalılar sonrakı il üçün atəşkəsə razılıq əldə etdilər və Qərbdən qüvvələrini geri çəkdilər. Lakin 443-cü ildə Attila öz hücumunu yekunlaşdırdı və imperiyanın içərilərinə daxil olub Nis və Sofiya şəhərlərini dağıtdı. Sonra o, Kons-

tantinopola tərəf döndü, Şərqi Romanın başlıca qüvvələrini uğurlu döyüşlərdə məğlub etdi və Konstantinopolun şimalından və cənubundan dənizə gəlib çatdı. Lakin hun oxatanları üçün paytaxtın iri divarlarına hücum etmək əbəs bir iş idi. Ona görə də Attila imperiya ordusu qalıqlarının üstünə cumdu və Qalliopi yarımadasına çəkilən bu qoşunları darmadağın etdi. Bu dəfə bağlanılan müqaviləyə əsasən Şərq imperiyası bacın 6 min funt (2700 kiloqram) qızıl kəsirini ödəməklə yanaşı, ildə 2100 funt (950 kiloqram) qızıl məbləğində bac verməli oldu.

Attila qardaşı Bledanı 445-ci ildə öldürdükdən sonra avtokratik hökmdar kimi hökmranlıq edirdi və 447-ci ildə Şərqi Romaya ikinci böyük hücum etdi. O, Vid çayı yanında Şərqi imperiyanın qüvvələrini məğlub etdi, lakin özü də ağır itkilər verdi. Sonra o, Balkan əyalətlərini viran qoydu, Yunanıstana girdi. Yenə Şərqi Roma imperatoru II Teodosinin diplomatları ilə danışıqlar getdi. Müharibəni başa çatdıran müqavilə əvvəlkindən daha sərt idi. Şərqi romalılar Dunaydan cənubdakı geniş ərazilərdən köçməyə məcbur edildi və bac ödəməsini davam etdirməli idi. Hunlar qarətçiliklə yanaşı, romalılardan tutduqları əsirləri onlara satırdılar. Bu sərvət axını onların cəmiyyətinin xarakterini də dəyişirdi.

Onun 451-ci ildə Qalliya müdaxiləsi kimi növbəti böyük kampaniyası başladı. O dövrdə Qərbin real hökmdarı olan Roma generalı Aetsi ilə dostluq şərtləri əsasında bura daxil olmuşdu və bu səbəbdən məlumat verməmişdi. Attila elan etdi ki, onun Tuluzda mərkəzləşən Vestqot çarlığı ilə işi vardır, bu çarlıq isə Roma imperiyasının bəzi hissələrini işğal etmişdi və onun özünün Qərbi Roma imperatoru III Valentianla heç bir sözləşməsi olmamışdı. Lakin imperatorun bacısı Honoriya əvvəlki il ona üzük göndərib xahiş etmişdi ki, bu qızın girməli olduğu nikahdan onu xilas etsin. Attila sonra Honoriyanın özünün arvadı olduğunu bəyan etdi və qızın cehizi kimi Qərbi imperiyanın yarısının ona verilməsini tələb etdi.

Attila artıq Qalliyaya girmişdi və bu vaxt Aetsi vestqot çarı I Teodorixlə razılığa gəlmişdi ki, hunlara müqavimət göstərmək üçün qüvvələri birləşdirsinlər. Attila Orleanı demək olar ki, işğal edəndə müttəfiqlər gəlib çıxdılar. Hunlar şəhərin içərisində dayaq əldə edəndə Aetsi və Teodorixin qoşunları onu geri çəkilməyə məcbur etdi. Həlledici döyüş Katalaun çölündə baş verdi. Qızğın vuruşda vestqot çarı öldürüldü, bu döyüşdən sonra Attila geri çəkildi və qısa müddətdən sonra Qalliya ərazisini tərk etdi. Bu onun birinci və yeganə məğlubiyyəti idi.

Hunlar 452-ci ildə İtaliyaya müdaxilə edib Akvilla, Padua, Verona, Berqamo, Milan da daxil olmaqla bir sıra şəhərləri qarət etdilər. Aetsi onları dayandırmaq üçün heç nə edə bilmədi. Lakin aclıq və bubon taunu həmin il İtaliyada meydan suladığından hunları Apennin dağlarını keçməyə imkan verməməklə, ölkəni tərk etməyə məcbur etdi. 453-cü ildə Attila, yeni imperator Martsian bac verməkdən imtina etdiyinə görə Şərqi imperiyaya hücum etmək niyyətində idi. Lakin özünə toy etdiyi gecəsi Attila yuxuda olarkən öldü. Onu dəfn edənlər və

xəzinədarları hunlar tərəfindən öldürüldü ki, onun qəbri heç vaxt açılmasın. Onu varis kimi oğlanları əvəz etdi və imperiyanı öz aralarında bölüşdürdülər. Qələbələri onun yüksək sərkərdə qabiliyyətinə malik olduğuna şəhadət verir.

Attila ailəsində hərbi liderlik varisliyə çevrildi və o, özü həm dinclik, həm də müharibə dövründə avtokratik hakimiyyətə malik idi. O, nəhəng imperiyasını "seçilmiş adamlar" vasitəsilə idarə edirdi, onların başlıca vəzifəsi idarə etmək və tabe olan xalqlardan qida və bac toplamaq idi. Həmin vəzifələrə adamları Attila özü təyin edirdi. Attilanın ölümündən sonra onun çox sayda oğulları imperiyanı öz aralarında bölüşdürdülər. Onlar üsyan qaldırmış öz təbəələri ilə bir sıra baha başa gələn mübarizələr apardılar və 455-ci ildə başqa tayfalar (gepide, ostroqot, heruli və digərləri) birləşərək Pannoniyadakı böyük döyüşdə onları son dəfə tar-mar etdilər. Şərqi Roma hökuməti həmin vaxtdan hunlara öz sərhədlərini bağladı. Bununla da hunların tarixdə əhəmiyyətli rol oynamasına son qoyuldu və onların sosial və siyasi birliyi tədricən dağıldı.

B.e. 4-cü əsrinin son on illiklərində Monqolustanda yeni, güclü imperiya yarandı. Çin xronikaları onları öz əcdadlarından açıqca fərqləndirir. Onların tarixi öz qonşularına, xüsusən çinlilərə qarşı arası kəsilməyən kampaniyalardan ibarət idi. 552-ci ildə Juan-juan imperiyası dünya tarixində mühüm nəticələrə səbəb olan inqilab tərəfindən dağıdıldı. Juan-juan imperiyasının içərisində yaşayan türk tayfası qiyam qaldırıb hakimiyyəti ələ keçirdi. Bu tayfa metallurgiyada ixtisaslaşmışdı. Türklər öz imperiyalarını yaratdılar və iki əsrə yaxın Asiyada aparıcı qüvvəyə çevrildilər. Türklər tarixdə ilk dəfə türk dilində danışan xalq kimi tanınır və Daxili Asiyanın birinci xalqıdır ki, öz yazılı məlumatlarını qoyub getmişdir. Yazılı matəm stellaları indiyədək Monqolustanda qalır və onların çoxu Orxon gel - Orxon çayı yaxınlığında olmaqla, böyük linqvistik və tarixi əhəmiyyətə malikdir. Bu yazılar çoban köçəri dövlətinin yaranmasına və daxilinə nüfuz edilməsində türk baxışını əks etdirir. Bu dövlət isə öz qüdrətinin ən yüksək dövründə Çin sərhədindən Bizansa qədər uzanırdı.

Türk imperiyasının banisi xaqan titulunu daşıyan Bumin juan-juanlara qalib gəldikdən az sonra öldü. Bundan azacıq sonra imperiya iki hissəyə bölündü. Buminin oğlu Muhanın 553-572-ci illərdə idarə etdiyi şərq hissəsinin mərkəzi Monqolustanda idi. Buminin qardaşı İşteminin (553-573-cü illərdə hökmdar olmuşdu) idarə etdiyi qərb hissəsinin mərkəz yeri isə güman ki, İli və ya Çu vadisində yerləşən Ektaqh idi. Sasanidlərlə ittifaqda türklər 560-cı ildə Heftalit imperiyasına hücum edib onu məhv etdi və bu qələbə vasitəsilə Çindən Bizansa gedən İpək yoluna nəzarəti ələ keçirdi. Persiyalılar Soqdiana tacirlərinə azad keçməyə könülsüz icazə verdiyindən, bu tacirlər isə türklərin xeyrinə transkontinental ticarəti həyata keçirirdilər, türklər Bizans ilə birbaşa əlaqə qurmaq yolunu axtarırdılar. 567-ci ildə soqdianalı Maniakhın başçılıq etdiyi səfirlik Konstantinopola gəlib çıxdı və onları imperator II Yustin qəbul etdi. İmperator da onun düşməni Sasanidlərin şərqində güman edilən müttəfiqlər qazanmaqda

maraqlı idi. Sonra hər iki imperiya dəfələrlə səfirliklər mübadiləsi etdi, lakin bu əlaqələr Sasanidlərə qarşı səmərəli hərbi ittifaq yaranması ilə nəticələnmədi.

İşteminin varisi Tardunun (573-603-cü illərdə hökmranlıq etmişdi) başçılığı altında Türk imperiyası çiçəklənməkdə davam edirdi və onların qərbə ekspansiyası Bizans sərhədlərinə çatdı. 598-ci ildə imperator Maurisə məktubunda Tardu özünü "yeddi irqin başçısı və dünyanın yeddi iqliminin ağası" adlandırır. Həmin vaxtdan etibarən Şərqi Türk imperiyası müəyyən mənada daxili çəkişmələr nəticəsində ciddi çətinliklərlə üzləşdi. Bu çətinlikləri əmələ gətirən səbəblərdən digəri çinli Sui sülaləsinin Daxili Asiyada cəsarətli siyasət aparması idi. Zəifləyən şərqi türk hakimiyyəti üstünlüyü qərb türklərinə verdi və belə görünürdü ki, Türk imperiyasının iki hissəsi arasında təməl həmrəylik qorunub saxlanır. Onların hər ikisi çinlilərin hücumlarının qurbanı oldu. 630-cu ildə Tan imperatoru Monqolustanı işğal etdi və 659-cu ildə çin qüvvələri qərbdə Buxaraya və Səmərqəndə qədər soxuldular və qərb türklərini özlərinə tabe etdilər.

Lakin bu heç də türklərin qəti məğlubiyyəti deyildi. 683-cü ildə onlar qiyam qaldırdılar və xaqan Elterişin (683-692-ci illərdə hökmranlıq etmişdir) başçılığı altında Türk imperiyası yenidən doğuldu və yenidən birləşdi. Müvəqqəti olaraq geri çəkilən Türk imperiyası indi Monqolustanda mərkəzləşmişdi və sonrakı yarım əsr ərzində Karaxanın və Bilgenin hökmranlıqları altında imperiya xeyli inkişaf etdi, lakin bir qədər sonra yenidən parçalandı. Öz dövlətlərinin qısa müddət davam edən möhkəmliyinə baxmayaraq, türklərin tarixi rolu əhəmiyyətli idi. Onlar Çinə, İraqa, Hindistana və Bizansa birləşdilər və türk dilində danışan bütün xalqlara öz adlarını verdilər.

745-ci ildə türklərin yerini uyğurların tutması dövlət çevrilişindən az əhəmiyyətli idi. Faktiki olaraq türk və uyğur dilləri arasında elə bir fərq yox idi, baxmayaraq ki, idarə edən təbəqə yenicə yaranmış Uyğur dövlətinin sərhədləri daxilində uzun müddət qalmadı. Yeni imperiya çoxlu tayfalardan ibarət idi və bu konfederasiyaya uyğurlar başçılıq edirdi. Bu federasiya Çin mənbələrində "Doqquz Klan" adlanır, islam qaynaqlarında və Orxon yazılarında isə bu "Doqquz Oğuz" adlanır. Uyğur imperiyasının bir xüsusiyyəti var idi ki, onda ikili başçılıq mövcud idi. Xaqan bir tayfaya məxsus idi, baş nazir isə əlində səmərəli hakimiyyəti cəmləməklə, başqa tayfaya mənsub idi. Çinlə əlaqələr uyğur xarici işlərində aparıcı amil hesab olunurdu. Çinlilər üçün onlarla münasibət qurmaq hsiunq-nu və türklərə nisbətən asan idi. Onların üsyanlar vaxtı çinlilərə kömək göstərməsi lazımınca qiymətləndirilmişdi və onun əvəzini Çin özü üçün o qədər də faydalı olmayan şərtlərlə ticarət aparmaqla ödədi. Üçüncü uyğur xaqanı Çində Lo-yanqa səfər etdikdə burada iranlıların dini olan manixeizmi qəbul etmişdi. Bu hadisə uyğur torpağına çoxlu soqdianalıları cəlb etdi, onların dövlət işlərinə artan müdaxiləsi türk uyğurlarının qəzəbinə səbəb olmuşdu və həmin xaqanın öldürülməsinə gətirib çıxardı.

Uyğur imperiyası Karabalqasun şəhərindən idarə olunurdu, bu şəhərin əsa-

sını türklər qoymuşdular. Bu şəhərə 821-ci ildə səfər etmiş müsəlman səyahətçisi Tamim ibn Bahr, becərilən torpaqları olan ərazidə yerləşməklə, bu istehkamlanmış şəhərin heyranedici şəraitdə olduğunu görmüşdü. Bu çoban köçəri mövcudluğunun ənənəvi mənzərəsinə heç cür bənzəmirdi. 840-cı ildə digər türk xalqı olan qırğızlar Monqolustanda uyğur hökmranlığına qəflətən son qoydular. Yenisey çayının yuxarılarından gələn qırğızlar pozulmuş uyğurlardan da aşağı mədəni səviyyəyə malik idilər. Onların siyasi ambitsiyaları bu xalqı Çinə qarşı müharibə aparmağa gətirib çıxarmadı. Qırğızlar az sayda olan xalqlardan biri idi ki, monqol qabarmasından salamat çıxa bilmişdilər. Qırğız müdaxiləsi uyğur hakimiyyətinə son qoysa da, xalqı məhv edə bilmədi. Qaçan uyğur dəstələri Çin sərhədindəki Kansu əyalətində və Şərqi Türküstandakı Turfan regionunda məskunlaşdı. Bu ərazilər 8-ci əsrin sonundan uyğur protektoratları idi. Turfan vahələrinə geri çəkilən uyğur qaçqınları dörd əsr ərzində ömür sürən, olduqca stabil və inkişaf edən çarlıq yaratdılar. Regionun quru iqlimi hesabına çox sayda tikililər, divar rəsmləri və müxtəlif dillərdə yazılmış manuskriptlər salamat qalmışdır. Bu sənədlər mürəkkəb, həm də nəcib sivilizasiyadan xəbər verir. Burada buddizm, manixeizm və xristianlıq bir-birilə yan-yana yaşayırdılar, bu dinlərə türklərlə yanaşı tokharianlar, soqdianalılar və regionda yaşayan digər İran xalqları sitayiş edirdilər.

Monqol işğalları vaxtı gəlib çatanda uyğurlar özlərinin ən yaxşı mədəni ənənələrinə uyğun olaraq yaşayırdılar. Uyğurların hökmdarı Barçuk müqavimətin əbəs olduğunu və yalnız ölkəsini məhvə aparacağı qənaətinə gələrək, öz iradəsi ilə monqollara tabe oldu. Uyğur qulluqçuları və mirzələri Monqol imperiyasının ilk "mülki xidmətçiləri" idi və onlar öz işğalçılarına nəcib sivilizasiya təsirini göstərdilər.

Bizə məlum olan kitanlar monqol dilində danışan ilk xalq idi. 5-ci əsrdən başlayaraq haqqında məlumat verilən bu xalq Mancuriya meşələrində yaşayırdılar, türklərlə olduğu kimi uyğurlarla da ünsiyyət saxlayırdılar. 924-cü ildə onların lideri qırğızları məğlub edərək, uyğurlara öz keçmiş ölkələrində yenidən məskunlaşmağa imkan verdi. Kitanlar Çinin şimalını işğal edərək həmin ərazini Liao adlanan sülalənin (947-1125-ci illər) hökmranlığı altında idarə etmişdilər. Bu vaxt uyğurlar Monqol imperiyasının əsarətinə düşmüşdülər. Soqdiana yazısı uyğurlar tərəfindən istifadə edildiyindən, monqollar da bu yazını qəbul etdi, sonradan həmin yazı monqolların vasitəsilə mancurlara keçmişdi.

# FƏSİL 2
# OSMANLI İMPERİYASININ YARANMASI VƏ İŞĞAL SİYASƏTİ

1250-ci illərə yaxın Asiyadan yeni müdaxilələr başlandı. 5-ci əsrdə hunlar, 9-cu əsrdən isə macarlar Asiyadan partlayışla çıxan kimi, 13-cü əsrdə tatarlar və ya monqollar meydana çıxdı, onların arxasınca 14-cü əsrdə Osmanlı türkləri gəldi. Hunların və macarların kiçik dəstələri demək olar ki, Atlantik okeanına qədər olan ərazini müqavimətsiz olaraq kəsib tuta bildilər. Müqayisə olunmayan qaydada daha möhkəm olan tatarlar Rusiyaya axışdılar, 1241-ci ildə polyak və macar ordularını məğlub etdilər, lakin onlar latın Qərbinə nüfuz edə bilmədilər. Osmanlı türkləri isə 1350-ci il ətrafında Balkan yarımadasına keçə bildilər, burada qurulmuş Serbiya çarlığını məhv etdilər və Rumıniyadan Yunanıstana qədər olan bütöv regionu özlərinə tabe etdilər. 1453-cü ildə Konstantinopol özü türklərə təslim oldu. Tatarlar Rusiya düzənliklərinə, türklər isə Balkan yarımadasına və Konstantinopola nəzarət edirdilər, şərqi və ya yunan ortodoks xristianlığı bu vaxt bütünlüklə müsəlman hökmranların siyasi ağalığına keçdi.

14-cü əsrin başlanğıcından Kiçik Asiyada, Anatoliyada meydana gələn və banisinin adını daşıyan kiçik Osmanlı dövləti qısa müddətdə qüvvətlənərək ətraf əraziləri işğal etməyə başladı. Ona görə də Osmanlı tarixinin ilk dövrü demək olar ki, arası kəsilməyən ərazi ekspansiyası ilə xarakterizə olunur. Onun ərazisi özəyində kiçik Şimali-Qərbi Anatoliya knyazlığından başlayaraq Cənubi-Şərqi Avropanı, Anatoliyanı və ərəb dünyasını əhatə etdi. Həmin dövrdə Orta Şərqin siyasi, iqtisadi və sosial institutları Bizansdan irs götürməklə Mərkəzi Asiyanın böyük türk imperiyasının birləşməsi prosesində əridi, bu ərazidə yeni formalar meydana gəldi.

Ekspansiya siyasətinin başında türk qazilərinin və ya döyüşçülərinin liderləri dururdu. Onlar islam dini uğrunda, zəifləməyə başlayan Bizans imperiyasına qarşı vuruşurdular. Sülalənin başçısı Osmanın əcdadları Oğuz türkmənləri köçəriləri kütləsində Anatoliyaya daxil olmuşdular, onlar 1071-ci ildə Manzikert döyüşündən sonra Bizansa axışmışdılar və 12-ci əsr ərzində Anatoliyanın şərq və mərkəzi hissəsini işğal etmişdilər. Qazilər bizanslılarla yanaşı İlxanilər imperiyası dövründə Anatoliyaya müdaxilə edən monqollara qarşı da vuruşmuşdular. Bu imperiya İranda və Mesopotamiyada 13-cü əsrin ikinci yarısında meydana gəlmişdi. 1293-cü ildə Səlcuq ordusu tərəfindən monqolların məğlubiyyətinin ardınca I Osman Şimali-Qərbi Anatoliyada Vifiniya knyazlığının sərhədində hökmdar (əmir) kimi meydana çıxdı və o, bu ərazidə bizanslılara qarşı döyüş aparan qazilərə komandanlıq edənlərdən biri idi. Səlcuq dövləti parçalandıqda və onun yerini monqol süzerenliyi tutduqda, Anatoliyanın şərqi-

nin çox hissəsini birbaşa hərbi yolla işğal etməyə məcbur oldular və onun qalıq hissəsində müstəqil türkmən knyazlıqları yarandı. Onların içərisində Osmanın başçılıq etdiyi knyazlıq da var idi. Osman və onun bilavasitə varisləri qərbdə Bosforla sərhəddə və Mərmərə dənizindən qərbə tərəf olan Bizans ərazilərinə hücumlarını cəmləşdirdilər. Bizansın müsəlman rəqiblərinin çoxunu arxada qoyub osmanlılar köçəri kütlələrini özlərinə cəlb etdilər, şəhərin işsiz adamları ilə birlikdə onlar öz yaşayışları üçün lazım olan şeyləri əldə edir və dini arzularına uyğun olaraq islamın ərazilərini genişləndirirdilər. Osmanlılar Bizansın sərhədlərinin müdafiə sisteminin zəifləməsindən də fayda əldə edirdilər. Bizans imperiyasındakı iqtisadi, dini, sosial narazılıq da onların xeyrinə işləyirdi.

I Osman və onun varisləri Orxan (1324-1360-cı illərdə hökmranlıq etmişdi) və I Murad (1360-1388-ci illər) əvvəlcə Qərbi Anatoliyadakı Bizans ərazilərini tutmağa başladılar. Sonra isə Avropanın cənubi-şərqinin işğalı başlandı. Yalnız I Bayezidin (1389-1402-ci illər) başçılığı altında əvvəlki ekspansiyalardan əldə edilmiş sərvət və qüvvədən şərqdəki Anatoliya knyazlıqlarını özlərinə birləşdirmək üçün istifadə etdilər.

1300-cü ildən başlayaraq Osman Eskişəhərdən (Dorilayum) İznik (Niseya) düzənliklərinə qədər uzanan ərazini idarə edirdi. Bunu əldə etmək üçün, bizanslıların onların ekspedisiyasını cilovlamaqdan ötəri etdikləri çoxlu cəhdləri dəf etmişdilər. Bizanslılar şərqdən olan osmanlılara qarşı ilxanilərin köməyini əldə etmək cəhdində də uğursuzluğa uğramışdılar. İmperatorun Qərbi Avropadan aldığı muzdlu qoşunlar Bizansa öz ərazisində türklərdən daha çox ziyan vurmuşdular. Lakin bu vaxt osmanlıların səmərəli mühasirə qurğuları yox idi və ona görə də Vifiniyanın başlıca şəhərlərini tuta bilmirdilər. Anatoliyanın cənubi-qərbindəki qüdrətli Aydın və Karasi türkmən qonşularına qarşı da hərəkət edə bilmirdilər. Onlar bu ərazidə Bizansın zəifləməsi nəticəsində əmələ gəlmişdilər.

Orxanın 1324-cü ildə Bursanı işğal etməsi knyazlığın əsl dövlətə çevrilməsi və onun ordu yaratmaq üçün inzibati, maliyyə və hərbi gücə malik olmaq səviyyəsinə yüksəlməsini sübut edirdi. Orxan öz hərbi siyasətini xristian muzdlu qoşunlarından istifadə etməklə başladı, bu onun həm köçərilərdən asılılığını azaltdı, həm də dövrün tələblərinə cavab verən qüvvəyə malik olmasına imkan verdi. Tezliklə o, Şimali-Qərbi Anatoliyada qalan Bizans şəhərlərini tutmağa qadir oldu. 1330-cu illərdə İznik, İzmit, Üsküdar zəbt edildi. Sonra isə üzünü cənubdakı başlıca türkmən qonşularına tərəf çevirdi. Daxildəki münaqişələrdən istifadə edib, 1345-ci ildə Karasini öz ərazisinə birləşdirdi və Mərmərə dənizinə gəlib çıxdı. Sonra o, muzdlu qoşunlardan istifadə etməkdə Aydının mənfəətli inhisarına son qoydu və Bizans imperatorunun müttəfiqi kimi Aydının yerini tutdu.

Osmanlı qoşunlarının Avropaya daxil olması onlara Bizansın tənəzzülü nəticəsində əmələ gələn işğal üçün birbaşa imkan verirdi. Hökmdarı Umur bəyin

ölümündən sonra Aydının süqutu osmanlıları Bizansa qarşı qazilərin yeganə liderinə çevirdi. Orxan Bizansda imperator taxt-tacının dəyişilməsinə də müdaxilə edirdi və bunun mükafatı kimi Frakiyanı qarət etmək hüququ qazanmışdı və yeni imperatorun qızı Teodoraya evlənmişdi. Frakiyaya ardıcıl olaraq basqınlar baş verirdi. Ələ keçirilən qənimətin nəhəng miqdarı Osmanlı dövlətini möhkəmləndirirdi və Anatoliyada kökü kəsilməmiş minlərlə kütlə Osmanlı xidmətinə daxil olurdu. 1354-cü ildə Orxanın oğlu Süleyman Dardanelin Avropa tərəfinə keçərək Qalliopidə Avropa ekspansiyası üçün daimi baza yaratdı. Bu bazadan onun dəstələri Adrianopola (Edirnəyə) qədər Balkanların içərilərinə yürüş edirdilər. Türklərlə əlaqəyə girdiyinə görə Bizans imperatoru devrildi və Avropa türk təhlükəsinin genişlənməsindən artıq hali olmalı idi.

Yalnız Orxanın oğlu I Muradın dövründə Qalliopi daimi işğallar üçün istifadə edildi. Konstantinopolun divarları qalın və yaxşı müdafiə edilən olduğundan paytaxtı ötüb keçmək lazım gəlirdi. Öz müdafiəçilərinin zəifliyinə və bölünmələrinə baxmayaraq, şəhər Osmanlı ordusunun əvvəlki nümunələri üçün çox güclü qala kimi qalmaqda davam edirdi. Muradın ilkin işğalları Frakiyanın şimalına girməklə baş verdi və öz yüksək nöqtəsinə Bizans imperiyasının ikinci şəhəri olan Adrianopolun 1361-ci ildə tutulması ilə çatdı. Onun adını Edirnəyə dəyişib şəhəri osmanlılar özlərinin yeni paytaxtı etdilər və bu onlara Frakiyaya inzibati və hərbi cəhətdən nəzarət etməyə imkan verdi. Konstantinopol və Dunay arasında başlıca qala olmaqla, şəhər Balkan dağlarından keçən başlıca müdaxilə yoluna nəzarət edirdi, onları öz Avropa işğallarını ləngitməyə inandırırdı, həm də şimala doğru sonrakı ekspansiyalara yol açırdı.

Murad sonra Maritsa vadisinə keçdi, Konstantinopolun başlıca taxıl mənbələrinə və vergi gəlirlərinə nəzarət Murada imkan verdi ki, imperatoru onun süzerenliyini qəbul etməyə məcbur etsin. Serbiya imperatoru öldükdən sonra olduqca parçalanmış və zəif ölkə qalmışdı və bu hətta Macarıstan kralı və Bolqarıstan kralı ilə ittifaqda osmanlılara qarşı ilk Avropa səlib yürüşündə onu məğlub etməyə imkan verdi. Bizans imperatoru Konstantinopol və Roma kilsələrini birləşdirmək üçün Avropanın köməyini səfərbər etməyə cəhd göstərdi, lakin Qərbdən hansısa kömək almağa heç bir əminlik almadan Bizansın daha da parçalanması ilə üzləşdi. Murad Avropadakı vassallarının Osmanlı imperatoru elan edildi. O, yerli milli hökmdarları saxlayırdı, onlar isə bunun əvəzində onun süzerenliyini qəbul edirdilər, illik bac ödəyirdilər və tələb olunanda onun ordusunu döyüşçü ilə təmin edirdilər. Bu siyasət işğallarına qarşı olan yerli müqavimətdən qaçmağa osmanlılara imkan verirdi, hökmdarları və onların təbəələrini əmin edirdi ki, əgər onlar dinc qaydada Osmanlı hökmranlığını qəbul etsələr həyatları kimi əmlakları da, adətləri, mövqeləri də qorunub saxlanacaqdır. Bu osmanlılara isə yeni işğal edilmiş əraziləri nəhəng inzibatçılıq sistemi qurmadan yalnız öz inzibatçılıqları və ya işğal qarnizonu yaratmaqla idarə etməyə imkan verərdi.

İmperiyanın Dunaydan cənuba konsolidasiyası sürətlə gedirdi. Murad Makedoniyanı, Mərkəzi Bolqarıstanı işğal etdi və 1389-cu ildə isə Kosovo çölündə (Serbiyada) keçən məşhur Kosovo döyüşündə Balkan ittifaqını ağır məğlubiyyətə uğratdı. Dunaydan cənubda yalnız Valaxiya, Bosniya, Albaniya, Yunanıstan və Serbiya fortu olan Belqrad hələ osmanlılara məxsus deyildi, şimalda isə müsəlmanların irəliləməsinə təkcə Macarıstan müqavimət göstərirdi. Kosovo döyüşü vaxtı Murad onun düşərgəsinə gəlmiş serb vətənpərvəri tərəfindən öldürülmüşdü. Onun oğlu I Bayezid atasının qələbəsindən fayda götürüb Avropada sonrakı işğalları həyata keçirməyə qadir deyildi, o, məğlub edilmiş vassallarını bərpa etməyə məcbur oldu və Anatoliyaya qayıtdı ki, Səlcuq imperiyasının buradakı xarabalıqları üzərində yaradılmış və paytaxtı Konya olan Karaman türkmən knyazlığının törətdiyi təhlükəni dəf etsin.

Bayezidin sələfləri türkmən ərazilərini güc vasitəsilə anneksiya etməkdən vaz keçərək diqqəti Avropa işğalları üzərində cəmləşdirmişdilər. Onlar nikah ittifaqları və əraziləri satın almaq yolu ilə dinc qaydada torpaqları genişləndirmişdilər. İlk dövrlərdə Karamanla birbaşa əlaqədə Mərkəzi Asiyadakı Həmid və Germiyan əmirliklərindən torpaqları ələ keçirmişdilər və yenicə aldıqları torpaqların Karaman tərəfindən işğalının qarşısını almaq üçün Murad bir sıra hərbi tədbirlər həyata keçirməyə məcbur olmuşdu. Lakin Avropaya dönmək lazım gəldiyindən bu problemin həll edilməsini öz varis oğlunun ixtiyarında qoyub həyatı tərk etmişdi.

Karaman Avropada və Anatoliyada Osmanlı hökmranlığına qarşı çıxmaq üçün Serbiya ilə qüvvələrini birləşdirdi. Bu osmanlıların Kosovoda darmadağın etdiyi Balkan ittifaqı idi və Anatoliyada başlayan baş qiyamı isə Bayezid açıq hücumla qarşılamağa məcbur oldu. 1390-cı ilin sonunda Bayezid onları məğlub etməklə Anatoliyanın qərbindəki türkmən knyazlıqlarının bütün qalıqlarını anneksiya etdi. Bir il sonra isə o, Karamana hücum edib onu məğlub etdi, Şərqi Anatoliyadakı bir neçə türkmən dövlətini anneksiya etdi. Lakin bu zonada işğalları başa çatdırmağa hazırlaşarkən, bir sıra Balkan vassallarının qiyamı ilə əlaqədar olaraq Avropaya dönməyə məcbur oldu. Bu vaxt ona Macarıstan və Bizans köməklik göstərdi.

Bayezid üç il ərzində qiyamları darmadağın etdi, Bolqarıstanı tutdu və onu əvvəlcə birbaşa Osmanlı inzibatçılığı altında idarə etdi və Konstantinopolu mühasirəyə aldı. Buna cavab kimi Macarıstan osmanlılara qarşı başlıca Avropa səlib yürüşünü təşkil etdi, lakin bu cəhd geri oturduldu. Avropa dəhşətə gəlmişdi və Dunayın cənubunda Osmanlı hökmranlığı artıq aydın idi. Bayezidin nüfuzu islam dünyasında da böyümüşdü və ona sultan titulu verilmişdi.

Səlibçilərə qarşı öz hərəkətini yarımçıq qoymaqla Anatoliyada işləri başa çatdırmaq üçün ora dönən Bayezid bütünlüklə sonuncu türkmən knyazlığı olan Karamanı 1397-ci ildə viran qoydu. Bu vaxt Mərkəzi Asiyada qüdrətli imperiya qurmuş Teymura diqqət verməyə məcbur olduğundan onun irəliləməsi da-

yandı. Bu imperiya həm də İranı, Əfqanıstanı və Mesopotamiyanı əhatə edirdi və onun 1398-ci ildə Hindistana müdaxiləsi hesabına qalxan Osmanlı qüdrətinin qərb tərəfə yayılmasını da onun qorxusu dayandırdı. Bayezidin ərazilərini tutduğu bir neçə türkmən hökmdarı Teymurun sarayına qaçaraq onu Bayezid imperiyasını dağıtmağa sövq etdilər. Ona görə də Hindistanda kampaniyanı başa çatdırmamışdan Anatoliyaya müdaxilə etməyi qərara aldı. Bayezid və Teymur bir-birilə vuruşmağa irəliləyərkən türkmən vassalları və müsəlman ardıcılları dinsizlərə qarşı mübarizədə köhnə Osmanlı qazi ənənəsindən uzaqlaşdıqlarına görə Bayezidin yanından qaçmışdılar. O, yalnız xristian vassallarının verdiyi qoşunlarla qalmışdı. 1402-ci ildə Ankara döyüşündə Teymur qəti qələbə çaldı və qalib tərəfindən əsir götürülən Bayezid bir ilin içərisində öldü.

Teymurun məqsədi Anatoliyanı qəsb etmək deyildi, onun qələbəsindən sonra ona birləşən türkmən hökmdarlarını öz hakimiyyətlərinə bərpa edib Anatoliyadan geri çəkildi. Hətta Bayezidin oğlanları da Qərbi Anatoliyadakı öz əvvəlki ailə torpaqlarına nəzarəti saxlamağa qadir idilər və Osmanlı imperiyasının Avropadakı ərazilərinin böyük hissəsinə toxunulmadı. Bu vaxt qüvvətli Avropa səlib yürüşü osmanlıları Avropadan bütünlüklə vurub çıxara bilərdi, lakin Dunayın cənubunun zəifliyi və bölünmüş qaydada olması və şimalda vəziyyətin dəyişməsi osmanlılara imkan verdi ki, ciddi itkiyə yol vermədən, dağıdılmış parçaları yenidən bərpa edə bilsin. Lakin daxildəki bölünmələr isə öz dövlətini bərpa etməkdə osmanlıların cəhdlərinə mane olurdu. Bayezidin dörd oğlu varislik uğrunda mübarizə aparırdı. Onun böyük oğlu Süleyman Avropada nəzarəti əlinə keçirdi və paytaxt kimi Edirneni seçdi. O, xristian vassallarından və Bayezidi Şərqdəki işğallara sövq edənlərdən dəstək alırdı.

Avropadakı erkən Osmanlı işğallarına kömək göstərmiş türkmən adlı-sanlı adamlarının törəmələri Mehmetin iddialarını dəstəkləyirdilər. O, üstəlik Anatoliyadakı müsəlman dini ordenlərindən və sənətkar gildiyalarından kömək alaraq öz qardaşlarını - paytaxtı Bursada olan Musa bəyi və Balikesirin hökmdarı İsa bəyi məğlub edib, öldürdü. O, Süleymanı da məğlub etməklə öldürməyə müvəffəq oldu. Beləliklə o, sultan I Mehmet adı altında bütün imperiyanın torpaqlarını heç bir mübahisəyə ehtiyac olmadan öz hökmranlığına tabe etdi. O, 1413-cü ildən başlayaraq yeddi il ərzində hökmranlıq etdi.

Mehmetin və II Muradın (1421-1451-ci illərdə sultan olmuşdur) hökmranlığı altında yeni ekspansiya dövrü başlandı və nəinki Bayezid imperiyası bərpa olundu, hətta ona yeni ərazi əlavələri edildi. Mehmet Bolqarıstan və Serbiyada vassal sistemini bərpa etdi və yeni vassal hökmdarlarını əmin etdi ki, Avropada yeni məcaralara əl atmayacaqdır və dövlətin içərisində öz mövqeyini bərpa edəcəkdir. II Murad həmçinin öz hökmranlığının ilk illərində vaxtının çoxunu daxili problemlərə həsr edirdi, xüsusən də qazi komandanlarının cəhdləri və Avropadakı Balkan vassal hökmdarlarının məsələləri ilə məşğul olurdu. Ankara döyüşündən sonrakı onillik ərzində hətta müstəqillik qazanmış və muxtariy-

yətini saxlayan Anatoliyadakı türkmən vassalları və hökmdarları da az çətinliklər törətmirdilər.

1422-1423-cü illərdə Murad Balkan müqavimətini yatırtdı və Konstantinopolu yenidən mühasirəyə aldı və yalnız bizanslıların böyük məbləğdə bac verməsindən sonra bu mühasirələrə son qoyuldu. Sonra o, Anatoliyada Osmanlı idarəçiliyini bərpa etdi, Karaman və Kandar istisna olmaqla, Teymurun qoyub getdiyi bütün türkmən knyazlıqlarını ləğv etdi. Sonra Murad Venetsiya ilə 1423-1430-cu illərdə gedən ilk müharibəni başladı. Bu vaxta qədər Venetsiya Osmanlı ərazilərində və Qara dəniz zonasında güclü ticarət mövqeyini qoruyub saxlamaq üçün sultanlarla dostluq əlaqələrində olurdu. Lakin Adriatik dənizini Venetsiya gölü hesab etdiyindən Osmanlı ekspansiyasının Makedoniyadan keçməsinin qarşısını almaq üçün Salonikanı Bizansdan qəbul etdi. Müharibə uzun dövr ərzində öz sonuna çatmırdı. Venetsiyanın diqqətini özünün İtaliya ilə münaqişəsi yayındırmışdı, osmanlılara isə Venetsiya ilə uğurlu rəqabət aparmaqdan ötəri dəniz qüvvələrini yaratmaq üçün vaxt lazım idi. Üstəlik, Muradın da diqqətini Macarıstanın Valaxiyada öz hökmranlığını qurmaq cəhdi yayındırmışdı. Başlanan Osmanlı-Macarıstan münaqişələri qalan hissələri də işğal etməyə şərait yaratdı.

Nəhayət Murad Saloniki blokadaya almağa qadir olan donanma yarada bildi və onun ordusu Saloniki tutdu. Dəniz reydləri ilə isə Adriatik və Egey dənizlərində Venetsiya limanlarına hücum etdi və 1432-ci ildə Venetsiya sülh bağlamağa məcbur oldu. Bu razılığa görə osmanlıların Adriatik dənizində irəliləməsinin qarşısını almaq cəhdlərindən əl çəkdi və sultanın torpaqlarında onun aparıcı kommersiya gücü rolu oynamasına icazə verildi.

Türklərin adlı-sanlı adamları tərəfindən taxt-taca oturdulan Murad onun mövcudluğunun birinci əsrində Osmanlı dövlətini birləşdirdi, həmin adamlar isə əvəzində aldıqları hakimiyyət müqabilində Avropanın və Anatoliyanın işğal edilmiş ərazilərində yeni malikanələr tikdilər. Onların gücünə qarşı dayanmaq üçün Murad müxtəlif qeyri-türk qruplarını xidmətə götürməklə öz dövlətini qurmağa başladı, onlar xüsusən xristian qullarından və öz əvvəlki dinindən islama keçənlərdən təşkil olunurdu, bu hərbi ordu *yeniçeri* korpusu adlanan yeni piyada qüvvələrindən ibarət olurdu. Bu qrupları möhkəmləndirmək üçün Murad yeni işğal edilmiş torpaqları onun üzvləri arasında bölürdü, üstəlik bu növdən olan yeni dəstəkləyənləri əlavə etmək üçün məşhur *devşirme* sistemini inkişaf etdirdi. Bu sistem üzrə Balkan əyalətlərindən xristian gəncləri götürülüb islama keçirilirdi və onlar öz həyatlarını sultana xidmətə həsr etməli idilər. Öz gəlirlərinin və üzvlərinin çoxalması ilə *devşirme* adamları və onların ardıcılları gözlədikləri siyasi hakimiyyətə nail oldular. Yeni Avropa işğalları sultan tərəfindən devşirmeni türk adlı-sanlı adamlarına bənzər qaydada formalaşdırırdı, ona görə də birincilər onların davam etməsini və genişlənməsini istəyirdilər, axırıncılar isə onlara müxalif idi.

Murad Avropa ekspansiyasındakı təcavüzkar siyasətinə qayıtmaq istəyirdi ki, devşirmenin köməyi ilə türk adlı-sanlı adamlarının gücünü azaltsın, ona görə də Serbiya və Valaxiyada Macarıstanla mübarizəni təzələdi. O, Macarıstan kralı Siqizmundun ölümündən istifadə edib, Belqrad istisna olmaqla, Serbiyanı yenidən işğal etdi və Macarıstanın çox hissəsini qarət etdi, sonra Serbiyanı anneksiya etdi. Bununla da bütöv imperiyada vassalların yerini birbaşa Osmanlı idarəçiliyinin tutması siyasətinə başlandı. Belqradda Macarıstanın nəzarəti bu vaxt Dunaydan şimala doğru irəliləmə üçün başlıca maneəyə çevrildi. Transilvaniyada onların üzərinə osmanlıların hücumu və reydləri uğursuz oldu. Nəhayət, Murad macarları məğlub etdi və saraydakı türk adlı-sanlı adamlarının təsiri ilə sultan 1444-cü ildə Adrionopol sülhünü bağlamağa razı oldu. Bu sülhün şərtlərinə görə Serbiya muxtariyyətini saxladı. Macarıstan Valaxiya və Belqradı özündə saxladı və osmanlılar Dunayın şimalına reydlər etməyə son qoyacaqlarını vəd etdilər.

Həmin ili Murad özünün Anatoliyadakı başlıca düşməni olan Karamanla sülh bağladı və dini müşahidələr aparmaq üçün istirahətə yollandı və taxt-tacı könüllü surətdə bu vaxt çox gənc olan oğlu II Mehmetə verdi. Lakin o, artıq özünün rəhbərlik qabiliyyətini göstərmişdi və özünün uzun hökmranlığı dövründə bu istedadı ilə də fərqləndi.

Bizanslılar və Papa gənc sultanın mövcudluğundan yaranan imkandan istifadə edib osmanlıları Avropadan sıxışdırıb atmaq istədilər. Bu məqsədlə Macarıstan və Venetsiyanın yeni birləşmiş səlib yürüşü təşkil edildi və Papa onları əmin etdi ki, müsəlman dinsizləri ilə müqaviləyə görə heç bir şərəf məsələsi ilə bağlı deyillər. Səlib ordusu bütün Serbiyadan hərəkət edib Balkan dağlarından keçərək Varnada Qara dənizə gəlib çıxdı, burada onlar ehtiyatla təmin edilib Venetsiya donanmasında Konstantinopola gəldilər ki, Bosfor boğazından keçib türklərin Anatoliyadan geri dönməsini qabaqlasınlar. Səlibçilər Varnaya gəlib çıxsalar da, serbiyalılar sultana loyal olaraq qalırdılar, venetsiyalılar da öz ticarət bazarlarını itirmək qorxusu altında bu işə könülsüz gedirdilər. Sonra səlibçilərin rəhbərləri arasında mübahisə baş verdi və bu osmanlılara Anatoliyaya dönüb orada yeni ordu təşkil etməyə imkan verdi. 1444-cü ilin sonunda türklər Varnada qələbə çaldılar və bu, osmanlılara qarşı Avropanın sonuncu mühüm səlib cəhdini başa çatdırdı. Murad bu vaxt yenidən taxt-tacı özünə götürdü, özü ilə birlikdə hakimiyyətə *devşirme* partiyasını qaytardı. Onların işğal barədəki israrlı tələbi Muradı hökmranlığının qalan dövrünü vassalları ləğv etməyə və Frakiyada, Makedoniyada, Bolqarıstanda və Yunanıstanda birbaşa idarəetməni qurmağa sərf etməyə sövq etdi. Bu prosesdə o, yeni ələ keçirilən torpaqları mülklərə böldü və onlardan gələn gəlir *devşirmelərin* qüdrətini artırdı. Yalnız Albaniya öz milli qəhrəmanı Skanderbeqin - Georgi Kastriotinin başçılığı altında müqavimət göstərməyə qadir idi. 1448-ci ildəki ikinci Kosovo döyüşündə sultan tərəfindən o, darmadağın edildi. 1451-ci ildə Murad öləndə Dunay sər-

hədi qorunub saxlanırdı və bu göstərirdi ki, Osmanlı imperiyası Avropada qalacaqdır.

Varnadakı qələbə *devşirme* partiyasına yeni qüvvə gətirdi. Baş vəzir Kandarli Halil paşa Türk adlı-sanlı adamları üçün aparıcı mövqeyi qoruyub saxlamağa müvəffəq oldu və öz əleyhdarlarını parçalaya bildi. Prints Mehmet devşirmenin namizədinə çevrildi və onun taxt-taca çıxması ilə onlar siyasi və hərbi hakimiyyətə yüksələ bildilər. Buna onların əvvəlki iki onillikdəki yaratdıqları maliyyə imkanları da xeyli kömək etdi.

Sultan II Mehmetin hökmranlığı (1451-1481-ci illər) altında *devşirme* aparıcı qüvvəyə çevrildi və onlar Varnanın yaratdığı situasiyadan daha tam fayda götürmək üçün yeni işğalların aparılması istiqamətində təzyiq göstərirdilər. Konstantinopol onların birinci məqsədinə çevrildi. Mehmetə və onun ardıcıllarına görə osmanlıların Avropada torpaqlarının genişləndirilməsi heç vaxt başa çatmırdı və bu şəraitlə razılaşmırdılar ki, imperiyaları nə qədər böyük olsa da, onun təbii inzibati və mədəni mərkəzi onların əlində deyildir. Sultanların birinci məsləhətçisi olan baş vəzir və digər türk adlı-sanlı adamları hücuma qarşı çıxırdılar. Çünki bu yeni səlib yürüşünü meydana gətirə bilərdi. Əslində isə onlar qorxurdular ki, Bizans işğal edilsə bu *devşirmeni* öz zəfərinə gətirib çıxaracaqdır. 1453-cü ilin iki ayı ərzindəki Konstantinopolun mühasirəsi mayın 29-da başa çatdı və Konstantinopol işğal edildi. Şəhərin İstanbul adını almaqla, osmanlının paytaxtına çevrilməsi imperiyanın tarixində mühüm yeni vəziyyətlə əlamətdar oldu. Daxili münasibətlər nöqteyi-nəzərindən bu türk kübarlığının hakimiyyətinin və nüfuzunun sona çatdığını göstərdi, onların liderləri tezliklə edam edildilər və ya sürgün edildilər, onların mülkiyyəti müsadirə edildi. Bu həm də *devşirmenin* və onların ardıcıllarının zəfəri oldu. Xarici münasibətlərə görə isə II Mehmet müsəlman dünyasının ən məşhur hökmdarına çevrildi, baxmayaraq ki, köhnə xilafətin torpaqları hələ də Misirdə məmlyüklərin, İranda isə Teymurun varislərinin əlində qalırdı. Mehmet təkcə islam və türk dünyasında ağalıq etmək istəmirdi, o, həmçinin Bizans imperiyasını yenidən yaratmaq və mümkün olsa, bütün xristian aləminə sahib olmaq ambitsiyası ilə yaşayırdı.

Bu məqsədlərinə çatmaq üçün II Mehmet öz hakimiyyətinə müxtəlif dayaqlar düzəldirdi. Ölkəsi daxilində onun başlıca məsələsi İstanbulu əvvəllər ağalıq etdiyi ərazidə siyasi, iqtisadi və sosial mərkəzə çevirmək, bərpa etmək idi. Bunu başa çatdırdıqdan sonra o, şəhəri yenidən məskunlaşdırmaqla məşğul oldu. Köhnə sakinlərlə yanaşı, buraya imperiyanın bütün işğal edilmiş xalqlarından adamlar gətirdi. Bununla o, qüdrətli və inteqrasiya edilmiş bütöv imperiya yaratmaq istəyirdi. Paytaxtda "daha fəal və bacarıqlı təbəələrinə məskunlaşmalara maraq yaratmaq üçün o, vergi güzəştləri tətbiq edirdi, başlıca dinlərə özləri tərəfindən idarə olunan icmalar yaratmağa icazə verilirdi. Bu icmalar dini rəhbərlərin başçılığı altında yaranmaqla millətlər adlanırdı, hər icma öz mülki qanunlarına, ənənələrinə və dilinə malik olmaqla, onları ümumilikdə sultan

himayə edirdi. Mehmet həmçinin şəhərin abadlaşdırılmasına da qayğı göstərirdi, köhnə tikililər təmir edildi, küçələr, körpülər salındı, akveduklar tikildi, şəhərin sanitariya səviyyəsi müasirləşdirildi. Şəhər sakinlərinin tələbatının ödənilməsi üçün geniş təchizat sistemi yaradıldı. İstanbulun sənayesini və ticarətini bərpa etmək məsələlərinə böyük diqqət verildi, imperiyanın hər yerindən tacirləri və sənətkarları cəlb etmək üçün xüsusi güzəştlər işə salındı.

Mehmet vaxtının çoxunu dünya ağalığı iddiasına uyğun olaraq Avropada və Asiyada öz torpaqlarının genişləndirilməsinə sərf edirdi. Bunun sonunda o, Bizans və Səlcuq sülalələrinin qanuni varisi olmaqla, onun iddiasını şübhə altında qoya biləcək axırıncı hökmdarlıqları ləğv etdi və onların yerinə birbaşa Osmanlı inzibatçılığında olan qalmış vassal hökmdarları təyin etdi. Üstəlik o, II Muraddan miras qalmış əraziləri xeyli genişləndirdi. 1463-cü ilə qədər olan doqquz il ərzində o, başlıca olaraq diqqətini Cənubi-Şərqi Avropada cəmləşdirdi, Serbiyanı anneksiya etdi, Moreanı işğal etdi və Bizans taxt-tacına olan sonuncu əsas iddiaçıları məhv etdi. Venetsiya özünün Egey dənizi sahilindəki mühüm Morea fortlarını təslim etməkdən imtina etdikdə Mehmet ikinci Venetsiya-Osmanlı müharibəsini 1463-cü ildə başladı. Bu müharibə on altı il müddətinə uzandı. Elə həmin dövrdə Trabzonu anneksiya etdi və Qara dəniz boyu Anatoliya sahillərində bu vaxtadək toxunulmamış Genuya kommersiya koloniyalarını da öz ərazilərinə birləşdirdi. Burada Sinon və Kafa kimi şəhərlər var idi. Sonra Krım tatarlarının xanlarını Osmanlı süzerenliyini qəbul etməyə məcbur etdi. 1463-cü ildə o, Bosniyanı işğal edib anneksiya etdi, ona yerli yevangelist xristian sektası olan boqomillər kömək etdi, onlara katolik xristianlar pis münasibət bəsləyirdilər.

Albaniya yenə də özünü imperiyadan kənarda qoruyub saxlayırdı, onlara Venetsiyadan maddi kömək göstərilirdi. Sonra Mehmet Albaniyanı işğal edib adamları orada məskunlaşdırmaqla müsəlman icması yaratdı. Bu vaxt Papalıq və Venetsiya artıq yeni səlib yürüşü qaldırmaq iqtidarında deyildi, lakin onlar Mehmetin Şərqdəki düşmənlərini – Karaman türkmən knyazlığını və tatar Ağ Qoyunlu sülaləsini onun üstünə qaldırmağa sövq etməyi bacardılar. Bu vaxt Ağ Qoyunlulara Teymurun İrandakı törəmələrinin yerini tutan Uzun Həsən başçılıq edirdi. Mehmet isə sülalə parçalanmasından bacarıqla istifadə edərək 1468-ci ildə Karamanı işğal etdi, Osmanlı hökmranlığını Anatoliyadan Fərata qədər çatdırdı. Bu vaxt Uzun Həsən bir çox türkmən hökmdarları ilə birlikdə Anatoliyaya müdaxilə etməklə cavab verdi, Venetsiya isə Moreaya hücumlarını intensivləşdirdi. Macarıstan Serbiyanın içərilərinə hərəkət etdi və Skanderbeq Bosniyaya hücum etdi. Ancaq Mehmet öz düşmənlərinə bir-birinin ardınca qalib gələ bildi. 1473-cü ildə o, Uzun Həsəni darmadağın etdi və bütün Anatoliyada Osmanlı hökmranlığını talayıb, İrana döndü. Bu, osmanlıları Suriyadakı Məmlyük imperiyası ilə münaqişəyə cəlb etdi. Mehmet onları məğlub edə bilmədiyindən neytrallaşdırmağa məcbur oldu. Sonra o, Venetsiyanın

üzərinə qayıtdı və Adriatik sahili boyu etdiyi bir sıra dənizçilik reydləri 1479-cu il sülhü ilə nəticələndi. Venetsiya Albaniyadakı və Moreadakı öz bazalarını itirdi və öz kommersiya imtiyazlarının bərpa edilməsi üçün müntəzəm olaraq illik bac ödəmək şərti ilə razılaşdı.

Mehmet sonra özünün yeni hərbi-dəniz qüvvələrini böyük qüvvə ilə İtaliyanın cənubundakı Otrantoya göndərdi. Həmin qüvvələr Rodosa hücum etdi. Asan qələbə çalınacağı gözlənəndə, Mehmetin 1481-ci ildə vaxtından əvvəl ölümü onun bu cəhdinə son qoydu. Lakin o, Anatoliyada və Cənubi-Şərqi Avropada Osmanlı hökmranlığının əsasını qoydu və bu imperiya sonrakı dörd əsr ərzində mövcudluğunu saxlaya bildi.

İri imperiyanı işğal etməklə yanaşı, Mehmet bu imperiyanın konsolidasiyası üzərində işləyirdi, siyasi, inzibati, dini və qanuni institutları kanunnamə adlanan bir sıra hüquq kodekslərinin köməyi ilə inkişaf etdirilmişdi. Məsələnin nəhəngliyinə görə, həm də Mehmetin diqqəti saysız-hesabsız hərbi kampaniyalara yönəldiyindən bu proses xeyli uzandı və yalnız 16-cı əsrin ortalarında başa çatdı. Lakin Mehmet öz imperiyasının iqtisadi və sosial dayaqlarını qurmaqda böyük uğur qazanmışdı. Onun ən böyük problemi öz hərbi ekspedisiyalarını maliyyələşdirmək üçün kifayət qədər pula malik olması idi. Digər tərəfdən hökumətin və cəmiyyətin yeni aparatını yaratmaq üçün ona pul lazım idi. Öz sələflərindən irs götürdüyü vergi sistemi müntəzəm olaraq pul əldə etməyə imkan vermirdi, xüsusən də yeni işğal edilmiş torpaqların əksəriyyəti mülklərə çevrildiyindən onların vergiləri bütünlüklə həmin malikanələri saxlayanlara çatırdı, bunun əvəzində isə onlar hərbi və inzibatçılıq xidməti göstərirdilər. Mehmetin işğalları bəzi məsələləri birbaşa həll etməyə gətirib çıxarsa da, ciddi iqtisadi və sosial çətinliklərlə müşayiət olunurdu. O, ardıcıl qaydada bütün sikkələri dövriyyədən yığışdırırdı və daha iri dəyərdə olan yeni sikkələr buraxırdı, daha dəyərli sikkələr sərbəst qaydada yenilərinə dəyişdirilə bilməzdi. Bu sürətli inflyasiyaya gətirib çıxardı və sultanın kömək etmək istədiyi sənayeyə və ticarətə böyük ziyan vurdu. Üstəlik Mehmet gəlir axtarışlarında istehsal üzərində inhisar qoydu, bu isə qiymətlərin artmasına şərait yaratdı. Axırda o, belə bir prinsip qoydu ki, bütün gəlir gətirən mülkiyyət sultana məxsusdur. Buna nail olmaq üçün o, çox sayda özəl mülkiyyəti və dini idarələrə məxsus olan torpaqları müsadirə etdi, bununla da nəhəng ölçüdə hiddət və özünə müxalifət yaratdı. Narazıların arasında dini "üləma sinfi, Türk adlı-sanlı adamları və hətta bəzi devşirme adamları var idi. Onların narazılığı dövlətin və sultanın dayaqlarına təhlükə törədirdi. Bu qruplar həm də bir-birinə qarşı mübarizə apardığından Mehmet öz mövqeyini və hakimiyyətini qoruyub saxlamağa və öz işğallarını davam etdirməyə qadir oldu.

Osmanlı sülalələri sadə tayfa başçılarından daxili sərhəd hökmdarlarına *(uç bey)* və qazi liderlərinə çevrildi. Onlar 13-cü əsrdə və 14-cü əsrin əvvəllərində Səlcuq və İlxanilərin süzerenliyi altında idilər. Bursanın işğalı ilə Orxan özünü

süzerenlərindən müstəqil elan etdi və bey titulunu qəbul etdi, bu titul Qahirədəki Abbasi xəlifəsinin kölgəsi kimi I Bayezid sultan adlanana qədər onun varisləri tərəfindən istifadə edildi. Sultan adını isə Bayezid Nikopol döyüşündə xristian səlibçiləri üzərində qələbə çaldıqdan sonra qəbul etmişdi. *Uç bey* və hətta *bey* kimi Osmanlı liderləri azacıq tayfa başçılarından yuxarı idilər, öz mövqelərini onları əhatə edən türkmən başçılarının inzibati və hərbi liderliyi ilə bölüşürdülər. Tayfa başçıları kimi Osmanlı lideri öz ardıcıllarını qələbəyə apardığı dövr ərzində onların loyallığına və itaətinə malik olurdu və bu münasibət onun hərbi fəaliyyəti ilə əlaqədar olurdu. Bundan başqa o, şurada bərabər olanlardan yalnız biri idi, şura isə ümumi daxili siyasət məsələlərini həll edirdi. Öz daxili işlərində tayfalar və klanlar muxtariyyətlərini saxlayırdılar. Bey öz ardıcılları kimi tayfa və klan başçıları tərəfindən qəbul edilən idi. O, klanlar arasındakı müzakirədə iştirak edirdi, lakin onun qərar vermək imkanı məhdud idi. Müsəlman qanunu və hüquqşünasları kiçik təsir gücünə malik idi, türk tayfa qanunu və adətləri üstün hüquqa malik idi. Belə bir şəraitdə hökmranlıq ideyası çox məhdud idi. İnzibatçılıq isə başlıca olaraq maliyyə məsələləri ilə məhdudlaşırdı, hər bir klan, ailə və ya tayfa əsasən maliyyə faydasına görə osmanlıların hərbi liderliyini qəbul edirdi. Osmanlı başçıları işğal edilmiş torpaqlarda qəniməti toplayır, işğaldan sonra isə onun mülkiyyətində qalan torpaqlardan vergi yığırdı. Bunun yeganə faydası *beyin* onu əhatə edən başçılardan üstün olması idi, onun tayfası da lider olurdu və bu hüquq *pençik* adlanırdı, bu hüquqla onun ardıcıllarının götürdüyü qənimətdən əlavə daha beşdə birini yığmaq səlahiyyəti verilirdi. Ona görə də bey öz hakimiyyətində və gəlirlərində öz ardıcıllarından asılı olurdu, onun hakimiyyəti sfera və vaxt baxımından məhdud idi.

Osmanlı knyazlığının ərazisi genişləndikcə və bizanslıların irs qoyub getdiyi inzibati aparata sahib olduqca, bu sadə tayfa təşkilatının yerini daha mürəkkəb idarəetmə forması tutdu. Beləliklə Osmanlı hökmdarları sultana çevrildikləri vaxtdan onlar artıq daha geniş qüdrətə və hakimiyyətə malik oldular. Osmanlı *beyinin* sadə tayfa təşkilatı dövlət kiçik olduqca yararlı idi. Bu vaxt fərdi tayfa başçıları öz torpaqlarında qalırdılar və qonşuluqdakı düşmənlə vuruşurdular. Lakin knyazlıq genişləndikcə sərhədlər və düşmənlər əvvəllər işğal edilmiş ərazilərdən uzaqlaşırdı, vətəndəki maliyyə və inzibati fəaliyyət hərbi fəaliyyətdən ayrılırdı. Vergilər işğal edilmiş əraziləri istismar etmək və uzaqda olan zabitləri və əsgərləri saxlamaq üçün yığılmalı idi.

Sultanın xəzinəsi də dövlətinkindən ayrı olmalı idi və onların hər biri müstəqil gəlirə və təşkilata malik idi. 14-cü və 15-ci əsrlər boyu Osmanlı dövləti tədricən öz idarəetmə institutlarını və ordunu inkişaf etdirdi ki, genişlənmiş imperiyanın inzibati və müdafiə ehtiyaclarını ödəməyə qadir olsun. Bu həyata keçiriləndə onun təsiri, osmanlıları tabe edilmiş dövlətlərin də təsirinə məruz qoydu, özü də bu təsir təkcə onların yenicə idarə etdikləri ərazilərdə deyil, həm də öz əcdadlarının torpaqlarında da hiss olunurdu. Həmçinin Osmanlı

dövləti inkişaf etdikcə Mərkəzi Asiyadakı köçəri türk imperiyalarının ənənələrinin təsirinə məruz qaldı, xüsusən bu təsir hərbi təşkilatda və taktika məsələlərində nəzərə çarpırdı. Abbasilərin yüksək islam klassik sivilizasiyasının təsiri az əhəmiyyət kəsb etmirdi. Bu təsir Səlcuqlar vasitəsilə keçmişdi və inzibati, dini, hüquq və təhsil institutlarının dayaqlarını təşkil edirdi. Maliyyə və inzibati sistemin birləşməsində bu təsir özünü daha aydın büruzə verirdi. Saraydakı ierarxiya mərkəzləşdirilmiş maliyyə quruluşu, vergi və inzibati təşkilatlar Avropa əyalətlərində inkişaf etdirilmişdi, burada Bizansın, nisbətən az ölçüdə isə Serbiya və Bolqarıstan imperiyalarının təsiri mövcud idi. Həmin dövrdə işğal edilmiş əhalidən islama keçmək tələb olunmurdu, xristianların və yəhudilərin bir çoxu yeni imperiyada tam hüquqlarını saxlamaq üçün könüllü surətdə dinlərini dəyişirdilər. Ancaq əksəriyyət isə heç bir məhdudiyyət olmadan öz köhnə dininə sitayiş etməyini saxlayırdı. 14-cü əsr ərzində xristian təsirinin xüsusi mühüm mənbəyi Osmanlı və xristian sarayları arasındakı yaxın nikah əlaqələri idi. Sultan Orxan Bizans imperatorunun qızı Teodoraya evlənmişdi. Həmin qadın I Muradın anası idi, Murad isə öz növbəsində Bizans və Bolqarıstan printsessalarına evlənmişdi. I Bayezid Serbiya hökmdarı Lazarın qızı Despina ilə nikah bağlamışdı. Bu nikahların hər biri Osmanlı sarayına xristian ardıcıllarını və məsləhətçilərini gətirmişdi. Onların təsiri altında I Bayezid xüsusi qaydada öz sələflərinin sadə köçəri saraylarını və təcrübələrini tərk etmişdi və özünü əsasən bizanslılardan götürdüyü nəcib saray ierarxiyaları və mərasimləri arxasında təcrid etmişdi. Elə bu vaxt Osmanlı saray həyatında yunan və serb dilləri aparıcı rol oynayırdı, onun inzibatçılığında isə bu təsirlər nisbətən az yayılmışdı.

Bu proseslər sultanları öz təbəələrindən ayırırdı, həm də onları idarəetmənin gündəlik inzibatçılıq işlərindən uzaqlaşdırırdı. Rəsmi inzibatçılıq institutları öz yerlərini tutmaq üçün inkişaf etməli idilər, hökmdarlar öz səlahiyyətlərinin getdikcə daha çoxunu icraçı nazirlərinə ötürürdülər, onlara səlcuqlar vəzir titulunu vermişdilər. Osmanlı ailəsi ilə şəhər gildiyaları və Anatoliya qaydaları arasında davam edən yaxın əlaqələr idarəetməni islam türk ənənələri ilə təmin edirdi. Osmanlı ailələrinin üzvlərinin çoxu böyük Səlçuq və İlxani imperiyalarının qulluqçularının törəmələri idi. Onlarla da islam inzibati və maliyyə təşkilatının birləşməsinin əsasları gəldi. Mərkəzi inzibatçılıq funksional şöbələrə bölündükcə, vəzir onları birbaşa istiqamətləndirməyə, idarə etməyə başladı. Erkən vəzirlərin əksəriyyəti Osmanlı xidmətinə daxil olmuş keçmiş türkmən hökmdarları idi. I Bayezidin dövründə isə vəzirlərin bir neçəsi xristianlar və xristianlıqdan müsəlmanlığa keçmişlər idi. Dövlət siyasəti bu vəzirlərin şurasında – *divanda* müzakirə və həll edilirdi, bu vəzirlər dini, hüquqi və hərbi liderlər tərəfindən sultanın rəhbərliyi və sədrliyi ilə birləşirdi. Dövlətin vəzifələri daha geniş və mürəkkəb olduqca vəzirlər şəxsən artan maliyyə və siyasi hakimiyyətə yiyələnirdilər. Bizansın təsiri ilə sultan özünü işlərdən təcrid edirdi, ona görə

də vəzirlər labüd qaydada ağalıq etməyə başlayırdılar. Sultanın gündəlik işlərdən uzaqlaşmasının ən yüksək nöqtəsi onun vəzirlərdən birini özünə baş nazir təyin etməsi oldu, bu vəzifə baş vəzir adlanırdı. 1360-cı ildən Konstantinopolun işğalına qədər bu qüdrətli vəzifəni Çandarli ailəsinin üzvləri tutdu, onlar qüdrətli Türkmən adlı-sanlı ailələrini təmsil edirdilər və 14-cü əsrdə imperiyanın genişlənməsindən çox fayda götürmüşdülər.

İlk Osmanlı ordusu bütünlüklə türkmən köçərilərindən təşkil olunmuşdu, onlar əsasən öz tayfa və klan liderlərinin komandanlığı altında qalırdılar. Yay-oxla və nizələrlə silahlanmış köçəri süvarilər başlıca olaraq qənimət hesabına yaşayırdılar, lakin sərhəd zonalarında olan qazilərə və işğala göndərilənlərə isə onların qarnizonu dayandığı torpaqlardan yığılan vergilərdən daimi gəlir çatırdı. Mülklərin, lenin osmanlı forması isə *timar* adlanırdı. Özünü ənənəvi qənimət formaları ilə saxlayan orduda qayda yaratmaq isə çətin idi. Köçərilərin yerini tutmaq üçün Orxan ayrıca daimi ordu yaratdı, bu yeni qüvvə qənimət və ya timar mülkü ilə saxlanılanlardan daha çox maaş verilən muzdlulardan təşkil olunurdu. Bu muzdlular *yaya* adlanan piyada qüvvəsini, *müsəlləm* adlanan süvariləri təşkil edirdi, baxmayaraq ki, bu yeni dəstələrə bəzi türkmənlər də daxil olurdu. Onlar qənimət əvəzinə maaş almağa razı olurdular, əksəriyyəti isə Balkanlardan olan xristian əsgərləri idi. Osmanlı komandanlığının tabeliyində olanda onlardan müsəlmanlığa keçmələri tələb olunmurdu. I Murad Avropanın cənubi-şərqinin daha çox hissəsini işğal etdikcə bu qüvvələr əsasən xristianlardan ibarət idi və onlar Osmanlı ordusunda aparıcı qüvvəyə çevrildikdən sonra köhnə türkmən süvarisi başlıca olaraq qənimətlə özünü dolandırmaqda davam edirdi. *Yayalar* və *müsəlləmlər* sayca artdıqca Osmanlı xəzinəsi üçün maaş məbləği ağır, öhdəsindən gəlmək mümkün olmayan yükə çevrildi. Çünki yeni işğal edilmiş torpaqların çoxu komandanlar tərəfindən *timar* qismində götürülürdü.

14-cü əsrin sonlarında I Murad və I Bayezid hərbi qul dəstələrindən sultan üçün öz şəxsi qüvvələrini yaratmağa cəhd etdilər. Onlar *kapıkulları* (“qapı qulları) və ya *porta* (fransızca “qapı“ deməkdir) qulları adlanırdılar. Murad yeni hərbi qüvvəyə müharibə qənimətinin beşdə birinə sahib olmaq hüququnu verdi, bura döyüşdə götürülmüş əsirlər də daxil edilirdi. Bu adamlar xidmətə daxil olanda islama keçirdilər və osmanlılar kimi məşq edirdilər, bilik qazanır və ordudakı kimi idarəetmədə iştirak etmək üçün təcrübə əldə edirdilər. Bu vaxt onlar sultanın şəxsi xidmətində qalırdılar. 14-cü əsrin sonunda bu qüvvə, xüsusən də onun *yeniçeri* (“yeni əsgərlər“) korpusu adlanan piyada qoşunu Osmanlı ordusunun ən mühüm elementinə çevrildi. Əyalət qüvvələri *timar* sahibləri tərəfindən təchiz edilməklə, sipahilər adlanan süvari dəstəsindən ibarət idi. I Bayezid qazi ənənəsini tərk edəndə və Anatoliyanın içərilərinə hərəkət edəndə yeni *kapıkulu* ordusunu tam təşkil edəndən əvvəl Türk adlı-sanlı adamlarının və onların *sipahilərinin* köməyindən məhrum oldu. Bununla da o, Ankara döyüşündə yalnız xristian vassal qüvvələrinə arxalandı və bu

qüvvələr gözlənilən cəsarət və vuruş qabiliyyəti nümayiş etdirdi, təkcə onlar Teymurun qüdrətli ordusuna kifayət qədər müqavimət göstərə bilmədilər. Osmanlı imperiyası I Mehmet tərəfindən bərpa ediləndə Türk adlı-sanlı adamları müsəlmanları qul kimi saxlamağın əleyhinə olan islam ənənələrinə zidd olduğuna görə kapıkulunu tərk etməyi tələb etdilər ki, sultanı yeganə hərbi qüvvədən məhrum etsinlər, çünki sultan onların müqavimətinə qarşı bundan istifadə edə bilərdi. II Muradın dövründə qalxan Avropa və Anatoliya qiyamları kapıkulları üzvlərinin dəstəyinə güvəndiyindən onların itirilmiş qüdrəti Türk adlı-sanlı adamlarına keçmişdi. Lakin II Murad sultanlığı daha müstəqil etməyə cəhd etdiyindən yeniçərilərin qüvvəsini artırdı və onlardan adlı-sanlı adamlara qarşı istifadə etdi. Öz işğallarının əksəriyyətini kapıkulu üzvləri arasında böldü, bəzilərinə timarlar şəklində torpaq verdi, əsasən isə vergi formaları olan iltizamlar bağışladı. Beləliklə *yeniçeri* ordusunu maaşla təmin etmək üçün xəzinə pul çıxara bildi. Üstəlik Cənubi-Şərqi Avropadan yaxşı xristian gənclərini yığmaqla devşirme sistemini inkişaf etdirdi.

II Mehmet isə Konstantinopolun işğalından başlıca türk kübar ailələrini məhv etmək üçün istifadə etdi və *devşirme* hakimiyyətini qurdu. O, imperiyanın xeyrinə hər iki tərəfin qüvvəsini və fəaliyyətini tarazlıqda saxlamaqla, onlardan istifadəni və onlara nəzarət etməyi bacarırdı. Beləliklə o, Türk adlı-sanlı adamlarının üzvləri də daxil olmaqla *kapıkulu* anlayışını genişləndirdi, böyütdü. Bu vaxt yalnız sultanın qulu statusunu qəbul edən adamlar Osmanlı hökumətində və ordusunda öz mövqeyini saxlaya bilərdi. Müsəlman və qeyri-müsəlman mənşəli adamlar bu statusu qazana bilərdi. Onlar öz ağalarına mütləq tabe olmalı idilər, öz həyatlarını, əmlaklarını və ailələrini ona xidmətə həsr etməli idilər. Həmin vaxtdan sonra bütün mühüm nazirlər, zabitlər, hakimlər, valilər, *timar* sahibləri, vergi fermerləri, *yeniçerilər*, *sipahilər* və onlara bənzəyənlər bu sinfin üzvlərinə çevrilirdilər, sultanın iradəsinə və xidmətinə bağlanırdılar. Maaş alan yeniçeri korpusu devşirme sinfinin gücünün birinci mənbəyi olaraq qalırdı, bu vaxt sipahilər və timar sistemi isə Türk adlı-sanlı adamlarının qüvvəsinin dayaqları rolunu oynayırdı.

II Mehmet bu yolla böyük Orta Şərq imperiyalarının taleyini yaşamaqdan qaçdı. Osmanlılar hökmranlığın bölünməz olması prinsipini qurdular, bu prinsipə görə idarəetmə sinfinin bütün üzvləri sultanın mütləq iradəsinə tabe olurdular. Buna əmin olmaq üçün II Mehmet varisliyin möhkəm qanuni qaydada ötürülməsi prosesinə başladı, hökmranlıq edən sultanın bütün qardaşlarının edam edilməsi praktikasının əsası qoyuldu. Beləliklə bu varislik sultanın bir oğluna, özü də əsasən ən bacarıqlı oğluna keçməsi vasitəsilə məhdudlaşırdı.

II Mehmetin hökmranlığından sonrakı əsrdə Osmanlı imperiyası öz qüdrətində və var-dövlətində pik nöqtəsinə çatdı. Yeni işğallar onun torpaqlarını Mərkəzi Avropanın içərilərinə qədər genişləndirdi. Köhnə islam xilafətinin ərəb hissəsi də bütünlüklə imperiyanın ərazisinə daxil oldu. Siyasi, dini, sosial və iqtisadi

təşkilatların və ənənələrin qovuşması institutlaşdırıldı və bütünlüklə yaşamağa, işləməyə başladı.

II Mehmetin hökmranlığının birbaşa varisi sultan II Bayezidin idarəetməsi əsasən istirahət dövrünə çevrildi. Əvvəlki işğallar konsolidasiya olundu, Mehmetin daxili siyasəti ilə əlaqədar yaranmış siyasi, iqtisadi və sosial problemlər 16-cı əsrin sultanlarının işğalları əsasında öz həllini tapdı.

II Mehmetin hökmranlığının son ilində iqtisadi sıxıntıların yaratdığı maliyyə çətinlikləri İstanbuldakı başlıca fraksiyaların iştirak etdiyi faktiki vətəndaş müharibəsinə gətirib çıxardı – bunlar *devşirme* partiyası və türk kübarlığı idi. Bayezidi paytaxtda hərbi ağalıq edən *yeniçeriler* 1481-ci ildə taxt-taca gətirmişdi, bu vaxt onun daha hərbçi olan qardaşı Cem Anatoliyaya qaçmışdı. Orada onu əvvəldən Türk adlı-sanlı adamları dəstəklədiyindən, qiyam qaldırdı. Bayezid onunla barışaraq özünün dinc planlarını Cemə açıb danışdı, lakin bunları o, *yeniçerilərdən* gizlədirdi. Öz başlıca dayağını tərk edən Cem yayda məmlyük Suriyasına sürgünə yollandı. Sonrakı ili məmlyüklərin və Karamanın sonuncu türkmən hökmdarının köməyi ilə vətəninə qayıtdı, lakin onun türkmən köçərilərinin köməyini qoruyub saxlaması cəhdi Bayezidin heterodoks (qarışıq) dini siyasəti nəticəsində boşa çıxdı. Cem yenə sürgündə qalmalı oldu, əvvəlcə Rodos adasında, sonra Romada Papanın yanında və burada 1495-ci ildə ölənə qədər yaşadı. İstanbula qarşı səlib yürüşündə ondan istifadə etmək sahəsindəki avropalıların cəhdi də uğursuz oldu.

Cemin xarici hücuma başçılıq edəcəyi təhlükəsi Bayezidi məcbur etdi ki, diqqəti daxili konsolidasiya üzərində cəmləşdirsin. Atası tərəfindən müsadirə edilmiş mülkiyyətin əksəriyyəti əvvəlki sahiblərinə qaytarıldı. Bütün imperiyada bərabər vergi qoyuldu, beləliklə əvvəlki rejim tərəfindən narazılığa səbəb olan hallar olmadan təbəələr öz hökuməti qarşısındakı mükəlləfiyyətlərini yerinə yetirə bilərdi. Xüsusən vacib məsələ müharibə sandığı vergisinin qoyulması idi. Bu onu göstərirdi ki, xüsusi müsadirələri həyata keçirmədən və ağır vergi qoymadan müharibə xərclərinin altından çıxmaq olmaz. Sikkənin dəyəri bərpa edildi və II Mehmetin iqtisadi ekspansiya barədəki planları nəhayət həyata keçirilməyə başladı. İmperiyanın hər yerində birbaşa Osmanlı inzibatçılığı vassal sistemi ilə əvəz olundu. İlk dövr üçün mərkəzi hökumət büdcə sisteminə götürüldü, buna görə məsrəflər daimi əsas üzərindəki mədaxillərlə tarazlaşdırıldı.

Mədəniyyət nöqteyi-nəzərindən Bayezid əvvəlki yarım əsrdə mövcud olan avropalaşma meylinə qarşı güclü reaksiyaya rəvac verdi. Türk dili və müsəlman ənənələrinə xüsusi əhəmiyyət verildi. İmperiyanı Şərqi Anatoliyanın tayfaları arasında heterodoks şiəliyin yayılmasının artan təhlükəsindən xilas etmək üçün o, ortodoks islam institutlarını inkişaf etdirdi və qurdu. Ömrünün sonunda isə onun özünün mistik şiəliyə meyl etməsi onu öz cəhdlərindən əl çəkməyə sövq etdi. Bayezidin daxili inkişaf üçün vaxt və ehtiyat qazanmaq məqsədilə sülhü qoruyub saxlamasına baxmayaraq, o, bir sıra kampaniyaları aparmağa məcbur

oldu. Bu məsələdə xüsusən onun hərbçi *devşirme* ardıcılları fərqlənirdi. Avropada o, Hersoqovinanı götürməklə Dunaydan və Savadan cənubda imperiyanı dövrələndirdi. Osmanlı nəzarətindən kənarda yalnız Belqrad qalmışdı. Macarıstan kralı Matias Korvin başlıca olaraq Bohemiya üzərində öz hökmranlığını qurmaqda maraqlı idi və osmanlılarla sülh müqaviləsi bağlamağa razılaşdı. Onun ölümündən sonra isə varislik uğrunda mübarizə Bayezidin idarəetməsinin qalan dövrü üçün sakitlik yaratdı. Şimali-şərqdə sultan Osmanlı ərazisini Dunayın şimalına tərəf genişləndirdi, Qara dəniz ətrafında Kiliya və Akkerman limanlarını tutdu və bununla da Dunay və Dnestr çaylarının mənsəblərinə nəzarət etdi. Bununla Şimali Avropanın Qara dəniz və Aralıq dənizi ilə ticarət üçün giriş qapıları Osmanlı nəzarətinə keçdi. Bayezid Moldaviyanı onun süzerenliyini qəbul etməyə məcbur etməyi bacardı, bu Rumıniya knyazlıqlarını öz imperiyasına birləşdirmək yolunda mühüm addım idi. Bu irəliləmənin nəticəsində Polşa ambitsiyaları ilə münaqişə yarandı və 1483-1489-cu illərdə gedən müharibə ilə nəticələndi. Böyük İvanın hökmranlığı altında olan Moskvanın təhlükəsi nəticəsində Polşa öz diqqətini başqa səmtə dəyişib 1484-cü ildən sonra bu cəbhəni tərk etməklə onun sakitləşməsinə səbəb oldu. Bayezid sonra Şərqə tərəf döndü, burada əvvəlki işğallar Fərata qədər çatmaqla ilk dövrlərdə osmanlıları Məmlyük imperiyası ilə üz-üzə qoymuşdu. Kiçik Dulkadir türkmən knyazlığı üzərindəki nəzarət üstündə münaqişə dəyişən üstünlüklərlə müşayiət olunan müharibəyə gətirib çıxardı. Bu knyazlıq Kilikiyanın çox hissəsinə və Van gölündən cənubda olan dağlara nəzarət edirdi, Osmanlı isə müqəddəs şəhərlər olan Məkkə və Mədinəyə nəzarətə şərik olmağı arzu edirdi. Müharibədə konkret nəticə əldə edilmədiyindən Bayezidin öz başlıca qüvvələrini işə salmağa meyl etməməsi onun hərbçi ardıcıllarının bir hissəsində fikir ayrılığına və narazılığa gətirib çıxardı. Bunun qarşısını almaq üçün Bayezid Macarıstandakı daxili narazılıqdan istifadə edib Belqradı tutmağa cəhd etdi, lakin uğursuzluğa düçar oldu və öz qüvvələrini Transilvaniyaya, Xorvatiya və Karinfiyaya göndərdi və onlar geri alındı.

Elə həmin 1495-ci ildə Cem öldü və Macarıstanla bağlanan yeni sülh Bayezidin arzularının həyata keçməməsi ilə nəticələndi. Bundan sonra o, özünün Avropadakı başlıca düşməni olan Venetsiyaya tərəf döndü. Bu ona öz reputasiyasını bərpa etmək üçün lazım idi. Venetsiya sultana qarşı Moreada, Dalmatiyada və Albaniyada baş verən qiyamları dəstəkləmişdi, onları hələ 1479-cu ildə osmanlılara təhvil vermişdi. O, həmçinin 1489-cu ildə Kipr üzərində nəzarətə sahib olmuşdu və orada baş donanma bazası yaratmışdı və bu bazadan məmlyüklərə qarşı mübarizə üçün istifadə etməyə icazə verməkdən imtina etmişdi. Ona görə də Kipr sultan üçün strateji əhəmiyyət kəsb edirdi. Bayezid həmçinin Moreadakı sonuncu limanlarını işğal etməyə ümid edirdi ki, burada öz bazalarını qurmaqla Şərqi Aralıq dənizində Osman donanmasının nəzarətini başa çatdırsın. Kipr üzərində nəzarət istisna olmaqla, bütün bu

vəzifələrə 1499-1503-cü illərdə davam edən müharibə nəticəsində nail olundu. Osmanlı donanması ilk dəfə olaraq Aralıq dənizində başlıca hərbi-dəniz qüvvəsinə çevrildi və osmanlılar Avropa diplomatik əlaqələrinin bölünməz hissəsi oldular.

Bayezid bu situasiyadan Avropada yeni işğallar əldə etmək üçün istifadə etməyi bacarmadı, çünki hökmranlığının sonuncu ilində onun diqqətini özünə Şərqi Anatoliyada qalxan qiyamlar cəlb etdi. Bu muxtar, sivilizasiyalanmamış köçərilərlə Orta Şərqdə məskunlaşmış stabil sivilizasiya arasında olan köhnə konflikt idi. Sivilizasiyalanmış türkmən köçəriləri osmanlıların öz inzibati nəzarətini imperiyanın bütün hissələrinə genişləndirmək cəhdlərinə müqavimət göstərirdilər. Ortodoks müsəlman quruluşuna münasibətdə köçərilər sufi və şiə mistik ordenlərinin başçılarına fanatik bağlılıq göstərirdilər. Onlardan daha uğurlu olanları Ərdəbil səfəvidləri idi, onlar həmin vaxt dini-hərbi çağırışdan İranın əksəriyyətini işğal etmək üçün istifadə etmişdilər. 1502-1524-cü illərdə hökmranlıq edən şah İsmayılın başçılığı altında səfəvilər öz missionerlərini Anatoliyanın hər yerinə göndərirdilər, onlar dini küfr və siyasi qiyam şayiəsi yayırdılar, özü də təkcə tayfa adamları arasında deyil, həmçinin əkinçilər və bəzi şəhər elementləri arasında. Onlar bu hərəkatı öz problemlərinin cavabı kimi görməyə başlayırdılar. Bir sıra qiyamlar öz məqsədlərinə çatdı. Çünki Bayezidin başı Avropa işlərinə qarışdığından, bu qiyamları yatırtmaq üçün az iş görə bilmişdi. Nəticədə 16-cı əsrin əvvəlində ümumAnatoliya üsyanı Bayezidi məcbur etdi ki, səfəvilərin və onun türkmən tərəfdarlarından çoxunun üzərinə ekspansiya təşkil etməklə onları geri, İrana ötürsün. Osmanlılar sufizmdən şiəliyə döndülər ki, türk sülaləsinə persiyalıların loyallığını qazansınlar. Buna baxmayaraq, şah İsmayıl Anatoliyadakı sufi lideri kimi şayiə yayaraq 1511-ci ildə osmanlılar əleyhinə öz ardıcıllarının ikinci böyük qiyamını qaldırmağa səbəb oldu. Dövrün bütün bədbəxtlikləri mərkəzi hökumətə qarşı olan dini üsyana qovuşurdu və yalnız baş vəzir Əli paşanın başçılığı altındakı böyük ekspedisiya bu üsyanı yatıra bildi. Lakin üsyanı meydana gətirən şərait Bayezidin varisi üçün də başlıca problem olaraq qaldı. Axırda Bayezidin artan mistik və dinc təbiəti onun hərbçi və fərasətli oğlu olan sultan I Səlimin xeyrinə *yeniçerilər* tərəfindən taxt-tacdan devrilməsinə gətirib çıxardı. Bu hadisə 1512-ci ildə baş verdi.

# VII HİSSƏ. HİNDİSTAN ORTA ƏSRLƏRDƏ

## FƏSİL 1
## HUNLAR VƏ ƏRƏBƏR HİNDİSTANDA

Şimali-qərbdən yeni müdaxilənin ilk nişanəsi hələ Çandraquptanın oğlu və onun varisinin hökmranlığı dövründə, 5-ci əsrin birinci yarısında gəldi. Bu təhlükə hunlardan idi. Hind mənbələri onları huna adlandırır. Sonrakı onilliklərdə isə hindlilər tam miqyaslı müdaxilə ilə üzləşdilər. Çar sülaləsi içərisindəki qarışıqlıq müdafiə problemini daha da çətinləşdirdi. 6-cı əsrin ortalarında sülalənin hökmranlığı başa çatanda səltənət olduqca kiçik ölçüdə qaldı. Hindistanın şimalı və mərkəzinin bir hissəsi hunların əlinə keçdi. Hunlar eftalitlərin və ya ağ hunların bir qolu olmaqla, onlardan bir bölüyü Volqa vadisində, digər isə Amu-dərya çayının vadisində köçərilik edirdi. Axırıncılar Persiyaya və Əfqanıstana müdaxilə etdilər, oradan isə bir qrup Şimali Hindistana girdi. Buna qədər hunlar nəyə qadir olduqlarını göstərmiş, Avropanı lərzəyə salmışdılar. Onların ən böyük başçısı və sərkərdəsi Attila "çarların qənimi" hesab olunurdu, Romanı və Konstantinopolu dəhşət məngənəsində saxlayırdı. Hindistana gələn ağ hunlar da Attilanın tayfalarına qohum idi, lakin fərqli olaraq əsasən Mərkəzi Asiyada köçərilik edirdilər. Hunların sayı artdıqca və başqa tayfalar tərəfindən onlar öz torpaqlarından sıxışdırıldıqca bu təhlükə artırdı və nəhayət onlar Hindistana soxuldular. Quptaların beşinci hökmdarına bu basqını dəf etmək mümkün oldu, lakin bir neçə il sonra onlar yenidən gəldilər, Qandharaya və Şimali Hindistanın çox hissəsinə yayıldılar. Onlar hər cür qəddarlıq nümayiş etdirirdilər, buddistlərə işgəncələr verirdilər. Ona görə də hunlar əleyhinə daim müharibə gedirdi. Hunların yeni dalğası Mərkəzi Hindistanı başına aldı və onların başçısı Toramana çar kimi təsdiq edildi. Taxt-tacda onu əvəz etmiş oğlu Mihirakula quduzluğu və qəddarlığı ilə şöhrət tapmışdı və bu məsələdə atasını kölgədə qoymuşdu. Bir tarixçinin yazdığına görə onun ən sevimli əyləncələrindən biri filləri dərin uçurumlara atmaq idi. Onun vəhşiliyi, nəhayət, hindliləri ayağa qaldırdı, onlar hunları məğlub edib Mihirakulanı əsir götürdülər. Onlar alicənablıq edib onu buraxdılar və ölkəni tərk etməsinə göstəriş verdilər. O, Kəşmirdə gizləndi, sonralar isə onunla alicənab davranan Qupta sülaləsindən olan arilərin başçısının üzərinə xaincəsinə hücum etdi.

Tezliklə Hindistanda hunların qüdrəti zəifləməyə başladı, lakin onların törəmələri burada qalıb tədricən ari əhalisinə qarışdı. Hunların həyat tərzi və idarəçilik metodları arilərinkindən kəskin surətdə fərqlənirdi. Arilər və ya

“nəciblər xeyli dərəcədə azadlıq sevən tayfa kimi qalırdı, hətta onların çarları xalqın iradəsinə tabe olmalı idi, kənd yığıncaqları isə böyük hakimiyyətə malik idi. Lakin hunların gəlişi və onların hind xalqı ilə qarışması nəticəsində arilərin həyat normaları dəyişikliyə və zəifləməyə uğradı.

Şimalda mərkəzi hökumətdə heç bir asılılığı olmayan çox sayda dövlətlər meydana gələndə Hindistanın cənubunda iri dövlət yarandı. Onun hökmdarı II Pulakeşin (610-642-ci illər) Çalukiya imperiyası kimi tanınan imperiya formalaşdırdı. Çalukiya sülaləsi Dekanın böyük hissəsinə iki əsrə qədər nəzarət etdi. Pulakeşin cənubda və şimalda bir sıra qələbələr qazandı. O, cənubda hind Pallavalar çarlığını məğlub etdi və onlar arasındakı münaqişə bir çox əsrlər boyu davam etdi. II Pulakeşin Persiya çarı II Xosrovun sarayına səfirlik göndərdi. Persiyalılar və hindlilər arasında yaxşı münasibətlər zoroastrizm dininin tərəfdarlarına böyük fayda verdi, çünki sonrakı əsrlərdə onlar islam təqiblərinə məruz qalanda Hindistanda sığınacaq tapır və Dekanın qərb sahili boyu məskunlaşırdılar. Onların nəsilləri indi pars icmalarını təşkil edirlər və daha çox qərbdəki Qucarat ştatında yayılmışlar. Çalukiya çarının işğaldan faydası isə onun “şərq və qərb sularına ağa olması idi, bununla o, Dekanın hər iki sahilinə nəzarət edirdi. Başlıca çay vadiləri onun əlində idi. Digər tərəfdən bu Qərbi Asiya ilə qərb sahil ticarətinə, şərq sahilində isə Kalinqa və Andrhanın Cənubi-Şərqi Asiya ilə ticarətinə nəzarət demək idi. Hər bir cənubi hind hakimiyyəti öz ərazisini şərq sahilinə tərəf genişləndirmək istəyirdi ki, Cənubi-Şərqi Asiya ilə ticarətin gəlirindən varlansın.

Hindistanın gücü və həyatda dözümlülüyü geniş yayılmış kənd respublikalarına və ya özünüidarə edən pançayatlara borclu idi. Ölkədə iri torpaq sahibləri və iri zamindarlar yox idi. Torpaq ya kənd icmalarına, pançayatlara, ya da onu becərən kəndlilərə məxsus idi. Bu pançayatlar çox böyük hakimiyyətə və nüfuza malik idi. Onlar kənd sakinləri tərəfindən seçilirdi, bu sistemin əsası demokratik idi. Çarlar dəyişsə də, onlar kənd sisteminə toxunmurdular, onun işinə qarışmırdılar, pançayatın sərbəstliklərini azaltmağa cəsarət etmirdilər. İmperiyalar bir-birini əvəz etsə də, cəmiyyətin kənd sisteminə əsaslanan sosial strukturu dəyişilməmiş qalırdı. Hətta müharibələr də əhalinin münasibətlərinə ciddi təsir göstərə bilmirdi, yuxarılardakı dəyişiklik aşağılarda öz əksini tapmırdı. Sosial quruluşu möhkəmləndirən digər amil yarandığı kimi mövcud olan kasta sistemi idi. Kastalar sonralar qəbul etdikləri güclü qapalılıq xüsusiyyətinə malik deyildilər və onlara məxsusluq təkcə doğumdan asılı deyildi. Kastalar Hindistan həyatında birləşdirici amil olmaqla, dəyişikliyə və böyüməyə mane olmurdu, əksinə inkişaf üçün üfüqlər açırdı. Qədim Hindistanda dinə və həyata baxış öz dözümlülüyü ilə fərqlənirdi, eksperimentlərə və dəyişikliklərə imkan yaradırdı. Lakin basqınlar və digər bədbəxtliklər kastanı öz çevikliyindən məhrum etdi, bununla birlikdə hindlilərin dünyagörüşü də öz çevikliyini və dözümlülüyünü itirdi. Tədricən kasta hər cür tərəqqinin düşməninə çevrildi. Sosial strukturu

birləşdirmək əvəzinə onu yüzlərlə hissəyə böldü, cəmiyyəti zəiflətdi və kastalar vasitəsi ilə bir xalqın övladlarının bir-birinə kin bəsləməsinə gətirib çıxardı. Hətta kasta sosial sistemin möhkəmlənməsinə kömək edəndə də özündə tənəzzül toxumları daşıyırdı. Onun təməlində qeyri-bərabərliyi və ədalətsizliyi əbədiləşdirmək cəhdləri dururdu və bu sonda uğursuzluğa gətirib çıxarmalı idi. Axı qeyri-bərabərliyə və ədalətsizliyə əsaslanan cəmiyyət möhkəm və sağlam ola bilməzdi. Hindistanın üstünlükləri sırasına burada qul əməyinin mövcud olmamasını da əlavə etmək olar. Digər qədim dövlətlərdən – Yunanıstandan, Romadan, onlardan bir qədər əvvəl də Misirdə olduğundan fərqli olaraq, qonşusu Çin kimi burada quldarlıq sistemi mövcud deyildi, yalnız qul vəziyyətində olan ev nökərləri var idi.

Hunlar ölkədən qovulanda, Quptaların böyük sülaləsi süqut edəndə və cənubda Çalukiya imperiyası yarananda şimalda Quptaların süzerenliyi altında olan bir knyazlıqda hakimiyyətə Harşa gəldi. O, taxt-taca 7-ci əsrin əvvəlində çıxmış və 41 il hökmranlıq etmişdi, sonra o, Şimali Hindistanda dənizdən dənizə qədər olan ərazini tutdu. O, özü şair və dramaturq olduğundan, özünü çox sayda şair və rəssamlarla əhatə etmişdi. Harşa Hindistanın sonuncu böyük buddist hökmdarı idi. O, sanskrit dilində yazdığı üç pyesin müəllifi idi, onların mövzuları buddizm fikrini əks etdirirdi. Lakin onun imperiya qurmaq planı uğursuzluqla nəticələndi. Çindən olan buddist zəvvarı Syuan Tszan onun dövründə Hindistana gəlmiş və vətəninə döndükdən sonra yazdığı xatirələrində bu ölkə haqqında bol və ətraflı məlumatlar verir. O, Hindistanın Ay ölkəsi – İndu olduğunu bildirir, çin dilində “ay“ sözü – *“in-tu”* kimi səslənir. O, özü qabaqcıl sivilizasiya ölkəsindən gəlməsinə baxmayaraq, hind xalqı və onun idarəçiliyi barədə tərifli sözlər işlədir. O, burada idarəetmənin əsasında xoş münasibətin durduğunu qeyd edir və göstərir ki, icra hakimiyyətinin funksiyaları sadədir, adamları məcburi işə məhkum etmirlər. Burada çinli səyyah yaxşı təşkil edilmiş təhsili müşahidə edir, uşaqları kiçik yaşlarından biliyə öyrədirlər. Oğlan və qızlar əlifbanı öyrəndikdən sonra müxtəlif biliklərin əsaslarını öyrənməyə keçirlər. Bu biliklər siyahısına təbabət, məntiq və fəlsəfə də daxildir. Bu fənnlərin öyrənilməsi universitetlərdə davam etdirilirdi və gənclər adətən 30 yaşına çatanda təhsili başa vururdular. Müəllimlər isə rahiblər və ruhani xidmətçiləri idi. Səyyah, hindlilərin maariflənməyə can atmasına heyran qalmışdı.

Hindistanda təhsilə, maarifə göstərilən diqqət öz bəhrələrini verirdi. Burada matematika yüksək inkişaf etmişdi və görkəmli riyaziyyatçılar arasında Lilavati adlı qadın da var idi. Onunla birlikdə bir riyaziyyatçı ilk dəfə onluq sistemi işləyib hazırlamışdı. Cəbr özü də Hindistanda yaranmışdı, buradan o Ərəbistana keçmiş, öz adını qazanmış, sonra isə Avropada iri addımlarla dolaşmışdı.

Harşa öz fərmanı ilə bayram günlərində “beş Hindistandan“ olan bütün yoxsulları və əlilləri onun qonağı olmağa dəvət edirdi. Rəvayətə görə hər gün

onun süfrəsində qonaq sifətində yüz min adam nahar edirdi. Hər beş ildən bir belə bayram-yarmarkada o, öz xəzinəsindəki artıq sərvəti: qızılı, qiymətli daşı, ipəyi, sərəncamında olan hər şeyi xalqa paylayırdı. O, mömin buddist kimi qida üçün istifadə edilməsi məqsədilə heyvanların öldürülməsini qadağan etmişdi. Brəhmənlər də buna etiraz etmirdilər, çünki onlar Budda dövründən başlayaraq daha çox vegetarianlığa keçirdilər. Bir məsələni də qeyd edir ki, Hindistanda bir adam xəstələnəndə yeddi günlük post (oruc) saxlayırdı və çoxları bu post vaxtı sağalırdı. Xəstəlik davam etsə, onda dərman qəbul edirdilər. Ölkədə həmin dövrdə hökmdarlar və hərbçilər təhsilli və mədəni adamlara böyük hörmət və ehtiram göstərirdilər.

Çin imperatoru, Tan sülaləsindən olan Tay Tsunq Harşanın yanına bir neçə səfirliklər göndərdi. Onlardan biri Harşa öləndən sonra buraya gəlib çıxdı və taxt-tacda uzurpatorun olduğunu gördü. Axırda Harşanın müttəfiqləri uzurpatoru məğlub etdilər və o, tapşırıldığı kimi əsir şəklində Çinə aparıldı.

7-ci əsrin sonunda, 8-ci əsrin əvvəlində hindlilər Sindhdə yeni təhlükə ilə - ərəblərin müdaxiləsi ilə üzləşdilər. Sindhin işğalı Ərəb imperiyasının şərq tərəfdəki həddi oldu. Ərəblər əvvəlcə kiçik dəniz ekspedisiyası göndərdilər, lakin bu uğursuz cəhd oldu. Quru yolla olan ekspedisiya isə Kabilə, Zabilə və Sində hücum etdilər və nəticədə uğur qazandılar. 724-cü ildə formal qaydada müstəqil olan yerli başçılar devrildilər və xəlifənin mənafeyinə ərazini idarə edən vali təyin etdilər. Bu nöqteyi-nəzərdən Qərbi Hindistanda ərəb ekspansiyası və onların Pəncabda və Kəşmirdə irəliləməsi məhdud idi. Hindlilər bu vaxt ərəb təhlükəsinə bütünlüklə inanmırdılar. Qərbin sahil boyu ərəblərinə Qərbi Asiyadan gələn tacirlərin bir qrupu kimi baxırdılar. Hind ticarəti ilə rəqabət imkanı reallaşmadı.

# FƏSİL 2
# HİND-ÇİNDƏKİ HİND KOLONİYALARI

Bizim eranın 1-ci və 2-ci əsrlərində Cənubi Hindistandan çıxanlar dənizlə üzərək şərqdə yerləşən bir neçə ölkədə və adada məskunlaşmağa başlamışdılar. Bu koloniyalar hinduistlərin olub, cənubi hind adlarını daşıyırdılar. Bir neçə əsr sonra isə onlar buddizmi qəbul etdikcə əvvəlcə hinduizmə sitayiş edən Malay ölkələri bütünlüklə buddist ölkələrə çevrildilər.

Hindlilər başqa ərazilərlə yanaşı Hind-Çində də qədim koloniyalar yaratmışdılar. Bunlardan Çampa adlanan biri Annamda (Vyetnam) yerləşirdi. 3-cü əsrdə burada hindlilər şəhər salmışdılar, iki əsr sonra qonşu ölkədə daha iri bir şəhər yarandı. Bütün hind koloniyalarında olduğu kimi burada da möhtəşəm binalar, daşdan məbədlər tikilirdi. Onların tikintisində iştirak edən arxitektorlar və inşaatçılar Hindistandan dəniz yolu ilə gəlirdilər. Müxtəlif dövlətlər və adalar arasında tikinti-quruculuq işlərində güclü rəqabət gedirdi və bu yarış gözəl arxitektura nümunələrinin yaranmasına səbəb olurdu. Bu məskun yerlərinin sakinləri təbii ki, dənizçilər olurdu. Onlar özləri. ya da əcdadları dənizlə üzüb buraya gəlmişdilər. Ona görə də bu sakinlər əsasən ticarətçilər və tacirlər idi, öz mallarını dəniz vasitəsilə müxtəlif adalara daşıyırdılar, həm də bu məqsədlə qərbdə Hindistana, şərqdə isə Çinə üzürdülər. Malay dünyasındakı müxtəlif dövlətlər ticarətçi siniflərin nəzarətində idilər. Bir sıra hallarda bu dövlətlər arasında münaqişələr yaranırdı, qanlı müharibələr gedirdi. Bəzən hinduist dövləti buddist dövlətinə qarşı müharibə aparırdı. Müharibələrin başlıca səbəbi ticarət rəqabəti olurdu.

Hind-Çində başqa ərazilərdə olduğu kimi əvvəlcə hinduist dövlətlər yaranmışdı. Buradakı üç belə dövlət üç yüz il ərzində 8-ci əsrə qədər mövcud olmuşdu. 9-cu əsrdə yüksələn iri hökmdar bu üç dövləti birləşdirib böyük imperiya yaratdı. O, öz paytaxtını Anqkorda tikdi və onun varisi tikintini başa çatdırdı. Artıq onlar buddist idilər. Kamboca imperiyası dörd yüz ilə qədər yaşadı və öz qüdrəti ilə seçilirdi. Çar şəhəri olan paytaxt bütün Şərqdə Böyük Anqkor kimi tanınırdı. Bu şəhərin olduqca böyük və sıx yaşayan əhalisi var idi. Şəhərin yaxınlığında gözəl məbəd ucalırdı. Lakin 13-cü əsrdə Kambocaya müxtəlif tərəflərdən hücum oldu. Şərqdən annamlılar, şimaldan monqollar tərəfindən sıxışdırılan şan xalqı Kambocaya hücum etdi. Çarlıq fasiləsiz mübarizədən və daim müdafiə olunmaq zərurətindən taqətdən düşdü. Lakin Anqkor şəhəri əvvəlki kimi Şərqin ən gözəl şəhərlərindən biri olaraq qalırdı. 13-cü əsrin sonunda buraya gələn Çin səfiri şəhərin heyrətamiz binalarını yüksək təriflə təsvir edirdi.

Qəflətən Anqkorun başına dəhşətli fəlakət gəldi. 14-cü əsrin əvvəlində

Mekonq çayının mənşəyi lilli laylarla dolduğundan, çay maneə ilə qarşılaşdığından əks istiqamətdə axmağa başladı, onun suları ətrafda böyük ərazini basdı və məhsuldar çöllərin geniş sahələrini yararsız bataqlığa çevirdi. Çox əhalili şəhər aclığın qurbanı oldu. Əhali artıq burada qala bilməzdi, şəhəri və bu yerləri tərk etmək məcburiyyətində qaldı. Beləliklə Böyük Anqkor tərk edildi, boşaldı. Şəhərin üstünə cəngəlliklər yeridi və onu öz altına aldı. Cənubi-Şərqi Asiyanın tropik iqlimində cəngəlliyin belə yayılması o qədər çətin bir iş deyildi. Vaxtilə çar əyanlarının və dini kahinlərin oturduğu binalar və məbədlər cəngəlliyin bir hissəsinə çevrilməklə vəhşi heyvanlar üçün yuva rolunu oynadı. Cəngəllik bu binaları, sarayları məhv etmək qəsdinə durmuşdu və bir neçə əsr boyu onlara həqiqətən də insan ayağı dəymədi. Lakin yenə də insan zəkası və əməyi Anqkorun tarixi və memarlıq abidələrini bərpa etməyə qadir oldu. Yava adasındakı Borobudur və ya Benaresdəki (Hindistan) məbədlər kompleksi kimi Anqkor da hind arxitekturasının möcüzələrindən biridir.

Kamboca dövləti bu fəlakətə uzun müddət dözə bilməzdi. Dövlət də tədricən dağıldı və gah Siamın (Tailandın), gah da Annamın (Vyetnamın) tabeliyində olan əyalətə çevrildi.

Hind-Çindən bir qədər aralı, dənizin o tayında olan Sumatrada Cənubi Hindistandan çıxanlar öz koloniyalarını yaratmışdılar və onlar getdikcə böyüyürdü. Malakka yarımadası çoxdan Sumatra dövlətinin bir hissəsi olmaqla, onların taleləri bir-biri ilə sıx bağlı idi. Burada da buddizm əsas dinə çevrildi və hətta Sumatra buddizmin naminə aktiv missioner fəaliyyətinə başçılıq etdi və Malay dünyasının hinduistlərinin əksər hissəsinin buddizmə keçməsinə nail oldu. Ona görə də Sumatra dövlətini Şrivicayya – Budda imperiyası adlandırırdılar. Bu dövlət böyüyərək təkcə Sumatra və Malakkanı deyil, həmçinin Borneo adasını, Filippin adalarını, Sulavesini, Yavanın və Formoza (Tayvan) adasının yarısını, Seylonu tutdu. Bu bütün Malay dünyasını əhatə edən geniş imperiya idi. Bu hind koloniyalarının başlıca məşğuliyyəti ticarət və kommersiya, həmçinin gəmiqayırma idi. Çin və ərəb yazıçıları onlar barədə geniş məlumat verirlər.

Sinqapur əvvəllər Sumatra kolonistlərinin məskun yeri idi və hind adı olan Sinqxpur sözündən götürülmüşdü. Boğazın o biri tərəfində sumatralıların daha bir məskəni var idi və birbaşa Sinqapurun qarşı tərəfində yerləşirdi. Onlar bəzən boğaz boyu dəmir zəncir uzatmaqla gəmilərin hərəkətini ləngidir, ağır rüsum aldıqdan sonra onların üzməyinə icazə verirdilər. Şrivicayya imperiyası öz inkişafında ən yüksək zirvəyə 11-ci əsrdə çatdı. Bu ölkə uzun müddət tərəqqi etdi. Üç yüz il ərzində böyük imperiya olaraq qaldı, bütün Malay dünyasında ticarətə və kommersiyaya nəzarət etdi, lakin 1377-ci ildə digər qədim Pallava koloniyası tərəfindən yıxıldı. Seylondan Çindəki Kantona qədər uzanan Şrivicayya imperiyası öz mövcudluğunu başa çatdırdı. Onun tərkibinə bu arada yerləşən adaların çoxu daxil idi. Bir kiçik hissə tabe edilməmiş qaldı ki, bu da Yava adasının şərq hissəsi idi. Qərbi Yava imperiyanın hakimiyyəti

altında olanda, şərq hissəsi müstəqil idi. Bu hinduist dövlətinin çiçəklənməsi ticarətdən asılı idi. Ona görə də iri ticarət mərkəzinə çevrilən Sinqapura qısqanclıqla baxırdı və bu rəqabət qızğın düşmənçiliyə çevrildi, 1377-ci ildə Şrivicayyanı qəti məğlubiyyətə uğratdı. Bu müharibə böyük dağıntılarla müşayiət olundu, iki böyük şəhər Şrivicayya və Sinqapur dağıdıldı. Malay dünyasının ikinci böyük imperiyası tarixdən silindi və onun yerində üçüncü imperiya yarandı.

Şərqi Yavanın güclü imperiyanı diz çökdürməsi sadə məsələ deyildi. Bu onu göstərir ki, Yavada bu dövrdə həmin hinduist dövləti sivilizasiyanın yüksək səviyyəsinə çatmışdı. Bu dövlət tikinti sahəsində, xüsusən məbəd tikintisində görkəmli müvəffəqiyyətlər qazanmışdı. Orada 500-dən çox məbəd var idi, onlardan bəziləri daş tikintilərin ən gözəl və bədii cəhətdən yüksək olan nümunələrinə aid edilir. Bu böyük məbədlərin çoxu 7-ci əsrin ortalarından 10-cu əsrin ortasınadək olan dövrdə inşa edilmişdir. Yavalılar bu tikinti işlərinə Hindistandan və digər qonşu ölkələrdən gətirilmiş çoxlu inşaatçılar və usta-sənətkarlar cəlb etmişdi. Yalnız belə böyük qüvvələrin köməyi ilə belə möhtəşəm məbədləri yüksəltmək olardı. Onu da qeyd etmək lazımdır ki, Borneo və Filippinin sakinləri yazını Hindistandan, burada məskunlaşmış qədim hindli koloniyalarının köməyi ilə öyrənmişdilər. Ərəblər də islamdan çox-çox əvvəl bu adalarda öz koloniyalarını yaratmışdılar, axı onlar böyük ticarətçi olmaqla harada ticarət mövcud idisə, heç bir təhlükədən çəkinmədən oraya yollanırdılar.

# FƏSİL 3
# ŞİMALİ HİNDİSTANIN ERKƏN MÜSƏLMAN DÖVRÜ

Harşa 648-ci ildə öldükdən sonra Şimali Hindistanın siyasi parçalanması qaçılmaz labüdlüyə çevrildi. Hinduizm və buddizm arasındakı münaqişə onu şiddətləndirdi. Şimal tənəzzülə uğrayırdı. Cənubi Hindistan yenə irəli çıxdı və Şimalı kölgədə qoydu. Subkontinentdəki ilk müsəlman işğalları ərəblər tərəfindən 8-ci əsrdə Sinddə həyata keçdi, burada Hindistandakı müsəlman ticarətçiləri icmaları yarandı. Ərəblər tezliklə Hindistan sərhədinə hələ Harşanın sağlığında çatmışdılar. 710-cu ildə ərəb ordusunun başında 17 yaşlı Məhəmməd ibn-Kasim Şərqi Pəncabdakı Multana qədər İnd çayının vadisini işğal etdi. Elə bununla da Hindistanda ərəb işğalı dayandı, digər tərəfdən Sindin tutulması siyasi nöqteyi-nəzərdən elə bir mühüm əhəmiyyət kəsb etmirdi. Müsəlmanlar tərəfindən Hindistanın işğalı bir neçə əsr sonra baş verdi. Mədəniyyət baxımından isə ərəblərin Hindistan xalqları ilə kontaktları olduqca məhsuldar oldu. Çox sayda ərəblər Hindistanın qərb sahilində yerləşdilər və öz yaşayış məntəqələrində məscidlər tikdilər. Ərəb səyyahları və tacirləri Hindistanın müxtəlif yerlərinə gedirdilər, çoxlu ərəb tələbələri şimalda Taksila şəhərindəki universitetdə təhsil almağa gəlirdilər. Xəlifə Harun ər-Rəşidin vaxtında Bağdadda hind elmi yüksək qiymətləndirilirdi, Hindistandan gələn həkimlər orada xəstəxanalar və tibb məktəbləri təşkil edirdilər. Riyaziyyata və astronomiyaya aid kitablar sanskritdən ərəb dilinə tərcümə edilirdi. Beləliklə ərəblər qədim hindari mədəniyyətindən çox şey əxz etmişdilər. Onlar Persiyanın ari mədəniyyətindən və yunanlardan çox şey götürmüşdülər. Ərəblər demək olar ki, təzə irq idilər, qüvvələri çiçəklənəndə onları əhatə edən qədim mədəniyyətlərin hər şeyindən istifadə etdilər, onlardan çox şey öyrəndilər. Bu əsasda isə onlar özlərinə məxsus olan bir mədəniyyəti - ərəb mədəniyyətini yaratdılar. Təzə irq öyrənmə qabiliyyəti ilə də köhnə irqlərdən fərqlənirdi, bu irq daha enerjili və daha həvəslə çalışan idi.

Ərəblərlə bir neçə əsr davam edən kontaktlar Hindistana elə bir əhəmiyyətli təsir göstərmədi və böyük dəyişikliklərə səbəb olmadı. Bu dövrdə Hindistan yeni din olan islam barədə bəzi təsəvvür əldə etdi. Hinduizmlə islam arasında elə bir çətinlik və münaqişə baş vermirdi. Yalnız 11-ci əsrdə islam əlində qılınc Hindistana işğalçı rolunda gələndə bu güclü reaksiyaya səbəb oldu, əvvəlki dözümlülüyün yerini nifrət və düşmənçilik tutdu. Müsəlmanlar Şimali Hindistanın içərilərinə daim hərbi basqınlar edirdilər. Bunu Abbasi xəlifəliyinin xarabalıqları üzərində birbaşa olmayaraq qalxan Türk sülaləsi həyata keçirirdi. İşğal üçün

yolu sultan Mahmud Qəznəvi hazırlamışdı, o, 11-ci əsrin başlanğıcından 26 il ərzində 20 reyd keçirmişdi və Pəncabda iri, lakin qısa ömürlü imperiya qurmuşdu. Mahmudun reydləri hərbi cəhətdən uğurlu olsa da, əsasən işğaldan çox qarətçilik xarakteri daşıyırdı. Qəznəvinin yaratdığı Orta Asiya dövləti nominal qaydada Bağdad xəlifəsinin hakimiyyətində idi, çünki Harun ər-Rəşidin ölümündən sonra xəlifəlik zəifləmişdi və imperiya sonralar bir sıra müstəqil dövlətlərə parçalanmışdı. Elə bundan istifadə edərək qul olan türk Sabukteqin 975-ci ildə Qəzni və Qəndahar ətrafında dövlət yaratmışdı. O, Hindistana da basqı həyata keçirmişdi. Oğlu Mahmud onun vərəsəsini qəbul etdikdən sonra özünü əla sərkərdə və bacarıqlı süvari başçısı kimi göstərdi. İlbəil o, Hindistana basqınlar edirdi, qarət edir, adamları qırır, özü ilə çoxlu sərvət və əsir aparırdı. Tezliklə o, Hindistanın bütün şimalının qəniminə çevrildi.

Mahmud 1030-cu ildə öləndə bütün Pəncab və Sind onun hakimiyyəti altında idi. O, islamın böyük rəhbərlərindən biri hesab olunur və ilk dəfə islamı Hindistanda yaymağa yollanmışdı. Lakin o, islam təmsilçisindən daha çox döyüşçü idi. O, hətta Bağdad xəlifəsinə hədə-qorxu gəlib ondan Səmərqəndi ona verməyi tələb etmişdi. Mahmud özü ilə Qəzniyə çox sayda hind arxitektorunu və inşaatçısını aparmışdı və orada gözəl məscid tikdirmişdi və onu "Səma gəlini" adlandırmışdı. Mahmud bağları çox sevirdi.

Mahmud öz sarayına çoxlu şairlər toplayırdı və onlar sultanın sifarişi ilə əsərlər yazırdılar. Bu şairlərə sarayda Ünsüri başçılıq edirdi. Məhz onun vasitəsilə böyük fars şairi, sultanın müasiri və onunla eyni ildə ölən Firdovsiyə "Şahnamə" əsərini yazmaq sifariş verilmişdi. Bu əsər Persiya tarixinin yarım minillik dövrünü əhatə edirdi, Makedoniyalı Aleksandrla Daranın müharibəsi də burada öz əksini tapmışdı. Bu iri poemanın haqqını sultan vəd etdiyi kimi ödəmədiyinə, başqa sözlə hər beytə bir qızıl dinar vermədiyinə görə şair ondan incidi və verilən haqqdan bütünlüklə imtina etdi. Mahmudun ölümündən sonra onun imperiyası çox yaşamadı və 1100-cü ildən sonra tənəzzül etməyə başladı. Bundan başqa müsəlman işğalları Hindistanın cənubuna toxunmamışdı və Benqaliyaya bu iki yüz ildən sonra gəlib çatdı. Lakin müsəlman işğalları ardıcıl olaraq genişlənirdi və onun qarşısını heç nə ala bilmirdi. Qədim hindari Hindistanı tənəzzülə uğradı. Burada mübarizə heç də hindari sivilizasiyası ilə yüksək sivilizasiya ərəbləri arasında getmirdi, mübarizə sivilizasiyalaşmış, lakin tənəzzülə uğrayan Hindistanla Mərkəzi Asiyanın yarımsivilizasiyalaşmış, daha çox köçəri xalqları arasında gedirdi, axırıncılar islamı bir az əvvəl qəbul etmişdilər. Hətta qul türk olan Sabukteqin əvvəllər müsəlman deyildi, o, bu dini sonra qəbul etmişdi.

12-ci əsrin sonunda şimali-qərbdən yeni basqınlar dalğası başlandı. Qəzni şəhərini tutan və Qəznəvi imperiyasının mövcudluğuna son qoyan Quridlər

Laxora gəlib oranı tutdu, sonra isə Dehlinin üstünə getdi. Bununla da 1193-cü ildə Dehlidəki qələbə ilə Hindistanda müsəlman ağalığı quruldu. Qədim Hindistan müsəlman işğalçılarına tabe oldu. Bu döyüşçülər əvvəllər çox quduz və qəddar idilər, onlar nə ərəb, nə də pers idilər, sivilizasiya nöqteyi-nəzərindən geridə qalmış əfqanlar idilər. Lakin Hindistan tədricən onları yumşaltdı və sivilizasiyalaşdırdı. Onlar özlərini yadelli işğalçı deyil, hindlilər kimi hiss etməyə başladılar. Onlar yerli qadınlarla evləndilər və qaliblərlə tabe olanlar arasındakı fərqlər tədricən silinməyə başladı. Qarşısında hərbi və onun nəticəsi kimi qarəti məqsəd qoyanlar milli, ya dini məxsusluğa elə də əhəmiyyət vermirdilər. Mahmud Qəznəvinin ordusunda hindus sərkərdə Tilakın başçılıq etdiyi hindus dəstəsi var idi. O, Tilakın qoşununu Qəzniyə aparıb orada onun köməyi ilə müsəlmanların üsyanını yatırtdı. Hindistanda "bütpərəstləri" müsəlman əsgərinin, Orta Asiyada isə müsəlmanları hindus əsgərinin vasitəsilə qırdırırdı.

Mahmud Qəznəvi dövründə işğalçı ordunun gəlməsi ilə yanaşı, Hindistanı öyrənməyə gələn tək-tək adamlar da olurdu. Sərkərdə ilə birlikdə Pəncaba böyük alim əl-Biruni də gəlmişdi. O, təkcə elmi, universal biliyi ilə deyil, düşüncə tərzi ilə də öz dövrünün quduz və fanatik döyüşçülərindən fərqlənirdi. O, bütün Hindistanı dolaşırdı ki, bu yeni ölkəni anlasın, hindlilərin baxışları ilə tanış olsun. O, sanskrit dilini öyrəndi və hindusların əsas kitabları ilə tanış oldu. O, burada dərin hind fəlsəfəsini öyrəndi, "Bhaqavadgita" onun sevimli kitabına çevrildi. Ölkənin cənubunda böyük suvarma qurğuları onu heyrətə gətirdi. Dağıntılar, qanaxıtmalar və dözümsüzlük mühitində, insanın qüsurlu ehtiraslarının baş alıb getdiyi bir şəraitdə o, bir alim kimi zahiri əlamətlərlə kifayətlənməyib həqiqəti dərk etməyə, hindlilərin daxili aləminə nüfuz etməyə çalışırdı. Mahmud Qəznəvidən xarabalıqlar yadigar qalırdısa, əl-Birunidən bu səfərin məhsulu kimi səyahətlərə dair qədim əsərlər arasında xüsusi dəyəri ilə seçilən xatirələr kitabı qaldı.

Məhəmməd Qur öz işğallarını başa çatdırıb böyük xəzinə ilə Qəzniyə dönəndə Qütb-əd-din-Aybəkə işğal edilmiş əraziləri birləşdirmək və ekspansiyanı davam etdirmək vəzifəsini tapşırdı. Qütb-əd-din qul idi, lakin sərkərdəliyə yüksələ bilmişdi. Bu təəccüblü deyildi, 711-ci ildə İspaniyaya keçib Andalusiyanı işğal edən və Cəbəllüttariq boğazı ilə adını əbədiləşdirən ərəb sərkərdəsi Tarik də qul olmuşdu. Qütb-əd-din Dehlidəki başçını devirib orada öz qərargahını qurdu və Dehlinin ilk sultanı oldu. Ondan sonra gələn sultanların bir çoxu da mənşəcə qul olduqlarından onları Qul sülaləsi adlandırırdılar. Onların hamısı qəddarlığı ilə seçilirdi, binaları və kitabxanaları dağıdırdılar, əhalini döyürdülər, lakin onlar tikib qurmağı sevirdilər və iri miqyaslı tikintilərə daha çox meyl edirdilər. Qütb-əd-din Dehlidə böyük Qütb-minar qülləsini tikdirməyə başlamışdı. Onun varisi İltutmış qüllənin tikintisini başa çatdırdı və onun yanında gözəl

tağlar tikdirdi. İnşaat materialları kimi isə qədim hind tikililərindən, xüsusən məbədlərdən götürülənlər istifadə edilirdi. Orta əsrlərdə Barberini ailəsi də Romada Kolizeyin mərmərindən və daşlarından özlərinə dəbdəbəli evlər tikirdilər. İnşaatçılar hindlilər olsa da, onlar müsəlmanların gətirdiyi yeni ideyaların təsiri altına düşürdülər.

Sonra əfqanlar Benqaliyanı işğal etdilər və bu onlara çox asan başa gəldi. Əfqanlar qoçaq olmaqla yanaşı, müdafiəçilərin üzərinə qəflətən hücum edirdilər. İltutmışın hökmranlığı dövründə (1211-1236-cı illər) Hindistanın sərhədləri üzərində bu dəfə Çingiz xanın başçılıq etdiyi monqolların təhlükəsi yarandı. Onlar İnd çayına qədər gəlib burada dayandılar. Hindistan Çingiz xanın basqınından sovuşa bildi. İki yüz il sonra digər fateh Teymur Hindistana gəlib öldürmək və dağıtmaq missiyasını icra etdi. Çingiz xan özü Hindistana girməsə də, çoxlu monqollar ölkəyə basqınlar edirdilər, hətta Laxora gəlib çıxmışdılar. Onlar qorxu yayırdılar, hətta sultanlar onlardan qorxurdular, hədiyyə verməklə özlərini qoruyurdular. Sultanların içində İltutmışın qızı olan Raziyyə adlı qadın var idi və igid döyüşçüyə də təkcə monqollarla deyil, öz əfqan zadəganları ilə bacarmaq çətinlik törədirdi.

1290-cı ildə qul-sultanların hakimiyyəti sona çatdı. Bundan bir qədər sonra hakimiyyətə gələn Ələddin Xalci iyirmi il ərzində hökmranlıq etdi. Ondan əvvəl isə altı il müddətində Cəlaləddin Firuz Xalci hakimiyyətdə olmuşdu. Onun tərəfdarları və Dehli əhalisi ona türk olmayan uzurpator kimi baxırdılar. O, qiyamı yatıra bilmiş, monqol qoşunlarını Sind çayı sahilində məğlub etmişdi. Xalci sultanlarından ən bacarıqlısı olan Ələddin isə taxt-taca həm də qayınatası olan öz dayısını qətlə yetirməklə çıxmışdı. Bundan sonra o, ona sədaqətsizlikdə şübhələndiyi adlı-sanlı müsəlmanları da öldürtdü. Monqolların qəsdlərindən qorxduğuna görə o, öz hakimiyyəti altında olan bütün ərazilərdə hər bir monqolu öldürməyi əmr etmişdi ki, “yer üzündə bu tayfaya məxsus olan bir nəfər də olsun diri adam qalmasın“. Hindistana özü ilə tərəqqi elementləri gətirən islamdan fərqli olaraq müsəlman əfqanlar buraya barbarlıq elementləri gətirmişdilər.

Ələddin bir sıra hərbi, maliyyə və iqtisadi islahatlar həyata keçirdi, bununla o, daha çox pul götürmək, özü ilə əyanları arasında böyük məsafə saxlamaq istəyirdi. Onun başlıca məqsədi isə hind torpağında sultanlığın köklərini daha da dərinləşdirmək idi. Vergi dərəcəsi istehsal üçün rəsmi olaraq 50 faiz artırıldı və qulluqçular göndərilirdi ki, yerli hind torpaq sahiblərini bütünlüklə bunu ödəməyə məcbur etsinlər. Sultanlığın tarixində ilk dəfə olaraq torpaq sahiblərindən yığılan baca nisbətən vergilər həqiqi torpaq ölçüsü əsasında qoyulmağa başlandı. Ələddin həmçinin qiymət və maaşa nəzarət üçün uğurlu sistem tətbiq etdi. Onun islahatlarının və fərasətli hökmranlığının hesabına sultanlıq sürətlə

genişləndi. O, Qucaratı və digər əraziləri özünə tabe etdi, Racput başçılarının hakimiyyəti azaldı və onlar nəticədə Dehlinin tabeliyinə düşdülər. Hind çarları rəsmi olaraq Ələddinin aliliyini tanıdılar. O, monqol müdaxilələrini dəf etməyi də bacardı və hətta Dehliyə monqollar soxulanda onları məğlub edə bildi. Bundan sonra monqol müdaxilələri dayandı, çünki monqollar Hindistanda uğur qazana bilməmişdilər. Ələddinin dövründə həm də hindlilər və müsəlmanlar bir qrupun içərisində imperiyanı idarə edirdilər. O, özü və onun oğlu mühüm hind hökmdarlarının ailələrindən olan qızlara evlənmişdilər və bir neçə belə hökmdar sarayda hörmətlə qəbul edilmişdi. Əsasən hindlilərdən ibarət olan, türk olmayan kübarlar üçün hakimiyyət qapısı bir qədər açılmışdı, hindlilərin siyasi aləmə cəlb edilməsi qanuni sayılırdı. İşğalçı kimi gələnlərin də dünyagörüşü dəyişilməyə başlamışdı. Onlar Hindistanı artıq özlərinin vətəni hesab edirdilər.

1303-cü ildə Çitorda yəhudilərin Masadasına bənzər bir hadisə baş verdi. Viranə qoyulmamışdan əvvəl qalada olan kişilər və qadınlar köhnə qaydalara sadiq qalaraq dəhşətli *cauhar* adətini icra etdilər. Bu adətə görə məğlubiyyət təhlükəsi yarananda, ən qorxulu anda kişilər qaladan çıxıb döyüş meydanında ölməli idilər, qadınlar isə özlərini yandırmalıydılar. Bu qadınlar üçün xüsusilə dəhşətli adət idi. Qalanın müdafiəçiləri b.e. 73-cü ildəki romalılara qarşı özlərini fəda edən yəhudilər kimi məğlub olub, qul olmağa və alçalmağa məruz qalmaqdansa, daha şərəfli olan ölümü seçdilər.

Məhz bu dövrdə yerli əhali olan hindusların tədricən islama keçməsi başlandı. Bəzilərinə islam xoş gəldiyinə, digərləri qorxudan, üçüncülər isə güclünün tərəfində olmağın təbii istəyinə boyun əyərək dinlərini dəyişirdi. Bu keçidin ən başlıca səbəbi isə iqtisadi motivlər idi. Müsəlman olmayanlar can vergisi verməli idi, kasıblar üçün isə bu ağır yük idi. Çoxları bu vergidən yaxalarını qurtarmaq üçün dinini dəyişirdi. Digər eqoistik motivlər də az rol oynamırdı, kimsə sarayın mərhəmətini qazanmaq və yüksək vəzifə tutmağa can atırdı. Ələddinin böyük sərkərdəsi olan Məlik Qafur hinduist olmaqla islama keçmiş və Cənubu işğal etmişdi.

Məhəmməd ibn Tuqlakın hökmranlığı (1325-1351-ci illər) sultanlığın tənəzzülünün başlanğıcı ilə əlamətdar oldu. O, hakimiyyətə başlayanda 23 əyalətdən yalnız çox az yerlərdə sultanın hakimiyyətinə ciddi meydan oxuna bilərdi. Lakin on ildən sonra vəziyyət pisləşməyə başladı və məhz bu vaxt həm də böyük coğrafi genişlənmə meydana gəlmişdi. Məhəmməd ibn Tuqlak konsolidasiya ətalətini dəstəkləməyə qadir deyildi. Onun hökmranlığının sonunda artıq Cənub itirilmişdi, Şimal isə üsyan ağuşunda idi. O, yenilikçi və ambitsiyalı hökmdar idi, lakin onlar heç də sultanın xeyrinə işləmirdi. Üç əsr sonra gələn moğol hökmdarı Auranqzeb kimi o da Cənubi Hindistanın daxilinə genişlənmə nəticəsində yaranan problemlərlə üzləşdi, bu onu dözülməz hərbi

və siyasi şəraitə saldı. Auranqzeb kimi o, Dekandakı əraziləri öz ambitsiyasına görə qoruyub saxlamağa çalışdığından, Şimala diqqətini azaldırdı. Bütünlükdə Cənubun müstəqilliyinə də əhəmiyyət vermirdi. Müsəlman olan kübarları Cənubda məskunlaşdırmaq və orada öz nəzarətini qoruyub saxlamaq üçün sultan Dövlətabadı özünün ikinci paytaxtı etdi və Dehli əhalisinin xeyli hissəsini buraya köçürdü. Dehlidən Dövlətabada getmək üçün yola qırx gün lazım idi. Onun bu tədbirinin nəticəsində şəhər əhalisizləşdi və səkkiz il sonra baş verən dəhşətli aclıq zamanı Dehli müvəqqəti olaraq süqut etdi. Bundan əvvəl isə sultan şəhəri yenidən məskunlaşdırmağa cəhd etsə də, buna nail ola bilmədi. Şəhər "əsl səhraya" çevrildi. Afrikadan olan mavr səyyah İbn Battuta Dehliyə qayıdan sultanı müşayiət etmişdi və yazırdı ki, "bu dünyanın ən böyük şəhərlərindən biridir. Biz paytaxta girəndə onu təsvir edilən vəziyyətdə gördük. Şəhər boş, tərk edilmiş idi, onda az miqdarda əhali qalmışdı". Məhəmməd ibn Tuqlak təkcə Dehlini deyil, öz imperiyasını da dağıda bildi. Aclıqdan sonra üsyanlar başladı, geniş vilayətlər müstəqillik əldə etdi. Benqaliya da müstəqillik qazandı. Cənubda isə böyük dövlət yarandı. Məhəmməd ibn Tuqlak ömrünün son beş ilini Qucaratdakı yeni üsyanı yatırtmağa sərf etdi, bununla da Dövlətabadı yenidən tutmaq cəhdini də edə bilmədi.

# FƏSİL 4
# HİNDİSTAN SULTANLIĞININ TƏNƏZZÜLÜ DÖVRÜNDƏ

Məhəmməd ibn Tuqlakın varisi onun əmisi oğlu Firuz ibn Rəcəb oldu, həmin vaxtdan etibarən o, Firuz şah kimi tanınmaqla 1351-1388-ci ildə hökmranlıq etdi. Racput printsessasının oğlu olan Firuz orta əsr salnaməçiləri tərəfindən mömin hökmdar kimi təsvir edilir, onun dövrü dinclik və inkişaf dövrü kimi xarakterizə olunur. Onun anası Bibi Nayla racputlu olmaqla öz ölkəsini qorumaq üçün onun atasına ərə getmişdi. Müsəlman hökmdarları ilə Racput qadınlarının belə qarışıq nikahları tez-tez təkrar olunan hala çevrildi. Lakin o, Benqalda, Orissada, Sinddə və digər əyalətlərdə döyüşlər aparırdı. Öz cəhdlərinə baxmayaraq, Firuz Benqalı sultanlığa qaytara bilmədi və onun hökmranlığı dövründə Sind yalnız bac verən vassal kimi qaldı. Firuz öz əmisi oğlunun bədbəxtliklərinin şahidi olmuşdu və Cənubu və Şimalı eyni vaxtda idarə etməyin necə çətin olduğunu anlayırdı. O, öz dövrünün iki başlıca nüfuzlu müsəlman intellektual qrupuna yaxşı münasibət göstərirdi. Onlar müsəlman dini liderləri və kübarlıq idi.

Firuz sufilərə və digər din liderlərinə bol-bol hədiyyələr verirdi, yoxsul müsəlmanlara kömək göstərmək üçün xeyriyyəçilik yaratmışdı, çox sayda kollec binaları və məscidlər tikdirmişdi, öz hindu təbəələrini müsəlmanlığa çevirmək üçün uğursuz cəhd etmiş, bəzi hallarda onları təqib etmişdi. Hökmdar kimi onun zəifliyi siyasi cəhətdən onun möminliyindən daha böyük əhəmiyyət kəsb edirdi və kübarlığa qarşı onun zəif siyasəti hökmranlığı dövründə mərkəzi hakimiyyətin tənəzzülündə mühüm rol oynamışdı. Onun sələfləri kübarlığın qüdrətini yoxlamaq və hakimiyyətin mərkəzləşdirilməsi üçün xeyli cəhdlər etmişdilər, kübarları ordunun daxilində və mülki inzibatçılıqda təmsil etməyə çalışmışdılar. Tuqlakın hökmranlığının ilk otuz ili ərzində kübarlığa yeni qanın əlavə olunması tədricən davam etdirildi. Belə siyasət bütün kübarlıq üzərində sultanın hakimiyyətini yüksəldirdi, çünki bu, yeni minnətdar kübarları razı salırdı. Lakin Tuqlak kübarlara qarşı avtokratik siyasət aparırdı. Firuz isə kübarlara daha çox muxtariyyət verən siyasətə üstünlük verirdi. Az sayda yeni kübarlara varislik hüququ verdi, bu mühüm mövqelər tutmağa imkan verəcəkdi. Nəticə ondan ibarət oldu ki, sultan həm dayaqlarını, həm də yeni siyasi şəraiti qaydaya salmaq imkanlarını itirdi. Firuz qulluqçulara nəqd maaş verməyə cəhd göstərmədi, onlara varislik vəzifələri verirdi və gəlir gətirən fermerlik sistemini genişləndirirdi. Bütün bu tədbirlər kübarlıq üzərində və gəlir sistemi üzərində Firuzun nəzarətini azaldırdı. Nəticədə Firuzun hökmranlığının ümumən yüngül əli artan səmərəsiz inzibatçılığa və korrupsiyaya aparıb çıxardı. Xüsusən onun

səriştəli vəziri I Xan Cahan 1370-ci ildə öldükdən sonra vəziyyət xüsusilə pisləşdi.

Firuz ədalətli olaraq qurucu kimi şöhrət tapmışdı. Böyük sayda məscid, məktəb, xəstəxana, karvansara və hətta kiçik şəhərlərin tikilməsinə, salınmasına əlavə olaraq o, irriqasiya üçün beş kanal çəkdirmişdi, onlardan ən mühümü 240 km uzunluğunda idi. Bu məqsəd üçün həm də çox sayda su anbarları tikilmişdi və quyular qazılmışdı.

Hindistanın müsəlman dövlətlərində varislik mübahisələri istisnadan daha çox qaydaya çevrilmişdi. Lakin uzun hökmranlıqdan sonra qoca hökmdarın ölümü çox vaxt pozucu mübahisələrə aparıb çıxarırdı, çünki bu vaxt taxt-taca iddia edən yaşlı adamların iki nəsli mövcud olurdu. 1388-ci ildə Firuzun ölümündən sonra da belə bir situasiya yarandı və kübarlığın böyük qüdrəti ilə əlaqədar olaraq daha da mürəkkəbləşdi. Digər tərəfdən böyük dərəcədə istedada malik olan iddiaçının olmaması da öz təsirini göstərirdi. Firuzun oğlanları və nəvələri kübarların müxtəlif qrupları tərəfindən dəstək alaraq taxt-tac uğrunda mübarizəyə başladılar və bu, sultanlığın hakimiyyətini surətlə kiçiltdi və müxalif olan müsəlman kübarları və hindu başçılarının öz muxtariyyətini yüksəltmələri üçün şərait yaratdı. Qucaratın müsəlman valisi 1390-cı ildən etibarən öz müstəqilliyini elan etdi və 1391-ci illə 1394-cü il arasında Etavahın mühüm Racput başçıları qiyam qaldıraraq dörd dəfə məğlub edildi. Dehli hakimiyyəti açıqca şübhə altında idi. 1394-cü ildən iki sultan var idi, onlar Dehlidə və onun yaxınlığında saraylarını yaratmışdılar. Nəticədə üç il ərzində ağır vətəndaş müharibəsi getdi, bu vaxt Teymurun qorxulu müdaxiləsi yaxınlaşırdı.

Teymur Barlas türkü olmaqla müəyyən olunmayan mövqedən Transoksaniyadakı kiçik knyazlıqda hökmdarlığa yüksəlmişdi. O, dünyanın nə vaxtsa tanıdığı ən böyük fatehlərdən birinə çevrildi. Teymur 1398-ci ildə Hindistana müdaxilə edəndə onun 62 yaşı var idi, Yaxın Şərqdə və Mərkəzi Asiyada geniş imperiyaya sahib idi. O, Tuqlak sülaləsinin hakimiyyətinə axırıncı zərbəni vurdu, bu zərbə həm də sultanlığın özünə dəydi. Yaxşı həyata keçirilən dörd aylıq kampaniya ərzində Şimali Hindistandakı çox sayda parçalanmış müsəlman və hindu qüvvələrinin ya yanından ötüb keçilmişdi, yaxud da onlar dinc qaydada tabe etdirilmişdi. Bu vaxt birlikdə vuruşan racputlar və müsəlmanlar Bhatnaqarda qırğına məruz qaldılar, Teymur Dehliyə gəlib çatdı və sultan Mahmudun ordusunu məğlub edib şəhəri qarət etdi. Belə deyirlər ki, Dehli uğrunda döyüşdən əvvəl ən azı 50 min nəfər əsirin edam edilməsi barədə göstəriş vermişdi, şəhərin qarət edilməsi isə o qədər viran qoyucu idi ki, praktiki olaraq qiyməti olan hər bir şey götürülmüşdü, onlar öldürülməyən sakinlərin əmlakını da bütünlüklə ələ keçirmişdilər.

Bu fəlakətdən sonra Dehli Şimali Hindistanın sadə regional knyazlıqlarından birinə çevrildi, meydana çıxan racput və müsəlman dövlətləri ilə rəqabət aparırdı. Teymurun müdaxiləsindən sonra Qucarat, Malva və Campur tezliklə

qüdrətli müstəqil dövlətlərə çevrildilər, sürətlə köhnə və yeni racput dövlətləri yarandı. Buna bənzər digər dövlətlər də meydana gəldi. 15-ci əsr ərzində və 16-cı əsrin erkən vaxtlarında bütün Şimali Hindistan və Benqal üzərində səmərəli nəzarət edən heç bir daimi hakimiyyət yaranmadı. Birləşmiş idarəetmənin olmaması bəzi tarixçiləri bu dövrü siyasi anarxiya və qarışıqlıq dövrlərindən biri kimi təsvir etməyə sövq edirdi. Qüvvətli idarə edən əl olmadığından sakinlər əziyyət çəkməli olurdular. Həyatın bərabərliyi əkinçilər üçün, şəhər sakinləri, torpaq sahibləri, kübarlar üçün əvvəlki əsrlərə nisbətən yaxşı və ya olduqca yaxşı idi. Ona görə də əkinçiliyin və ticarətin ümumi qaydada əhəmiyyətli tənəzzülü baş vermirdi.

Tuqlak sülaləsinin sonuncu nümayəndəsi 1413-cü ildə öldü və Dehli onu əhatə edən kiçik ərazi ilə türk Xızır xanın əlinə keçdi. Səyyid sülaləsi ərazini 1451-ci ilə qədər 37 il ərzində idarə etdi. Onlar qonşuluqdakı Racput hökmdarlarından öz süzerenliklərinin tanınmasına və bac almağa cəhd etdilər və öz məmləkətlərini toxunulmaz saxlamaq üçün qonşu dövlətlərlə demək olar ki, arası kəsilmədən vuruşurdular. Axırıncı Səyyid hökmdarı Əlauddin Əlam şah hakimiyyəti öz formal vassalı olan əfqan Bəhlul Lodiyə dinc qaydada təslim etdi və Baham mahalına gedib ölənə qədər orada yaşadı. Bu vaxt qonşuluqdakı Caunpur səltənəti Dehliyə bərabər olan qüvvəyə yiyələndi. Dehlinin  Lodi sultanları ilə münaqişə Caunpurun məğlubiyyəti və müəyyən qədər Bəhlul Lodi tərəfindən anneksiya edilməsi ilə nəticələndi.

Bəhlul Lodi Dehlinin üzərinə getməmişdən əvvəl Pəncabda səltənət qurmuşdu. Sonrakı 75 il ərzində Bəhlul və onun iki varisi Dehlini əllərində saxladılar və arasıkəsilmədən qonşu ərazilərə öz nəzarətlərini genişləndirdilər. Moğol işğalı ərəfəsində Hindistanda racput konfederasiyası yarandı. Lodi dövlətinin əhəmiyyət kəsb edən nəticəsi isə Hindistana müəyyən qədər əfqanların immiqrasiyası oldu, onlar burada məskunlaşıb sultanlığın genişlənməsinə kömək etdilər. Onlar 16-cı əsrin əksər dövründə yeni moğol hakimiyyəti ilə əsl rəqabət aparan qüvvəyə çevrildilər. Sonuncu Lodi sultanı İbrahim öz sələflərindən daha avtokratik idi, lakin öz kübarlarını nəzarətdə saxlamağa daha az qadir idi. Bu kübarlar lodiləri yalnız bərabərlər arasında birinci kimi görmək istəyirdilər. O, tezliklə əfqan qiyamı ilə üzləşməli oldu. İbrahim onu yatırtdı. Lakin qərbdə daha böyük bədbəxtlik baş verdi. İbrahimin öz yaxın qohumları, onlardan biri Pəncabın valisi idi, Kabildəki moğol hökmdarı Babura müraciət edib ondan sultanı devirməkdə kömək göstərməsini xahiş etdi. Məcara axtaran Babur bu vaxt yalnız Pəncabı anneksiya etmək barədə düşünürdü, lakin bu tarixçə əvvəlcədən nümayiş etdirdi ki, siyasi əkslikdən tezcənə fayda götürməyə hazırdır. 1524-cü ildə o, Laxora ekspedisiya təşkil etdi və İbrahimin ordusunu məğlub etdi. Babur sonra öz əfqan müttəfiqlərinin ərazisinə keçdi və Pəncabda öz qulluqçularını təyin etdi. Müttəfiqləri qəzəblə onu tərk edəndə o, 1526-cı ildə Dehli yaxınlığında İbrahimi məğlub etməyə və öldürməyə yollandı. Əfqan

sultanlığı qısa müddətə bərpa olunsa da, bu yalnız yenidən Humayunun, sonra isə Əkbərin başçılığı altında olan hökmranlıqla əvəz edilmək üçün mövcud olmuşdu.

Cənubi Hindistanda isə sultanlıq hökmranlığı bir neçə illiyə yaşayırdı, möhkəm surətdə yalnız Dekanın şimaldakı əyaləti qurulmuşdu, onun paytaxtı Dövlətabad idi. 1447-ci ildən təqribən 1547-ci ilə qədər davam edən Bəhməni səltənəti və ya Qulbarqa Dehli sultanına qarşı müsəlman kübarları qrupu tərəfindən başlanan qiyam nəticəsində meydana gəlmişdi. Bəhməni sülaləsinin əsasını qoyan Həsən Qənqu Dövlətabadda taxt-taca Əlauddin Bəhmən şah kimi qalxmışdı və tezliklə öz paytaxtını Dekan ovalığındakı Qulbarqaya köçürmüşdü. Bəhməni dövlətinin təbii diqqət mərkəzi Dekan düzənliyi idi və sultanların başlıca məqsədi səmərəli nəzarət etmək idi. Bəhmən şahı onun oğlu Məhəmməd şah əvəz etdi. 1350-1500-cü illər ərzində ən azı on müharibə aparıldı. Məhəmməd şahın dövründə səltənət üçün samballı bünövrə yaradıldı. O, yenicə təşkil edilmiş artilleriyadan istifadə edərək özününkündən xeyli böyük olan ordunu məğlub etmişdi. Sultan sonrakı daxili və xarici təhlükələrdən öz məmləkətini qoruyub saxlaya bilirdi, hökmranlığının son on ilində isə əlində olan bütün əraziləri konsolidasiya etməklə məşğul oldu. Lakin onun qoyduğu yaxşı bünövrə tezliklə onun oğlu və varisi Əlauddin Mücahid tərəfindən dağıdıldı, üç il hökmranlıq etdikdən sonra o, əmisi oğlu Daud tərəfindən öldürüldü. Daudun özü də Əlauddinin tərəfdarları tərəfindən qətlə yetirildi və onlar Daudun qardaşı II Məhəmmədi taxt-taca oturtdular və Daudun oğlunu isə kor etdilər.

Bu dövrdə bir sıra siyasi və mədəni tendensiyalar diqqəti cəlb etməklə Bəhməni dövlətinin və onun varislərinin inkişafında əhəmiyyətli rol oynadı. Baxmayaraq ki, dövlət Dehli sultanlığından olan narazı kübar qrupu tərəfindən yaradılmışdı, həm mədəniyyətdə, həm də kübarlığın üzvlüyündə onların arasında fərqlər var idi. Bəhməni dövlətinin əsası qoyulduqdan az sonra çox sayda ərəblər, türklər və xüsusən persiyalılar Dekana immiqrasiya etməyə başladılar, onlardan çoxunu sultan Məhəmməd özü dəvət etmişdi və orada onlar sonrakı nəsillər ərzində müsəlman mədəniyyətinin inkişafına güclü təsir göstərdilər. Yeni sakinlər həm də siyasi ierarxiya daxilində mühüm mövqelər uğrunda uğurlu rəqabət aparmağa başladılar. Dehli sultanlığından olan ilkin qiyamçılar və onların törəmələri *daxnis* adlanmaqla özlərini köhnə kübarlıq kimi qələmə verirdilər və bu yeni gələnlərin uğuruna qarşı narazılıq yaradırdı. *Daxnislərlə* yeni sakinlər arasındakı bölünmə Bəhməni dövlətinin parçalanmasında mühüm rol oynadı və bu prosesə köməklik göstərdi. Tacəddin Firuzun hökmranlığı dövründə Bəhməni sultanlığında xüsusi mədəni yüksəliş getdi.

Dehli sultanlığı sürətlə parçalananda Firuz Hindistanda müsəlman mədəniyyətinin böyük mərkəzini yaratdı. O, bir sıra yüksək vəzifələri hindlilərə verdi və bir neçə hind qadınına, o cümlədən Vicayanaqar şahının qızına evləndi. Bu-

nunla Dehli sultanlığı kübarlığının erkən inkişafı paralel qaydada davam etdirildi. Hindlilər siyasi cəhətdən daha çox əhəmiyyət kəsb etdilər. Sonuncu müharibədə Firuz ərazi itirməsə də, məğlubiyyət onun mövqeyini çox zəiflətdi, onun oğlu və qardaşının varis olması məsələsi qalxarkən ordu qardaşı Əhmədi müdafiə etdi və 70 yaşlı qoca olan Firuz ölüm ayağında taxt-tacdan onun xeyrinə əl çəkməyə məcbur edildi.

I Əhməd paytaxtı Qulbarqadan Bidara köçürtdü, bu şəhər münbit torpaqlarla əhatə olunmuşdu və daha mərkəzi nöqtədə yerləşirdi. Əhməd ekspansiya ambitsiyasından da xali deyildi və Varanqal hökmdarını məğlub edib xeyli ərazini öz torpaqlarına birləşdirməklə şərq sərhədini Orissaya yaxınlaşdırdı.

Bəhməni dövlətinə əvvəllərdə şimaldan təhlükə gözlənirdisə, Əhmədin hökmranlığı dövründə ilk münaqişə şimal qonşuları Malva ilə və Qucaratla baş verdi. Sərhəd mübahisəsi bəhmənilərі Malva üzərində qələbə çalmağa gətirib çıxardı. Sonra Əhməd digər şimal qonşusu olan Xandeş ilə ittifaq bağladı. Lakin 1429-cu və 1430-cu illərdə Qucarata uğursuzluqla başa çatan ekspedisiya göndərdi. Axırıncı məğlubiyyət xüsusi əhəmiyyət daşıyırdı, bu Bəhməni sultanlığını dağılmağa aparırdı. Hökmranlığının axırıncı ilində Əhməd böyük oğlunu hakimiyyətə şərik etdi və ona tam inzibatçılıq səlahiyyəti verdi. O, əyalətləri öz digər oğulları arasında böldü və onlardan belə vəd qopardı ki, onlar yeni hökmdara loyal olacaqlar. Sultan Əlauddin II Əhməd qardaşlarından birinin qiyamı ilə üz-üzə gəlsə də, bu pretsedentdən böyük qardaşın hökmranlıq etməsi qaydası yarandı, bu da əsrin bütün qalan dövründə varislik mübahisəsi problemini yüngülləşdirdi. Sonrakı Bəhməni hökmdarları üçün bədbəxtlikdən kübarlıq arasındakı rəqiblər sülalənin taleyinə ziyan vura bilirdilər. II Əhməd öz atasından zəif hökmdar olduğunu göstərdi, onun hökmranlığı dövründə kübarlar arasında münaqişələr intensivləşdi. Viyacanaqar ilə iki qısa müddətli müharibə yeni hakimiyyətin gəlməsindən başqa elə bir əhəmiyyət kəsb etmədi. Əhməd yeni gələnləri ədalətsiz olaraq öldürməkdə ittiham etdi, o, buna görə məsuliyyət daşıyan bir çox dekanlıları cəzalandırdı və yeni gələnlərdən sağ qalanları irəli çəkdi. Öz hökmranlığının axırıncı illərində Əhməd öz kürəkəninin başçılıq etdiyi qiyamla üzləşdi.

1458-ci və 1481-ci illər arasında üç sultan hökmranlıq etdi. Humayunun və onun oğlunun hökmranlığı dövründə diqqəti daha çox cəlb edən şəxsiyyət persiyalı mühacir Mahmud Qavan idi, o, inzibatçılığa başçılıq edirdi. Sonuncu iyirmi il ərzində isə o, III Məhəmmədin baş naziri olmuşdu. Mahmud Qavan işlərə başçılıq edəndə Bəhməni dövləti ən böyük ölçüyə və ən yüksək mərkəzləşmə səviyyəsinə malik oldu. Bu dövr onun qətlə yetirilməsi ilə başa çatdı və Bəhməni dövlətinin səmərəli hakimiyyəti sürətlə dağıldı. Bəhməni qüvvələrinin hərbi tədbirləri uğurlu olurdu. Mahmud Qavanın 1463-cü ildə baş nazir təyin edildikdən sonra apardığı bir sıra ekspansionist kampaniyalar qərbdə Konkanın əksər hissəsinin, Qoa kimi mühüm liman və Bombey Karnatiki daxil ol-

maqla tabe edilməsi ilə nəticələndi. Mahmud Qavan tacın hakimiyyətini yüksəltmək üçün bir sıra inzibati islahatlara və siyasi manevrlərə cəhd göstərdi. Səltənət Dövlətabad mərkəzdə olmaqla dörd əyalətə bölünmüşdü. Dörd əyalətin valiləri onların ərazi yurisdiksiyası daxilində mülki və hərbi inzibatçılığın demək olar ki, bütün cəhətlərinə nəzarət edirdilər. Valilərin hakimiyyətini azaltmaq üçün əvvəlki dördün əvəzinə Mahmud Qavan səkkiz əyalət yaratdı. Valilərin hərbi nəzarətini məhdudlaşdırmaq üçün bütün fortların komandirlərini hər əyalətdə bir nəfər etməklə, onları valilər əvəzinə birbaşa sultan qarşısında məsuliyyət daşıması qaydasını qoydu və əyalətlər daxilində qoşunlardan istifadə və onlara haqq verilməsinin üzərində mərkəzi nəzarəti daha möhkəm etdi. Üstəlik o, kənd təsərrüfatı torpaqlarının ölçü və qiymət sistemini tətbiq etdi və hər əyalətdə taxt-tac üçün böyük torpaq sahələri yaratdı. O, dekanlılarla yeni gəlmələr arasında mühüm vəzifələrə təyin etmək məsələsində tarazlıq yaratmağa cəhd etdi, bununla o, təkcə kübarlar arasında mübahisəni azaltmağa çalışmırdı, həm də onun niyyəti baş nazir kimi öz hakimiyyətini yüksəltmək idi. O, yeni gəlmə olsa da, özünü partiya münaqişələrindən yuxarıda qoyurdu.

Mahmud Qavanın və Bəhməni dövlətinin bədbəxtliyindən partiya mübarizəsi o dərəcəyə yüksəldi ki, Dekan kübar qrupu baş nazirə yeni gəlmə kimi düşmənçilik bəsləməyə başladı, onun mərkəzləşdirilməyə yönəlmiş tədbirlərini də bəyənmirdilər. Saxta şəhadətlərlə onun xəyanətkar olduğunu açıb bildirdilər və III Məhəmmədi onu 1481-ci ildə edam etməyə inandıra bildilər. Bütün yeni gəlmələr və dekanlı kübarların bəziləri onun edam edilməsindən narazı qaldılar və Mahmud Qavanın baş tərəfdarı olan Yusif Adil xanın tərəfinə keçdilər. Yeni gəlmələrin çoxu öz əyalətlərinə qayıtdılar və paytaxta gəlməkdən imtina etdilər. Sultan yalnız qəsdçilərin köməyinə möhtac qaldı. 1482-ci ildə o, öləndə qəsdçilərin lideri Malik Nayib özünü Məhəmmədin kiçik oğlu üçün regent edə bildi. Yeni sultan Mahmud vaxtından əvvəl Yusif Adil xanı öldürməyə cəhd etdi, bu axırıncının Bicapura istirahətə yollanmasına razılıq verməsi ilə nəticələndi. Dekanlılarla yeni gəlmələrin münaqişəsinə mərkəzi hakimiyyətin təsir göstərə bilməməsi daha aydın nəzərə çarpdı. Bir vaxtlar populyar olan Malik Nayib ölümə məhkum edildi və sultan kömək üçün yeni gəlmələrə arxalanmağa başladı. Mahmudun həyatına dekanlılar qəsd etməyə cəhd etdikdə güclənən sultan çox sayda böyük dekanlıları qırdırdı. Bu vaxtdan etibarən sultanın gücünün bir sıra öz kübarlarından az olduğu göründü və o, nəzarətə cəhd etdikdə əyalət valiləri üçün özünün sadəcə şahmat piyadası olduğunu büruzə verdi. Bu vaxt idarəetmə hakimiyyəti əldən çıxmağa yaxın idi. Əyalət valilərinə və onların tərəfdarlarına nəzarət edilmirdi, onlar mərkəzləşmiş Bəhməni dövlətini dəstəkləməyə inam bəsləmirdilər. Nəticədə digər valilər və qüdrətli kübarlar tərəfindən qaldırılan qiyamları yatırtmaqda valilər sultana kömək göstərmək istəmirdilər. İlk qiyamlardan birini türk kübarı Qasım Barid qaldırdı. O, ona qarşı sultanın göndərdiyi ordunu məğlub etdi, sonra isə Mahmudu məcbur

etdi ki, onu dövlətin baş naziri təyin etsin. Qasım Baridin mərkəzi hakimiyyəti qüvvətləndirmək cəhdi baş kübarların çoxunun etirazına səbəb oldu, onu məğlub edən kübarlar hakimiyyətini tanımaqdan imtina etdilər. Daha sonra isə Malik Nayibin oğlu qərb sahilindəki Maratha fortlarını işğal etməklə özünə ərazilər tutmağa başladı. Sultanın onun üzərinə göndərdiyi iki ordunu məğlub etdi və sultanı onun qələbələrini tanımağa məcbur etdi. 1490-cı ildə o, praktiki olaraq müstəqillik qazandı və öz paytaxtını Əhmədnaqarda yerləşdirdi. Üç vali özlərini hökmdar elan etməsələr də, 1490-cı ilin sonunda aydın görünürdü ki, sultan Mahmud və onun baş naziri Qasım Barid onların heç birinə göstəriş verə bilmir.

Əvvəlki əyalət valiləri ilə digər yüksək kübarlarla və bəhmənilərin paytaxtında hökumətin səmərəli başçısı olan Qasım Barid arasında rəqabət güclənirdi. Onların hər biri öz mövqeyini yüksəltmək üçün müvəqqəti ittifaqlar bağlayır və digər kübarlarla döyüşlərdə vuruşurdular. Tədricən Bəhməni sultanlığının beş varis dövləti öz ölçülərinə malik oldu, kiçik kübarlar məğlub edildilər, əyalət valiləri tərəfindən onların əraziləri öz torpaqlarına əlavə edildi. Belə ki, 1512-ci ildə beş əyalət Qolkonda tərəfindən birləşdirilirdi və Qolkonda valisi Qütb-ül-Mülk Qütb şah sülaləsini yaratdı. Baxmayaraq ki, ən azı 1545-ci ilə kimi bəhməni sultanı marionet hökmdar kimi qalırdı, Bidar hökumətinin effektiv nəzarəti Qasım Baridin oğlu Əmir Baridin əlinə keçmişdi. 1505-ci ildə atasının ölümü ilə buna nail olmaqla o, Bidarın Barid şahları sülaləsini qurmağa iddia edirdi.

İstehzalı olsa da, dekanlılarla yeni gəlmələr arasındakı münaqişə sultanlığın birliyini dağıtmaq üçün çox şey etmişdisə, 1490-cı illərdə bu az əhəmiyyətə malik oldu. Sultan II Mahmud hind səltənətlərinə qarşı illik cihad və ya müqəddəs müharibə siyasəti təklif etdi, lakin 1509-cu ildə bu dəf edildi. Hind səltənəti Bicapur və Qolkondanın ekspansionist ambitsiyalarının qurbanı oldu. Onlar Şimali Hindistandakı Moğol imperiyasından çox uzaqda olmaq mövqeyindən faydalanırdılar. İmperator Əkbərin hökmranlığının (1556-1605-ci illər) sonuncu hissəsində moğollar cənuba tərəf hərəkət etməyə başladılar və bu Bicapur və Qolkondanın 1686-1687-ci illərdəki anneksiyası ilə başa çatdı. Bu müsəlman hökmranlığı ekspansiyasının ən yüksək nöqtəsi idi, üç əsrdən artıq əvvəl başlamışdı. Bu dövrün çox hissəsində uzaq cənuba axırıncı orta əsr hind dövləti olan Vicayanaqar nəzarət edirdi.

Ən uzun tarixə malik Vicayanaqar səltənəti 1320-ci illərdə Dehli sultanlığının işğalından əvvəl yaranmışdı və onun əsasını qoyan iki qardaş Harihara və Bukka əsir götürülüb Dehliyə aparılmış və orada müsəlmanlığa keçirilmişdi. Onlar sonra Dekana sultanlığın valiləri kimi qayıtdılar. Zonanın torpaq sahiblərinə qarşı barışdırıcı siyasət nəticəsində onların çoxu müsəlman hökmranlığını qəbul etmədilər və konsolidasiya və ekspansiya prosesi başlandı. Onların ilk kampaniyası qonşuluqdakı Hoysala hökmdarına qarşı oldu. Qardaşlar sonra ye-

nidən hinduizm dininə keçdilər və özlərini Dehli sultanlığından müstəqil elan etdilər. I Harihara (1336-1357-ci illər hökmranlıq etmişdi) öz paytaxtı Vicayanaqarı qurdu. Vicayanaqar ilə onun təbii rəqibi olan müsəlman Bəhməni sultanlığı arasındakı mübarizə dini xəttdən daha çox siyasi və hərbi xarakter daşıyırdı. 1336-cı ildə Harihara Dekanın qərb sahilini öz asan olmayan süzerenliyində saxlayırdı. Onun ətrafında olan bütün hindu səltənətləri içərisində Ballala çarlığı və Andhra konfederasiyası mühüm əhəmiyyət kəsb edirdi. Ballala sultan tərəfindən 1343-cü ildə öldürüldükdən sonra dövlət Hariharanın qardaşı Bukka tərəfindən işğal edilib Vicayanaqara anneksiya edildi. Beləliklə yeni dövlət dənizdən dənizə qədər öz suverenliyinə iddia edə bilirdi. Qardaşlar sonrakı onillikdə kiçik hindu çarlıqlarını işğal etdilər, lakin 1347-ci ildə Bəhməni sultanlığının yaranması ilə yeni və böyük təhlükə meydana gəldi və Harihara öz şimal sərhədindəki yeni dövlətin qüdrətindən və təcavüzkarlığından hər cür ziyan vurulmasını gözləməli idi. Hariharanın hökmranlığı dövründə dövlətin inzibatçılıq sistemi qurulmuşdu.

Harihara öldükdən sonra ona varis olan qardaşı Bukka 20 il ərzində hökmranlıq etdi. O, bəhməni sultanlarına qarşı bir neçə uğursuz müharibələr apardı. Onun bir sıra qohumları əyalətlərin valisi kimi öz atalarını əvəz etdikdə dövlət daha az dərəcədə mərkəzləşənə çevrildi. Onun oğlu II Hariharanın dövründə isə Tamil ölkəsində qiyam başlandı. Harihara qiyamı yatırda bildi, vali kimi əyalətlərə əmisi oğlanlarının yerinə öz oğlanlarını qoydu. Bununla hakimiyyət dairəsi bir daha daraldı. Çarla onun törəmələri arasında münaqişə baş verdi, o, özü dövləti mərkəzləşdirməyə can atdığı halda, bütün qohumları çarlığın bir hissəsində hökmranlıq qurmaq hüququ qazanmağa çalışırdı. Bəhməni sultanı Əlauddin Mücahid 1378-ci ildə qətlə yetirildikdən sonra başlayan müvəqqəti qarışıqlıq Hariharaya Qoanı və qərb sahilindəki bir neçə limanları işğal etməyə imkan verdi. Sonrakı onillik ərzində onlar ekspansiya təzyiqini artırdılar. Sonra onlara qarşı ittifaq yarandı və 1398-1399-cu illərdə bəhməni sultanı Vicayanaqarı mühasirəyə aldı, çox sayda adam qırdı və bac vermək vədini aldı. Bac vermə iki il davam etdi, sonra Vicayanaqar Malva və Qucarat sultanları ilə ittifaq bağladı.

II Hariharanın 1404-cü ildə ölümü zorakı varisliyə nail olmağa gətirib çıxardı, baxmayaraq ki, onun taxt-taca iddia edən üç sağ qalan oğlu var idi. Yalnız onlardan ikisi taclandıqda, üçüncüsü isə taxt-tacdan məhrum edildikdə I Devaraya qalib çıxa bildi və 1406-cı ildən başlayaraq 16 il hökmdarlıq etdi. Devarayanın ən böyük nailiyyəti ordunu yenidən təşkil etmək oldu. Persiyadan və Ərəbistandan süvari üçün yaxşı atlar gətirdi, türk oxçularını pulla xidmətə götürdü və açıq düzənlikdə aparılan müharibə üçün yaxşı ordu yaratdı. Onun oğlanlarının hökmranlıq dövrü isə bədbəxtliklərlə müşayiət olundu. Bəhmənilərlə müharibədə çoxlu məbədlər dağıdıldı. Bəhmənilərlə aparılan müharibələr həlledici olmasalar da, hərbi qüvvələri yaxşılaşdırırdı. Hind qoşunlarını məşq

etdirmək üçün müsəlman oxatanları qəbul etdilər. Devaraya həmçinin Seylondan bac alırdı və Kerala ölkəsində uğurlu kampaniya keçirdi. Devarayanın 1446-cı ildə ölümündən sonrakı 40 il ərzində dövlətin mərkəzləşmiş hakimiyyəti tənəzzül etdi, hər iki sahildəki torpaqlar bəhməni sultanlarının və Orissa böyük şahının əlinə keçdi. Qoanın və digər limanların itirilməsi Vicayanaqarı mühüm ticarət mənbələrindən, dövləti isə həm gəlirlərdən, həm də hərbi məqsədlər üçün Orta Şərqdən gətirilən atlardan məhrum etdi.

Krişna Deva Rayanın hökmranlığı dövründə Vicayanaqar səltənəti daha qüdrətli oldu. Bəhməni qüvvələrinin koalisiyasının müdaxiləsini tam məğlub etdikdən sonra o, Bicapurla Bəhməni hökmdarı arasında Qulbarqanı və Bidarı özünə tabe etmək üstündəki mübahisəsindən istifadə edərək dustaq edilmiş bəhməni sultanını 1512-ci ildə öz taxt-tacına bərpa etdi. Orissaya hücum etdikdə isə öz qızını Krişna Devaya verdi. Sonralar o, Bicapura müdaxilə edib bir neçə fortu tutdu. Lakin onun uğurlu hökmranlığı səltənətinə olan təhlükəni artırdı.

Magellanın əmisi oğlu Duart Barboza 16-cı əsrin başlanğıcında 13 ili Vicayanaqarda keçirdi. Barboza bu ölkəni inkişaf edən sıx əhalisi olan ölkə kimi təsvir edir. Paytaxt şəhəri çoxlu saraylara, geniş küçələrə və müxtəlif növlü ticarətə malik idi. Şah 100 min nəfərlik orduya maaş verirdi. Şah öləndə Barbozanın verdiyi məlumata görə 400 ya 500 qadın özlərini matəmə görə dəfn tonqalında yandırmışdılar. Krişna Deva 1529-cu ildə öləndə isə səltənətin ən böyük hərbi və inzibati uğuru dövrü başa çatdı. Onun ölümündən sonra Bicapurun, Qolkonda və Orissanın hücumları təzələndi və şahın naziri tərəfindən qiyam qaldırıldı. Bicapur hökmdarının cəhdi ilə Vicayanaqar bölündü. Sonra Rama Raca şah tituluna yiyələndi, qardaşları ilə səltənəti idarə etdi. O, kübarlara nəzarət etsə də, onları bütünlüklə özünə tabe edə bilmədi. Sonra o, portuqaliyalılarla müqavilə bağladı və onlar məbədlərə vurduqları ziyanı ödəmək üçün bac verdilər. Onun dövründə Vicayanaqar baş müsəlman dövləti ilə rəqabət aparırdı. Qolkonda və Əhmədnaqar sultanlarının ittifaqı Viyacanaqar hakimiyyətini birdəfəlik məhv etdi. Rama Racanın mərkəzləşməyə doğru cəhdləri bütünlüklə uğurlu olmasa da, onun hərbi siyasəti nəticə etibarilə bədbəxtliyə apardı. Onun inzibatçılığında müsəlmanların mühüm mövqe tutmalarına icazə verdiyinə görə hökmdarı tənqid edirdilər. Onun Talikotadakı qəti məğlubiyyəti və nəticədə Vicayanaqar şəhərinin qarət edilməsi və dağıdılması səltənətin məhvinə səbəb oldu. Rama Raca əsir götürüldü və öldürüldü. Yeni hökmdar artıq əyalətlərə nəzarəti davam etdirə bilmədi. Müsəlman sultanlarının müdaxiləsinin azalması parçalanma meyllərini zəiflətdi, mərkəzləşməni artırdı.

# VIII HİSSƏ. ÇİN ORTA ƏSRLƏRDƏ

## FƏSİL 1
## TAN SÜLALƏSİ

619-cu ildə marionet Sui imperatoru devrildi və taxt-taca Tan sülaləsi gəldi. İki ən güclü rəqibi aradan götürməklə sülalə nəzarətində olan əraziləri cənub düzənliyinə qədər genişləndirdi, bura isə Çinin ən sıx əhalisi olan və inkişaf etmiş regionu idi. Lakin bununla Tanın işğalına müqavimət qurtarmırdı və hələ xeyli mübarizə aparmaq lazım gəldi. Tan sülaləsi tərəfindən ölkənin birləşdirilməsi daha uzun çəkdi və daha qanlı oldu. Bu rejim üç əsr ömür sürdü.

Tan sülaləsinin vaxtında yerli idarəetmə müəyyən dərəcədə müstəqil idi, hər bir prefektura mərkəzi hökumətlə birbaşa əlaqədə idi. Prefektura və qraflıq magistratları mərkəzləşmiş qaydada kodifikasiya edilmiş hüquqa və proseduralara riayət edirdilər. Lakin onlara icazə verilirdi ki, qanunları yerli şəraitə uyğun olaraq tətbiq etsinlər. Prefekturalarda və qraflıqlarda yerli təsirlər çox güclü idi, onların qulluqçuları da əsasən yerli adamlar idi.

Sarayda isə demək olar ki, müstəsna olaraq kübar ailələrində doğulmuş şəxslər üstünlük təşkil edirdi. "Yaxşı idarəetmə erası"nda imperator cəhd edirdi ki, kübarlıq arasında regional qrupların elə tarazlığını yaratsın ki, bu yolla bir regionun ağalığının qarşısı alınsın. Digər bir mühüm dəyişiklik isə imtahan sistemindən geniş miqyasda istifadə edilməsi idi. Bundan əvvəlki Sui sülaləsi vaxtı imtahanlar bərpa edilmişdi, paytaxtda yüksək səviyyəli məktəblər yaradılmışdı. Tan sülaləsinin "yaxşı idarəetmə erası"nda (627-649-cu illər ərzində) isə məktəblər daha da genişləndirildi və yeniləri açıldı. Onların standartlaşdırılması üçün tədbirlər görüldü, klassiklərin standart icmaları ilə birlikdə rəsmi sənədlərin ortodoks nəşri başa çatdırıldı. Paytaxtdakı məktəblər böyük ailələrin və yüksək vəzifəlilərin oğlanları üçün məhdudlaşdırıldı. İmtahan verməyə digər namizədlər yalnız yerli məktəblərdən gəlirdi. İmtahanlar prinsip etibarilə hamı üçün açıq idi, lakin bir çox məmurlar bu imtahanlara yuxarı dərəcədən olan vəzifəlilərin oğlanları kimi daxil olduqları vaxtdan, bununla əlaqədar olaraq bürokratiya üçün bir neçə yeni giriş qaydası qoyulmuşdu. İmtahanlar ənənəvi proqramla təhsil alanlar üçün yüksək səviyyə tələb edirdi və elmi-rəsmi mühitə malik olan kübarların gənc oğlanlarının və aşağı ailələrin üzvlərinin daxil olması üçün alternativ metod geniş qaydada istifadə olunurdu. Bununla yanaşı, fərdi zəmanət, imtahan götürənlərin lobbiçiliyi və çox hallarda imperator-

la şəxsi söhbət böyük rol oynayırdı. Tan dövründə imtahan sisteminin başlıca səmərəsi ondan ibarət idi ki, bürokratiyanın yuxarı səviyyələrinə görkəmli yerli klanların üzvlərinin qalxmasına imkan verirdi və uzun müddət ərzində siyasi gücün yuxarı kübarlığın öz inhisarında saxlamasına mane olurdu. Şəxslərin işə götürülməsi imperatorda və sülalədə onun necə təsir bağışlamasından daha çox asılı idi, nəinki onun hansı ailədə doğulmasından və sosial vəziyyətindən. Bu Tan imperatorlarına öz hakimiyyətlərini qurmaq və sərbəstlik imkanı verirdi. Rəsmi vəzifələri tutmaq üçün imtahan sisteminin tətbiqi hətta müəyyən qüsurları ilə yanaşı, cəmiyyətdə biliyə, təhsilə böyük maraq yaradırdı, adamlar vəzifə karyerasını mənşəyində və ya hansısa sinfə məxsus olmasında deyil, öz biliyində, bacarığında axtarmalı idi. Bu həm də sosial ədalət üçün şərait yaradırdı, sosial fərqlərin müəyyən dərəcədə silinməsinə səbəb olurdu və dövlətin idarəçiliyini xırda qrupun inhisarından azad edirdi. İmtahan sistemində hətta qüsurlar olsa belə, bu dəhşətli favoritizmin qarşısını kəsirdi, yeni kastaların meydana gəlməsinə imkan vermirdi. İmtahan verən adam Çində vəzifə tuta bilirdi və dövlət ona bu vəzifəni digər heç nədən asılı olmayaraq verirdi. Bu sistem ideal olmasa da, cəmiyyətin kütləvi qaydada pozulmasının qarşısını alırdı.

Tan sülaləsi, imperator Tay Tsunq əvvəllər mövcud olmuş feodal sistemi yenidən tətbiq etdi. "Yaxşı idarəetmə erası"nda əvvəlki iqtisadi siyasət davam etdirildi. Paytaxtdakı bürokratik quruluşu ixtisar etməyə və yerli idarəetmə bölünmələrinin sayını qətiyyətlə azaltmağa cəhd edildi. Ölkə on əyalətə bölündü, onlarda daimi inzibati birliklər yox idi, ancaq yerli inzibatçıların ayrıca regional təftişi üçün "dövr edənlər" var idi və bu, səfərlə paytaxtdan göndərilən xüsusi səlahiyyətli adamlar, çox vaxt senzorluğun üzvləri tərəfindən icra edilirdi. Bu mərkəzi hökumətə yerli inzibatçılığın standartlaşmasına və səmərəliliyinə əmin olmaq üçün əlavə imkan verirdi. Hökumət müqayisəli qaydada sadə və ucuz olaraq qalırdı. Aclığa qarşı müvafiq ehtiyatlar yaradılırdı. Bu dövrdə qiymətlər çox aşağı idi və ümumən inkişaf gedirdi.

Tay Tsunq həm də uğurlu xarici siyasət aparırdı. 630-cu ildə şərqi türklər öz başçıları arasındakı ixtilafa görə parçalandılar. Həm də onların təbəəsi olan tölölər və uyğurlar qiyam qaldırmışdılar. Çin qüvvələri onların ərazilərinə müdaxilə etdi, bütünlükdə onları məğlub etdi, onların xanını əsir götürdü. Təslim olan türklərdən çoxu Çin sərhədində məskunlaşmışdılar və çoxu Tan ordusunda xidmətə girdi. Belə siyasət daxili ixtilafı gücləndirdi və bundan qərb türklərinə qarşı istifadə olundu, onlar da iki ayrıca xaqanata parçalandılar. Çinin köməyi ilə yeni xan 642-643-cü illərdə birləşmiş nəzarəti bərpa edə bildi. Bu ittifaqı möhürləmək üçün imperator onu çin printsessasına evləndirdi.

Türk hakimiyyətinin tənəzzülü Tay Tsunqa Tarim hövzəsinin müxtəlif xırda

dövlətləri üzərində hakimiyyətini genişləndirməyə imkan verdi. 640-cı illərdə Çin hakimiyyəti və hərbi inzibatçılığı indiki Çin Türküstanı hüdudlarının arxasına qədər genişləndi. Şimalda isə Orxon regionunda Tan orduları şərq türklərinin vassalı olan tölöləri məğlub etdi və onlar imperatorun vassalları oldular. Çin qərb torpaqları Hanın böyük dövrlərində olduğundan xeyli genişlənmişdi. Qərblə, Mərkəzi Asiya ilə və Hindistanla ticarət inkişaf edirdi. Çin sarayı Sasanid Persiyasından və Bizans imperiyasından səfirliklər qəbul edirdi. Paytaxt əcnəbi tacirlərlə və əcnəbi rahiblərlə dolmuşdu, burada çinli olmayanların icmaları yaranırdı. Böyük şəhərlər özlərinin zoroastrizm, məzdək və nestorian dini məbədlərinə malik idi. Buddist monastırları isə bir neçə əsrdə Çin səhnəsinin bir hissəsinə çevrilmişdi. Tay Tsunqun xarici siyasətdəki yeganə uğursuzluğu Koreyada baş verdi. Buradakı şimal dövləti müntəzəm olaraq bac göndərirdi, lakin 642-ci ildə burada daxili dövlət çevrilişi baş verdi. Yeni hökmdar Tanın digər vassalı olan Cənubi Koreya dövlətinə hücum etdi. İmperator şimal dövləti olan Koquryoya müdaxilə etməyi qərara aldı, onun nazirlərinin çoxu isə bunun əksinə çıxmışdı. Tan ordusu Mancuriyadakı kitan qüvvələri ilə və cənubdakı iki Koreya dövləti Pekçe və Silla ilə Koquryoya müdaxilə etdi, lakin ağır itkilərlə geri çəkilməyə məcbur edildi. Digər başa çatmayan kampaniya iki il sonra başladı və imperator öz hökmranlığının sonunu iri donanma düzəltməyə və baha başa gələn hazırlıqlar görməyə sərf etdi ki, axırıncı ekspedisiyasını həyata keçirsin. Lakin son illər imperatorun saraydakı siyasəti də zəifləmişdi və 640-cı illərdə təyin edilən varisin ruhi cəhətdən xəstə olduğu bilindikdə, varislik uğrunda sərt mübarizə xüsusilə qızışdı. Saray müxtəlif namizədləri müdafiə edən fraksiyalara parçalandı. Axırıncı seçim Li Çihin üstündə dayandı və o, 649-cu ildə taxt-taca çıxaraq 34 il ərzində hökmranlıq etdi. Lakin o, zəif xarakterə malik idi, ancaq sarayda daha qüvvətli olan şəxslərin dəstəyinə arxalanırdı.

21 yaşında hökmranlığa başlayan Kao Tsinq ilk illərdə Tay Tsunqun sarayından qalmış güclü dövlət xadimi tərəfindən idarə olunurdu. Lakin çox tezliklə həqiqi hakimiyyət Kao Tsunqdan imperatriça Unun əlinə keçdi, bu qadın Çin tarixinin ən görkəmli qadınlarından biri idi. U mərhum imperatorun aşağı təbəqədən olan kənizi idi, saraya götürüldükdən sonra buradakı çox sayda mürəkkəb intriqalar nəticəsində qanuni imperatriça olmuşdu. Devrilən imperatriça isə kübar ailəsindən idi, saraydakı kübar fraksiyanın və köhnə imperatordan qalmış qüdrətli nazirlərin dəstəyinə malik idi. U isə şərqli olmaqla şərq kübarları tərəfindən, aşağı kəndlilər və bürokratiyanın aşağı dərəcəli adamları tərəfindən dəstəklənirdi. Onun müvəffəqiyyəti böyük mənada özünün intriqa bacarığına, şəxsi üstünlüyünə və qatı rəhmsizliyinə borclu idi. Devrilmiş imperatriça və digər imperial favoritkalar vəhşicəsinə öldürüldü, sonrakı yarım əsr ərzində isə

özünün real və güman edilən düşmənlərini dəstə-dəstə öldürtdürürdü. Əvvəlki imperatorun vaxtında mövcud olmuş imperatorla öz sarayı arasındakı yaxşı əlaqələr sürətlə dağıdıldı. Siyasi həyat təhlükəyə çevrildi, imperatriçanın gözlənilməyən şıltaqlığının mərhəmətindən asılı oldu. İlk qurbanlar mərhum imperatorun hökmranlığı dövründəki köhnə dövlət xadimləri idi, onlar sürgün edilir, öldürülür və ya özünü qətlə yetirməyə məcbur edilirdi. 660-cı ildə Kao Tsunq ürək getmədən əziyyət çəkirdi və öz hökmranlığının sonrakı dövründə daim təhlükəli olan bir səhhətlə yaşadı. Onun xəstəliyi ərzində imperatriça U inzibatçılığı öz üzərinə götürdü.

Baxmayaraq ki, bu qadın siyasətdə çox dəqiq deyildi, o, intriqalara arxalanaraq öz mövqeyini möhkəmləndirirdi. U ailəsinin coğrafi mərkəzi olan Loyanq ikinci paytaxt oldu. Bütün saray dəfələrlə Loyanqa köçürülmüşdü, bununla da şimali-qərb kübarlığı öz doğma regionundakı siyasi hakimiyyət mərkəzindən uzaqlaşdırılırdı. Nazirlər və saray qulluqçuları ikili edildi, ikinci paytaxtda baha qiymətə başa gələn tikililər tikmək lazım gəldi. İmperatriça U burada öz daimi iqamətgahına malik oldu. O, mövhumatçıl, simvolizm pərəstişkarı və dindar adam idi. Sevimli cadugərlər və ya rahiblər bir-birini əvəz edirdi. Simvolik səbəblərdən bütün qulluqçuların adı dəyişdirildi, imperator isə yeni "Səmavi imperator" titulunu aldı. Bürokratiya daha böyük səlahiyyətlər qazandı, yeni vəzifələrin çoxu imtahan sistemi vasitəsilə seçilmiş namizədlər tərəfindən tutuldu, onlar yüksək vəzifələrə çatmaqla kübarlıq üçün olan səviyyəyə soxuldular. Kübarlıq üçün digər zərbə bütün imperiyanın görkəmli klanlarının yeni şəcərəsinin tərtib edilməsi oldu. Bu sənəddə ailələr öz ənənəvi sosial vəziyyətlərindən daha çox, bu ailənin üzvlərinin çatdığı rəsmi vəzifəyə görə dərəcələrə aid edilirdi. Bu tədbir özünü doğrultdu, çünki hamının içərisində birinci ailə Unun ailəsi oldu. Bürokratiyanın imperatriçanın daha çox dəstək aldığı aşağı dərəcələri yeni vəzifələrin yaradılması və onlara təyin edilməklə böyük irəliləmək imkanı və maaşın yüksəlməsi ilə mükafatlandırılırdılar.

Yeni imperator hakimiyyətə başlayandan çinlilər xarici müharibələrə cəlb edilmişdilər. Türklərə qarşı davam edən müharibə nəticədə qələbə ilə başa çatdı və onların Amu-dəryaya qədər olan əraziləri Çinin protektoratına keçdi. Kao Tsunq atası kimi Koquryoya qarşı kampaniyaları təkrar etməyə başladı və Tan qoşunları ölkənin paytaxtı olan Pxenyanı tutdu və Koquryo protektoratlığa götürüldü. Lakin səkkiz il keçdikdən sonra çinlilər öz qoşunlarını Mancuriyanın şimalına geri çəkdi və həmin ərazi Cənubi Koreya dövlətinin hakimiyyəti altına keçdi. Şimal sərhədində məskunlaşan şərq türkləri üsyan qaldırırdılar, yalnız geniş dağıntılardan və çinlilərin böyük itkilər verməsindən sonra üsyanı yatırtmaq mümkün oldu. Ən böyük təhlükə isə qərbdə yeni qüdrətli hakimiyyətin

meydana gəlməsi idi. Tibet xalqı burada daim təzyiq göstərirdi.

683-cü ildə imperator öləndə onu gənc Çunq Tsunq əvəz etdi, lakin imperatriça U imperatriça-regent oldu və ləngimədən mərkəzi inzibatçılığa nəzarəti öz əlinə götürdü. Heç bir il keçməmiş o, gözlənilməyən halda müstəqillik əlamətləri göstərən imperatoru devirdi və onun yerinə digər marionet imperatoru qoydu. İmperatriça U sarayı əlində saxlayanda və hökmdar vəzifəsini icra edəndə o, Daxili sarayda izolə edilmişdi, qalxan üsyanlar da yatızdırılırdı. İmperatriça Tan çar ailəsinin üzvləri və qulluqçular arasında terror hakimiyyəti yaratmışdı. Bu məqsədlə o, agentlər və xəbərçilər ordusundan geniş istifadə edirdi. Saray həyatının sönməsindən qorxan U getdikcə daha çox özünü dini simvolizmə həsr edirdi, bu məqsədlə iri məbədlər tikdirirdi. 690-cı ildə imperatriça bəyan etdi ki, sülalə Tandan Çouya keçəcəkdir. O, yalnız öz hüququ ilə rəsmi imperatriçaya çevrilmişdi, Çin tarixinin yeganə qadın hökmdarı idi. İmperial varis U soyadını götürdü. İmperiyada U soyadını daşıyan hər kəs vergilərdən azad edilirdi. Hər prefekturada məbəd təsis edilmişdi və burada rahiblər adamlara izah etməli idilər ki, imperatriça Buddanın təcəssümüdür. Loyanq "Müqəddəs paytaxta" çevrildi. Tan sülaləsinin öldürülməmiş və ya yoxa çıxmamış qalıqları sarayın dərinliklərində dustaq edilmişdilər. Onun siyasətinin məhvedici və demoralizə edən effekti daha çox paytaxtda və sarayda hiss olunurdu, bu imperiyadakı inzibatçılığın ümumi pisləşməsinin kiçik nişanəsi idi. O, özünü imperatriça elan etdikdən sonrakı illərdə nüfuzlu qulluqçuların bir hissəsinin xidmətini və loyallığını qazandı. Lakin o, şübhələnən olaraq qalırdı və 700-cü ildən sonra tədricən işlərə diqqətli münasibətini itirməyə başladı.

İmperiyanın xariclə əlaqədar olan işləri də pisləşməyə doğru getdi. Tibetlilər sərhəddə müharibəni bərpa etdilər, Mancuriyada qiyam qalxdı. İmperiyanın xərcləri yeni vergilər qoyulmasına səbəb olurdu. İstismardan və ağır vergilərdən cana doyan kəndli ailələri böyük miqyasda miqrasiya edirdilər. 705-ci ildə imperatriçanın 80 yaşı olanda hadisələrə nəzarətin öz əlindən çıxmasına razılıq verdi. Saraydakı bürokratiya fraksiyası onun axırıncı favoritlərinin davranışından cana doymuşdu. Onu Çunq Tsunqun xeyrinə öz səlahiyyətlərindən əl çəkməyə məcbur etdilər və Tan sülaləsi bərpa edildi.

Yeni imperatorun da imperatriça Uey adlı ağalıq edən arvadı var idi. O, ərini zəhərlədi və imperator öldükdən sonra U kimi özünü hökmdar etmək istədi. Lakin Unun heybətli qızı olan printsessanın və saray ordusunun köməyi ilə Çunq Tsunqun qardaşı taxt-taca oturduldu. Printsessa bu vaxt öz qardaşını imperator etmək istədi və bundan sonra hakimiyyət uğrunda onunla varis arasında açıq mübarizə başladı. Mübarizənin ən mühüm nəticəsi printsessanın özünü öldürməsi oldu.

Türklər yenə başlıca təhlükə olaraq qalırdı. 8-ci əsrin başlanğıcında onlar Çin sərhədindən Trans-Amu-dəryaya qədər çöllərə nəzarət edirdi və yeni birləşmiş türk imperiyasının meydana gəlməsinə yaxınlaşırdı. Bilkə xanla sülh münasibətləri yarandı və onun ölümü ilə türk hakimiyyətinin sonu çatdı. Tayfalar arasındakı mübarizədən uyğurlar qalib çıxdı.

8-ci əsrin ortalarında isə əyalət separatizmi Çinin bütün ərazilərdəki probleminə çevrildi. Bütöv imperiya geniş idarəedən hakimiyyətləri olan əyalətlərə bölündü. Onlar iki tipə bölünürdü. Şimali Çində əyalət hökumətlərinin çoxunu hərbçilər idarə edirdi. Mərkəzi və Cənubi Çində isə ərazi hökumətləri nizami vətəndaş bürokratiyasının yeni orqanına çevrilmişdi. Cənub əyalətlərinin hökumətləri bürokratiyadan təyin olunurdu, bu vəzifələri adətən sarayın müvəqqəti olaraq nəzərdən düşmüş yüksək dərəcəli qulluqçuları tuturdular. Bu dövrdə duz üzərində inhisar nəqliyyat sistemini saxlamaqla yanaşı, dövlətin mərkəzi gəlirini təşkil edirdi. Duz və nəqliyyat inzibatçılığına müstəqil komissiya tərəfindən nəzarət edilirdi və bu komissiya tədricən Şimali və Cənubi Çinin bütöv maliyyə inzibatçılığını öz əlinə götürdü.

Bu dövrdə xacələrin-yevnuxların siyasətdə təsiri artırdı. İmperator Hsien Tsunq öz yevnux köməkçilərinin biri tərəfindən öldürüldü və həmin vaxtdan saray şurasının baş yevnuxları və saray orduları demək olar ki, taxt-taca hər bir yüksəlməyə müdaxilə edirdilər. Bəzi hallarda əvvəlki imperatorun vəsiyyətinə əməl etməyən namizədlər taxt-tacdan məhrum edilirdi. Lakin yevnux qüdrətinin apogeyi qısa olmaqla, 840-cı ildə U Tsunqun taxt-taca çıxması ilə sona çatdı. O, və onun varisləri yexnuxlara arxalanmaları davam etdirsələr də, onların təsirinə müqayisəli qaydada az məruz qalırdılar.

9-cu əsrin birinci yarısında fanatik daoist olan imperator U Tsunq Buddizmi əzməyi qərara aldı. Bunun səbəblərindən biri iqtisadi motiv idi. Ölkə ciddi maliyyə böhranında idi, imperator və onun məsləhətçiləri bunu monastır torpaqlarını və sərvətini tutmaqla həll etmək istəyirdilər. Bu vaxt 40 min kilsə və məbəd bağlandı, 260 min rahib və rahibə dünyəvi həyata qayıtmalı oldu. Monastır torpaqlarının geniş ərazisi müsadirə edildi və satıldı. Bu tədbirlər qısa müddətli olsa da buddizm institutlarına sağalmayan yara vuruldu. Bu din artıq zehni ətalətini itirməyə başlamışdı və bu hücum Çində buddizmin tənəzzülünün başlanğıcının nişanəsi oldu.

Tan dövründə ədəbiyyatda ən böyük şöhrəti poeziya qazandı. Bu vaxt Pi Po, Uanq Uey və Tu Fu kimi şəxsiyyətlər yazıb yaratmışdı. "Qəribə əhvalatlar" adlanan nəsr növü yarandı, bu əhvalatlardan çoxu Çin draması üçün mövzu rolunu oynadı. Buddist heykəltəraşlığı əvvəllərdə olduğundan daha çox naturalizmlə seçilirdi, bir qədər öz ruhi xüsusiyyətlərini itirirdi. Bu vaxt mənzərə rəs-

samlığı da inkişaf etmişdi. Kiçik incəsənət növləri olan keramika, metal işləri və toxuculuq malları dövrün həyatının rənglərini və canlılığını ifadə edirdi. Çap etmə ilk dəfə Tan dövründə meydana gəlmişdi. Əgər əvvəlcə çap etmə buddist yazılarını çoxaltmağa xidmət edirdisə, sülalənin sonunda təqvimlər, almanaxlar və lüğətlər buraxılmasında istifadə edilirdi.

Sonrakı Tan dövrü sosial dəyişikliklərin başlanğıcını görsə də, onlar öz kulminasiyasına yalnız 11-ci əsrdə çatdı. Bunlardan ən mühüm əhəmiyyət kəsb edəni idarə edən sinfin təbiətindəki dəyişiklik idi. Baxmayaraq ki, erkən Tan erasında imtahan sistemi geniş tətbiq edilmişdi və onun hesabına aşağı kübar ailələrindən bürokratiyaya adamların daxil olmasına şərait yaratmışdı, yenə də bürokratiyanın böyük əksəriyyəti artıq formalaşmış elitdən gəlməkdə davam edirdi. Əyalət hökumətlərinin meydana gəlməsi ilə onlar öz qərargahına çox vaxt aşağı sosial mənşədən olan əsgərləri götürürdü, sosial mobillik artırdı. İxtisaslaşmış maliyyə komissiyaları da yaradılanda onun işçiləri həmçinin qeyri-müntəzəm təyinatlarla, çox hallarda isə kommersiya icmalarından götürülürdü. Köhnə kübarlıq siyasi hakimiyyəti öz əlində saxlamasına baxmayaraq, sülalənin lap sonunda onun müstəsnalığı və ierarxiya iddiaları çox sürətlə dağıldı. Şimali-şərq və şimali-qərbin köhnə kübarlığı hərbi və siyasi mübarizələrin mərkəzinə çevrildi. Həmin vaxt sosial piramidanın əsasındakı kölə əlaqələrinə qayıdıldı. Kəndlilər və icarəçilər öz qüdrətli ağalarının yarım köləsinə çevrildilər. İcarə əvvəllər müvəqqəti və təmiz iqtisadi razılaşma idisə, bu vaxt artıq yarımdaimi kontrakt əslində müəyyən dərəcədə icarəçidən şəxsi asılılığı tələb edirdi.

Aparılan siyahıyaalmalar əhali dəyişikliyinə şəhadət verirdi. 7-ci əsrin əvvəlindən əsr yarım ərzində iki ən tamamlanmış siyahıyaalma keçirilmişdi və ümumilikdə 9 milyon ev sahibinin və 50 milyondan bir qədər artıq adamın olduğunu müəyyən etmişdi. Əgər əhalinin yalnız 70 faizi həqiqətən siyahıya alınmışdısa, deməli əhalinin ümumi sayı 70 milyon adamdan ibarət idi. Əgər Sui dövründə Böyük Düzənlikdə imperiya əhalisinin yarısından çoxu yaşayırdısa, 742-ci ildə bu 37 faizə düşmüşdü. Cənubda isə artım demək olar ki, bütünlüklə Yantszı vadisində və Deltada cəmlənmişdi, lap cənubda isə əhali seyrək idi.

8-ci və 9-cu əsrlər böyümə və inkişaf dövrü idi. Şimaldan əhalinin tədricən hərəkət etməsi bu ərazinin ağır iqlimi və dəmyə əkinçiliyi ilə əlaqədar idi. Onlar cənuba yollanırdılar, burada isə münbit torpaqlar var idi, məhsuldarlıq və istehsal artırdı. Cənub həm də bu vaxta qədər istifadə edilməmiş torpağı olan geniş ərazilərə malik idi. Erkən Tan dövründə başlıca ipək istehsalı ərazisi şimal idi, sonra isə bu istehsal Yantszı deltasında sürətlə artdı. Bundan sonra tezliklə ticarət ciddi inkişaf etməyə başladı. Tacirlər onları bağlayan ənənəvi buxovlardan azad oldu. Əgər Tan dövrü erkən vaxtlarda iki böyük bazara malik idisə,

sonralar hər bir əyalət paytaxtı qulluqçuların və hərbçilərin, iri istehlak edən əhalisinin mərkəzlərinə çevrildi, əyalət sarayları da həm ərzaq məhsulları, həm də dəbdəbə əşyaları üçün bazara ehtiyac duyurdu. Şəhərlərin kiçik kəndli bazarları şəbəkəsi kənd bazarlarının göstərdiyi təmiz iqtisadi xidmət və onu təchiz etmələri ilə böyüyürdü. Bu dövrdə müntəzəm fasilələrdən sonra bir neçə günlüyə tacirlər və baqqallar buraya gələrək bazarlarda kənd əhalisini gündəlik tələbat malları ilə təchiz edirdi. Tan dövrünün sonundan başlayaraq bu kənd bazar mərkəzləri şəhər mərkəzlərinin yeni növünü formalaşdırmağa başladı, onlar inzibatçılığı təmsil edən kənd şəhəri və onun mərkəzi bazarı ilə kəndlər arasındakı yeri tuturdu.

Bazarın böyüməsi puldan istifadənin də artmasına səbəb oldu. Erkən Tan dövründə ipək parça geniş mübadilə sferasında ümumi qaydada pul rolunu oynayırdı. Mərkəzi hökumət əsas ipək istehsal edən regionlar üzərində nəzarəti itirəndə ipək belə istifadədə gümüşlə əvəz olundu. Hökumət heç vaxt gümüş istehsalına nəzarət etməmişdi və gümüş sikkə buraxmamışdı. Gümüş dövriyyəsi və onun saflıq dərəcəsinin müəyyən edilməsi özəl şəxslərin əlində idi. Müxtəlif kredit və pul ehtiyatı qoymaq institutları meydana çıxmağa başladı. Kredit verilməsinin kompleks sistemi çay tacirlərinin vergi kvotasını ödəməsi, bəzən isə bütün əyalətin ehtiyacları üçün yaranırdı və onların gəlirləri taxıl satınalmasından əmələ gəlirdi. Puldan və gümüşdən istifadənin artması həmçinin rəsmi maliyyəyə və hesablaşmalara öz təsirini göstərdi. Vergilər artıq pulla ödənirdi. Duz inhisarı birləşdi və bütünlüklə hesablaşmanı pulla aparırdı. Hökumət də ticarətə gəlir mənbəyi kimi baxmağa başladı.

Ən varlı tacirlər, duz ticarəti ilə məşğul olanlar, çay tacirləri, böyük şəhərlərdəki bankirlər və tacirlər dənizlə ticarətə xüsusi diqqət verirdilər. Xarici ticarət hələ də çinli olmayan tacirlərin ağalığında idi. Kanton şəhərində iri ərəb ticarət icması mövcud idi, şimalda isə sahil yollarına koreyalılar nəzarət edirdilər. Quru yolla Mərkəzi Asiya ilə ticarət əsasən soqdiyanalıların və uyğur tacirlərinin əlində idi.

# FƏSİL 2
# BEŞ SÜLALƏ VƏ ON ÇARLIQ

220-ci ildən 318-ci ilə qədər davam edən altı sülalə dövründən fərqli olaraq "Beş sülalə" dövrü kimi tanınan 10-cu əsrdəki qısa parçalanma dövrü Çin mədəniyyətinin təkamülünü kəskin surətdə dayandıra bilmədi. Sosial, siyasi, iqtisadi və mədəni sahələrdəki uzun müddət davam edən meyllər Çin cəmiyyətini əvvəlki dövrdə olduğundan fərqləndirirdi. Tan imperiyası hissələrə parçalansa da, ənənədəki dərin kök salmış imperiya birliyi idealı yenidən canlandı. Lakin uğurlu uzurpatorlar arxaya, birliyə qayıtmaq üçün tısbağa addımları ilə irəliləyirdilər. Qulluqçular regional vəzifələrdən saray vəzifələrinə irəli çəkilirdilər, onlar tədricən birbaşa nəzarət altına alınırdılar. Başlıca prioritetlər maliyyə mənbələrinin, duz inhisarının, bac nəql edilməsinin qorunub saxlanmasına yönəlmişdi. Vergi gəlirlərinə xüsusi diqqət verilirdi, bunsuz hərbi ağalığı saxlamaq və siyasi ekspansiya qeyri-mümkün idi. Nəticədə mərkəzləşmiş hakimiyyət nümunəsi meydana gəldi. İstismarçı rejimlərin maliyyə və təchizat qulluqçuları əyalətləri maliyyə işlərinə və yerli inzibatçılığa nəzarət etməyə yollanırdılar. Kiçik militaristlər öz ərazilərinə nəzarətdə yerli idarəetməni davam etdirsələr də, ikiqat təzyiq altında belə birliyi bərpa etmək tədbirlərinə tabe olmalı idilər. Təsadüfi dolayı yolların və müvəqqəti maneələrin əksinə bu, nəticə etibarilə birləşməyə yol açırdı.

Tan mədəniyyətinin sərhədlərdən uzağa gedən təsiri köçəri, yarımköçəri və çobanlıq edən xalqlarının qalxmasına şərait yaradırdı. Çin uzun müddət iki hissədən ibarət idi - hərbi cəhətdən möhkəm Şimaldan və iqtisadi və mədəni cəhətdən zəngin Cənubdan. Bu vaxt Çində on müstəqil çarlıq - Tanqut və Kitan Şimalda, səkkiz kiçik çarlıq isə Cənubda yarandı. Tibetli xalq olan tanqutlar ölkənin şimali-şərq küncündə, Böyük Səddin qurtaracağı ilə Xuanxe (Huanho) çayının daxili Monqolustandakı əyildiyi yer arasında yaşayırdı. Onların yarım vadi iqtisadiyyatı suvarılan əkinçiliklə çobanlığın birləşməsindən ibarət idi. Onlar məşhur İpək Yolunun qurtaracağına nəzarət etməklə özlərini Mərkəzi Asiya ilə Çin arasındakı ticarətin vasitəçisinə, aralıq adamına çevirmişdilər. Dövlət dini kimi buddizmi qəbul etmişdilər, idarəçilikdə və təhsildə isə onlar Tan modelinə əsaslanırdılar və öz dilləri üçün yazı icad etmişdilər. Bu çox qarışıq mədəniyyət çiçəklənirdi, oradakı mağaralarda 10 minə yaxın dini rəsmlər, yazı və çin, Tibet, uyğur və digər dillərdə olan kitablar tapılmışdır. Bu çarlıq iki əsrə qədər ömür sürdü. Monqolların gəlməsi ilə çarlığa son qoyuldu. Monqollar bununla Çinin bütün hissələrini əhatə edən ilk köçəri işğalına başladı.

Çoban kitanlar şərqi monqollarla qohum idilər. Buradan rusların Çin ölkəsini adlandırdıqları "Kitay" sözü yaranmışdı. Onlar 10-12-ci əsrdə mövcud olan

Liao imperiyasını yaratmışdılar, bu Monqolustanın sərhədindən Cənubi Mancuriyaya qədər uzanırdı və Böyük Səddən aşağıda 16 prefekti əhatə edirdi. Liao imperiyası müasir Pekini özünün cənub paytaxtı etmişdi. O vaxtdan da onun paytaxt şəhəri olması tarixi başlayır. İmperiya həm də özünü Tan imperiyasının qanuni varisi adlandırırdı. Onlar bütün tayfaları birləşdirib konfederasiya yaratmışdılar ki, bu da irsi monarxiyaya çevrilmişdi. Liderlik daimi idarə edən tayfa kimi Yeh-lunun əlində qalırdı və tayfa stabilliyi qoruyub saxlamaq üçün qaydalı vərəsəliyə əsaslanan Çin klan sisteminə meyl etmişdi. Liao iqtisadiyyatı at və qoyun saxlamağa, həm də əkinçiliyə əsaslanırdı. Başlıca taxıl bitkisi darı idi, dövlət inhisarı tərəfindən nəzarət edilən duz da mühüm əhəmiyyət daşıyırdı. Burada həmçinin filizi əritməklə dəmir istehsal edilirdi. İmperiyada inzibatçılığın səmərəli ikili sistemi işlənirdi. Onlar öz xalqları üçün tayfa qanunlarına əsaslanan inzibatçılığa malik olmaqla, ənənəvi mərasimləri saxlayırdılar və çöllülərə məxsus olan qidalanma və geyim üslubuna əməl edirdilər. Çinlilərin qaydalarının istifadəsindən qorunmaq üçün özlərinin monqol dilinin xüsusi qoluna iki növ yazı əlavə etmişdilər, onlardan kiçiyi əlifba qaydasında idi, digər böyüyü isə çin yazı qaydasına yaxın idi. İkinci inzibatçılığın qanunları isə təşəkkül tapmış həyat tərzinə köməklik göstərirdi, buna Çin təbəələri arasında əcdadlara sitayiş praktikası da daxil idi. Çinli təbəənin statusu fərqli idi. Azad təbəələr mülki qulluğa girmək imkanına malik idi, bu vaxt digərləri məhdud azadlıqda olanlardan kölə asılılığa və quldarlığa qədər olan dərəcələrə bölünürdü. Onlar digər yarımköçəri və yarımçoban xalq olan və öz mənşəyini Mancuriyadan götürən xalq tərəfindən devrildi və 1112-ci ildə Çin sülaləsini qurdular və onun ömrü də yüz ildən bir qədər artıq davam etdi. Onlar da monqolların gəlməsi ilə sıradan çıxdılar.

Çin mədəniyyətinin gələcəyi üçün cənub qurtaracağının uğradığı dəyişikliklər daha həlledici əhəmiyyət kəsb etdi. Yantszı çayı vadisində və daha cənub ərazilərdə on çarlıqdan səkkizi mövcud idi. Onların hər biri ayrıca rejimlərdə oxşar stabilliyə gəlib çatanda, onların heç biri birləşmək uğrunda mübarizə üçün kifayət qədər güclü deyildi. Sahil boyu dəniz ticarəti genişlənirdi, şəhərlərin rifahı yaxşılaşırdı, mədəniyyət daha rəngarəng olurdu, bir-birinin ardınca qaçqınlar dalğası cənuba hərəkət edirdi, çay boyunca, düzənliklərdə və dağ ətəklərində məskunlaşırdılar, yüksək dərəcədə inkişaf etmiş irriqasiyalı ərazilərdə qonşuluqdakı və həmçinin yeni istifadəyə verilmiş torpaqlarda əkinçiliklə məşğul olurdular. Bu proses Cənubi Çini böyük mürəkkəbliyə malik olan mədəniyyətin şahmat taxtasına tərəf döndərdi. Tan mədəniyyətinin irsi nəinki bərpa edildi, həm də texnologiyanı irəlilətməyə kömək etməklə yeni üfüqlərə çatdı. Gözəl mənzərə ardıcıl olaraq ən yaxşı istedadları, köhnə üslubdakı poeziyaya və esseyə yeni təmiz həyat nəfəsi verməyə ilhamlandırırdı. Bu region möhkəm daoist regionu idi. İntellektual meyllər konfutsiçiliyin, daosizmin və buddizmin eklektik sintezini kölgədə qoyurdu. Buddist monastırlar öz iri mali-

kanələri ilə yenilikləri və daha yaxşı texnologiyaları birinci olaraq tətbiq edirdi. Misin olmaması ucbatından iqtisadi sahədə dəmir istehsalının daha səmərəli metodlarla artması ilə əvəz olundu. Dəmir valyuta qısa müddətə dövriyyəyə daxil oldu. Hesablaşmanın aparılması daha çox pul və kredit tələb edirdi və bunun həll yolu "uçan pul" adlanan sadə icad oldu. Bu əvvəlcə tacirlər arasında istifadə edildi, sonra isə hökumətin duz inhisarı agentlikləri tərəfindən buraxılan rəsmi əskinaslar kimi qəbul olundu. Bu sonralar Sunq dövründə qanuni istifadə olunan kağız valyutanın başlanğıcı idi. Bu çap etmə işində hərəkət edən növün istifadəsi ilə sıx əlaqədar idi.

İqtisadçılarla estetikləri birləşdirən biliklərə öyrənmənin "dörd xəzinəsi" daxil idi, bunlar fırça-qələm, kağız, mürəkkəb qamışı və mürəkkəb plitkası idi. Qulluqçuların bir çoxu rəssamlıq, ədəbiyyat və biblioqrafiya qabiliyyətinə malik idi. Cənubi-Şərqi Çin mədəni yüksəkliyə yiyələnmişdi.

Bu dövr özünün qaranlıq tərəflərinə də malik idi, bunlar militarizm, müharibələr, köhnə qaydanın pozulması və ən başlıcası mənəvi standartların aşağı düşməsi idi. Aparıcı ideologiya olan konfutsianizm kədərli şəkildə zəifləmişdi. Ancaq paradoksal qaydada bir çox dəyişikliklər sürünərək cəhalətdən çıxırdı və tezliklə yeni eranın dan şəfəqləri göründü.

# FƏSİL 3
# SUNQ SÜLALƏSİ

Siamlı Sunq şərəfli başlanğıca malik deyildi, onun əsasını qoyan Çao Kuanq-yin (Tay Tsu) paytaxt ərazisinin komandanı və imperial qoşunlarının general-inspektoru olmaqla, beş sülalənin axırıncısı olan Çou sülaləsini sadəcə uzurpasiya etmişdi. Onun dövlət çevrilişi bacarıqla ört-basdır edilsə də, bu xalqa açıldıqda onun başqa çıxış yolu yox idi. Çao imperator kimi digər qüdrətli generalları məhv etmədi, bunun əvəzində onlara şərəfli titullar verdi, sinekura vəzifələri bəxş etdi və əliaçıqlıqla pensiyalar təyin etdi. Çin tarixində belə hərəkət eşidilməmişdi. O, humanist inzibatçılığın konfutsiçi ruhunu vurğuladı və bütöv ölkənin yenidən birləşdirilməsinə başladı. Bu siyasəti aparmaq üçün o, hərbi valilərin qüdrətini onların əlindən alıb sarayda cəmləşdirirdi, bu səlahiyyətlərin bəzən hətta hərbi işlərə nəzarəti bacarıqlı mülki qulluqçulara ötürürdü və heç bir qulluqçuya şübhə ilə yanaşılmırdı. Praqmatik mülki xidmət sistemi inkişaf edirdi, hakimiyyətin bölgüsü məhdudiyyət və tarazlaşdırma yolu ilə qaydaya salınırdı. Hər bir qulluqçu titul vəzifəyə sahib olurdu, lakin bu onun rütbəsini ifadə edirdi, onun həqiqi funksiyası ilə əlaqədar deyildi, onun normal vəzifə borcu üçün səlahiyyət ona əlavə üstünlüklər və ya şərəf gətirirdi. Belə qayda hökmdara imkan verirdi ki, qulluqçunun rütbəsinə toxunmadan onu aşağı vəzifəyə keçirə bilsin, yaxud qulluqçunun rütbəsini böyütdükdə onun səlahiyyətini artırmasın və ya aşağı rütbəli istedadlı adamı yuxarı qaldırsın və ona həlledici səlahiyyət versin. Müşavirlər yalnız mülki inzibatçılığa nəzarət edirdilər, çünki hakimiyyətin bölgüsü hərbi və maliyyə səlahiyyətini daşıyanları ayrıca mövcudluğa salmışdı və onlar birbaşa hökmdara məruzə edirdilər. Bütün mühüm qərarları hökmdar özü koordinasiya edirdi. İmperator əlavə məsləhətləri akademiklərdən və digər məsləhətçilərdən alırdı, bunlar kollektiv şəkildə rəy qulluqçuları adlanırdı və onların vəzifəsi informasiyanı ayrı-ayrı kanallarla almaq və inzibatçılıq qollarını məhdudlaşdırmaq idi.

İmperatorun ölümü onun qətlə yetirilməsi barədə saxta əfsanələrin yaranmasına səbəb oldu, baxmayaraq ki, onun ölümünə səbəb sərxoşluqla məşğul olması idi. Bu əfsanə onun gənc oğlunun taxt-taca çıxmasına imkan verməmək üçün etiraz əlaməti kimi yaranmışdı. Mərhumun yanında yaxşı təcrübə qazanmış imperatorun kiçik qardaşı taxt-tacı tutdu. O, Kitan imperiyası ilə vuruşmaq üçün üzünü şərqə tərəf çevirdi. Güclü kitan süvari qüvvəsinin əksinə atların və onların yetişdirilməsi üçün otarma otlaqlarının azlığı bu məğlubiyyətin yeganə səbəbi deyildi. Bu həm də onun siyasətinin nəticəsi idi ki, generallar öz ordularından uzaqlaşdırılmışdı, zabitlər mülki adamlara tabe edilmişdi, qüvvə imperial birliklərdə cəmlənmişdi və salamat qalan əyalət orduları çox zəif idi, bütün-

lüklə hərbi ruh süquta uğramışdı. Ona görə də Sunq heç vaxt Han və ya Tan dövründəki ilə müqayisə edilə bilən hərbi qüdrətə nail ola bilmədi. Sunq imperiyası Hind-Çinə daxil olanda da uğur qazana bilmədi. Şərqi Asiyadakı öz nüfuzu ilə razılaşan Çin o vaxtdan etibarən coğrafi izolyasiyadan, xüsusilə Mərkəzi Asiyadan ayrı düşməyindən əziyyət çəkdi. Bu vaxt bir çox mədəni həvəsləndirmələr meydana gəldi. İki mədəni etnosentrizm daxili irəliləmələrindən yaranan təbii iftixar hissi ilə birləşərək dərinləşdi.

Üçüncü imperatorun hökmranlığı dövründə Sunq konsolidasiyaya nail oldu. Qorxu yaradan kitan hücumunu imperatorun özü qarşıladı. Bir neçə döyüş tərəflərin heç birinə qələbə bəxş etmədi. İki imperiya 11-ci əsrin əvvəlində dinc yanaşı yaşamaq barədə and içmə sənədlərini mübadilə etdilər, bu beynəlxalq müqavilə xarakteri daşıyırdı. Kitan vaxtilə Böyük Səddən aşağıda zəbt etdiyi mübahisəli əraziyə öz iddiasından əl çəkdi, Sunq isə ildə 100 min unsiya gümüş və 200 min ipək topu şəklində bac verməyə razılaşdı. Sunq bu yolla öz sərhədini qoruyub saxlayırdı.

Cadugərlər və ona xoş gəlmək istəyən yüksək qulluqçular tərəfindən qızışdırılan imperator elan etdi ki, birbaşa Göydən müqəddəs sənəd almışdır və bu hadisənin mərasimlərlə bayram edilməsi barədə göstəriş verdi. Lakin onun ümidləri boşa çıxdı, onun ölümündən sonra imperatriça-regent olan arvadı ilə yeniyetmə yaşlı imperator oğlu arasında, tabe dərəcəsində olan saray xanımının köməyi ilə münaqişə baş verdi. Anası öldükdən sonra imperator öz arvadını köhnə xanım tərəfindən seçildiyinə görə boşadı. Boşanma Konfutsi əxlaqına görə ədalətli deyildi və imperial imicə xətər yetirdi. Böhran yüngülləşəndə imperator daha çox islahatçı olmaları ilə fərqlənənləri bir-birinin ardınca saraydan uzaqlaşdırdı və daha artıq razılaşma şüurunda olanları isə hakimiyyətə qaytardı. Lakin üzdə stabillik görünüşü yaranmasına baxmayaraq, inzibatçılıq maşını bir daha sürünən pozğunluğun qurbanına çevrildi. Bir çox təməl problemlər həll edilməmiş qalırdı. Başlanan hərbi ekspedisiyalar elə bir böyük səmərə vermirdi.

1068-ci ildə taxt-taca islahatçı imperator Şen Tsunq gəldi. Əvvəldən hökmdar saraydan kənardakı qüvvələrə arxalanırdı. Onlar sosial şəraitə bələd idilər və ciddi təhsil görmüşdülər. Onun özünün imperial sülaləsinə daxil olması üçün qısa müddətdə onun atası taxt-taca oturduldu, sonra isə onun özü imperator oldu. Tərəfdarları olan siyasətçilər üzərində öz monarx rolunu diqqətli qaydada icra etməklə o, alim-şair Uanq An-şihi özünə baş məsləhətçi götürdü və ona islahatlar həyata keçirməkdə hər cür köməklik etdi. Yeni qanunlar və ya yeni siyasət kimi tanınan bu islahat tədbirləri nizamlayıcı sistemlər təsis etdi və onlar təsirli institusional dəyişikliklərə bərabər idi. Bütövlükdə bu tədbirlər inzibati səmərəliliyə, maliyyə izafiliyinə və hərbi cəhətdən qüvvətlənməyə səbəb oldu. Uanqın məşhur "On min söz yadigarı" bu islahatların fəlsəfəsinin konturlarını ifadə edirdi. Şərti Konfutsi nöqteyi-nəzərinə əks olaraq onlar təsdiq edici hökumətin rolunu müdafiə edirdi, lakin onların idealının bünövrəsini

Konfutsi inamı təşkil edirdi.

Heç vaxt hökumət belə iqtisadi aktivlik göstərməmişdi. İmperator maliyyə planlaşdırması üçün yüksək institut təsis etdi ki, maliyyə komissiyasının işinə nəzarət etsin, bu institut baş şura üzvünə də tabe deyildi. Valyuta ehtiyatı böyüdülməklə pul iqtisadiyyatı sürətlə inkişaf etdi, hökumət ticarət aparmağa cəlb edildi, bir ərazidə xüsusi əmtəəni alıb digərində başqa əmtəə ilə mübadiləyə yarayanları yenidən satırdı, özünə lazım olan yerdə və vaxtda qiyməti sabitləşdirib bundan fayda götürürdü. Lakin bu özəl ticarət fəaliyyətinin yerini tuta bilmədi. Əksinə dövlət kiçik şəhərlərə və regional tacirlərə pul köməyini, borc ayrılmasını genişləndirirdi, bununla da özəl ticarətin inkişafına maliyyə yardımı göstərmiş olurdu.

Uanqın islahatları hərbi gücün də böyüməsinə yol açdı. Sunqun hərbi zəifliyini aradan qaldırmaq üçün kəndlərə öz militsiyasını təşkil etmək vəzifəsi həvalə edildi, onlar sülh dövründə yerli qaydanı müdafiə etməli, müharibə dövründə isə ordunun ehtiyat qüvvəsi rolunu oynamalı idi. Süvari qoşununa dəstək üçün hökumət at yetişdirib onu kəndli təsərrüfatlarına verirdi ki, ailənin üzvlərindən biri imtiyazlı orduda öz atı ilə qulluq etsin. Müxtəlif silahlar inkişaf etdirildi. Bu səylərin nəticəsi kimi imperiya şimali-qərb sərhədi boyu bir neçə kiçik hərbi qələbə qazandı.

Nəhəng islahat proqramı qüvvətli bürokratiyanın mövcudluğunu tələb edirdi. Dövlətdə məktəb sistemi xeyli irəliyə getdi, şagirdlər faydalı olan hərbi, hüquq, təbabət kimi fənnləri öyrənirdilər. Bu fənnlərə Konfutsi təhsili əhəmiyyət vermirdi. Mülki xidmət üçün imtahanlardan yenə istifadə olunurdu. İslahat proqramına həm də ciddi müqavimət göstərilirdi, xüsusən islahatlar tədbirlərinin xətər yetirdiyi qruplardan daha qətiyyətli tənqidlər gəlirdi, onlar torpaq sahibləri, böyük tacirlər və pul sələmçiləri olmaqla, yaxşı iqtisadi imkanlara malik idilər. Coğrafi cəhətdən isə daha güclü müxalifət, ənənəvi olaraq daha konservativ olan şimal ərazilərindən gəlirdi. Birbaşa imperatoru olmasa da, tənqidçilər ortodoks konfutsianizmdən uzaqlaşdığına görə islahatçılara hücumlar edirdilər.

Parçalanma bədbəxtlik gətirdi. İmperial sistem təkcə çoxlu hissələrə parçalanmadı, həm də birliyin məhvinə apardı. Han və Tan dövrlərindən Çinin yaxşı hökumətləri sınaq və səhvlər yolu ilə ibrət dərsi almışdılar və bürokratiya da hakimiyyəti tarazlaşdırmaq yolunu tuturdu. Mütləq hökmdar məhz bürokratlardan müxtəlif məsləhət və informasiya almaqla hərəkət edirdi. Bu prinsipin uğuru isə idarəetmə elmi kimi təsvir edilirdi. Lakin islahatlar bunu kənara atmışdı.

1086-cı ildə taxt-taca gələn Çi Tsunq digər imperatriça-regentin nəzarəti altında hökmranlığa başladı. Bu qadın isə konservativ qüvvələrə rəğbət bəsləyirdi və onları hakimiyyətə qaytardı. Yeddi il müddətində davam edən əks islahat dövründə bu islahatların çoxu ya ləğv edildi ya da ciddi dəyişikliklərə məruz

qaldı. Gənc imperator nəzarəti öz əlinə aldıqdan sonra adəti qaydada öz ölən imperatriça-regentinin etdikləri kimi hərəkət etmədi, yenə də islahatların bərpa edilməsinə qayıdıldı. Bu konvulsiyaların təkrarlanmasından hökumət pozuntulardan yayına bilmədi, cəmiyyət isə demoralizasiyaya məruz qaldı. Bərpa olunan islahat hərəkatı ancaq onun ilkin idealizmindən məhrum olmaqla sadəcə kabusa bənzəyirdi.

1100-cü ildən başlayaraq 25 il ərzində imperatorluq etmiş Hui Tsunq incəsənətin böyük himayəçisi olmaqla yanaşı, özü də əla rəssam idi. Lakin bu keyfiyyətləri onu heç də yaxşı hökmdar edə bilmədi. Əyləncələrə çox meyl etdiyindən o, dövlət işlərinə diqqət vermirdi və idarəetməni öz favoritlərinə etibar edirdi. İmperator o vaxt çox baha başa gələn cənnətə bənzər mənzərəsi olan yeni imperial bağı saldırdı. Onun əndazədən çıxan tədbirləri xəzinəni boşaldırdı və o, hökumət məktəblərində oxumağı ləğv etdi. Bunun nəticəsi olaraq alimlərin ona dəstək verməsi də bir anın içərisində yoxa çıxdı. Müharibəyə və diplomatiyaya qayğı göstərilməsi daha ciddi xarakter daşıyırdı. Sunq Liao (Lyao) imperiyası ilə müqaviləyə və dinc yanaşı yaşamağa əhəmiyyət vermədiyindən Mancuriya ilə ittifaqı genişləndirərək, onu dağıtmaq məqsədilə hücum etməyi qərara aldı. Sunq komandanı uzun müddət bunun qadağan olunmasına baxmayaraq, hüsn-rəğbət bəslənilən xədim-yevnux idi. Onun və digər bacarıqsız generalların komandanlığı altında hərbi xərclər çox yüksəldi, lakin ordunun mənəvi vəziyyəti aşağı idi. Liaonun süqutu sarayın bayram etməsinə səbəb oldu, lakin Mancuriyalı cuçenlər sunqlarla ittifaqda olduqları halda, tezliklə onların üstünə getdilər, vuruş üçün çox şey etmələrinə baxmayaraq, onları şərik etməməkdə Sunqu ittiham etməklə öz hərəkətlərinə haqq qazandırırdılar. Belə vəziyyətdə imperator taxt-tacdan istefa verməli oldu və dövləti belə bir böhran vəziyyətində bu işə hazır olmayan oğluna təhvil verdi. O, özünü qorumaq və əylənmək üçün Yantszı regionuna səyahət etdi.

Saraydan aşağı olan təbəqələrdə bürokratiyanın keyfiyyəti tənəzzülə uğradı, baxmayaraq ki, onun saxlanması xərcləri də artırdı. Nepotizm, pozğunluğu və korrupsiyanı irəli aparırdı. Təyinatlara və irəli çəkilmələrə himayəçilik sisteminin sui-istifadələri adəti qaydada vəzifələrin yüksək səviyyəsinə də gəlib çatmışdı. Yeni vəzifələr almaq üçün bəzi qulluqçular tacirlərdən pul borc götürürdülər. Əvvəlcədən nizamlanmış dövlət imtahan sistemi də, həmçinin bədnam aldatmalarla korlanmışdı.

Cuçenlər Xuanxe (Huan ho) düzənliyinin ətrafına yayıldılar və daxildən çürümüş Sunqun bir qurban olduğunu hiss etdilər. Onlar 1126-cı ildə paytaxt Kayfın şəhərinin uzun mühasirəsi vaxtı qızıl və digər qiymətli mallardan bac tələb etdilər. Süqut edən saray müdaxiləçilərin tələbinə boyun əyməli oldu və paytaxt sakinlərinə göstəriş verdi ki, buna əməl etsinlər. Nəticədə dilənçi vəziyyətinə düşmüş kütlə biabırçı şöhrətə malik olan imperial bağı odun kimi işlətmək üçün qırdı. Cuçenlər mühasirəni tezliklə götürdülər və agah oldular ki, yerli eh-

tiyatlar tükənmişdir və hətta imperator öz hakimiyyətinə qayıtsa belə ölkənin digər hissələrindən sərvət toplamağa qadir olmayacaqdır. Ona görə də müdaxiləçilər öz taktikalarını dəyişdilər. Qəflətən onlar iki imperatoru və onların ailələrini əsir kimi götürüb Mancuriyaya sürgün etdilər ki, orada şimali sunqlara faciəli son qoyulsun.

Lakin cuçenlər öz işğallarını Yantszı çayının arxasına keçirə bilmədilər və oradakı ərazilər birləşmiş şəkildə qalırdı. Huay Ho düzənliyindəki iti axan çaylar və bir-birini əvəz edən bataqlıqlar süvari əməliyyatlarını çətinləşdirirdi. Müdaxiləçilər bura soxulsalar da, bunu işğal adlandırmaq olmazdı. Yantszının aşağı hissələrindəki iqlim onlar üçün olduqca isti və rütubətli idi. Onlar uzağa getdikcə həm də daha güclü müqavimətlə üzləşirdilər. Bu ərazilər, ölkədə məhsuldarlığına və əhali sıxlığına görə aparıcı olduğundan onlar müdafiə olunmağı da bacarırdılar. Həm də cuçenlər bununla razılaşmalı olurdular ki, onların arxasındakı işğal olunmuş ərazilərdə marionet hökmdarlar əhalinin dəstəyini qoruyub saxlamaq üçün bir-birinin ardınca devrilirdilər və cuçenlər məcbur olurdular ki, öz inzibatçılıqlarını təsis etməklə nəzarəti möhkəmləndirsinlər. Bu məsələdə onlar Liao ikili hökumət modelinə əsaslanırdılar.

Şimali Sunqun süqutunun əksinə olaraq konfutsiçi sədaqət canlandı və alim-qulluqçuların çoxu hətta mədəni cəhətdən də özlərinin yad işğalçılarla birgə tanınmasını qəbul edilməz saydılar. Bu əsasən aşağı səviyyələrdə mövcud idi. Ərazidə saysız-hesabsız dəstələr dolaşırdı, bunlar keçmiş militsiya könüllüləri, parçalanmış ordu birlikləri və qayda-qanunsuzluq dövründə baş qaldırmış banditlər idi. Müəyyən vaxt keçdikdən sonra həm mülki, həm də hərbçi adamlar üzlərini taxt-taca iddiaçı olana tərəf çevirdilər. O, keçmiş imperatorun yeganə oğlu Kao Tsunq idi, vaxtilə Kayfında olmamışdı və beləliklə də əsirlikdən xilas olmuşdu.

Cənubi Sunq sülaləsinin banisi olan Kao Tsunq özünün 35 il davam edən hökmranlığını bu parçalanmış hissələri bir yerə toplamaq kimi ağır işə həsr etdi. O, öz əcdadlarının itirilmiş idarəetmə sənətini bərpa etdi, yeni bürokratlar topladı, maliyyə mənbələrini qoruyub saxladı və mərkəzi nəzarəti genişləndirdi. Bir neçə minlik qoşunla başlasa da, o, daha müdrik siyasətçilərə bel bağlamağa məcbur idi, bununla da o, çox vaxt ustalıqla maskalanırdı. Öz əcdadlarının yolunu tərifləyərək o, islahat sisteminə müxalif olanları öz tərəfinə çəkə bilirdi. Marionet hökmdarlara xidmətdən imtina edən alim-qulluqçuları şərəfləndirməklə yanaşı, o, kompromissə gedənləri də öz xidmətinə cəlb etdi. O, atasını səhv yola salan bədnam favoritlərini məhkum etməsinə baxmayaraq, onun keçmiş qulluqçularından güclü ağıla malik olanları ən mühüm vəzifələrə təyin etdi. Onlar xüsusən vergi gəlirlərini artırmaqda təcrübəsi olan adamlar idi. Şəhər vergiləri artırıldı, kənddəkinə nisbətən burada vergi yığmaq asan idi, lakin onlar bu vergi mükəlləfiyyətindən çox əziyyət çəkmirdilər.

Qulluqçuların bir çoxu mərkəzi düzənliklərin daha da canlanmasına qayğı

göstərərək paytaxtın Yantszı çayının üstündə Nankin şəhərində yerləşməsini arzu edirdi. Lakin imperator Hanqı (indiki Hanqçounu) seçdi və onu yeni adla, "müvəqqəti təhlükəsiz" mənasını verən Lin-an adlandırdı. Arxasındakı sahil xətti və dağ silsiləsi ilə himayə edilən bu şəhər daha təhlükəsiz sığınacaq idi. Marko Polonun sonralar Kvinsay adlandırdığı imperial qərargahı (Hsinq-tsay) da burada yerləşmişdi. Aşağı Yantszı deltasının küncündə yerləşməsinə görə iqtisadi cəhətdən üstünlüyə malik idi. Bu delta isə yeni imperiyanın varlı özəyi idi. Cənubi Sunq öz inkişafını davam etdirməklə qəti olaraq Şimali Sunqa nisbətən xeyli varlı oldu. Çin imperiyası tarixində ilk hadisə idi ki, paytaxt dəniz yaxınlığında idi və beynəlxalq ticarət inkişaf edirdi, lakin ölkə heç də dənizə istiqamətlənməmişdi. İmperator cuçenlərin şimaldan vaxtaşırı hücumlarına baxmayaraq, müdafiə olunan otlaqları qoruyub saxlayırdı, hətta qərbdəki və bilavasitə şimaldakı içəri ərazilərdə imperial hakimiyyətini bərpa etmişdi. Adekvat hərbi qüvvələrə ehtiyac heç də az əhəmiyyət kəsb etmirdi. Lakin hərbi xidmətə çağırış və ya cəlb edilmə qənaətləndirici deyildi.

Öz vəziyyətinin hərbi cəhətdən zəif, lakin maliyyə cəhətincə güclü olduğunu anlayan imperator Kao Tsunq *chao-an* siyasətini qəbul etdi, bu ərazidə dolaşan müxtəlif dəstələrə sülh təklif etmək idi. Hökumət onlara nizami qoşun kimi qanuni status verdi və onları bol ehtiyatlarla təchiz etdi. Bu həm də onların yerli işlərdə kiçik sui-istifadələrinə barmaq arasından baxmağa imkan verirdi. Beləliklə imperial qüvvələrin ölçüsü şişirdi və daxili təhlükəsizlik problemi daha ciddi şəkildə meydana çıxırdı. Saray bu orduları nəzarətdə saxlamağa diqqət yetirməli oldu, bu vəzifə əslində cuçenlərlə olan münasibətin müharibə və sülh nəticəsindən ayrılmaz qaydada bağlı idi. Lakin imperator müharibəni uzatmaq istəmirdi, o, öz səltənətinin təhlükəsizliyini daha yüksək qiymətləndirirdi. Bir neçə kiçik qələbə onu Şimali Çinin bərpasına ümid etməyə inandıra bilmədi. Əksinə o, müharibədəki qəti məğlubiyyət risqində yararlı ehtiyatların güclü itkisini və məhv olmasını görürdü. Həm də o, müharibə aparılacağı təqdirdə arxalanılacaq əsas generallara o qədər də etibar etmirdi. Onu sarayda əhatə edənlər cuçenlərin sülh şərtlərini alçaldıcı və qəbul edilməyən hesab edirdilər, çünki şimal düşməni nəhəng illik bacdan əlavə tələb edirdi ki, Cənubi Sunq vassal dövlətlərə xas olan borc mərasimlərini qəbul etsin. Hiyləgər imperator övlad borcu hissinə görə qəbul edilən şərtləri icra etməyi səhvsiz hal kimi qiymətləndirirdi. O, öz anasını əsirlikdən azad etdirmək istəyirdi.

1141-ci ildə dramatik böhran baş verdi. Sülh danışıqlarının başa çatması ərəfəsində Kao Tsunq üç aparıcı generalı komandanlıqdan uzaqlaşdırmağı qərara aldı. Generallar onların xidmətlərinin mükafatlandırılması bəhanəsi ilə paytaxta çağırıldılar, onların ordu birləşmələri ayrıca birbaşa imperial nəzarətinə tabe edildilər. Generallardan ikisi formal şərəflənmə ilə və iri məbləğli pensiya ilə razılaşdı. Lakin üçüncü general Yo Fey açıqca sülh danışıqlarını tənqid etdi. O, vətənə xəyanətdə ittiham edilərək edam edildi. Sonralar o, əfsanə qəhrəmanı-

na çevrildi, vətənpərvərlik simvolu oldu. Lakin o vaxt onun məhv edilməsi saray üçün həm daxili, həm də xarici təhlükəsizlikdə mühüm rol oynadı.

Kao Tsunqun şəxsi meylinin əksinə onun hiyləgər idarə edən əli və onun cəhdlərinin uğuru imperiyanın konsolidasiyasına yol açdı. Lakin o, taxt-tacdan istefa verməyi qərara aldı və işləri öz götürülmüş varisinə qoyub getdi. Lakin o, taxt-tacın arxasından öz nəzarətini davam etdirirdi. Yeni imperator Hsiao Tsunq idealistlərin hüsn-rəğbətini qazanmaqla onların bir çoxunu saraydakı və komandanlıqdakı vəzifələrə təyin etdi. Cuçenlərdə saray çevrilişi və onların imperiyasındakı iğtişaşlar, xüsusən də bir az əvvəl işğal edilmiş ərazilərdə baş verənlər nəticədə müharibə aparmaq qərarına gətirib çıxardı. Sunqların ilk hücumu dəf edildi və ağır itkilərlə müşayiət olundu. Huay vadisindəki ara-sıra döyüşlər iki il davam etdi, hərbi pat vəziyyətinə gətirib çıxardı və 1165-ci ildə imzalanan yeni sülh müqaviləsi ilə əlamətdar oldu. Lakin bu müqavilə də qırx il sonra pozuldu. Cənubi Sunq yenidən şimal istiqamətindəki kampaniyaya başladı və bir daha məğlubiyyətlə üzləşdi. Bu hadisə şübhə edilməyən həqiqəti üzə çıxardı ki, Şimali Çində ağalıq edən Cuçen imperiyasını təkcə hərbi gücü ilə Cənub imperiyasının məğlub etməsi mümkün deyildir. Cuçen özlərinin çinlilərə bənzər imperiyalarını qurmaqla əvvəlki köçəri və ya çoban işğalçılarının hamısı ilə müqayisədə əkinçilik ölkəsindəki geniş coğrafi regionu işğal etmişdi. Onların öz adamlarının iri ölçüdə miqrasiyası azalmırdı, Kitan əcdadlarına nisbətən kiçik azlığı təşkil etmələrinə baxmayaraq, onlar mütənasib qaydada Çin əhalisinin daha böyük hissəsini idarə edirdilər. Onlar öz imperiyalarında kiçik azlıqdan ibarət olduqlarına görə onların tayfa adamları hər an müharibəyə hazır olan daimi ordu saxlayırdı. Hərbi xidmətdə cuçen dili canlı dil olaraq qalırdı, lakin çin üslublu adlara, geyimlərə və ya adətlərə icazə verilmirdi. Onlar özlərinin ayrıca etnik mənsubluqlarını, hərbi ağalığı dəstəkləmək üçün zəruri bir amil, müəyyən səlahiyyət kimi saxlayırdılar. Siyasi cəhətdən isə cuçen hökmdarları dövlət işlərini idarə etmək üçün özlərini çinli təbəələrinin yüksək mədəniyyətinə yaxın qaydada aparmağa məcbur idilər. Çinlilərin hökumətdə təmsil olunmasına imkan verməməklə yanaşı, onlar hiyləgərcəsinə öz çinli təbəələrini rəssamlıq, elm, nəşr etmə, ədəbiyyat və xüsusən dram kimi dinc incəsənət növləri ilə məşğul olmaqdan uzaqlaşdırırdılar. Bu meyl sonralar monqolların ağalığı vaxtında da davam etdi.

Cuçenlərin səylərinin əksinə olaraq zaman çoxluğun mədəniyyətinin tərəfində idi və tədricən aparıcı azlığı da özünə absorbsiya etdi. Tayfa adamları əkinçilik torpaqlarında məskunlaşıb kök saldıqdan sonra çinli həyat tərzinin təsirindən, xüsusən uzun sülh dövrü ərzində qaça bilmədilər.

İqtisadi cəhətdən cuçenlər çinlilərlə yarışa girə bilməzdilər. Bu vaxt xeyli cuçen çinli torpaq sahiblərinin icarəçilərinə çevrildilər, bəziləri hətta pauper vəziyyətinə düşdü. Onların iqtisadi tənəzzülü sosial münasibətləri də dəyişdirdi. Əlbəttə onlara başqa xalqların nümayəndələri ilə, adətən özlərindən varlı

olanlarla qarışıq nikaha girməyə icazə verilirdi. Onların hərbi gücü də sönürdü. "Yüzlüyün" komandiri döyüş meydanına 25-dən artıq, "minliyin" komandirləri isə dörd ya beş nominal "yüzlükdən" artıq adam çıxara bilmirdi. Onların idarəedici sinfi də paralel olaraq tənəzzül edirdi. Hökmdarlar öz əcdadlarının icad etdikləri cuçenlərin iki üslublu yazısından olduqca az istifadə edirdilər. Üçüncü müharibə vaxtı assimilyasiya müəyyən qədər başa çatdı. Cuçen bu vaxta qədər nəinki Cənubi Sunq üzərində hərbi üstünlüyü saxlayırdı, həm də Cənuba tərəf ekspansiyanı bərpa etməyi düşünürdü.

Bu qorxulu mürəkkəblik şəraitində əhəmiyyətli olan Çu Hsinin başçılıq etdiyi xüsusi neokonfutsianizm məktəbinin yüksəlməsi idi. Şimali Sunq dövründə yeni konfutsiçi metafiziklər meydana gəlmişdi, onlara buddizm ciddi təsir göstərmişdi və daosizm terminologiyasından sərbəst şəkildə bəzi şeylər əxz edilmişdi, baxmayaraq ki, hər iki din rədd edilirdi. Cənubi Sunqun siyasi və sosial dəyişikliklərinə gəldikdə onların davamı yaxşı birləşmiş fəlsəfi sistemə yüksəldi və bu metafiziklərin, etiklərin, sosial idealların, siyasi canlanmanın, fərdi intizamın və özünü tərbiyənin sintezindən ibarət idi.

Erkən Cənubi Sunqun ən yaxşı mütəfəkkirlərinin əvvəlki neokonfutsiçi cəhdlərin uğursuzluğa uğraması qənaəti barədəki illyuziyaları boşa çıxdı. Dövlətçiliyə tətbiq etmək sahəsindəki islahatçıların axtarışları sui-istifadələrdə və ziddiyyətlərdə sona yetdi. Təhsilin genişlənməsi heç də əxlaqi standartların qalxması ilə üst-üstə düşmürdü. Mərkəzi düzənliklərin itirilməsi böyük mədəni vahimə yaratmışdı, lakin həqiqi mənadakı konfutsianizmin yenidən kəşfi baş vermədən itirilmiş, ərazilərin bərpası barədəki söhbətlər faydasız olmuşdu. Eyni irsin cuçenlər tərəfindən qəbul edilməsi təhlükəsini hiss edən Sunq intibahı müstəsna olaraq həm vərəsəliyə, həm də ortodoksiyaya iddia etməyə əsaslanırdı. Çu Hsinin başçılıq etdiyi məktəbin mütəfəkkirləri üçün təhsil, əxlaqi şüurluluğun daha dərin özünü tərbiyəsi demək idi. Onun bütünlüklə ölçüsü isə universal prinsiplərlə yanaşı hissiyyatın daxili təcrübəsinə əsaslanırdı. Bu adamlar konfutsianizmdəki trantsendental moralistlər kimi xarakterizə oluna bilərdi. Onlar missionerlərə bənzər çılğınlıqla bu həqiqi yolun təbliğatını aparır və mənəvi-intellektual sirdaşlıqlar formalaşdırırdılar. Çu Hsi böyük sintezçi olmaqla özünün başlıca seçimini bütöv qaydada "Dörd kitab" kimi tanınan əsərində izah edirdi. Bu əsərdə moralist mühakimələrlə dolu olan qısa versiyalarda monumental tarix cəmlənmişdi. İdealist alimlərin çoxu Çu Hsinin, onun cəmiyyətlərinin və şagirdlərinin ətrafında toplaşırdı. Demoralizasiya olunmuş aşağı standartların və üstün mövqe tutan şəraitin pozduğu və yadlaşdırdığı bu intellektuallar arxaik və yarım dini həyat tərzinin qarışığını qəbul etmişdilər. Alimlərdən görkəmliləri, təhsil fəalları, sosial liderlər və aşağı hökumət vəzifələri ilə əlaqəsi olan bu adamlar üzərlərinə ideoloji hakimiyyəti götürürdülər. İki qütbvari təbəqələr arasında - siyasi hakimiyyətlə ideoloji nüfuz arasında münaqişə baş verdi.

Konfutsiçi dövlətin təbiəti tələb edirdi ki, əgər bu iki tərəf üst-üstə düşmürsə, bir nöqtədə birləşəcəklər. Neokonfutsianizmin Çu Hsi məktəbi tezliklə geniş şəkildə qəbul olunmağa başladı və rəsmi ortodoksiya statusu almağa can atdı. Lakin onun bu səviyyəyə yüksəlməsi imperial varisliyin icra edilməsi, taxtacın dəyişilməsi ilə əlaqədar olan daxili böhran və xaricdən monqol təhlükəsi hesabına baş verdi. 1233-cü ildə monqollar Cuçeni istila etməmişdən bir il əvvəl Konfutsini şərəfləndirərək Pekindəki onun məbədini yenidən tikdilər. Dörd il sonra isə onların köçəri imperiyası meydana gəlməklə Şimali Çinin geniş hissəsini işğal etdi, mülki xidmət imtahanı institutunu yenidən bərpa etdi, bununla da onların da öz dövlətini konfutsiçi dövlət olmasına iddia etdilər. Həm hərbi, həm də mədəni cəhətdən təhlükə hiss edən Cənubi Sunq Çu Hsinin təfsirlərini rəsmən qəbul etdi, onun məktəbini isə dövlət ortodoksiyası kimi elan etdi və bu iddia üçün qanuni səbəb də tapıldı. Konfutsinin həqiqi yolu min ildən çox əvvəl itirilmişdi və onun dəyişilmiş xəttini erkən Şimali Sunq alimləri canlandırmışdılar. Buna o da əlavə olunurdu ki, konfutsianizm nə vaxtsa monqollar üzərində də hakim kəsiləcəkdir, lakin bu sönük təqlid olmaqla, heç bir irsə malik olmayacaqdır.

Lakin Çu Hsi məktəbinin şərəfləndirilməsi belə Cənubi Sunq inzibatçılığının tənəzzülünün dərinləşməsini və uzun müddət davam edən hərbi zəifliyini dayandıra bilmədi. Öz zəifliyinə baxmayaraq, Sunq dörd on illik ərzində monqollara qarşı səmərəli müdafiə oluna bildi, monqol müdaxilələrinə qarşı heç yerdə belə uzun müddət ərzində heç kəs dayana bilməmişdi. Lakin Sunq paytaxtı Lin-an nəticədə 1276-cı ildə döyüşmədən təslim oldu. Bu vaxt artıq yüksək rütbəli qulluqçular və zabitlər şəhərdən qaçmışdılar. İmperiyaya isə üç il sonra, 1279-cu ildə son qoyuldu, bu vaxt onun axırıncı donanması Quançjou yaxınlığında darmadağın edilmişdi, taxt-taca iddiaçı olan oğlan uşağı ona loyal olan nazirlə dənizə tullanmaqla özlərini intihar etmişdilər. Bu hadisə imperiya torpağının son nöqtəsindəki yeganə hərəkət idi.

Cənubi Sunqun süqutundan sonra bir neçə il əvvəl ağır vergilər pulun inflyasına səbəb olmuşdu. Kasıb kəndlilər özlərinə qarşı ədalətli münasibəti itirdiklərindən daxili qiyamlar qaldırmağa meyl edirdilər. Həqiqətdə isə bir neçə yerli iğtişaş baş versə də, iri bir qiyam qaldırılmamışdı. Bu vətənpərvərliyə kömək edən cəhət monqollara qarşı müharibənin sülaləni sadəcə salamat saxlamaqdan daha çox mədəniyyəti mühafizə etmək xarakteri daşıyırdı. Lakin başqa səbəblər də var idi. Hökumət Aşağı Yantszıda olan varlı regionların ehtiyatlarını səfərbərliyə almışdı, digər hissələri elə ciddi sınağa çəkməmişdi. Vergi yükü kəndlərə nisbətən əsasən inkişaf etmiş şəhər bölməsinin üzərinə düşmüşdü, axırıncı, imperiyanın onurğa sütunu rolunu oynayırdı. Lakin Cənubi Sunqun daxili həmrəyliyi həmin rejimlə uzun müddət dayana bilmədi. Monqollar qəti qaydada kəndlilərə hakim kəsilsələr də, heç vaxt onların həmrəyliyini dağıda bilmədi, monqol istilası altında da Çin mədəniyyətinin təkamülü davam etdi.

Sunq Çininin dəyişiklikləri kifayət qədər böyük idi, çünki bu vaxt onun mədəniyyətinin yeni olması və mövcud nümunələrdən daha "müasir" olması məsələsini qaldırmağı bacarmışdı. Əkinçilik inqilabı həmin dövrdə dünyanın ən çox əhalisi olan bir ölkəsində - 100 milyondan çox insanı qidalandırmaq üçün bol məhsul istehsal etməyə imkan verdi. Bütün istiqamətlərdə torpaqların becərilməsi artırıldı, becərilən ərazilər qumlu torpaqlara söykənirdi, dağ yamaclarına dırmaşırdı, su hədlərini geri itələyirdi. 11-ci əsr ərzində erkən biçilən düyü indiki Kampuçiyanın Çampa əyalətindən idxal edilirdi. Bu düyü növü becərilmə müddətini 100 gündən qısa etməklə bir norma kimi ildə iki məhsul, isti cənubda isə mümkün qədər üç məhsul götürməyə imkan verirdi. Yeni becərilən bitkilər arasında pambıq daha mühüm əhəmiyyət kəsb edirdi. Pambıq parça həm varlıları, həm də kasıbları eyni qaydada paltarla təmin edirdi. İpək isə xüsusi yer tuturdu. Təkmilləşmiş alətlər, yeni əmək vasitələri və mexaniki ixtiralar işçi qüvvəsindən səmərəli istifadə etməyə imkan verirdi. Qızıl, gümüş, qurğuşun və qalay kimi mineral xammaldan olan məhsulların istehsalı da çoxalırdı.

Dəmirin və sonralar Marko Polonun qara daş adlandırdığı daş kömürün istehlakı artırdı. 850-ci ildən sonrakı iki yüz il ərzində bu istehlak İngiltərədəki sənaye inqilabının ilk iki əsrinə nisbətən daha sürətlə yüksəlirdi. Manufaktura inkişaf etdikcə əmək bölgüsü və təcrübə də artırdı. Zəka və istehsal genişlənmiş ixtisaslaşmaya daxil olurdu. Yüksək keyfiyyətli yerli çini qablar istehsalı tərəqqi edir və beynəlxalq şöhrət qazanırdı. İstehsalın və istehlakın artması nəqliyyatın da iş qabiliyyətini yaxşılaşdırırdı. Dövlət iri yollar çəkilişini dəstəkləyirdi, bu yollar rəsmi səyahətlər və kuryer xidməti şəbəkəsi üçün də istifadə edildiyindən mərkəzləşmiş hökumətin nəzarətində saxlanırdı. Çaylarla bac gəmiləri və barjaları hərəkət edirdi, özəl gəmilərlə də yük daşınırdı, balıqçı qayıqları və istirahət üçün yaxtalar üzürdü. Dənizçilər okeanda üzürdülər, bu işdə onlar dəqiq kompasın, xəritələrin və digər naviqasiya cihazlarının köməyindən istifadə edirdilər. Yaponiya və Koreya ilə ticarət genişlənirdi, tacirlərin fəaliyyəti nəticəsində islam Persiyasından və Ərəbistandan mallar gətirilirdi. Bəzi çin tacirləri Cənubi-Şərqi Asiyada məskunlaşmağa başladı. Çin dəniz dövlətinə çevrilməsə də, tarixdə ilk dəfə Çinin dəniz donanması həyati əhəmiyyətli hərbi rol oynamağa başladı.

Pul iqtisadiyyatının irəliləməsi hər yerdə hiss olunurdu. Becərilən torpaqların çoxu nəqd pula gedən məhsul verirdi. 1065-ci ildən başlayaraq Şimali Sunq hökuməti, Tan dövründə üç yüz il əvvəl alınandan iyirmi dəfə çox illik nəqd vergi alırdı. Cənubi Sunqun gəlirlərində qəbul edilən taxıl və toxuculuq mallarına nisbətən nəqd mədaxil çoxluq təşkil edirdi. Dövlət mübadiləyə daha böyük ehtiyac duyduğundan iqtisadiyyat tərəqqi edirdi. Tacirlər uçan nəqd pul adlanan çeklərdən istifadə edirdilər, depozit sertifikatları hər yerdə tətbiq olunurdu. Duza və çaya inhisarlıq edən dövlət agentliklərinin sertifikatları öz etibar qüvvəsinə görə pul kimi hesab olunurdu. Hökumət ilk dəfə olaraq regional

dövriyyə üçün məhdudlaşan kağız pul çap olunmasına icazə verdi və o vaxtlar bu pula geniş milli qanuni xüsusiyyətə malik olan nüfuz verildi. Çin həmin dövrdə bunu edən ilk dövlət idi. Canlanan sövdələşmələr kommersiya inqilabını yaxınlaşdırdı, çötkədə hesablaşma sürətlə aparılırdı. Bu xüsusi əqli xidmət növü olmaqla hesablama maşını icad edilənə qədər müqayisə olunmaz bir yenilik idi. Şəhərlər dəyişmişdilər, Tan nümunəli hər bir xüsusi ticarət üçün nəzərdə tutulmuş və divarla əhatə olunmuş bölmələr ləğv edildi, şəhər ərazisinin müxtəlif hissələrində mağazalar, anbarlar yarandı və ticarət gildiyaları çoxaldı. Sunq Çini topdansatış tacirlərinin, yük daşıyanların, ambardarların, brokerlərin, səyahət edən satıcıların, pərakəndə satış dükançılarının və baqqalların cəmiyyəti idi.

Şəhər həyatı yeni intensivlik qazanmışdı. Bu dövrdə bəzi metropoliya ərazilərinin əhalisi bir milyona yaxınlaşırdı, digər onlarla şəhərin əhalisi 250-500 min nəfəri təşkil edirdi. İqtisadiyyatın dəstəklənməsi əlverişli mərkəzdə yerləşmədən asılı idi. Cənubi Çinin paytaxtı Lin-an o dövrdə deyildiyi kimi "şərqdən tərəvəzə, qərbdən suya, cənubdan meşəyə, şimaldan isə düyüyə" malik idi. Kiçik çaylar həmçinin kanalizasiya sistemi kimi xidmət göstərirdi. Məişət su təchizatına rezervuarlardan götürülən ehtiyat kömək edirdi, onları isə dağ bulaqlarından və göllərdən axan, həmçinin yaxınlıqdakı quyulardan götürülən su ilə doldururdular.

Biliklər ixtisaslaşma ucbatından genişlənirdi. Təbabət akupunkturanı, mamaçalığı, dişlərin müalicəsini, qulaq-burun-boğaz xəstəliklərini, oftalmologiyanı, revmatizm və ifliclə necə davranmağı əhatə edirdi. Meydana gələn elmlərin tədqiqatları xeyli irəliləmişdi, çap yolu ilə savadlılıq yayılmışdı, Sunq mədəniyyəti Çindəki erkən nümunələrdən uzağa gedə bilmədi. Erkən müasir səhnə adlanan dövr sonrakı modernləşməyə yol aça bilmədi. Əksinə Sunq nümunəsi mədəni stabilliklə xarakterizə olunduğundan Çinin dəyişilməz olması barədə mifin yaranmasına səbəb olmuşdu. Sosial siniflər arasındakı fərqlər geyimdəki, evlərdəki və mərasimlərdəki fərqləndirici cəhətlərin açıq şəkildə nizamlanmasında davam etdirilirdi. Ən bədnam xüsusiyyətə isə qadın ayağının onu kiçiltmək məqsədilə sarınması idi, bunu neokonfutsianizmin özü heç vaxt ədalətli saymamışdı.

# FƏSİL 4
# ÇİNİN MONQOLLAR TƏRƏFİNDƏN İŞĞALI, YUAN SÜLALƏSİ

Çöldə monqol tayfaları üzərində Çingiz xanın hökmranlığı 1206-cı ildə qalxdı və bir neçə il içərisində Çinin şimalını işğal etməyə cəhd etdi. Hsi Hsia Tanqut dövləti ilə ittifaqa girməklə canını potensial düşməndən qurtardı və Şimali Çindəki Cuçen-Tszin dövlətinə hücum etməyə hazırlaşdı. Bu vaxt Tszində vəziyyət təhlükəli idi, çünki cuçenlər öz irsi düşmənləri olan sunqlara qarşı baha başa gələn müharibədə taqətdən düşmüşdülər. Şimali Çin əhalisinin cuçen olmayan elementləri - çinlilər və kitanlar arasındakı narazılıq böyüyürdü. Çingiz xan kampaniyaya hazırlaşanda Cuçen dövlətinin ərazisinə və şəraitlərinə yaxşı bələd olan bir sıra məsləhətçilərinə bel bağlayırdı. Monqol ordusu 1211-ci ildə üç qrupla hücuma başladı, mərkəzdəki qrupa Çingiz xan özü başçılıq edirdi. Bir neçə il onlar ölkəni qarət etdilər, nəticədə 1214-cü ildə bu dövlətin mərkəzi paytaxtı olan və indi Pekin adlanan şəhərə hücuma diqqəti cəmləşdirdilər. Tszin imperatoru paytaxtını Kayfına köçürdü. İstehkamları yarıb keçmək çətin olduğundan monqollar sülh bağladılar və geri çəkildilər. Çingiz xan bu atəşkəsdən istifadə edib hücumla Şimali Çinin böyük hissəsini monqol nəzarətinə götürdü və 1215-ci ildə Ta-tunu (indiki Pekini) işğal etdi. Monqolların gücü başlıca olaraq süvari hücumlarında idi. Tszin dövlətindən olan fərarilərin köməyi bu ilkin monqol uğurlarına şərait yaratmışdı. Sonrakı kampaniyalarda da monqollar daha çox öz nəzarətlərində olan artan sayda çinlilərin müdrik bacarıqlarına və strategiyalarına bel bağlayırdılar. 1215-ci ildən sonra Tszin şimalda monqollarla, cənubda isə Sunq Çini arasında olan kiçik bufer dövlətə çevrildi. Hsi Hsiaya qarşı kampaniya və 1227-ci ildə Çingiz xanın ölümü Tszinə qısa müddətli tənəffüs verdi, lakin 1230-cu ildə monqollar öz hücumlarını bərpa etdilər.

Bu vaxt Sunq çinliləri 12-ci əsrdə cuçenlərə itirdiklərini qaytarmaq imkanının əmələ gəldiyini görüb monqollarla ittifaq bağladılar və 1232-ci ildə Kayfını mühasirəyə aldılar. Müdafiəçilər alov atanın bir növü ilə vuruşurdular və bu odlu silahdan istifadə barədə ən ilkin məlumat hesab olunur. Tszin imperatoru şəhər tutulmamışdan bir az əvvəl Kayfını tərk etdi və öz sonuncu iqamətgahını Honan əyalətindəki Tsay prefekturasında yerləşdirdi. Lakin bu qaçqınlıq da bədbəxtlik gətirdi. 1234-cü ildə imperator özünü intihar etdi və mütəşəkkil müqavimət kəsildi. Əvvəlki Tszin dövlətinin cənub sərhədi bu vaxt Şimali Çindəki monqol torpaqlarının sərhədinə çevrildi.

Sonrakı onilliklər Şimali Çindəki monqollarla cənubdakı Sunq dövlətinin asan olan dinc yanaşı yaşaması ilə müşayiət olundu. Monqollar 1250-ci ildə

Çingiz xanın nəvələri böyük xan Munkenin və onun qardaşı Xubilay xanın başçılıqları altında öz irəliləmələrini bərpa etdilər. Onların orduları Yantszı çayının üstündəki başlıca Sunq müdafiəçilərinin yanından keçib Cənubi-Qərbi Çinin içərilərinə girdilər və müstəqil Tay dövlətini (indiki Yunnan əyalətində) işğal etdilər və hətta müasir Şimali Vyetnama gəlib çatdılar. Munke 1259-cu ildə öləndə onun yerini Xubilay tutdu. Xubilay öz səfirini dinc yanaşı yaşamaq barədəki təkliflə Sunq sarayına göndərdi. Səfir paytaxt Lin-ana (indiki Quançjou şəhəri) gəlib çatmadı, onu casus kimi tutdular, onun Sunq hökumətinə öz diplomatik missiyası barədə məktubları cavabsız qaldı. Sunq kansleri güman edirdi ki, onun mövqeyi o qədər qüvvətlidir ki, bu hətta Xubilayı təhqir etmək risqinə imkan verir, ona görə də Xubilayın təklif etdiyi şansa məhəl qoymadı və bunun əvəzində güman edilən monqol hücumuna qarşı hərbi hazırlıqlarını gücləndirməyə cəhd etdi. Torpaq islahatı ilə o, iri torpaq sahiblərindən torpaqları müsadirə etdi, bu yolla hərbi ehtiyat yaratsa da, torpaq sahiblərinin və qulluqçular sinfinin böyük hissəsini özündən uzaqlaşdırdı. Sunq generalları kanslerə etibar etmirdilər və onlardan bir neçəsinin vuruşmadan monqollara təslim olmasını bununla izah edirdilər.

Bu vaxt çox sayda çinli qoşunlarının köməyi ilə monqollar bir neçə cəbhədə hücum etdilər. Onlar Hsianq-yanqı beş il ərzində mühasirədə saxladılar. Marko Polo öz kitabında atası və əmisinin monqollar üçün katapult qayırmaları ilə lovğalanır. Çin mənbələri isə qeyd edir ki, artilleriya mühasirəsi İraqdan olan ərəb mühəndislərinin birbaşa başçılığı altında aparılırdı. Çin komandanı axırda 1273-cü ildə təslim oldu, bundan əvvəl o, monqollardan əhaliyə aman veriləcəyi barədə vəd almışdı və o, öz əvvəlki düşmənlərinin yanında vəzifə tutdu. Yantszı çayı üzərindəki bir neçə prefekturalar təslim olurdu, başqaları isə qısa vuruşdan sonra tutulurdu. Hökmranlıq edən Sunq regent imperatriçası və uşaq olan nominal imperator tutulub Xubilay xanın yanına gətirildi. Sunq dövlətində milli müqavimət davam edirdi. Sarayın qalan hissəsi materikdən qayıqla qaçanda axırıncı sağ qalan imperial prints və onun sədaqətli naziri okeanda batıb öldü. Bundan sonra tezliklə mütəşəkkil müqavimət kəsildi və tarixdə ilk dəfə olaraq bütöv Çin imperiyasına əcnəbi müdaxiləçilər nəzarət edirdi.

1211-1215-ci illərdən Şimali Çindəki ilk uğurlarından sonra monqollar buranı necə idarə etmək və böyük saraydakı oturaq əhalidən necə maddi fayda götürmək problemləri ilə üzləşməli oldular. Onlara kitanlar və çinlilər, hətta cuçen reneqatları da kömək edirdilər. Bu fərarilərə monqolların "müttəfiqi" kimi münasibət bəslənirdi və onlar çöl kübarlığına məxsus olan yüksək rütbələrə nail olurdular, öz özəl torpaqlarını mülk kimi istifadə edilməsi bu imtiyazlara daxil idi. Monqol Çinində mərkəzi inzibatçılığı kitan mənşəli Tszin dövlət xadimi yaratmışdı, o, dərin çin təhsili almışdı, Çingiz xanın etibarlı məsləhətçilərindən biri idi. Sonra o, 1229-cu ildən böyük xan olan Udegeyin yanında xidmət etmişdi və qarışıq vergi yığmanı ratsional vergi sistemi ilə əvəz etmişdi. Mər-

kəzi katiblik yaradılmışdı və bu orqan özünü bürokratik idarə kimi təmsil edirdi, mülki inzibatçılığı mərkəzləşdirirdi. Ərazi əyalətlərə bölünmüşdü və ərazi inzibatçılığı vergiləri nizamlamağa cavabdeh idi. Adamlar torpaq vergisi və can vergisi ödəyirdilər, bunu parça və taxıl şəklində və ya gümüşlə ödəyirdilər, tacirlər isə satış vergisi ödəyirdilər. Şəraba, sirkəyə, duza, mədən məhsullarına inhisar tətbiq edilmişdi. Bütün bunlar monqol sarayının xəzinələrini xeyli varlandırdı. Bu iqtisadi siyasətin uğuruna baxmayaraq, Udegey Çindəki torpaqlarının daxili şəraitinə marağını sonrakı illərdə itirdi. 1230-cu illər ərzində Yaxın Şərqdən olan müsəlmanlar artıq monqol sarayındakı mühüm vəzifələri tutmağa başlamışdılar və onların tərəfindən çinlilərin kobud istismarı monqol hökmranlığına qarşı geniş hiddət yaratmışdı. Çin əcnəbilərin və onların müttəfiqlərinin idarə etdiyi müstəmləkəyə bənzəyirdi.

Xubilay xanın 1260-cı ildə hakimiyyətə yüksəlməsi monqol hökumət təcrübəsində müəyyən dəyişikliklər əmələ gətirdi. Xubilay monqol hökumətinin yerini Monqolustandakı paytaxt Karakorumdan Daxili Monqolustandakı Şanqtuya (Yuxarı paytaxt) keçirdi, 1267-ci ildə isə rəsmi paytaxt Pekinə və o vaxtlar adlanan kimi Ta-tuya (Böyük paytaxta) keçirildi. Pekin Asiyada və hətta Avropada "Xanbaluq" ("Xan şəhəri") adı altında tanındı. Lakin əsl köçəri ənənələrinə uyğun olaraq monqol sarayı iki iqamətgah arasında hərəkət etməkdə davam edirdi - yayda Şanq-tuya, qışda isə Ta-tuya köçürdü. Mərkəzi bürokratiyanın yeri Pekinə keçdikdən sonra artıq Monqolustanın özü və Karakorum Monqol imperiyasının mərkəzi olmadı. Monqolustan şimali sərhəd torpağı dərəcəsinə endi, burada köçəri həyat tərzi davam edirdi və monqol zadəganları sarayda çinləşmənin böyüməsindən narazı idilər və dəfələrlə qiyam qaldırmışdılar. Xubilay özünü çinli məsləhətçilərlə əhatə etmişdi, bu vaxta qədər Asiyadakı digər monqol torpaqlarının - ulusların nominal hökmdarı idi. Lakin çinlilərdən ibarət olan ətrafı onu ənənəvi çin imperatoru rolunu qəbul etməyə inandırdılar. 1271-ci ildə həlledici addım atıldı, Çin torpaqlarına çin sülaləsi adı olan Ta Yuan (Böyük Yuan) adı verildi. Bütün ilkin çin sülalələri öz adını qədim feodal dövlətlərindən və ya coğrafi terminlərdən götürürdü. 1260-cı illər ərzində Çin imperiyasında mərkəzi bürokratiya və yerli inzibatçılıq Çin xətti üzrə yenidən quruldu. Mərkəzi katiblik ən mühüm mülki hakimiyyət olaraq qalırdı, burada altı ənənəvi nazirlik - maliyyə, müdafiə, qulluqçular, mərasimlər, cəzalar və ictimai işlər nazirlikləri var idi. Ərazi bölgüləri də çin qaydasında aparıldı. Əyalət inzibatçılığı Mərkəzi katibliyin həqiqi qolu idi, ona görə də "hərəkət edən mərkəzi katibliklər" adlanırdı. Mərkəzi katibliyin aşağı eşalonu əsasən çinlilərdən ibarət idi, yüksək vəzifəlilər isə ənənəvi çin adları daşısalar da, çinli olmayanlardan ibarət idi. Təəccüblü cəhət o idi ki, Xubilay xan yüksək inzibati mövqelərdə olduqca az sayda monqollara malik idi, yəqin ki, o, öz tayfa başçılarının çoxundan şübhələnirdi, ona görə də əcnəbilərə üstünlük verirdi. Hərbi sferada isə monqol kübarlığı aparıcı rol oynayırdı. Hökumətin içərisində çoxlu sosial

və etnik cəhətdən bir-birinə əks olan qruplar mövcud idi. Ənənəvi çin dəyər sistemi yoxa çıxmışdı və heç bir siyasi əxlaq onun yerini tutmamışdı. Belə qeyri-taraz sistem yalnız güclü hökmdarın başçılığı altında fəaliyyət göstərə bilirdi, ölkəyə zəif və ya səriştəsiz imperator başçılıq etdikdə parçalanma labüd idi.

Monqollar alim-bürokratların inzibatçılıq potensialından, səriştəsindən və bacarığından qorxduqlarından heç vaxt onlardan tam istifadə etmirdilər. İdarə edən əcnəbi azlıq Çində daha çox müstəmləkəçi tipli elitdən ibarət olurdu, nəinki çin sosial sisteminin bir hissəsi idi. Monqolların çinlilərə assimilyasiya etməməsi onların rollarının qeyri-bərabərliyində özünü göstərirdi.

Sunq imperiyası işğal edildikdən sonra Çinin bütün əhalisi dörd sinifə bölündü. Birinci sinif monqolların özü idi, kiçik azlıq böyük imtiyazlara malik idi. Sonra monqolların türklərdən və Yaxın Şərq müsəlmanlarından ibarət olan konfederatları gəlirdi. Üçüncü qrup yalnız Şimali Çində yaşayan çinlilərdən ibarət idi. Bu sinifə həmçinin əvvəlki Tszin dövlətində yaşayan digər etnik qruplar daxil idi. Onlardan müxtəlif fəaliyyət növlərində istifadə edilirdi və monqolların başçılığı altında onlar hərbi birləşmələr yaradırdılar. Axırıncı qrup isə çin dilində "cənubi barbarlar" mənasını verən təhqiramiz adla adlanmaqla, bütöv Çin imperiyasının sayca ən böyük hissəsini təşkil edirdi. Ən aşağı statusa Yuan Çinində qullar malik idi, onların sayı çox idi. Qul statusu irsi idi və yalnız müəyyən şəraitlərdə qul azad oluna bilərdi. Vergi ödəyənlərin 80 faizindən çoxu dördüncü qrupdan olan man-tsular idi.

Dövlətdə monqol qanun praktikası və institutları həmçinin böyük rol oynayırdı, xüsusən də cəza qanunlarında. Yuan qanun məcəlləsi sülalə tarixindən götürülmüşdü. Monqol və Çin dualizmi həmçinin inzibati sənədlərin və dillərin problemlərində ifadə olunurdu. Az sayda monqol hökmdarları çin dilini bilirdi, çin yazısını yazmağı bacaranların sayı isə daha az idi. Digər tərəfdən çinlilər də işğalçıların dilini öyrənmək istəmirdilər. Ona görə də inzibatçılıq və mühakimələr əsasən tərcümələrə bel bağlayırdı. Monqol dili birinci dil hesab olunurdu, çoxlu sənədlər əvvəlcə monqolca yazılırdı, çin dilinə tərcümə onlara əlavə olunurdu.

Sunq imperiyasının monqol işğalı Tan sülaləsinin sonundan sonra ilk dəfə idi ki, bütün Çini yenidən birləşdirirdi. Monqol işğalı həm də Çin iqtisadiyyatına da yenidən inteqrasiya etdi. Əvvəlki Sunq ərazisinin, Çinin əksər inkişaf etmiş hissələrinin ehtiyatlarından istifadə etmək arzusu ilə monqol inzibatçılığı daxili ticarəti inkişaf etdirdi və Şimalı və Cənubu tam inteqrasiya etmək məqsədini güddü. Pekin regionu cənubdan gətirilən taxıldan asılı idi və monqol qarnizonlarını təmin etmək üçün böyük həcmdə ərzaq və parça lazım olurdu. 7-ci əsrdən işləyən və Yantszı, Huay və Xuanxe çaylarını birləşdirən sistem kimi Baş kanal təmir edilib Çin ənənələri qaydasında işlədilirdi. 1280-ci ilə yaxın taxılın dənizlə daşınması səlahiyyəti cənubi-şərqin bəzi özəl çinli iş adamlarına verildi. Bu özəl gəmi sahibləri öz donanmaları ilə taxılı Aşağı Yantszı regio-

nundan Şimali Çin limanlarına və oradan isə paytaxta daşıyırdılar. Lakin 14-cü əsrin əvvəllərində bu özəl donanma sahibləri xəyanətdə və dəniz quldurluğunda ittiham edildilər və onların bütünlüklə fəaliyyəti qadağan olundu. Monqol hökuməti heç vaxt onların yerini hökumət donanması ilə tuta bilmədi.

Monqollar öz dinlərini - Göy kultunu, təbiət qüvvələrinə sitayişi və şamanizm təcrübəsini tətbiq etməyə cəhd göstərmədilər. Bu Çində dinlərin azadlığına inam verdi. Daosizm sektaları Şimali Çində inkişaf edirdi və vaxtilə Çingiz xana daosist müdriki böyük təsir göstərmişdi, bu, onun və onun ardıcıllarının vergilərdən və digər mükəlləfiyyətlərdən bütünlüklə azad edilməsinə səbəb olmuşdu. Çin daosizmi müəyyən vaxt monqol hökmdarlarının hüsn-rəğbətini hiss edirdi və bu çin budduzminin ziyanına idi. Bir çox buddist institutları monqolların xoş münasibətindən istifadə edən daosistlər tərəfindən onların əlindən alındı. Böyük xan Munkenin başçılığı altında daosist və buddist keşişləri arasında bir neçə disput keçirilmişdi. Buddizmi daiosizmin bir qolu və Buddanın daosizmin mifik banisi sayılan Lao-tszının təcəssümü olması barədəki bir sıra apokrif mətnlər qadağan edildi. Lakin daosizm Yuan sülaləsi dövründə mövcudluğunu davam etdirdi.

Çin buddizm natiqləri ilkin monqol hökmdarlarının dövründə meditasiya buddizmi sektasından gəlmişdi. Onların yüksək zehni qabiliyyəti və təmiz asketizmi monqolların xoşuna gəlmirdi. Xubilay xan gənc tibet lamasına imperial müəllim təyin etdi və o, Çin daxil olmaqla bütün monqol torpaqlarındakı buddist kilsəsinin başçısı oldu. Buddizm məsələləri ümumi olsa da, həmçinin Tibet məsələsi idi, baxmayaraq ki, Tibet əslən Çin inzibatçılığından kənarda idi və orada bir dənə də olsun monqol qarnizonu yox idi. Sunq Çini işğal edildikdən sonra Cənubi Çində buddizmə nəzarət etmək üçün xüsusi agentlik yaradıldı və bu idarə tibet lamasının nəzarətinə verildi. Bütünlükdə isə çin buddizmi Yuan imperiyası şəraitində əziyyət çəkirdi. Vergilərdən və biyar əməyindən azad olma təmiz fayda nöqteyi-nəzərindən çoxlarını monastır həyatına cəlb edirdi. 1300-cü ilə yaxın bütün Çində rahiblərin sayı yarım milyondan çox idi və onlar xüsusən monqol hökmranlığının son illərində çoxalmışdı.

Konfutsiçilik monqol hökmranlığı dövründə çətinliklə davam gətirirdi. Xubilay xanın hökmranlığı vaxtı müəyyən qədər konfutsiçilik yer tutdu. Çin mərasimləri Pekində tikilmiş məbəddə icra edilirdi. İmperator Buyantu (1311-1320-ci illərdə hökmranlıq etmişdir) Çin sivilizasiyasına daha artıq maraq göstərirdi və imtahan sistemini yenidən tətbiq etdi, lakin bu imtahanların yaxşı aparılmasına şübhə ilə yanaşırdı. Monqollarla çinlilər arasında dövlət akademiyasına qəbul edilmək üçün namizədlərin formalaşmasında da qeyri-bərabərlik var idi. İlk doktor tituluna yiyələnən 300 nəfərdən yalnız yarısı çinlilər və Cənubi Çindən gələnlər idi. Onların hamısı bürokratiyada rəsmi vəzifələr aldılar, lakin monqollar daha yüksək posta, çinlilər isə aşağı vəzifələrə təyin edildilər. İerarxiya içərisində hakimiyyət mövqeləri monqolların və digər əcnəbilərin əlində idi.

Çin ədəbiyyatı da mühafizəkar meyllər nümayiş etdirirdi. Təhsil almış sinif öz əyləncəsini poeziya məclislərində keçirirdi. Yuanların sonuncu xaotik onilliklərində bir neçə görkəmli şairlər meydana çıxdı. Nəsr əsərlərinin çoxu Yuan dövründəki hadisələrdən və insanlardan bəhs edirdi. Monqollara qarşı güclü tənqid və satira mövcud idi, sunqlara ört-basdır edilməyən loyallıq nümayiş etdirilirdi. Əsasən ona görə ki, monqollar çin dilində çinlilərin yazdıqlarına maraq göstərmirdilər, həm də çox hallarda onları oxuya bilmirdilər. Yuan dövründə tarixçilik o qədər də məhsuldar deyildi. Sunq dövrü miqyasında tarixi əsərlərin meydana gəlməsi üçün lazım olan mühit mövcud deyildi. Sunq sülaləsinin süqutu barədə bir neçə tarixi əsər yazılmışdı və sunqların son dövründə ənənəvi Konfutsi dəyərlərinə biganə qalınması təsvir edilirdi. Şəhər cəmiyyətində doğma dildə ədəbiyyat çiçəklənməyə başladı. Geniş oxucu kütləsini əyləndirmək üçün novellalar və əhvalatlar yazılırdı. Yuan Çinində dram ədəbiyyatı ən yüksək səviyyəyə çatdı. Sonrakı ədəbi tənqidçilər Yuan dövrünü opera ariyaları üçün klassik era adlandırdılar. "Seçilmiş Yuan operası" toplumu 100 opera librettosundan ibarətdir. Dramatik ədəbiyyat və novellalar öz qəhrəmanlarını başlıca olaraq tacirlər və sənətkar sinifləri arasında tapırdı. Əcnəbilər, əsasən də türklər və Persiya mənşəlilər çin ədəbiyyatına öz köməkliklərini edirdilər. Onlar ənənəvi Çin mədəniyyətini ötüb keçmək istəyirdilər. Onlar özlərini göstərmək üçün çin qaydasında şeir yazır və rəsm çəkirdilər ki, təhsil görmüş çinlilər arasında nüfuz qazana bilsinlər. Çin dilində yazan bütün əcnəbilər öz əcnəbi mənşələrindən və inamlarından qaçmağa çalışırdılar. Əslində də onların yaratdıqlarından heç nə onsuz da çin əsəri xarakteri daşıya bilməzdi. Hətta persiyalılar kimi müəyyən öz ədəbi ənənəsi olan ölkələrdən gələn əcnəbilər heç vaxt öz formalarını, təsvir obyektlərini və ya dinlərini tətbiq etməyə cəhd göstərmirdilər. Çin ədəbiyyatı xarici dünya ilə belə əlaqələrdən az səmərə götürürdü. Yuan sülaləsi dövründə digər sivilizasiyalardan heç bir ədəbi əsər çin dilinə tərcümə edilməmişdi və çin klassiklərinin və tarixi əsərlərinin monqol dilinə tərcüməsi praktiki olaraq bizə gəlib çatmamışdır. Bu monqolların çoxu tərəfindən Çin sivilizasiyasının bütünlüklə qəbul edilməməsinin alternativi kimi görünür.

Monqol hökmdarları bütün torpaqlarında ticarətə yaxşı münasibət bəsləyirdilər, Çində də onlar dövlət ticarət nəzarətini ləğv etdilər, bununla da daxili və xarici ticarət görünməmiş nisbətdə yüksəldi. Çinin Yaxın Şərq və Avropa ilə transkontinental ticarəti çinli olmayanların - persiyalıların, ərəblərin, suriyalıların əlində idi. Çin ixrac malı olan yüksək keyfiyyətli ipək Asiyadan keçən karvan yolu ilə Yaxın Şərqə və hətta Avropaya gəlib çatırdı. İslam ölkələrinə çin keramikası da ixrac edilirdi. Asiya ölkələri öz Avropa ticarətlərini əsasən italyan respublikaları olan Genuya və Venetsiyada cəmləşdirmişdilər. İtalyanlar üçün Şərqlə ticarət o qədər mühüm əhəmiyyət kəsb edirdi ki, xarici ticarət barədəki vəsaitdə Çinə gedən ticarət yolları da təsvir edilirdi.

Çinlə Avropa arasında birbaşa əlaqələr Çinin böyük imperiyanın bir hissəsi olmasına baxmayaraq, elə böyük deyildi. Tarixi və coğrafi ədəbiyyat avropalıların Monqol imperiyasında iştirakı barəsində az məlumat verir. Yuan sülalə tarixində əcnəbi ölkələr Koreya, Yaponiya, Birma kimi Çinin ticarət apardığı və ya əsrlər boyu bac almaq əlaqələri ilə bağlı olduğu ölkələrlə məhdudlaşır. Bir vaxt Rusiya mühafizə alayı Ta-tuda mövcud olmuşdu və bəzi rus əsgərləri indiki Şərqi Mancuriya olan hərbi koloniyalarda məskunlaşmışdı. Çin Avropa sivilizasiyası ilə qarşılaşmamışdı və onlar üçün Avropa "uyğurların arxasında olan" hansısa qeyri-müəyyən region olaraq qalırdı.

Yaxın Şərqin müsəlman ölkələrindən elm və texnologiya sahəsindəki köməklik daha vacib idi. Xubilay xanın hökmranlığı ərzində ərəb-Persiya astronomiyası və astronomik alətlər Çində tətbiq edildi və burada rəsədxana tikildi. Lakin astronomiyanın təməl konsepsiyaları çinlilərinki olaraq qalırdı və Yaxın Şərq matematika və nəzəri çərçivəsini qəbul etməyə cəhd göstərilmədi. Oxşar qaydada Yaxın Şərq həkimləri və cərrahları Çində uğurla işləyirdilər, lakin çin tibb nəzəriyyəsi Qərb təsirinə məruz qalmadan özünü qoruyub saxladı. Coğrafiyada 14-cü əsrdəki Çinin dünya xəritəsi ərəb coğrafi biliyinin çin dünyabaxışına birləşdirilməsi nümunəsi idi. Bu xəritədə təkcə Çin və ona qonşu olan ölkələr deyil, həmçinin Yaxın Şərq, Avropa və Afrika göstərilirdi. Afrika qitəsi onun həqiqi üçbucaq formasında təsvir edilirdi. Çin sərhədlərindən kənarda nələr baş verdiyinə maraq göstərilmirdi. Avropanın Çin barədə bilikləri isə fərqli idi. Monqolların Şərqi Avropaya irəliləməsi avropalıları bu regionda yaşayan xalqlar barədə məlumat əldə etməyə imkan vermişdi. İslam dünyasını avropalılar birinci səlib yürüşündə öyrənmişdilər, katolik kilsəsi də əvvəlcədən Asiyanın qeyri-müsəlman xalqlarını öz dininə çevirmək barədə düşünürdü. Frantsiskan elçilər 13-cü əsrin ortalarına Katey (Çin) barədə qazandıqları məlumatları geri qaytarmışdılar. Papa Frantsiskin missiyasını Xanbaluqdakı böyük xanın sarayına yola salmışdı. Missionerlər Çin torpağında katolik ierarxiyasının özəyini təşkil etdilər, Xanbaluq arxiyepiskopun oturduğu yer oldu.

Katolik missionerləri Çin barədə təzə məlumatları orta əsr Avropasına ötürürdülər. Rahiblər tatar dilində moizə oxuyurdular. Çində monqol hökmranlığının sonu və Çin sülaləsinin möhkəm millətçiliyi ilə 14-cü əsrin katolik missiyasının bəd günləri başladı. Marko Polonun məlumatları və digər tərəfdən Avropa üçün yeni torpaqların kəşfi ilə yeni era başlandı, dünyaya, onun bir hissəsi kimi Çinə yeni baxış meydana gəldi. Yuan sülaləsi dövründə Çinin Asiyanın digər hissələrinə təsiri yayıldı. Çin tibb traktatları pers dilinə tərcümə olundu və həmin dövrdəki Persiya miniatüralarında çin rəssamlığının təsiri xeyli dərəcədə özünü göstərir. Barıt da burada icad edilmişdi və Avropa kitab çapının tətbiq edilməsinə görə də Çinə borclu idi. Lakin müəyyən mədəni izolyatsionizm də mövcud idi, dünyada çinlilərin imici və çinli mövqeyi ciddi surətdə dəyişilməmişdi.

Monqollar çin milli institutlarını özününküləşdirməyə nail olmağa qadir deyildi və onların hökmranlığının hərbi cəhətdən və müstəmləkəçilik xarakterinin modifikasiyasının labüdlüyü Xubilayın varislərinin dövründə daha aydın nəzərə çarpdı və bu sonuncu Yuan hökmdarının vaxtında ən yüksək həddə çatdı, militarizm tədricən monqol idarəetmə sinfindən çin cəmiyyətinə keçdi. Zəif imperatorun başçılıq etdiyi mərkəzi inzibatçılıq öz hakimiyyətini saxlamağa bacarmadı. Monqollar sonrakı əsr ərzində Çinin potensial düşməni olaraq qaldı və Monqolustandakı Çingiz xan klanı özlərini Çinin legitim hökmdarları hesab etmələrini davam etdirirdilər. Çindəki hökumət barədə edilən sonuncu effekt imperial mütləqiyyətin qurulması idi.

Monqol generalları arasındakı rəqabət, siyasi və yerli inzibatçılığa qeyri-səmərəli nəzarət Yuan sülaləsi hökumətini 1340-cı illərdə ciddi surətdə zəiflətdi. 1351-ci ildəki Xuanxe və Huay çaylarının məhvedici daşqını hövzələrin yüzilliklərlə istismar edilən çin kəndlilərini açıq qiyama qaldırdı. Qiyam tezliklə yayılıb bütün Mərkəzi Çini tutdu. Huay hövzəsində qiyamda aparıcı rolu sunqlar oynayırdı. Mərkəzi Yantszı vadisində Hanlar baş rolda idi, Hsialara isə qiyamçı Han rejiminin generalı Min Yu-çen başçılıq edirdi. Yuan başçıları Ta-tuda ağalıq üstündə bir-birilə rəqabət aparanda bu qiyamçı dövlətlər cənubda dirilmək və hakimiyyəti ələ keçirmək üstündə bir-birilə mübahisə edirdilər. Bu qarışıqlıqdan Min adlanan yeni yerli sülalə (1368-1644-cü illər) meydana çıxdı.

Yeni sülalənin banisi Çu Yuan-çanq Kayfın şəhərindən idi, Yuan dövründə sərgərdanlıq edən icarəçi fermerlər sırasına daxil olmuşdu. 1344-cü ilin aclığında və taun xəstəliyi dövrü yetim qalan gənc Çu kiçik buddist monastırına götürülmüşdü. Daşqınlardan və qiyamlardan sonra Çu da üsyana qoşuldu. Tezliklə o, qiyamçı Sunq rejiminin cənub cəbhəsindəki ən uğurlu generalına çevrildi və 1356-cı ildə Nankini tutub öz qərargahını orada yerləşdirdi. Bu Yantszı çayı üzərində ən çox əhalisi olan və strateji əhəmiyyət daşıyan şəhər idi. Burada o, köhnə hökuməti yoxlamağa başlamadı və öz hərbi qüdrətini xeyli möhkəmləndirdi. Bu vaxt o, Sunq rejiminin tərəfdarı olaraq qalırdı və onun orduları Yantszı vadisinin mərkəzi və şərq hissələrinə nəzarət edirdi. Çu sonra bütün Çini monqol hökmranlığından azad etmək niyyətini elan etdi və bəyan etdi ki, yeni sülalə 1368-ci ildən başlayaraq fəaliyyət göstərir. "Parlaqlıq" mənasını verən Min sülalə adı Manixey təsirini ifadə edirdi, bu təsirə məruz qalan rejimdə Çu şöhrət qazanmışdı.

Monqollar bir çox əyalətlərdən və Ta-tunun özündən qovuldu, bu əyalətləri Min qüvvələri işğal etdi. Sonrakı illərdə Min Daxili Monqolustana da nəzarət etdi və Mərkəzi Asiyanın girişinə çatdı. Min qüvvələri qiyamçı Hsia rejimini də darmadağın etdi, başlıca monqol qüvvələrini süpürüb atdı. Çunun otuz illik

hökmranlığının sonunda 1398-ci ildə yeni sülalə indiki Çinin bütün ərazisinə nəzarət edirdi, şimalda Daxili Monqolustandan Şimali Mancuriyaya qədər olan zonada ağalıq edirdi.

Min sülaləsi 16 imperatorun hökmranlıqlarını əhatə edir və Çin tarixində ən stabil və uzun ömürlü sülalələrdən biridir. Koreya, Monqolustan, Çin Türküstanı, Birma, Siam və Vyetnam müntəzəm olaraq Min ağalığını qəbul edirdilər və həmin dövrdə Yaponiyadan, Yavadan, Sumatra, Seylon və Cənubi Hindistandan, Şərqi Afrika sahilindən, İran körfəzi regionundan və Səmərqənddən bac alırdı. Min imperatorları dövlətin beynəlxalq qüdrətini və nüfuzunu bərpa etdilər, axı bu şərəf 8-ci əsrdən bəri itirilmişdi. Min imperatorları öz yerli hökmdarlarından daha çox Şərqi Asiyadakılara təsir göstərirdilər və Çinə Avropa ölkələrindən gələn nümayəndələrə olan münasibət bunu göstərirdi.

Çin tarixində ilk dəfə olaraq Min hökmdarları hər biri müntəzəm olaraq yalnız bir era adı qəbul edirdi, yalnız altıncı imperator istisna təşkil etdi, çünki o, səkkizillik fasilə ilə iki dəfə ayrıca hökmranlıq etmişdi. Bünövrəni qoyan imperator Tay Tsu onun məbəd adı Çu Yun-çanq idi, Çin tarixinin güclü və ən koloritli şəxsiyyətlərindən biridir. 14-cü əsrin sonunda 30 il hökmranlıq edən bu şəxs hökumətin quruluşunu müəyyən etdi və ona bütün sülaləni xarakterizə edən çalar verdi. 1398-ci ildə o, öləndən sonra onun varisi olan nəvəsi Hui Ti öz qüdrətli əmilərinə nəzarəti əldə etməyə cəhd göstərdikdə qiyam başlanmasına sövq etdi və dörd il sonra o, devrildi. Yen hökmdarı onun yerini tutdu. O, Nam Vyeti (indiki Şimali Vyetnamı) özünə tabe etdi, Afrika və digər uzaq ölkələrin hökmdarlarından bac tələb etdi. Ondan sonrakı əsr ərzində imperiya stabil, güclü və inkişaf edən kimi qalırdı. Sonra yevnuxların (hərəmağalarının) təsiri altına düşən zəif imperatorlar dövrü gəlib çatdı. Onlar ölkəni 70 il ərzində idarə etdilər. Bircə dəfə dinc dövr pozuldu, bu yevnux təsiri altında olan imperatorun 1449-cu ildə oyratlara - qərbi monqollara qarşı bədbəxtlik gətirən hərbi kampaniya ilə əlaqədar idi. Oyrat lideri Esen Tayci imperial ordunu tələyə saldı, imperator Yinq Tsinqu əsir götürdü və Pekini mühasirəyə aldı. Müdafiə naziri onu geri çəkilməyə məcbur etdi və səkkiz il ərzində hökumətdə ağalıq etdi. Monqollar imperatoru azad edəndən 7 il sonra aralıq imperator xəstələnəndə taxt-taca bərpa olundu. Bu vaxt müdafiə naziri xain kimi edam edildi.

Çinin uzun dinclik dövrünə Şih Tsunqun hökmranlığında son qoyuldu. Yeni güclü Altan xanın başçılığı altında oyratlar Pekinin ətrafına hücum etdi. Elə həmin vaxt yaponların dəniz reydləri ardıcıl olaraq Çinin cənubi-şərqi sahillərini qarət edirdi. Bu dəniz reydləri Yuan dövründə də Minin hökmranlığının ilk illərindən başlayan bir problem olaraq qalırdı. 1550-ci illərdə sahil reydləri bütünlüklə yatırılmasa da, sonrakı on illikdə nəzarət altına alındı. Bu vaxt Altan

xan da dəfələrlə məğlub edildi və 1571-ci ildə sülh bağlamalı oldu.

Şen Tsunq Min tarixində dönüş nöqtəsi oldu. 1572-ci ildən etibarən 48 il hökmranlıq edən imperator xəyanətlərdən narahat edildiyindən öz məsuliyyətindən dəfələrlə uzaqlaşıb, bunu yevnuxların üstünə atırdı. Ondan sonrakı imperatorun dövründə bürokratik intizam və əxlaq korlanmaqda davam etdi və o, cəmisi bir ay hökmranlıq etdikdən sonra öləndə yeni münaqişələr başlandı. Sonuncu imperator da hökmranlığının ortasında bütün hakimiyyəti Çin tarixinin ən iyrənc yevnuxuna verdi. Bu yevnux yüzlərlə qulluqçunu vəzifədən zorakılıqla uzaqlaşdırdı, bu adamlar əsasən islahatçılar qanadına məxsus olanlar idi. Bu vaxt şimal sərhədindən təhlükə gəldi. Sülalənin başlanğıcından Şərqi Mancuriyanın işğalçıları olan mancurlar 1583-cü ildə gənc ambitsiyalı liderin başçılığı altında qalxdılar. Onlar Mərkəzi Mancuriyaya hücum etdilər. 1616-cı ildə həmin lider Nurhaçi yeni sülaləni elan etdi və qalibiyyətli Min qüvvələrini darmadağın etdi və Böyük Səddə qədər Min imperiyasının şimalına nəzarəti ələ keçirdi. Mancurlar dəfələrlə Böyük Səddin içərilərinə reyd etdilər, hətta Pekinə təhlükə yaratdılar. Çinli əhaliyə qoyulan vergi daha zülmkar xarakter daşıyırdı və daxildə qiyamlar geniş yayılırdı. Min hökuməti bütünlüklə demoralizə olunmuşdu. Nəticədə yerli qiyamçı 1644-cü ildə paytaxtı tutdu və sonuncu Min imperatoru özünü öldürdü. Mancurların köməyi ilə Min komandanı Şan-haykuan sülaləni bərpa etmək istədikdə yalnız mancurların taxt-tacı özləri üçün tutmalarına şərait yaratdı. Minə hüsn-rəğbət bəsləyənlər cənuba qaçmaqla Mancu Tsinq sülaləsinə səmərəsiz müqavimət göstərdi.

# IX HİSSƏ. MONQOL İMPERİYASININ YARANMASI VƏ MONQOL İŞĞALLARI

## FƏSİL 1
## ÇİNGİZ XAN VƏ ONUN NƏHƏNG İMPERİYASI

Çingiz xan tərəfindən Monqol imperiyasının yaradılması Asiya və Avropanın taleyində öz davam edən izini qoydu. Çingiz xan dövlətinin əsasını sonralar Monqolustan kimi tanınan ərazinin şimal-qərb hissəsi oldu. Bura Türk və Uyğur imperiyalarının mərkəzində idi. Monqolların bütün bu ərazini tutmasının vaxt və qaydası barədə heç bir əlamət yoxdur.

Çingiz xan monqol tayfa başçısının oğlu olmaqla dahi sərkərdə və hökmdar idi, onun fəaliyyətinin başlanğıcı barədə dəqiq məlumatlar olmadığından həmin dövr qaranlıqdır. O, Monqolustanın bütün köçəri tayfalarını öz hökmranlığı altına yığdı və onu sərt intizamlı hərbi dövlətə çevirdi. Bundan sonra nəzərlərini köçəri səltənətinin sərhədlərindən uzaqlara dikdi, qarət və işğal kampaniyaları seriyasına başladı, bu monqol ordularını bir istiqamətdə Adriatik dənizinə və digər istiqamətdə Çinin Sakit okean sahilinə gətirib çıxarmaqla böyük Monqol imperiyasının qurulmasına şərait yaratdı. Saqa tipli "Monqolların gizli tarixi" istisna olmaqla yalnız qeyri-monqol mənbələri Çingiz xanın həyatı barədə o dövrə yaxın olan məlumatları verir. Bu yazıçıların demək olar ki, hamısı monqol xidmətində olsalar da, monqol müdaxilələrinin nəhəng dağıdıcı nəticələrinin şahidi olmuşdular. Onların bəziləri bunları toplamaqdan dəhşətə gəldiklərini də gizlətmirdilər. Avropalı şahid isə onları "iyrənc iblis xalqı" adlandırırdı.

Monqol xalqının banisi, monqol ordularının təşkilatçısı kimi və bu kampaniyaların arxasında dayanan düha kimi Çingiz xan bu xalq barədəki təsəvvürlərə şərik idi, baxmayaraq ki, hətta onun generalları dəfələrlə birbaşa nəzarət edilmədən, öz istədikləri kimi hərəkət etmişdilər. Bu mülahizə düzgün deyildir ki, bu kampaniyalar Daxili Asiyada artan quraqlığın köçəriləri yeni otlaqlar axtarması ucbatından meydana gəlmişdi. Digər tərəfdən monqol istilaları nadir hadisə deyildi. Çingiz xanın özü də birinci və axırıncı köçəri işğalçı deyildi ki, çöldən atılıb çıxsın və Avroasiyanın məskunlaşmış ətrafını terrorizə etsin. Onlar bu oturaq əhaliyə qarşı daha zorakı davranırdılar və öz adətlərinə uyğun olaraq bu əhvalatları qələmə alırdılar, bununla onlar Avroasiya qitəsinin çox böyük hissəsinə və müxtəlif sayda cəmiyyətlərə güclü təsir göstərmişdilər. Monqol kampaniyalarını fərqləndirən bir cəhət də o idi ki, onlar miqyasca daha böyük idilər, daha uğurlu olmaqla uzun müddət öz effektini davam etdirirdilər.

Köçərilər cənubun əsas məhsullarına möhtac idilər və onların bolluğuna can

atırdılar. Onları ticarət vasitəsilə ötüb keçən karvanlara vergi qoymaqla və ya silahlı basqınlarla əldə etmək olardı. Məskunlaşmış çin xalqları çölün məhsullarına nisbətən az dərəcədə ehtiyac duyurdular, lakin onlar köçəri barbarların mövcudluğuna məhəl qoymaya bilməzdilər, ona görə də daim müqavimət basqınlarına əl atmalı olurdular. Digər tərəfdən çinlilər barbarları bir-birinin üzərinə qalxmağa təhrik edirdilər, bu yolla bir tayfanın daha da güclənməsinin qarşısını alırdılar.

Çin sülalələrinin güclənməsi və zəifləməsi sikli çöl xalqlarının birləşməsi və parçalanması kimi digər bir sikllə müşayiət olunurdu. Öz qüdrətinin ən yüksək dövründə qətiyyətli liderin başçılığı altında olan bir köçəri tayfa Çində vəziyyət yaxşı olmayanda digərlərini özünə tabe edib, öz hakimiyyətini çöldən uzağa genişləndirirdi. Cənubun ona uyuşmayan oturaq mədəniyyəti üzərində köçəri hakimiyyətinin belə genişlənməsi onun intiqamı ilə üzləşməli olurdu. Köçərilər öz təməl üstünlüklərini itirirdilər - bunlar yüngüllüklə səfərbər olmaq idi və bu yol üstündə azacıq qida və heyvanlar üçün yem tələb edirdi. Bu keyfiyyət onların işğal etdikləri çinlilər tərəfindən udulub yoxa çıxırdı. Sikl yenidən bərpa olunurdu, güclü Çin yenidən meydana gəlirdi və tayfa başçıları arasındakı yolundan azdırılmış və bir-birilə sözləşən bir ovuc adam köçərilər arasında yeni həyat tərzi nümunəsinə çevrilirdilər. Digər tərəfdən Çingiz xan köçəri dünyasının birləşməyə hazır olduğunu gördü, çünki bu vaxt Çin və digər məskunlaşmış dövlətlər bu və ya digər səbəbdən tənəzzüldə idilər, o, situasiyadan istifadə etməyi bacardı.

Çingiz xan adlanan Temuçin, atası Yesicgey həmin adı daşıyan lideri məğlub etdikdə anadan olmuşdu. Onun doğum tarixi 1150-ci və ya 1160-cı illərə təsadüf edir. Əfsanəyə görə o, doğulanda əlində bir ovuc qan tutmuşdu. Guya o, ilahi mənşəyə malikdir, ilk əcdadı boz qurd olmuşdur. 7 yaşı olanda monqolların Borcigin şah klanının üzvü olan atası Yesicgey digər köçəri tayfa olan və onların köhnə düşməni tatarlar tərəfindən zəhərlənmişdi. Onun ölümü ilə klanın qalan hissəsinə rəqib Tayçiut ailəsi başçılıq etdi və ölənin dul qadınını və uşaqlarını tərk etdilər ki, onlar liderlik etmək və hakimiyyəti qəsb etmək üçün çox zəifdirlər. Bir neçə vaxt kiçik ailə olduqca yoxsul həyat keçirdi, onlar köçərilərin qidası olan mal əti və madyan südü əvəzinə bitki köklərini və balıq yeyirdilər. Temuçin öz şəxsi gücü ilə özünə tərəfdarlar cəzb edirdi. Bir dəfə o, tayçiutlar tərəfindən əsir götürüldü, onlar bu oğlanı öldürməmişdən əvvəl öz düşərgələrinin ətrafında boynuna ağac boyunduruq geyindirilmiş şəraitdə saxlayırdılar. Bir gecə onlar bayram edəndə, yeyib-içəndə Temuçin özünün pis mühafizə olunduğunu görüb, ona qarovul çəkəni öz çiynindəki boyunduruğun zərbəsi ilə vurub qaçdı. Onu bütün gecə axtardıqda tayçiutlardan biri onu görsə də, öz həyatı ilə risqə gedərək qaçıb aradan çıxmasına köməklik etdi. Digər bir hadisə vaxtı isə o, oğurlanmış atlarını axtaranda Boorçu adlı bir gənc itirilmiş heyvanları tapmaqda ona kömək etdi və hansısa bir mükafat almaqdan imtina

edib, Temuçinin hakimiyyətini tanıdı, öz ailəsini tərk etməklə onun nökər yoldaşı oldu.

Temuçin və onun ailəsi Borcigin şah klanının üzvü kimi onları bu klandan təcrid etmələrinə baxmayaraq, onun nüfuzundan açıqca istifadə edirdilər. O, atasının ölümündən əvvəl onu nişanladığı qıza iddia etməyə qabil oldu. Lakin Monqolustanın şimalında yaşayan tayfa olan Merkit adamları ona qısqanclıqla yanaşırdılar, çünki atası da öz arvadını onlardan birinin ailəsindən götürüb qaçmışdı. Ona görə də onlar Temuçinin arvadı Börtedən cuşə gəlirdilər. Temuçin atasının and qardaşı olan Kereit tayfasının xanı Toğrula müraciət etdi. Bu vaxt o, ən qüdrətli monqol hökmdarlarından biri idi. O, qabağı görərək Toğrula nişan hədiyyəsi kimi aldığı qılınc qınını bağışladı ki, bu dostluğu möhkəmləndirsin. Əvəzində Toğrul Temuçinin səpələnmiş adamlarını yenidən birləşdirməyi vəd etdi. O, 20 min adamı silahlandırmaqla öz vədinə əməl etdi. Temuçinin kasıblığı ilə onun müttəfiqlərinin silahlandırdığı ordu arasında böyük kontrast var idi.

Müttəfiqlərinə məxsus olan və həmçinin öz qüvvələri ilə Temuçin merkitlər üzərinə hücum etdi. O, heç vaxt düşməni arxasında qoyub onu tərk etməyə cəhd etmirdi. Bir neçə il sonra o, Çinə hücum etməmişdən əvvəl birinci növbədə əmin oldu ki, salamat qalan heç bir köçəri lideri ona arxadan zərbə vura bilməyəcəkdir. Merkitləri darmadağın etdikdən sonra o, Cürkin klanı ilə də belə davrandı. Həmin hökmdarlar onun kənarda olmasından istifadə edib tatarları qarət etmək üçün onlara qarşı yürüş etdilər. Temuçin klan kübarlığını məhv edib ümumi xalqı öz əsgərlərinə və nökərlərinə çevirdi. Onun qüvvəsi risq etmək üçün kifayət qədər böyüyəndə o, heybətli tatarları əvvəlcə döyüşdə məğlub etdi, sonra isə onların boyu araba oxundan yuxarı olan adamlarının hamısını qırdırdı. Güman edilirdi ki, uşaqları öz keçmişlərinə bələd olmadan böyümək gözləməlidir və onlar monqolların loyal ardıcıllarına çevriləcəklər.

Kereitlərin başçısı Toğrulla ittifaq dağıldıqda və Temuçin ali hakimiyyət üçün bu maneəni aradan götürməli olduqda, o, Kereit adamlarını monqollar arasında nökərlər və qoşun dəstələri kimi səpələdi. Onun bu rəhmsizliyi təkcə sadəcə səbəbsiz qəddarlıq deyildi. Temuçin köhnə rəqib kübarlardan heç birini sağ qoymaq istəmirdi, çünki onlar müqavimət fokusuna çevrilə bilərdilər, özlərini döyüşən qüvvə ilə təmin edərdilər, hər şeydən çox isə bütün köçəriləri onun ailəsinə şəxsi tabeçilikdə birləşdirən klan loyallığı hissini dağıdardılar.

1206-cı ildə o, bütün çöl xalqı tərəfindən imperator kimi qəbul edildikdə minlərlə ailəni öz qohumlarını və yoldaşlarını mühafizə etməyə bölüşdürdü, mövcud tayfaları və klanları feodal strukturasına yaxın olan nəsə bir şeylə əvəz etdi. Ən azı merkitləri məğlub etdikdən sonra Temuçin çöldə ağalığı əldə etmək məqsədini güdürdü. Camuka ilə bərpa edilən dostluq yalnız il yarım çəkdi. Temuçinin arvadı Borte ona məsləhət gördü ki, iki dostun hər birinin ayrıca öz yolu ilə getmək vaxtı gəlib çatmışdır. Belə güman edilirdi ki, Camuka liderlik üstündə böhran yaratmağa cəhd göstərmişdir. Əslində isə Temuçin öz yol-

daşını tərk etməyə yaxın idi. Camukanın adamlarının çoxu onu tərk etdi, bununla onlar yəqin ki, Temuçinin axırda qalib gələcəyinə ümid bəslədiklərini göstərirdilər. Bu adamlardan biri danışırdı ki, Temuçin onun gözü önündə görüntü kimi gəlmişdir və bunun mənası o idi ki, Göy və Yer Temuçinin imperiyanın ağası olmasına razılıq vermişlər. Klan adamlarından bir çoxu Temuçinin tərəfinə keçməyə tələsdilər.

Camuka ilə ayrılma monqol dünyasında qütbləşməyə gətirib çıxardı, bu yalnız iki rəqibdən birinin yoxa çıxması ilə həll oluna bilərdi. Bu rəqabət Calukanı məhv etdi. Klan liderləri özlərini onların ətrafında cəmləmişdilər və əsrin sonu başa çatmamışdan bir neçə il əvvəl onlardan bir çoxu Temuçini monqolların xanı etməyi təklif etdi. Onların hamısı bacarıqlı general axtarırdılar, heç də onun ağaya çevrilməsini istəmirdilər. Həqiqətən də sonralar onlardan bəziləri onu tərk etdi. Hətta həmin vaxt Temuçin yalnız azlığın başçısı idi. Bayramda onun nominal müttəfiqi olan Cürkin hökmdarlarının törətdiyi səs-küylü sözləşmə də bunu sübut edir və onlar sonralar qırdırıldı. Şimali Çindəki Tsin imperatoru həmçinin ona böyük gələcəyi olmayan bir adam kimi baxırdı. Tsin bir vaxtlar onun müttəfiqi olmuş tatarlara hücum etdi. Toğrulla birlikdə Temuçin bu imkandan istifadə edib klan düşmənçiliyini davam etdirərək tatarların arxa tərəfini tutdu. Tsin imperatoru Toğrulu çin titulu olan van və ya hökmdar titulu ilə təltif etdi. Temuçinə isə onu ilhamlandırmaq üçün heç nə vermədi. Sonrakı bir neçə il ərzində Tsin Temuçindən qorxmurdu. O, bütünlüklə çöldə öz hakimiyyətini qurmaqla məşğul idi və Çinə heç bir açıq təhlükə kimi görünmürdü.

Temuçin bu vaxt ardıcıl olaraq bütün rəqiblərini sıradan çıxardı. Camuka koalisiyası məğlub edildi. Tatarlar məhv edildi. Toğrul Temuçinə qarşı açıq müharibəyə girdiyindən öz kerlit adamları ilə birlikdə məhv edildi. Nəticədə monqolların qüdrətinin qalxmasından qorxan qərbdəki Nayman hökmdarı Camukanın iştirak etdiyi digər koalisiya yaratmağa cəhd etdi, lakin bütünlüklə məğlub oldu və öz səltənətini itirdi. Son anda sədaqətli olmayan Camuka Nayman xanının yanından qaçdı. Bu kampaniyalar 1206-cı ildən əvvəlki bir neçə ildə baş verdi və Temuçini çölün ağası etdi. Həmin il Onon çayı yaxınlığında böyük məclis toplandı və Temuçin Çingiz xan elan edildi, bu titul güman ki, Kainat hökmdarı mənasını verirdi. Həmin il monqolların tarixində və dünya tarixində dönüş nöqtəsi oldu. Bu elə vaxt idi ki, ilk dəfə olaraq monqollar çöldən kənara hərəkət etməyə hazır idilər. Monqolustan özü bu vaxt yeni ölçü aldı. Xırda tayfa sözləşmələri və reydləri arxada qalmışdı. Tanış tayfa və klan adları istifadədən çıxdı və onları daşıyanlar bütün monqol dünyasına səpələndi, ənənəvi klan və tayfa sisteminin dağılmasının şahidi oldu. Birləşmiş monqol milləti Çingiz xanın şəxsən yaratdığı kimi mövcudluğa daxil oldu. Monqol ambitsiyası çöldən kənara boylanmağa başladı.

Çingiz xan dünyanı işğal etmək kimi özünün böyük macarasına başlamağa hazır idi. Yeni millət hər şeydən əvvəl müharibə üçün təşkil olunmuşdu. Çingiz

xanın qoşunları onluq sistem üzrə bölünmüşdü, sərt intizama tabe idi və yaxşı silahlanmaqla yanaşı, yaxşı ehtiyata malik idi. Generalları isə onun öz oğlanları və ya ona mütləq loyal olan seçilmiş adamlar idi.

Çingiz xanın hərbi dühası özünü tezliklə dəyişən şəraitlərə uyğunlaşdırırdı. Əvvəlcə onun qoşunları müstəsna olaraq süvari dəstələrindən ibarət idi, bu adamlar balaca və dözümlü, otla qidalanan monqol atlarının belində çapırdılar, bu atlara başqa yem tələb olunmurdu. Belə ordu ilə başqa köçərilər məğlub edilə bilərdi, lakin şəhərləri onların gücü ilə götürmək olmazdı. Bir az əvvəl monqollar iri şəhərləri mühasirə etməyi öyrənmişdilər, bunun üçün mancanaqlardan, katapultlardan, nərdivanlardan, yanan yağdan istifadə edirdilər, hətta çayların istiqamətini dəyişirdilər. Bu tədricən daha sivilizasiyalanmış dövlətlərlə kontaktda olmaqla baş verirdi. Çingiz xan başa düşürdü ki, sadəcə yürüş etməkdən, dağıtmaqdan və qarət etməkdən bu, daha düşünülmüş yolla öz qüvvəsini sınaqdan çıxarmaq vasitəsi idi. Nayman xanının naziri ona yazıdan istifadəni öyrətmişdi və monqol dilini yazı üçün sadələşdirməyə kömək etmişdi. Xarəzm müsəlman imperiyasına qarşı müharibədən sonra Çingiz xan müsəlman məsləhətçilərindən "şəhərlərin mahiyyətini və əhəmiyyətini" öyrəndi. Əvvəllər Çin imperatorunun xidmətində olmuş digər bir məsləhətçi isə vergi qoyulan malların istehsalçısı kimi kəndlilərdən və sənətkarlardan istifadəni izah etmişdi. Onun niyyəti isə Çinin şimalındakı becərilən tarlaları öz atları üçün otlaqlıqlara çevirmək idi.

Monqollar böyük işğalların yolu ilə dünya qüvvəsinə çevrildilər. Çin onlar üçün başlıca məqsəd idi. Çingiz xan əvvəlcə öz qərbi flanqını Tanqut səltənəti Hsi Hsiaya qarşı müharibə üçün saxlayırdı, bu Çinin şimali-qərb sərhədindəki dövlət idi, sonra əməliyyatlar bərpa edildi və Pekin işğal edildi. Ardınca Şimali Çinin ardıcıl olaraq tabe edilməsi getdi. Çingiz xanın özü Çindən geri qayıtmağa məcbur edildi və Xarəzmin işğalını həyata keçirdi. Bu müharibə Otrar şəhərinin qubernatorunun fitnəkarlığı ilə baş vermişdi. O, Çingiz xanın himayəsi altında olan müsəlman tacirlərinin karvanını qətlə yetirmişdi. Xarəzm şahı satisfaksiya - məmnunluq vermək barədəki təklifi rədd etdi. Xarəzmlə müharibə tez və ya gec, heç bir şübhəsiz baş verməli idi, lakin bu vaxt o təxirə salına bilməzdi. Bu müharibədə monqollar soyğunçu və terrorçu reputasiyasını qazandı. Birbirinin ardınca şəhərlər dağıdılır, sakinlər qırğına məruz qalır və ya onlar öz xalqına qarşı ön sıralarda vuruşmaqla monqol qoşunlarında xidmət etməyə məcbur edilirdilər. Tarlalar və bağlar viran qoyulurdu, irriqasiya işləri dağıdılırdı, bununla Çingiz xan Xarəzm şah evinə qarşı öz görünməmiş intiqamını belə nümayiş etdirirdi. Nəhayət 1223-cü ildə o, geri çəkildi və Hsi Hsiaya qarşı 1226-1227-ci illərdəki son kampaniyasına qədər öz ordularına başçılıq etmədi. O, 1227-ci ildə öldü.

Çingiz xan mürəkkəb bir şəxsiyyət idi. O, böyük fiziki gücə malik idi, öz niyyətinə çatmaqda inadkar idi və sarsılmaz iradə sahibi idi. O, digərlərinin

məsləhətinə qulaq asırdı, onların siyahısına arvadları və anası daxil idi. O, çevik, güzəştə gedən adam idi, ancaq xırda məsələlərdə aldadıla bilərdi. Toğrul və Camukadan fərqli olaraq o, loyallığın dəyəri düşüncəsinə malik idi. Ondan üz döndərdikdən sonra öz ağalarına qarşı xəyanətin təqsirini gözləmək olardı, lakin həmin zamanda onların xəyanətindən istifadə edirdi. O, dindar adam idi, öz düşüncəsinə görə ilahi missiyanı yerinə yetirirdi, böhran anlarında o, ehtiramla Əbədi Mavi Göyə - monqolların ali tanrısına sitayiş edirdi. İlk dövrlərdə o, qırğından və qarətdən bilavasitə əldə olunanlardan o tərəfi görmürdü. Bəzi hallarda isə o, qisas üçün alışıb yanırdı.

Mütəşəkkillik, intizam, səfərbərlik onun hərbi uğurlarının təməl amilləri idi. Məğlub edilmiş əhalilərin qırğını, müqavimət göstərənlərə tətbiq edilən terror onun müntəzəm olaraq istifadə etdiyi silah idi. O, şəhərlərdən təslim olmağı tələb edirdi, tabe olmayanların qırğınını təşkil edirdi. O, sürətli terrorla müqaviməti yatırtmaq siyasəti yeridirdi. Monqol təcrübəsi standartı xüsusən Xarəzmə qarşı müharibədə meydana çıxdı. Düşmən şəhərinə agentlər göndərildi ki, qarnizonu və əhalini demoralizə etsin və parçalasın, bu agentlər hədə-qorxunu vədlərə qarışdırırdılar. Monqolların döyüşkənliyi reputasiyası onların işğal etdiklərini iflic vəziyyətinə salırdı, onlar müqavimət göstərmək və ya vuruşmaq mümkün olmadıqda, özlərinin öldürülməsi ilə razılaşırdılar. İstehkamlanmış şəhərlərdə psixoloji təsir həlledici rol oynamırdı, baxmayaraq ki, bu bəzi bədbəxt mühasirə olunanları xilas edirdi. Bir çox şəhərlər müqavimət göstərirdi, bəziləri hətta altı ay ərzində yalnız öz qüvvələrinə bel bağlamaqla və ya monqol təbliğatına inanmamaqla hücum edənlərin qarşısında davam gətirə bilirdilər. Həqiqətən də monqollar qəribə idilər. Müqavimət müəyyən məhv etməyə gətirib çıxarırdı, Balxda isə şəhərin tez təslim olmasına baxmayaraq, taktiki səbəblər üzündən əhalinin qırğını həyata keçirildi.

Çingiz xanın nailiyyətləri nəhəng miqyaslı idi. O, bütün köçəri tayfaları birləşdirdi və onun aşağı səviyyəli qoşunları böyük imperiyaları məğlub etdi. Onların içərisində Xarəzm və daha qüvvətli Çin dövləti var idi. Həm də o, öz xalqını taqətdən salmırdı. O, özünə varis kimi oğlu Udegeyi seçdi və əmin oldu ki, onun digər oğlanları ona qulaq asacaqlar. O, öz varisinə ordunu və tam qüdrətində olan dövləti vermişdi. O, ölənədək Pekindən Xəzər dənizinə qədər olan əraziləri işğal etmişdi, onun generalları isə Persiya və Rusiyaya yürüşlər etmişdilər. Onun varisləri öz hakimiyyətlərini bütün Çin, Persiya üzərinə, Rusiyanın əksər hissəsinə genişləndirdilər. Bu istila edilmiş ərazilərdən sıx təşkil olunmuş imperiya yaratdılar. Monqol imperiyası orta əsrlərin və yeni dövrün ən böyük qitə imperiyası oldu.

Güman ki, türklər də yeni yaranan Monqol imperiyasının tərkibinə daxil oldu. Çingiz xanın təcavüzkar siyasəti öncə Çinə istiqamətlənmişdi. Onun qərb kampaniyaları qaçqın Nayman hökmdarı Küçlüçün monqol qüvvələri üzərinə düşünülməmiş hücumu nəticəsində tam təsadüfən edilən hərəkət idi. Onlar

Xarəzm şahı II Məhəmmədi dəstəkləyirdilər, o, isə ticarət əlaqələri qurmağa çalışan monqol elçilərinin edam edilməsi əmrini vermişdi. Bunun nəticəsi kimi Xarəzmin, Xorasanın və Əfqanıstanın çox sayda çiçəklənən şəhərləri dağıdılmışdı. 1223-cü ildə isə monqol orduları Qafqaza keçmişdi. Rus-qıpcaq qüvvələrinin həmin il məğlub edilməsinə baxmayaraq, monqollar 1236-1237-ci illərin qışına qədər Şərqi Avropaya əsaslı qaydada soxula bilməmişdilər. Bir neçə il sonra, 1240-cı ildə Kiyevin tutulmasından sonra monqollar Macarıstandan Cənubi və Mərkəzi Rusiyaya geri çəkildilər. Batının hökmranlıq etdiyi Şərqi Avropanın monqolları Qızıl Orda adlanan ərazidə regionun başlıca amilinə çevrildilər və Rusiya dövlətlərinin inkişafına həlledici təsir göstərdilər.

Qərb kampaniyaları ilə eyni vaxtda Çingiz xanın varisi olan Udegey (1229-1241-ci illərdə hökmranlıq etmişdir) Çinə monqol təzyiqini artırdı. 1231-ci ildə Koreya işğal edildi, üç il sonra isə Çin sülaləsi monqol hücumlarına təslim oldu. Çində 1279-1368-ci illərdə mövcud olan monqol Yuan sülaləsinin qurulması böyük xan Xubilay tərəfindən başa çatdırıldı.

Batının vəfatından sonra 1251-1259-cu illərdə hökmranlıq edən böyük xan Munke qardaşı Xubilayı Çini işğal etməyə göndərəndə, qardaşlarından digəri olan Hulakuya İranda monqol hakimiyyətini möhkəmləndirmək işini etibar etdi. 1258-ci ildə Hulaku Bağdadı işğal edərək Abbasilər xilafətinin mövcudluğuna son qoydu. O, İranda Monqol dövlətinin əsasını qoydu. İlxanlar adlanan bu sülalənin hökmranlığı altında İran qüdrətli və yüksək dərəcədə sivilizasiyalanmış dövlətə çevrildi. Persiya ilxanları praktiki olaraq müstəqil olmalarına baxmayaraq, Munkeyə və Xubilaya loyallıqlarını saxlayırdılar. Monqolustanda o vaxta qədər kökünü saxlayan axırıncı böyük xan Xubilay öldükdən sonra Persiya xanları tam müstəqilliyə doğru irəliləyərək xeyli gücləndilər. 1295-1304-cü illərdə hökmranlıq edən Qazan qətiyyətli şəkildə islamı dövlət dini etdi, bu jest öz təbəələrinin əksəriyyətinin etimadını qazanmaq məqsədini güdürdü. Bununla da monqollara əks olan təmiz iranlıların inteqrasiyasına doğru böyük addım atıldı. İlxanlarla Misir məmlyükləri arasındakı uzun sürən münaqişə 1323-cü ildə axırıncı ilxan Əbu Səidin bağladığı sülhlə başa çatdı. Əbu Səidin ölümündən bir az sonra İlxanlar dövləti parçalandı.

İrandakı və Çindəki monqol dövlətləri öz talelərini "başlıca" sivilizasiyalara bağlamaqla tədricən özünəməxsusluqlarını itirdilər. Lakin Daxili Asiya çöllərində Çingiz xanın oğlanları Caqatayın və Udegeyin törəmələri köhnə dəbdəki, çölə istiqamətlənmiş siyasəti qoruyub saxlayırdılar. Çingizin ən kiçik oğlu Toluinin törəmələri tərəfindən Çində və İranda təmsil olunan "mütərəqqi" qanada qarşı artan qaydada əks çıxırdılar. Munkenin ölümündən sonra çölün namizədi Ariqbögə ali hakimiyyətə yiyələnmək cəhdində Xubilaya uduzdu. Monqol hakimiyyətinin mərkəzini çöldə qurmaq sahəsindəki sonrakı cəhdlər də uğursuz oldu. Bu siyasətin uğurlu baş qəhrəmanı Udegeyin nəvəsi Kaydu oldu. O, digər monqol hökmranlarının idarə etdiyi əraziləri kəsib özü üçün imperiya yaratma-

ğa çalışdı, öz nəzarətini bütün Transoksaniyaya, İl regionuna, Çin Türküstanına genişləndirdi və 1269-cu ildə hətta böyük xan tituluna yiyələndi. Caqataid xanları müəyyən ölçüdə bu siyasətin qurbanları oldu, onlar Kaydunu dəstəkləməkdən yaxşı alternativə malik olmadılar və onun ölümündən sonra Caqatay xanı Duva İran və Çindəki öz monqol qohumları ilə sülh bağlamağa tələsdi.

Qızıl Ordanın daxilində inkişaf çətin yollarla gedirdi. Batının varisi Börkenin (1257-1267-ci illərdə hökmranlıq etmişdir) dövründə islamlaşmanın başlaması ilxanlarla münasibətin gərginləşməsinə gətirib çıxardı, lakin Misir məmlyükləri ilə möhkəm birləşmə yaratdı, bu məmlyüklərin özü qıpçaq mənşəli idi. 1313-1341-ci illərdə hökmranlıq edən Əbdallah xan Özbəkin başçılığı altında inkişaf edən Qızıl Orda parçalanan İlxan dövlətinə tam əkslik kimi görünürdü, lakin onun özünün də həm daxili, həm də xarici problemləri var idi. Müsəlman monqollardan, əslində isə əsasən türk dilində danışanlardan ibarət olan qrupla, idarə edən sinfin digər qrupu olan yerli xristian ruslar arasında olan qaçılmaz antoqonizm idarə edən sinfin içərisindəki narazılıqlar hesabına böyüyürdü. Xarici siyasətdə isə ilxanlarla məmlyüklər arasında 1323-cü ildə bağlanan sülh Qızıl Ordanın Misirdəki təsirini zəiflətdi və Dardaneldə Osmanlı hakimiyyətinin 1354-cü ildə qurulması faktiki olaraq Volqa və Nil vadiləri arasındakı kommersiya əlaqələrinə son qoydu. Qızıl Orda hökmdarlarının ən ciddi siyasi səhvi güman ki, ondan ibarət idi ki, ruslar vasitəsilə yaxşı əlaqələri olan Qərbin onlara inkişaf üçün daha münbit mühit təklifini qəbul etməmişdi. Qızıl Ordanın xanları Rusiya və Litva hökmdarları əvəzinə daxili mübarizədəki alacaqları köməyə bel bağlayırdılar və bu dövləti parçalanmağa aparırdı. Onlar nəzərlərini cənuba tərəf dikəndə arxalarında özlərinin təhlükəli düşmənlərinin - rusiyalıların və litvalıların qalxmasına imkan verdilər.

Toxtamış xanın (1377-1395-ci illərdə hökmranlıq etmişdir) siyasəti öz əleyhdarlarınınkından fərqlənirdi. O, öz hakimiyyətini, Qızıl Ordanı Qərbi Sibirdə və Sır-dəryanın aşağılarında yerləşən Ağ orda adlananlarla birləşdirmək əsasında böyütdü. Bununla o, Qızıl Orda hərbi maşınına təzə "çöl qüvvəsi" daxil etdi. Daha sonra o, az sayda Şərqi Avropa hökmdarlarında kömək axtarmaq əvəzinə o, öz ümidini Teymurun ulduzunun yüksəlməsinə bağladı, axı onun köməyi ilə Toxtamış Rusiyada monqol ağalığını yenidən əldə etmişdi.

# FƏSİL 2
# TEYMUR VƏ ONUN İŞĞALLARI

Türk dillilərin həm də Çingiz xan imperiyasını bərpa etməyə iddia etməsi ilə 14-cü əsrin ikinci yarısında Mərkəzi Asiyanı xarakterizə edən ümumi anarxiya şəraitindən Teymur meydana gəldi. Teymur marionet imperatorları taxt-tacdan saldı və ya özünü onların naminə hərəkət edən kimi göstərirdi. Onun bütün həyatı kampaniyalarda keçdi, o, öz keçmiş protejesi Toxtamışı məğlub etdi, Dehli sultanlığına qarşı və Anatoliyada vuruşdu. Onun 1402-ci ildə Osmanlı sultanı I Bayezid üzərindəki qələbəsi Bizansa və Şərqi Avropaya çox lazım olan fasilə bəxş etdi, çünki bu vaxt osmanlılar onlara ciddi təhlükə törədirdilər.

İslam dininə sitayiş edən türk fatehi Teymurun köçəri ordaları Çindən Aralıq dənizinə qədər olan əraziləri qarət etmişdi. Teymur başlıca olaraq öz işğallarının barbarlığına və onun sülaləsinin mədəniyyət sahəsindəki nailiyyətlərinə görə xatırlanır. Teymur 1336-cı ildə Səmərqəndlə Hinduquş arasında Barlas tayfasına məxsus olan türk ailəsində anadan olmuşdu. O, heç də imperial monqol mənşəyinə mənsub deyildi. Əvvəlcə o, kiçik köçəri dəstəsinə başçılıq edib Transoksaniyada öz ağalığını qurdu, bu 1360-cı illərdə baş verdi. Sonrakı üç onillikdə o, süvari oxatanlarının köməyi ilə Monqolustandan Aralıq dənizinə qədər olan hər bir ölkəni özünə tabe etdi. Köçəri döyüşçü sahiblərinin lideri kimi o, Mərkəzi Asiyanın ən qüdrətli fatehlərindən belə hərbi uğurlara nail olmuş axırıncısı idi. O, imperiya miqyasında əkinçi və çoban xalqlarına hökmranlıq edirdi. Onun kampaniyalarının əmələ gətirdiyi yoxsulluq və bədbəxtliklər onun haqqında çoxlu əfsanələrin yaranmasına səbəb olmuşdu. O, Osmanlı sultanı Bayezidi məğlub etməklə onun Avropadakı ağalığının genişlənməsinin qarşısını aldı, Bizansın ölüm aqoniyasını yarım əsrə qədərləngitdi. Teymur Moskva knyazlığına da monqol fatehi Çingiz xanın törəmələri olan Qızıl Ordaya hücum etməklə böyük təsir göstərdi. Bu vaxt Qızıl Ordanın torpaqları Sibirdən Qafqaza qədər uzanırdı.

Onun Teymurləng adını axsadığına görə persiyalı düşmənləri nifrət şəklində işlədirdilər, buradan da Avropadakı Tamerlan adı meydana gəlmişdi. O, Mərkəzi Asiyada kök salmış siyasi, iqtisadi və mədəni irsin varisi idi. Onun köçəri kökü Çingiz xanın hərb sənətində və intizamında tərbiyə olunmuşdu, onlar süvari döyüşçü kimi oturaq kəndlilərə nifrətlə yanaşırdılar. O, öz kampaniyalarına, fraksiya mübarizəsi nəticəsində böyük xanlar imperiyasının qalıqları zəifləyən vaxt başlamışdı. Lakin iqlimin dəyişməsi Mərkəzi Asiyanın səhra zonalarına yağış gətirmişdi, bu mal-qaranı yaxşı otlaqlarla təmin edirdi, vadilər kar-

van ticarətinə xidmət edirdi və çiçəklənən köçəri cəmiyyətlərinə əsas yaradırdı.

Teymurun heç vaxt daimi yaşayış yeri olmurdu. O, at belində ardıcıl olaraq öz döyüşən qüvvələrinə başçılıq edirdi, səhranın istisinin və taqətdən salan soyuğun ekstremal şəraitlərinə dözürdü. O, yürüş keçirməyəndə öz ordusu ilə mövsüm və otarılma xüsusiyyətləri nəzərə alınan yerlərə gedirdi. Onun sarayı özü ilə birgə səyahət edirdi, bura onun doqquz arvadından və kənizlərindən biri və ya bir neçəsi daxil idi. O, çalışırdı ki, öz paytaxtı Səmərqəndi Asiyadakı ən möhtəşəm şəhərə çevirsin, lakin özü burada bir neçə günlüyə qaldıqdan sonra şəhərdən kənardakı düzənliyə üzünü tuturdu.

1404-cü ildə o, öz qələbəsini bayram etmək və ən böyük kampaniyasına hazırlaşmaq üçün Transoksaniyaya qayıtdı və Çindəki Min sülaləsinə qarşı müharibəyə başladı. O, çölün bütün qüvvələrini və bütün qənimətlərini topladı. Burada Pəncab və Dehli sultanlığı düzənliklərindən gələn fil və sərvət karvanları, Volqa regionundan və Çöldən yığılmış qənimətlər, qızıl, dəvəquşu və zürafə şəklində Misirdən gətirilmiş bac, Bizansdan olan florin sikkələri, Kastiliyadan şpalerlər, dəməşqli usta sənətkar, Bağdaddan olan alim, Anatoliyadan olan türk əsirləri, Aralıq dənizi bazarlarından və Çindən olan tacirlər var idi. Böyük ərazilərdəki şəhərlər bu vaxt xaraba qoyulurdu, bütöv regionlar xarabazara çevrilirdi. Teymurun döyüşçüləri öz qurbanlarının kəllələrindən qüllələr qururdular. Bir il sonra o, nəhəng ekspedisiya ilə Çini işğal etməyə cəhd edəndə, öz eyş-işrətlərindəki əylənmələrindən hələ də əziyyət çəkirdi. 1405-ci ildə o, Çimkent yaxınlığında izafi sərxoşluğun yaratdığı qızdırmadan öldü.

Teymur savadsız olsa da, cahil deyildi, onun fiziki gücü zehni qabiliyyəti ilə yarışa girə bilərdi. O, alimlərin məclisində olmaqdan və şahmat oyunundan həzz alırdı. Tarixin islam məsələləri, dini doqmatlar və praktiki elmlər barədə aparıcı alimlərlə mübahisə edə bilirdi. O, Çingiz xan tərəfindən inkişaf etdirilmiş hərbi bacarığın bütün ustalarından yuxarıda dayanırdı, həmin dövrün hər bir hərbi və diplomatik silahından istifadə edirdi. O, düşməninin siyasi, iqtisadi və ya hərbi zəifliyindən istifadə imkanını heç vaxt əldən buraxmırdı. İntriqadan, xəyanətdən və ittifaqlardan öz niyyətinə xidmət göstərmək üçün istifadə edirdi. Vuruş başlamamışdan əvvəl o, agentləri vasitəsilə düşmənin cərgələri arasında öz qələbəsinin toxumunu səpirdi. O, qonşu və uzaq hakimiyyətlərlə saxta danışıqlar aparırdı. Bu barədə İngiltərədən Çinə qədər olan diplomatik arxivlər məlumat verir. Döyüşdə hücum vaxtı sürətli hərəkət və düşməni heyrətləndirmək onun başlıca silahı idi, lakin bu şahmat oynayan köçəri nə vaxt geri çəkilmək və gözləmək lazım olduğunu bilirdi. O, döyüşdə qüvvələri elə yerləşdirirdi ki, hücum xəttini və hədəfi şərait ona daha yaxşı alternativ təklif et-

dikdə dəyişdirə bilsin. Bəzi tarixçilər Teymurun kampaniyalarını coğrafi birləşmənin olmamasına görə tənqid edirlər, lakin bu cəhət çevik köçəri taktikalarına aid olmayan bir şey idi. İslamın dinsizlərə qarşı müharibə başlamaq tələbi Mərkəzi Asiyadakı öz səltənətinin ehtiyacları və köçəri ağaların doymayan iştahı Teymurun uğurlu təcavüzkar kampaniyalarının zəruri elementi kimi onlara haqq qazandırırdı.

Onun yaşayan xatirələri Səmərqənddəki Teymurdan qalmış abidələrdir, onlar firuzə, qızıl və gəc mozaikalarından ibarət olan ajurla örtülmüşdür. Səmərqəndi bu vaxt tikilmiş böyük kafedral məscid bəzəyir. Onun mavzoleyi olan Qur-Əmir islam memarlığının incilərindən biridir. Bu sərdabədə onun qəbrinin yanında bir neçə törəməsi dəfn edilmişdir.

Çin ekspedisiyası parçalandıqdan sonra onun oğulları və nəvələri varislik uğrunda vuruşdular, Teymurun sülaləsi belə qorxulu mübarizəyə baxmayaraq, bir əsr davam etdi. Səmərqənd təhsil və elm mərkəzinə çevrildi. Onun nəvəsi Uluqbəy burada rəsədxana yaratdı və onun tərtib etdiyi astronomik cədvəllərdən ingilis saray astronomu sonralar 17-ci əsrdə istifadə etmişdi. 15-ci əsrin Timuridlər intibahı dövründə Səmərqəndin cənubi-şərqindəki Herat parlaq Persiya miniatür məktəbinin vətəninə çevrildi. 16-cı əsrin başlanğıcında Mərkəzi Asiyada sülalənin hökmranlığı başa çatanda onun törəməsi olan Babur Kabildə öz hökmranlığını qurdu və sonra Dehlini işğal edib Böyük Moğollar adlanan hind imperatorlarının müsəlman qolunun əsasını qoydu.

Teymurun ölümü ilə Daxili Asiyanın demək olar ki, iki əsr davam edən kainat imperiyası olmasa da, nəhəng imperiya yaratmaq cəhdi ilə xarakterizə olunan bir eraya son qoyuldu. Həm də, 14-cü əsrin sonundan etibarən Monqol imperiyasının parçalanması demək olar ki, başa çatdı. 1335-ci ildə İlxanilərin, 1368-ci ildə isə Yuan imperiyasının süqutundan sonra Çingiz xanın irsindən yalnız Qızıl Orda sağ qaldı. Daxili mübarizələrlə özünü dağıdan Qızıl Orda 1430-cu illərdə parçalandı, onun yerini Kazan, Astraxan və Krım varis xanlıqları tutdu.

Çox millətli və çox dilli dövlət olan Kazan xanlığı qısa müddətli ömür sürdü. Onun hökmranlarının etdiklərindən ən yaxşısı Krım və Moskvanın təzyiqlərinə baxmayaraq, öz müstəqilliklərinin qorunub saxlanması idi. 1521-ci ildə Krımın Girey sülaləsi öz üzvlərindən biri olan Sahib Gireyin Kazanda taclanmasına nail oldular.

Rusiya çarı IV İvan Qroznı Mərkəzi Rusiyada tatar-monqol hökmranlığına son qoymaq vaxtının gəlib çıxdığı barədə düşünürdü. 1552-ci ildə o, Kazanı işğal etdi və yalnız dörd il sonra Astraxan üzərində öz hökmranlığını qurdu, bununla da Xəzər dənizinə su yolu əldə etdi. Gireylərin hökmranlığı altında Krım

xanlığı 1783-cü ilə qədər mövcud oldu, həmin il Rusiya tərəfindən absorbsiya edildi. Moskva 1681-ci ilə qədər tatarlara illik bac verməkdə davam edirdi.

15-ci əsrdə İranla Daxili Asiya arasında sülh hökm sürdü. Teymurun oğlu Şahruh Mirzə (1407-1447-ci illərdə hökmranlıq etmişdir) Heratda, Şahruhun oğlu Uluqbəy isə Səmərqənddə sivilizasiya mərkəzləri qurdular və bu ən azı Hüseyn Baykaranın (1469-1506-cı illərdə hökmranlıq etmişdir) Heratdakı dövrünün sonuna qədər çiçəklənməkdə davam etdi. Timuridlər oturaq həyata keçdilər. İranı barbarlardan müdafiə edən təbəqəni əmələ gətirdilər. Özbəklər Məhəmməd Şaybani tərəfindən birləşdirildilər. Məhəmməd 1510-cu ildə döyüşdə öldürüldü, lakin onun törəmələri əsrin sonuna qədər Transoksaniyanın sıxılmasını davam etdirirdilər. Onlar Persiya səfəvilərinin və ya Osmanlı güclü oturaq dövlətlərinə elə bir ciddi təhlükə törətmirdilər. Bu dövlətlərin hər ikisi çöldən olan hücumları dəf etməyə qadir idi. Digər tərəfdən osmanlılar və səfəvilər bir-birinə qarşı da pis əkslikdə idilər və 1514-cü ildəki Çaldıran döyüşündə səfəvilər darmadağın edildi. Odlu silahdan istifadə edən osmanlılar həlledici qələbə çaldılar. Daxili Asiya səhnəsinin bir qolunda əsrin sifətsiz baş qəhrəmanı olan tüfəng meydana çıxdı.

# X HİSSƏ. QƏDİM KOREYA DÖVLƏTLƏRİNİN İNKİŞAFI

## FƏSİL 1
## YARIMADADAKI GƏDİM DÖVLƏTLƏRİN FORMALAŞMASI

Bürünc dövründə Koreya xalqı təpəlik ərazilərdə yaşayırdı, yeraltı yaşayış yerləri tədricən yerüstü komalarla əvəz olundu. Mancuriyanın cənubunda və Koreya yarımadasında tapılan əşyalar qədim Koreya mədəniyyətinin hədlərini nümayiş etdirir. Bu vaxt çox sayda tayfa dövlətləri yaranmışdı. Ən irəli getmiş dövlət Tedonq çayı hövzəsində qurulmuş qədim Çoson idi. Əsatirə görə Göyün oğlu Huanunq Yerə enmiş və ayıdan dönmüş qızla evlənərək onların Tanqun adlı oğlu olmuşdu və o, Çosonun əsasını qoymuşdu. Bu adı ölkəyə çinlilər qoymuşdu və "səhər sakitliyi ölkəsi" mənasını verirdi. Tanqun tayfa dövlətini idarə edəndə mərasimlər və siyasət hələ bir-birindən ayrılmamışdı. Çoson m.ə. 4-cü əsrdə Tedonq və Liao çayları ərazisindəki tayfaların liqasına çevrildi. Dəmir məmulatlar işlənməyə başlayanda dəmir kotanlardan və oraqlardan istifadə olunurdu, qaramal becərilirdi və məhsul yığılmasının daha səmərəli metodları tətbiq edilirdi. Yer üstündə ağac evlər tikilirdi, döşəmədəki ocaqla qızdırma sistemi meydana gəlmişdi. Atlardan və arabalardan müharibələrdə istifadə edilirdi. M.ə. 194-cü ilə yaxın dövrdə Uiman Çosonun hökmdarı oldu. Uiman Çosonu Çinin Han imperiyası tərəfindən məhv edildi və m.ə. 108-ci ildə onun yerini dörd çin koloniyası tutdu.

Çosondan ayrılıqda Koreya regionunda tayfa dövlətləri fəaliyyət göstərirdi. Bu dövlətlər də üç liqada - Mahan, Çinhan və Pyönhanda birləşmişdi, başqa sözlə mərkəzində aparıcı dövlət olan tayfa federasiyası idi. Bu tayfa liqa dövlətləri Mancuriyadakı Sunqari hövzəsindən Koreya yarımadasının cənubuna qədər olan geniş ərazini tuturdu. Üç rəqabət aparan çarlıq Koquryo, Pekçe və Silla onları əhatə edirdi. Miflərə görə Koquryo m.ə. 37-ci ildə, Pekçe m.ə. 18-ci ildə, Silla isə m.ə. 57-ci ildə yaranmışdı. Onların həqiqi inkişafı isə yüz illər sonra mövcud olmuşdu. Üç çarlıq bir sıra ümumi cəhətlərə malik idi. Onların dövlət quruculuğu bir neçə ekspansiya müharibələrindən keçmişdi. Mərkəzləşmiş hərbi sistemlər təşkil edilmiş, təhsil institutları inkişaf etdirilmişdi. Hər bir ölkədə çarın hakimiyyəti möhkəmləndirilmişdi, çar varisliyi qaydası qurulmuş-

du. Digər ümumi cəhətlərdən biri mərkəzi kübarların, tayfa başçılarının əmələ gəlməsi idi və onlar paytaxta axışırdılar. Bu kübarlar bir neçə sosial sinfə bölünürdülər və müəyyən imtiyazlar əldə etməklə sosial və siyasi cəhətdən irəli çıxırdılar. Silladakı tipik sinif sistemində hökmdarların ailələri adəti qaydada siyasi hakimiyyəti öz inhisarlarına alırdılar. Silla dövlət konfransına malik idi və institut "həqiqi sümükdən" olan adamlardan təşkil edilirdi və mühüm dövlət qərarları qəbul edirdi. Dövlətlərin hamısı hakimiyyətin mərkəzləşməsini həyata keçirirdi. Xalqlar inzibati birliklərə bölünürdü. Onlardan böyükləri bir çox qəsrlərə nəzarət edirdi. Mərkəzi hökumət bu əyalət birliklərinə qulluqçular göndərirdi və onlar burada həmin xalqa çar təbəələri kimi baxırdılar, vergilərin yığılmasını təmin edirdilər. Üç çarlıq yüksək inkişaf etmiş mədəniyyətə malik idi. Dövlətin nüfuzunu yüksəltmək üçün onların hər biri özlərinin tarixini toplayırdı. Buddizmin daxil olması da mühüm əhəmiyyətə malik idi, bu həmin dövrdə millətçi din kimi xarakterizə olunmaqla, dövlətin himayəsi və rifahı barədə dua edirdi.

Çinin dəstəyi ilə 660-cı ildə Silla Pekçeni işğal etməklə özünə tabe etdi, Koquryo isə səkkiz il sonra işğal edildi. 676-cı ildə isə Silla çinliləri qovduqdan sonra Koreya yarımadasında tam nəzarəti ələ keçirdi. Lakin Koquryo xalqının Şimali Mancuriyada canlanması ilə birbaşa Silla ilə düşmənçiliyə keçdi. Bu dövrü cənub və şimal dövlətlərinin bir-birinə qarşı durması dövrü adlandırmaq olar. Lakin koquryoluların yaratdığı dövlət süqut etdikdə, onun ərazisinə şimali köçəri xalqlar nəzarət edirdi və onlar Koreya tarixinə aid deyildilər. Birləşmiş Silla mütləq monarxiya olmaqla inkişaf edən kimi görünürdü. Mərkəzi inzibati orqan Çipsabu adlanmaqla çar dekretlərini icra etmək üçün yaradılmışdı. Kübarlara bu vaxt maaş verilirdi və onlar torpaqla təmin edilirdi, lakin torpaqlar sahiblik vaxtı qurtardıqdan sonra dövlətə qaytarılmalı idi. Bununla da ümumən torpaqlara, həm də kübarlar tərəfindən idarə edilən torpaqlara birbaşa nəzarət azaldılırdı. Monarxlar qeyri-adi saraylar, onlara əlavələr, həmçinin çar qəbirləri tikdirirdilər. Millət inzibati birliklərə bölünmüşdü: dövlət, qraflıq və rayon. Beş əyalət paytaxtı mədəni mərkəzlər kimi inkişaf edirdi. Buddizm avtokratik monarxiya üçün ideoloji dayaq rolunu oynayırdı. Çiçəklənən buddizm ölkəyə çoxlu gözəl məbədlər və böyük incəsənət əsərləri bəxş etdi. Konfutsiçilik isə kübarların aşağı eşolonunda yayılırdı, onlar siyasi irəliləyiş üçün bu dindən istifadə edirdilər. Kukhak adlanan milli məktəb və mülki xidmət üçün imtahan sistemi yaradılmışdı.

8-ci əsrin sonlarında Silla kübarlığı arasında taxt-taca çıxmaq uğrunda dəfələrlə münaqişələr və qiyamlar baş verdi. Aristokratlar çar despotizmini devirdilər. Hətta aşağı dərəcəli aristokratlar ciddi status sistemi tərəfindən qoyulmuş

məhdudiyyətləri ləğv etməyi tələb edirdilər. Bir çox əyalətlərdə mərkəzi nəzarətin zəifləməsi hesabına yeni qüdrətli ailələr meydana gəldi və böyüdü. Çin dəniz quldurlarını dəf etmək üçün ərazi hərbi istehkamları yaradıldı. Həmçinin qüdrətli kənd idarəçiləri qəsr ağalarına çevrildilər və onlar hərbi, inzibati və iqtisadi işlərə nəzarəti gücləndirirdilər. Həm mərkəzi hökumətin, həm də qəsr ağalarının vergi aldıqları kəndlilərin çoxu bəzi hallarda ya qarətçilərə tərəf meyl edir, yaxud da qiyamçılara qoşulurdular. Bu meyllərin ən böyük nəticəsi iki əyalət liderinin meydana gəlməsi oldu, onlar Sonrakı Pekçe və Sonrakı Koquryo dövlətlərini qurdular və onlar ümumi şəkildə sonrakı üç çarlığı əmələ gətirdilər. Bu dövrdə dzen-buddizm çox populyar idi.

918-ci ildə Uanq Kön Koryo dövlətini yaratdı və 936-cı ildə Koreya yarımadasındakı birləşmiş çarlığı qurdu. Uanq Kön devrilmiş dövlətlərin xalqlarını absorbsiya etmək üçün uzun yol keçdi, hətta Parhenin bərpasını qəbul etdi, sonuncu kitanlar (Liao) tərəfindən darmadağın edilmişdi. İftixarla özünü Koquryonun varisi elan edən Koryo itirilmiş əraziləri bərpa etmək üçün aktiv kampaniya başladı və dəfələrlə şimalda kitanlarla münaqişəyə girdi və bu yolla ərazisini xeyli genişləndirdi. Koryonun idarəedici sinfi əsasən ərazi qəsr ağalarından və keçmiş Silla kübarlarından ibarət idi. Hökmranlar öz ailə xəttlərinə yüksək qaydada ehtiram bəsləyirdilər. Sosial və siyasi statusda yüksəlmək üçün qüdrətli ailələrin, xüsusilə çar qanı olan ailələrin qızları ilə evlənmək mühüm əhəmiyyət daşıyırdı. Doqquz rəsmi dərəcədən beşincidən yuxarı olan ailələrin oğulları mülki xidmət imtahanlarını keçmədən rəsmi vəzifələr alırdılar.

Mərkəzi hökumət iki ali orqandan başlamışdı. Bunlardan biri yüksək inzibati orqan olmaqla Samsunq adlanırdı, digəri isə Çunqçuon adlanmaqla çarın katibliyi idi. Onların hər ikisi birlikdə dövlətin Ali Şurasını əmələ gətirirdi. Bununla Koryo kübarlıq şurası - mərkəzləşmiş siyasət tətbiq edilirdi. Mərkəzi kübarlara torpaqlar verilirdi, sonralar onu dövlətə qaytarmalı olurdular. Beşinci dərəcədən yuxarı olan qulluqçulara torpaqlar daimi sahiblik üçün verilirdi. Hətta qaytarılmalı olan torpaqlar da əslində bir neçə nəsil boyu onların əlində qalırdı, çünki bu torpaq verilənlərin oğlanları adətən qulluqçular olurdular. Kübarlar öz torpaqlarını yaxşılaşdırmaq, satın almaq və ya zorakılıqla tutmaq yolu ilə genişləndirirdilər və torpaq sərvətin birinci mənbəyinə çevrilirdi. Kübarlar buddizmə din kimi inanırdılar, ona ruhi icra üçün və şəxsi xoşbəxtlik naminə sitayiş edirdilər. Konfutsianizmə isə onlar siyasi göstərişlərinə və etik prinsiplərinə görə inanırdılar. Hökumət də eyni qaydada hərəkət edirdi, iri buddist məbədi tikdirmişdi ki, millətin çiçəklənməsi naminə duaları və ritualları müşahidə etsin, həm də konfutsianizmi öyrənmək üçün məktəb təsis etmişdi.

Mülki qulluqçular hökmran sinfin özəyini təşkil edirdi, hərbçilərə qarşı

ümumən ayrı-seçkilik mövcud idi. Hərbi işlər üçün ali komandan mülki qulluqçu idi. Hərbi qulluqçular qulluq ierarxiyasının ikinci dərəcəsinə də yaramırdı və Ali Şuradan xaric edilmişdilər. Hətta eyni qulluq dərəcəsində hərbçi adamlar öz mülki rəqibinə nisbətən az torpaq alırdı. Bu ayrı-seçkilik 1170-ci ildəki hərbi dövlət çevrilişinə gətirib çıxardı. İnqilabçılar çox sayda mülki qulluqçuları qırdılar və hökumətə tam nəzarəti öz üzərlərinə götürdülər. Hegemonluq uğrunda mübarizə liderlər arasında da getdi və general Tsoe Tsunq-hön tərəfindən ona son qoyuldu. O, özünün 60 il müddətində davam edən hərbi rejimini qurdu.

Monarx siyasi hakimiyyətdən məhrum edilmiş "marionet" olaraq qalırdı, onun özü rejimin ağasının ailəsinin əlində idi. General öz şəxsi təhlükəsizliyi üçün özəl ordu, xalqın təhlükəsizliyi üçün isə yeni ictimai hərbi təşkilat yaratdı. Lakin sonuncu da onun özəl ordusu kimi xidmət göstərirdi. Onlar həmçinin dövlətin inzibatçılığına qayğı göstərmək üçün mülki qulluq orqanı yaratdılar, bununla həm hərbi, həm də mülki liderlərə nəzarət edilirdi. Buddizmə təzyiq göstərildiyindən bu din dağlıq ərazilərə uzaqlaşdı, orada Çoq-yonq adlanan Sön sektası yaratdı, bu Koreya buddizminin başlıca cərəyanına çevrildi. Aşağı imtiyazlı fermerlər ümumi siyasi atmosferin təhriki ilə təbəələrin öz ağalarına qarşı qalxdıqları kimi ölkədə 30 il müddətində üsyanlar qaldırırdılar. Bu yerdəyişmə təbii olmaqla yanaşı, haqsız istismara qarşı qəflətən qalxan etirazlar idi və onlar azadlıq naminə və hakimiyyəti ələ keçirmək üçün mütəşəkkil kampaniyalara yüksəlirdi. Bir qayda olaraq qiyamlar sakitləşdirmək yolu ilə və çılpaq güc tətbiq etməklə yatırılırdı. Bununla yanaşı qiyamlar aşağı imtiyazlı adamların vəziyyətlərinin bəzi cəhətlərinin yaxşılaşması aləti rolunu oynayırdı. 1231-ci ildə monqollar Koryoya müdaxilə etdilər.

# XI HİSSƏ. YAPONİYA:

## FƏSİL 1
## YAPONİYA YAMATO DÖVLƏTİNDƏN SYOQUNATA QƏDƏR OLAN DÖVR

Yomon mədəniyyəti hər yerdə inkişaf edən vaxt dörd yapon adasından ən cənubda yerləşən Kyusyuda yeni Yayon mədəniyyəti qalxmağa başladı və tədricən şərqə doğru yayıldı. Yaponiyanın şimalındakı Honsyu adasına çatanda Yomon mədəniyyəti üstələdi. Bu ad 19-cu əsrdə arxeoloji qazıntı vaxtı alimlərin diqqətini cəlb edən yeni tip dulusçuluq nümunəsinin tapıldığı Tokio dairəsindəki yerin adından götürülmüşdür. Bu keramika yüksək hərarətdə bişirilməsi ilə fərqlənirdi və praktiki istifadə üçün istifadə edilirdi. Yomon dövründən mədəni cəhətdən xeyli irəliləyişi təmsil etməklə Yayon mədəniyyəti 5-6 əsr müddətində ömür sürdü, m.ə. 3-2-ci əsrlərə qədər gəlib çatdı. Bu həmin dövr idi ki, Çində Tsin və Han sülalələrinin başçılığı altında birləşmiş imperiya meydana gəlmişdi və ölkə artıq Dəmir dövrünə qədəm qoymuşdu. M.ə. 108-ci ildə Han U Ti Koreya yarımadasını işğal etmiş və burada dörd koloniya salmışdı. Onlar çin mədəniyyətinin Koreyaya güclü müdaxiləsinin əsasını təşkil etdilər. Buradan da Yaponiyaya yayıldılar. Buradakı dəmir və bir qədər sonra tunc alətlər Han mədəniyyətindən əxz edilmişdi.

Rütubətli iqlimdə düyü istehsalı da, güman ki, Cənubi Çindən götürülmüşdü. Bu sahə yapon mədəniyyətinin ən mühüm xüsusiyyətlərindən biri idi. Düyü tarlalarına yaxın olan yaşayış yerlərində irriqasiya kanalları bəndlərlə və yeraltı drenajla təmin edilirdi. Sulu tarlalarda işləmək texnikası xeyli irəli getmişdi. Bu dövrün məskunları sulu torpağın irriqasiyasını təmin etmək üçün yerin səthindən aşağı olan alluvial torpaqlarda özlərinə ev tikirdilər, lakin digər hallarda onlar yaşamaq üçün təpələri və ya hündür yerləri seçirdilər. Burada müdafiə ehtiyacının diqtəsini və ya dəmyə bitkilərin becərilməsi zərurətinin rol oynadığını müəyyən etmək çətindir. Yomon dövründə iki cür: qazılmış çala tipi və yer səthində olan yaşayış məskəni tikilirdi. Yuxarı qaldırılmış döşəməsi olan tikililər isə taxılı saxlamağa xidmət edirdi. Adamlar bitki lifindən primitiv dəzgahlarda toxunmuş parçadan paltar geyinirdilər. Ölülər iri gil quyularda və ya ağır daş tabutlarda dəfn olunurdu. Bunu yəqin ki, yaponlar Koreyadan götürmüşdülər.

Yeni mədəni elementlər adamların Yaponiyaya Koreyadan və ya Çindən miqrasiyasını nəzərdə tutmağa gümanlar yaradır. Çin xronikalarında Yaponiya ilk dəfə Uo adı altında meydana çıxır, yapon dilində bu Ua kimi tələffüz olunur.

Han tarixçiləri güman edirdilər ki, Lo-lanqdan uzaqda dənizdən o tərəfdə Uo adamları yaşayır, onlar yüzdən artıq dövlətə bölünmüşlər və qoyulmuş müddətlərdə bac gətirirlər. Lo-lanq isə Koreya yarımadasında m.ə. 108-ci ildə salınmış iki Han koloniyasından biri idi və onun arxasında yerləşən Uo ölkəsi, heç şübhəsiz, Yaponiya idi. B.e. 57-ci ilində "Uodanı Nu dövləti" öz elçilərini sonrakı Han sarayına göndərdilər və imperator onlara qızıl möhür verdi. Bu dövlət Kyusyu adasında yerləşməklə Uonun bölündüyü yüzdən çox dövlətdən biri idi. B.e. 2-ci əsrində isə Uo dövlətində baş verən vətəndaş müharibəsi onunla nəticələndi ki, Pimiko adlanan qadın özünün dini hakimiyyətindən istifadə edərək ərazini sakitləşdirdi və 30-dan artıq dövlət birləşib yeni dövlət yaratdı. Bu hadisə Çindəki Uey sülaləsi ilə əlaqə yaranmasına yol açdı. Bu vaxt Yaponiya artıq siyasi birliyin mühüm dərəcəsinə çatmışdı.

Çin və Koreya məlumatlarının hesabına Yaponiyanın ilk dəfə birləşməyə nail olması və mərkəzində *Tenno* - "Göyün imperatoru" olmaqla Yamato sarayının meydana gəlməsinin tarixi barədə müəyyən qənaətə gəlmək olur. Bu birləşmə ən azı 4-cü əsrin ortalarında baş vermişdi. Birləşmə dövründə Yaponiya artıq müstəsna dərəcədə qüdrətli millət kimi görünürdü. Bu xalq Koreyadan ağalıq edən Koquryonu tutmuşdu və Koreyanın cənubunda öz qüvvələri üçün baza yaratmışdı. Koreyanın cənubunun qərbində olan dost dövlət Yaponiyaya bac verirdi, yarımadanın cənubu isə müstəsna olaraq yaponların yurisdiksiyasında idi. Toxucular, dəmirçilər və irriqasiya mütəxəssisləri bu ərazilərdən Yaponiyaya miqrasiya edirdi və elə bu vaxt çin heroqlif yazısı Yaponiyaya daxil oldu. Elə bu yazılarda konfutsiçi alimlərin əsərləri də buraya gəlib çıxdı.

Yamato sarayı öz zirvəsinə 5-ci əsrin əvvəlində çıxdı və sürətlə tənəzzülə uğradı. Başlıca səbəb o idi ki, Koreya yarımadasındakı dövlətlər beynəlxalq əlaqələrin dəyişməsinin nəticəsi kimi Yaponiyadan uzaqlaşdılar və artıq onlardan alınan baca göz dikmək də düzgün deyildi. Həm də Yaponiya Koreya çarlıqlarını özünə tabe etməyə nail olanda Çin sarayından əxz edilmiş hakimiyyət ideyasına inanırdı. 421-ci ildən başlayaraq Yaponiya Lui-Sun sülaləsinə elçilər göndərdi ki, Koreya dövlətləri üzərində hərbi nəzarəti həyata keçirmək üçün öz imperatoruna generalissimus titulu verilməsi barədə xahiş etsin. Bu elçi göndərilməsi sonrakı sülalə vaxtında da davam etdi. Bu cəhdlər yapon hərbi gücünün tənəzzül etdiyini göstərirdi. Ölkənin xaricdəki çətinliklərinin üzərinə daxili işlərdəki qaydasızlıqlar da əlavə olunurdu. Yamato sarayına vərəsəliklə keçən imperatorlar başçılıq edirdi. Sarayın üzvləri isə güclü klan liderləri ailələri qrupundan götürülürdü. Onlar başlanğıcda imperatorun vassalları olurdular, digər qüdrətli ailələr qrupu isə milli birləşmə prosesi ərzində sədaqət andı içirdilər. Hökumətin yüksək vəzifələrini hər iki qrupun başçıları və nümayəndələri tuturdular. Lakin bəzi vaxtlarda həmin ailələrin bir sıra üzvləri imperatora sədaqətə soyuq yanaşmağa, hətta Koreya dövlətləri ilə birlikdə qəsd hazırlamağa başlayırdılar. Üstəlik imperial ailənin özündə taxt-taca çıxmaq uğrunda arası

kəsilməyən mübarizə gedirdi. Bunun nəticəsi kimi Koreyadakı Yaponiyanın tutduğu torpaq olan Mimana, Silla çarlığı tərəfindən 562-ci ildə işğal olundu və Yaponiya yarımadadakı belə güclü dayaq nöqtəsindən məhrum oldu. 6-cı əsrin sonundan isə Yaponiya həm xarici, həm də daxili işlərdə ən aşağı səviyyəyə gəlib çatdı.

Yamato sarayının tənəzzül etdiyi illər ərzində ancaq çox böyük mədəni əhəmiyyətə malik olan bir hadisə baş verdi - Koreyanın Pekçe çarlığından buraya buddizm daxil oldu. Bu altıncı əsrin ortalarına təsadüf edir. Lakin buddist inamı adi yaponlar arasında bundan xeyli əvvəl yayılmağa başlamışdı. Buddizm ilk dövrlərdə təəccüb və məftunluq obyekti idi, əcnəbi mədəniyyət həm də gözəl heykəlləri və möhtəşəm məbədləri ilə rəmzlənmişdi.

6-cı əsrin sonuna yaxın Yamato sarayı süqut etdi. Yeni eraya daha çox yarayan mərkəzləşdirilmiş dövlətin yaranmasına daha böyük ehtiyac hiss olunurdu. Bu məqsədlə yaranan hərəkat ideal hökumət nəzəriyyəsinin öyrənilməsinə xidmət edirdi. Onun müddəalarını imperatriça xalasına regentlik edən prints Şotoku izah edirdi və o, belə çətin dövrdə millətin məsuliyyətini öz üzərinə götürmüşdü. Prints Şotoku sülh və bütün canlılar üçün xilas barədəki buddizm ruhunu öz hökumətinin ideal dayaqları kimi görürdü. O, hətta əvvəlki imperatorun məlum olan qatilinin ittiham edilməsi sahəsində heç bir tədbir görmədi, lakin çalışırdı ki, tədricən qatil özü məhz buddizm ideyaları vasitəsilə səhv iş gördüyünə inansın.

603-cü ildə prints 12 saray dərəcəsi sistemini və bir il sonra isə "Konstitusiyanın 17 maddəsini" yaratdı və bu onun daxili hökumət işləri sahəsində ən təəccüblü nailiyyəti oldu. Saray dərəcələrinə görə burada işləyən adamların münasibətləri daha aydın olurdu və onların hər biri ayrı rəngdə papaq geyinirdi. Bununla o, həm də adamlardan öz qabiliyyətinə görə daha səmərəli istifadə etmək, saraya həqiqi mütəşəkkillik vermək və oranın etiketini qaydaya qoymaq məqsədini güdürdü. Konstitusiyanın əhatə etdiyi 17 sadə maddə insani davranış üçün dövlət və hökmdarlar ideallarını ön sıraya çəkirdi. Bu sənəd dövləti əmələ gətirən üç insan elementi kimi hökmdarı, onun nazirlərini və xalqı fərqləndirirdi və onların hər birinin vəzifələrini və hüquqlarını açıq göstərirdi. Bu sənəd belə bir qayda qoyurdu ki, mərkəzləşmiş dövlət nümunəsi sadə hökmdardan yuxarıdadır və bu milli hüququn bir növ bazasıdır.

Xarici əlaqələrdə isə onun ən böyük nailiyyəti Çinin Sui sülaləsi ilə münasibətləri qaydaya salması idi. 5-ci əsrdə Yaponiya ilə cənub sülalələri arasındakı müqavilə mübadiləsi nəticəsində Yaponiya bac verən ölkə vəziyyətinə salınmışdı. Prints Şotoku Sui ilə əlaqələri bərabər əsasda qurdu və hər iki ölkə elçilər mübadiləsi etdi. O, həmçinin yapon tələbələrini Çinə göndərdi ki, onlar birbaşa Çin mədəniyyətindən öyrənsinlər, buna qədər isə bu mədəniyyət Koreya dövlətlərindən keçən yolla gəlib Yaponiyaya çatırdı. O, özü buddizmin çalışqan tələbəsi idi, müqəddəs yazılar barədə mühazirələr oxuyur və özü onlara

izahlar yazırdı. Bu izahlar printsin özü tərəfindən yazılmış və dörd cilddən ibarət olan "Lotus Sutra" əsərində bizim dövrə gəlib çatmışdır. Bu, həm də Yaponiyada məlum olan müəllifin ən qədim yazılı əsəri sayıla bilər.

Buddizmə ehtiram həm də öz ifadəsini Çin üslubunda tikilmiş iri, möhtəşəm məbədlərdə tapırdı. Bu nəhəng tikililər adamlarda təəccüb və heyrət hissləri doğururdu. Yaponiya üzərinə düşən yeni sivilizasiya demək olar ki, üstün qüdrətə malik idi. İndiki Nara prefekturasında İkaruqadakı 607-ci ildə əsası qoyulan ağacdan tikilmiş qədim məbəd öz gözəlliyini saxlayır və o dünyadakı ən qədim ağacdan tikilmiş bina hesab olunur.

629-cu ildə prints Şotokunun ölümü onun hökumət ideallarının bütünlüklə bəhrə verməsini qabaqladı. Əvvəlki gücünü bərpa edən Soqa ailəsi Şotokunun oğlunu və bütün ailəsini 643-cü ildə məhv etdi. Elə bu vaxt Şotokunun Çinə təhsil almağa göndərdiyi Sui tələbələr Yaponiyaya qayıtdılar. Onlar Sui sülaləsini devirmiş və Çini birləşdirmiş Tan imperiyasının gücünə və səmərəli fəaliyyətinə bel bağlayırdılar. Bu təəssürat təhsilli gənclərə ciddi təsir göstərmişdi və onlar idarəetmənin islahatına, dövlətin qüdrətinin möhkəmləndirilməsinə ehtiyac duyurdular və kənardan olacaq mümkün təsirlərə qarşı hər bir addımı atmağa özlərini hazırlayırdılar. 645-ci ildə sarayın içərisində dövlət çevrilişi baş verdi, Soqa ailəsi öldürüldü və imperial ailəsinə müxalif olan bütün qüvvələr saraydan süpürülüb atıldı. Hökumət çevrilişini edənlər başında mütləq monarx kimi dayanan imperator olmaqla, mərkəzləşmiş hökumət sistemi qurulmasına yaxın bir dövlət quruluşu təsis etdilər. 646-cı ildə dərc edilən ediktlə torpağa özəl sahiblik və varlı ailələrdən olan adamların sahibliyi ləğv edildi. Beləliklə torpaqlar dövlət mülkiyyətinə keçdi və müəyyən yaşa çatmış bütün adamlar arasında bölünməli idi. Bununla onlara torpağı becərmək hüququ verilirdi, əvəzində isə icarəçilər müəyyən edilmiş vergini ödəməli idi. Həmçinin paytaxt şəhərinin və yerli inzibatçılığın əhatə etdiyi hökumət sistemi üçün ərzaq istehsal edilirdi. Bu vaxt həm də müdafiə məqsədləri və kommunikasiya qabiliyyəti nəzərə alınırdı. Sistem həmçinin sarayda "şikayət qutuları" qurmuşdu ki, adamlar birbaşa imperatora şikayət edə bilsinlər. Beş il ərzində islahatların başlıca konturları cızılıb hazırlandı. Bu tədbirlərə Taika islahatları adı verildi, həm də bu ad həmin dövrdəki eraya verildi. Uzaq Şərqdəki ölkələrdə era adları müstəqil millətin rəmzi kimi qəbul edilirdi.

Taika islahatlarından sonra Koreyaya qoşun göndərilib-göndərilməməsi barədə müzakirələr başlandı. Çar qəsri 660-cı ildə birləşmiş Tan və digər Koreya çarlığı olan Sillanın birləşmiş qüvvələri tərəfindən işğal edildiyindən Pekçe Yaponiyaya kömək barədə müraciət etdi. Yaponiya geri çəkildi və yarımadaya ümumiyyətlə bir daha müdaxilə etməkdən imtina etdi. İmperatriça 67 yaşında olmasına baxmayaraq Kyusyu adasına yollandı ki, orada özü əməliyyatlara başçılıq etsin.

İmperatriçanı taxt-tacda əvəz edən Tençi kənardan müdaxilə gözlədiyinə

görə həmin adada istehkamlar tikdirmişdi. Onun kiçik qardaşı imperator Temmu daxili idarəetmə işlərinə daha çox fikir verirdi və Taika islahatlarını yazılı qanunlarla aparırdı, *ritsu-ryo* adlanan məcəllə siyasi quruluşu da əhatə edirdi. Bu məcəllə *ritsu-ya* - cinayət məcəlləsinə və *ryo-ya* - inzibati və mülki məcəllələrə bölünə bilərdi. Buna bənzər sistem uzun müddət Çində qüvvədə olmuşdu, bir nov Tan Çinindəki məcəllənin təqlidi idi, hətta onların bir neçə maddəsini olduğu kimi götürmüşdü. Yalnız yerli şəraitə görə düzəlişlər edilmişdi. Bu əcnəbi mədəniyyətin yaponlar tərəfindən götürülməsi, idxal edilməsi bacarığının yaxşı erkən nümunəsi idi. Yapon imperatoru mütləq monarx olmaqla bütün ölkəni bürokratiyanın başında duran adam kimi məhz Çin imperatoru qaydasında idarə edirdi. Mərkəzi hökumətə iki agentlik - Dövlət Şurası və İlahiyyat idarəsi başçılıq edirdi, birinci inzibatçılığın müxtəlif praktiki cəhətlərini həyata keçirirdi, ikincisi isə allahlara sitayiş məsələlərinə rəhbərlik edirdi. Ümidverən bürokratlar mərkəzi kollecdə oxumalı və yazılı imtahan verməli idi. Onların rütbələri və vəzifələri imtahanın nəticələrinə uyğunlaşdırılırdı. Bu Çində yüksək inkişaf səviyyəsinə çatmış bürokratik sistemə əsaslanırdı. *Ritsu-ryo* sisteminin yeni prinsipləri doğuma görə hörmət sahəsindəki köhnə ruhla barışırdı. Əyalətlər inzibati bölgünün üç növünə ayrılırdı, bunlar əyalət, qraflıq və kənd idi. Əyalət vəzifələri mərkəzi bürokratiyanın üzvləri ilə, qraflıq və kənd vəzifələri isə görkəmli yerli ailələrin üzvləri ilə doldurulurdu.

Xalq iki başlıca sinifə - azad adamlara və qullara bölünürdü. Qullar dövlətin, aristokratiyanın və ibadət yerlərindəki məbədlərin sahibliyində idi. Onlar qeyri-məhdud qaydada işləməyə borclu idilər, lakin onların ümumi sayı əhalinin on faizindən az idi. Azad əhalinin əksəriyyətini fermerlər təşkil edirdi. Altı yaşında olan hər bir oğlan uşağına düyü tarlası bölünüb həvalə edilirdi və bu tarla ömürlük becərilmək üçün onda qalırdı. Vergi düyü məhsuluna görə qoyulurdu, can vergisi isə kişi cinsindən olan yaşlı adamlara qoyulurdu. Düyü tarlasının vergisi aşağı idi, məhsulun 3 faizinə bərabər idi, lakin can vergisi isə əl əməyi istehsalı olan ipək və çətənə lifi ilə ödənirdi və xeyli ağır idi. Bununla yanaşı, əyalətlərdən paytaxta aparılan malların nəqliyyatına görə məsuliyyəti vergi ödəyənlər daşıyırdı, buna həm də uzaqda yaşamaq üçün xeyli əziyyət çəkmək lazım gəlirdi. Yaşa dolmuş kişi cinsindən olan şəxslər hərbi xidmət göstərməyə və ictimai işlərdə işləməyə borclu idi. İctimai iş əyalətin yerli qulluqçularının nəzarəti altında hər il 60 gün işləməyi nəzərdə tuturdu. Həmin vaxtdan hökumətin maliyyə vəziyyəti ümumən adamlardan alınan belə baclardan asılı idi. Lakin vergi yükü çox ağır olduğundan adamlar onu ödəməkdən yayınmaq üçün özlərinin qeydiyyatdan keçmiş evlərindən qaçırdılar. Azad adamların ən aşağı dərəcəsinə dəmirçilər, dəri aşılayanlar və manufakturalarda işləyən digər işçilər qrupu daxil idi. Onlar əsasən immiqrantların törəmələri idi, öz əcdadlarının sənətlərini vərəsə kimi götürmüşdülər və öz vergilərini manufaktura malları şəklində və ya müəyyən edilmiş müddətdə hökumət emalatxanalarında işlə-

məklə ödəyirdilər.

Bütün torpaqlar prinsip etibarilə dövlətin mülkiyyəti idi. Torpaqların əksəriyyəti adamlar arasında bərabər qaydada bölünmüşdü, lakin bundan ayrı olan torpaqların müəyyən illərdəki məhsulu bürokratlara və digər yüksək vəzifəli adamlara, həmçinin Sinto kilsələrinə və buddist məbədlərinə gəlir mənbəyi kimi verilirdi. Düyü tarlalarından başqa torpaqlar adamların özü istədiyi kimi istifadə etmək üçün qalırdı.

710-cu ildə imperial paytaxtı Fucivaradan Naraya köçürüldü və sonrakı 75 il ərzində bu şəhər hökumətin iqamətgahı oldu. Hər bir uğurlu imperatorun öz paytaxtını dəyişməsi barədəki köhnə qayda kənara atıldı. Bu dövrdə mədəniyyətin, xüsusən buddist mədəniyyətinin çiçəklənməsi bu hökumətin fərqləndirici xüsusiyyəti oldu. Bu irəliləyişə başçılıq edən imperator Şömu və onun arvadı Kömyö idi. Şömu uşaqlıq dövründən gələcək imperator kimi tərbiyə edilmişdi. Buddist inamının həm adamlara şəxsi xoşbəxtlik və bütünlükdə ölkəyə dinclik bəxş etməsinə inandığından, o, öz hökumətinə xeyli güclü buddizm hisslərini tətbiq etdi. Onun bu tədbirlərindən biri məbədlərin tikilməsi idi. Hər bir əyalət kişi və qadın monastırı tikməyə borclu idi. Bu monastırların hər birində yeddi mərtəbəli paqoda və Şakyamuni Buddanın heykəli olurdu. Hər kişi monastırında 20 rahib, hər qadın monastırında isə 10 rahibə saxlanırdı, onların işi yazıları daim əzbər söyləmək və xalqın rifahı barədə dua etmək idi. Yalnız müvəqqəti dünya özünü hər bir əyalətdə inzibati və mühakimə işləri ilə məşğul olan valilərə malik idi, ruhi dünya isə rəsmi qaydada təyin edilmiş rahiblərə və rahibələrə malik olmaqla, onlar əyalətlər arasında bölünməklə xalqın ruhi ehtiyacları ilə məşğul olacaqdılar. Onun ikinci tədbiri isə Narada bürüncdən bütün dünyada məşhur olan Böyük Budda heykəlini qoydurması idi.

Buddizm siyasətinin çuğlaşması Şömunun idealı olmaqla, sonrakı erada narahatlıqların meydana gəlməsinə səbəb oldu. Məbədlər tədricən nəhəng sərvət toplayırdı və rahiblər yüksək siyasi vəzifələr əldə edir, dünyəvi işlərə də qarışmağa başlayırdılar. Bu sui-istifadələrə qarşı hərəkat kübarlıq arasında qalxmağa başladı. Bu hərəkatın başçıları Fucivara ailəsinə aid olmaqla, Nakatomi Kamatarinin törəmələri idi və onlar Taika islahatlarında mühüm rol oynamışdılar. Onlar məcəllənin tərtib edilməsinə nəzarət etmişdilər və sarayda görkəmli şəxsiyyətlərə çevrilmişdilər. Buddizm onlara aşağıda dayanmağı öyrədirdi. 8-ci əsrin sonunda isə onlara elə gəldi ki, buddist yönlü hökumətin şər işləri millətin gələcəyinə təhlükə törədir və ona görə də taxt-taca yeni imperator oturtdular. Bu imperator Könin öz paytaxtını Naradan Kiotoya köçürdü və *ritsu-ryo* sisteminə uyğun olaraq öz hökumətini yenidən qurdu.

Buddizmdə mərkəzləşən mədəni inkişaf digər millətlərlə həyati mübadilələrin nəticəsi idi. Əsrin dörddə üçünə bərabər olan müddətdə hökumət dörd dəfə Tan sarayına rəsmi elçilər göndərmişdi və hər dəfə onlara çox sayda tələbələr qoşulurdu ki, onlar Çində təhsil alsınlar. Həmin dövrdən Tan təkcə Çinin

mərkəzi düzənliklərinə deyil, həmçinin şimalda Monqolustanın və Sibirin, qərbdə isə Mərkəzi Asiyanın hissələrinə nəzarət edən böyük imperiya qurmuşdu. Yapon mədəniyyəti Tandan çox şey əxz etmişdi, onun paytaxtı Çand-an böyük beynəlmiləl şəhər olmaqla Nara dövrünə də öz təsirini göstərmişdi. Narada Böyük Budda heykəli açılanda mərasimə bütün Uzaq Şərqdən musiqiçilər dəvət edilmişdi. Bu beynəlmiləl zövqə baxmayaraq, ənənəvi yapon həyat yoluna və dünyabaxışına da hörmətlə yanaşılırdı. Bu dövrdə "Manjo-şu" şeir külliyyatı antologiyası çap edilmişdi ki, bura qədim və həmin dövrün şairlərinin 4500 şeiri daxil edilmişdi. Bu şeirlərin qəhrəmanları imperatordan və imperial ailəsinin üzvlərindən tutmuş kübarlıq, keşişlər, fermerlər, əsgərlər və fahişələr daxil olmaqla bütün siniflərin nümayəndələrini təmsil edirdi. Şeirlər əsasən insani mövzulara həsr olunmuşdu, burada kişilər və qadınlar, valideynlər və uşaqlar arasında məhəbbət tərənnüm edilirdi, bunlar hamısı dərindən ənənəvi yapon ruhuna qarışdırılırdı. Bu antologiya sonrakı yapon mədəniyyətinə nəhəng təsir göstərdi.

İmperator Kammu 794-cü ilə paytaxtı Heyana köçürdükdən sonra ritsu-ryoya uyğun olaraq hökuməti bərpa etdi. O, həmçinin dövrə müvafiq olmayan maddələrdə düzəlişlər etdi. Düyü tarlalarının hər 6 ildən bir paylanması çətinlik törətdiyinə görə bunu 12 ildən bir etməyi qərara aldı. Yerli qulluqçular arasında korrupsiya hallarına daha yaxından nəzarət etməyə başladı. Qoşunların əsgərə çağırılma yolu ilə yığılmasının əvvəlki sistemi ləğv edildi və bu vaxtdan etibarən qoşunların yerli qulluqçuların və rütbəsi olan şəxslərin oğlanlarından seçilməsi qaydasına keçildi. Yad hesab olunan tayfalar hökumət nəzarətinə götürüldü və tezliklə mövcud əhaliyə assimilyasiya edildi. Buddizmin dövlət işlərinə qarışması qadağan edildi, lakin din kimi əvvəlki fəaliyyətini göstərməkdə davam etdi. Çində təhsil almağa göndərilmiş iki rahib vətənə qayıtdıqdan sonra yapon buddizminin yeni sektalarını yaratdılar. Kammunun varislərinin dövründə ölkə 150 il sülh şəraitində yaşadı və bu, onun siyasətinin həyata keçirilməsinin nəticəsi idi.

9-cu əsrin ortalarında 9 yaşlı Seyva imperator taxt-tacına çıxanda onun ana babası Fucivara Yoşifusa regent oldu. Onun oğlu da əvvəlcə regent, sonra isə baş məsləhətçi oldu və öz qızını ərə verməklə onu imperial ailəyə daxil etdi. Sonralar onun övladları, törəmələri imperatorluğa yüksəldilər. Beləliklə, imperatorun ana babası və ya qayınatası olmaq mühüm əhəmiyyət kəsb etdi. Nəticədə mürəkkəb sistem yarandı və bu Fucivaraların qovulması da daxil olmaqla sarayda daim gedən mübarizəyə səbəb oldu. Elə Fucivaraların öz aralarında da daim sözləşmə, mübahisə gedirdi. 9-cu əsrin sonunda Yaponiya Tan Çini ilə rəsmi münasibətlərini kəsdi, bu güman ki, müntəzəm olaraq göndərilən elçilərin xərcləri ilə əlaqədar idi. Bunun praktiki nəticəsi daha təmiz yapon mədəni ənənələrinin kök salması oldu. 9-cu əsrdə əvvəlki əsrin davamı kimi bünövrədən çin mədəniyyəti üstünlük təşkil edirdi. Alimlər arasında çin nəsri və poezi-

yası çox populyar idi və kübarların gündəlik həyatında çinlilərin adətləri nümayiş olunurdu. Çox sayda buddist rahibləri Çinə göndərilirdi ki, oradan naməlum yazılı əsərləri və ikona rəsmlərini gətirsinlər. Buddist heykəltəraşlığı və rəngkarlığı Tan üslubunda icra olunurdu. Yaponların götürdüklərinə tədricən əsasən Tan üslubu əlavə olunurdu və yavaş-yavaş yeni mədəniyyət öz mövcudluğuna başlayırdı.

10-cu əsrdən başlayaraq sonrakı əsrdə bütövlüklə Fucivara sülaləsinin varis nəsilləri əsas vəzifələri inhisarda saxlayan milli hökumətə nəzarəti davam etdirirdi. Onlar varlanıb dəbdəbəli həyat sürürdülər. Fucivara Miçinaqanın dövründə bu sərvət daha da artdı. Onun dörd qızı bir-birini əvəz edən dörd imperatorun arvadı olmuşdu və onların üç oğlu da müvafiq olaraq taxt-taca sahib oldular. Bu dövrdə saray mərasimlər mərkəzindən başqa bir şey deyildi. Saray qulluqçuları nəzərdə tutulan gündə nəzərdə tutulan mərasimləri icra etmək üçün bir-birilə rəqabət aparırdılar, ona görə də qəflətən üz-üzə gələ biləcəkləri sosial böhranı həll etməyə yaramırdılar. Ritsu-ryoda ictimai torpaq sahibliyi sisteminin və adamların yalnız adına toxunulmamışdı. Torpaqlar özəl əllərə keçmiş, adamlar isə özəl vətəndaşlara çevrilmişdilər. Yeni özəl torpaq sahibliyi *şöen* - malikanələr idi, onlar *ritsu-ryo* sistemi həyata keçirilməyə başlayan vaxtdan becərilməkdə olan düyü tarlaları əsasında inkişaf etmişdi. Nara dövründən başlayaraq hökumət yeni torpaqların açılmasına dəstək verirdi, məbədlər və kübarlar belə bir vəziyyətdə öz ehtiyatları ilə yeni əraziləri inkişaf etdirməyə tələsirdilər. *Şöen* tədricən vergi ödəməyən malikanələrə çevrilirdi. Belə şöenlərin artması hökumət üçün ciddi təhlükəyə çevrilə bilərdi, ona görə də dəfələrlə ediktlər dərc edildi ki, yeni malikanələrin yaradılmasını yoxlamaq mümkün olsun. Bu sadəcə olaraq mövcud olan malikanələrin mövqelərinin daha da möhkəmlənməsinə və torpaqların artması meylinin dayandırılmasına göstərilən cəhdlərin uğursuzluğa düçar olmasına səbəb oldu. O vaxtdan *şöenlərin* sahibləri elə kübarlıq və hökuməti təşkil edən yüksək vəzifəlilərin özləri idi və bu, situasiyanı dəyişdirməyi müstəsna dərəcədə çətinləşdirirdi. Fucivara ailəsinə məxsus olan *şöen* o qədər nəhəng ölçülər almışdı ki, belə deyirdilər ki, onların arasında Fucivaralar bütün ölkəyə sahib olmuşdular.

Kübarlıq malikanələrdən aldıqları gəlir hesabına dəbdəbəli həyat sürməkdə aparıcı rol oynadıqları bir vaxtda əyalətlər torpaq üzərindəki yeni hakimiyyətin meydana çıxmasının şahidi oldular. Onlar döyüşçülər və ya *samuray*-lar sinfi idi. İmperial ailənin gənc üzvləri və yüksək vəzifələr üzərində Fucivara inhisarından narazı qalan onlar kimi aşağı rütbəli kübarlar əyalətlərdəki yerli idarələrdə vəzifələr tuturdular, özlərinə torpaq alırdılar və öz hakimiyyətlərini qururdular. Onlar öz ərazilərini himayə etmək üçün xidmətləri vasitəsilə və onlara silah vermələri ilə yerli sakinlərə təzyiq göstərməyə başlayırdılar. Bununla da onlar özlərinin silahlı qüvvələrini yaradırdılar. Üstəlik həqiqi hərbi qabiliyyətə malik olan adamlar meydana çıxırdı və şərait silahlı münaqişələrə gətirib

çıxarırdı. Kanto mahalında və Qərbi Yaponiyada baş verən iğtişaşlar hökumətin nüfuzunun aşağı düşməsinə və əyalətlərin viranə qoyulmasına şərait yaradırdı.

Həqiqi yapon mədəniyyəti inkişaf edirdi, bu sahədə *kana* heca yazısı kimi doğma yazının meydana gəlməsi mühüm əhəmiyyət kəsb edən amil idi. Bu vaxta qədər yaponlar öz yazılarına malik deyildilər. Yapon dilini təmsil etmək üçün çin yazısı tətbiq edilirdi, lakin bu çinlilərinkindən tam fərqli idi. Yeni yazının yaranmasına səbəb isə təhsilli adamların tədricən təmiz fonetik xarakter daşıyan heca yazısından istifadə etməsi idi, bu yazı həm də bir sıra çin rəmzlərindən ibarət idi. Kana kimi tanınan yazı tam sərbəstliklə milli dildə yazmağa imkan verdi. Bu icad həm də yapon ideyalarının ifadəsi tarixində epoxa təşkil edən bir hadisə idi. Kananın hesabına çox sayda yapon şeiri və nəsri yaradılacaqdı. Bu məsələlərdə Fucivaranın qızlarının xüsusi rolu var idi. Bu imperator xanımları özlərini istedadlı qadınlarla əhatə etmişdilər, onlar biliyə yiyələnməkdə və əsərlər yazmaqda bir-birilə rəqabət aparırdılar. Kana yazısı belə qadınlara ədəbiyyat əsərləri yaratmaq imkanı verirdi.

Bu dövrdə təkcə Yaponiyada deyil, dünyada layiqli yer tutan ədəbi incilər yarandı. Doğma yapon şeirinin forması olan *yaka* kübarlığın gündəlik həyatının çox zəruri olan bir hissəsi idi və şeir qoşmaq məharəti intellektual yüksəlmə üçün vacib sayılırdı. Təmiz yapon qabiliyyətinin inkişafına doğru həmin meyl buddizmə də öz möhkəm təsirini göstərdi. Tenday və Şinqon sektaları nəsilbənəsil istedadlı rahiblər verirdi və onlar sektaların özü kimi inkişaf etməkdə davam edirdi. Lakin saray və kübarlıq ilə onlar yaxın əlaqədə olduqlarından varlanmağa və sərvət toplamağa meyl edirdilər və bu buddizmdə *Çödo* ("Təmiz torpaq") sektasında öz əksini tapdı. Bu sekta adi adamlarda xilas arzusunun yaranmasını moizə edirdi. "Təmiz torpaq" buddizmi Amida cənnətinin şərəfini izah edirdi, bu ölümdən sonrakı dünya idi və bütün insanlara cənnətdə yenidən doğulmaq naminə bu dünyanın pozğunluqlarını məhkum etməyə sövq edirdi, insanlara köhnə qaydanın süqutunun ortasında xilasın ideal ümidini təklif edirdi. Amida təmsilçilərinin çox sayda heykəltəraşlıq və rəssamlıq təsviri meydana gəlmişdi.

İmperatorların arvadları taxt-tac üçün varis doğmadıqlarından 11-ci əsrin ikinci yarısında həqiqi siyasi qüvvə *insey* adlanan "monastır imperatorlarına" tərəf keçməyə başladı, bunlar artıq taxt-tacdan istefa vermiş imperatorlar idi və səhnə arxasında onlar real gücə malik idilər. Monastır imperatorları sistemi uzun müddət davam etdi, istirahətə yollanmış üç imperator üst-üstə 105 il səhnə arxasından işləri mütləq idarə etmişdilər. Dövrün digər xüsusiyyəti döyüşçü sinfinin yüksəlməsi idi. Monastır imperatorlarının idarəçiliyinin inkişaf etməsi ilə *samurayların* daha qüdrətli olanları, hansılar ki, öz hakimiyyətlərini ilk dəfə əyalətlərdə qurmuşdular, tədricən paytaxtın özündə və ətrafında yığışdılar. Burada onlar hərbi polis kimi fəaliyyət göstərirdilər. Saray zadəganları və kübarlı-

ğı ilə birləşərək onlar tədricən sarayın dayaq nöqtəsinə çevrildilər. Belə *samuraylar* arasında ən görkəmliləri imperator Seyuanın törəmələri olan Minamoto ailəsi və imperator Kammunun törəmələri olan Tayra ailəsi idi. Tayralar əvvəlcə Kanto dairəsində məskunlaşmışdılar, orada onlar öz nüfuzlarını geniş əraziyə yaymışdılar, lakin buradakı iğtişaşdan əziyyət çəkərək öz dəstəklərini itirmişdilər.

Minamotolar Fucivaraların favoritləri olmaqla başlanğıcdan paytaxtda görkəmli ailə idi, lakin onların döyüşçü klanı kimi şöhrəti 11-ci əsrin ortalarında 12 illik çətin döyüşdən sonra çox yüksəyə qalxmışdı. Döyüşdə mühüm rol oynayan Minamoto Yoşiye ən şöhrətli milli döyüşçüyə çevrildi və bir çox qüdrətli klanlar onunla alyansa girməyə könüllü qaydada and içdilər, öz himayələri üçün isə əvəzində ona torpaq təklif etdilər. Yoşiyenin igidlikdə onunla müqayisə edilmək üçün, ümumiyyətlə oğlu yox idi və Tayralar bununla əlaqədar olan tənəzzüldən öz xeyirləri üçün istifadə etdilər. *İnsey* - "monastır imperatorları" sistemindən öz siyasi irəliləmələri üçün faydalanaraq onlar istirahətə getmiş imperatorların hüsn-rəğbətini qazandılar. Tayra ailəsindən olan Masamori və onun oğlu istirahətdə olan imperatorlara kömək məqsədilə çox sayda yeni məbədlər və paqodalar tikdirdilər. Oğul Tadamori daha böyük sərvət toplamaq üçün Çinin Sunq sülaləsi ilə ticarəti öz əlinə götürməyə cəhd etdi. Bu yolla Tayraların sosial mövqeyi möhkəm qaydada yüksəlirdi və onların sonrakı nəsli öz yerini artıq kübarlarla yanaşı tutmağa müvəffəq olmuşdu.

İstirahətdə olan və hökmranlıq edən imperatorlar arasındakı münaqişə Fucivara sülaləsinin içərisindəki daxili fərqlərlə birləşərək imperial ailədə və kübarlar arasında parçalanma əmələ gəlməsinə və onların iki hissəyə bölünməsinə səbəb oldu. Bunlar müvafiq olaraq Minamoto və Tayra ailələrinin müvafiq qaydada dəstəyini aldılar. İki tərəf tezliklə Kiotoda açıq toqquşmaya gəlib çıxdı. Bu 1156-cı ilin iyununda baş verən Hoqen müharibəsi kimi tanınır. Müharibə kiçik miqyasda idi və onun nəticəsini sadəcə bir gecəlik vuruş həll etdi. Bunun ən yüksək əlaməti o idi ki, samuray qüvvəsi milli hökumət tərəfə keçdi. Üç il sonra baş verən Heyci müharibəsində Minamotolar bütünlüklə məğlub oldular və Tayra Kiyomori başlıca qüvvə kimi meydana çıxdı. O, sarayda dövlətin böyük naziri oldu və 50-dən çox yüksək vəzifəni onun adamları tutdu, qızı isə imperator Takakuranın arvadı oldu və bu nikahdan doğulan uşaq körpəliyində taxt-taca çıxdı. Kiyomorinin hökmranlığı həmçinin daha təsirli və əsgəri cəhətlərə malik oldu. Sadə bir hərəkəti ilə o, sarayın 42 qulluqçusunu vəzifələrindən süpürüb atdı və sürgünə göndərdi. O, böyük məbədlər tikdirdi, Çin Sunqu ilə ticarəti gücləndirmək üçün Daxili dəniz yolunu yaxşılaşdırdı, belə tədbir Fucivara hökuməti dövründə heç vaxt həyata keçirilməmişdi.

Tayralar paytaxtda inkişaf edən vaxt Minamoto mənşəyinə aid olan törəmələr əyalətlərdə öz qüvvələrini sakitcə möhkəmləndirirdilər. Nəticədə Minamoto ailəsinin birbaşa törəməsi olan və İzuda sürgündə böyüyən Yoritomo Mina-

motoların yürüşünü təşkil etdi və iki kiçik qardaşını Kiotoya hücum etməyə göndərdi. Sonuncu yürüşdə Tayra qüvvələrinin Sikoku adasından dəniz yolu ilə qaçması Minamoto və Tayra arasındakı taleyin dəyişməsinə həlledici rol oynadı. Bu həm də Yaponiya tarixində dönüş nöqtəsi oldu. Həmin vaxtdan Yoritomo öz hərbi hökumətini və ya *syoqunatı* qurdu. Kamakurada syoqunatın yaranması feodal sistemə əsaslanan *samuray* sinfinin hökmranlığının başlanğıcı idi. Bununla həm də hakimiyyətin sarayın və kübarlığın əlində olduğu qədim monarxiya dövrünə son qoyuldu. Syoqunat (və ya hökumətin qərargahı ifadəsindən *bakufu*) 1867-ci ildə imperial hakimiyyət bərpa edilənə qədər Yaponiyada səmərəli siyasi nəzarətə malik oldu.

Minamoto Yoritomonun 12-ci əsrin sonunda *syoqunatı* qurması mülki kübarlığın siyasi hakimiyyətinə əks olan döyüşçü sinfin yaratdığı yeni və müstəqil hökumətin başlanğıcı ilə əlamətdar oldu. Yoritomo öz ali qərargahını (bakufunu) Kamakurada yaratdı və qüdrətli Tayra ailəsinin əzişdirilməsini, təqib edilməsini öz kiçik qardaşlarına etibar etdi. Bu vaxt o, öz tərəfdarlarını Yaponiyanın şərqində yeni hərbi hökumət kimi yığır. İlk addım kimi o, 1180-ci ildə *Samuray-dokoro* (Vassalların şurası) təsis edir. Bu institut intizam şurası olub onun hərbi vassallarına nəzarət etmək məqsədini güdürdü. Ümumi inzibatçılığı dörd il sonra açılmış katiblik həyata keçirirdi. Üstəlik məhkəmə şurası olan *monçuco* təsis edilmişdi ki, bu şura hüquqi işlərə və müraciətlərə baxırdı. Bu institutların başçılığı altında bakufunun təşkilatçılığı tədricən öz formasını aldı.

1185-ci ildə Tayra ailəsi məhv edildikdən sonra Yoritomo bütün əyalətlərdə hərbi qubernatorları *(şuqo)* təyin etdi. Şuqo metronomiya mühafizəçilərini də yığmaq işi ilə məşğul olurdu və onlar dağıdıcı qüvvələri və cinayətkarları ciddi nəzarətdə saxlayırdı. Hərbi köməkçilər olan *yito* isə vergiləri yığır, torpaq mülklərinə nəzarət edir və ictimai qaydanı qoruyurdu. 1189-cu ildə Yoritomo nəhayət Mutsu əyalətindəki böyük Fucivara ailəsini məhv etdi, bu ailə onun qiyam qaldırmış qardaşı Yoşitsuniyə sığınacaq vermişdi. Üç il sonra Yoritomo Kiotaya yollandı, *syoqun* təyin edildi, bu titul *sey-i tay-syoqun* - "barbarları yatırdan, məhv edən generalissimus, böyük sərkərdə" sözlərinin abbreviaturasından düzəldilmişdi və döyüşçüyə verilən ən yüksək şərəf hesab olunurdu. Əvvəlcə bakufunun başlıca iqtisadi dayağı Tayra ailəsindən tutulmuş malikanə torpaqları idi və imperial saray Yoritomoya ictimai malikanələrdən məhdud inzibati xərclər üçün pul verirdi. Lakin sonralar bakufu bu vaxta qədər mülki əyalət qubernatorları tərəfindən nəzarət edilən ictimai malikanələr üzərinə də öz nəzarətini genişləndirməyə qadir oldu. 1199-cu ildə Yoritomonun ölümündən sonra bakufuda həqiqi hakimiyyət onun arvadının çıxdığı Hoco ailəsinin əlinə keçdi. Qadının atası Hoco Tokimasa 1203-cü ildə öz üzərinə syoqunun regenti vəzifəsini götürməklə, bu idarə Hoco ailəsindən olan 9 varis üzvün hökmranlığı müddətində 130 il ərzində davam etdi. Yoritomo generalları arasındakı narazılıqlardan istifadə edən Hoco öz rəqiblərini devirdi və üç nəsildən sonra Yori-

tomodan birbaşa olan törəmə xətti tam sona çatdı. Həqiqi hakimiyyətə malik olsa da, Hoco ailəsi aşağı sosial dərəcəyə aid idi və onların liderlərinin özü syoqun olmağa can atmırdılar.

Hərbçilərin siyasi hakimiyyətinin böyüməsi kübarlıq ilə münaqişəyə gətirib çıxardı. *Bakufu* ordusu Kiotonu tutdu və imperator II Toba həbs edilərək Oki adasına göndərildi. *Bakufu* bu vaxt öz qərargahını Kiotoda təsis etdi ki, imperial saraya nəzarət etsin, həm də qərb əyalətlərindəki qanuni və inzibati işi öz nəzarətində saxlasın. İmperatora qoşulan mülki kübarların və döyüşçülərin malikanələri müsadirə edildi və mükafat kimi *syoqun* vassalları arasında paylandı. Bakufunun siyasi hakimiyyəti yenə bütün ölkəyə yayıldı.

Bu vaxtlar regent Hoco Yaşutoki öz siyasi hakimiyyətini möhkəmləndirmək üçün aparıcı vassalların şurasını yenidən qurdu və onu məsləhət şurasına çevirdi. 1232-ci ildə şura 51 maddədən ibarət qanun layihəsi hazırladı. Bu *bakufunun* ilk qanun yaradıcılığı idi və onun niyyətləri *ritsu-ryoya* görə daha sadə idi. Fərqləndirici cəhətlərindən biri o idi ki, ağa-vassal münasibətləri və ata hakimiyyəti ciddi vurğulanırdı və torpaq üzərində qadın varisliyi tanınırdı. Bu qanunlar tədricən bütün ölkəyə yayıldı. 1249-cu ildə regent Hoco Tokiyori böyük qərəzsizliyi qorumaq və qanuni qərarların icrasını sürətləndirməyə kömək etmək məqsədilə ali şura təsis etdi.

# FƏSİL 2
# YAPONİYA MONQOL MÜDAXİLƏSİ DÖVRÜNDƏ

Yaponiya regent hökumətinin qurulması Mərkəzi Asiyada Çingiz xanın başçılığı altında monqolların qalxması ilə bir vaxta düşdü. Yarım əsr ərzində onlar şərqdə Koreya yarımadasından, qərbdə Rusiya və Polşaya qədər uzanan imperiya yaratdılar. 1260-cı ildə Çingiz xanın varisi Xubilay Çində Böyük xana çevrildikdə öz paytaxtını indiki Pekində qurdu. On bir il sonra o, Yuan sülalə adını qəbul etdi. Bundan bir az sonra monqollar müdaxilə etməyə hazırlaşmağa başladılar, 1274-cü ilin payızında 25 minlik monqol və Koreya ordusu indiki Cənubi Koreyadan yola düşdü. Onlar Kyusyuda sahilə çıxıb Matsura dairəsini işğal etdilər və Çinuzenə tərəf irəlilədilər. Kyusyu hərbi vassalları müdafiə üçün səfərbər olundu. Monqol ordusu Hakata körfəzində sahilə çıxıb yapon müdafiəçilərini geri çəkilməyə məcbur etdilər. Lakin qəflətən tayfun qalxdı, müdaxiləçilərin 200-dən çox gəmisini məhv etdi və sağ qalanlar geri, Cənubi Koreyaya döndülər. Bakufu müdaxilənin təkrar olunmasına qarşı tədbirlər gördü. Sahil müdafiəsi möhkəmləndirildi, güclü monqol süvarilərinin qarşısını kəsmək üçün Hakata körfəzi ətrafına bir neçə mil uzunluğunda daş hasar tikildi. Bu ictimai işlərin başa çatmasına beş il vaxt sərf edildi və olduqca böyük xərclər tələb olundu.

Bu vaxt monqollar ikinci ekspedisiyanın planını çızırdılar. 1281-ci ildə iki ayrıca ordu düzəldildi - 40 minə yaxın monqol, şimali çinlilərdən və Koreya qoşunlarından ibarət olan şərq ordusu Cənubi Koreyadan yürüşə başlayırdı. İkinci ordu isə 100 minlik Cənubi Çin qoşunlarından ibarət olmaqla, ona çin generalı başçılıq edirdi. Hər iki ordu Hiradoda görüşüb birləşmiş qaydada hücumla Hakata körfəzini tutub Dazayfuya təzyiq göstərməli idi. Yenidən qəzəbli tayfun müdaxilə edən donanmanın demək olar ki, hamısını məhv etdi, çin generalını sürətlə geri çəkilməyə məcbur etdi. Müdaxiləçi ordunun qalıqları yaponlar tərəfindən əsir götürüldü. Belə deyirdilər ki, 140 min müdaxiləçidən beşdə birindən də azı qaçıb canını qurtara bilmişdi. Monqol müdaxiləçilərinin məğlubiyyəti Yaponiya tarixində həlledici və böhranlı əhəmiyyət kəsb etdi. Hərbi xərclər Kamakura hökumətinin iqtisadi stabilliyinin dayaqlarını dağıtdı və hərbi vassalların çoxunu iflasa uğratdı. Bu hadisə 14-cü əsrə qədər davam edən Çindən özünü izolyasiya dövrünə aparıb çıxardı. Buna baxmayaraq, qələbə milli qürur hissinə böyük ilham, canlanma verdi və *kamikadze* - "ilahi külək" müdaxilə edilən düşməni məhv etməklə yaponlara belə bir inam verdi ki, onlar ilahi tərəfindən himayə edilən xalqdır.

Yapon feodal sistemi Kamakura bakufusunun hökmranlığı altında öz ölçüsünü almağa başladı. Kamakura (1192-1333-cü illər) və Muromaçi (1338-1573-

cü illər) dövrlərinin başlanğıcında yapon feodalizmi özünü sonrakı eralarda olduğundan fərqli qaydada göstərirdi. Erkən dövrlərdə torpaq sahiblərinin feodal döyüşçüləri əkinçiliklə məşğul olan kəndlərdə yaşayırdılar və özlərini əkinçilik əməyi ilə dolandırırdılar, bu vaxt mərkəzi mülkü kübarlıq məbədlər və sərdabələr, müxtəlif əyalətlərdə isə iri ictimai və özəl mülklər saxlayırdılar və yalnız bakufununki ilə müqayisə edilə bilən hakimiyyətə malik idilər. Bu malikanələr də əslində torpaq sahiblərinin iqamətgahları tərəfindən idarə olunurdu və onlar döyüşçülərə çevrilirdilər. Onlar həmçinin əyalət hökumətinin qulluqçularına çevrilirdilər. Çox sayda kəndlərin liderləri kimi onlar öz yurisdiksiyalarında olan zonalarda düyü tarlalarının və irriqasiya işlərinin böyüməsinə, inkişaf etməsinə çalışırdılar, yaşadıqları kəndlərdə və kiçik kəndlərdə özləri üçün geniş evlər tikirdilər. Onların arasında *syoqunun* hərbi vassalları olan bəzi adamlar da var idi və digərləri isə kübarlıq və məbədlərlə bağlı idi. Hərbi vassallar syoquna sədaqət göstərməyə borclu idilər, onlar üçün Kiotodakı mühafizə borcu kimi ictimai xidməti icra edirdilər. Bu şəhərdə imperator öz sarayı ilə yaşayırdı. Əvəzində syoqun təkcə belə adamların ənənəvi torpaq sahibliyinə təminat vermirdi, həm də onları yeni torpaqlarla mükafatlandırırdı. Torpaq sahibliyinin verilməsi və idarəçilik ağa ilə vassal arasında bu əlaqəyə əsaslanırdı və yapon cəmiyyətinə fərqli feodal xarakteri verirdi. Samuray döyüş cəbhəsində xidmət edirdi, sülh dövründə isə öz vaxtını ovda və hərbi sənətə yiyələnmək üçün məşq etməkdə keçirirdi, sərt və praktiki xarakterə yiyələnirdi. "Nizə və at yolu" *samurayın* rıtsar idealı idi və bu gündəlik məşqlərdə və əsl vuruşda daha da böyüyürdü. Ailə adının qüruru xüsusilə dəyərli idi və bir ağaya loyal xidmət təməl əxlaqa çevrilirdi. Bu sonrakı dövrlərdə daha yüksək qaydada inkişaf etmiş *Busido* və ya "Döyüşçülər kodeksi"nin başlanğıcı, mənbəyi idi.

*Samuray* ailələrində qadınların statusu müqayisəli şəkildə yüksək idi. Onlara mülkün bir hissəsini vərəsə kimi götürməyə icazə verilirdi, təcrübədə isə bu tədricən məhdudlaşdırıldı. Kamakura dövrünün ortalarından sonra əkinçiliklə məşğul olan və döyüşçülərin yaşadığı kəndlər kənd təsərrüfatında baş verən dəyişikliklər nəticəsində irəli çıxdılar, cəmiyyətin digər aspektləri də bu qaydada dəyişirdi. Sənətkarlar adətən özəl mülklərin mülkiyyətçilərinə işləməyə meyl edirdilər və istehlak tələbi artdıqca onların ixtisaslaşması dərinləşirdi. Metaləritmə və metal işlədən mərkəzlər, kağız manufakturaları və digər sənət sahibləri bir yerdə cəmləşirdi. Kənd təsərrüfatı məhsullarının, manufaktura mallarının və digər əmtəələrin mübadiləsi inkişaf edirdi. Ayda müəyyən olunmuş üç gün işləyən yerli bazarlar ümumi şəkil aldı. Çinin Sui sülaləsi dövründən olan mis sikkələr bu bazarlarda dövr edirdi, bu vaxt səyyar tacirlər öz fəallığını artırmışdılar. Mübadilə hesablarından uzaq yerlərdəki malın haqqını ödəmək üçün istifadə olunurdu. İri limanlara topdansatışla ixtisaslaşmış tacirlər gəlib çıxırdılar. Onlar mal saxlayanlarla, daşıyanlarla və satanlarla əlaqə yaradanlar kimi xidmət göstərirdilər. Sonralar bu icma bir çox tacirlər və sənətkarlar

üçün gildiya yaratmağa imkan verdi. Bu gildiyalar orta əsr Avropasının ticarət gildiyalarına bənzəyirdi, xüsusi inhisar imtiyazlarına yiyələnir və gömrük borclarından azad olunurdular.

Kamakura dövrü ərzində yeni qalxan samuray sinfi qədim mülki kübarlıqdan üstün oldu, onlar klassik mədəniyyəti dəstəkləməkdə davam edirdilər. Cəsarətli dəniz ticarəti dzen-buddizmin və neokonfutsianizmin Sunq Çinindən buraya keçməsini sürətləndirdi. Rəsm üslubunda, arxitektura formalarında, müəyyən dulusçuluq manufakturası bacarıqlarında, çay içmək adətində - samuray mədəniyyətinin formalaşmasına kömək edən hər şeydə Çinin təsiri özünü göstərirdi.

Böyük sosial dəyişikliklər inamın sadə standartı barədə xalqın tələbinə səbəb oldu, bu mürəkkəb öyrətmələri və mərasimləri olan qədim buddizmin yerini tutmalı idi. Əkinçilik kəndlərinin döyüşçüləri xüsusən onların şəxsi təcrübələrinə yarayan din tələb edirdilər. Bir sıra yeni buddist sektaları yarandı. Onların sırasına *Çödo* və ya Təmiz torpaq sektasını daxil etmək olardı. Dzen sektaları öz cəhdi vasitəsilə daxilə yolu açmağa çalışırdı, həmin vaxtdan bu samurayların tələblərini qane edən hazır cavabla üzləşdi.

Sonrakı Kamakura dövrü samuraylar arasında ailə həmrəyinin dağılmasının şahidi oldu. Feodal torpaq sahibləri öz torpaqlarını müdafiə etmək ucbatından özlərini başlıca olaraq hərbi sənətlərə həsr edirdilər, kənd təsərrüfatı işini isə öz tabeliyində olan adamlara həvalə edirdilər. Lakin torpaqlar kiçik oğullar arasında bölünmürdü, bütünlüklə böyük oğulun əlində qalırdı. Beləliklə güc ev sahibinin əlində cəmləşirdi, ailənin digər üzvləri isə ağa-vassal əlaqələri əsasında ona tabe olurdular. Elə bu vaxt başlıca iqtisadi dəyişikliklər *bakufu* vassallarının mövqeyini zəiflədirdi. Həm də torpaq sahibləri arasındakı böhranların əksinə ticarət inkişaf edirdi. Sikkələr artan dövriyyəyə daxil olurdu, şəhər həyat tərzi kənddə də təqlid olunmağa başlandı. Lakin torpaq sahibləri bəzi hallarda özlərinin məhdud torpaqlarından gələn gəlirlə xərclərini örtməyi bacarmırdılar. Varlı sələmçilərdən yüksək faizlə pul borc götürdükdə onlar bəzən krediti ödəyə bilmədikdə, mülkiyyətlərini verməyə məcbur olurdular. Syoqun vassalları arasında da varlılarla kasıblar arasındakı uçurum meydana gəlirdi, xüsusən qoşunları qaldırmaq hüququ olan yerli hərbi qubernatorlar torpaq sahiblərinin iqamətgahları üzərində artan nəzarət əldə edirdilər, onlarla ağa-vassal münasibətləri qururdular. Yerli maqnatların yeni qüdrətli sinfi *daymyo* adlanırdı və onlar tezliklə bakufuda Hoco regentlərinin hakimiyyətinə meydan oxumağa başladılar. Nəticədə 1318-ci ildə prints Takanaru 31 yaşında imperator II Dayqo kimi taxt-taca qalxdı. İstirahətə yollanan imperator II Uda uzun müddət davam edən qaydanı pozdu və "monastırlaşmış" imperial hökuməti buraxdı. Beləliklə bütün hakimiyyət tək imperatorun əlində cəmləndi. Yeni imperatorun ətrafında yığışan gənc islahatçı saray kübarları dəstəsi hökuməti təzələməyə çalışdı. Əsl imperialı bərpa etmək idealını həyata keçirmək üçün II Dayqo özünü bakufuya

müdaxilə etməkdən kənarda saxlamalı idi. İmperatorun onları devirmək planı aşkar edildikdə o, dustaq edildi və Oki adasına sürgün edildi. Lakin yerli liderlər döyüşkən buddist rahiblərinin köməyi ilə bakufunu devirmək üçün ordu qaldırdılar. Beləliklə 140 illik hökmranlıqdan sonra bakufu hökuməti ləğv edildi. 1333-cü ildə imperator II Dayqo Kiotoya qayıtdı və birbaşa imperial idarəçiliyini bərpa etdi. O, baş kansler vəzifəsini ləğv etdi və mərkəzi bürokratiya yaratdı. Əyalətlərdə məhkəmə məsələlərini həll etməyi qaydaya qoydu. İmperial ailəsinin üzvlərini əyalət liderləri kimi şimala və şərqə göndərdi. *Bakufunun* devrilməsində imperial qüvvələrində birləşmiş yerli döyüşçülər qəniməti bölüşdürdükdə narazı qaldılar. Ordu qiyamı imperatoru Kiotodan qovdu. Qiyamın lideri Aşikaqa Takauci imperial xəttinin digər qolundan imperator qaldırdı, bu vaxt II Dayqo və onun ardıcılları dağlıq Yoşino kəndində rəqib saray təsis etdilər. Sonrakı 60 il ərzində siyasi hakimiyyət şimaldakı və cənubdakı saraylar arasında bölündü. Bu, iki saray arasında sülh yaranana qədər davam etdi. Bu vaxtdan etibarən imperial varisliyi şimaldakı sarayın törəmələrinə qaldı. Uzun mübahisələr nəticəsində yerli döyüşçülər özlərini mərkəzi hakimiyyətdən asılı olmayan hərbi qubernatorlar kimi apardılar, axırıncının qüdrəti xeyli dərəcədə tənəzzülə uğramışdı.

1378-ci ildə Takaucinin nəvəsi Yoşimitsu bakufunu Kiotodakı Muromaçi dairəsinə götürdü, burada hökumət axırıncı ölçüsünü qəbul etdi. O, *syoqun* müavinlərinin köməyi ilə tədricən böyük hərbi qubernatorları dəf edə bildi. O, 1391-ci ildə Yamana ailəsini məhv etdi, sonra daha böyük hərbi qubernatorun öhdəsindən gəldi. Yoşimitsu bu vaxt dövlətin böyük naziri səviyyəsinə qalxdı. O, Kitayamadakı öz kənd yerində məşhur Qızıl Pavilyonu tikdirtdi, onun dəbdəbəli görünüşündən böyük qürur duyurdu. O, Yaponiya kralı titulu altında Çinin Min sülaləsi ilə ticarət və diplomatik əlaqə yaratmışdı.

Hərbi qubernatorların qüdrəti artdıqca *bakufunun* dayaqları titrəməyə başlamışdı, buna təkrar olunan yerli *samurayların* və fermerlərin üsyanı da şərait yaradırdı. Kamakura dövründə hərbi qubernatorların hakimiyyəti təhlükəsizlik məsələləri ilə məhdudlaşırdı. Sonrakı şimal və cənub yarım sarayları dövründə onların nəzarətləri altında zonada icra hakimiyyətləri gücləndi. Narahatlıqlar böyüyəndə onlar hərbi komandanlığın geniş səlahiyyətlərinə yiyələndilər. Onların illik vergilərinin yarısı döyüşçülərə verilirdi, bu bərabər vergi bölgüsü adlanırdı. Hərbi qubernatorların çoxu öz torpaqlarını vərəsə yolu ilə alırdılar və bu yolla bəzi ailələr bir neçə əyalətdə torpağa sahib olurdu. Beləliklə rəsmi qaydada tanınan yeni *syuqo daymyo* sinfi yüksəlirdi, Aşikaqa bakufunun nəzarət etdiyi bakufu zəif idi və xüsusən Yoşimitsunun ölümündən sonra qüdrətli hərbi qubernatorların ona xətər toxundurması meyli nəzərə çarpmağa başladı. O vaxtdan zaman keçdikcə *syoqun* vəzifəsi artan qaydada gücsüz oldu.

Yapon dəniz quldurluğu yatırıldıqdan sonra Çinin Min sülaləsi ilə ticarət başladı. Aşikaqa Takauci Yuan sülaləsi ilə ticarət aparmaq üçün gəmilər gön-

dərmişdi. Lakin daxili iğtişaşlar ucbatından ticarət kəsilmişdi və dəniz quldurları Qərbi Yaponiyanın dənizçilik mahallarından Koreya yarımadasına və qitənin özünə reydlər edirdilər. Koreya Yi sülaləsinin nəzarəti altına keçdikdə və Çində Min sülaləsi meydana gəldikdə dəniz quldurluğunu yatırtmaq məqsədilə bu bakufudan tələb edildi ki, Min Çini və Koreya ilə rəsmi ticarət əlaqələri yaratsın. Yoşimitsu həm tacirlərinin arzusuna müvafiq olaraq, həm də *bakufunu* maliyyə imkanları ilə təmin etmək çün Min Çini ilə və Koreya ilə rəsmi ticarət əlaqələrinə başladı, dəniz quldurlarının əsir götürdüyü çox sayda çinlini vətəninə yola saldı. Buna cavab olaraq Çin Yoşimitsudan bac almaq şərti altında həmçinin ticarət aparmağa başladı. Beləliklə "Yaponiya kralı" Çin imperatoruna bac verməli idi. Bu ticarətdə ticarət gəmilərini quldur gəmilərindən fərqləndirmək üçün onlara Minlərin *kanqofu* adlandırdıqları möhürdən istifadə olunurdu. Həmin vaxtdan *kanqo* ticarəti termini işlənməyə başladı. Bu ticarətin gəliri bakufu üçün çox vacib idi, lakin sonra ona nəzarət iki ailənin əlinə keçdi və onların himayəsi ilə ticarət aparan tacirlər daha da fəallaşdılar. Sonra kanqo ticarəti kəsildi və quldurluq adi hala çevrildi.

Syoqun Aşikaqa Yoşimasanın hökmranlığı dövründə Kioto ətrafı ərazidə iqtisadi çətinliklərlə əlaqədar və imperial varisliyi üstündəki mübahisə nəticəsində böyük vətəndaş müharibəsi başlandı. Düzdür, demək olar ki, hər payız sərt aclıq qiyamların baş verməsinə səbəb olurdu və öz dövrü ərzində syoqun Yoşimasa borcları silmək barədə 13 edikt dərc etdirmişdi, bu "mərhəmət aktı" adlanırdı. Öz uşaqları olmadığından əvvəllər Yoşimasa güman edirdi ki, kiçik qardaşı ona varis olacaqdır. Sonra o, uşaq atası olanda ailənin nəzarəti üçün varislik üstündə mübahisə qalxdı. İki baş inzibatçı və böyük hərbi qubernatorlar bu mübahisədə iştirak etdilər. Önin erasının ilk ili olan 1467-ci ildə tərəflərin təmsilçiləri kimi şərq ordusu ilə qərb ordusu arasında vuruş başlandı. İmperatorun və syoqunun dəstəyi ilə Hosokavanın şərq ordusu irəlilədi. Yaman qərb ordusu isə öz qüvvəsini bərpa edib vuruşu 11 il ərzində davam etdirdi. Döyüşün mərkəzi Kioto idi. Kioto ətrafında dağıntı çox güclü idi, çox sayda iri məbədlər və iqamətgahlar yandırılmışdı. 11 illik müharibədən sonra vuruş əyalətlərə də yayıldı. Bunun nəticəsi kimi əkinçi kəndlər öz müdafiələri üçün silahlı üsyana qalxdılar. Bu silahlı üsyançıların liderləri kökü həmin əkinçi kəndlərdən olan yerli samuraylar idi. Belə adamlar müharibə iğtişaşları ərzində nəticədə özlərini torpaq sahiblərinə - *daymyolara* çevirdilər. Onlar assosiasiyalar təşkil etdilər, bütün əyalətə yayıldılar və bəzən böyük hərbi qubernatorlara meydan oxuyurdular. Nəticədə səkkiz ildən çox müddət ərzində Cənubi Yamaşiro ərazisi özünü idarə edənə çevrildi.

Bu müharibələrdə özəl kübarlıq və keşişlər öz özəl mülklərindən gələn gəliri itirdilər. Onların çoxu paytaxtı tərk etdi, yerli daymyoların himayəsinə qısıldılar. Miqrasiya mərkəzi mədəniyyətin yerlərə yayılmasına kömək etdi. Köhnə ənənələr məhv edildi, lakin onun külündən yeni mədəniyyət doğuldu. Bakufu-

nun siyasi hakimiyyəti faktiki olaraq süqut etdi və real hakimiyyət Hosokava ailəsinin baş inzibatçılarının əlinə keçdi və onların hökmranlığı 1490-1558-ci illərdə davam etdi. 16-cı əsrdə bu hakimiyyət onların özlərinin tutduqları Miyoşi ailəsinin əlində yeddi il qaldıqdan sonra indi də bu ailənin tutduğu Matsunaqalar tərəfindən üç illiyinə qəsb edildi.

Önin müharibəsindən sonra yerli liderlərin gücü xeyli möhkəmləndi, hərbi qubernatorların müavinləri öz ağalarının torpaqlarını qəsb edirdilər, tutulmuş adamlar öz hökmranlıq edənlərini devirdilər və qol ailələr başlıca ailələrdən hakimiyyəti tutub alırdılar. Bu "ağaları dəf etmək müdaxilələri" meyli nəticəsində əvvəlki hərbi qubernatorlar Kiotodan və ətraf əyalətlərdən demək olar ki, bütünlüklə yoxa çıxdılar və onların yerini yeni tip torpaq sahibləri tutdular. Onlar *senqoku daymyo* - "vətəndaş müharibəsi baronları" və ya döyüşən ölkə dövrünün feodal lordları adlanırdılar. 16-cı əsrin birinci yarısına qədər müxtəlif yerlərdəki torpaq sahibləri beləliklə özlərinə güclü hərbi dayaqlar yaratdılar. Bu dövr ərzində torpaq sahiblərinin idarə etdikləri əyalətlər bakufu nəzarətindən demək olar ki, tam azad idilər. Bu daymyoların bəziləri *bunkoku-hö* adlanan öz qanunlarını dərc edirdilər. Əkinçi kəndlərində daymyolar üstəlik torpaq nəzarətini həyata keçirir, irriqasiya bəndləri tikir, yeni düyü tarlaları açırdılar. Onlar yollar və poçt stansiyalarını yenidən quraraq öz qəsr şəhərlərində mərkəzləşirdilər. Bu vaxt kommersiya və kiçik şəhərlər inkişaf edirdi. Artıq bazarlar ayda altı dəfə fəaliyyət göstərirdi və bütün ölkədə təsis edilmişdi. Adəti maneələrin çətinliklərinə baxmayaraq, bütün mahalların məhsulları bu bazarlarda satılmağa yarayırdı. Kioto kimi iri şəhərlərdə mal mübadiləsi bazarları böyük miqdarda düyü, duz, balıq və digər malların alverinə xidmət edirdi. Uzaq məsafələrlə topdansatış ticarəti ixtisaslaşmışdı. Sikkə pulun dövriyyəsi də canlanmışdı, üstəlik Sunq, Yuan və Min sülalələri Çinindən müxtəlif növ mis sikkələr idxal edilmişdi. Ölkə daxilində özəl qaydada buraxılan sikkələr də dövr edirdi, bununla mübadilə dərəcələrində qarışıqlıq artırdı. *Bakufu* və torpaq lordları xalqa yaxşı sikkələri yığıb saxlamağı qadağan edən qanunlar dərc etsələr də, bunun elə bir səmərəsi olmurdu. Liman şəhərləri mübadilə mərkəzləri kimi inkişaf edirdi. Sake bişirənlər, brokerlər və topdansatış tacirləri şəhərlərin aparıcı sakinlərinə çevrilirdi, *otopa* adlanan şəhər ağsaqqalları seçilirdi ki, məclisləri vasitəsilə yerli idarəetməni icra etsinlər.

Döyüşən daymyolar özlərinə ərazilər tutanda mərkəzi hakimiyyət dəniz ticarəti üzərindəki nəzarəti həyata keçirməyini kəsdi. Daha sonra yapon qarətçiləri çin dəniz quldurları ilə birlikdə yenidən fəallaşdılar. Elə bu vaxt ispanlar və portuqaliyalılar arxipelaqa gəlib çıxdılar. Yapon mənbələrinə görə 1453-cü ildə ilk portuqaliyalılar Kyusyunun cənubunda olan Taneqa adası yaxınlığında gəmi qəzasına uğradılar. Onlar Yaponiyaya gələn ilk avropalılar idi və muşket qayırmaq sənəti onlardan həmin vaxt yaponlara keçdi və sürətlə yayılmağa başladı. 1549-cu ildə iezuit missioneri İqnatus Loyolanın silahdaşı Frantsisk

Xavyer Kaqoşimaya gəlib çıxdı. İki il missioner işi apardıqdan sonra o, Yaponiyanı tərk etdi və ondan sonra ardıcıl olaraq iezuit missionerləri buraya gəlirdi. Missionerlər Portuqaliyadan olan ticarət gəmilərini xristianlığı təbliğ etmək üçün istifadə edirdilər və bu gəmilər onların limanlarına daxil olanda torpaq lordları missionerlərin fəallığına yaxşı münasibət göstərmirdilər. Beləliklə torpaq lordları xarici ticarətdən fayda gözlədikləri və hərbi sursat və ehtiyat əldə etdikləri vaxt xristianlığı daha artıq himayə edirdilər, nəticədə bəzən hətta onlar xristianlığa keçirdilər. Üç Kyusyu xristian lordu Romaya səfirlik göndərmişdi. Missionerlərin fermerlərə yüngül sosial iş verməsinin və tibbi yardım göstərməsinin təsiri altında onlar da həmçinin artan sayda xristianlığı qəbul edirdilər.

Mülki kübarlıq ənənəvi mədəniyyəti qəbul etdikdə hərbçi ailələri özlərini Kiotoda yerləşdirdilər və bu vaxt həmçinin buraya Sunq, Yuan və Min sülalələrinin qitə mədəniyyətini gətirdilər. Bu mədəniyyət xüsusən dzen-buddizmlə bağlı idi, bununla yeni hərbi ailə mədəniyyəti dəbi yaradırdı.

14-cü əsrin sonunda syoqun Aşikaqa Yoşimitsunun qızıl erası başlandı və syoqunun himayəsi altında Kiotodakı beş dzen monastırında təhsil və incəsənət inkişaf etdirildi. Renqa şeiri və No dramı gücləndi. Syoqun Yoşimasanın tikdirdiyi Gümüş pavilyon və onun bağı yeni mədəniyyətin nümunələri oldu. Bu dövrdə müqəddəs yerlərə, o cümlədən Fudzi dağının zirvəsinə ziyarət adəti populyarlaşdı. Sinto ibadət yerləri buddist nəzarətindən azad edildi və Sinto prinsipləri bəyan edildi. İncəsənətdə No dramı kənd təsərrüfatı bayram rəqslərinin təsiri altında Kamakura dövründə inkişaf etdi. Məbəd mərasimlərində və matəmlərdə xidmət etmək üçün gildiyalar yaradıldı. Dzenin tərəqqi etməsi ilə tikililərdə *şoin* üslubu yarandı, bunu hərbçi ailələri və mülki kübarlar öz iqamətgahlarının tikintisində istifadə etdilər. Bu üslub müasir ölkə arxitekturasının bünövrəsinə çevrildi. Başlanğıcdan şoin rahiblərin buddist mətnlərini oxuduğu otaq idi. Otağın içərisində tatami adlanan saman həsir salınırdı. Buddanın obrazının nəqş edilməsi və rəngkarlığı Kamakura dövründə çiçəkləndiyi halda sonradan tənəzzülə uğradı. Rahiblər tərəfindən Sunq və Yuan üslubundakı təkrəngli təsviri sənətin tətbiqinə başlandı. Kamakura dövründə Sunq Çinindən buddist keşişlər tərəfindən gətirilən çay içmə döyüşçülər və ümumi xalq arasında yayıldı. Çay mərasimlərinin inkişafı ilə birlikdə çay evlərinin tikilməsi, çiçək dəstəsi düzəldilməsi, dulusçuluq və yapon tortlarının bişirilməsi kimi yeni formalar da gətirildi. Hiqaşiyama mədəniyyəti ümumi xalq içərisinə daha çox nüfuz etməyə başladı, şəhərlərdə yaşayış və təhsil səviyyəsi yüksəldi.

# XII HİSSƏ. CƏNUBİ AMERİKADA İNKA SİVİLİZASİYASI

## FƏSİL 1
## CƏNUBİ AMERİKA KONKİSTADORLARIN İŞĞALINDAN ƏVVƏL

Cənubi Amerikadakı Orta Horizont b.e. 600-cü illərindən başlamışdır və cənubi dağlıqların birləşdirdiyi geniş ərazilərin təsiri ilə əlamətdar olmuşdu. Bir mərkəz Tiahuanako olmaqla Titikaka hövzəsindən cənuba tərəf Çili sahilinə uzanırdı, digəri isə Huari idi. Bu isə Perunun çox hissəsini tuturdu. Tiahuanako sferası başlıca olaraq tapılan dulusçuluq və ağac üzərindəki nəqşlərdəki sırf öz üslubu ilə müəyyən olunur. Bu qısa müddətdə mövcud olmuş imperiyadan xəbər versə də, bu imperiya barədə şəhadətlər tam qənaətləndirici deyildir. Huari sferası isə tam əminliklə imperiya adlana bilər. Bu imperiya İka və Naska sahil vadiləri ilə Huari vadisi arasındakı qarşılıqlı əlaqələrdən başlamışdı, lakin burada Naskanın təsiri güclü idi. Sonra Huarinin ekspansiyası başlandı. Konsolidasiya dövrü başa çatdıqdan sonra ekspansiya intensivləşdi, şimalda Çiçama vadisinə, cənub sahilində isə Okofia vadisinə çatdı. İmperiyanın ərazisinin belə genişlənməsi 800-cü illərdə baş verdi.

İmperiyanın böyüməsi və onun təbiəti bir sıra xüsusiyyətlərində əks olunur. Bunlar geniş yayılmış Huari dulusçuluq üslublarıdır, Giriş Allahına və digər dini şəxsiyyətlərə aid olan əşyalardır. Bunlar əsasən çox rəngli məmulatlar və mifoloji, insan və heyvan fiqurlarıdır. Huari üslubunun aparıcı rol oynaması nəticəsində Naskadan Moçeyə qədər olan bütöv sahil boyu köhnə dulusçuluq üslubları yoxa çıxmağa başladı. Cənubun dəfn adətləri bir yerə yığıldı, sahil boyu şimala doğru parçaya bürünmüş mumiyalar yayıldı və bu uzanıqlı dəfn etmə dəbinin yerini tutdu. Kusko vadisində iri anbar binaları mövcud idi. Hərbi fəallıq sonralar inkalar dövründə olana bənzəyirdi. Şimalda sahildə bir neçə şəhərlər o vaxtlar salınmışdı, burada güman ki, cənubun təsiri özünü göstərmişdi. Bütün bu dəyişikliklər hərbi işğallar üçün mühüm əhəmiyyət daşıyırdı.

Mərkəzi sahildə İnka dövrünə qədər Orta Horizont dövründən başlanan Paçakamak mərasim mərkəzi mövcud idi, burada böyük məbəd və orakullar qoyulmuşdu. Bu mühüm əhəmiyyətə malik olan şəhər olmaqla müəyyən dərəcədə Huari imperiyasından asılı deyildi. Onun dulusçuluğu da sahil Huarininkindən fərqli idi. Burada xüsusi məxluqun təsvirinə tez-tez rast gəlinir, bunu çox vaxt qriffin adlandırırlar, onun qanadlı bədəni, insan əlləri və qartal başı olurdu.

Onların təsiri inka dövründə olduğu kimi siyasi deyil, daha çox dini xarakter daşıyırdı.

Çacamarka yaxınlığındakı Maranonda drenaj sistemi istehkamlanmış böyük təpə yüksəkliyi idi, daşdan tikililərə malik idi, onların divarları xeyli hündür idi. Onlar dəyirmi qalanı qruplaşdırırdı və ikinci divarla əhatə olunmuşdu. Güman ki, düşmən öz kampaniyaları ilə bunu tikməyə sövq etmişdi. Eyni adamlar tərəfindən 150 km şimalda belə divarlı kiçik şəhər tikilmişdi.

Huari imperiyası öz yüksək inkişaf nöqtəsinə 800-cü ilə yaxın çatanda, mərkəzdən süqut etməyə başladı. Huari yoxa çıxdı, belə hadisə Tiahuanakonun da başına gəlmişdi, onların həmin vaxt 5 mindən 10 minə qədər əhalisi var idi. Limanın yaxınlığında da iri şəhər mərkəzi mövcud idi. Maraqlıdır ki, cənubda şəhərlərin yoxa çıxması şimal sahillərində şəhər məskənlərinin salınması ilə bir vaxta düşmüşdü.

Huari süqut etdikdən sonra onun yoxa çıxmasının əlamətləri əyalətlərdə öz təsirini göstərməyə başladı. Yerli dulusçuluq üslublarında müxtəlif dəyişikliklər baş verdi. Onların arasında şimal mərkəzi sahil zolağında yeni üslub inkişaf etdi. Bu üslubun ən mühüm məhsullarından biri oval şəklində olan bardaq idi, qara, ağ və narıncı rənglərə boyanmışdı, üstündə pişiyin reylefi və digər rəsmlər nəqş olunmuşdu.

Sonrakı Aralıq dövrü 1000-ci ilə yaxın başlamaqla, Huari tərəfindən qoyulmuş birlik əlamətlərini məhv etdi. Çimu dövlətinin toxumları güman ki, elə bu vaxt səpilmişdi. Hər yerdə kiçik müstəqil dövlətlər mövcud idi, mərkəzi və cənub sahillərində olanlar heç də sadə vadidə olan dövlətlərdən böyük deyildi. Burada bir sıra texniki irəliləyişlər baş vermişdi, güman ki, Argentinanın şimali-qərbindən və Boliviyadan Peru sahillərinə bürünc yayılmışdı. Oralarda isə qalay filizi tapılmışdı və Orta Horizont dövrü ərzində bürünc emalatxanaları meydana gəlmişdi. Dulusçuluq əksər ərazilərdə keyfiyyətcə yaxşılaşmışdı. Baxmayaraq ki, onların sənət xarakteri hər yerdə bərabər deyildi. Kütləvi istehsalla əlaqədar olaraq standartlaşma meylləri və rənglərin sayının ixtisar edilməsi özünü göstərirdi. Yeni toxuculuq texnikasının qəbul edilməsi vaxtını müəyyən etmək çətindir. Xovsuz xalça (şpaler) toxunması hələ Erkən Horizont dövründən məlum idi, lakin sonrakı vaxtlarda bir qədər tənəzzülə uğramışdı. Parçalar bütün sahil boyu bir-birinə bənzəyirdi. Paltarlar üfuqi və ya diaqonal xəttlərlə stilləşdirilmiş quşlar ya balıqlarla bəzədilirdi.

Şimal vadilərində irriqasiya sistemləri xeyli inkişaf etmişdi, ona görə də torpaqların çoxu becərilirdi. Həm də əhalinin bir hissəsi Çimu hökmdarları tərəfindən başqa vadilərə uzaqlaşdırılırdı, Çimu hökmdarı Pinko 1370-ci illər ərəfəsində idarə etməyə başlamaqla öz dövlətini genişləndirməyə girişdi. Ondan sonra gələn altı hökmdar cənubda demək olar ki, Limaya qədər qalan sahil zolağını işğal etdi. Lakin bu zəfərin ömrü qısa müddətli oldu, çünki Çimu dövləti

özü 1460-cı illərdə inkalar tərəfindən işğal edildi. Çimu dövləti Moçe vadisində, onun paytaxtı Çan Çan yerləşən yerdən öz başlanğıcını götürmüşdü. Burada paytaxta bənzər digər şəhərlər də mövcud idi. Onların hamısı divarlarla əhatə olunmuşdu. Şəhərlərdən aralıda müdafiə olunan məskun yerləri var idi. Onlardan biri mübarizədə terraslanmış təpəliyi və vadi tərəfini tutub başlıca kanallardan üçünə nəzarəti öz əlinə aldı. Məskun yerlərinin üçüncü tipi iri irriqasiya ərazisinin ortasında yerləşmişdi.

Çimu güclü, təcavüzkar və mütəşəkkil dövlət olmasına baxmayaraq, sıxlaşmış əhalisini saxlamaq üçün irriqasiya sistemindən asılılığı, onu hücum qarşısında davamsız etmişdi və bu inkaların onların üstündə asanlıqla qalib gəlməsinin başlıca faktorlarından biri olmuşdu.

İspan konkistadoru Fransisko Pisarro və onun ardıcılları ilk dəfə 1527-ci ildə Peruya gəlib çatanda inkalar imperiyanı idarə edirdilər. Bu imperiyanı onlar Tayantinsuyu adlandırdılar və onun əraziləri Ekvadorun şimal sərhədindən Mərkəzi Çiliyə qədər uzanırdı. Köhnə hesablamalara görə imperiyanın 12 milyon əhalisi var idi və bu əhali bir-birilə əlaqəsi olmayan ən azı 20 dildə danışırdı. Bir əsr əvvəl inkalar Kusko vadisindəki öz kəndinin arxasındakı kiçik əraziyə nəzarət edirdilər. Onlar yüzdən artıq etnik qrupu məğlub və özlərinə tabe etməklə öz imperiyalarını formalaşdırmışdılar. Bu qrupların hər biri İnka dövlətində birləşməmişdən əvvəl öz həyat yoluna və idarəetmə formalarına malik idi. İnkalar öz tarixlərini təfsilatına qədər qoruyub saxlayırdılar ki, malik olduqları siyasi və iqtisadi faydaları əsaslandırsınlar. Bu ənənələr şifahi qaydada nəsildən nəslə keçirdi və sənətkar "yadda saxlayanlar" qrupu ya inka elitasının üzvü, ya da ona yaxından bağlı olan adamlar idi. Bu ənənələr ispan xronikyorları tərəfindən 16-cı əsrdə qələmə alındı və onların xəbər verdiyi tarix müxtəlif inka hökmdarlarının yaşayış şəraitindən və fəaliyyətindən bəhs edir. Ümumən qəbul edilmiş hökmdarların siyahısı verilir və onların çarlıq korporasiyasının və ya panakaların adı göstərilir.

İnkalar bütün tarixi ənənələrin həyata keçirilməsinə hərtərəfli nəzarət edirdilər. Nəticədə bunun müqabilində inka tarixinin rəsmi versiyası meydana gəlirdi, bu paytaxtdan elan edilirdi və siyasi rejimi qoruyub saxlamağa xidmət edirdi. Bəzi ənənələr öz təbliğat dəyərinə görə ictimai qaydada aşkar edilirdi, digərlərinin detalları isə ciddi qaydada məxfi saxlanırdı. Digərləri isə hələ də örtülü saxlanırdı, çünki onlarda potensial olaraq zərərli informasiyalar var idi. İnkalar And xalqı olub bu ərazinin digər etnik qruplarının çox sayda davranış nümunələrinə və ideallarına şərik qaydada malik idi.

Ən mühüm əhəmiyyət kəsb edən ideallardan biri özünü kifayətləndirmək idealı idi. Bu o demək idi ki, hər bir etnik qrupun üzvləri çalışırdı ki, bütün il boyu özlərini saxlamaq üçün lazım olan ehtiyatların hamısına nəzarət etsinlər. Beləliklə onlar özlərini zəruri mallarla və xidmətlərlə təmin etməkdə başqa qrup-

lara bel bağlamasınlar. Bu ideala nail olmaq məqsədilə hər bir qrup səmərəli surətdə dünyadakı ətraf mühitin çox müxtəlifliyinin öhdəsindən gəlməli idi. And ərazisi çox fərqli taxçaların ekoloji mozaikasından ibarət idi. O vaxtlardan qida məhsulları yalnız bir və ya az sayda olan bu taxçalarda yetişdirilirdi, burada onların yararlılığı və bolluğu cəhətincə yerin biri ilə digərinin arasında əhəmiyyətli fərqlər var idi. Taxıl (qarğıdalı) dəniz səviyyəsindən 3 min metr hündürlükdə nadir hallarda becərilirdi, çünki becərmə mövsümü çox qısa olurdu. Kartof nadir halda aşağıda becərilirdi. Bir çox qida maddələrinin əldə edilməsində həmçinin mövsümi və illik müxtəlifliklər mövcud idi.

İdeal cəhət o sayılırdı ki, qrup Andda istifadə edilən qida ehtiyatlarının bütün növlərinə malik olsun. Onlar həmçinin orada olan ekoloji taxçaların bütün növlərinə malik olmalı idi və ərazidəki ehtiyatları səmərəli qaydada bölməli idilər. Bunu etməklə onlar iki mühüm nümunəni tanıdılar. Birincisi, özlərini 20 km-dən 30 km-ə qədər təkrar edən ərazilərin malik olduğu resurslar seriyasından birinin təkrar istehsal edilməsi idi. Bu Peruvian Andın qərb tərəfində daha aydın nəzərə çarpırdı. Burada münbit çay vadiləri özlərinin bol ərzaq ehtiyatı ilə bir-birindən qısır, barsız səhra və təpələrlə ayrılırdı. Bu dağlıq ərazilərdə də baş verirdi, burada şimaldan cənuba uzanan çay vadiləri bir-birindən alp çəmənlikləri ilə ayrılırdı. Digər nümunə isə xətti bölmə idi, buradakı ehtiyat əraziləri heç vaxt bir daha təkrar olunmurdu. Bu da həmçinin Alpın qərb hissəsində daha artıq nəzərə çarpırdı. Taxıl və digər məhsullar uzun böyümə mövsümü tələb edirdi və aşağı yaruslarda becərilirdi. Kartof tarlaları orta yarusları tuturdu, yuxarı yaruslarda şaxtasız günlərin azlığı torpağı becərməyə imkan vermirdi.

Təkrarlanan və dar bölmə torpaqları arasındakı fərq öz ehtiyacları üçün müxtəlif yollarla qida istehsal edən qruplara mühüm təsir göstərirdi. Ona görə də dağda yaşayan qruplarla vadilərdə yaşayanların qida resursları tam fərqli idi. Qida axtaran qrup öz yerində onu tapmayanda dar bölmələrdəki qida resurslarını istehsal etməyə məcbur idilər. Qida ehtiyatının qıt olduğu ərazilərdəki adamlar təkrarlanan ehtiyat olan ərazilərə üz tuturdular. Qonşuluqdakı vadilərdə məskunlaşanlara öz torpaqlarının bir hissəsini verməklə onlar əlavə qida ehtiyatı əldə edirdilər.

İnkalar və onların dövlətləri özlərinin tarixi boyu özünü təmin etmə qaydasında hərəkət etməklə geniş fəallıq göstərirdilər. Digər And xalqları kimi inkalar özlərini təmin edən olmaq istəyirdilər və bu məqsədə çatmaq üçün yeni, məlum olmayan yolla işləyirdilər. İnkalar tarixi ənənələri düzgün olsa belə, bunların baş verməsi faktı onların öz işğallarına haqq qazandırmaq istəklərindən az əhəmiyyət kəsb edirdi.

Bir sıra And xalqları öz əcdadlarının izini mifik şəxsiyyətlərdə görürlər, guya onlar yerin deşiyindən çıxmışlar. Bu mənşə yerini *pakvarina* adlandırmaqla orada sərdabə qurub dini ibadətləri icra edirdilər. Belə inka pakvarinası Pakvari-

tamruda, Kuskodan 15 mil cənubda yerləşirdi. Burada üç mağara var idi və İnka sülaləsinin baniləri olan Manko Kapak və onun üç qardaşı və dörd bacısı ortadakı mağaradan çıxmışdılar. Onlar mağaranın başqa tərəfindən çıxmış xalqın on qrupu üzərində başçılıq edərək onları uzunluğu məlum olmayan müddətdə səfərə aparmışlar. İnkalar və onların ardıcılları bu dövr ərzində bir kənddən digərinə keçmişdilər ki, özlərini qida ilə təmin edə bilən münbit torpaq tapsınlar. Nəhayət onlar Kusko ətrafındakı münbit torpağa gəlib çatdılar və tədricən öz qonşularının işlərinə qarışıb onların öz azadlıqlarını saxlamaları üçün bac verməyə məcbur etdilər. Bu vaxt Manko Kapak tam qocalmışdı və ölümünə yaxın idi. Bütün qazanılanların öz törəmələrinə çatacağına əmin olmaq üçün o, öz böyük oğlu Sinçi Rokanı taxt-tacda onu əvəz etməyə varis göstərdi. Sonrakı oğlunu isə sığınacağa göndərdi ki, bütün uşaqlarına və törəmələrinə qayğı göstərsin.

İkinci imperator olan Roka sülhsevər adam olmaqla, inka torpaqlarını genişləndirmək üçün heç bir hərbi kampaniya aparmadı. Üçüncü imperator da bu məsələdə öz atasına oxşadı. Dördüncü imperatorun hökmranlığı dövründə əlavə torpaqlar tutmaq və ən vacibi özlərini ərzaqla təchiz etmək zərurəti meydana çıxdı. 14-cü əsrdə bu ehtiyac üçün yaranan səbəblər şübhəsiz ki, mürəkkəb idi və burada sadə bir amili ayırmaq çətindir. Güman edilən izahlardan biri ondan ibarət idi ki, bu dövrdə bütün Mərkəzi Andlarda yağış yağması azalmağa başladı. Kusko vadisinə bənzəyən ərazidə əkinçilik çətinləşdi, çünki müvafiq olaraq su ilə təmin edilmirdi və onlar ilbəil az məhsul götürürdülər. İnkalar əgər keçmiş yaşayış səviyyəsini saxlamağa cəhd etsəydilər, onlar öz qida mənbələrinə bəzi təzyiqlər göstərməli idilər. Bu problemi həll etmə yollarının biri vadinin əlavə hissələrində yeni torpaqlar tutmaq və su mənbəyinə malik olmaq idi. Dördüncü imperator Mauta Kapak da açıqca bunu etdi. Xronikalar onu təcavüzkar gənc kimi təsvir edir və o, hələ çox gənc olanda qonşu qrupdan olan oğlanlarla vuruşmağa başlamışdı. Dalaşma onunla başlamışdı ki, inkalar həmin qrupdan suyu götürmüşdülər. Mauta Kapak imperator olan vaxtdan bu dalaşma tam miqyaslı müharibəyə çevrildi və onda inkalar qalib gəldi. Onlar öz düşmənlərinin evlərini qarət etdilər və onların bəzi torpaqlarını tutdular və güman ki, onların üzərinə həm də müəyyən növ bac ödənilməsini qoydular.

Beşinci imperatoru da atası ölməmişdən əvvəl özü təyin etmişdi. Göründüyü kimi o, böyük oğlu deyildi, böyük oğul eybəcər olduğundan o, varis adlanmışdı. Kapak Yupankvi ilk inka hökmdarı idi ki, Kusko vadisindən kənarda torpaqlar işğal etməyə başlamışdı, baxmayaraq ki, bu ərazi onlarla mil arasında idi. Atasından sonra taxt-taca çıxan İnka Roka 12 mil aralıda yaşayan sakinləri özünə tabe etdirmişdi. Bu ərazi Kuskodan cənub-şərqdə idi. Onun çox sayda oğlanları var idi və onlardan səkkiz yaşında olan birini qonşu qrup oğurlamışdı. Uşağın anasının başqa qrupun liderinə ərə getməsi vəd olunubmuş. Lakin o, İnka Rokaya ərə getdiyindən rəqib Ayarmaka qadının tayfasına qarşı müharibə

başlamış və onu məğlub etmişdi. Bu tayfa sülh şərti kimi qadının oğlunun Ayarmakaya verilməsi ilə razılaşmışdı. Həmin dövrdə bu Kusko vadisində müharibənin başlanmasına aparıb çıxardı. Ayarmakalar uşağı atasına qaytarmamışdan əvvəl bir neçə il saxladılar. Bu göstərir ki, bu ərazidə bir neçə qrupa görə inkalar o qədər qüvvətli deyildilər. İki il sonra imperator İnka Roka öləndə taxt-taca yeddinci imperator çıxdı. Yeni imperator o qədər sağlam deyildi və vaxtının çoxunu Kuskoda keçirirdi. Onun qardaşları isə bacarıqlı hərbi liderlər olmaqla, Kuskodan cənubda və şərqdə olan torpaqları öz ərazilərinə birləşdirdilər. İmperatorun baş arvadı Ayarmakalardan idi və bu göstərir ki, həmin dövrdə bacıya evlənmək adəti yox idi. Bu qadın ona üç oğul doğdu və o da atasının yolu ilə gedərək ikinci oğlunu növbəti imperator adlandırdı. Digər arvadları ilə olan intriqa nəticəsində oğlu öldürüldü. Bu qadınlar da öz doğma oğlanlarının varis adlanmasını istəyirdilər. Bundan bir az sonra imperatorun özü də öldürüldü və ağsaqqallar onun varisi olmağa Virakvoça İnkanı seçdilər. Onun dövründə 15-ci əsrin erkən vaxtlarında inka işğalı başlandı. Bu dövrədək qonşu etnik qruplar məğlub edilmiş və onların torpağı tutulmuşdu. Lakin onların arasında heç bir inka qarnizonu və ya qulluqçusu yerləşdirilməmişdi. Onlar o vaxtadək toxunulmamış qalmışdılar ki, həmin vaxt inkalar onlara yenidən hücum etmək zərurətini hiss etməyə başladılar.

Virakvoça İnkanın hökmranlığı dövründə yürüş etmək və qarət etmək qaydası dəyişdi. O, həmin qrupların üzərində daimi idarəetmə qurmaq istəyirdi, ona dayıları da kömək edirdi, onlar da daimi işğalı mümkün edən hərbi taktikaya yiyələnmişdilər. Kusko vadisinin cənubunda Ayarmaka çarlığının onlar tərəfindən işğal edilməsi sonrakı çoxlu kampaniyaların modelinə çevrildi. Onlar ilk dəfə Urubamba vadisinin yuxarı hissəsindəki torpaqları işğal etdilər, onlar Ayarmaka ərazisinin arxasında idi. Sonra onlar iki istiqamətdən Ayarmakalara uğurlu hücum etdilər - qüvvələrin biri Kuskodan gəlirdi, digəri isə Urubamba vadisindən. Bu tam miqyaslı kampaniya deyildi, lakin inkaları Urubamba vadisində siyasi qüvvə etdi. Bu Kusko ilə Titikaka gölü hövzəsi arasındakı mühüm keçid yolu idi. Onların işğalının nəticəsi kimi inkalar aymara dilində danışan iki çarlıq arasındakı münaqişəyə müdaxilə etməyə dəvət edildi. Bu çarlıqlar Titikaka hövzəsinin şimal hissəsində yerləşirdi, lakin inkalar hücum etməmişdən əvvəl Kolla çarlığı Lupakaya hücum etdi və məğlub oldu. İnkalar gəlib çıxanda döyüş başa çatmışdı. Onlar Lupaka ilə qələbəni bir yerdə bayram etdilər, lakin qənimətə şərik çıxa bilmədilər.

15-ci əsrin əvvəli ərzində inka ərazisindən qərbdəki zonada Çankas adlanan qrup siyasi qüvvə kimi meydana çıxdı. Onlar da həmçinin qida ehtiyatlarının azalmasını hiss etmişdilər və öz yaşayış standartlarını saxlamaq üçün ərazilərindən kənarda torpaq əldə etmək istəyirdilər. Onlar hərəkət edib inkaların nəzarət etdiyi iri torpaqlar qrupunu tutdular və 1438-ci ildə çankaslar inkalara hü-

cum etdilər. Çankasların müdaxiləsinin başlıca səmərələrindən biri onların inkalar arasında adamları vətəndaş müharibəsinə təhrik etməsi idi. Virakvoça inkanın taxt-tacda varisinin kim olması üstündə Kuskodakı sarayda intriqa başlanmışdı. İmperator öz varisi kimi İnka Urkonu seçmişdi, lakin iki general onun digər oğluna üstünlük verdilər. Çankaslar Kuskoya yaxınlaşanda ata və onun seçdiyi varis Kalka yaxınlığındakı forta geri çəkildilər, iki general və az sayda kübarlar şəhəri müdafiə etməyə qaldılar. Onların müdafiəsi uğurlu oldu və onlara öz müttəfiqləri qoşulduqdan sonra onlar çankaslara iki ağır zərbə vurdular. İmperatorun generallar tərəfində olan oğlu onların arasındakı narazılığı həll etməyə cəhd etdi, lakin danışıqlar baş tutmadı və o, özünü Paçakuti titulu ilə imperator elan etdi. Bu andan da iki inka dövləti, biri Kuskoda, digəri isə Kalkada olmaqla birinciyə Paçakuti, ikinciyə isə Virakvoça İnka başçılıq edirdi. Kusko qrupunun gücü və nüfuzu böyüdükcə çox sayda adam Paçakuti İnkaya qoşulmaq üçün Kalka fraksiyasını tərk edirdi.

Paçakuti İnka iki düşmənlə eyni vaxtda hesab çəkməli idi - çankaslarla və öz atasının qüvvələri ilə Kusko fraksiyası çankaslarla iki toqquşmada bəzi fayda əldə etdi. Onlar çankaslardan bir sıra kveçua torpaqlarını aldılar və kveçua ilə ittifaq yaratdılar, axırıncılar çankaslar əleyhinə onları dəstəkləyirdilər. Onlar sonra çankaslarla razılaşmaya girdilər. Hər iki qrupa icazə verildi ki, öz müstəqil hərbi irəliləyişlərini etsinlər və ya fayda kimi uzun müddət onlara hücum edilməməsi vəd edildi. Bu vaxtdan Kusko fraksiyası öz ordusunu şərq tərəfə Kalka fraksiyasının nəzarət etdiyi sərhədə doğru hərəkət etdirdi. Bu manevr vasitəsilə Kusko fraksiyası iki istiqamətdən eyni vaxtda gələn mümkün hücumun qabağını aldı. Virakvoça İnka bu vaxtlar öldü və İnka Urkonu Kalka fraksiyasının lideri kimi qoyub getdi. Axırıncı az sonra Kusko qrupu ilə toqquşmada öldürüldü. Bunun nəticəsində iki fraksiya arasındakı çətinliklər həll edildi və inkalar yeganə liderin başçılığı altında yenidən birləşdilər.

İnkalar qüvvələri kveçua ərazisini keçib Vilkas və Soras əyalətlərinə hücum etdilər, bu zonanın cənub-qərbinə çankaslar nəzarət edirdi. 1445-ci ilə yaxın Paçakuti İnka öz qardaşı Kapak Yupankvini cənub sahilini kəşf etməyə göndərdi, bununla da inkalar ilk dəfə okeana gəlib çıxdılar. Kuskoya qayıdan Kapak Yupankvi çankas ərazisindən keçib onların bir neçə kəndini işğal etdi. Çankaslar uzaqlaşan inkaların arxasınca düşüb Titikaka gölü hövzəsində Kollanı tutdu. Çankasların bu hərəkəti onlarla inkalar arasındakı gərginliyi artırdı, lakin heç bir döyüş baş vermədi. Bunun əvəzində onlar Vilkasın şimal zonasına birgə müdaxilə etməyi qət etdilər. Paçakuti İnka öz qardaşı Kapakı inka qoşununa başçı təyin etdi, onu çankas xəyanəti barədə xəbərdar etdi. Ekspedisiya şimal tərəfə hərəkət edəndə çankaslar döyüşdə özlərini göstərdilər ki, inkaları utandırsınlar. Paçakuti İnka bunu eşidəndə, o, qorxdu ki, çankas qüvvələri qiyam qaldıra bilər və qardaşına göstəriş verdi ki, çankas liderlərini öldürsün. Çankas-

lar bu göstərişdən xəbərdar olduqda tropik yağışlı meşəyə qaçdılar ki, bu qətl icra edilə bilməsin.

Kapak Yupankvi çankasları qardaşı qoyduğu sərhədə qədər qovdu, sonra şimaldakı varlı əyalətlərə tərəf döndü. Kapak Kacamarkiya hücum edib onu işğal etdi və Kuskodakı kimi burada kiçik qarnizon qurdu.

Paçakuti İnka hadisələrin belə dönməsində maraqlı idi, o, öz qardaşlarının niyyətlərindən hali idi. Kapakın taxt-tacı qəsb edəcəyindən qorxaraq Kuskoya girməmişdən əvvəl onu öldürtdü. İnkalar hələ də çankaslarla mübarizə aparırdılar və şimaldan düşmən qrupların, o cümlədən Çimu çarlığının hücumlarının mümkünlüyünə görə işğal kampaniyasına başladılar. Paçakuti İnka situasiyanı yüngülləşdirmək üçün iki ekspedisiya təşkil etdi: biri Titikaka hövzəsinin xalqlarını məğlub etmək və cənub qoluna öz qəyyumluğunu qurmaq idi, digəri isə şimal zonasını özünə tabe etmək idi. Titikaka kampaniyasını o, özünün iki böyük oğluna həvalə etdi. Onlar bundan əvvəl Kollanı tabe etdirmişdilər və indi diqqəti Lupakaya və onun müttəfiqlərinə tərəf döndərmişdilər. Kampaniya başa çatanda inkalar Kusko ilə göl hövzəsinin cənub qurtaracağı arasındakı bütün əraziyə nəzarət edirdilər. Şimal ekspedisiyasına isə onun digər oğlu başçılıq edirdi, o, kveçua və çankasların ərazilərini özünə tabe etmişdi. Topa İnka adlanan bu gənc dağlıq ərazi Kacamarkaya tərəf yürüş etdi, yollandığı ölkəni tabe etdi və sakitləşdirdi. Çimu çarlığından təhlükə gözləndiyinə görə burada qarnizon qurdu, şimalda Kiotoya (Ekvador) qədər olan şimal ərazisini tutdu. Lakin regionun coğrafiyasını bilməməsi bu yürüş vaxtı onun planlarını pozdu və o, dağlıq sahəyə qayıtdı. Nəticədə inkalar bu vaxtadək çimu ordularına eyni vaxtda hücum etməyə qadir idilər, bu hücumlar şimaldan müxtəlif istiqamətlərdən baş verirdi. Qısa, lakin ağır döyüşdən sonra inkalar çimuların paytaxtı Çan Çanı qarət etdilər və sonra sahil boyu ilə cənuba doğru irəlilədilər, bu zonanı da inkalar öz nəzarəti altına aldılar.

Topa İnka Kuskoya qayıtdı və öyrəndi ki, heç kəs artıq inka qüvvələrinə meydan oxuya bilməz.

İmperiyanın sürətlə genişlənməsi hesabına onun tərkibində özləri ilə yanaşı çox sayda dəyişdirilmiş etnik qruplar da var idi. Paçakuti İnka və Topa İnka güclü təxəyyülə malik idilər və bir sıra yeni mühüm inka institutları yaratdılar. Paçakuti İnka Kuskonu yenidən tikməyə başladı. İmperiyanın siyasi və dini paytaxtına diqqət göstərməklə yanaşı, Kusko vadisinin yuxarı qurtaracağında geniş kənd təsərrüfatı layihəsi həyata keçirdi. Çaylardan kanallar çəkildi, ətrafdakı təpəliklərdə terraslar yaradıldı. Bu həmin zonada əkinçilik məhsulu istehsalını xeyli artırdı, buradan hərəkət edən yerli adamların çoxunu layihənin başa çatdığı beş il ərzində bu işlərə cəlb etdi. Paçakuti İnka Yupankvi diqqətini həm də sosial problemlərə çevirdi. Belə bir dekret verdi ki, heç bir hökmdar öz sələfinin mülkiyyətini miras kimi götürməyəcəkdir, bunun əvəzində ölən hökmdarın əmlakı

başqa törəmələrinə keçəcəkdir. Bu törəmələr özlərini həmin torpaqlarla və onlara çatacağı zəhmət vergiləri ilə saxlayacaqlar. Nəticədə yeni imperator öz ətrafındakıları və hökuməti saxlamaq üçün torpaq və işçi qüvvəsi almalı idi.

O, güman ki, bu dövrdə adamların başqa torpaqlarda zorla məskunlaşdırılması siyasətinə başladı. Bundan məqsəd dövlətə loyal münasibət tərbiyə etmək və torpaq ehtiyatlarından daha yaxşı istifadə etmək idi. Bu praktikaya etnik qrupların bəzi üzvlərini öz doğma ərazilərindən uzaq məsafədə olan torpaqlara köçürmək daxil idi. Yeni zona işğal ediləndə loyal sakinlər inkanın hökmranlığı altında uzun müddət olan əyalətlərdən ora gətirilirdi, bu sakinlərə idarəçiliyin inka sistemi yaxşı məlum idi. Onların əvvəlcə yaşadığı yerlərə isə yeni işğal edilmiş ərazilərdən tabe olmayan adamlar yerləşdirilirdi. Bu siyasət üç mühüm əhəmiyyətə malik idi: birincisi, bu etnik qrupların üzvlərini bütün imperiyaya dağıtmaqla onların ölçüsünü və gücünü dağıdırdı; ikincisi, bu etnik qrupların özünü təmin etmək qabiliyyətini zəiflədirdi və üçüncüsü, bu zonanın sakinlərinə uğurlu qiyam qaldırmaq cəhdini daha da çətinləşdirirdi.

Paçakuti İnka Yupankvi Virakokoça adlanan yaradıcı allaha sitayişə əsaslanan yeni dövlət dini icad etmişdi. Keşişlər təyin edilirdi, mərasimlər planlaşdırılırdı, dualar hazırlanırdı və imperiyanın hər yerində məbədlər tikilirdi. O, həmçinin belə bir inamı dərinləşdirdi ki, inkalar digər xalqlara həqiqi dini gətirmək üçün ilahi missiyaya malikdirlər. Elə inka orduları da yaradıcı allahın adı ilə əraziləri işğal edirdilər. Onun doktrinası həm də dözümlü idi. Məğlub edilən qruplar öz dini inamlarından imtina etmirdilər, onlar sadəcə inka allahına da sitayiş etməli idilər ki, özlərini və öz nökərlərini qida, torpaq və işçi qüvvəsi ilə təmin etsinlər.

1471-ci ilə yaxın Paçakuti İnka Yupankvi öz oğlu Topa İnkanın xeyrinə taxt-tacdan əl çəkdi. Taxt-tacın bu təhvil-təslimi dinc qaydada keçdi. Topa İnka Yupankvi böyük fateh olmaqla Mərkəzi Andlar regionunun əksər hissəsini inka hökmranlığına qatmışdı. İmperator kimi isə onun birinci hərbi kampaniyası Tono çayı yaxınlığındakı tropik rütubətli meşəyə müdaxiləsi oldu və bu yürüş elə də uğurlu olmadı. Rütubətli meşə və onun sərvətləri daim inkaları cəzb edirdi, lakin heç vaxt bu növ ətraf mühitdə belə hərbi əməliyyat aparılmamışdı. Bununla yanaşı kampaniya həmin zona ilə ticarət əlaqələri yaratdı və oxatanlar dəstəsi qayıdanda bir neçə bürünc alət gətirmişdilər. İmperator Titikaka hövzəsində qiyam qalxdığına görə tezliklə kampaniyadan əl çəkdi. Qiyama Kolla və Lupaka başçılıq edirdi və bu qiyam Topa İnka Yupankvinin cəngəlliklərin içərisinə ekspedisiya vaxtı öldürülməsi şayiəsindən qızışmışdı. İnka onlara hücum etdikcə Kollanın dağ başındakı fortları bir-birinin ardınca yıxıldı. Kollanı təslim etdikdən sonra inkalar Lupakaya qarşı hərəkət etdilər. Onlar Titikaka hövzəsinin cənub-qərb bucağına çəkilmişdilər, burada onlar özlərinə Pakasaların şəxsində müttəfiq tapmışdılar. İnka ordusu yenə qələbə çaldı və qiyam sona çatdı.

Topa İnka cənub tərəfə dönüb Boliviyanın bütün dağlıqlarını, Şimali Çilini və Argentinanın şimal-qərbinin əksər hissəsini işğal etdi. O, İnka imperiyasının sərhədini Mərkəzi Çilidəki Mauli çayında qoydu. Lakin Perunun cənub sahili hələ İnka dövlətinə qatılmamışdı. Bu zona ancaq inkalar tərəfindən üç tərəfdən mühasirəyə alınmışdı və 1476-cı ilə yaxın Topa İnka Yupankvi bu regiona qarşı müharibə başladı. Hər bir vadiyə ayrıca hücum edilirdi. Vadilərin çoxu dinc yolla tabe edilirdi və ya çox az müqavimət göstərirdi. Yalnız Kafiet vadisinin sakinləri qızğın vuruşurdular və inkaların onları təslim etməyinə üç il vaxt lazım gəldi. Topa İnka öz hökmranlığının qalan dövrü ərzində imperiyanın inzibatçılığı məsələləri ilə məşğul oldu. O, vaxtının çoxunu öz ərazilərinə səfər etməkdə keçirirdi, adamlara torpaqlar verirdi və yerli inzibatçılığı qururdu. O, kişi cinsindən olan yaşlı adamların 100, 500, 1000, 5000 və 10000 nəfərlik birliklərdə sinifləşməsi sistemini tətbiq etdi, bununla o, işçi qüvvəsi təyinatı və hərbi çağırış üçün əsas yaradırdı. O, həmçinin hər bir əyalətdə qadınların ("seçilmiş qadınların") dövlət sitayiş yerlərində məbəd xidmətçisi qadınları kimi qulluq etməsi və ya onların döyüşdə fərqlənmiş əsgərlərə ərə getməsi kimi bac sistemi yaratdı.

1493-cü ildə Topa İnka Yupankvinin gözlənilməyən ölümü taxt-taca varislik uğrunda mübarizəni yoxa çıxardı. Açıq bilinirdi ki, Topa İnka əvvəlcədən varis kimi Huayna Kapaka rəğbət bəsləyirdi. Bu onun baş arvadından və bacısından olan kiçik oğlu idi. Öz ölümündən bir az əvvəl o, öz qərarını dəyişib varisi kimi Kapak Huarini adlandırmışdı. Bu onun başqa arvadından olan oğlu idi. Lakin Kapak Huari heç vaxt imperator olmadı. Onun anasının və qohumlarının iddiası Huayna Kapakın tərəfdarları tərəfindən heçə endirildi. Sonuncuya isə onun dayısı çox kömək etdi. Ona regent də həmin qrupdan seçilməklə, Huayna Kapak özü idarə etməyə qadir olana qədər ona idarəçiliyin yollarını öyrətməli idi. Lakin bu regent taxt-tacı öz oğluna verməyə cəhd etdi və gənc imperatorun qüdrətli dayısı tərəfindən öldürüldü. Huayna Kapakın hökmranlığı əsasən sülhsevər siyasətə əsaslanırdı, o, vaxtının çoxunu səyahətlərə həsr edirdi, imperiyanın inzibatçılığı ilə məşğul olurdu və kiçik miqyaslı qiyamları yatızdırırdı. O, Perunun şimali-şərq hissəsindəki dağlıq ölkəsini işğal etməklə imperiyanın ərazisini genişləndirdi. Ekvadorun şimalının işğalı isə onun ömrünün son illərinə təsadüf etdi və bu hadisə ispanların gəlib buraya çıxmasından bir az əvvəl baş verdi. Ekvadorun şimalında vuruşanda ona xəbər çatdı ki, Boliviya sərhədində çiriquanolar onun ərazisinə müdaxilə etmişlər. O, öz generalını onları həmin torpaqlardan qovmağa və sərhəd boyu istehkamlar tikməyə göndərdi. O, Ekvadorda öz ekspedisiyasını davam etdirəndə Kuskoda epidemiya yayılmasını eşitdi. O, tezliklə Kitonu tərk etdi və gəlib paytaxta çatdı. Taun tezliklə Boliviyadan yayılmışdı, məhvedici xarakter daşıyırdı. Bu Avropa xəstəliyi olmaqla La-Platadakı ispan sakinlərindən Cənubi Amerikaya gəlib çıxmışdı. Huayna

Kapak da həmin xəstəliyə sirayətləndi və öz varisini təyin etmədən 1525-ci ildə öldü. Bununla da taxt-tac uğrunda yeni mübarizə başlandı.

Huayna Kapakın atası öz doğma bacısına evlənmək qaydasını qoymuşdu ki, çar qan xəttinin təmizliyini qoruyub saxlasın. Bundan daha vacibi isə varislik uğrundakı münaqişənin qarşısını almaq idi. Bu adətə uyğun olaraq bacılardan biri imperatorun baş arvadı olurdu və onun oğullarından biri növbəti imperatora çevrilirdi. Huayna Kapakın varisi taxt-taca çıxanda bu sistemə əməl olunmadı. Çünki onun baş arvadı övladsız idi. Belə bir şəraitdə imperator öz oğullarından birini varis təyin edə bilərdi. Bu vaxt taxt-taca bir neçə namizəd var idi. Huayna Kapak yaxınlaşan ölümündən hali olduğundan keşişlərdən xahiş etdi ki, ilahi mərasim keçirsinlər ki, onun varis adlandırdığı Ninan Kuyuçinin namizəd olub-olmamasını həll etsin. Əlamətlər onun xeyrinə olmasa, ona növbəti namizəd kimi Huaskar yoxlanmalı idi. İmperator mərasim icra edilənə qədər vəfat etdi. Bu vaxt keşiş qeyd etdi ki, Ninan Kuyuçi növbəti hökmdar olacaqdır, lakin o, elə atasının xəstəliyinə tutuldu və az sonra öldü. Keşiş bu vaxt yeni imperator kimi Huaskarı adlandırdı, bu əslində ədalətli deyildi. Keşiş sadəcə tələb olunan mərasimi keçirmədən köhnə hökmdarın arzusuna uyğun olaraq hərəkət etmişdi. Taxt-taca olan digər namizədlər belə vəziyyətə görə heç də sevinmirdilər.

Keşiş Huayna Kapakın cəsədini Kuskoya geri qaytardı. Huaskar hiyləgərliyindən güman edirdi ki, keşiş rəqibi taxt-taca gətirmək üçün şimala gedib, ona görə də böyük ordu ilə bura gəldi və keşişi öldürdü. Bu hadisə keşişin saraydakı tərəfdarları arasında Huaskara qarşı düşmənçilik yaratdı. Huaskar rəqibi kimi Kitoda qalan Atahualpadan qorxurdu. Sonuncu Huaskarın zabitini öldürdü və bu iki rəqib arasında uçurum yaratmaqla vətəndaş müharibəsi ilə nəticələndi.

Huaskar imperiyanın cənub hissəsinə, Atahualpa isə Ekvadora və Perunun şimal hissələrinə nəzarət edirdi. Atahualpa müharibənin birinci döyüşünü uddu. Bu vuruş Ekvadorda baş vermişdi. Lakin o, irəliyə doğru hərəkət edəndə Huaskarın qələbəsi nəticəsində ordusunu itirdi və özü də əsir götürüldü. Lakin sonralar o, qaçdı, öz qardaşının ordusunu qaçmağa məcbur etdi, sonra Kanari torpaqlarını viranə qoydu. Atahualpanın orduları cənuba hərəkət edib bir neçə həlledici qələbə çaldı. Onlar cənuba tərəf irəliləyəndə müdaxiləçilərdən Kuskonu qorumaq üçün Huaskar yeni ordu yaratdı. Bu qüvvələr məğlub edildi və 1532-ci ildə o, özü Kuskodan bir neçə mil aralıda əsir götürüldü. Generallar onun ailəsini bütünlüklə qırdılar və onları paytaxtdan gedən baş yolun ətrafındakı dirəklərə sarıdılar. Onlar həmçinin Topa İnka Yupankvinin ətrafında olan adamlardan bir neçəsini öldürdülər, çünki onlar vətəndaş müharibəsi vaxtı Huaskarı dəstəkləmişdilər. Atahualpa göstəriş verdi ki, Huaskarı şimala gətirsinlər, o, tacı qəbul etməmişdən əvvəl onu alçaltmaq istəyirdi.

1532-ci ildə ispanlar Perunun şimal sahilində ilk dəfə bu torpaqlara qədəm basdılar. Onlar Atahualpa ilə görüşmək istəyirdilər ki, onu oğurlasınlar. Onlar

İnka vətəndaş müharibəsinin təbiətini anlayırdılar və hər iki fraksiyanın elçiləri ilə iş aparırdılar. Onların hərəkəti imperatoru düşündürməli idi. Bir tərəfdən Pisarro və onun adamları ona loyal olan liderləri devirir və edam edirdi, digər tərəfdən isə ona xəbərlər göndərirdilər ki, onu Tayantinsuyunun qanuni hökmdarı kimi tanıyırlar. O, özü də onlara xəbər göndərdi ki, atasının torpaqlarında bu vaxt o, yeganə hökmdardır və onlara xatırlatdı ki, ispanlar öz ərzaq ehtiyatlarından çox uzaqdırlar və onun ordularının nəzarət etdiyi torpaqlarda dayanmışlar. İspanlar isə onun hədəsinə cavab verdilər ki, onun idarəçiliyinə müxalif olan istənilən qrupa qarşı ona kömək etməyə gələcəklər. Atahualpa ispanların ona müttəfiq olmasını istəyirdi və hətta 1532-ci ilin noyabrında oğurlandıqdan sonra da bu səhv fikirdə qalırdı.

İspanlar Atahualpanı dustaq saxlayanda ona öz məsləhətçiləri ilə görüşməyə imkan verdilər və o, göstəriş verdi ki, onu qurtarmaq üçün tələb edilən girov məbləğini ödəsinlər. Lakin o, ispanlar üçün çox təhlükəli olduğundan Pisarro onu azad etmədi. O, məhbəsdə olanda qərara aldı ki, ispanlar onun qardaşının öldürülməsi ideyasına laqeyd yanaşacaqlar və Huaskarın öldürülməsi göstərişini verdi. İspanlar əlbəttə hakimiyyətə bütün iddia edənləri uzaqlaşdırmaq istəyirdilər, lakin sonralar bu hərəkəti inka hökmdarının edam olunmasına haqq qazandırmaq üçün istifadə edildi. Belə nəticəyə gəlirik ki, Atahualpanın ölümü onların mövqeyini zəiflətdiyinə görə səhv addım olmuşdur, onlar Topa Hualpanın taclanmasını bəyəndilər. Onların gümanına görə bu namizəd inkanın hər iki fraksiyası üçün qəbul edilən idi, lakin ispanlar yanılmışdılar. Topa Hualpa Atahualpanı dəstəkləmirdi və faktiki olaraq sonuncu sağ olan vaxt daim gizlənirdi. Onu Huaskar dəstəsi dəstəkləyirdi, Atahualpanın ardıcılları isə qanuni varisin Limada olan olmuş hökmdarın oğlu olduğuna inandıqlarından ona müxalif idilər. Bu hərəkətləri ilə ispanlar özlərini qəflətən Huaskar fraksiyası ilə yaxın ittifaqda gördülər və bunu hər iki inka qrupu eyni qaydada müşahidə edirdi.

Topa Hualpa bir neçə ayın içərisində öldü, yəqin ki, onu Huaskarın ardıcılı kimi zəhərləmişdilər. Bu nöqteyi-nəzərdən ispanlar Huaskar tərəfdarları ilə öz ittifaqını yenidən möhkəmləndirdilər və onun qardaşı Manko İnkanı taxt-taca oturtdular. Həmçinin Atahualpanın ordusunun qalıqlarını pərən-pərən etməkdə ona kömək etdilər. Perunun real olaraq ispanlar tərəfindən işğalı sonrakı iki il ərzində baş verdi. Bu vaxt onlar Manko İnkanın sahil boyu və şimalda nəzarət qurmasının qarşısını aldılar. Bu ərazilərin çoxu hələ də Atahualpaya loyal idi və ya ümumən nəzarətdə deyildi. 1535-ci ildən inka hökmdarı belə qərara gəldi ki, Atahualpanın ardıcıllarının qalıqlarına nisbətən ispanlar daha təhlükəlidir. Lakin artıq gec idi. Onun ispan sakinlərinə qarşı hücumları geri oturdulurdu və özü uzaq dağlıq ərazilərə qovuldu. Vitkos ətrafında o, müstəqil İnka dövləti qurdu və bu dövlət 1572-ci ilə qədər ömür sürdü.

# TARİXİ CƏDVƏLLƏR

| | *Siyasət* | *Fəlsəfə və elm* | *İqtisadiyyat* | *Din* | *İncəsənət və ədəbiyyat* |
|---|---|---|---|---|---|
| 600 | Bizans imperatoru Herakl, 610-641<br>Məhəmməd zəfərlə Məkkəyə girdi, 630<br>Suriya, Persiya və Misirdə müsəlman işğalları, 636-651 | | Qərbdə şəhərlərin və ticarətin tənəzzülü, 500-700 | Məhəmməd, 570-632<br>Papa I Qriqori, 590-604<br>Məhəmmədin hicrəti, 622<br>İslamın şiələrə və sünnülərə parçalanması, 656 | Bizans kilsəsi, Müqəddəs Sofiya, 532-537 |
| 700 | İspaniyanın müsəlman işğalı, 711<br>Konstantinopolda müsəlman hücumu dəf edilir, 717 | | İslam kommersiyası və industriyasının yüksəlməsi, 700-1300<br>Qərbdə üstün aqrar iqtisadiyyatı, 700-1050 | Müqəddəs Bonifatsinin Almaniyada missioner işi, 715-754 | Möhtərəm Bed, 735-də ölüb<br>Beovulf, 750 |
| | Karl Martel Puatyedə müsəlmanları məğlub edir, 732<br>İslamda Abbasi sülaləsi, 750-1258<br>Gödək Pipin frankların kralı elan edilir, 751<br>Böyük Karl (Şarleman), 768-814 | | | | İrlandiyanın "Keltlər kitabı", 750 |
| 800 | Böyük Karl imperator kimi taclanır, 800<br>Karolinq imperiyası parçalanır, 850-911 | | Bizans kommersiya və industriyasının yüksəlməsi, 800-1000 | Bizans imperiyasında ikona üstündə mübarizə, 726-843 | Karolinq Renessansı, 800-850 |
| 900 | Böyük Alfred İngiltərəli, 880-911<br>Avropada vikinq reydlərinin yüksək nöqtəsi, 880-911 | Əl-Fərabi, 950-də ölüb | | Rusiyanın Bizans dininə keçməsi, 988 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Böyük Otton Almaniyalı, 936-973<br>Rusiyada Kiyev dövlətinin yaranması, 950 | | | | |
| 1000 | İngiltərənin norman işğalı, 1066<br><br>Səlcuq türkləri Manzikertdə bizanslıları məğlub edir, 1071<br><br>IV Henrinin Kanossada alçaldılması, 1077 | Avitsenna, 1037-də ölüb<br><br>Pyer Abelyar, 1079-1142 | Bizans azad kəndlilərinin məhv edilməsi, 1025-1100<br>Kənd təsərrüfatının inkişafı,<br>Qərbdə şəhərlərin və ticarətin dirçəlməsi, 1050-1300 | Papalıq islahatının başlanması, 1046<br>Roman və Şərq ortodoks kilsələri arasında sxizm, 1054<br><br>Papa VII Qriqori, 1073-1085<br><br>Müqəddəs Bernar, 1090-1153<br>Birinci səlib yürüşü, 1095-1099 | Arxitektura və incəsənətdə roman üslubu, 1000-1200<br>"Roland nəğməsi", 1095 |
| 1100 | I Henri İngiltərəli, 1100-1135<br><br>VI Lui Fransalı, 1108-1137<br><br>I Fridrix (Barbarossa) Almaniyalı, 1152-1190<br>II Henri İngiltərəli, 1154-1189<br><br>Filipp Avqust Fransalı, 1180-1223 | Qərbdə universitetlərin açılması, 1200-1300<br>Aristotelin əsərlərinin latın dilinə tərcüməsi, 1140-1260<br><br>Pyer Lombardın "Mühakimələri", 1155<br>Nizami Gəncəvi, 1141-1209<br><br>Robert Qrosso Test, 1168-1253<br><br>Külək dəyirmanının ixtira edilməsi, 1180<br>Averroes, 1198-də ölüb | | Vorms konkordatı mübarizəyə son qoyur, 1122<br>Səlibçilər Yerusəlimi Səlahəddinə təhvil verirlər, 1187<br>Papa III İnnokent, 1198-1216 | Trubadur poeziyası, 1100-1220<br><br>Ömər Xəyyamın "Rübailəri", 1120<br><br>Arxitektura və incəsənətdə qotik üslubu, 1150-1500<br><br>Parisdə polifoniyanın inkişafı, 1170 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1200 | Səlibçilər Konstantinopolu tutdular (Dördüncü səlib yürüşü), 1204<br>Las Navas de Tolosada ispanların müsəlmanlar üzərində qələbəsi, 1212<br>II Fridrix Almaniyalı və Siciliyalı, 1212-1250<br>Magna Carta, 1215<br>IX Lui (Müqəddəs Lui) Fransalı, 1226-1270 | Maymonid, 1204-də ölüb<br>Rocer Bekon, 1214-1294<br>Müqəddəs Foma Akvinas, 1225-1274<br>Sxolastitsizmin yüksəlməsi, 1250-1277<br>Uilyam Okhamlı, 1285-1349 | | Albigen səlibi, 1208-1213<br>Frantsisk ordeninin yaranması, 1210<br>IV Lateran şurası, 1215<br>Dominikan Ordeninin yaranması, 1216<br>Müqəddəs torpaqda axırıncı xristian məntəqəsinin yıxılması, 1291 | Qottfrid fon Strasburq, 1210<br>Pers şairi Sədi, 1250<br>“Qızıl gül” romanı, 1270 |
| | I Eduard İngiltərəli, 1272-1307 | Mexaniki saatın ixtirası, 1290 | | Papa VIII Bonifatsi, 1294-1303 | |
| 1300 | IV Filipp (Haqq) Fransalı, 1285-1314<br>Yüzillik müharibə, 1337-1453<br>Almaniyada siyasi xaos, 1350-1450 | Usta Ekhart, fəaliyyəti 1300-1327<br>Nominalizmin yüksəlməsi, 1320-1500 | Avropa iqtisadi depressiyası, 1300-1450<br>Qərbi Avropada daşqınlar, 1315<br>Qara Ölüm, 1347-1350<br>İngilis kəndli qiyamı, 1381<br>Mediçi bankı, 1397-1494 | Papalığın Babil əsirliyi, 1305-1378<br>Con Uiklif, 1330-1384<br>Papalığın Böyük sxizmi, 1378-1417 | Cottonun rəsmləri, 1305-1337<br>Dantenin “İlahi komediyası”, 1310<br>Bokkaççonun “Dekameronu”, 1350<br>Pers şairi Hafiz, 1370<br>Çoserin “Kantenberi əhvalatları”, 1380 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1400 | Jann D`Arkın meydana gəlməsi, 1429-1431<br>Fransada kral hakimiyyətinin bərpası, 1443-1513<br>Almaniyada hökmdarların qalxması, 1450-1500<br>Osmanlı türkləri tərəfindən Konstantinopolun işğalı, 1453 | Hərəkətedən çap maşını ilə çap etmə, 1450<br>Ağır artilleriya türklərə Konstantinolopu işğal etməyə, fransızlara isə Yüzillik müharibəyə son qoymağa kömək edir, 1453 | | Yan Hus Bohemiyada moizə oxuyur, 1408-1415<br>Konstansa şurası, 1414-1417<br>Husçular qiyamı, 1420-1434<br>“Xristin təqlidi”, 1427 | Yan van Eykin rəsmləri, 1400-1411 |
| | İngiltərədə Qızıl Güllərin müharibələri, 1455-1485<br>Şimali İtaliya dövlətləri arasında sülh, 1454-1485<br>Ferdinand və İzabellanın evlənməsi, 1469<br>III İvan Rusiya imperiyası üçün dayaqları hazırlayır, 1462-1505<br>İngiltərədə güclü Tüdor sülaləsi, 1485-1603 | | | Bazel şurası, konsiliarizmin məğlubiyyəti, 1431-1449 | |

## İstifadə olunan ədəbiyyat

*1. Hussey, J. M. , The Byzantine World, 1967.*
*2. Holt, P. M. , Lambton, A. K. S. and Lewis, Bernard. The Cambridge History of Islam, 1971.*
*3. Arnold, Thomas W. , The Caliphate, 1924.*
*4. Trevelyan, George Macaulay. History of England, 1966.*
*5. Rowe, John Howland. Inca culture of the Time of the Spanish Conquest, 1946.*
*6. Jenkins, B. J. H. , Byzantium: The Imperial Centuries, A. D., 610-1071., 1966.*
*7. Bingham, Woodbridge. The Founding of the T'ang Dynasty: The Fall of Sun and Rise of T'ang, 1970.*
*8. Watt, W. Montgomery. A History of Islamic Spain, 1965.*
*9. Runeiman, S. A History of the Crusaders. 3 vol., 1951-1954.*
*10. Ford, Franklin. Robe and Sword, 1953.*
*11. Duby Geordes, Mandrou Robert. A History of French Civilization, 1964.*
*12. Barbacloough, Geoffrey. The Origins of Modern Germany.*
*13. Thompson, James Westfall. Feudal Germany. 2 vol., 1962.*
*14. Falco, Giorgio. The Holy Roman Republic, 1964.*
*15. Lopez, Roberto S., The Birth of Europe, 1967.*
*16. Lavisse, E. (ed.), The Hundred Years War, 1951.*
*17. Habibullah, A. B. M., The Foundation Muslim Rule in India, 1961.*
*18. Sukes, Persy. A History of Persia. 2 vol., 1969.*
*19. Murdoch, James. A History of Japan. 3 vol., 1964.*
*20. Hatada, Takashi. A History of Korea, 1969.*
*21. Deansly, Margaret. A History of Early Medieval Europe, 476 to 911, 1956.*
*22. Bullough, Donald. The Age of Churlemagne, 1965.*
*23. Tax, Sol (ed.). Heritage of Conquest. The Ethnology of Middle America, 1968.*
*24. Geyl, P., History of the Low Countries: Episodes and Problems, 1964.*
*25. Paetow, L. J., A Guide to the study of Medieval History, 1964.*
*26. Wittek, Paul. The Rise of the Ottoman Empire, 1965.*
*27. The Cambridge History of Iran. vol. 5. The Seljuq and Mongol Periods, 1968.*
*28. Lea, Henry C., A History of the Inquisition of Spain, 4 vol., 1906-1907.*
*29. Magnisson,Magnus . Viking hammer of the North, 1976.*
*30. Gunter, J. Inside Asia, 1939.*
*31. History of civilizations of Central Asia, 6 vol., 1996, 1998, 2000.*
*32. Struan, Reid. The silk and spice routes: Cultures and civilizations, 1994.*
*33. History of the Ottoman State. Society and Civilization. vol. 1., 2001.*
*34. Davis, Bob. Faces of Japan, 1978.*
*35. Cambridge Encyclopedia, 1997.*
*36. Churchill, Winston Leonard Spencer. History of the English speaking Peoples, 4 vol., 1962.*
*37. Buckle, Henry Thomas. History of Civilization in England. "The International Library of famous Literature" 20 vol., vol. 20., 1900.*
*38. Laistner, M. L. W., Thought and letters in Western Europe. Internet.*

39. *Western Civilizations, 14th ed. USA*
40. *Magnt, Vita Karoli. The Life of Charlamagne, 1960*
41. *Carlyle, Alexander J., A history of Medieval Political Theory in the West. 6 vol., 1903-1936.*
42. *Martin, Henry Desmond, The Rise of Gengis Khan and His Conquest of North China, 1971.*
43. *Latonrette, Kenneth S., A History of Christianity, 1953.*
44. *Troeltsch, Ernest. Christian Thought: Its History and Applications, 1957.*
45. *Runciman, S., A History of the Crusaders. 3 vol., 1951-1954.*
46. *Starr, Chester G., A history of England, 1981.*
47. *Bullouch, D. A., The age of Charlamagne, 1960.*
48. *Льоренте, Х. А. «История испанской инквизиции» в 2-х томах, 1985.*
49. *Магидович, И. П., Магидович В. И., «История открытия и исследования Европы», 1970.*
50. *«История средних веков» под редакцией В. Ф. Семенова, 1965.*
51. *Ключевский, Василий Осипович «Сочинения» в 9-и томах, 1987.*
52. *Макьявелли, Никколло. «История Флоренции», 1987.*
53. *Поло, Марко. «Книга», 1997.*
54. *Валянский С., Калюжный Д. «Другая история средневековья», 2001.*
55. *«История Европы с древнейших времен до наших дней» том 3-й, 1993.*
56. *Грановский Т. Н., «Лекции по истории средневековья», 1966.*
57. *«Лекции Т. Н. Грановского по истории позднего средневековья», 1971.*
58. *Грановский, Т. Н., «Собрание сочинений», 1905.*
59. *J.M. Biddl. A History of the Middle Ages, 300-1500., 2008.*
60. *C.W. Holister and J. Bennett, Medieval Europe: A Short History, 9th ed., 2001.*
61. *P. Riche, The Carolingions: A Family Who Forged Europe, 1993.*
62. *A. Barbero (trans. A. Cameron), Charlemagne: Father of a Continent. , 2004.*
63. *M. Arnold, The Vikings: Culture and Conquest. , 2006.*
64. *B. Jenkins, Byzantium: The Imperial Centuries, 610-1071. , 1969.*
65. *H. Kennedy, The Prophet and the Age of the Caliphates: The Islamic Near East from the Sixth to the Eleventh Century, 1986.*
66. *S. Reynolds, Kingdoms and Communities in Western Europe, 900-1300. , 1984.*
67. *H. Pirenne, Medieval Cities, 1969.*
68. *M. Haren, Medieval thought, 1992.*
69. *B. Hamilton, Religion in the Medieval West, 2003.*
70. *T. Asbridge, The First Crusade: A New History, 2004.*
71. *A. Curry, The Hundred Years' War, 2004.*
72. *M. L. King, The Renaissance in Europe, 2005*
73. *M. P. Gilmor, The World of Humanism, 1453-1517. , 1962.*
74. *C. Mulgan, The Renaissance Monarchies, 1469-1558. , 1998.*
75. *C. Imber, The Ottoman Empire, 1300-1650; The Structure of Power, 2004.*
76. *E. Cameron, The European Reformation, 2003.*
77. *L. Roper, Women and Morals in Reformation Augsburg, 1997.*
78. *B. J. Knecht, The French Wars of Religion, 1559-1598. , 1996.*

# KİTABIN İÇİNDƏKİLƏR

**I HİSSƏ. GERMAN MÜDAXİLƏLƏRİ VƏ YENİ DÖVLƏTLƏR. GERMAN İŞĞALLARI....................3**

**FƏSİL 1**
**GERMANLAR VƏ DİGƏR BARBARLARIN ROMALILARLA MÜQAYİSƏSİ ....................3**

**FƏSİL 2**
**ORTA ƏSRLƏRƏ QƏDƏM QOYAN QƏRBİ AVROPA....................17**
Qalliya....................19
Almaniya....................25
İtaliya ....................26
İspaniya....................27
Britaniya....................34

**FƏSİL 3**
**AVROPANIN BÖYÜK KARLDAN SƏLİB YÜRÜŞLƏRİNƏ QƏDƏR OLAN DÖVRDƏKİ (768-1096-CI İLLƏR) TARİXİ ....................40**
Feodalizm epoxası ....................55

**II HİSSƏ. QƏRBİ AVROPADA YENİ İNTEGRASİYA DÖVRÜ .....58**
**FƏSİL 1**
**MÜQƏDDƏS ROMA İMPERİYASININ YARANMASI ....................58**
Böyük Ottonun dövrü ....................64

**FƏSİL 2**
**FRANSADA KAPETİNQLƏR SÜLALƏSİNİN MEYDANA GƏLMƏSİ....................67**

**FƏSİL 3 ....................71**
**İNGİLTƏRƏ VİKİNQLƏR VƏ NORMANLAR DÖVRÜNDƏ.........71**

III HİSSƏ. SƏLİB YÜRÜŞLƏRİ ........................................................85
FƏSİL 1
ORTA ƏSRLƏRİN TƏBİƏTİ ...............................................................85

FƏSİL 2
SƏLİB YÜRÜŞLƏRİ EPOXASI ...........................................................89

FƏSİL 3
BİZANS İMPERİYASI ........................................................................108

IV HİSSƏ. İSLAM DİNİNİN YAYILMASI ........................................116
FƏSİL 6
İSLAMIN MEYDANA GƏLMƏSİ VƏ DÜNYA DİNİNƏ
ÇEVRİLMƏSİ ......................................................................................116

V HİSSƏ. FEODALİZMİN MÖVCUDLUĞU ŞƏRTLƏRİ .............146
FƏSİL 1
FEODALİZMİN İQTİSADİ VƏ SOSİAL XÜSUSİYYƏTLƏRİ......146

FƏSİL 2
TİCARƏTİN İNKİŞAFI VƏ ŞƏHƏR İNQİLABI.............................151

FƏSİL 3
AVROPA YÜKSƏK ORTA ƏSRLƏRDƏ...........................................157

FƏSİL 4
İSPANİYA ORTA ƏSRLƏRDƏ..........................................................170

FƏSİL 5
ORTA ƏSRLƏRDƏ FİKİR, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT .......175

FƏSİL 6
ALMANİYA VƏ ŞƏRQİ AVROPA DÖVLƏTLƏRİ.
RENESSANSIN MEYDANA GƏLMƏSİ ............................................182

FƏSİL 7
YENİ COĞRAFİ KƏŞFLƏR ...............................................................195

FƏSİL 8
REFORMATSİYANIN BAŞLANĞICI.
İTALİYANI ƏLƏ KEÇİRMƏK CƏHDLƏRİ....................................199

FƏSİL 9
İSPANİYA-FRANSA MÜNAQİŞƏLƏRİ............................................216

FƏSİL 10
ALMANİYANIN DAXİLİ SARSINTILARI .......................................225

FƏSİL 11
FRANSADA REFORMATSİYA HƏRƏKATI ...................................231

FƏSİL 12
İNGİLTƏRƏDƏ CƏRƏYAN EDƏN HADİSƏLƏR .........................233

FƏSİL 13
RUSİYA DÖVLƏTİNİN MEYDANA GƏLMƏSİ .............................246

VI HİSSƏ. HUNLAR VƏ TÜRKLƏR .................................................250
FƏSİL 1
HUNLARIN VƏ TÜRKLƏRİN TARİX SƏHNƏSİNƏ GƏLİŞİ......250

FƏSİL 2
OSMANLI İMPERİYASININ YARANMASI
VƏ İŞĞAL SİYASƏTİ.........................................................................256

VII HİSSƏ. HİNDİSTAN ORTA ƏSRLƏRDƏ ..................................273
FƏSİL 1
HUNLAR VƏ ƏRƏBƏR HİNDİSTANDA..........................................273

FƏSİL 2
HİND-ÇİNDƏKİ HİND KOLONİYALARI ........................................277

FƏSİL 3
ŞİMALİ HİNDİSTANIN ERKƏN MÜSƏLMAN DÖVRÜ ...............280

FƏSİL 4
HİNDİSTAN SULTANLIĞININ TƏNƏZZÜLÜ DÖVRÜNDƏ .......286

**VIII HİSSƏ. ÇİN ORTA ƏSRLƏRDƏ......295**
**FƏSİL 1**
**TAN SÜLALƏSİ......295**

**FƏSİL 2**
**BEŞ SÜLALƏ VƏ ON ÇARLIQ......303**

**FƏSİL 3**
**SUNQ SÜLALƏSİ......306**

**FƏSİL 4**
**ÇİNİN MONQOLLAR TƏRƏFİNDƏN İŞĞALI,**
**YUAN SÜLALƏSİ......317**

**IX HİSSƏ. MONQOL İMPERİYASININ YARANMASI**
**VƏ MONQOL İŞĞALLARI......327**
**FƏSİL 1**
**ÇİNGİZ XAN VƏ ONUN NƏHƏNG İMPERİYASI......327**

**FƏSİL 2**
**TEYMUR VƏ ONUN İŞĞALLARI......335**

**X HİSSƏ. QƏDİM KOREYA DÖVLƏTLƏRİNİN İNKİŞAFI......339**
**FƏSİL 1**
**YARIMADADAKI GƏDİM DÖVLƏTLƏRİN**
**FORMALAŞMASI......339**

**XI HİSSƏ. YAPONİYA:......343**
**FƏSİL 1**
**YAPONİYA YAMATO DÖVLƏTİNDƏN SYOQUNATA QƏDƏR**
**OLAN DÖVR......343**

**FƏSİL 2**
**YAPONİYA MONQOL MÜDAXİLƏSİ DÖVRÜNDƏ......355**

**XII HİSSƏ. CƏNUBİ AMERİKADA İNKA SİVİLİZASİYASI......362**
**FƏSİL 1**
**CƏNUBİ AMERİKA KONKİSTADORLARIN**
**İŞĞALINDAN ƏVVƏL......362**

# Telman ORUCOV

# ÜMUMDÜNYA TARİXİ
## (II kitab)

## ORTA ƏSRLƏR TARİXİ

*Dizayner: Rafael QASIMOV*

Çapa imzalanmışdır: 15.03.2011
Kağız formatı: 70x100 1/16
Həcmi: 24 ç.v;
Sifariş: 23; Sayı:100

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202
Tel.: 418-68-25; 433-00-43; (050) 593-27-77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com